Q.Ş.MƏMMƏDOV

AZƏRBAYCANIN TORPAQ EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN SOSİAL-İQTİSADİ VƏ EKOLOJİ ƏSASLARI

Bakı –«Elm»–2007

634.1
*M51

Elmi redaktoru: ***akademik*** **M.İ.Cəfərov**

Q.Ş.Məmmədov. Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. Bakı: «Elm», 2007. – 856 s.

ISBN 5-8066-1722-X

Azərbaycan Respublikası Prezidentinin «Torpaq ehtiyatlarından istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti» (28 noyabr 2000-ci il) və «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» (11 fevral 2004-cü il) haqqında fərmanları və 28 sentyabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı» müəllifin yeni kitabının siyasi və elmi konsepsiyasını təşkil edir.

Monoqrafiya torpaq ehtiyatlarının davamlı və dayanıqlı, səmərəli istifadəsini təmin etmək məqsədilə ölkədə həyata keçirilən aqrar islahatlarla bağlı torpaq istifadəçiliyində yeni təsərrüfatçılıq formalarının yaradılması, bu xüsusda torpaq üzərində mülkiyyət növlərinin təsbit edilməsi, habelə torpaq ehtiyatlarından istifadəyə nəzarətin artırılması, ictimai təsərrüfatçılıq dönəmində münbitliyi itirilmiş, tənəzzülə uğramış torpaqların təbii münbitliyinin bərpası, artırılması, onun mühafizəsi və s. bu kimi bir çox məsələlər tədqiq olunur.

Monoqrafiya tələbə, aspirant və mütəxəssislərlə yanaşı, geniş oxucu kütləsi üçün də nəzərdə tutulmuşdur.

152 cədvəl, 736 diaqram, 136 adda biblioqrafiya.

M $\frac{3702040000}{655(07)-2007}$

[illegible]-nun
Elmi kitabxanası

© «Elm» nəşriyyatı, 2007.

MÜNDƏRİCAT

Giriş 7

I Fəsil. Azərbaycanın torpaq örtüyünün əmələgəlməsi və formalaşmasının ekoloji şəraiti 13
1. Ekoloji şəraiti və relyefi 13
2. Ərazinin geoloji quruluşu və torpaqəmələgətirən süxurların səciyyəsi 18
3. Hidroloji xüsusiyyətləri 20
4. İqlim şəraiti 22
5. Fitosenotik örtük 29
6. Antropogen amillərin torpaq və onun münbitliyinə təsiri 34

II Fəsil. Azərbaycanın torpaq örtüyü strukturunun və tərkibinin bioekoloji xüsusiyyətləri 39
1. Dağ-çəmən torpaqları 52
2. Qonur dağ-meşə torpaqları 55
3. Qəhvəyi dağ-meşə torpaqları 57
4. Dağ qara torpaqlar 58
5. Sarı torpaqlar 60
6. Şabalıdı torpaqlar 62
7. Boz və boz-qonur torpaqlar 64
8. Çəmən torpaqlar 65
9. Şoranlı, şorakətli, bataqlı və s. torpaqlar 66

III Fəsil. Azərbaycanın vahid torpaq fondu, onun mülkiyyət növləri üzrə bölgü strukturu və müasir istifadəçilik vəziyyəti 69
1. Dövlət mülkiyyətindəki torpaqlar və torpaq istifadəçiliyinin vəziyyəti 124
2. Bələdiyyə mülkiyyətindəki torpaqlar və torpaq istifadəçiliyinin vəziyyəti 132
3. Xüsusi mülkiyyətdəki torpaqlar və torpaq istifadəçiliyinin vəziyyəti 140

IV Fəsil. İqtisadi-coğrafi bölgələrin torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları 158
I. Abşeron iqtisadi-coğrafi bölgəsi 160
Bakı şəhəri və şəhərətrafı torpaq ehtiyatları 212
II. Gəncə-Qazax iqtisadi-coğrafi bölgəsi 222
III. Şəki-Zaqatala iqtisadi-coğrafi bölgəsi 293
IV. Lənkəran iqtisadi-coğrafi bölgəsi 364
V. Quba-Xaçmaz iqtisadi-coğrafi bölgəsi 434
VI. Aran iqtisadi-coğrafi bölgəsi 500
VII. Yuxarı Qarabağ iqtisadi-coğrafi bölgəsi 608
VIII. Dağlıq Şirvan iqtisadi-coğrafi bölgəsi 673
IX. Kəlbəcər-Laçın iqtisadi-coğrafi bölgəsi 733
X. Naxçıvan iqtisadi-coğrafi bölgəsi 765

Nəticə 829

Ədəbiyyat 842

Xülasə ***(rus dilində)*** 851

Xülasə ***(ingilis dilində)*** 853

GİRİŞ

SSRİ-nin dağılması və Azərbaycan Respublikasının 1991-ci ildə yenidən dövlət müstəqilliyini əldə etməsi ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələrində köklü dəyişikliklərə səbəb oldu. Bu sırada istər müstəqilliyin möhkəmləndirilməsi, istər ölkə vətəndaşlarının işlə təmin edilməsi və eyni zamanda əhalinin ərzaqla təmin edilməsi baxımından aqrar sahədə aparılacaq islahatlar və onların nəticələri olduqca ciddi əhəmiyyət daşıyırdı.

Aqrar iqtisadiyyatın dirçəldilməsi üçün ilk növbədə torpaqlardan səmərəli istifadənin təşkili təmin edilməli, torpaq üzərində mülkiyyət növləri konkret olaraq təsbit edilməli, torpaq ehtiyatlarından istifadəyə nəzarət mexanizmi yaradılmalı, onların mühafizəsi və qorunması kimi məsələlər öz həllini tapmalı idi. Müstəqilliyimizin ilk illərində sadalanan işləri həyata keçirmək nə qədər çətin və tərəddüdlü görünsə də böyük dövlət xadimi Heydər Əliyev o dövrdə ölkə Prezidenti olaraq bütün məsuliyyəti üzərinə götürdü və torpaqların vətəndaşlara əvəzsiz paylanması ilə bağlı radikal siyasi qərar qəbul etdi. Həmin qərarın mükəmməl hüquqi baza ilə icra mexanizmi formalaşdırıldı və torpaq islahatları həyata keçirilməyə başlandı. İslahatlar nəticəsində xalqımızın aqrar tarixində ilk dəfə olaraq Azərbaycan kəndlisi torpaq mülkiyyətçisinə çevrildi. Vahid torpaq fondunun (8,6 mln. ha) təqribən 57,0%-i, yəni 4,9 mln. ha dövlət mülkiyyətinə, 23,7%-i, yəni 2,0 mln. ha bələdiyyə mülkiyyətinə,

19,3%-i, yəni 1,7 mln. ha isə xüsusi mülkiyyətə verildi.

Həyata keçirilmiş islahatlar nəticəsində 870 minə qədər ailə, yəni təqribən 3 milyon 472 min subyekt torpaq mülkiyyətçisi oldu. Bu fakt ölkənin aqrar bölməsində yeni sosial-iqtisadi münasibətlər sistemi formalaşdırmaqla bu bölmənin sıçrayışlı inkişafına səbəb oldu. Lakin bununla belə torpaq islahatı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və torpağın əsl sahibinə, yəni onu əkib-becərənlərə verilməsində irəliyə doğru atılmış mühüm addım olsa da, unutmaq olmazdı ki, mülkiyyətə verilmiş torpaqların əksər hissəsini vaxtı ilə kolxoz və sovxozların uzunmüddətli istifadəsi dövründə təbii münbitliyini itirmiş torpaqlar təşkil edirdi. Buna görə də sonrakı mərhələlərdə həmin torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsinə dair nəzəri və təcrübi biliklərin, xüsusilə də torpaq ekologiyası ilə bağlı olan məsələlərin kompleks şəkildə həyata keçirilməsi zəruri idi. Şübhəsiz ki, bütün dövrlərdə əhalinin kənd təsərrüfatı məhsullarına artan tələbatının ödənilməsi ilk növbədə bu məqsədlə istifadə olunan torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi probleminin həllindən çox asılı olmuşdur.

Qeyd etmək lazımdır ki, XX əsrin ortalarından başlayaraq bütün dünyada olduğu kimi respublikamızda da elmi-texnikanın sürətli inkişafı ilə əlaqədar yeni-yeni istehsal sahələrinin yaradılması eyni zamanda əhalinin sürətlə artması, onu əhatə edən ekoloji mühitə və ölkənin təbii resurslarına, xüsusilə torpaq ehtiyatlarının istifadəsinə təsirsiz qalmamışdır.

Həmin dövrdən başlayaraq ekstensiv formada əkin sahələrinin genişləndirilməsi və həmçinin əkinə yararlı torpaqların qeyri kənd təsərrüfatı məqsədləri üçün ayrılması, müxtəlif təbii və antropogen təsirlərdən ölkədə münbit torpaq ehtiyatlarının tədricən azalması, torpaqların təyinatı üzrə düzgün istifadə edilməməsi, onun təbii münbitliyinin bərpası, artırılması və bütövlükdə

ərazilərdə ekoloji durumun diqqətdən kənarda qalmasının acı nəticələri ilə üzləşməli olduq.

Odur ki, hazırda bir tərəfdən respublikada kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının tükənməsi, digər tərəfdən isə istifadə edilən torpaqların təbii münbitliyinin kəskin şəkildə azalması ilə bitkiçilikdə məhsuldarlığın ildən-ilə aşağı düşməsi ciddi narahatlıq doğurmaya bilməzdi. Bu xüsusda Respublikada kənd təsərrüfatı təyinatlı 4,7 milyon hektar torpaq ehtiyatlarının mövcud durumunu nəzərdən keçirdikdə aydın olur ki, bunun ancaq 2,0 mln.hektarı, yəni 43,2% yüksək və yaxşı keyfiyyətli torpaq sahələri olduğundan becərilən kənd təsərrüfatı bitkilərindən yüksək məhsul əldə etmək mümkündür. Torpaqların qalan hissəsi, yəni 1,8 mln hektarı (38,8%-i) orta keyfiyyətli olması ilə səciyyələnir ki, bu da becərilən bitkilərin az məhsuldar olacağını əvvəlcədən müəyyənləşdirməyə əsas verir. Ümumilikdə, hazırda kənd təsərrüfatında istifadə edilən torpaqların 0,8 mln. hektarı (18,0%) aşağı keyfiyyətli və şərti yararsız torpaqlara çevrildiyindən demək olar ki, əkin dövriyyəsindən kənarlaşdırılmışdır. Göründüyü kimi ictimai təsərrüfatların uzunmüddətli istifadəsində olmuş bu torpaqlarda baş verən dağıdıcı proseslərin (şorlaşma, şorakətləşmə, eroziya, bataqlaşma, çirklənmə və s.) qarşısı vaxtında alınmadığından torpaqlarda tənəzzül proseslərinin güclənməsinə səbəb olmuşdur. Odur ki, son onilliklərdə becərilən bitkilərin məhsuldarlığının ildən-ilə azalmasına təsir göstərən əsas səbəblərdən biri də torpaqlarda baş verən tənəzzül prosesinin güclənməsidir.

Bütün bunların qarşısının alınması və torpaq ehtiyatlarının mühafizə edilməsi, ondan təyinatı üzrə istifadənin təşkili məqsədilə 28 noyabr 2000-ci il tarixdə Azərbaycan Respublikası Prezidenti tərəfindən «Torpaq ehtiyatlarından istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti» haqqında fərman imzalandı.

Beləliklə ölkədə yuxarıda qeyd edilən prosesə son qoymaq üçün müfəttişlik institutu yaradıldı. Torpaq ehtiyatlarından təyinatı üzrə istifadənin təmin edilməsinin təşkilinin dövlət mexanizmi yaradıldı. Bunun nəticəsində bütün torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən torpaq sahələrindən səmərəli istifadə edilməsində, onların mühafizəsinin və keyfiyyətinin yaxşılaşdırılmasında, dövlət torpaq kadastrının, torpaqların monitorinqinin və texniki uçotunun aparılmasında, habelə yerquruluşu, axtarış və kəşfiyyat işlərinin həyata keçirilməsində, torpaq sahəsi üzərində öhdəliklər və məhdudiyyətlərin, servitutların yerinə yetirilməsində torpaq qanunvericiliyinin tələblərinə riayət edilməsində ciddi dönüş yarandı. Bundan başqa Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» ilə nəzərdə tutulmuş bir sıra tədbirlər torpaq ehtiyatlarından səmərəli istifadənin təşkili və onların mühafizəsi ilə bağlı müxtəlif işlərin həyata keçirilməsinə əsaslı zəmin yaratdı. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbilər Planı»nda ölkənin iqlim, torpaq şəraiti və üzvi əkinçiliyə əsaslanan yeni meşəl?rin salınması üzrə perespektiv sahələrin müəyyənləşdirilməsi üçün meşə quruluşu layihələndirmə işlərinin başa çatdırılması, bir sıra zavodların fəaliyyəti nəticəsində ətraf mühitə dəymiş zərərin təsirinin aradan qaldırılması, torpaq qatının mühafizəsi və bərpası, şoranlaşmaya qarşı tədbirlərin müəyyən edilməsi kimi məsələlər öz əksini tapdı. Belə vəziyyətdə torpaq üzərində baş verən hüquqi, sosial-iqtisadi və ekoloji proseslərin hazırki mərhələdə kəsb etdiyi aktuallıq bu sahədə olan dəyişiklərin və onların inkişaf

tendensiyalarının elmi əsaslarının formalaşdırılmasını şərtləndirirdi. Bu zərurətin dərk edilməsindən irəli gələn və əvəzsiz milli sərvəti olan torpaq ehtiyatlarının mövcud sosial-iqtisadi və ekoloji durumun, hazırki mərhələdə torpaq istifadəçiliyinin vəziyyətinə dair toplanmış məlumatların elmi cəhətdən təhlil edilməsi və ölkənin elmi ictimaiyyətinə təqdim edilməsi məqsədilə «Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları» adlı kitabı meydana gəlmişdir.

Azərbaycan torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji vəziyyətinin ilk dəfə olaraq kompleks şəkildə elmi tədqiqata cəlb edildiyi, bu sahədə mövcud problemlərin öyrənildiyi və onların həlli yollarının göstərildiyi fundamental əsər giriş, 4 fəsil və nəticədən ibarətdir.

«Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları» adlı əsəri müvafiq mövzuya həsr edilmiş ilk əsərdir.

Birinci fəsildə Azərbaycanın torpaq örtüyünün əmələ gəlməsi və formalaşmasının ekoloji şəraiti təhlil edilir. Burada digər başqa amillərlə yanaşı, ərazinin geoloji quruluşu və torpaqəməlegətirən suxurların səciyyəsi, fitosenotik örtük, antropogen amillərin torpaq və onun münbitliyinə təsiri öz elmi izahını tapır.

İkinci fəsildə Azərbaycanın torpaq örtüyü strukturunun və tərkibinin bioekoloji xüsusiyyətləri, dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə, sarı, şabalıdı, boz, boz-qonur, çəmən, şoranlı, şorakətli, bataqlıq və s. torpaqları öyrənilir.

Üçüncü fəsildə vahid torpaq fondu, onun mülkiyyət növləri üzrə bölgü strukturu və müasir istifadəçilik vəziyyəti təhlil edilir. Burada ilk dəfə olaraq dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə torpaqlar və onların istifadəçiliyinin vəziyyəti təhlil olunur. Burada mülkiyyətçilərin statusu, bələdiyyə və xüsusi mül-

kiyyətə aid olan torpaqlarda torpaq dövriyyəsi və onların dinamikası kimi vacib məsələlərin araşdırmaya cəlb edilməsinin elmi əsasları yaradılır.

Dördüncü fəsildə isə iqtisadi-coğrafi bölgələr üzrə torpaq ehtiyatları və torpaq istifadəçiliyinin vəziyyəti elmi əsaslar ilə izah edilir. Bu fundamental əsərdə Azərbaycanın iqtisadi, coğrafi bölgələri üzrə torpaq ehtiyatları, onların hüquqi statusu, istifadə vəziyyəti, torpaqların iqtisadi göstəriciləri, ekoloji vəziyyəti, onların kəmiyyət və keyfiyyət məsələləri kompleks şəkildə təqdim edilir.

Kitabın nəticə bölməsində torpaq istifadəçiliyində, torpağın itirilmiş təbii münbitliyinin bərpası, onun artırılması və həmçinin münbitliyinin mühafizəsi, ayrı-ayrı bölgələrdə müşahidə olunan neqativ hallara qarşı aparılacaq kompleks mübarizə tədbirlərinin həyata keçirilməsinin perspektiv nəticələrindən danışılır.

Əsər regionlarda aqrar-iqtisadi sektorun inkişafı üçün həyata keçiriləcək tədbirlərdə torpaqla bağlı məlumatların əldə edilməsi üçün olduqca əhəmiyyətli mənbədir.

Kitabda verilmiş rəqəmlərin daha anlaşılan olması üçün cədvəllərdə göstərilən rəqəmlər diaqramma şəklində verilmişdir. Kitabda həm də toxunulan mövzular üzrə müvafiq elmi ədəbiyyatlardan istifadə edilmişdir.

Respublikanın əvəzsiz milli sərvəti sayılan torpaq ehtiyatlarından davamlı və dayanıqlı səmərəli istifadəsinin həllinə yönəldilmiş bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

I Fəsil. AZƏRBAYCANIN TORPAQ ÖRTÜYÜNÜN ƏMƏLƏGƏLMƏ VƏ FORMALAŞMASININ EKOLOJİ ŞƏRAİTİ

1. Ekoloji şəraiti və relyefi

Torpaq ekologiyası probleminin elmi-nəzəri əsasları V.V.Dokuçayev (1883) tərəfindən torpaqəmələgətirən amillər və təbii zonalar haqqında təlimlə qoyulmuşdur. N.N.Sibirtsev (1903) tərəfindən işlənmiş torpaqların təsnifatı da bir çox cəhətdən ekoloji prinsiplərə əsaslanmışdır. V.V.Vernadskinin (1948) biosfer təlimində torpağın vacib ekoloji rolu və ya torpağın ekologiyası haqqında da xeyli dəyərli fikirlər vardır. Lakin «torpaq ekologiyası» termininin elmə gətirilməsi və bu anlayışın elmi-nəzəri cəhətdən əsaslandırılması Azərbaycan Milli Elmlər Akademiyasının akademiki mərhum V.V.Volobuyevin «Torpaq ekologiyası» və bu qəbildən olan digər əsərlərində (1953, 1963, 1974) inkişaf etdirilmiş nəzəri tədqiqatları ilə bağlıdır. Sonrakı dövrlərdə torpaq ekologiyası, onun mühafizəsi problemi ilə bağlı məsələlər dünyanın bir çox müvafiq sahə alimləri tərəfindən öyrənilmişdir (V.V.Ponomaryova, 1958; A.P.Travleyev, 1976; İ.P.Gerasimov, 1976; V.A.Kovda, 1981; V.Q.Rozanov, 1984, Q.V.Dobrovolski, L.A.Qrişina, 1986; Q.Ş.Məmmədov, 1998, 2000). Torpağın ekologiyası məsələlərinə Azərbaycanın təbiətşünas alimləri də böyük diqqət yetirmişlər.

Məlumdur ki, torpaq müstəqil təbiət cismi kimi torpaqəmələgətirən amillərin (relyef, iqlim, ana süxur, bitki örtüyü, insan fəaliyyəti) məcmusu, onların vəhdəti və qarşılıqlı əlaqəsi şəraitində formalaşır. Torpaqla onun formalaşdığı ekoloji şəraitin qanunauyğun nisbəti onların qarşılıqlı əlaqə və inkişafı V.R.Volobuyevə (1963) görə torpaq ekologiyasının predmetini təşkil edir. Belə bir elmi təlimin üzə çıxardığı qanunauyğunluğun öyrənilməsi torpaqəmələgətirən amillərin daha düzgün təsvirini və səciyyəsini verməyə kömək edir. V.R.Volobuyev

torpaq ekologiyasının əsas məqsədlərindən birini torpaqəmələgəlmə şəraitinin düzgün izah edilməsində və ümumi mənşə şəraiti ilə bağlı olan ayrı-ayrı torpaq qruplarının ən ümumi qanunauyğunluqlarını araşdırmaqda görürdü. Qeyd etmək lazımdır ki, hələ çox əvvəllər N.N.Sibirtsev göstərirdi ki, torpaq tipinin səciyyəsinə morfoloji, kimyəvi və fiziki xassələri, onun yayılma arealının göstəricisi ilə yanaşı, müxtəlif keyfiyyətli torpaqların formalaşmasına səbəb olmuş təbii ekoloji şərait haqqında məlumatlar da daxil edilməlidir.

S.S.Trofimov (1975) torpağın ekologiyasının bəzi məsələlərini, xüsusilə biogeosenozlarda canlı orqanizmlərin torpaq və anasüxurlarla üzvi əlaqəsinin kəmiyyət səciyyəsini almaqdan ötrü onların kompleks tədqiqini aparmışdır. Bu səpgidən olan məsələlər Q.V.Dobrovolski və E.D.Nikitinin elmi axtarışlarında da (1990) öz əksini tapmışdır.

Göründüyü kimi, torpağın ekoloji analizi bu və digər torpağın xassələrinin formalaşmasında ayrı-ayrı yerli amillərin rolunun düzgün izahı üçün də vacibdir. Yalnız bu əsasda torpaqların düzgün qiymətini vermək və təbii komplekslərdən səmərəli istifadə və kənd təsərrüfatı istehsalının bütün sahələrində az əmək və vəsait sərf etməklə yüksək məhsuldarlığa nail olmaq mümkündür. Hazırda müvafiq elmi ədəbiyyatlarda çox geniş tətbiq edilən «aqroekologiya» termini altında kənd təsərrüfatı sahələrinə (M.Qodelman, 1984) və ayrı-ayrı kənd təsərrüfatı bitkilərinə (Assi, 1959) təsir göstərən ətraf mühit amillərini və onların qarşılıqlı əlaqəsini öyrənən ekologiyanın xüsusi bölməsi başa düşülür. Əslində o, kənd təsərrüfatı bitkilərinin ekologiyasından bəhs edən elmdir (Q.Xaaze, R.Şmidt, 1977).

N.N.Preobrajenskinin (1976) qeyd etdiyi kimi, təbii landşaft və aqrolandşaftın ekoloji cəhətdən qiymətləndirlənməsinin mümkünlüyü bitki ilə ətraf mühit, xüsusən də bitki ilə torpaq arasındakı sıx üzvi əlaqəni qəbul etmək əsasında mümkündür, çünki bitki qrupları, onlara təsir göstərən ekoloji amillərin daha mükəmməl göstəricisidir. Qeyd edək ki,

nəzərdən keçirilən mövqedən Azərbaycan torpaqlarının aqroekoloji xüsusiyyətlərinin öyrənilməsi ərazinin kənd təsərrüfatı baxımından yüksək dərəcədə mənimsənilməsi və kənd təsərrüfatında becərilən bitkilərin müxtəlifliyi ilə əlaqədar xüsusi əhəmiyyət kəsb edir. Torpaqəmələgəlmə prosesinə və torpağın ekologiyasına, eynilə bitki zonalarının (təbii və mədəni) inkişafına, tərkibinə, quruluşuna və məhsuldarlığına təsir göstərən respublika ərazisinin makroekoloji xüsusiyyətlərinin (relyefi, iqlimi, hidroloji və digər amillər) yuxarıda qeyd edilən mövqedən təhlilinə ehtiyac vardır. Bu bölmədə onların bəzi əsas komponentləri üzərində bir qədər ətraflı dayanacağıq.

Akademik B.Ə.Budaqov (1989) Azərbaycan ərazisinin təbii komplekslərinin xüsusiyyətinə, o cümlədən mikrorelyef göstəricilərinə görə Azərbaycan ərazisini beş vilayətə (Böyük Qafqaz, Kiçik Qafqaz. Lənkəran, Kür dağarası çökəkliyi, Orta Araz) və 19 təbii coğrafi rayona bölür. Lakin biz öz tədqiqatlarımızda sonuncu iki vilayəti ənənəvi qəbul edilmiş şəkildə, yəni «Kür-Araz vilayəti» adı altında vermişik. Hər bir vilayət torpaqların ekoloji mühitinə təsir göstərə biləcək özünəməxsus mikrorelyef xüsusiyyətlərinə malikdir.

1.1. Böyük Qafqaz vilayəti - Alp relyef formalarının və 3800-3900 m yüksəklikdə (Bazardüzü, Şahdağ və s.) kiçik sahələrdə buzlaq örtüyünün olması ilə səciyyələnir. Baş Qafqaz silsiləsi Tinov Rasso (3378 m) ilə Bazardüzü zirvələri arasında 2600 m-dən yuxarı qalxmadığı bir halda Bazardüzü, Tufan dağ zirvələri arasında öz maksimum yüksəkliyinə çatır. Baş Qafqaz silsiləsi Tufan dağından cənub-şərqə Babadağa qədər 3600 m, Babadağdan Dubrara kimi 2200 m, Dubrardan Gədi dağına qədər isə 1200 m-ə qədər alçalır. Dağ silsilələrinin şimal-qərbdən cənub-şərq istiqamətində alçalması Şərqi Qafqazın eyni istiqamətdə tektonik gömülməsi ilə əlaqədardır. Bununla əlaqədar şimal-şərq yamacı şimaldan hərəkət edən soyuq hava kütlələrinin daxil olması üçün açıq olduğu halda, cənub yamacı bu cəhətdən daha yaxşı qorunur. Belə ki, silsilə-

nin cənub yamacı isti və rütubətli iqlimi ilə fərqlənir. Vilayətin çay şəbəkəsi ümumilikdə yaxşı inkişaf etmişdir, ən iri çayları şimal-şərq yamacda yerləşmişdir. Onlardan Samur və Qusarçay buzlaq suları ilə qidalanırlar. Şimal-şərq yamacdan fərqli olaraq cənub yamacı relyef əmələ gətirən sel proseslərinə daha çox məruz qalmışdır. Vilayətin Qobustan sahəsinin alçaq dağlıq və dağətəyi hissələri parçalanmış səth quruluşu olmaqla palçıq vulkanları, gilli karstlar və bedlend relyef formaları ilə səciyyələnir.

1.2. Kiçik Qafqaz vilayəti. Bu vilayət Alp dövrünün geniş inkişaf etmiş intruziyası ilə seçilir. Vilayətin daxilində relyefi, orta dağlıq səciyyə daşıyan tektonik denudasiya formaları təşkil edir. Alp formaları əsasən Zəngəzur və Murovdağ silsilələrində müşahidə edilir. Vilayətdə karst (Dağlıq Qarabağ), lava axınlarının (Qarabağ vulkanik dağlıq yaylası), lokkolit və ekstruziv günbəzlərin (Naxçıvan MR) yaratdığı parçalanmış relyef formaları da geniş yayılmışdır. Vilayətin özünəməxsus relyef şəraiti onun torpaq örtüyünün əmələgəlmə və formalaşması ekoloji şəraitinə güclü təsir göstərən amillərdən biridir.

1.3. Lənkəran vilayəti - Hündürlüyü 2000-2500 m-ə qədər olan qarışıq dağlar sistemindən və Xəzərsahili boyu düzənliklərdən ibarətdir. Talış silsiləsi Lənkəran dağlarının cənub-qərb hissəsində Azərbaycan və İran dövlət sərhəddi boyu uzanır. İran ərazisinə daxil olan suayrıcının mütləq yüksəkliyi qərbdə, mərkəzdə və şərqdə 2000 m, qalan hissələrdə isə 2400 m-dir. Peştəsər silsiləsi demək olar ki, şimal-şərqdə Talış silsiləsinə paralel uzanır. O, çay dərələri ilə parçalanaraq mürəkkəb relyef forması almışdır. Silsilənin mütləq yüksəkliyi 1300-1800 metr arasında dəyişməklə Talış silsiləsi ilə eyni geoloji quruluşa malik olması ilə səciyyələnir. Silsilənin suayrıcı hissəsi əsasən hamar səth quruluşludur. Burovar silsiləsi Lənkəran dağlarının ön hissəsində alçaq dağlıq qurşaqda yerləşməklə ən hündür yeri 1000 m-dən bir qədər artıqdır. Bu silsilənin

şimal-şərq yamacı dərələrlə parçalanmış səth quruluşu ilə fərqlənir.

1.4. Kür-Araz vilayəti - Bu vilayətə Kür-Araz (dağarası) çökəkliyi və orta Araz daxil olub, Xəzər sahilindən başlamış sıfır metr mütləq yüksəkliyə qədər olan bütün sahəni əhatə edir. Vilayət Şirvan, Qarabağ, və Mil düzlərinin əsas hissəsini, Muğan, Salyan və cünub-şərqi Şirvan düzlərinin bütün ərazisini özündə birləşdirir. Bu ərazilərin hər biri ayrı-ayrılıqda təbii-tarixi rayon əmələ gətirir. Ərazinin düzən xarakterini pozan relyef formaları, axmazlar (qədim çay yataqları), qobular (mövsümi çay yataqları), təpələr və s. geniş yayılmışdır.

Ekoloji amil kimi müxtəlif relyef formalarının (makro-mezo-mikro) torpağın ekologiyasında rolu şübhəsizdir. Hələ V.V.Dokuçayev özünün Qafqaz torpaqlarını tədqiq edərkən belə bir fikir irəli sürmüşdür: «dağlıq ərazilərdə relyef torpaq örtüyünün taleyində həlledici amildir». Sonralar bu müddəa S.A.Zaxarovun çoxsaylı tədqiqatları vasitəsilə təsdiqlənmiş və konkretləşdirilmişdir. Son vaxtlar bu istiqamətlərdə tədqiqatların (Uruşadze, 1987) yenidən genişləndirilməsi təqdirəlayiqdir. Relyefin genetik formaları və onların yüksəkliklə bağlılığı, yamacların baxarlığı və meyilliyi torpağın ekoloji şəraitinin müxtəlifliyinə, torpaq qatının qalınlığına, humusluğuna, strukturuna, nəmliyinə, temperaturuna, fiziki və kimyəvi xassələrinə, istilik və hava rejiminə, son nəticədə isə torpağın təbii münbitliyinə təsir edir. Digər tərəfdən torpağın ekoloji mühitinə əhəmiyyətli dərəcədə təsir göstərən torpaq eroziyasının intensivliyi də yamacların meylliyindən və torpaqəmələgətirən süxurların fiziki və kimyəvi xassələrindən asılıdır. Torpaq hissəciklərinin və qida elementlərinin yamacların yuxarı hissələrindən yuyulub çökəkliklərdə toplanması nəticəsində burada zəngin bitki örtüyü və yaxşı inkişaf etmiş aqrosenozlar formalaşır. Alçaq sahələrdə qrunt sularının səthə yaxın olması səbəbindən burada bataqlaşmış və şorlaşmış torpaqlar da inkişaf etmişdir.

BDU-nun
Elmi kitabxanası

2. Ərazinin geoloji quruluşu və torpaqəmələgətirən süxurların səciyyəsi

E.M.Şıxəlibəylinin (1963) qeyd etdiyi kimi, Azərbaycan geoloji baxımdan alp qırışıqlıq zonasının ən mürəkkəb və özünəməxsus regionlarından biridir. Bunu çoxsaylı geoloji tədqiqatlar da təsdiq edir. Belə ki, stratiqrafik kəsim aşağı paleozoydan başlamış antropogenə kimi böyük çöküntülər diapazonunu əhatə edir. Qeyd edək ki, respublika ərazisində mezozoy və kaynozoy dövrünün çöküntüləri daha yaxşı inkişaf etmişdir. Böyük Qafqaz ərazisi terrigen, karbonatlı, mollas, Kiçik Qafqaz isə vulkanogen, karbonatlı, çöküntü tufagen fasiyalarla təmsil olunmuşdur. Antropogen dövründə respublika ərazisində dəniz allüvial-delüvial, subareal, kollagen və vulkanogen (andezit-bazalt) çöküntülər toplanmışdır. Kiçik Qafqazın mezozoy-kaynozoy çöküntüləri içərisində qələvi, orta və turş intruziyalara da rast gəlmək mümkündür.

Azərbaycan ərazisinin müasir tektonik quruluşunun əsas elementləri neogenin başlanğıcında yaranmışdır. Tektonika müxtəlif strukturların çox mürəkkəb birləşmələri ilə seçilir: qarışıq, qarışıq-qayma, dialir, parçalanmış və maqmatik. Belə ki, Böyük Qafqazın cənub yamacı zonası üçün axçalı, Qobustan və Abşeron yarımadası üçün dialir, Kiçik Qafqaz və Talış üçün qarışıq-qayma və başqa strukturlar səciyyəvidir. Çox maraqlı tektonik element kimi cənub-şərqi Qafqazda orta qliasenoz yaşlı tektonik örtüyün olmasını göstərmək olar.

Qırışmanın əsas istiqaməti şimal-qərb olub, şərqdə cənub-şərq istiqamətinə yönəlir. Dağ sistemlərinin periferiyasında əsas şimal-qərb qarışıqlığı meridianal istiaqmətdə dəyişilir. Azərbaycanın geoloji strukturunda dərin qırılmaların mühüm rolu olmuşdur. Lakin bu qırılmalar sonrakı dövrlərin qalın çökmə və vulkanik süxurları ilə örtülmüşdür. Tədqiqatçılar Azərbaycanın müasir geoloji strukturunda aşağıdakı Araz zonasının meqaantiklinorisi. Bu iri geostruktur vilayətlər çoxsaylı kiçik struktur vahidlərindən, ayrı-ayrı geotektonik zona-

larda qruplaşmış antiklinori və sinklinorilərdən ibarətdir. Respublika daxilində neotektonik hərəkətlərin də böyük əhəmiyyəti vardır. Bunu dördüncü dövr çöküntülərinin toplanması nəzərə çarpacaq dərəcədə qalxma və enmə ərazilərinin olması da sübut edir. Geomorfoloji baxımdan Azərbaycan ərazisində aşağıdakı vahidlərin olması qeyd edilir (N.Ş.Şirinov, 1973): tektonikanın passiv əks olunduğu struktur-denudasion dağlar; akkumulyativ-denudasion yayla və düzənlik; akkumulyativ düzənlik.

Struktur-denudasion dağlar Böyük və Kiçik Qafqazın yüksək dağlıq və dağətəyi zonalırını, Naxçıvan MR və Talışı əhatə edir. Struktur-erozion relyef üçüncü dövr yaylası, Böyük və Kiçik Qafqazın, Talışın dağlararası depresiyası üçün səciyyəvidir. Vulkanik dağlar əsasən Kiçik Qafqazda yayılmışdır. Palçıq vulkanik relyef formaları isə cənub-şərqi Qafqaz, xüsusən də Qobustan üçün səciyyəvidir. Akkumulyativ-denudasion yayla və düzənlik Kür-Araz ovalığında müşahidə edilir.

Cavan geoloji törəmələrdən ən geniş yayılanı delüvial və allüvial mənşəli dördüncü dövrün yumşaq süxurlarıdır. Bu süxurlar (çöküntülər) yüksək karbonatlığı, gipsliyi və gillicəli qranulometrik tərkibi ilə səciyyələnir. Respublika ərazisində yayılmış torpaq əmələgətirən süxurlar yatma şəraitindən asılı olaraq müxtəlif fiziki xassələrə malikdir.

Üzərində şabalıdı, qəhvəyi və boz-qonur torpaqların formalaşdığı delüvial-prolüvial çöküntülər respublika ərazisində daha geniş yayılmışdır. Onları üç qrupa bölmək mümkündür: dağətəyi maili düzənliklər daxilində müvəqqəti səthi axınların gətirdiyi delüvial-prolüvial çöküntülər; çayların allüvial çöküntüləri; qədim Xəzər çöküntüləri.

Dağətəyi düzənliklərində yayılmış delüvial-prolüvial çöküntülər qonurvari-açıq sarı, bəzən isə bozumtul və ya qəhvəyi çalarlı olub gillicələrdən ibarəğdir. Bəzən gilli, çox nadir hallarda isə qumlu və qumlucalı qatlara rast gəlmək mümkündür. Bir sıra dağ çaylarının gətirmə konuslarının aşağı hissə-

sində allüvial çöküntülər gilli və qumsal tərkibli olub, qonur çalarlı sarı və bəzən isə qəhvəyi və qırmızımtıl çalarlı qatlarla əvəz olunduğu müşahidə edilir.

Qədim Xəzər çöküntüləri dağətəyi düzənliyin aşağı hissələrində, kiçik sahələrdə və konuslararası çökəkliklərdə yayılmışdır. Bu çöküntülər gillicəli tərkibli olub, yalnız bəzən qumsal və qumlu qatlarla əvəz olunur.

Kür-Araz ovalığında qranulometrik tərkibinə görə lyossabənzər gillicəli və gilli torpaqəmələgətirən süxurların üstünlük təşkil etməsi torpaq profilində müxtəlif mənşəli duzların miqrasiyasına da ciddi təsir göstərir.

3. Hidroloji xüsusiyyətləri

C.M.Süleymanova və Ə.A.Musayevə (1963) görə Azərbaycanın bütün çayları Xəzər dənizi hövzəsinə daxil olub üç qrupda birləşirlər: Kür hövzəsi (Arazsız) çayları; Araz çayı hövzəsi. Xəzər dənizinə bilavasitə tökülən çayların hövzəsi. Respublika ərazisində çay şəbəkəsi qeyri-bərabər paylanmışdır. Belə ki, yüksəkliyin artması ilə müəyyən həddə qədər çay şəbəkəsinin sıxlığı artır, həmin həddən keçəndən sonra isə sıxlıq azalır. Çay şəbəkəsinin ən çox inkişaf etdiyi orta dağlıq zonadır (1000-2500 m). Bu zonadan aşağıda və yuxarıda hidroqrafik şəbəkə nisbətən zəif inkişaf etmişdir. İl ərzində çayların qeyri-bərabər qidalanması səbəbindən axımın ildaxili rejimində də qeyri-bərabərlik müşahidə edilir. Bu baxımdan respublika ərazisinin bütün çayları iki qrupa bölünür: Böyük və Kiçik Qafqaz vilayətinin çayları – maksimal axım ilin isti dövründə (aprel-sentyabr); Lənkəran çayları maksimal axım ilin soyuq dövründə (oktyabr-mart) müşahidə edilir. Əsasən axımı (60-90%) ilin isti dövründə müşahidə edilən çaylar təqribən 95% təşkil edir. Böyük Qafqazın alçaq dağlıq rayonlarında (1000 m-ə qədər) ən az axım iyul və avqustda, hündür zonalarda (2000 m-ə qədər) avqust və yanvar-fevral aylarında, 2000 m-dən hündürlükdə isə fevralda müşahidə edilir.

Asılı gətirmələr axımının əyani keyfiyyət göstəricisi suyun bulanıqlığıdır. Orta bulanıqlığın müəyyən dəyişmə qanunauyğunluğu mövcuddur – o çay yatağı boyunca artır ki, buna da səbəb axımın formalaşma xüsusiyyətləri, ərazinin – geoloji, bitki, antropogen və digər təbii amillərdir. Bundan başqa çay profilinin uzununa quruluşu da böyük əhəmiyyətə malikdir. Bu qanunauyğunluqlar dağlıq ərazilərin çayları üçün səciyyəvidir.

Respublikanın çayları onun mürəkkəb relyefi, torpaq-geoloji və iqlim şəraiti, bütün hidroloji elementlərinin dəyişkən rejimi ilə fərqlənir. Ərazi daxilində qranulometrik tərkibin dəyişməsi çayların bulanıqlıq zonasına uyğun gəlir. Bulanıqlığın ən az olduğu zonalarda, yəni çayların yuxarı axınında 0,05 mm-dən kiçik diametrli asılı gətirmələr 50% təşkil edir. Bu hissəciklərin miqdarının ən çox müşahidə edildiyi ovalıq-düzənlik ərazilər olub, burada bulanıqlıq özünün çoxluğu ilə seçilir.

Böyük Qafqaz çaylarının su toplayıcısında səthi yuyulma Kiçik Qafqazla müqayisədə 8 dəfə çoxdur ki, bu da yamacların meyilliyi, baxarlılığı, bitki örtüyü və iqlim şəraiti ilə yanaşı, ərazinin litoloji tərkibi ilə izah edilir. Lənkəran vilayətinin dağlıq hissəsində səthdən yuyulmanın Böyük Qafqazla müqayisədə az olması ərazinin nisbətən meşə örtüyü ilə mühafizə olunması ilə əlaqədardır. Böyük Qafqazda səthi yuyulmanın orta intensivliyi, yuyulmanın intensivliyinin ildə 0,57 mm təşkil etdiyi Şimali Alplardan demək olar ki, fərqlənmir. Azərbaycanın əksər çaylarında sel hadisələri müşahidə edilir. Mənşəyinə görə onlar xeyli dərəcədə antropogen xarakterlidir (Süleymanov, Musayev, 1963).

Respublikanın ərazisində axan çaylar sululuq dərəcəsinə görə iki-dağlıq və düzənlik vilayətlərinə bölünür. Dağlıq vilayətdə axımın formalaşması onun kəmiyyətinin orta illik miqdarının bir l/san-dən çox ölçüsündə baş verir. Burada hidroloji rejimin əsas cizgiləri formalaşır. Düzən sahələrdə isə axım kəmiyyətinin orta illik miqdarının bir l/san-dən az olması,

suyun suvarma, buxarlanma və digər səbəblərdən itməsi ilə səciyyələnir.

Vilayət daxilində axımın formalaşması üç şaquli zonaya ayrılır: yüksək (5-25 l/san-dən çox), orta (5-25 l/san) və az (1-5 l/san 1 km^2). Yalnız Lənkəran vilayətində ən az axım yüksək dağlıq zonada, ən çox isə dənizsahili-düzənlik qurşaqda müşahidə edilir.

Axımın formalaşma və itki vilayətlərinin, o cümlədən dağlıq ərazilər daxilində şaquli zonallıqların ayrılması Azərbaycanın hər yerində eyni cür deyildir. Onlar öz aralarında hidrogeoloji rejimin kəmiyyət səciyyəsinə və digər xüsusiyyətlərinə görə fərqlənirlər. Bu səbəbə görə yalnız şaquli zonallığın bir əlaməti ilə məhdudlaşmaq olmaz. Onun üçün ərazini əlavə sərhədlər daxilinə salmaq və çay hövzələri qrupunu birləşdirən hidroloji rayonlar ayırmaq lazım gəlir. Adətən bu rayonların hidroloji səciyyəsi zamanı qidalanma mənbələri, axımın ildaxili paylanmasının xüsusiyyəti, sululuq və onun tərəddüdü, bərk axım və hidrokimyəvi rejim kimi göstəricilərdən istifadə olunur.

4. İqlim şəraiti

Respublikanın iqlim şəraiti Ə.Ə.Mədətzadə (1959), Ə.M.Şıxlinski (1963, 1991), Ə.D.Əyyubov (1969, 1975) və başqaları tərəfindən ətraflı öyrənilmişdir. Kənd təsərrüfatında məhsul istehsalı bir çox hallarda təbii ehtiyatların xarakterindən asılıdır. Bu baxımdan ən vacib təbii ehtiyat kimi iqlimin, onun potensial imkanları nöqteyi-nəzərindən qiymətləndirilməsinin kənd təsərrüfatı üçün əhəmiyyəti olduqca böyükdür. İqlim ehtiyatları isə bilavasitə, istərsə də dolayısı ilə bonitirovkanın predmetidir.

Ekoloji baxımdan vacib olan iqlim ehtiyatları adı altında biz ərazinin malik olduğu və insan fəaliyyətinin müxtəlif sahələrində istifadə edilən günəş enerjisi, havanın hərəkətini və nəmliyi başa düşürük. Aqroiqlim ehtiyatları adı altında isə biz

iqlimin o elementlərini başa düşürük ki, bitki tərəfindən biokütlə hazırlanarkən bu göstəricilərdən istifadə edilir. Bunlara bilavasitə təsir göstərən günəş enerjisi və nəmlik, onların nisbəti daxildir. Ə.D.Əyyubovun (1975) fikrinə görə, iqlimin bonitirovkası təbii şəraitin bioloji məhsuldarlığının qiymətləndirilməsinin ən vacib məsələsidir. Torpaqların müqayisəli qiymətləndirilməsi ilə bir yerdə o, müxtəlif iqlim zonalarında təbii şəraitin iqtisadi səmərəliliyinin səviyyələrinin səciyyəsinin əsasını təşkil edir. İqlimin bonitirovkası təbii şəraitin digər komponentlərinin (meşə, kənd təsərrüfatı sahələri və s.) bonitirovkası ilə də sıx əlaqəyə malikdir. Ə.D.Əyyubov (1975) Azərbaycanın müxtəlif vilayətlərində aqroiqlim şəraitinin əsas xüsusiyyətlərinin özünün çoxillik tədqiqatlarının nəticələrinə əsaslanmaqla geniş şərhini vermişdir. Aşağıda onun bəzi cəhətlərinin qısa təhlili verilir.

A. Kür-Araz vilayəti - Fiziki-coğrafi və aqroiqlim şəraitində kəskin fərqlərin olmamasına görə yarımvilayətlərə bölünməmişdir. Ərazinin iqlimi yayı quraq keçən mülayim-isti yarımsəhra və quru bozqır (çöl) iqliminə aiddir. Bu iqlim tipi çox az və zəif nəmliyi, qışının mülayim və yayının quru isti keçməsi ilə səciyyələnir. Temperaturu 10^0-dən yüksək olan istilik ilə təmin olunma göstəricisi 4400-4800^0-dir. Vilayət üçün səciyyəvi cəhət termik imkanların geniş olmasıdır. Belə aqroiqlim şəraitində ildə iki və hətta bəzi kənd təsərrüfatı bitkilərindən üç dəfə məhsul almaq mümkündür. Ümumiyyətlə, bitkilərin qışlama şəraiti əlverişli olduğundan bəzi bitkilər (payızlıq buğda, arpa, səpilmiş ot və s.) qış fəslində öz vegetasiyalarını davam etdirirlər. Bəzən ərazidə havaların kəskin soyuqlaşması nəticəsində vegetasiyanın müvəqqəti dayanması baş verir. Vilayətdə payız əkinlərində məhsuldarlığın formalaşmasında payız fəslində düşən yağıntıların rolu yüksək qiymətləndirilir. Belə ki, həmin dövrdə torpaqda kifayət qədər nəmliyin olması toxum cücərtilərinin vaxtında və sıx şəkildə çıxmasını təmin etməklə yanaşı, qışlamanın da yaxşı keçməsinə şərait yaranır. Vilayətdə kənd təsərrüfatının əsas istiqamə-

ti-pambıqçılıq, taxılçılıq və bostançılıqdır. Eləcə də ərazidə müxtəlif çeşidli quru subtropik meyvələrin yetişdirilməsi üçün xeyli əlverişli aqroiqlim şərait də mövcuddur.

B. Böyük Qafqaz vilayəti - Bu vilayətdə üç aqroiqlim yarımvilayəti yerləşir. Bunlar Cənub yamac, Şimal-Şərq yamac və Abşeron-Qobustan regionudur.

I. Cənub yamac 8 aqroiqlim rayonuna bölünür. Hipsometrik fərqlər səbəbindən yarımvilayət aqroiqlim göstəricilərinin ölçülərində fərqlərin böyük olması ilə seçilir. Nisbətən aşağıda yerləşmiş rayonlarda 10%-dən yuxarı fəal temperaturun illik miqdarı 4500^0-ə çatır. Dağ ətəyində yerləşmiş rayonlarda taxıl, bostan və faraş tərəvəz məhsulları yığımından sonra da kifayət qədər istilik ehtiyatı qalır. Vilayətdə yağıntıların illik miqdarı 250-1400 mm arasında tərəddüd edir. Yağıntıların 50%-ə qədəri dağlıq hissədə bitkilərin vegetasiyası dövründə düşür. Nəticədə vilayətin Car-Qəbələ rayonu kifayət qədər, İlisu-Lahıc rayonuna isə izafi miqdarda yağıntı düşür. Odur ki, bu rayonlar vegetasiya dövründə atmosfer yağıntıları ilə ən yaxşı təmin olunmuş ərazilərə aid edilirlər. Bununla belə, həmin ərazilərdə iyul və avqust aylarında becərilən bitkilər qismən də olsa suvarılır. İqtisadi baxımından bu vilayət intensiv əkinçilik zonası hesab olunur. Əsasən payızlıq taxıl, çəltik, tütün, tərəvəz, bostan, Qax qəsəbəsindən qərbdə isə çay, sitrus (qışda örtük altında saxlamaqla) və həmçinin efir yağlı bitkilər (Qazanlıq qızılgülü, nanə) yetişdirilir.

II. Şimal-şərq yamacda beş aqroiqlim rayonu ayrılmışdır. Cənub yamacla müqayisədə, daha meylli olması və çay şəbəkəsinin az sıxlığı ilə fərqlənir. Bu rayonların ümumi aqroiqlim xüsusiyyəti aşağı temperaturun (1-2^0) olması, şimaldan daxil olan soyuq hava kütləsinin təsiri altında soyuq dövrün erkən başlanması ilə səciyyələnir. Bunun nəticəsində 10^0-dən yuxarı fəal temperaturların cəminin izoxətti cənub yamacla müqayisədə 500-600^0-dən aşağıdan keçir.

Bir qədər isti Xaçmaz-Qonaqkənd aqroiqlim rayonunda 10^0-dən yuxarı temperaturlarun cəmi 2600-4000^0 arasında tə-

rəddüd edir. Quba-Qusar rayonları da istiliklə yaxşı təmin olunmuşlar. Payızlıq taxıl yığıldıqdan sonra istifadə edilə bilinən istilik ehtiyatı 400-2200^0 arsında dəyişir.

Ümumiyyətlə, yarımvilayət rütubətlənmə xüsusiyyətinə görə yekcins deyildir. Xüsusən Xaçmaz-Qonaqkənd rayonunda, ərazinin yüksək rütubətləşməsi səbəbindən düzən meşələr qorunub saxlanmışdır. Burada yağıntıların miqdarı cənubla müqayisədə bir neçə dəfə yüksəkdir.

Torpaq və havanın yüksək dərəcədə rütubətləşməsi Xaçmazdan şimalda buzlaq və qar suları ilə qidalanma rejiminə malik çayların dağətəyi və düzən sahələrə çıxışında yeraltı axıma malik olması ilə təmin olunur. Bir qədər cənubda çaylar alçaq su hövzələrindən qidalandıqlarına görə nisbətən az su ehtiyatına malikdirlər.

Bu iki rayonda yerli sənaye əhəmiyyətli meyvə, tərəvəz və bostan bitkiləri yetişdirilir. Aşağı qurşaqda yerləşmiş Yenikənd-Zeyxur rayonu yazlıq taxıl, əsasən də arpa, orta və gec yetişən kartof, kələm üçün əlverişli istilik rejimi ilə təmin olunmuşdur. Yüksək dağlıq ərazinin subalp və alp çəmənliklərindən yay otlaqları kimi istifadə olunur; Burada arıçılığın inkişaf etdirilməsi üçün də əlverişli təbii şərait mövcuddur.

III. Abşeron Qobustan yarımvilayəti əvvəlki iki yarımvilayətlər ilə müqayisədə təbii enerji (günəş və külək ehtiyatları) ilə kifayət qədər yaxşı təmin olunmuşdur. Ərazinin rütubətlə təmin olunması bir qədər zəifdir. Bitkilərin vegetasiya dövründə əraziyə cəmi 35-120 mm yağıntı düşür. Yüksəklik artdıqca bitkilərin yağıntılarla təmin olunması yaxşılaşır. Lakin onların miqdarı isti dövründə (aprel-sentyabr) 250 mm-dən artıq olmur.

İlıq yaz və mülayim payız, isti və uzunmüddətli yay çox qiymətli subtropik bitkilərin: əncir, nar, zeytun, püstə, badam, zəfəran, xına, basma və s. yetişdirilməsi üçün əlverişli təbii şərait yaradır. Abşeron yarımadasının hər yerində Ağşanı, Qaraşanı və başqa üzüm sortlarının yetişdirilməsi üçün şərait vardır. Ərazidə payızlıq taxıl məhsulları toplandıqdan

sonra istiliyin böyük ehtiyatı (fəal temperaturların cəmi 2200-2600^0) qalır ki, ondan da qarğıdalı, paxlalı bitkilər, tərəvəz və ot bitkilərinin yetişdirilməsi üçün istifadə etmək mümkündür. Dənizsahili zonada sənaye əhəmiyyətli gülçülüyün inkişaf etdirilməsi üçün də əlverişli təbii şərait mövcuddur.

Qışda şaxtanın zərərli təsiri yarımadanın daxili hissələrində daha çox ehtimal olunur. Yarımvilayətdə bitkilərin normal inkişafına mənfi təsir göstərən hallardan biri də xəzrinin, şimal və şimal-şərq istiqamətli küləklərin tüğyan etməsidir. Belə ki, xəzri bitkilərdə transpirasiyanı kəskin şəkildə gücləndirir, torpağı qurudur və bitkiyə ciddi şəkildə mexaniki təsir göstərir. Küləyin havaya qaldırdığı toz bitkinin yarpaqlarının üstünə çökərək, onların tənəffüsünü çətinləşdirir. Xəzri bitkilərin çiçəklənmə dövründə xüsusilə təhlükəlidir. Eləcə də yay dövründə buxarlanmanı gücləndirməklə suvarmanın səmərəsini aşağı salır.

Yarımvilayətin Qobustan hissəsi təsərrüfat baxımından az mənimsənilmiş, əsasən qış otlaqları kimi istifadə olunur. Ərazidə kəskin şəkildə su qıtlığı müşahidə edilir. Lakin, yaz yağışları dövründə əsasən efemer və efemeroidlərdən ibarət təbii yem bitkilərinin inkişafı nəzərə çarpır.

C. Talış vilayəti - Bura 6 aqroiqlim rayonu daxildir. Özünün təbii xüsusiyyətlərinə görə Talış vilayəti (hündürlüyü – 25-2500 m) təsvir etdiymiz başqa vilayətlərdən kəskin şəkildə fərqlənir. Yüksək termik səviyyə və kifayət qədər rütubətlənmə onun hüdudları daxilində (800-1000 m-ə qədər) sıx bitki örtüyünün və özünə məxsus torpaq örtüyünün formalaşma və inkişafına şərait yaratmışdır. Təbii şərait 800-1000 m-dən yüksəklikdə tamamilə dəiyşir. Burada dağ-çəmən, qonur, dağmeşə torpaqları üzərində çəmən dağ kserofit bitkilər üstünlük təşkil edir.

Vilayəti qərbi Gürcüstan və Aralıq dənizinin sahil zolağından fərqləndirən əsas cəhət Lənkəran subtropik bölgəsində oktyabr–may dövründə havanın yağıntılı, isti dövrdə isə quraqlığın və az yağıntının (rütubətləşmənin) olmasıdır.

Cəlilabad-Qızılağac rayonunda temperaturun 10^0-dən yuxarı olduğu dövrdə yağıntıların miqdarı 150-300 mm-dir. Vilayətin düzən hissəsində 10^0-dən yuxarı temperaturların cəmi 4000^0-dən artıqdır. Ərazidə yaranmış təbii şəraitə uyğun istiliyə tələbkar bitkilər çay, sitrus, feyxua, dəfnə, çəltik və s. becərilir.

Yüksəklik artdıqca istilik ehtiyatı azalır, lakin bəzi yerlərdə əlverişli relyef şəraitində müvafiq kənd təsərrüfatı bitkilərinin becərilməsi mümkündür.

Ç. Kiçik Qafqaz vilayəti - Bu vilayətin bəzi aqroiqlim rayonları termik ehtiyatlarına və rütubətlə təmin olunmsına görə oxşar şəraitə malikdirlər. Lakin işıq ehtiyatlarına, bitkilərin qışlama şəraitinə görə onlar müxtəlifdir.

Yağıntıların miqdarı 600-800 mm arasında tərəddüd etməklə minimum miqdarı qışda, maksimum yazın sonunda və yayın əvvəllərində düşür. Vilayətdə əsas iqlim göstəriciləri yüksəkliyindən asılı olaraq dəyişir. Belə ki, kifayət qədər rütubətli zonanı alp və subalp çəmənliklərini əhatə edir. Dağmeşə və dağ-bozqırları mülayim rütubətli zonada daha geniş ərazini tutur. Rütubətlə zəif təmin olunan sahələrə isə Kiçik Qafqazın alçaq dağlıq və dağətəyi əraziləri daxildir.

D. Naxçıvan vilayəti - Aqroiqlim şəraitinə görə Azərbaycanın digər rayonlardan fərqlənir. Onun çox hissəsi kəskin kontinental iqlim şəraiti ilə səciyyələnir. Bu ərazinin rütubətli hava axınlarının qarşısını kəsən dağlarla əhatə olunması, qışda havanın kəskin soyumasına, yayda isə əksinə intensiv qızmasına səbəb olur ki, bu da tez-tez təkrarlanan antisiklon halları ilə izah olunur. Arazboyu maili düzənliyi çıxmaq şərti ilə vilayətin relyefi kəskin parçalanmışdır, ona görə də burada skletli yuxa boz, dağ şabalıdı və qəhvəyi dağ-meşə torpaqları üstünlük təşkil edir. Bitki örtüyü yovşanlı-şoran otlu və dağkserofit formasiyanın üstünlük təşkil etməsi ilə seçilir.

Vilayətin ən vacib aqroiqlim xüsusiyyətlərindən biri günəş radiasiyasının yüksək gərginliyi, onun 145-160 kkal/sm^2 hədlərində dəyişməsidir. Fəal temperaturun (10^0-dən yüksək) illik

miqdarı 4000-4500^0-dən çoxdur. Quraqlığın səviyyəsi bütün Zaqafqaziya hüdudlarında belə ən yüksək sayılır. Torpağın taleyində iqlimin rolundan danışarkən V.R.Volobuyevin (1953) bu sözləri yada düşür: «İqlim göstəricilərinin məcmusu və onların torpaqəmələgəlməyə təsiri özünü, bitki formasiyalarının işıq və istilik rejimində göstərir. Bu zaman ümumi iqlim elementlərinin torpağın hidrotermik rejiminə təsiri bitki örtüyünün xarakterindən və inkişaf fazasından, torpağın inkişaf mərhələsindən və onun səthinin vəziyyətindən asılı olaraq əsaslı şəkildə dəyişilir».

Temperatur rejimi-aşınma qabağındakı müxtəlif çevrilmələrin və torpaqdakı biokimyəvi reaksiya və proseslərin əsas amillərindən biridir. Atmosfer nəmliyi ilə yanaşı, istiliyin paylanması təkcə yer səthindəki bitkilərin geobotaniki tərkibini deyil, onun məhsuldarlığını da müəyyən edir. Üzvi qalıqların humifikasiyası prosesi, üzvi qalıqların parçalanma sürəti, keyfiyyət istiqaməti temperatur rejimi ilə sıx əlaqəyə malikdir.

Temperatur rejimi kimi atmosfer yağıntıları da torpaqəmələgəlmə prosesinin istiqamətini müəyyən edən amillər sırasına daxildir. Rütubətlənmə dərəcəsi, torpaqdakı nəmliyin hərəkət xarakteri, onun su rejimi aşınma və torpaqəmələgəlmə məhsullarının torpaq profilindəki mütəhərrikliyini, o cümlədən maddələrin kiçik (bioloji) və böyük (geoloji) dövranını müəyyən edir. Yerüstü fitosenozların tərkibi və bioloji məhsuldarlığı torpağın nəmliyi ilə təmin olunma dərəcəsindən bilavasitə asılıdır.

İqlimin adı çəkilən elementləri vilayət və rayon səviyyələrində təbii yem sahələrinin, meşə və xüsusən aqrosenozların tərkibinə, bioloji məhsuldarlığına və keyfiyyətinə təsir göstərir. Halbuki aqrosenozlar üçün respublika şəraitində süni suvarmanın təşkili vasitəsilə torpağın müəyyən nəmliyinin saxlanması tələb olunur.

5. Fitosenotik örtük

Torpaqəmələgəlmədə bioloji amillər, xüsusən də bitki örtüyü aparıcı rola malikdir. Torpağın əmələgəlməsi və formalaşması üçün kifayət qədər vaxt, yəni bir neçə min illər lazımdır ki, bu müddət ərzində bütün bitki növlərinin onlarca nəsli dəyişikliyə uğrasın. Torpaq bitki ilə müqayisədə daha uzunmüddətli inkişafın məhsuludur. Bitki torpağa daxil olan və torpaqda humusa çevrilən üzvi maddələrin əsas mənbəyidir.

Orqanizmlər, ilk növbədə, bitkilər zəruri kimyəvi elementlərin, oksigen, karbon, azot, kalium, kalsium və bir çox mikroelementlərin biogen dövranının əsas iştirakçılarıdır. Beləliklə, üzvi aləm ətraf mühitə çox geniş və mürəkkəb təsir göstərir.

Müxtəlif qrup bitkilərin xəzəli təkcə biokütləsinə görə deyil, eyni zamanda biokimyəvi tərkibinə görə də bir-birindən fərqlənir. Üzvi qalıqların parçalanması zamanı ayrılmış üzvi və mineral maddələr torpaq tərəfindən udulur, müxtəlif üzvi və mineral birləşmələrə çevrilir və təkrar bitki tərəfindən mənimsənilir. Miqrasiya prosesi zamanı torpaq profili boyunca hərəkət edən üzvi və mineral birləşmələrə qarşı bitkilər özünü müxtəlif cür aparır. Məsələn, məlumdur ki, şirəli və yarımquru şoran otlar yuxarı qatların şoranlığını təmin edir, quru şoran otları, yovşanlar, bozqır (çöl) və paxlalı bitkilər bozqır torpaqlarının zərərli duzlardan təmizlənməsinə təsir göstərirlər.

Ali bitkilər, xüsusən də taxılkimilər, torpaq strukturunun formalaşmasına da əsaslı təsir göstərirlər. Bu zaman köklərin mexaniki təsiri hissəciklərinin ayrılmasına, kimyəvi təsiri isə bu hissəciklərin sementləşməsinə və suyadavamlılıq xassəsi əldə etməsinə səbəb olur. Bu isə torpaqəmələgəlməsinə, torpağın strukturunun yaranmasına səbəb olur, onun zərərli təsirlərə qarşı davamlığını artırır.

Azərbaycanın bitki örtüyü çox müxtəlif və özünəməxsusdur və onun öyrənilməsində bir çox botaniklərin, xüsusən

A.A.Qrossheymin (1948) rolu böyük olmuşdur.

Müasir tədqiqatlara görə Azərbaycanın ərazisində 4100 bitki növü olub, onun onda biri endemikdir. Endemik bitkilərə misal olaraq Eldar şamını, Xəzər süsənini və Talış meşələrinin bir çox ağac və kol bitkilərini göstərmək olar.

Tədqiqatlarımızın məqsədindən irəli gələrək bizi torpağın tip və ya digər aşağı taksonlarının bitki tipi, formasiya və assosiasiyası ilə genetik və məkan əlaqəsi maraqlandırmışdır. Azərbaycan ərazisində bitki tipləri çox müxtəlif olub, bir tərəfdən relyef, torpaq, iqlim şəraiti ilə müəyyən olunursa, digər tərəfdən buna səbəb bir neçə flora vilayətlərinin ərazimizdə qovuşmasıdır.

Respublika ərazisində L.İ.Prilipko (1970), V.C.Hacıyev (1954, 1970), İ.S.Səfərov (1961, 1965) aşağıdakı əsas bitki tipləri ayırırlar:

I – meşələr; II – kollar; III – çəmən və çəmən-çöllər; IV – bataqlıq çəmənlər və çəmənli bataqlıqlar; V – kserofit seyrək meşəliyi; VI – bozqırlar; VII – yarımsəhra və səhra; VIII – dağlıq-kserofit bitkiliyi.

Respublikanın dağlıq raoynlarında geniş yayılmış bitki tipləri hüdudlarında bitkilərin şaquli qurşaqlıq qanunauyğunluğunu əks etdirən qurşaqlıq kateqoriyaları ayrılmışdır. Qeyd edilən tiplər və qurşaqlıq xarakterli bölmələr daxilində geniş yayılmış bitki birlikləri və onların kompleksi ayrılmışdır.

I. Meşələr. Azərbaycan meşələrinin tipoloji tərkibi çox zəngin və müxtəlifdir ki, bu da dendrafloranın zənginliyi, edifaktorların zəngin tərkibi, torpaq-iqlim rejimlərinin rəngarəngliyi ilə izah edilir. Ayrı-ayrı meşə tipləri az hallarda böyük sahələri tutur, adətən hər yamacda meşə tiplərinin kompleksinə və ya mozaikasına rast gəlmək mümkündür ki, bu kompleksin hər üzvü böyük olmayan ərazini əhatə edir.

II. Kolluqlar. Azərbaycanın bütün ərazisində təsadüf olunan fotosenozların əksəriyyətində kolluqlar onun əsas elementini təşkil edir. Kol ağac bitkiləri bitki həyatının xüsusi

formasıdır; Azərbaycanda kolluqlu fitosenozlar düzənlikdən başlayaraq yüksək dağlıq sahələrə kimi yayılmışdır; bəzi kol növlərinə alp qurşağında da təsadüf etmək mümkündür, lakin onların əksəriyyəti lokal şəkildə yayılmışdır.

III. Çəmənlər və çəmən çöllər. Çəmən bitkiləri daha geniş arealda, yəni düzənlik ərazilərdən başlayaraq yüksək dağlıq sahələrə kimi yayılmışlar. Onlar müxtəlif şəraitdə formasiya və assosiyalarla təmsil olunmuşlar. Çəmən və çəmən-çöllər respublikamızda çox mühüm təsərrüfat əhəmiyyətinə malikdir. Yüksək dağlıq ərazilərin çəmən və çəmən-çöllərindən alp qurşağından yay otlaqları kimi istifadə olunur; subalp qurşağında isə çəmən və çəmən çöllər otlaq kimi istifadə olunmaqla yanaşı, burada yüksək bioloji məhsuldarlığı və keyfiyyətli ot örtüyü ilə seçilən biçənək sahələri də mövcuddur. Respublikanın düzən çölləri də heyvandarlıqda qidalı təbii yem sahələri kimi istifadə olunur. Çəmən bitkiləri arasında çox faydalı bitki növlərinə (yem, dərman, texniki, nektarlı, boyaq və s.) rast gəlmək mümkündür.

IV. Bataqlı çəmənlər və çəmənli bataqlıqlar. Bitkiliyin bu tipi Azərbaycanda geniş yayılmışdır. Onlar lokal şəraitdə ləkələr şəkildə bataqlaşmış çökəkliklərdə və təbii su hövzələri ətrafında təsadüf olunur. Çəmən-bataqlıqlar Kür-Araz ovalığında, Xəzər sahili boyunca (Lənkəran ovalığı) və qərb düzən rayonlarında yayılmışdır. Onların az təsadüf olunduğu yerlər Respublikanın dağlıq ərazilərdir.

V. Kserofit ya arid seyrək meşəliyi. Zaqafqaziyanın cənubunda və şərqində isti və quraq iqlim şəraitində formalaşmış, xüsusi və özünəməxsus ağac və kollardan ibarət olan bitki qruplaşmasıdır. Azərbaycanın iri fıstıq-seyrək meşəliyi Bozdağ təpəliyində, Bozqır yaylanın hüdudları daxilində, Böyük Qafqazın cənub yamaclarının ətəklərində yayılmışdır. Bundan başqa fıstıq seyrək meşəliyinə ləkələr şəklində, orta dağlıq qurşaqda, məsələn, Qarabağda (Laçın rayonu), Böyük Qafqazın şimal-şərq yamacında (Dəvəçi rayonu) və respublikanın

cənub rayonlarında rast gəlinir.

VI. Dağ-kserofit bitkiliyi. Bitkiliyin bu tipi Naxçıvan MR, xüsusən də dağlıq qurşaqda geniş yayılmışdır. Bundan başqa, bu tipdən olan bitkilər Diabar (Zuvand) çökəkliyində tez-tez müşahidə olunur. Dağ-kserofit bitkilərə Qobustanda, Bozqır yaylada və Qarabağın cənubunda da ləkələr şəklində rast gəlmək mümkündür.

Naxçıvan MR bitkilərinin kseromorfluğu bütün yüksəklik qurşaqlarında- Araz boyunda, aşağı və orta dağlıq qurşaqda, az da olsa yüksək dağlıq ərazilərdə özünü göstərir. Naxçıvanın dağ kserofitləri yağıntıların az olduğu (200-400 mm-ə qədər), lakin yüksəkliyə görə artdığı, yayı isti və quru, qışı soyuq (qar örtüyü müşahidə olunmur), kəskin kontinental iqlim şəraitində (maksimum temperatur avqustda 42^0, minimum fevralda - 30^0) formalaşmışdır. Dağ kserofitləri ilə örtülmüş yamacların səthi qayalıqlar, daş yığınları, dərin dərələr, yarğanlar, dik ətəkləri isə quru prolüvial-delüvial vadilərlə səciyyələnir. Bitki örtüyündən məhrum olmuş və ya primitiv və skeletli torpaqlarla örtülmüş quru daşlı yamaclarda dağ kserofitlərinin açıq fitosenozları formalaşır. Lakin yüksəklik artdıqca torpaq qatının qalın oldğu yamaclarda bu fitosenozlar tədricən mürəkkəbləşirlər. Belə bir mühakimə də yeritmək mümkündür ki, hazırda dağ bitkiləri ilə örtülmüş ərazilərin böyük hissəsi uzaq keçmişdə müxtəlif tip meşələrlə örtülü olmuşdur.

VII. Bozqırlar. Hazırda xam bozqır (çöl) bitkiləri təbii halda Azərbaycanın çox kiçik ərazilərdə qalmışdır. Lakin əkinçilikdən əvvəlki vaxtlarda bozqırlar respublika ərazisində xeyli geniş yayılmışdır. Çöl bitkilərinin iri massivləri Böyük Qafqazın şərq qurtaracağının aşağı və orta dağlıq qurşağında (Şamaxı-Altıağac), Bozqır yaylada, cənub rayonlarda (Füzuli) və Talışın şimal qurtaracağında mövcud olmuşdur. Adı çəkilən massivlərdə xam bozqırların böyük hissəsi şumlanmış və hazırda dəmyə əkinçiliyində (taxıl, üzüm və s.) istifadə olunur. Bozqır bitkiləri bu massivlərdə yalnız adalar, fraqmentlər şək-

lində qalmışdır.

VIII. Yarımsəhra və səhralar. Bitkiliyin bu tipi Azərbaycanda Xəzərboyu ovalığında, Kürboyu zolaqda, Naxçıvanda Arazboyu vadidə, Abşeronda, ən geniş isə Kür-Araz ovalığında yayılmışdır.

Bu tipdən olan bitkilər allüvial, prolüvial və dəniz çöküntüləri ilə örtülmüş ovalıqda inkişaf etmişdir, onlar dağətəyi düzənliklərdə də tez-tez müşahidə edilirlər. Kür-Araz ovalığı geoloji cəhətdən nisbətən cavan olub, dəyişən təbii şəraitdə formalaşmışdır, bununla belə səthin hündürlüyünə və yaşına görə ərazinin müxtəlif yerləri bir-birindən fərqlənir.

Yarımsəhra bitkilərinin yayıldığı rayonlarda süni suvarma şəraitində pambıqçılıq, taxılçılıq, bostançılıq, üzümçülük və yemçilik (yonca yetişdirilməsi) inkişaf etmiş və hazırda genişlənməkdədir. Xam, toxunulmamış yarımsəhra bitkiləri altındakı torpaqlar qış otlaqları kimi istifadə olunur. Lakin suvarma əkinçiliyinin inkişafı ilə əlaqədar bu ərazilərin sahəsi ildən-ilə azalır. Yemçilik baxımından dəyərli yarımsəhra bitkiləri əsasən müxtəlif dərəcədə şorlaşmış torpaqlar üzərində formalaşmış efemerli assosiasiyalardır. Onların yerüstü bioloji məhsuldarlığı illər üzrə 8-9 sen/ha arasından tərəddüd edir ki, bunun da 5-6 sen/ha yeyilən hissəni təşkil edir. Təmiz efemer fitosenozların məhsuldarlığı iqlim şəraitindən asılı olaraq illər üzrə çox böyük hədlər (0,51 sen/ha-dan 25 sen/ha və hətta daha çox) daxilində dəyişilir. Əlverişli məhsuldar illərdə yovşanlı-efemerli yarımsəhralar biçənək kimi istifadə olunur.

Qeyd edildiyi kimi, Kür-Araz ovalığında süni suvarma şəraitində pambıq, qarğıdalı, üzüm, bostan və meyvə bitkiləri, Abşeron yarımadasında zəfəran, xna, basma, zeytun, üzüm, əncir, Talışda çay, dəfnə, feyxoa, çəltik, üzüm, sitrus, tərəvəz-bağça bitkiləri və s. yetişdirilir.

Bütün nəzərdən keçirilən bitki tipləri bu və ya digər torpaq tipi və yarımtiplərinə uyğun gəldiyinə görə xüsusi torpaq-bitki birliklərindən danışmaq mümkündür. Lakin bu cür asılılığın

tamamilə olmasından danışmaq düzgün olmazdı. Biz bəzi bitki tiplərinin zaman daxilində bir-birini əvəz etdiyinin, yəni təkamülünün şahidi oluruq (məsələn, dağ mezofil meşələrinin kserofit assosiasiyalarla əvəz olunması). Ona görə, torpaqların genetik cəhətdən öyrənilməsi zamanı, təkcə, müasir bitki örtüyünün öyrənilməsi kifayət etmir, eyni zamanda bitki örtüyünün tarixi keçmişi haqqında məlumatın olması tələb olunur.

Azərbaycan şəraitində əkinçiliyin qədim tarixini nəzərə alsaq, təbii formalaşmış torpaq örtüyünə becərilən mədəni bitkilərin də güclü təsiri vardır. Bu cəhətə qədimdən mənimsənilmiş kənd təsərrüfatı sahələrinin öyrənilməsi və xəritələşdirilməsi zamanı xüsusi diqqət yetirilməlidir. Bütövlükdə Azərbaycan şəraitində V.R.Volobuyev (1962, 1963, 1972), Q.Ş.Məmmədov, S.Z.Məmmədova (1993) və başqa tədqiqatçıların göstərdiyi kimi, istər təbii, istərsə də mədəni bitkilər torpağın çox vacib analoji amili kimi çıxış edir.

6. Antropogen amillərin torpaq və onun münbitliyinə təsiri

Antropogen amillər ətraf mühitə (torpaq, bitki, heyvanat və s.) təsir göstərən insan fəaliyyətinin müxtəlif formalarını birləşdirir. Antropogen amil təbiətə bilavasitə (bitki örtüyünü və heyvanat aləmini, o cümlədən pedofaunanı məhv etmək, su hövzələrini zəhərləmək, yeni növlərin təbiətə buraxılması və s.) və dolayısı ilə, əsasən isə, landşaftı dəyişməklə (meşələrin qırılması, çöllərin şumlanması, bataqlıqların qurudulması, suvarma və s.) təsir göstərə bilər. Sonuncu təsir forması çoxlu sayda canlı orqanizm növlərini, torpaq, su və hava hövzələrini əhatə etməklə daha güclü imkanlara malikdir. Antropogen amil son yüzillikdə daha çox güclənmiş və onun təsiri hazırda da artmaqda davam edir.

Antropogen relyef – insanın təsərrüfat fəaliyyəti ilə yaradılmış və dəyişdirilmiş relyefdir. D.L.Armanda (1960, 1983)

görə antropogen relyef formaları ilk dəfə ovçu qəbilələr ov quyuları, mağaralar və s. qazarkən formalaşmağa başlamışdır. Heyvandarlıq təsərrüfatının yaranması ilə eroziya ocaqları yaranmış, qumların sovrulması və hərəkəti baş vermişdir. Əkinçiliyin inkişafı ilə antropogen amilin yayılması daha da inkişaf edir. Qeyd edək ki, müasir elmdə kortəbii və şüurlu şəkildə yaradılmış antropogen relyef formaları fərqləndirilir. Birincinin elementləri kənd və meşə təsərrüfatlarının, dağmədən işlərinin, tikinti, müxtəlif təyinatlı nəql etmə kəmərlərinin və yolların çəkilməsinin düzgün aparılmaması nəticəsində yaranır. Bura yarğanlar, qobular, gətirmə konusları, hərəktli qumlar və s. daxildir. Bu relyef formalarının inkişafı ərazinin görkəmini kökündən dəyişdirir, onun su rejimini pisləşdirir, torpağın münbitliyini azaltmaqla kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını aşağı salır. Relyefin şüurlu şəkildə dəyişdirilməsi meliorasiya (yamacların terraslaşdırılması və torpaq sahəsinin hamarlanması, drenaj və suvarma şəbəkələrinin tikintisi) və s. işlərin icrası zamanı baş verir. Antropogen relyef forması mədəni landşaftın bir elementi kimi dərk edilməlidir. Qeyd edildiyi kimi, insanın uzunmüddətli çoxsahəli fəaliyyəti müasir torpaq və bitki örtüyünün formalaşmasında dərin izlər buraxmışdır. İlkin təbii landşaftlar bir çox hallarda törəmə-mədəni landşaftlarla əvəz olunmuş və ya aqrolandşafta çevrilmişdir. Qeyd edək ki, əkinaltı torpaqlar öz təbiətinə görə, ilkin xam torpaqlara məxsus xassələrinin bir hissəsini özündə saxlamaqla, insanın təsərrüfat fəaliyyətinin təsiri altında yeni xassələr əldə edir. Son əsrdə Azərbaycanda dağ meşələrinin nizamsız şəkildə qırılması torpaqların eroziyasına, yamaclarda yarğan şəbəkəsinin inkişafına, sel axınlarına, torpaq sürüşmələrinə, ərazinin aridləşməsinə, bulaqların, çayların qurumasına və nəticədə qiymətli bitkilər altındakı sahələrin ciddi şəkildə azalmasına gətirib çıxarmışdır. Uzun müddət yay və qış otlaqlarında otlaq yükünün normadan 4-5 dəfədən çox yüklənməsi və bütövlükdə sistemsiz otarma səbəbindən

faydalı yem bitki örtüyünün geobotaniki tərkibinin dəyişməsi və onların məhv olması, bitki qruplarında strukturlar inkişaf mühitinin pozulması, zərərli, zəhərli, tikanlı, yeyilməyən alaq otlarının geniş yayılması ilə nəticələnmişdir. Yüksək dağlıq ərazilərdə tək bitki deyil, torpaq örtüyündə də təbii strukturun pozulması sel prosesləri üçün aşınma materiallarının yuyulub aparılmasına zəmin yaradır. Bununla əlaqədar ətraf mühitdən səmərəli və dayanıqlı istifadə, onun mühafizəsi, yaxşılaşdırılmasının və elmi əsaslarının hazırlanması müasir dövrün aktual elmi və praktiki problemlərindəndir. Cəmiyyət və təbiət arasında münasibətlərin optimallaşdırılması əsaslı elmi nəzəriyyələrə söykənməklə həyata keçirilməlidir. Belə bir nəzəriyyənin işlənməsində ekoloji istiqamətdə olan elm sahələri, xüsusən də torpaqşünaslıq elmi əhəmiyyətli rol oynaya bilər.

V.K.Pestrakovun (1977) göstərdiyi kimi, torpaqəmələgəlmənin ekoloji amili kimi insanın təsərrüfat fəaliyyətini iki müstəqil təsir qrupuna bölmək mümkündür: 1) bilavasitə torpaq kütləsinə təsir göstərən, onun xassələrini dəyişən və 2) dolayısı ilə təsir göstərən, onun xassələrini dəyişən və dolayısı ilə təsir göstərən.

Müəllifin fikri ilə razılaşaraq bizim tərəfimizdən bilavasitə təsir göstərən amillər dörd müstəqil yarımqrupa bölünmüşdür: 1) fiziki-mexaniki (mədəni əkin qatının yaradılması və dərinləşdirilməsi); 2) meliorativ (torpağın zərərli duzlardan yuyulması, qurudulması, suvarılması, əhənglənməsi, gipslənməsi, drenaj-kollektor şəbəkəsinin çəkilməsi); 3) kimyəvi (torpağa üzvi və mineral gübrələrin, kimyəvi preparatların verilməsi); 4) bioloji (əkin dövriyyəsində bitkilərdən və baktereoloji gübrələrdən istifadə. Dolayı təsirə torpağın mexaniki (daşların səthdən təmizlənməsi, ağac və kolların kökündən çıxarılması, torpağın hamarlanması) cəhətdən yaxşılaşdırılması aid edilir.

Əkin torpaqlarında becərilən bitkilərin məhsuldarlığının artırılmasının çox vacib şərti gübrələrin geniş tətbiqidir. Belə ki, məsələn, qeyri-qaratorpaq zonada bir kiloqram gübrə (qi-

da maddələrinin tərkibinin 100% hesabı ilə) taxılın məhsuldarlığına 5,0 kq, meşə-çöldə 4,9 kq, çöldə – 4,0 və quru çöldə – 3,3 kq/ha artım verir.

Azərbaycanda kənd təsərrüfatı bitkiləri altında gübrələrin tətbiqi 70-80-ci illərdə artma istiqamətində olmuşdur. Məsələn, 1979-cu ildə mineral gübrələrin orta miqdarı 1560 min ton, 1980-ci ildə 1700 min ton, üzvi gübrələrin torpağa verilmiş miqdarı isə 1979-cu ildə 1274 min ton, 1980-ci ildə 1300 min ton olmuşdur. Laikn 80-ci illərin ikinci yarısından etibarən bu göstəricilərin tədricən azalması müşahidə edilmişdir. Deyilənlərdən məlum olur ki, müxtəlif kənd təsərrüfatı bitkiləri altında torpaqlardan istifadə və onların münbitliyinin artırılması antropogen amillərin uçota alınması ilə sıx əlaqədardır. Bu amillərin torpağın münbitliyinə və bonitet balına təsirinin öyrənilməsi ilə İ.D.Davlyatşin (1977), R.İ.Lunyova, L.İ.Ryabinina (1979), Q.Ş.Məmmədov (1980, 1997) və b. tədqiqatçılar məşğul olmuşlar. Antropogen amillərin torpağın bonitet balına və kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına təsirin təshih əmsalları vasitəsilə nəzərə alınması Q.Ş.Məmmədov (1980) tərəfindən işlənmişdir.

Antropogen amillərdən danışarkən ərazinin torpaq örtüyünə eroziya proseslərinin təsirini nəzərə almamaq mümkün deyildir. Əslində eroziya təbii proses olsa da, Azərbaycan şəraitində onun coğrafi yayılması və intensivliyi insanın çoxsahəli təsərrüfat fəaliyyətinin təsiri altında formalaşaraq inkişaf edir.

Respublikanın ümumi sahəsinin 3785,0 min hektarı və ya 43,8% müxtəlif dərəcədə külək və su eroziyasına məruz qalmışdır. Bunlardan 16,3%-i zəif, 13,3%-i orta və 14,2%-i şiddətli dərəcədə eroziyaya uğramışdır. Külək eroziyası Qobustan, Abşeron rayonlarında, Dəvəçi-Xaçmaz bölgəsinin dənizsahili hissələrində və eləcə də Neftçala və Salyan düzlərində tuğyan edir. Xüsusilə, Qobustanda ərazinin 55,6%-i külək eroziyasına məruz qalmış sahələrdir.

Bu göstərici Abşeronun ərazisində 43% təşkil edir ki, bunun da 12%-i şiddətli eroziyaya məruz qalmış sahələrə aid edilir. Külək eroziyasının kənd təsərrüfatına vurduğu ziyan heç də su eroziyasının vurduğu ziyandan az deyildir.

Eroziya proseslərinə insanın təsərrüfat fəaliyyətinin, xüsusən də suvarma, meşələrin qırılması, otarma, becərmənin təsiri böyükdür. Ona görə də torpaqların bonitirovkası zamanı torpaqların eroziyaya uğrama dərəcəsinin antropogen amillərin təsiri kimi nəzərə alınması vacibdir.

Bütün deyilənlər bizə insan fəaliyyətinin torpaqəmələgəlmə prosesinin güclü ekoloji amilinə çevrilməsindən xəbər verir. Yalnız bu təsiri ətraflı öyrənməklə torpaqların istehsal qabiliyyətinin, bitkilərin məhsuldarlığının yüksəldilməsinə, eyni zamanda torpağın bioloji funksiyasının bərpasına nail olmaq mümkündür.

II Fəsil. TORPAQ ÖRTÜYÜ STURKTURUNUN VƏ TƏRKİBİNİN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Azərbaycanın torpaq örtüyü özünün mürəkkəb quruluşu ilə seçilir. Tropik meşələri və savannaları çıxmaqla planetin bir çox landşaft formaları və iqlim tipləri respublika ərazisində müşahidə edilir. Respublika torpaqları özünün coğrafi paylanmasına görə ərazinin yüksəkliyinin dəyişməsi ilə əlaqədar şaquli zonallıq qanunauyğunluğuna tabedir. Torpaq örtüyünün formalaşmasına həlledici təsir göstərən iqlim və bitki örtüyündəki fərqlər də onunla əlaqədardır. Hər bir zona daxilində genetik birləşməsi mikroiqlim, bitki, relyef və torpaqəmələgətirən süxurları, yəni torpaq ekologiyasının bütün amillərinin yerli fərqlərinin təsiri ilə yaranan torpaq yarımtipi, cins və növmüxtəlifliklərinin rəngarəng kompleksi ilə təmsil olunmuşdur.

Torpaq ehtiyatlarının müxtəlif yekcins formalarının öyrənilməsini torpaq coğrafiyasının ən vacib və aktual problemlərindən sayılır. Bu problemlərin öyrənilməsi torpaqşünaslıq elminin baniləri olan V.V.Dokuçayev, N.M.Sibirtsev, S.S.Neustruyev, S.A.Zaxarov, L.İ.Prasolov, N.A.Dimo və başqaları tərəfindən başlanmışdır.

Lakin müasir mərhələdə torpaq örtüyü strukturunun (TÖS) öyrənilməsində V.M.Fridland (1967, 1972, 1980), Y.M.Qodelman (1969, 1975, 1981), İ.A.Krupenikov, Y.M.Qodelman, A.M.Xolmesko (1972), Y.K.Yuodis (1967, 1972), D.Qurtmuradov (1980) və başqalarının apardığı işləri daha dəyərli olmuşdur. Torpaq örtüyü strukturunun müxtəlifliyi (komplekslər, ləkələr, birləşmələr, variasiyalar, mozaikalar), mənşəyinin ümumi qanunauyğunluğu, təkamülü, strukturunun coğrafiyası və onların qiymətləndirilməsinin prinsipləri respublikamızda kifayət qədər öyrənilməmişdir (Volobuyev, 1963, 1972). Bizim tərəfimizdən (Q.Ş.Məmmədov, 1980, 1981, 1983, 1990, 1997) respublikamızın müxtəlif torpaq zonalarında və landşaft komplekslərində bu məsələlər qismən öyrənilə-

rək dəqiqləşdirilsə də, problem hələ də gələcək tədqiqini gözləyir. Torpaq örtüyünün strukturu zona, yarımzona, əyalət daxilində torpaq örtüyünün qeyri-yekcinsliyidir (V.M.Fridland, 1972). Bu qeyri-yekcinsliyi yaradan amillər isə elə torpaqəmələgətirən relyef, iqlim, bitki örtüyü, heyvanat aləmi, torpaqəmələgətirən süxurlar, torpağın yaşı, tarixi və nəhayət antropogen amillərdir. Qeyd edək ki, V.M.Fridland bu məsələləri öz tədqiqatlarında qeyd etməsə də, torpaq örtüyü strukturu anlayışı tamamilə ekoloji anlayışdır.

Fikrimizcə, torpaq örtüyü strukturunun yaranması təbii zonallıq və ərazinin relyef quruluşu ilə əlaqədardır. Bu məsələ də V.R.Volobuyevin (1963) tədqiqatlarında öz əksini daha yaxşı tapmışdır. Onun konsepsiyasında V.M.Fridland (1972) tərəfindən elə daxil edilmiş «torpaq örtüyünün differensiya amilləri» anlayışının yeni izahı verilmişdir. Bu isə eyni iqlim şəraitində torpaq örtüyünün qeyri-yekcinsliyini, yəni torpaq örtüyünün strukturunu təşkil edən müxtəlif torpaqların qeyri-yekcinslərini yaradan səbəbləri aşkara çıxarır. Bu amillər içərisində daha universal olanı, yəni nəmliyin, maddə və istiliyin paylanmasına güclü təsir göstərəni relyefdir. Digər tərəfdən, torpaqəmələgətirən süxurların qeyri-yekcinsliyinin, qrunt suyunun, canlı orqanizmlərin fəaliyyətinin və bir çox başqa amillərin də torpaq örtüyü strukturunun formalaşmasında rolu böyükdür.

Y.M.Qodelman, X.İ.Leyb, A.N.Puqayev (1975) belə hesab edirlər ki, TÖS parametrləri torpaq tədqiqatlarının miqyasını, torpaq xəritələrinin tərtibi üçün götürülmüş nöqtələrin sayını, o cümlədən əvvəllər tərtib edilmiş torpaq örtüyünün şəkillərinin dəqiqlik dərəcəsini müəyyən etmək üçün obyektiv göstərici ola bilər.

Bu baxımdan Azərbaycanın torpaq örtüyünün relyef şəraitindən asılı olaraq öyrənilməsi və bununla əlaqədar olaraq onun müxtəlif forma və kateqoriyalarının ayrılması böyük maraq kəsb edir. Bunlar aşağıdakılardan ibarətdir:

1. Parçalanmış və zəif parçalanmış dalğavari və hamar alçaq düzənliklər. Bu sahələrin mütləq yüksəklikləri 200-250 m-dən artıq olmayıb, çaylararası yerlərdə nisbi yüksəkliyinin tərəddüdü 5-15 m, yamacların meyilliyi isə 2^0-dən artıq deyildir. Bu qrupa Salyan, Neftçala, Ağcabədi, Zərdab, Ucar, Ağdaş, Yevlax və s. rayonların ərazisi daxildir. Burada relyef torpaq ehtiyatlarının əkinçilikdə istifadəsinə çətinlik törətmir, çünki torpaq örtüyü strukturu kifayət qədər sadə görkəmə malikdir.

2. Parçalanmış (təpəli, pilləli) düzənliklər. Bu düzənliklərin mütləq yüksəkliyi 200-500 m, nisbi yüksəkliklərin tərəddüdü 50-150 m, çaylararası və suayrıcı yamacların meyilliyi 0,5-2^0, daha çox parçalanmış və təpəli olan sərhədlərdə isə 10-25^0-dir. Eroziya şəbəkəsinin sıxlığı 0,5-2,3 km-dir. Bu qrupa Zəngilan, Cəbrayıl, Füzuli, Ağdaş, Ağdərə, Goranboy, Tovuz, Qazax, Şamaxı, Ağsu və başqa rayonlar daxildir. Bu ərazirlərdə torpaq örtüyü strukturu nəzərə çarpacaq dərəcədə mürəkkəb olub, əkinçilikdə istifadə üçün müəyyən çətinliklər törədir. Çox hallarda eroziya əleyhinə tədbirlərin həyata keçirilməsi tələb olunur.

3. Parçalanmış dağətəyi, alçaq yayla. Bu ərazilərin mütləq yüksəkliyi 500-1000 m, nisbi yüksəkliklərin tərəddüdü 100-200-dən 400 m-ə kimi yamacların meyilliyi 10-15^0 və 25^0, eroziya şəbəkəsinin sıxlığı 0,5-dən 2-3 km-ə kimidir. Çaylararası sahələrdə bir kvadrat kilometrdən 10 kilometrə kimi olan zəif parçalanmış, meyilli (1-5^0) sahələr vardır. Bu qrupa Qazax, Xanlar, Qubadlı, Zəngilan, Əskəran, Oğuz, Qusar və başqa rayonlar daxildir.

Bu ərazilərin əkinçilikdə istifadəsi, hamar çaylararası sahələri çıxmaqla, xüsusi texniki, eroziya əleyhinə mübarizə tədbirlərinin görülməsi və yamaclarda terrasların salınmasını tələb edir.

4. Yüksək dağlıq yayla və yayla (hamarlanmış relyefi olan çətin mənimsənilən ərazilər). Bura Gədəbəy, Kəlbəcər, Laçın, Qusar, Quba, Şəki, Zaqatala, Lerik, Yardımlı və başqa rayonların bir hissəsi daxildir. Mütləq yüksəkliyi 1000 m-dən

2000 m-ə kimi dəyişir.

Nisbi yüksəklikləri 400-1200 m, yamacların meyilliyi çaylararası hamar sahələrdə 1-5^0 parçalanmış vadi zonalarda 25^0, bəzən isə daha çoxdur. Eroziya şəbəkəsinin sıxlığı 3-5 km, vadi zonalarında isə 0,5-0,2 km-dir. Ərazinin əkinçilik baxımından mənimsənilməsi onun çətin relyef şəraiti ilə əlaqədardır və əsasən yay otlaqları kimi istifadə olunur.

5. Parçalanmış dağlar və yaylalar. Qeyd edilən ərazilərin mütləq hündürlüyü 2000-3500 m və daha çox, nisbi yüksəkliklərin tərəddüdü isə 500 m-dən çoxdur, yamacların meyilliyi 20-25^0, eroziya şəbəkəsinin sıxlığı 1 km-dən azdır. Nisbətən hamar parçalanmış sahələr lokal şəraitdə müşahidə edilir. Bu qrupa Qusar, Quba. İsmayıllı, Zaqatala, Lerik, Kəlbəcər, Culfa, Ordubad və başqa rayonların ərazisi daxildir.

Geomorfoloji şərait (relyefin plastikası) əkinçiliyin inkişafına ciddi şəkildə mane olur. Bu zona əsasən yay otlaqları kimi istifadə edilir.

Qeyd edək ki, torpaq örtüyünün strukturunun xəritələşdirilməsi zamanı relyefin plastikası metodundan istifadə daha çox səmərə verir (İ.N.Stepanov, 1992). Relyefin plastikası adı altında quru səthin dəqiq (detal) topoqrafik xəritələr və müxtəlif miqyaslı aerokosmik şəkillər əsasında müəyyənləşdirilən geomorfoloji elementləri başa düşülür.

Hələ 1948-ci ildə V.R.Volobuyev Azərbaycanın təbii meliorativ obyektlərinin xəritələşdirilməsi zamanı relyefin plastikası metodundan istifadə etmişdir. Relyefin plastikasının şəkilləri əsasında belə xəritələrin tərtibi ilk dəfə 1956-1965-ci illərdə «Azərsulayihə» İnstitutunda torpaq, bitki və qrunt suyunun 1:10000 və 1:250000 miqyasında xəritələrinin hazırlanması zamanı istifadə olunmuşdur (S.Q.Arsitov, P.S.Panin, İ.N.Stepanov).

Relyefin plastikasının materialları əsasında V.R.Volobuyevin rəhbərliyi altında 1962-ci ildə «Çay gətirmə konusları üçün suvarma meliorasiya tədbirləri sistemi» adlı monoqrafiya dərc olunmuşdur. Sonralar Kür-Araz ovalığının şorlaş-

mış torpaqlarının relyefin plastikasına dair əsərlər dərc olunmuşdur (Q.Z.Əzizov, 1981, H.H.Hüseynov, 1982, Ə.Q.Quliyev, 1984), F.D.Ayvazov (1989), H.M.Hacıyev (1990), A.Xəlilova öz elmi-tədqiqat işlərini apararkən həmin tədqiqatlarında bu metodikaya müraciət etmişlər.

Yuxarıda adları çəkilən işləri nəzərə almasaq, V.R.Volobuyev tərəfindən təklif edilmiş relyefin plastikası metodu Azərbaycanda demək olar ki, unudulmuş hələ də öz geniş tətbiqini tapmamışdır. Lakin bu metod Rusiya EA-nın Toraqşünaslıq və Fotosintez İnstitutunda İ.N.Stepanovun (1977, 1984, 1986) və b. rəhbərliyi altında uğurla inkişaf etdirilir. Həmin institutda bir sıra dəyərli işlər görülmüşdür. Belə ki, bu qəbildən olan xəritələrdə torpağın, onun qranulometrik tərkibinin, şorlaşmasının, litoloji-filtrasiya qabiliyyətinin, qum yığınlarının qalınlığının, geobotaniki, qrunt suların dərinliyinin, eroziya-defliyasiya rayonlaşdırılması, su və torpaq ehtiyatlarından səmərəli istifadə və onların mühafizəsi (Özbəkistan, Türkmənistan. Qazaxıstan, Moskva ətrafı, Azərbaycan və b. regionlar üzrə) üçün hazırlanmışdır.

Qeyd edək ki, topoqrafik xəritə əsasında yer səthinin strukturunu müəyyən etmək mümkündür. Sonuncu isə lokal səpkidə də olsa, bir çox hallarda biosfer rejimlərini və onun vacib komponenti olan torpağı formalaşdırır. Ona görə də relyefin plastikası bizim tərəfimizdən torpaq, kənd təsərrüfatı və meşə torpaqlarının bonitet kartoqramı tərtib edilərkən topoqrafik əsas kimi götürülmüşdür. Bizim hazırkı tədqiqat işlərimizdə və mövcud monoqrafiya hazırlanarkən torpaq xəritələrinin və bonitet kartoqramlarının tərtibi zamanı Azərbaycan Respublikasının 1:200000 miqyasında relyefin plastikası xəritəsindən (V.R.Volobuyev, Q.Ş.Məmmədov, 1984) istifadə edilmişdir.

Torpaq örtüyünün kontrastlıq dərəcəsinə torpaq örtüyü strukturunun çox vacib hissəsi kimi baxılmalıdır; əslində onun çox kiçik ölçülərində strukturun qeyri-yekcinsliyini yekcins hesab etmək mümkündür, belə ki, göstərilən hal tor-

paq örtüyünün rəngarəngliyi ilə bağlı təsərrüfat çətinliklərini azaldır.

Torpaq örtüyünün rəngarəngliyi, ərazinin geomorfologiyasından da asılıdır (Y.K.Yoodis, 1967). Mil düzənliyində bir qədər yekcins torpaq örtüyü keçmiş Orconikidze adına kanal və Qaraçay boyunca müşahidə edilir. Nisbətən rəngarəng torpaq örtüyü təpəli relyef şəraitində, xüsusən də Ağdam və Füzuli rayonları ərazisində qeydə alınmışdır.

Torpaq örtüyünün rəngarəngliyi onun tərkibi ilə əlaqədardır. Torpaqlar qranulometrik, şorlaşma, şorakətləşmə, eroziya, bataqlaşma, mədəniləşmə səviyyəsinə və s. görə nə qədər müxtəlif olursa, həmin ərazinin torpaq örtüyü bir o qədər rəngarəng olacaqdır. Məsələn, Dağlıq Qarabağın Böyük Haramı düzündə 10 min hektara yaxın sahə 9 torpaq konturuna ayrıldığı halda, Beyləqan rayonunun «Çaylaxlı» ərazisində cəmi 3 min hektara yaxın sahədə də 9 torpaq müxtəlifliyi müəyyən edilmişdir.

Çoxillik torpaq və bonitirovka, o cümlədən iri miqyaslı tədqiqatlar nəticəsində Mil düzünün torpaq örtüyü rəngarəngliyinə görə tərəfimizdən (Q.Ş.Məmmədov, 1980) aşağıdakı qruplara bölünmüşdür:

1. Çox rəngarəng 1:100000 miqyaslı torpaq xəritəsində torpaq müxtəlifiyinin konturunun orta ölçüsü 3 ha.
2. Rəngarəng – 3-10 ha
3. Az rəngarəng – 10-30 ha
4. Yekcins – 30-100 ha
5. Çox yekcins – 100 ha

Y.K.Yoodis (1967) belə hesab edir ki, torpaq örtüyü strukturunu səciyyələndirən ikinci çox vacib göstərici onun kontrastlığıdır. Yaxşı məlumdur ki, bu xassələrin torpaq istifadəçiliyinin xarakterindən asılı olaraq əhəmiyyəti eyni deyildir.

Y.M.Qodelman (1981) Moldova şəraiti üçün torpağın genetik sırasına, qranulometrik tərkibinə. yuyulmasına, avtohidromorfluğuna, şorlaşmanın dərəcə və tipinə, torpaq profi-

lində narın qatın qalınlığına, mədəniləşmə səviyyəsinə görə kontrastlığını təklif edir.

Y.M.Qodelmanın (1981) təklif etdiyi model ilə razılaşaraq, Azərbaycan torpaqlarının bir sıra mühüm bioekoloji parametrlərini nəzərə almaqla torpaq xassələrinin üç qrupu üçün öz modelimizi (cədvəl 1) təklif etmişik:

Cədvəl 1

Torpağın qranulometrik tərkibinə və yuyulma gətirilmə dərəcəsinə görə kontrastlığının müəyyən edilməsi

S/s	Genetik sıra	Kontrastlıq, %		Qranulometrik tərkibinə görə sıra	Kontrastlıq, %		Torpağın yuyulma və gətirilmə kateqoriya sırasına görə	Kontrastlıq, %	
1	2	3		4	5		6	7	
1	Dağ-çəmən	0	89	Gilli	0	80	Gətirilmə	0	113
2	Qonur dağ-meşə	12	87	Ağır gillicəli	25	90	Yuyulmamış	20	100
3	Qəhvəyi dağ-meşə	24	85	«-----»	-	-	Zəif yuyulmuş	40	80
4	Dağ qara-torpaq	37	100	Orta gillicəli	50	100	Orta yuyulmuş	60	50
5	Sarı	61	94	«-----»	-	-	Şiddətli yuyulmuş	80	25
6	Şabalıdı	49	80	Yüngül gillicəli	75	89	Çox şiddətli yuyulmuş	100	15
7	Boz və boz-qonur	73	66	Qumsal	100	60	-	-	-
8	Şorakətlər	100	10	«-----»	-	-	-	-	-

1) onların genetik və təsnifat mənsubiyyəti; 2) qranulometrik tərkibi; 3) torpağın yuyulma və gətirilmə dərəcəsi.

Kontrastlığı müəyyən etmək üçün adı çəkilən üç parametr zonal torpaqların əsas müxtəlifliyini əhatə etsə də, bu müxtə-

lifliyi tam əhatə edə bilmir. Ona görə də tərəfimizdən M.P.Babayevin (1982) məlumatları əsasında torpağın avtohidromorfluğuna, şorlaşma dərəcəsinə və tipinə görə kontrastlığı müəyyən etmək üçün sıra təklif olunmuşdur (cədvəl 2,3).

Cədvəl 2

Torpağın avtohidromorfluq sırasına görə torpaq örtüyünün kontrastlığının müəyyən edilməsi

S/s	Torpağın kateqoriyası	Qrunt suyunun səviyyəsi	Kontrastlıq, %
1	Avtomorf torpaqlar	-	0
2	İrriqasion-avtomorf	6	25
3	İrriqasion-hidromorf	2-4	75
4	İrriqasion-izafi rütubətləşmiş	1,25	100

Cədvəl 3

Torpağın şorlaşma dərəcəsinə və tip sırasına görə kontrastlığının müəyyən edilməsi

Volobuyevə görə şorlaşma dərəcəsi	Şorlaşma tipi	Kontrastlıq, %	
		Y.M.Qodelmana görə	Torpağın bonitet balına görə
1	2	3	4
Şorlaşmayan <0,25	-	0	100
Zəif şorlaşmış 0,25-0,50	Sulfatlı Xlorlu-sulfatlı	7 21	77
Orta şorlaşmış 0,50-1,00	Sulfatlı Xlorlu-sulfatlı Sulfatlı-xlorlu	28 35 42	53
Şiddətli şorlaşmış 1,00-2,00	Sulfatlı Xlorlu-sulfatlı Sulfatlı-xlorlu	49 56 63	15

1	2	3	4
Çox şiddətli şorlaşmış 2,00-3,00	Sulfatlı Xlorlu-sulfatlı Sulfatlı-xlorlu	70 77 84	10
Şoranlar >3,00	Sulfatlı Xlorlu-sulfatlı Sulfatlı-xlorlu	91 95 100	10

Göründüyü kimi, 3-cü cədvəldə təkcə quru qalıq deyil, o cümlədən şorlaşmanın tipi də nəzərə alınmışdır. Ayrı-ayrı torpaq zonaları üçün torpaq örtüyü strukturunun formalaşmasında şorakətləşmə dərəcəsi də böyük rol oynayır (cədvəl 4) ki, bunu da torpaqların qiymətləndirilməsi zamanı nəzərə almaq mümkündür.

Cədvəl 4

Torpağın şorakətlilik dərəcəsinə görə kontrastlığının müəyyən edilməsi

Şorakətləşmə dərəcəsi	Kontrastlıq, %	
	Y.M.Qodelmana görə	Torpağın bonitet balına görə
Şorakətləşmiş	0	100
Zəif şorakətləşmiş	33	90
Orta şorakətləşmiş	66	75
Şiddətli şorakətləşmiş	100	50

Məlumdur ki, narın torpaq qatının qalınlığı onun səciyyəsi zamanı mühüm rol oynayır. Cədvəl 5-də narın torpaq qatının qalınlığına görə kontrastlıq sırası verilmişdir. Qalınlığa görə kontrastlıq sırasındakı torpaqlar dörd qrupa bölünür. Nəzərə alsaq ki, müxtəlif genetik tiplərin profilinin faktiki qalınlığı müxtəlifdir, buna diqqət edilməlidir. Son illər respublikamızın Kür-Araz ovalığında yerləşmiş torpaqların mədəniləşdirilməsi sahəsində xeyli faydalı işlər görülmüşdür. Bu baxımdan torpaq örtüyü qiymətləndirilərkən torpaq örtüyünün mədəniləş-

dirilmə səviyyəsinə görə kontrastlığın müəyyən edilməsi böyük əhəmiyyət kəsb edir (cədvəl 6). Bundan ötrü M.P.Babayevin (1982) torpaqların mədəniliyinə görə təsnifat kateqoriyasından istifadə olunmuşdur.

Cədvəl 5

Torpaq profilinin qalınlığına görə kontrastlığının müəyyən edilməsi

Qalınlığına görə torpağın kateqoriyası	Torpaq profilinin qalınlığı, sm	Kontrastlıq, %	
		Y.M.Qodelmana görə	Torpağın bonitet balına görə
Yuxa	<40	0	60
Orta qalınlıqlı	40-80	33	80
Qalın	80-120	66	100
Çox qalın	>120	100	120

Cədvəl 6

Torpağın mədəniləşməsinə görə torpaq örtüyünün kontrastlığının müəyyən edilməsi

Torpağın mədəniləşdirilməsi kateqoriyası	Qalınlıq, sm	Kontrastlıq, %	
		Y.M.Qodelmana görə	Torpağın bonitet balına görə
Mədəniləşməmiş	-	0	100
Zəif mədəniləşmiş	35-45	33	101
Orta mədəniləşmiş	45-55	66	142
Yüksək mədəniləşmiş	55-65	100	183

Yatma şəraitinə, torpaqəmələgəlmə prosesinin xarakterinə torpağın özünün inkişaf dərəcəsinə görə Kür çayının orta axarının subasar-çəmən torpaqları V.Q.Həsənov (1978) tərəfindən dörd yarımtipə bölünür. Bu təsnifat əsasında tərəfimizdən bu torpaqların kontrastlığı müəyyən edilmişdir (cədvəl 7).

Cədvəl 7

Subasar torpaqəmələgəlmə prosesinə görə torpaq örtüyünün kontrastlığının müəyyən edilməsi

Torpaqəmələgəlməsi	Kontrastlıq, %
Laylı-ibtidai subasar çəmən	0
Laylı-subasar çəmən	33
Subasar çəmən	66
Suvarılan subasar çəmən	100

Beləliklə, torpaq-qiymətləndirmə və torpaq-ekoloji tədqiqatlar zamanı relyefin plastikasını nəzərə almaqla torpaq örtüyünün rəngarəngliyinin və kompleksliyinin təyin edilməsinin əhəmiyyəti olduqca böyükdür. Belə ki, bunsuz torpaq ehtiyatlarının qorunmasını və eələcə də onların davamlı inkişafını təmin etməklə səmərəli istifadə məsələlərini həyata keçirmək müəyyən çətinliklər yaradır.

Torpaq strukturunu öyrənmək və onun təsnifatını vermək üçün torpaq kontrastlığı şkalası sisteminə böyük əhəmiyyət verməklə yanaşı, bu şkalaların məlum qeyri-mükəmməlliyini, daha doğrusu, mexaniki xarakterdə olmasını da nəzərə alınmalıdır. Bu qeyri-mükəmməllik ondan ibarətdir ki, kontrastlığın hər sırasında qonşu komponentlər arasında bərabər məsafə ayrılmışdır. Məsələn, gilli torpağın ağır gillicəlidən 25% fərqlənməsi sonuncunun orta gillicəlidən 25% fərqlənməsinə gətirib çıxarır və s. Bu hal digər şkalalara da aiddir, daha doğrusu hər yerdə cəbri yekcinslik və subyektivizm mövcuddur.

Bunu dərk edib kontrastlıq şkalalarını təkmilləşdirmək, onların ola bilsin ki, qurulma prisipləri üzərində işləmək lazımdır. Çünki nəzərə almaq lazımdır ki, torpağın təkcə kənd təsərrüfatı dəyəri və bonitirovka qiyməti deyil, onun bir sıra ekoloji funksiyaları (energetik, hidroloji, atmosfer, geokimya və s.) və biosferin vacib elementi kimi də əhəmiyyəti vardır. Odur ki, problemin bu səviyyədə həlli üçün geniş və rəgarəng

faktiki materialların toplanması tələb olunur.

Qeyd edildiyi kimi, torpaq örtüyünün kontrastlığını təyin etmək üçün göstərilən yanaşma üsulu həqiqəti tam əks etdirmir, belə ki, kontrastlıq torpağın göstərilən xassələrinin kəmiyyət kateqoriyasından asılıdır. Torpağın ayrı-ayrı xassə və əlamətlərinə görə torpaq örtüyünün kontrastlığının təyini zamanı həqiqəti əks etdirmək üçün bonitirovka məlumatlarına əsaslanmaq da vacibdir. Çünki bu rəqəmlər arxasında obyektiv meyarlar durur. Məhz bu yanaşmaların əyaniliyi üçün torpağın ayrı-ayrı xassə və əlamətlərinin kontrastlığı cədvəllərdə (1-7) göstərilmişdir.

Azərbaycanın torpaq örtüyü müxtəlif məqsədlər üçün V.R.Volobuyev (1953, 1962), K.A.Ələkbərov (1961), H.Ə.Əliyev (1962), M.E.Salayev (1966, 1991), Ə.Q.Zeynalov (1949), M.R.Abduyev (1968), X.M.Mustafayev (1975), Ş.G.Həsənov (1969, 1978), R.H.Məmmədov (1970, 1989), F.Ə.Hacıyev (1974), M.P.Babayev (1980), İ.Ş.İskəndərov (1987), B.İ.Həsənov (1983), V.H.Həsənov (1978), B.A.Cəfərov (1964), Q.Z.Əzizov (1978), Q.Ş.Məmmədov (1985, 1986, 1992, 1993, 1998, 2000, 2001, 2002), Q.Ş.Məmmədov, M.Y.Xəlilov (2004, 2005) tərəfindən tədqiq edilmişdir.

Sahəcə kiçik olmasına baxmayaraq respublika ərazisində dəniz səviyyəsindən aşağıda yerləşən ovalıq hissədən başlayaraq daimi qar və buzlaqlarla örtülmüş şaquli istiqamətdə dəyişmələri tədqiqatlarda müəyyən edilən müxtəliflik və rəngarənglik nəticəsində ərazidə torpaq-bitki örtüyünün düzən, yarımsəhra, bozqır, dağ-meşə (alçaq və orta dağlıq), yüksək dağlıq, subalp, alp və eləcə də nival qurşaqlarda formalaşıb inkişaf etdiyi göstərilmişdir.

Bu zonalar daxilində müxtəlif torpaq tipləri, yarımtipləri və növlərinə rast gəlinir ki, bu da torpaq kompleksliyini təşkil edir. Torpaq örtüyünün kompleksliyinin tərkibini təşkil edən əsas torpaq tipləri respublikanın torpaq zonaları xəritə-sxem 1-də və eləcə də 8-ci cədvəl və 1-ci şəkildə öz əksini tapmışdır. Cədvəldən görünür yarımsəhra şəraitində yayılmış boz və boz-

qonur torpaqlar respublikanın ümumi torpaq ehtiyat fondunun əsasını təşkil edir və onun kəmiyyət göstəricisi 29%-ə qədər (2493,2 min ha) yüksəlir. Burada minimum miqdar, yəni 0,9% (76,2 min ha) dağ qaratorpaqlarının payına düşür.

Cədvəl 8


Azərbaycanın torpaq örtüyünün tərkibi

S/s	Torpaq tipləri	Sahə	
		min ha	%
1	2	3	4
1	Dağ-çəmən	559,3	6,5
2	Qonur dağ-meşə	416,5	4,8
3	Qəhvəyi dağ-meşə	1212,0	14,0
4	Dağ-qaratorpaq	76,2	0,9
5	Şabalıdı	2200,6	25,5
6	Sarı	157,1	1,8
7	Boz və boz-qonur	2493,2	28,9
8	Çəmən	1050,8	12,2
9	Şoranlı, şorakətli, bataqlıq, qumluqlar, daşlı-çınqıllı, çay yataqları, çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	475,9	5,5
	Cəmi	**8641,6**	**100**

Torpaqların fiziki, kimyəvi və morfoloji xassələri, habelə mövcud bioekoloji durumu, kənd təsərrüfatında istifadə olunma istiqamətləri və digər xüsusiyyətləri barədə IV fəsildə «təbii iqtisadi bölgələrin torpaq ehtiyatları və torpaq istifadəçiliyinin vəziyyəti» bölməsində ətraflı danışılacağını nəzərə alaraq aşağıda yalnız respublika ərazisində yayılmış əsas tip torpaqların bəzi parametrlərinin qısa təsviri verilir.

Cədvəl 8

Respublikanın torpaq örtüyünün tərkibi (ha/%)




Şəkil 1

1. Dağ-çəmən torpaqları

Bu torpaqlar dağ tundra torpaqları da daxil olmaqla Böyük və Kiçik Qafqazın dəniz səviyyəsindən 1800-3000 m və daha yüksək zonalarında yayılmışdır. Dağ tundra torpaqlarının torpaqəmələgəlmə şəraiti başlanğıc-ibtidai stadiyada baş verir. Daimi qar və buzlaqlarla örtüldüyündən bioloji amillərin inkişafı və onun torpaqəmələgəlmə prosesinə təsiri çox zəifdir. Meyilli yamaclarda qar və buzlaqların aşağıya doğru hərəkətləri nəticəsində «buzlaq eroziyası» baş verir. Nisbətən sakit və az meyilli yamaclarda səpinti halında buzlaq morenlərinə rast gəlinir. Zona bütün il boyu ərazisindən axan dağ çaylarını su ilə təmin edir. Dağ-çəmən torpaqlarının ümumi sahəsi 559,3 min ha olmaqla respublikanın ümumi torpaq fondunun 6,5%-nə bərabərdir. Dağ-çəmən torpaqları alp və subalp çəmənləri ilə örtülmüş müxtəlifotlu yabanı taxıl ot bit-

TORPAQLAR

Miqiyas 1:3 000 000



Xəritə-sxem 1

kiləri altında formalaşmışdır. Qısa vegetasiya müddətində bu bitkilər güclü saçaqlı kök sistemi yaradaraq tünd rəngli, dənəvər strukturlu sıx çim qatının formalaşmasını və eləcə də torpağın üst qatlarının təbii və antropogen proseslərə qarşı davamlılığını təmin edir.

Lakin bu torpaqlar ərazidə bütöv örtük yaratmırlar, çox vaxt skeletli və primitiv profili ilə seçilirlər ki, bu da onların əsasən sal ana süxurlar və ya onların aşınmış kobud materialları üzərində əmələgəlməsi ilə əlaqədardır. Adətən torpağın yuxarı horizontları az skeletlidir və dərinə getdikcə skeletlik tədricən artır.

Nisbi aşağı temperatur (orta illik temperatur 5°C) və çoxlu miqdarda atmosfer yağıntılarının düşməsi nəticəsində bitkilərin kök sisteminin və yerüstü biokütləsinin qalıqları yarımparçalanmış şəkildə toplanır.

Dağ-çəmən torpaqları humusun yüksək miqdarı 10%-dən çox və dərinliyə getdikcə onun kəskin şəkildə azalması, mübadilə həcminin (100 qr. mütləq quru torpaqda 45-60 m.ekv.) və turş reaksiyasının (pH 5,0-5,5) olması ilə səciyyələnir.

Dağ-çəmən torpaqlar tipinə ibtidai fraqmental dağ-çəmən, torflu dağ-çəmən, çimli dağ-çəmən (subalp) və qaratorpağabənzər dağ-çəmən (çəmən-meşə) torpaqları aid edilir ki, bu torpaqlar da yüksəkdə yerləşmiş və sayca cavan olan ibtidai fraqmental dağ-çəmən torpaqlarından başlayaraq, aşağıya doğru bir-birlərini əvəz edirlər.

Dağ çəmən torpaqlarının torpaq örtüyünün strukturu Böyük və Kiçik Qafqazın, Dağlıq Talışın, Naxçıvanın bir sıra rayonlarında ibtidai fraqmental dağ-çəmən, (nival); torflu dağ-çəmən (alp); çimli dağ-çəmən (subalp) və qaratorpağabənzər dağ-çəmən (çəmən-meşə), yuyulmuş qonur dağ-meşə torpaqlarının, relyefin eroziya formalarının bu torpaqlarla müxtəlif şəkildə birləşmələrindən ibarətdir.

Dağ-çəmən torpaqları yüksək məhsuldar yay otlaqları, biçənəklər və qismən isə kartofçuluqda istifadə olunur. Çoxillik

müşahidələrdən aydın olur ki, (B.A.Cəfərov, 1980) köküyumrulu bitkilər və xüsusilə kartof əkinləri altında istifadə olunan sahələrdə ilkin çəmən bitki örtüyünün təbii bərpası uzun müddətə (20-25 il) mümkün olur. Sonradan dincə qoyulmuş belə sahələrdə müxtəlif alaq otlarının zəif inkiaşfı nəzərə çarpsa da, çim qatı yaradan xüsusi çəmən bitki növlərinin inkişafı müşahidə edilmir. Ümumiyyətlə, köküyumrulu bitkilərin dağ-çəmən torpaqlarında əkib-becərilməsi onun eroziyaya uğramasına əlverişli şərait yaradır. Hazırda yay otlaqları kimi istifadə olunan ərazilərin 75,5%-i (447,6 min ha) təbii və antropogen proseslərin təsiri nəticəsində müxtəlif dərəcədə eroziyaya uğramış sahələrdən ibarətdir. Ona görə də belə torpaqların qiymətləndirilməsi zamanı kriteriyalar seçilərkən bu cəhətlər mütləq nəzərə alınmalıdır. Bu torpaqların ekoloji əhəmiyyəti onlardan təkcə kənd təsərrüfatında istifadə ilə bitmir, eləcə də onlar dağlıq ərazilərin hidroloji rejiminin tənzimlənməsində və onların ətraf mühitlə vəhdətində mühüm rol oynayır. Ona görə də bu torpaqların şumlanıb əkilməsi yolverilməzdir.

2. Qonur-dağ-meşə torpaqları

Bu torpaqlar Böyük və Kiçik Qafqazın, qismən isə Talış dağlarının 600-1800 (2000) m yüksəkliklər arasında yayılmışdır və ümumi sahəsi 416,5 min ha olmaqla ümumi respublika torpaq ehtiyat fondunun 4,8%-ni təşkil edir. Əsasən orta dağlıq zonanın enli yarpaqlı fıstıq, vələs ağac cinslərindən təşkil olunmuş mezofil meşə örtüyü altında intişar tapmışdır. Mülayim isti rütubətli subtropik iqlim şəraitində qonur dağmeşə torpaqlarının formalaşması burada müxtəlif ekoloji şəraitdə çoxtipli və çoxnövlü qonur meşə torpaqlarının əmələ gəlməsinə səbəb olmuşdur. Yağıntıların illik miqdarı 500-1400 mm və havanın orta illik temperaturu 8-12^0 olub, müxtəlif rayonlarda kəskin tərəddüdə malikdir ki, bu da torpaqların müxtəlifliyini şərtləndirir.

Qonur dağ-meşə torpaqları yekcins profilə malikdir: Qranulometrik tərkibi əsasən gillicəli və ağır gillicəlidir. Aşağı qatlarda skeletlilik artır. Onlar üçün humusun yüksək (5-12%) miqdarı və profilboyu aşağıya doğru azalması səciyyəvi haldır. Udulmuş əsasların cəmi üst qatlarda yüksək olmaqla 28-40 və bəzən isə 60 m ekv. arasında dəyişir. Udulmuş əsasların miqdarının profilboyu dəyişməsi şübhəsiz ki, onun qranulometrik tərkibilə sıx əlaqədardır. Bununla əlaqədar olaraq torpağın mühit reaksiyası da zəif turş, neytral və zəif qələvidir (pH 5,5-7,7). Qonur dağ-meşə torpaqlarına yuyulmuş dağ-meşə, meşə altından çıxmış qonur, çimli dağ-meşə, çimli-karbonatlı qonur dağ-meşə, doymamış qonur dağ-meşə, qalıq karbonatlı qonur dağ-meşə torpaqlar da aid edilir.

Qonur dağ-meşə torpaqlarının torpaq örtüyü strukturu, onun dağ-çəmən və qəhvəyi dağ-meşə torpaqları arasında aralıq mövqe tutması ilə şərtlənir. Ona görə də Böyük və Kiçik Qafqazın bir sıra vilaytələrində torpaq örtüyünün strukturu qonur dağ-meşə torpaqları, dağ-çəmən torpaqları, yuyulmuş qəhvəyi və çəmən qəhvəyi torpaq birləşmələrindən ibarətdir. Qəhvəyi torpaqların arealı qonur dağ-meşə torpaqları müxtəlif dərəcəli tipiklik, yuyulma, karbonatlılıq, bozqırlaşma və qalınlıq xüsusiyyətlərini əks etdirən ləkələrdən ibarətdir.

Relyefin erozion formalarının üstünlük təşkil etdiyi ərazilərdə torpaq örtüyü strukturu əvvəlki zonada olduğu kimi, eroziyaya uğramış torpaqların yarğan-dərə kompleksi ilə birləşmə əmələ gətirir. Respublikanın meşə fondunun böyük hissəsi qonur dağ-meşə torpaqları zonasında yerləmişdir ki, bu ərazilər də digər zonaların hidroloji rejimlərinin formalaşmasında mühüm rol oynayır. Coğrafi baxımdan respublikanın müxtəlif regionlarında qonur torpaqların əmələ gəlməsində mühüm rol oynayan meşələrin, xüsusilə son illərdə güclü antropogen təsirlərə məruz qalması nəticəsində onun cins tərkibi dəyişməklə məhsuldarlığı xeyli aşağı düşmüşdür.

3. Qəhvəyi dağ-meşə torpaqları

Qəhvəyi meşə torpaqlar qonur dağ-meşə torpaqlarına nisbətən arid iqlim şəraitində, yəni illik yağıntıların miqdarı 400-500 mm yüksək olmayan və orta illik temperaturu 12^0-ə çatan şəraitdə əmələ gəlmişdir. Bu torpaqlar Böyük və Kiçik Qafqazın və Lənkəran vilayətinin alçaq dağlıq, dağətəyi və qismən orta dağlıq qurşağında 600-1200 m yüksəkliyi olan sahələrdə yayılmışdır. Bəzən onun aşağı sərhədi 200 m-dən az yüksəkliyə qədər enir. Quraqlığa davamlı və nisbətən alçaqboylu meşə ağac cinsləri xüsusilə şərq palıdı, vələs ağacları və bunlarla qarışıq halda olan əzgil, alça, zoğal, yemişan və s. kimi kserofit kol bitkiləri yayılmışdır. Ümumi sahəsi 1212,0 min ha olmaqla ümumi torpaq fondunun 14%-ni tutur. Bu tip torpağın əmələ gəlməsi meşələrin tədricən seyrəkləşməsi, ağacları kol formasiyasının əvəz etməsi ilə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, hazırda insanın təsərrüfat fəaliyyəti nəticəsində ən çox dəyişikliyə uğramış qəhvəyi meşə torpaqlarıdır. Meşə örtüyü məhv edilmiş sahələrin bir qismində dənli bitkilər becərilir, müəyyən bir hissəsində meyvə bağları salınmışdır. Boş qalmış sahələrin bir qismi sıx kserofit kolluqlarla örtülmüş, digər qismi isə otlaq və biçənək sahələri kimi istifadə olunur.

Meşə örtüyünün seyrəkləşməsi və ot bitkilərinin yaxşı inkişafı torpaqda böyük miqdarda kök və yerüstü biokütlənin toplanması, torpağın üzvi maddələrlə (humu 3-7% və daha çox) zənginləşməsinə səbəb olmuşdur. Əksər halda narın torpaq qatı qalın olan qəhvəyi torpaqlarda humus horizontunun strukturu qozvari və xırda dənəvər olmaqla qranulometrik tərkibi əsasən gilli və ağır gillicəlidir. Qonur dağ-meşə torpaqlarına nisbətən daha gillidir və bəzən gilləşmə prosesi allüvial qatda da müşahidə edilir. Torpağın «B» horizontu daha ağır qranulotmerik tərkibi ilə seçilir (<0,01 mm 75% və daha çox olur), pH neytrala yaxındır, əsaslarla orta və yüksək dərəcədə doymuşdur. Bu torpaqların tərkibində udulmuş əsasların cəmi orta hesabla humus qatında 20-40 m.ekv. arasında olub,

kalsium üstünlük təşkil edir.

Qəhvəyi dağ-meşə torpaqlarının torpaq örtüyü strukturu üçün tipik, yuyulmuş və karbonatlı, alçaq dağlıq, təpəli ərazilərdə və meyilli yamaclarda eroziyalı növlərinin komplekslər və birləşmələrin yaratması səciyyəvidir.

Bu zonanın ekoloji xüsusiyyətləri qəhvəyi torpaqların profilinin morfoloji quruluşuna, mikromorfoloji xüsusiyyətlərinə, fiziki-kimyəvi xassələrinə görə rəngarəngliyini şərtləndirir ki, bu da onları aşağıdakı yarımtiplərə bölməyə imkan verir: yuyulmuş dağ-meşə, tipik qəhvəyi dağ-meşə, karbonatlı qəhvəyi dağ-meşə, bozqırlaşmış dağ-qəhvəyi və dağ boz-qəhvəyi torpaqlar.

Qəhvəyi dağ-meşə torpaqları arid seyrək meşə və meşə kolluqların altında olub torpaqqoruyucu və sutənzimləyici əhəmiyyətə malikdirlər. Yüksək potensial təbii münbitliyi ilə səciyyələnən bu torpaqlarda üzümçülük və bağçılıqda istifadə etmək üçün geniş imkanlar mövcuddur. Lakin qonur dağmeşə, torpaqlarında olduğu kimi, qəhvəyi dağ meşə torpaqları da biosfer, ekoloji funksiyalarına görə mühafizə olunmalı və bərpa edilməlidir.

4. Dağ qara torpaqlar

Dağ qaratorpaqları əksərən dəniz səviyyəsindən 550-800 m və 1200-1500 m yüksəkliyə kimi olan sahələri tutur. Meşə zonasında yayla relyef formalarında yayılması qara torpaqların meşə mənşəli olmasına əsas verir. Ümumi sahəsi 76,2 min ha (0,9%) olub, ayrı-ayrı kiçik və böyük massivlər şəklindədir. Torpaqəmələgəlmə şəraiti mülayim soyuq yarımrütubətli iqlim xüsusiyyətləri ilə səciyyələnir.

Orta illik temperatur 7-9^{0}C, yağıntılar isə 500-600 mm olub, onun da çox hissəsi yazda düşür. Bitki örtüyü taxılkimilərin üstünlük təşkil etdiyi zəngin otmüxtəlifliklərindən ibarətdir. Bitki örtüyünün tərkibində bozqır (çöl) fitosenozlarının tipik nümaynədəsi ağot üstünlük təşkil edir. Bozqır bitkiləri

torpağın üst qatında zəif də olsa, çim qatı əmələ gətirməklə yüksək humuslaşma prosesinə və dənəvər strukturun yaranmasına səbəb olmuşdur. Bu torpaqlar, eləcə də humus qatının xeyli qalınlığı (60-120 sm), karbonatların dərinliyə yuyulması və yaxşı strukturalılığı ilə səciyyələnir. Humusun miqdarına gəldikdə bu üst qatda 6-8% və daha çox, ümumi azot 0,41-0,63% təşkil edir və dərinlik üzrə tədricən azalırlar. Ağır qranulometrik tərkibi (<0,01 mm hissəciklərin miqdarı 70%), torpağın rekasiyası neytral, bəzən zəif qələvi və qələvidir. Udma kompleksində kalsium (30-50 mq. ekv), maqnezium (3-6 m. ekv.) və qismən natrium üstünlük təşkil edir. Torpaqəmələgəlmə şəraitindən asılı olaraq qara torpaqların aşağıdakı yarımtipləri müəyyən edilmişdir: yuyulmuş qaratorpaq (yağıntıların, nisbətən yüksək olduğu), kipləşmiş tipik dağ qara torpaqlar (ağır qranulometrik tərkibli) və karbonatlı dağ-qara torpaqlar.

Torpaq örtüyünün strukturunda tipik qaratorpaqların üstünlük təşkil etməsi müşahidə edilir. Bununla belə, qaratorpaqlar yarımzonasında tipik qaratorpaqlar digər yarımtiplərin iştirakı ilə birləşmələr yaradır.

Zona daxilində ləkəliyi yaradan səbəblər isə dağ qara torpaqların qalınlıq, karbonatlıq, yuyulma, daşlılıq və eroziyaya məruz qalma dərəcələrindəki fərqlərlə əlaqədardır. Hazırda bu torpaqlardan taxılçılıq, dəmyə üzümçülüyü və tərəvəzçilikdə geniş istifadə olunur. Üzvi maddələrlə zəngin olması, torpaq profilinin qalınlığı, eyni zamanda əlverişli su-fiziki xassələri bonitirovka zamanı bu torpaqları 100 bal ilə qiymətləndirməyə imkan verir.

Beləliklə, Azərbaycanın dağlıq şəraitində «torpaqların şahı» olan dağ qaratorpaqlar təkcə aqronomik baxımdan deyil, ekoloji baxımdan da İ.A.Krupenikovun (1984), S.Orlovun (1990) göstərdiyi kimi böyük əhəmiyyət kəsb edir. Belə ki, qaratorpağın tərkibindəki humus maddəsi bir neçə ekoloji funksiyasını – akkumulyasiya, daşıyıcılıq (geokimyəvi axınlardakı rolu), tənzimləyici, protektorluq (toksik maddələri özündə

saxlamaq), fizioloji rolu yerinə yetirir. Ona görə də kənd təsərrüfatı istifadəsində olan dağ qaratorpaqlardakı humusun sabit balansının düzgün becərmə, üzvi gübrələrin verilməsi, əkin dövriyyəsi vasitəsilə saxlanılmasının böyük əhəmiyyəti vardır.

5. Sarı torpaqlar

Sarı torpaqlar ancaq Lənkəran vilayətinin (alçaqdağlıq) dağətəyi və ovalıq (50-100 m) ərazilərində yayılmışdır. İlk dəfə V.V.Akumtsev bu torpaqların müəyyən edərək mənşə etibarilə onlar laterit torpaqəmələgəlmə tipinə mənsub etmişdir. Sonralar həmin torpaqlar R.V.Kovalyov (1966), B.İ.Həsənov (1983) və başqa mütəxəssislər tərəfindən tədqiq edilmişdir. Bu torpaqlar orta illik temperaturu $14,5^0$ və illik yağıntıların miqdarı cənubda 1300-1900 mm. şimalda 700-900 mm olan rütubətli subtropik iqlimin Aralıq dənizi tipi şəraitində formalaşır. Yağıntılar ən çox payız və qış fəsillərində düşür.

Sarı torpaqlar dəmirağacı və şabalıdyarpaq palıd cinslərindən ibarət üçüncü dövrün hirkan tipli meşələr altında formalaşır. Ərazinin böyük sahələri mədəniləşdirilərək çay plantasiyaları altında istifadə olunur. Zona daxilində rütubətli subtropik torpaqəmələgəlmə şəraitində qalıq karbonatlı, tipik, podzollu dağ meşə torpaqları və sarı podzollu-qleyli torpaqların yarımtiplərinin yayıldığı müəyyənləşdirilmişdir. Relyef və iqlim şəraitindən asılı olaraq torpaq profili müxtəlif qalınlığa malikdir. O, bir qədər yüngül qranulometrik tərkibə (<0,01 mm kiçik hissəciklərin miqdarı təqribən 40%) malik olub pH su suspenziyası 5,4-6,2 arasında dəyişir. Torpaq yüksək udma tutumuna malikdir (25-50 m.ekv.). Torpağın üst qatında humusun miqdarı 6-8%-ə çatır ki, o da profil boyu aşağıya doğru azalır. Zonanın düzən sahələrində düzən meşələri və eləcə də kənd təsərrüfatında mənimsənilən sahələr altında qrunt sularının səthə yaxın olduğu şəraitdə müxtəlif dərəcəli qleyli-podzollu sarı torpaqlar formalaşır. Yüksək rütu-

bətləşmə nəticəsində qleyləşmə əlamətləri ilə müşayiət olunan qleyli-podzollu sarı torpaqların qranulometrik tərkibi (0,01 mm hissəciklərin miqdarı 50-60% və daha çox) daha ağırdır; udulmuş əsaslardan kalsiumun miqdarı nisbətən az (70%), maqneziuma nisbətən isə bir qədər çoxdur (30%). Hidrogen isə demək olar ki, yoxdur. Yuxarı horizontda humusun miqdarı 3-7% olub aşağı qatlara doğru kəskin şəkildə azalır.

Torpaq örtüyünün strukturu kompleksliyi ilə səciyyələnir. Bu özünü şimal hissədə qonur dağ-meşə torpaqları ilə sərhəddə daha aydın biruzə verir. Burada sarı dağ-meşə, sarı podzollu və sarı qleyli-podzollu torpaqların əmələ gətirdiyi birləşmələri müşahidə etmək mümkündür.

Sarı dağ-meşə torpaqları əsasən meşə altında istifadə olunur ki, ekoloji nöqteyi-nəzərdən bunu düzgün hesab etmək olar.

Sarı-podzollu torpaqlar çay bitkisinin inkişafı üçün əlverişli fiziki-kimyəvi göstəricilərə malikdir: turş mühit və profilin karbonatlı olmaması; ovalıq relyefi şəraitində yerləşməsi və mexanizasiya işlərinin geniş miqyasda tətbiqi imkanlarının böyük olması; eroziya proseslərinin zəif inkişafı; qrunt nəmliyinin olması. Bu cür göstəricilərə malik olan torpaqlar çay və digər subtropik bitkiləri yetişdirməyə imkan verir. Bununla yanaşı, göstərilən torpaqlar bir sıra mənfi xassələrə də malikdir. Belə xassələrdən biri 30-40 sm-dən 100-150 sm-ə kimi dərinlikdə yayılmış «B» kipləşmiş və eləcə də qleyləşmiş qatların olmasıdır ki, bu qat çox əlverişsiz fiziki xassələrə malikdir. Torpaq örtüyünün qiymətləndirərkən bu göstəricilər mütləq nəzərə alınmalıdır.

Sarı-podzollu qleyli torpaqlar dağətəyi düzənliklərə və qədim terraslara bağlı olub, səthi izafi nəmliyin və ya qrunt sularının səthə yaxın olduğu şəraitdə formalaşır. Bu torpaqlar çay, qismən isə çəltik və tərəvəz bitkiləri altında istifadə olunur. Ona görə də bu torpaqların qiymətləndirilməsi zamanı onların aqroekoloji tələbləri mütləq nəzərə alınmalıdır.

6. Şabalıdı torpaqlar

Azərbaycan ərazisinin quru bozqır və yarımsəhra bozqırlarında yayılmış bu torpaqlar sahəsi 2200,6 min ha olmaqla ümumi torpaq fondunun 25,5%-ni təşkil edir. Şabalıdı torpaqlar başlıca olaraq 200 m yüksəklikdə dağətəyi və alçaq dağlıq qurşaqlarda yayılmışdır. Bu zona üçün əsas bitki örtüyü kserofit növdən olan yovşanlıqdır, yəni təbii şəraitdə həmin bitki üstünlük təşkil edir. Şorlaşmış sahələrdə bitki örtüyü çox seyrəkdir. Nisbətən yaxşı rütubətlənən sahələrdə yabanı taxıl fəsiləsinin nümayəndələri üstünlük təşkil edir. Şabalıdı torpaqlar öz xüsusiyyətlərinə görə (karbonat, humusun miqdarı) açıq şabalıdı, şabalıdı və tünd şabalıdı torpaqlara bölünürlər.

Açıq şabalıdı torpaqların nəmliyinin kifayət qədər olmadığı, orta illik temperaturun (13^0) yüksək olduğu quru çöllərin yarımsəhralarla kəsişdiyi ərazilərdə yayılmışdır. Zonanın bu hissəsində yağıntılar bir qədər çox (300-500 mm) olub, orta illik temperaturu $12,5^0$-dir. Bitki örtüyü quru çöl bitkilərindən ibarətdir. Humusun miqdarı 3-5% torpağın reaksiyası isə zəif qələvidir.

Şabalıdı tipinə aid torpaqlarda udulmuş əsasların cəmində kalsium üstünlük (90%) təşkil edir və bu torpaqlar ağır gillicəli qranulometrik tərkibə malikdirlər.

Şabalıdı torpaqların torpaq örtüyünün strukturunun bir qədər mürəkkəb olması, xırda konturluğu və kompleksliyinin geniş inkişaf etməsi ilə seçilir ki, bu da ərazidə şorlaşmış, şorakətləşmiş və eroziyaya uğramış torpaqların yayılması ilə əlaqədardır. Ərazidə şorlaşmış torpaqəmələgətirən süxurların səthə yaxın yerləşməsi torpaq örtüyü strukturunun formalaşmasında onların təsirini artırır. Yamaclarda eroziyaya uğramış torpaqların da torpaq örtüyünün strukturunda iştirakı ərazi üçün səciyyəvidir. Digər əlamətdar cəhət şabalıdı, açıq şabalıdı və tünd şabalıdı torpaqlarla yanaşı, torpaq örtüyü strukturunun formalaşmasında çəmən-şabalıdı, çəmən şora-

kətli torpaqların da iştirakıdır.

Əsasən pambıq, taxıl, üzüm, meyvə və qış otlaqları altında istifadə olunan şabalıdı torpaqlar aqroistehsalat nöqteyi-nəzərdən yüksək mənimsənilmişdir. Tünd şabalıdı torpaqlar əsasən dəmyə, qalan iki yarımtip isə suvarma şəraitində istifadə olunur. Şabalıdı torpaqlar arasında genetik cəhətdən ona tabe olan çəmən-şabalıdı torpaqlar da ayrılır ki, bu torpaqlar da qrunt suyunun səthə yaxın yerləşdiyi ərazilərdə formalaşmışdır. Bu torpaqlar yarımhidromorf rejimi ilə səciyyələnir.

Onu qeyd etmək lazımdır ki, şabalıdı torpağa münasibətdə Azərbaycan torpaqşünaslarının vahid fikri yoxdur. Onların böyük əksəriyyəti, o cümlədən görkəmli alimlər H.Ə.Əliyev və V.R.Volobuyev şabalıdı torpaqların mövcud olması və respublika daxilində geniş yayılması fikrini müdafiə etmişlər. V.R.Volobuyevin fikrincə, şabalıdı torpaqlar respublikamız üçün spesifik olub, məsələn, Qazaxıstanın şabalıdı torpaqları ilə eyni deyildir. Lakin M.E.Salayev uzun müddət, xüsusən özünün son monoqrafiyasında (1991) bu torpaqların bozqəhvəyi torpaqlar tipinə aid edilməsini təklif edir. Bir çox Orta Asiya torpaqşünasları kimi o da bir elmi faktı əsas götürür ki, Orta Asiya kimi Azərbaycan da subtropik bioiqlim qurşağına aid edilir. Halbuki Volqaboyu və Qazaxıstanın şabalıdı torpaqları subboreal qurşağın cənub hissəsinin daxilindədir. Bununla belə, biz bu torpaqlara şabalıdı torpaqlar kimi baxılması mövqeyindən çıxış edirik. Belə ki, 1) bu məsələ mübahisəli olaraq qalmaqdadır; 2) şabalıdı torpaqlar müxtəlif miqyaslı xəritələrdə ənənəvi olaraq möhkəm mövqe tutmuşdur və bu mövqeyi sarsıtmaq mümkün deyildir; 3) respublikanın əksər torpaqşünasları, o cümlədən praktiklər bu fikir ilə razılaşırlar; 4) bu problem prinsipial səciyyə daşıyır, çünki göstəricilərinə görə hər iki torpaq tipi nisbətən yaxın analoqdurlar və əslində subboreal və subtropik bioiqlim qurşaqlarının kontakt sərhədlərində yerləşirlər.

7. Boz və boz-qonur torpaqlar

Bu torpaqlar əsasən düzən ərazilərdə yüksəkliyi 150-200 m-dək olan sahələrdə yayılmışdır. Başlıca olaraq Kür-Araz və Xəzər sahili ovalıqlarda və Naxçıvan MR ərazisində yayılmışdır. Sahəsi 249,3 ha olub, ümumi torpaq fondunun 28,9%-ni təşkil edir. Yayı quraq olan subtropik iqlim şəraitində yayılmışdır. Onların yayıldığı ərazilərdə havanın orta illik temperaturu 14^0 olub, il ərzində 180-230 mm yağıntı düşür ki, bu da buxarlanma və bitkilərin transpirasiyasına sərf olan suyun cüzi miqdarını örtür. Bu isə həmin torpaqların quru yarımsəhra şəraitdə əmələ gəldiyini göstərir. Zona üçün xarakterik bitkilər yovşanlı-efemerli və şoran bitkiləri yarımsəhra zonasında, səth suları ilə yuyulmayan rejim şəraitində əmələ gəlir. Nisbətən cavan törəmələr olan boz torpaqlarda genetik qatlar zəif ifadə edilmişdir. Qədimdən suvarılan növlərin spesifik morfoloji əlamətləri torpaq profilində irriqasiya çöküntülərinin aydın təbəqələşməsi və əkin qatının bir qədər tünd olması ilə səciyyələnir. Müasir dördüncü dövr və Xəzər dənizi altından çıxmış çöküntülər torpaqəmələgətirən süxurların əsasını təşkil edir. Humusun az miqdarda yuxarı qatda 1,5-2% olması, səthdən karbonatlığı ilə seçilir. Torpaqlarda şorakətləşmə əlamətləri, «B» qatının kipləşməsi və zəif qələviliyi onun əsas xassələrindəndir.

Boz-qonur torpaqlar torpaq profilinin genetik horizontları aydın differensasiya olunması ilə seçilir. Başlıca olaraq bu torpaqlar aşağıdakı xüsusiyyətlər ilə səciyyələnir: humusun az miqdarı (2%-ə qədər), kipləşmiş «B» qatının olması, kalsium karbonatının və gipsin genetik qatlarda kəskin differensasiyası, gil hissəciklərinin üst qatlardan yuyulub şorakətli qatlarda toplanması. Bu torpaqlar üçün torpaq profilinin asan həll olan duzlardan yuyulması qələvi reaksiyası və gipsin daha dərin qatlarda toplanması səciyyəvidir.

Nəzərdən keçirilən torpaqların qranulometrik tərkibi də müxtəlifdir. Lakin gilli və gillicəli növmüxtəlifliklər üstünlük

təşkil edir. Udma tutumunun aşağı göstəricisi (20 m.ekv.) və onun əsasən kalsium və maqneziumdan ibarət olması diqqəti cəlb edir. Yatma şəraitindən asılı olaraq zonanın torpaq örtüyünün şoran və şorakətli növmüxtəlifliklərlə kompleks təşkil etməsi müşahidə olunur.

Boz torpaqlar humus horizontunun qalınlığından, qranulometrik tərkibindən, şorlaşma və şorakətləşmə dərəcəsindən və s. amillərdən asılı olaraq aşağıdakı yarımtiplərə ayrılır: tünd boz, adi boz və açıq boz.

Torpaq örtüyünün strukturunda tünd, adi və açıq boz torpaqların əmələ gətirdikləri birləşmələr üstünlük təşkil edir. Zonada şorlaşmış torpaqların müxtəlif dərəcədə şorlaşmış çəmən-boz, çəmən və şoranlarla əmələ gətirdiyi birləşmələr də geniş yayılmışdır. Çay vadilərinin aşağı terraslarında, allüvial çöküntülərin yayıldığı sahələrdə isə çəmən torpaqların çəmən-bataqlıq və çəmən-boz torpaqlarla birləşmələrini müşahidə etmək mümkündür.

Suvarma şəraitində bu torpaqların bir hissəsi pambıq, üzüm altında, böyük bir hissəsi isə qış otlaqları kimi istifadə olunur.

8. Çəmən torpaqlar

Bunlar boz və boz qonur torpaqlar kimi Azərbaycanın quru və yarımsəhra iqlimi şəraitində yayılmışdır. Ümumi sahəsi 1050,8 min ha olub resupblika torpaq fondunun 12,2%-ni təşkil edir. Bu tip torpaqlarda torpaqəmələgəlmənin çəmən tipi ərazinin xüsusi hidroloji rejimi, qrunt suyunun qalxması və səthi rütubətlənmə ilə bağlıdır. Belə bir şəraitdə formalaşmış torpaqlar adi yarımsəhra torpaqlarından əsaslı şəkildə fərqlənir. Bununla belə, onlar zonal cizgilər də daşıyırlar: belə ki, onlar üçün üzvi maddələrin sürətlə minerallaşması, yüksək və tez həll olan natrium duzlarının torpaqəmələgəlmədə iştirakı səciyyəvidir. Su rejiminin xüsusiyyətləri ilə əlaqədar olaraq bu torpaqlarda çəmən bitkilərinin güclü inkişafı müşahidə

olunur ki, bu da humusun artması üçün şərait yaradır; relyefin səth və qrunt sularının təsirinin zəif olduğu yüksək və meyilli sahələrdə açıq çəmən boz torpaqları, depressiya sahələrində isə tünd çəmən-boz torpaqlar formalaşır.

Yüksək karbonatlıq və humusluluq Qarabağ düzündə yayılmış çəmən-boz torpaqların əlverişsiz su-fiziki xassələri, qranulometrik tərkibi və yüksək kipliyi olan Şirvan düzünün çəmən torpaqlarından fərqləndirir.

Qeyd etmək lazımdır ki, boz-qonur və boz torpaqlardan fərqli olaraq çəmən-boz torpaqların udulmuş əsasların cəmində kalsiumun miqdarı azalaraq maqneziumun miqdarı artır. Çəmən-boz torpaqlarda udulmuş natriumun miqdarı da çoxdur.

Çəmən boz torpaqlarda torpaq örtüyünün strukturu özünün mürəkkəbliyi və xırda konturluğunun geniş inkişaf etməsi ilə səciyyələnir ki, buna da səbəb şoran və şorakətlərin geniş yayılması olmuşdur. Çəmən boz torpaqların torpaq örtüyünün strukturu torpaqəmələgətirən süxurların tərkibindən, relyef və hidrologiyadan da asılıdır. Burada tünd çəmən-boz, çəmən-boz və açıq çəmən-boz torpaqlarla yanaşı, şorakət və şoranlarla əmələ gəlmiş birləşmələrə rast gəlmək mümkündür.

Çəmən-boz torpaqlar çox münbitdir. Lakin onların potensial istehsalat qabiliyyətini artırmaq və kənd təsərrüfatı istehsalında davamlı səmərəli istifadə etməkdən ötrü bir sıra kompleks tədbirlərin görülməsi vacibdir. Bu torpaqlar hazırda suvarma əkinçiliyinin əsasını təşkil edirlər. Onların yayıldığı ərazilərdə pambıq və bir sıra qiymətli kənd təsərrüfatı bitkiləri əkilir. Onlardan qış otlaqları kimi də istifadə olunur.

9. Şoranlı, şorakətli, bataqlıq və s. torpaqlar

Bu tip torpaqlar Azərbaycanın ovalıq ərazilərində lokal ləkələr şəklində geniş yayılmışdır. Ərazicə ən çox isti və quru iqlim şəraiti olan Kür-Araz ovalığında boz torpaqlar zona-

sında yayılması üstünlük təşkil deir. Belə ki, sahəsi 2,2 milyon ha olan Kür-Araz ovalığı torpaqlarının təxminən 60%-i orta və şiddətli dərəcədə şorlaşmış torpaqlardan ibarətdir. Ərazi cəhətcə, dənizsahili düzənlkdə, Mil, Muğan-Salyan, Qarabağ, Şirvan düzlərində, həmçinin Abşeron yarımadasında, Naxçıvan Respublikasının düzənlik hissəsində və qismən Gəncə-Qazax massivində yayıldığı müəyyən edilmişdir. Şoranların əmələ gəlməsi minerallaşmış qrunt sularının səthə yaxınlığı və buxarlanmanın düşən yağıntılardan çox olması ilə əlaqədardır. Şoranlar güclü qələvi reaksiyası, udulmuş əsasların cəmində maqnezium (50%) və natrium (20% və daha çox) üstün olması ilə seçilir. Şoran torpaqlar əksər hallarda qədim Xəzərin şoranlaşmış gilli çöküntüləri, yaxud palçıq vulkanı materialları üzərində əmələ gəlmişdir.

Genezisinə, morfoloji quruluşuna və kimyəvi tərkibinə görə şoranlar takırabənzər, şişən, sodalı və başqa qruplara bölünürlər. Bu tipdən olan torpaqlar üçün asan həll olan düzların səthdə toplanması da səciyyəvidir. Bir metrlik torpaq qatında quru qalığın miqdarı 3-5%-dir. Ümumiyyətlə, şoran torpaqlarda asan həll olan duzların miqdarı 3%-dən artıq olur. Duzların tərkibinə görə şoranlar əsasən xloridli və xloridli-sulfatlı torpaqlara bölünürlər.

Şoran torpaqlar qeyri-münbit torpaqlar hesab olunurlar. Onlar yalnız yuyulduqdan və mədəniləşdirildikdən sonra əkinçilikdə istifadə olunur. Lakin bu torpaqlar qış otlaqları kimi daha çox intensiv istifadə olunurlar. Bu torpaqlar üzərində duzadavamlı şoran otları bitir ki, ilk şaxtalardan sonra onlar mal-qara tərəfindən həvəslə yeyilir.

Respublika ərazisində şoran torpaqlarla komplekslik təşkil edən şorakət torpaqlar avtomorf (quru bozqır) polihidromorf (çəmən bozqır, yarımsəhra) və qismən hidromorf (çəmən və çəmən bataqlıq) rejimi şəraitində inkişaf edir. Torpağın uducu kompleksində çoxlu miqdarda (15-20% və daha çox) udulmuş Na kationu (bəzən illüvial qatda Mg) olan torpaqlar şorakətli torpaqlar adlandırılır. Morfoloji cəhətdən şo-

rakət qatın xeyli tünd rəngdə olması sütunvari, bəzən isə prizma, kəltənli strukturası ilə və eləcə də quru halda çox bərk (kipləşmiş), yaş halda isə suvaşqan (yapışqanlı) olması ilə səciyyələnir. Şorakətl torpaqlar şiddətli qələvi reaksiyaya (pH-9,0-9,5) malikdirlər.

Bu torpaqlardan kənd təsərrüfatında istifadə etmək üçün orada əsaslı meliorativ tədbirlər kompleksini həyata keçirimək lazımdır.

Bataqlıq torpaqlar Azərbaycanda çox da böyük olmayan ləkələr şəklində Lənkəran vilayətinin dənizkənarı sahələrində, Kür və Araz çaylarının alçaq terraslarında, qismən isə Alazan-Həftəran vadisində yayılmışdır. Bitki örtüyü rütubətsevən, əsasən cil fəsiləsinə aid bataqlıq bitki və lilli bataqlıq yarımtipləri müəyyən edilmişdir. Bataqlıq torpaqların qranulometrik tərkibi ağır olur. Burada fiziki gilin miqdarı üst qatda böyük intervalda, yəni 60-80% arasında dəyişir. Bunun da 35-40%-i lilin hesabınadır. Humusun miqdarı üst qatda çox 5-10% və daha yüksək olur. Yüksək udma tutumuna malik olmaqla yarımtiplərdə geniş intervalda (40-60 m. ekv.) dəyişir. Uducu kompleksdə üst qatlarda kalsium 25-45, maqnezium isə 5-15 m. ekv. arasında tərəddüd edir.

Bataqlıq torpaqlar yüksək münbitliyə malik olmaqla əsaslı meliorativ tədbirlər həyata keçirildikdən sonra kənd təsərrüfatında əsasən çəltikçilikdə istifadə edilir.

III Fəsil. RESPUBLİKANIN VAHİD TORPAQ FONDU, ONUN MÜLKİYYƏT NÖVLƏRİ ÜZRƏ BÖLGÜ STRUKTURU VƏ MÜASİR İSTİFADƏÇİLİK VƏZİYYƏTİ

Respublikada torpaq zonalarının və onların fərqli səciyyəsindən görünür ki, torpaq örtüyündə heyrətamiz müxtəliflik mövcuddur. Bu müxtəliflik ərazidə relyef, iqlim, bioloji şərait, torpaqəmələgətirən süxurlar, torpağın yaşı, antropogen və s. amillərin birgə təsirinin nəticəsi olaraq yaranmışdır.

Torpaq fondunun müxtəlifliyini özündə əks etdirən, onun davamlı və dayanıqlı istifadəsini düzgün istiqamətləndirmək və habelə torpağın mühafizəsi sahəsində kompleks tədbirlərin işlənməsi üçün çox qiymətli vəsait hesab olunan ölkənin torpaq örtüyünün tərkibini əks etdirən torpaq xəritəsinin hazırlanmasının (m 1:600000) günümüzdəki əhəmiyyəti də böyükdür (işdə isə torpaq xəritəsi kiçildilmiş miqyasda – 1:3000000 verilmişdir, xəritə-sxem 2).

Ayrı-ayrı bölgələrdə verilmiş torpaq xəritə-sxemlər ilkin xəritə materialı kimi 1:600000 m-da torpaq xəritəsindən istifadə olunmuşdur. Bəzi hallarda bölgənin əhatə etdiyi ərazinin ölçüsünün böyüklüyünü nəzərə alaraq xəritə-sxemin miqyası dəyişdirilmişdir. Belə ki, torpaq örtüyündə təbii və antropogen proseslərin təsirilə baş vermiş dəyişikliklər çoxillik elmi-tədqiqat araşdırmalarının nəticələri olaraq tərtib etdiyimiz torpaq xəritəsində öz əksini tapmışdır.

Xəritədə müxtəlif rənglərlə işarələnmiş torpaq tip və yarımtiplərinin adları, torpaqların qranulometrik tərkibi, eroziyaya uğraması, suvarma və habelə torpaqların şorlaşması və şorakətləşməsi verilmişdir.

Beləliklə, irəlidə söylənilənlərə rəğmən kənd təsərrüfatında həlledici istehsal vasitəsi olan respublikanın vahid torpaq fondunun davamlı və dayanıqlı istifadəsini təmin etmək məqsədilə ölkədə həyata keçirilən torpaq islahatı ilə torpaq istifadəçiliyinin üç - dövlət, bələdiyyə və xüsusi mülkiyyət formala-

rının strukturu müəyyənləşdirilərək həyata keçirilmişdir.

Respublikanın vahid torpaq fondunun mövcud istifadəçilik vəziyyəti ayrı-ayrı bölgələr üzrə xeyli müxtəlifliyi ilə səciyyələnir.


Respublikanın 8,641 min ha ərazinin 4,756 min hektarı (55,0%) kənd təsərrüfatına yararlı sahələrdən ibarətdir. Bunun 1,684 mil hektarı (35,4%) əkin və dincə qoyulmuş sahələrdir. Çoxillik əkmələr altında becərilən torpaq sahələri 163,3 min ha olmaqla yararlı torpaq ehtiyatlarının 3,4%-ə bərabərdir. Biçənək torpaqların sahəsi 110,7 min hektara çatır. Kənd təsərrüfatında istifadə edilən torpaqların əsas kütləsini təşkil edən örüş və otlaq torpaqlarının sahəsi 2,574 mil. ha olmaqla yararlı torpaq ehtiyatlarının 54,1%-ni əhatə edir. Bilavasitə kənd təsərrüfatına yararlı həyətyanı torpaqlarının sahəsi isə 224,8 min hektardan (4,7%) bir qədər artıqdır.

Respublika ərazisinin xeyli hissəsi, yəni 3,765 mil hektardan (45,0%) bir qədər artıq hissəsi kənd təsərrüfatında istifadə edilməyən torpaqlardır. Bunlardan 1,038 mil ha və ya 12,0%-i meşə torpaqlarının payına düşür. Kənd təsərrüfatında istifadə edilməyən sair torpaqlar ümumi ərazinin 33,0%-ni və ya 2,849 min hektarını tutur. Bu torpaqların tərkib hissəsində kənd təsərrüfatına az yararlı və şərti yararsız sahələr üstünlük təşkil edir. Hazırda ölkəmizdə kənd təsərrüfatına yararlı torpaq sahələri tükəndiyindən gələcəkdə yalnız az yararlı və şərti yararsız torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi problemi qarşıda durur.

Kənd təsərrüfatında əkib-becərilən torpaqların 1,426 min ha-a və ya 30,%-ə qədərini suvarılan sahələr təşkil edir. Hazırda əkin və dincə qoyulmuş torpaq sahələrinin yalnız 78,9%-i və ya 1,122 mil hektarı suvarılır. Ümumilikdə kənd təsərrüfatı sahələrinin yalnız 29,9%-i (1,493 mil. ha) suvarma suyu ilə təmin olunmuşdur. Yararlı torpaqların 70,1%-i (3,341 min ha) isə dəmyə şəraitində istifadə olunur (cədvəl 9, şəkil 6). Sahəcə ikinci suvarılan torpaqlara həyətyanı torpaqlar aiddir. Hal-hazırda həyətyanı torpaqların 61,1%-i, yəni 137,3 min

TORPAQ ZONALARI

Miqiyas 1:3 000 000




Xəritə-sxem 2

hektarı suvarılır. Qalan təsərrüfat sahələrində suvarılan torpaqların həcmi çox məhduddur. Belə ki, çoxillik əkmələr becərilən sahələrin 71,4%-i (116,6 min ha), biçənək torpaqlarının isə 5,6%-i (110,6 min ha) suvarılan torpaqlarda yerləşir. Ayrı-ayrı bölgələrdə həm kənd təsərrüfatına yararlı torpaq sahələrinin və həm də suvarılan torpaq sahələrinin miqdarı xeyli müxtəlifdir. Ölkədə suvarılan sahələrin ən çoxu 46,7%-i (665,3 min ha) Aran bölgəsinin payına düşür. Ən az suvarılan torpaqlara isə Lənkəran bölgəsində rast gəlinir (cədvəl 9, şəkil 2-7).

Cədvəl 9

Respublikanın vahid torpaq fondunun bölgələr üzrə istifadəçiliyi (ha/%)



Şəkil 2

Cədvəl 9


Respublikanın vahid torpaq fondunun bölgələr üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Bölgələr	Bölgələrə daxil olan		Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
		rayon	şəhər		Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Örüş və otlaqlar	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Abşeron	2	1	381776 4,4	23357 13,5	5156 3,0	724 0,4	143984 82,4	2416 1,4	175637 46,0	11569 3,0	194570 51,0
	o. cüm. suv.	-	-	19127 1,3	10236 58,1	4727 26,8	-	2255 12,8	396 2,2	17614 10,0	1513 13,1	-
2	Gəncə-Qazax	9	2	1228731 14,2	193864 25,0	4431 0,6	34674 4,5	501440 64,6	42507 5,5	776916 63,2	119228 9,7	332587 27,1
	o. cüm. suv.	-	-	183635 12,9	149568 81,6	4177 2,3	1490 0,8	882 0,5	27144 14,8	183261 23,6	374 0,3	-
3	Şəki-Zaqatala	6	-	883491 10,2	180901 44,8	41405 10,3	1422 0,3	160777 39,9	18924 4,7	403429 45,7	272678 30,9	207384 23,5
	o. cüm. suv.	-	-	107453 7,5	78669 73,2	19704 18,3	-	1832 1,7	7248 6,8	107453 26,2	-	-
4	Lənkəran	6	-	606904 7,0	136454 47,3	9528 3,3	15187 5,3	102439 35,5	24967 8,6	288575 47,5	147282 24,3	171047 28,2
	o. cüm. suv.	-	-	32942 2,3	26024 79,0	6193 18,8	72 0,2	432 4,7	221 0,7	32942 11,4	-	-
5	Quba-Xaçmaz	5	-	696502 8,1	126973 32,8	28205 7,3	29194 7,5	186842 48,3	15337 4,0	386551 55,5	122943 29,6	187008 26,9
	o. cüm. suv.	-	-	131182 9,2	92515 70,5	23053 17,6	2246 1,7	4307 3,3	9036 6,9	131157 33,9	-	-

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
6	Aran	16	2	2115179 24,5	599868 42,2	12436 0,9	3376 0,2	725130 51,1	79374 5,6	1420184 67,1	33663 1,6	661965 22,5
	o. cüm. suv.	-	-	665343 46,7	564380 84,9	11615 1,7	1151 0,2	20736 3,1	67178 10,1	665033 46,8	310 0,9	-
7	Yuxarı Qarabağ	4	-	834166 9,6	192105 38,3	45728 9,1	4651 0,9	245334 49,0	13394 6,7	501212 60,1	153989 18,5	178965 21,5
	o. cüm. suv.	-	-	159229 11,2	107826 67,8	37347 23,5	462 0,3	3812 2,4	9621 6,0	159068 31,7	161 0,1	-
8	Dağlıq Şirvan	6	-	613026 7,1	141313 37,5	9167 2,5	4902 1,3	212474 56,3	9191 2,4	377047 61,5	81596 13,3	154383 25,2
	o. cüm. suv.	-	-	52774 3,7	43769 83,0	4905 9,3	127 0,2	1419 2,7	2530 4,8	52746 14,0	28 0,03	-
9	Kəlbəcər-Laçın	4	-	530787 6,1	44129 18,5	3772 1,6	13091 5,5	165582 69,3	2339 1,0	228913 45,0	92083 17,3	199791 37,6
	o. cüm. suv.	-	-	13488 3,1	10110 75,6	2298 17,2	98 0,7	-	857 6,5	13363 5,6	-	-
10	Naxçıvan	6	1	536300 6,2	42071 23,4	799 0,4	3340 1,9	120499 67,0	13046 7,3	179755 33,5	2682 0,5	353863 66,0
	o. cüm. suv.	-	-	56895 4,0	37310 66,2	799 1,4	607 1,1	4578 8,1	13046 23,2	56340 31,3	555 20,7	-
11	Bakı şəhəri	11	-	214644 2,5	2789 17,0	2686 16,4	-	7549 3,5	3347 29,0	16371 7,6	57 0,03	198216 92,4
	o. cüm. suv.	-	-	2907 0,3	2070 63,8	1749 45,4	-	31 0,8	-	3850 33,4	57 26,6	-
	Respublika üzrə ümumi	**62**	**7**	**8641506 100**	**1683824 35,4**	**163313 3,4**	**110561 2,3**	**2572050 54,1**	**224842 4,7**	**4754590 55,0**	**1037770 12,0**	**2849146 33,0**
	o. cüm. suv.	**-**	**-**	**1425975 16,5**	**1122477 78,9**	**116563 8,2**	**6253 0,4**	**40351 2,8**	**137308 9,6**	**1422952 29,9**	**3023 2,9**	**-**

Cədvəl 9.1

Respublikanın ümumi suvarılan torpaqlarının bölgələr üzrə istifadəçiliyi (ha/%)




Abşeron
Bakı
Gəncə-Qazax
Şəki-Zaqatala
Lənkəran
Quba-Xaçmaz
Aran
Yuxarı Qarabağ
Dağlıq Şirvan
Kəlbəcər-Laçın
Naxçıvan

Şəkil 3

Cədvəl 9.2

Respublikanın vahid torpaq fondunun əsas tərkib hissəsi (ha/%)



Yararlı torpaqlar


Meşə torpaqları

Sair sahələr

Şəkil 4

Cədvəl 9.3

Respublikanın kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Dəmyə

Suvarılan

Şəkil 5

Cədvəl 9.4


Respublikanın yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 6

Cədvəl 9.5

Respublikanın suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 7

Beləliklə, respublikanın torpaq örtüyünün tərkibi istifadəçilik baxımından müxtəlif olduğu kimi, keyfiyyətcə də müxtəlif aqroistehsalat qruplarında cəmlənməsi ilə səciyyələnir. Hazırda kənd təsərrüfatında istifadə edilən münbit torpaq sahələrinin üstünlük təşkil etməsinə baxmayaraq, habelə xeyli miqdarı ilkin təbii münbitliyi itirilmiş şorlaşmış, şorakətləşmiş, bataqlaşmış, texnogen çirklənmiş və pozulmuş və eləcə də eroziyaya uğramış torpaqlar da geniş ərazilərdə yayılmışdır.

Belə ki, bir əsrə yaxın sosialist təsərrüfatçılıq sisteminin torpaq istifadəçiliyində kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının əsasən torpaq münbitliyinin artırılması ilə deyil, əkin sahələrinin xam torpaqlar hesabına genişləndirilməsinin praktikası torpaq ehtiyatlarının keyfiyyət qruplarının dinamikasına da öz mənfi təsirini göstərmişdir.

Hazırda tədqiq olunmuş torpaq ehtiyatlarının yalnız (cədvəl 10, şəkil 8-13) 16,6%-i (703,1 min ha) yüksək keyfiyyətli torpaqlardan ibarətdir. Əslində həyətyanı torpaq sahələri nəzərə alınmazsa, sırf kənd təsərrüfatında istifadə olunan torpaqların kəmiyyət göstəriciləri o qədər də yüksək deyildir. Bu ölkədə ümumi yararlı torpaqların 11,9%-ni (568,2 min ha) təşkil edir. Birinci keyfiyyət qrupunda əkin və dinc torpaqlar 182,8 min ha olmaqla örüş və otlaq sahələrinin göstəricilərindən xeyli azdır. Örüş və otlaqlar 2 mil. 581 min 466 ha olmaqla, miqdarca üstünlük kəndyanı (191,4 min ha) örüş torpaqlarının payına düşür. Çoxillik əkmələrin və biçənəklərin torpaq sahələr 6,1-31,0 min ha arasında dəyişir. Bütün hallarda kənd təsərrüfatı sahələrinin əsas kütləsinin orta və qismən yaxşı keyfiyyətli torpaqlar qrupunda cəmlənmişdir. Yüksək keyfiyyətli kənd təsərrüfatı sahələrinin 4,7%-ni həyətyanı torpaqlar əhatə edir.

Əkin torpaqları ikinci qrupda 35,1% (591,2 min ha), üçüncü keyfiyyət qrupunda bu rəqəm 44,1%-ə (814,9 min ha) çatır. Bu torpaqların 12,1%-i (95,0 min ha) aşağı keyfiyyətli qrupuna transfer olmuşdur. Əkin və dincə qoyulmuş torpaqlardan fərqli olaraq çoxillik və biçənək torpaqlarının transferi 2-ci keyfiyyət qrupunda maksimum həddə çatır. Örüş və otlaq


Cədvəl 10

Kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması (ha/%)

Ümumi sahə	Boni-tet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi
							kəndyanı	qış	yay	
	100-81	I	182772 23,0	31052 3,9	6057 0,8	224842 28,4	191384 24,1	56377 7,1	100581 12,7	793065 16,6
	80-61	II	591185 47,4	76769 6,2	52720 4,2	-	271894 21,8	184837 15,1	69957 5,6	1247362 26,2
	60-41	III	814857 44,1	48945 2,7	44473 2,4	-	559057 30,3	302776 16,4	75655 4,1	1845763 38,8
	40-21	IV	95010 12,1	6547 0,8	7286 0,9	-	244035 31,2	399130 51,0	31285 4,0	783293 16,5
	20-1	V	-	-	37 0,04	-	41234 47,6	44587 51,4	815 1,0	86673 1,8
8641506	**100-1**	**I-V**	**1683824 35,4**	**163313 3,4**	**110561 2,3**	**224842 4,7**	**1470561 30,9**	**832612 17,5**	**278293 5,8**	**4756144 55,0**

Cədvəl 10


Respublikanın kənd təsərrüfatına yararlı torpaqlarının keyfiyyət qrupları üzrə paylanma strukturu (ha/%)



Şəkil 8

Cədvəl 10.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 9

Cədvəl 10.2


II keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 10


Cədvəl 10.3

III keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)




Şəkil 11

Cədvəl 10.4



Cədvəl 10.5



torpaqlarında keyfiyyət qrupları arasında transferlik dinamikası daha yüksəkdir.

Belə ki, hazırda dövriyyədə olan örüş və otlaq torpaqlarının 13,5%-i (348,2 min ha) yüksək, 20,4%-i (526,7 min ha) yaxşı, 36,3%-i (937,5 min ha) orta keyfiyyətli torpaqlara aiddir. Örüş və otlaq torpaqlarının dördüncü və beşinci keyfiyyət qrupunda 29,8%-ə qədər (761 min ha) yer tutmaları ciddi narahatlıq yaradır və torpaq örtüyündə tənəzzül proseslərinin gücləndiyini göstərir.

Qədimdən suvarma əkinçiliyi ilə məşğul olan ölkəmizdə hazırda da torpaqların şorlaşması, becərilən bitkilərin məhsuldarlığının ildən-ilə aşağı düşməsi kənd təsərrüfatı təyinatlı torpaqların keyfiyyətinin pisləşməsindən irəli xəbər verir.

Buna rəğmən suvarılan torpaqların meliorativ vəziyyətinin sahələrin qiymətləndirilməsi və suvarma sistemlərinin texniki vəziyyətinin göstəricilərinin kadastr məlumatlarının (cədvəl 11, şəkil 14-16) nəzərdən keçirilməsi çox əhəmiyyətlidir.

11-ci cədvəldəki rəqəmlərdən göründüyü kimi, respublikanın suvarılan torpaqlarının 4,7%-i (66,8 min ha) qrunt sularının yatım dərinliyi 1,0 m-dək yerləşən, 59,6%-i (847,4 min ha) isə 1,0-3,0 m dərinliklər arasında dəyişən ərazilərdə paylanmışdır. Ümumi suvarılan torpaqların yalnız 35,7%-ni (507,1 min ha) qrunt sularının dərinliyi 3,0 m-dən aşağıda yerləşən ərazilər təşkil edir.

Birinci və ikinci halda qrunt sularının minerallaşma dərəcəsindən asılı olaraq torpaqlarda şorlaşma prosesinin baş verməsi çox təhlükəli hesab olunur.

Üçüncü halda isə qrunt sularının yüksək minerallaşması belə təhlükəli sayılmır. Lakin bütün hallarda suvarma qaydalarına düzgün riayət edilməlidir.

Qrunt sularının minerallaşma dərəcəsi 1q/l-dən az olan sahələr ümumi suvarılan torpaqların 34,0%-ni (482,6 min ha) əhatə edir. Minerallaşma dərəcəsi 1,0-3,0 q/l olan sahələrdə suvarılan torpaqların 36,6%-i (520,7 min ha) paylanmışdır. Duzların miqdarı 3,0 q/l çox olan qrunt suları yayılmış ərazi-

lərdə isə suvarılan torpaqların 29,4%-i (417,9 min ha) yerləşmişdir.

Cədvəl 11


Respublikanın bölgələrinin suvarılan torpaqlarının meliorativ vəziyyətinə dair bəzi göstəriciləri (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3	4	5	6	7	8	9	10	11	13
1	Abşeron	19127 1,3	774 4,3	8899 46,5	9454 49,4	3334 17,4	5305 27,7	10488 54,8	1282 6,7	11577 60,5	6268 32,8
2	Gəncə-Qazax	183635 12,9	9495 5,2	59829 32,6	114311 62,2	57387 31,2	111155 60,5	15093 8,2	102203 55,6	55827 30,4	25605 13,9
3	Şəki-Zaqatala	107453 7,6	1984 1,8	36880 34,3	68589 63,8	93433 86,9	11095 10,3	2925 2,8	51887 48,3	42775 39,8	12791 11,9
4	Lənkəran	32942 2,3	1343 4,1	19480 59,1	12119 36,8	9836 30,0	18969 57,5	4137 12,5	6774 20,6	20298 61,6	5870 17,8
5	Quba-Xaçmaz	13182 9,2	6737 5,1	38283 29,3	86162 65,7	87119 66,4	27084 20,6	16979 13,0	59820 45,6	46350 35,3	25012 19,1
6	Aran	665343 46,8	34303 5,1	560362 84,2	70678 10,7	82755 12,4	278150 41,8	304438 45,8	68030 10,2	402483 60,5	194830 29,3
7	Yuxarı Qarabağ	159229 11,2	3139 2,0	49486 31,1	106604 66,9	82591 51,9	45419 28,5	31219 19,6	78715 49,4	62351 39,2	18163 11,4
8	Dağlıq Şirvan	52774 3,7	3731 7,1	36090 68,4	12953 24,5	11383 21,6	10762 12,2	30629 58,0	8090 15,3	31716 60,1	12968 24,6
9	Kəlbəcər-Laçın	13488 1,0	500 9,4	3914 290	9074 67,2	8446 62,6	5042 37,4	-	11764 87,2	1481 11,0	243 4,3
10	Naxçıvan	56895 4,0	4677 8,2	34211 61,1	17130 30,6	46304 82,7	7748 13,8	1966 3,5	12040 21,5	34072 60,8	9906 17,7
	Cəmi	**1421191** **29,9**	**66683** **4,7**	**847434** **59,6**	**507074** **35,7**	**482588** **34,0**	**520729** **36,6**	**417874** **29,4**	**400605** **28,2**	**708930** **49,9**	**311656** **21,9**

Beləliklə, hər iki halda respublikanın ayrı-ayrı bölgələrində suvarılan ərazilərin təbii torpaq şəraitindən asılı olaraq qrunt sularının dərinliyi və onun minerallaşma dərəcəsi ciddi şəkildə dəyişdiyindən ərazinin suvarılan torpaqlarının meliorativ şəraitinin qiymətləndirilməsində xeyli fərqlidir.

Cədvəl 11


Respublikanın suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazilərdə paylanması (ha/%)



Şəkil 14

Cədvəl 11.1


Respublikanın suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazilərdə paylanması (ha/%)



Şəkil 15

Cədvəl 11.2

Respublikanın suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətlənlirilməsi (ha/%)



Şəkil 16

Rəqəmlərdən aydın olur ki, qrunt sularının yatım dərinliyini və minerallaşma dərəcəsini nəzərə almaqla suvarılan torpaqların 28,2%-nin (400,6 min ha) meliorativ vəziyyəti **yaxşı** qiymətləndirilir. Həmin göstərici üzrə meliorativ vəziyyəti **kafi** qiymətləndirilən suvarılan torpaqların sahəsi 49,9%-ə (708,9 min ha) çatır. Meliorativ vəziyyəti **qeyri kafi** olan suvarılan torpaqlar ümumi suvarılan torpaqların 21,9%-ni (311,7 min ha) təşkil edir. Meliorativ durumu qeyri-kafi vəziyyətdə olan suvarılan sahələrə ən çox Abşeron və Aran bölgələrində rast gəlinir və həmin göstəricilər 29,3-32,8% arasında dəyişir. Qrunt sularının təhlükəli dərinlikdə yerləşməsinə və onların minerallaşma dərəcəsinə görə Aran bölgəsinə daxil olan rayonlar xüsusilə fərqlənir. Burada qrunt sularının təhlükəli dərinlikdə yerləşməsi, yəni qrunt suyun səviyyəsinin 1 m dərinlikdən az olması ilə səciyyələnən torpaqlar suvarılan sahələrin 5,1%-ni (34,3 min ha) təşkil edir. Aran bölgəsində 1-3 m dərinlikdə qrunt suları yerləşən ərazilər ümumi suvarılan torpaqların 84,2%-nə (560,4 min ha) bərabərdir. Belə bir oxşarlıq

qrunt sularının minerallaşma dərəcəsinə görə paylanmasında da özünü göstərir.

Belə ki, suvarma əkinçiliyinin geniş inkişaf etdiyi (cədvəl 12, şəkil 17-21) Muğan-Salyan, Şirvan, Qarabağ və Mil düzlərində torpaqların orta hesabla yarısından çoxu, yəni 51,0% qədəri (441,7 min ha) müxtəlif dərəcədə şorlaşmış sahələrdən ibarətdir. Bu ərazilərdə suvarılan sahələrin 17,1%-dən çox hissəsi, yəni 75,5 min ha-ı şiddətli və çox şiddətli, 28,1%-i orta, yəni 124,1 min ha-ı və 54,8%-i, yəni 242,0 min ha-ı zəif şorlaşmış sahələrdən ibarətdir. Ərazidə şoran torpaqlarla kompleksik yaradan və özünün morfoloji genetik xüsusiyyətləri və eləcə də fiziki-kimyəvi xassələri ilə fərqlənən şorakətləşmə prosesi də baş verir. Göstərilən düzənliklərdə müxtəlif dərəcədə şorakətləşmiş suvarılan torpaqların miqdarı 451,3 min hadan çoxdur ki, bu da suvarılan torpaqlanı 52,8%-nə bərabərdir. Respublikanın digər ərazilərində suvarılan torpaqlarda şorakətləşmə prosesi zəif olsa da təkcə Qarabağ düzündə bu göstəricilər ümumilikdə 43,8%-ə (84,2 min ha) çatmışdır.

Naxçıvan düzündə və Gəncə-Qazax massivində suvarılan torpaqlarda şorakətlilik müşahidə edilməsə də şorlaşmış suvarılan sahələr Naxçıvanda 10,5% təşkil edir. Bunun 49,6%-i şiddətli şorlaşmışdır. Gəncə-Qazax massivdə suvarılan torpaqların isə 42,0%-ə qədəri bu və ya digər dərəcədə şorlaşmaya məruz qalmışdır.

Alazan-Əyriçay, Lənkəran-Masallı və Samur-Abşeron düzlərində suvarılan torpaqların isə 23,3-60,6%-i müxtəlif dərəcədə şorlaşmış sahələrdən ibarətdir. Burada şiddətli şorlaşmış sahələr 4,6-21,8% təşkil edir.

Ümumiyyətlə, göstərilən düzənliklərdə suvarılan sahələrin 46,6%-nin və ya 662,0 min hektarının müxtəlif dərəcədə şorlaşması hazırda suvarılan torpaqların meliorativ durumunun qeyri-qənaətbəxş vəziyyətdə olduğunu göstərir.


Cədvəl 12

Respublikada suvarılan düzən torpaqlarda şorlaşma, şorakətləşmə və drenləşmənin vəziyyətinə dair bəzi göstəricilər (ha/%)

S/s	Suvarılan sahələr	Ümumi sahə	Şorlaşma					Şorakətlik				Drenləşmiş	
			şorlaş-mayan	cəmi şorlaşmış	o cümlədən			şora-kətsiz	cəmi şora-kətli	o cümlədən		Cəmi	o cüm. qapalı üfüqi
					zəif	orta	şiddətli			zəif	orta və şiddətli		
1	Muğan-Salyan	213147 15,0	70499 33,1	142648 66,9	88930 62,3	34047 23,9	19671 13,8	49240 23,1	163907 76,9	124144 75,8	39763 24,2	213147 100	1946 0,9
2	Şirvan	231192 16,3	85842 37,1	145350 62,9	73466 50,5	44882 30,8	27002 18,7	108857 47,1	122335 52,9	117887 96,4	4448 3,6	136355 59,0	13655 10,0
3	Qarabağ	192156 13,5	137110 71,3	55046 28,7	27344 49,7	22014 40,0	5688 10,3	107960 56,2	84196 43,8	62788 74,6	21408 25,4	66430 34,6	58400 88,0
4	Mil	217779 15,3	119099 54,7	98680 45,3	52305 53,0	23195 23,5	23180 23,5	136960 62,9	80819 37,1	64151 79,4	16668 20,6	117629 54,0	67536 57,4
5	Naxçıvan	56018 3,9	50142 89,5	5876 10,5	1320 22,5	1640 27,9	2916 49,6	56018 100	-	-	-	15100 27,0	7900 52,3
6	Gəncə-Qazax	180927 12,7	104972 58,0	75955 42,0	52656 69,3	13644 18,0	9655 12,7	180927 100	-	-	-	-	-
7	Alazan-Əyriçay	100362 7,1	49647 49,5	50715 50,5	36530 72,0	6575 13,0	7610 15,0	100029 99,7	333 0,3	333 100	-	6460 6,4	3700 57,3
8	Lənkəran-Masallı	71445 5,0	28187 39,4	43258 60,6	29072 67,2	12178 28,2	2008 4,6	52507 73,5	18938 26,5	18938 100	-	29875 41,8	26905 36,1
9	Samur-Abşeron	148971 10,5	114199 76,7	34772 23,3	16022 46,2	11172 32,1	7578 21,8	148971 100	-	-	-	23889 16,0	18489 12,4
10	Şəhər ərazilə-ri	9637 0,7	-	9637 100	9637 100	-	-	-	9637 100	9637 100	-	-	-
	Cəmi	**1421634 29,9**	**759697 53,4**	**661937 46,6**	**387282 58,5**	**169347 25,6**	**105308 15,9**	**941469 66,2**	**480165 33,8**	**397878 82,9**	**82287 17,1**	**608885 42,8**	**198531 32,6**

Cədvəl 12

Respublikanın suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)




Şorlaşmayan

Şorlaşan

Şəkil 17

Cədvəl 12.1

Respublikanın suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Zəif


Orta

Siddətli

Şəkil 18

Cədvəl 12.2

Respublikanın suvarılan torpaqlarının şorakətlik durumu (ha/%)




Şorakətsiz

Şorakətli

Şəkil 19

Cədvəl 12.3


Respublikanın suvarılan torpaqlarının şorakətlik dərəcəsi (ha/%)



Zəif

Orta və şiddətli

Cədvəl 12.4



Başqa bir mənbənin məlumatlarına görə yerlərdə əsas meliorasiya və aqrotexniki tədbirlərin ardıcıl həyata keçirilməməsinin nəticəsi olaraq, hazırda müxtəlif kənd təsərrüfatı sahələri kimi istifadə olunan (cədvəl 13, şəkil 22-31, cədvəl 14, şəkil 32-41) torpaqlarda da şorlaşma və şorakətləşmə prosesləri baş verməkdədir. Belə ki, ölkədə əkin sahələri altında istifadə olunan torpaqların 2,3%-i (37,8 min ha), çoxillik əkmələrin yerləşdiyi ərazilərin torpaqlarının 4,2% (6,8 min ha) və biçənək altı torpaqların isə 2,8%-i (3,0 min ha) müxtəlif dərəcədə şorlaşmaya məruz qalmış sahələrdən ibarətdir. Respublikanın kənd təsərrüfatında istifadə olunan əsas torpaq ehtiyatlarının yarısından çoxunu (56,8%-ni) təşkil edən örüş və otlaq sahələrində şorlaşma və şorakətləşmə proseslərinin geniş vüsət alması bu torpaqlarda tənəzzül prosesinin sürətlənməsinə səbəb olmuşdur.


Cədvəl 13

Kənd təsərrüfatı sahələri torpaqlarının şorlaşma durumu (ha/%)

S/s	Kənd təsərrüfatı sahələri	Ümumi sahə	Şorlaşma					
			şorlaşmayan	cəmi şorlaşmış	o cümlədən			
					zəif	orta	şiddətli	şoran
1	Əkin+dinc	1683824 37,2	1645985 97,7	37839 2,3	17331 45,8	11663 30,8	8194 21,7	651 1,7
2	Çoxillik əkmələr	163313 3,6	156473 95,8	6840 4,2	3894 60,0	1447 21,1	724 10,6	775 11,3
3	Biçənək	110585 2,4	107606 97,2	2979 2,8	993 33,3	907 30,4	993 33,3	86 3,0
4	Örüş və otlaqlar	2573604 56,8	2055751 79,9	517853 20,1	130680 3,3	132218 33,0	213957 53,5	40998 10,2
	Cəmi	**4531326 52,4**	**3965815 87,5**	**565511 12,5**	**152898 27,0**	**146235 25,9**	**223838 39,6**	**42510 7,5**

Cədvəl 13

Respublikanın kənd təsərrüfatı sahələri torpaqlarının şorlaşma durumu (ha/%)




Şorlaşmayan Şorlaşmış

Şəkil 22

Cədvəl 13.1


Respublikanın kənd təsərrüfatı sahələri torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 23

Cədvəl 13.2


Respublikanın əkin+dinc torpaqlarının şorlaşma durumu (ha/%)



Şəkil 24


Cədvəl 13.3

Respublikanın əkin+dinc torpaqlarının şorlaşma dərəcəsi (ha/%)




Cədvəl 13.4

Respublikanın çoxillik əkmələraltı torpaqların şorlaşma durumu (ha/%)



Cədvəl 13.5


Respublikanın çoxillik əkmələraltı torpaqların şorlaşma dərəcəsi (ha/%)



Şəkil 27

Cədvəl 13.6


Respublikanın biçənək torpaqlarının şorlaşma durumu (ha/%)



Şəkil 28

Cədvəl 13.7

Respublikanın biçənək torpaqlarının şorlaşma dərəcəsi (ha/%)




Zəif
Orta
Siddətli
Soran

Şəkil 29

Cədvəl 13.8

Respublikanın örüş və otlaq torpaqlarının şorlaşma durumu (ha/%)




Şorlaşmayan
Şorlaşmış

Şəkil 30

Cədvəl 13.9

Respublikanın örüş və otlaq torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 31

Cədvəl 14

Kənd təsərrüfatı sahələri torpaqlarının şorakətləşmə durumu (ha/%)

S/s	Kənd təsərrüfatı yerləri	Ümumi sahə	Şorakətləşmə				
			şorakətsiz	cəmi şora-kətli	o cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Əkin+dinc	1683824 37,2	1637115 97,2	46719 2,8	38555 82,5	7645 16,4	519 1,1
2	Çoxillik əkmələr	163313 3,6	146463 89,7	16850 10,3	14094 83,6	2343 13,9	413 2,5
3	Biçənək	110585 2,4	106354 96,2	4231 3,8	3637 86,0	389 9,2	205 4,8
4	Örüş və otlaqlar	2573604 56,8	2131579 82,9	440470 17,1	328751 74,7	91733 20,8	19986 4,5
	Cəmi	**4531326 52,4**	**4023056 88,8**	**508270 11,2**	**385037 75,7**	**102110 20,1**	**21123 4,2**


Rəqəmlərin təhlilindən aydın olun ki, hazırda kənd tsərrüfatı dövriyyəsinə cəlb olunmuş torpaqların tip və yarımtiplərini, onun xam etalonu ilə müqayisə etdikdə birincinin ciddi şəkildə tənəzzülə uğradığı danılmazdır.

Bü xüsusda suvarılan torpaqların hal-hazırkı ağır meliorativ durumu ilə əlaqədar aparılması zəruri sayılan aşağıdakı əsas meliorativ tədbirlərin miqyası bunu bir daha təsdiqləyir.

Deyildiyi kimi ölkədə becərilən kənd təsərrüfatı bitkilərinin əsas kütləsi ümumi sahəsi 1 milyon 422 min 952 hektara çatan suvarılan torpaqlarda yetişdirilir. Bu isə kənd təsərrüfatında istifadə olunan torpaqların 29,9%-nin suvarılması deməkdir. Vaxtilə müxtəlif illərdə suvarılan bu ərazilərin 608,9 min hektarında və ya 42,8%-də drenləşməsi aparılmışdır. Drenləşmiş sahələrin əsasını isə sahəsi 198,5 min hektara çatan qapalı üfüqi drenlər təşkil edir. Bu isə ümumilikdə respublikada suvarılan torpaqların 14,0%-nin qapalı drenlə təmin olunması deməkdir.

Cədvəl 14


Respublikanın kənd təsərrüfatı sahələri torpaqlarının şorakətlik durumu (ha/%)



Şəkil 32

Cədvəl 14.1


Respublikanın kənd təsərrüfatı sahələri torpaqlarının şorakətlik dərəcəsi (ha/%)



Şəkil 33

Cədvəl 14.2


Respublikanın əkin+dinc torpaqlarının şorakətlik durumu (ha/%)



Şəkil 34

Cədvəl 14.3


Respublikanın əkin+dinc torpaqlarının şorakətlik dərəcəsi (ha/%)



Şəkil 35

Cədvəl 14.4


Respublikanın çoxillik əkmələraltı torpaqlarının şorakətlik durumu (ha/%)



Şəkil 36

Cədvəl 14.5


Respublikanın çoxillik əkmələraltı torpaqlarının şorakətlik dərəcəsi (ha/%)



Şəkil 37

Cədvəl 14.6


Respublikanın biçənək torpaqlarının şorakətlik durumu (ha/%)



Şəkil 38

Cədvəl 14.7


Respublikanın biçənək torpaqlarının şorakətlik dərəcəsi (ha/%)



Şəkil 39


Cədvəl 14.8

Respublikanın örüş və otlaq torpaqlarının şorakətlik durumu (ha/%)



Şəkil 40

Cədvəl 14.9



Bir qədər sonralar, yəni ölkədə aqrar islahatlar həyata keçirilənə qədər kənd təsərrüfatında baş verən təsərrüfatsızlıq nəticəsində suvarılan torpaqlarda mövcud olan bir çox suvarma sistemləri və o cümlədən kollektor-dren şəbəkələri yararsız hala salındığından bu torpaqların meliorativ vəziyyətinin kəskin şəkildə dəyişməyə başlamışdır.

Belə ki, aparılmış son kadastr (2004-cü il) məlumatlarına əsasən müəyyən olmuşdur ki, suvarılan ərazilərin 649,5 min hektarında suvarma və kollektor-dren şəbəkələrinin texniki vəziyyətinin əsaslı şəkildə yaxşılaşdırılmasına və yenidən qurulmasına ciddi ehtiyac vardır. Bu isə ümumi suvarılan torpaqların 45,7%-ni əhatə edir (cədvəl 15, şəkil 42).


Suvarılan torpaqların ən çox hissəsi, yəni 231,2 min hektarı (16,3%) Şirvan düzündə yerləşir. Odur ki, burada mövcud olan suvarma və kollektor- dren şəbəkələrinin 147,6 min hektarının (63,5%) yaxşılaşdırılmasına ehtiyac yaranmışdır. Eyni zamanda suvarılan torpaqların içərisində sahəsinə görə ikinci yerdə duran Mil düzündə suvarılan 217,8 min ha sahənin 98,7 min hektarında (45,3%) suvarma və kollektor-dren şəbəkələrinin yaxşılaşdırılması tələb olunur. Muğan-Salyan düzündə

213,6 min ha suvarılan torpaqların 103,1 min (48,3%) hektarında, Qarabağ düzündə isə 192,2 min hektarının 99,2 min hektarında (51,6%) göstərilən meliorativ işlərin icrası gündəmdə durur. Gəncə-Qazax, Abşeron-Samur massivlərində, Alazan-Əyriçay vadisində, Muğan düzünün cənub şərqində (Lənkəran ovalığının şimal hissəsində) Naxçıvan bölgəsində suvarılan torpaqların sahəsi azdır. Ümumiyyətlə, bu işlərə aid göstəricilər müvafiq ərazilərdə 56,2-24,9 min ha arasında dəyişir.

O cümlədən, deyilənlərlə yanaşı, Muğan-Salyan, Şirvan, Qarabağ və Mil düzlərində suvarma şəbəkələrinin kompleks yenidən qurulmasına dair işlərin həcmi 9,9-25,3 min ha (4,3-14,7%) arasında dəyişir. Eləcə də bu düzlərin suvarılan sahələrinin təkrar şorlaşmış 54,4 min hektarında əsaslı şəkildə duzlardan yuyulması icra edilməlidir. Suvarılan düzlərdə torpaqların əsaslı hamarlama işlərinin həcmi 27,6 min hektarından çoxdur.

Cədvəl 15

Respublikanın suvarılan ərazilərində aparılacaq zəruri meliorativ tədbirlər (ha/%)



Cədvəl 15

Suvarılan ərazilərdə torpaqlarda aparılacaq zəruri meliorativ tədbirlər (ha/%)

S/s	Suvarılan ərazilər	Ümumi sahə	Suvarma şəbəkəsinin və KDŞ-də texniki vəziyyətinin yaxşılaşdırılması	Suvarma şəbəkəsinin kompleks yenidən qurulması	KDŞ-də tikinti və yenidən qurulması	KDŞ-nin təmiri	Şorlaşmış torpaqların əsaslı yuyulması	Əsaslı hamarlama	Su təminatının artırılması	Cəmi görüləcək işlərin həcmi
1	Muğan-Salyan düzü	213555 15,0	103113 48,3	9900 4,6	36400 17,0	25481 11,9	1932 0,9	1932 0,9	8400 3,9	187158 14,8
2	Şirvan düzü	232499 16,4	147654 63,5	34169 14,7	54739 23,5	9871 6,7	18414 7,9	9172 3,9	18259 7,8	292278 23,1
3	Qarabağ düzü	192156 13,5	99226 51,6	25250 13,1	27000 14,0	3600 1,9	8676 4,5	7000 3,6	17700 9,2	188452 14,9
4	Mil düzü	217779 15,3	98727 45,3	9307 4,3	36800 16,9	6000 2,7	27120 12,4	9500 4,4	10000 4,6	197454 15,6
5	Gəncə-Qazax massivi	182727 12,9	56228 30,8	7906 4,3	18500 10,1	350 0,2	13328 7,3	6450 3,5	9700 5,3	112462 8,9
6	Alazan-Əyriçay vadisi	100362 7,1	24931 24,8	7635 7,6	4520 4,5	1200 1,2	4476 4,4	5000 5,0	2100 2,1	49862 3,9
7	Lənkəran-Muğan düzü	71446 5,0	30960 43,3	9140 12,8	5860 8,2	1900 2,7	3270 4,6	4725 6,6	6065 8,6	61920 4,9
8	Abşeron-Samur massivi	154216 10,8	49690 32,2	9590 6,2	12700 8,2	-	2500 1,6	10510 6,8	14390 9,3	99380 7,9
9	Naxçıvan düzü	56895 4,0	38935 68,4	5285 9,3	12576 22,1	125 0,2	3280 5,8	8491 14,9	7728 13,6	76420 6,0
	Cəmi	**1421634** **29,9**	**649464** **45,7**	**11882** **8,3**	**209095** **14,7**	**48527** **3,4**	**82996** **5,8**	**62780** **4,4**	**94342** **6,6**	**1265386** **89,0**

Bunlarla yanaşı, suvarma suyunun çatışmazlıqdan əziyyət çəkən 54,4 min ha sahədə su təminatının artırılması tələb olunur. Digər massivlərdə göstərilən parametrlər üzrə eyni hallar təkrar olunur. Məsələn, Naxçıvan bölgəsində suvarılan torpaqların 3,3 min hektarında şorlaşmış torpaqların duzlardan əsaslı yuyulması, 8,5 min hektarında əsaslı hamarlama işlərinin aparılması və 7,7 min haektarında isə su təminatının yaxşılaşdırılması tələb olunur.

Ümumiyyətlə, respublikada suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra işlərlə yanaşı, 209,1 min hektarında kollektor-dren şəbəkəsində tikinti və yenidən qurulma, 83 min ha-ında təkrar şorlaşmış sahələrin duzlardan əsaslı yuyulması, 62,8 min ha sahənin əsaslı hamarlanması və 94,3 min ha sahənin isə su təminatının artırılması, daha doğrusu ümumilikdə qısa zaman kəsiyində bütün suvarılan ərazilərdə göstərilən parametrlər üzrə 1 milyon 265 min 386 hektarında və ya 89,0%-də meliorativ işlərin icrası tələb olunur.

Respublika ərazisinin xeyli hissəsi mürəkkəb formalı relyef quruluşu və dağətəyi sahələrdən ibarət olduğundan eroziya geniş yayılmışdır. Eroziyaya uğramış sahələr ümumi torpaq fondunun 41,2% və ya 3470823 ha təşkil edir (cədvəl 16, şəkil 43-45).

Həmin sahələrdə səthi, xətti, külək, irriqasiya (suvarma) eroziyası növləri yayılmışdır. Ən çox eroziyaya uğramış torpaqlara Naxçıvan (72,8%) və Abşeron (70,9%) bölgələrində müşahidə edilir. Abşeron bölgəsində üstünlük külək eroziyasının tuğyan etməsi hesabına baş verir. Minimum dərəcədə eroziyaya uğrama irriqasiya eroziyasının geniş yayıldığı Aran bölgəsində 18,5%-ə (390,9 min ha) çatır.


Cədvəl 16

Bölgələrin torpaq ehtiyatlarının eroziyaya uğrama durumu (ha/%)

S/s	Bölgələr	Ümumi sahə	Eroziya dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Abşeron	381776 4,5	111246 29,1	270530 70,9	56002 20,7	77073 28,5	137455 50,8
2	Gəncə-Qazax	1228731 14,6	789733 64,3	438998 35,7	187878 42,8	105255 24,0	145865 33,2
3	Şəki-Zaqatala	883491 10,5	340150 38,5	543341 61,5	214733 39,5	116998 21,5	211610 40,0
4	Lənkəran	606904 7,2	340998 56,2	265906 43,8	107938 40,6	61051 23,0	96917 36,4
5	Quba-Xaçmaz	696502 8,3	327119 47,0	369383 53,0	174728 47,3	88575 24,0	106080 28,7
6	Aran	2115179 25,1	1724273 81,5	390906 18,5	265251 67,8	82150 21,0	43505 11,2
7	Yuxarı Qarabağ	834166 9,9	649578 77,9	184588 22,1	92853 50,3	57210 31,0	34525 18,7
8	Dağlıq Şirvan	613026 7,3	209970 34,3	403050 65,7	130337 32,3	91778 22,8	180935 44,9
9	Kəlbəcər-Laçın	530787 6,3	316971 59,7	213816 40,3	74393 34,8	53113 24,8	86310 40,4
10	Naxçıvan	536300 6,3	145995 27,2	390305 72,8	85290 21,8	88727 22,7	216288 55,5
	Cəmi	**8426862** **97,5**	**4956039** **58,8**	**3470823** **41,2**	**1389403** **40,0**	**821930** **27,7**	**1259490** **36,3**


Cədvəl 16

Respublikanın bölgələrinin torpaq ehtiyatlarının eroziya durumu (ha/%)



Cədvəl 16.1


Respublikanın ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)



Şəkil 44

Cədvəl 16.2

Respublikanın bölgələrində ümumi torpaq ehtiyatlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 45

Respublikanın ayrı-ayrı təbii bitki-torpaq zonaları sırasında (cədvəl 17, şəkil 46-55) eroziyaya uğramanın göstəricisi

dağ-çəmən və dağ-bozqır zonalarında daha yüksək olub 71,4-66,2% arasında dəyişir.

Belə ki, dağ-çəmən zonasında şiddətli eroziyaya uğramış sahələrin 34,6%-ni, bozqır zonada isə müvafiq qaydada eroziyaya uğramış sahələr 34,9%-ə enir. Yay otlaq sahələri kimi heyvandarlıqda geniş istifadə olunan dağ-çəmən zonasında ötən dövr ərzində demək olar ki, eroziyaya qarşı heç bir mübarizə tədbirləri həyata keçirilməmişdir. Eləcə də son illərdə otlaq yükünün ildən-ilə artırılması eroziya prosesinin intensivliyinə səbəb olmuşdur. Dağ-bozqır zonasında təbii bitki örtüyünün antropogen təsirlərə məruz qalması və habelə torpaqlarının geniş miqyasda kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi eroziyaya uğrama həddinin 66,2%-ə çatması ilə nəticələnmişdir.

Yarımsəhra zonasında irriqasiya eroziyası ilə yanaşı, külək eroziyasının deflyasiya fəaliyyəti 19%-ə (44,4 min ha) çatır. Bu ərazilərdə kənd təsərrüfatı külək eroziyasından xeyli ziyan çəkir. Dağ-meşə zonasında təbii bitki örtüyünün nisbətən qorunub saxlanmasına baxmayaraq eroziyaya uğramanın 48%-ə (418,1 min ha) çatması ciddi narahatlıq doğurur. Burada şiddətli eroziyaya uğramış torpaqlar eroziyaya uğramış sahələrin 26,3% (110,2 min ha) təşkil edir.


Cədvəl 17

Təbii bitki-torpaq zonalarının eroziya durumu (ha/%)

S/s	Bitki-torpaq zonaları	Ümumi sahə	Eroziya dərəcəsi				
			eroziyasız sahə	cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	Dağ-çəmən	554632 10,4	158430 28,6	396202 71,4	139970 35,3	119474 30,1	136758 34,6
2	Dağ-meşə	870812 16,3	452733 52,0	418079 48,0	138985 33,2	168919 40,5	110175 26,3
3	Dağ-bozqır	1836997 34,4	621595 33,8	1215402 66,2	440774 36,3	350900 28,8	425728 34,9
4	Yarımsəhra	234442 4,4	190095 81,1	44347 18,9	24085 54,3	6410 14,4	13852 31,3
	Cəmi	**3496883 40,5**	**1422853 40,7**	**2074030 59,3**	**743814 35,9**	**645703 31,1**	**684513 33,0**

Cədvəl 17

Respublikanın təbii bitki-torpaq zonalarının eroziya durumu (ha/%)




Eroziyasız sahə

Eroziyalı sahə

Şəkil 46

Cədvəl 17.1

Respublikanın təbii bitki-torpaq zonalarının eroziya dərəcəsi (ha/%)




Zəif Orta Siddətli

Şəkil 47

Cədvəl 17.2

Respublikanın dağ-çəmən zonası torpaqlarının eroziya durumu (ha/%)




Eroziyasız sahə Eroziyalı sahə

Şəkil 48

Cədvəl 17.3

Respublikanın dağ-çəmən zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)




Zəif Orta Şiddətli

Şəkil 49

Cədvəl 17.4


Respublikanın dağ-meşə zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 50


Cədvəl 17.5

Respublikanın dağ-meşə zonasın torpaqlarının eroziya dərəcəsi (ha/%)




Şəkil 51


Cədvəl 17.6




Cədvəl 17.7



Cədvəl 17.8



Cədvəl 17.9



Kənd təsərrüfatı istehsalında bütün kateqoriyalar üzrə təbii-təsərrüfat sahələrinin tutduğu ərazi 4754590 ha olub, vahid torpaq fondunun 55,0%-ə bərabərdir. O cümlədən əkin və dincə qoymuş torpaqlar 35,4%-ni (1683824 ha) təşkil edir.

Təbii təsərrüfat sahələrinin 2572050 hektarını və ya 54,1%-ni təşkil edən örüş və otlaq sahələrində eroziyaya məruz qalmış sahələrin ölçüsü yayıldığı təbii şəraitdən asılı olaraq geniş intervalda dəyişir (cədvəl 18, şəkil 56-61).

Cədvəl 18

Kənd təsərrüfatında istifadə olunan torpaqlarda eroziyaya uğrama göstəriciləri (ha/%)

S/s	Kənd təsərrüfatı sahələri	Ümumi sahə	Eroziya dərəcəsi				
			eroziyasız sahə	cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Əkin+dinc	1683824 37,2	1635178 97,1	48646 2,9	43617 89,7	3705 7,6	1324 2,7
2	Çoxillik əkmələr	163313 3,6	151522 92,8	11791 7,2	5664 48,0	4594 39,0	1533 13,0
3	Biçənək	110573 2,4	85439 77,3	25134 22,7	11385 45,2	7781 31,0	5968 23,8
4	Örüş və otlaqlar	2573604 56,8	1924814 74,8	648790 25,2	244449 37,7	280066 43,2	124275 19,1
	Cəmi	**4529772 52,4**	**3795410 83,8**	**734361 16,2**	**305115 41,5**	**296146 40,3**	**133100 18,2**

Eroziyaya uğramış örüş və otlaq torpaqları onların ümumi sahəsinin 648,9 min ha-nı (25,2%) əhatə edir. Təbii şəriatdən asılı olaraq, əkin torpaqlarının qeyri-bərabər yayılması, onun müxtəlif dərəcədə eroziyaya uğramasına səbəb olmuşdur. Hazırda əkin torpaqlarının 48,6 min hektarı (2,9%) eroziyaya uğramış sahələrdən ibarətdir. Çoxillik və biçənək sahələri kimi istifadə olunan torpaqlarda eroziyaya uğrama göstəricisi bir qədər yüksəkdir. Biçənəklərdə eroziyaya uğrama 22,7% olduğu halda, çoxilliklər altında istifadə olunan torpaqlarda bu göstərici 7,2%-ə düşür.

Ümumiyyətlə, torpaq eroziyasına qarşı ardıcıl mübarizə aparmaq və bu bəlaya qarşı kompleks tədbirlər görmək, onu doğuran səbəbləri hərtərəfli araşdırmaq üçün milli fəaliyyət proqramı işlənib hazırlanması zəruriyyəti yaranmışdır.

Cədvəl 18

Respublikanın kənd təsərrüfatı sahələri torpaqlarının eroziya durumu (ha/%)




Eroziyasız sahə
Eroziyalı sahə

Şəkil 56

Cədvəl 18.1


Respublikanın ayrı-ayrı kənd təsərrüfatı sahələri torpaqlarının eroziya durumu (ha/%)




Əkin+dinc
Biçənək
Çoxillik
Örüş və otlaqlar

Şəkil 57

Cədvəl 18.2




Cədvəl 18.3



Cədvəl 18.4


Respublikanın çoxillik əkmələraltı torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 60


Cədvəl 18.5

Respublikanın çoxillik əkmələraltı torpaqlarının eroziya dərəcəsi (ha/%)




Şəkil 61


Cədvəl 18.6



Cədvəl 18.7



Cədvəl 18.8



Cədvəl 18.9




Müstəqillik əldə edən respublikamızda yeni siyasi, sosial və iqtisadi münasibətlərin yaranması ölkənin kənd təsərrüfatının inkişafına yeni istiqamət verdi. Belə ki, «Torpaq islahatı haqqında» Azərbaycan Respublikası Qanununa (16 iyul 1996-cı il) uyğun olaraq ölkədə torpaq islahatının həyata keçirilməsilə yeni torpaq-istehsal münasibətləri yarandı. Nəticə-

də respublikanın vahid torpaq fondunu təşkil edən 8641506 hektar torpaq sahəsində üç növ mülkiyyət - dövlət, bələdiyyə və xüsusi mülkiyyət növü yaradıldı. Beləliklə, ölkənin vahid torpaq fondunun 4919138 hektarı (57,0 %) dövlət mülkiyyətində saxlandı.Bələdiyyə mülkiyyətinə torpaq fondunun 2051378 hektarı (23,7%) verildi. Xüsusi mülkiyyətə isə vahid torpaq fondundan 1670990 hektarı (19,3%) ayrılaraq özəlləşdirildi (cədvəl 19, şəkil 62, 63).

Cədvəl 19

Respublikanın vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)




Cədvəl 19

Respublikanın vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış	yay			
1	Dövlət	4919138 57,0	317754 16,3	62521 3,2	29035 1,5	10300 0,5	-	1256795 64,3	277293 14,2	1953698 39,7	1034906 21,0	1930534 39,3
	o. cüm. suv.	197328 13,8	127347 65,5	45489 23,4	1479 0,8	5823 3,0	-	14264 7,3	-	194402 2,3	2926 96,8	-
2	Bələdiyyə	2051378 23,7	94274 8,2	4993 0,4	3313 0,3	12411 1,1	1039516 90,0	-	-	1154507 56,3	2864 0,1	894007 43,6
	o. cüm. suv.	94971 6,7	59072 62,3	2766 2,9	339 0,4	6653 7,0	26044 27,5	-	-	94874 8,2	97 3,4	-
3	Xüsusi	1670990 19,3	1271796 77,2	95799 5,8	78225 4,8	202131 12,3	-	-	-	1647951 98,6	-	23039 1,4
	o. cüm. suv.	1133676 79,5	936058 82,6	68308 6,0	4478 0,4	124832 11,0	-	-	-	1133676 68,8	-	-
	Cəmi	**8641506 100**	**1683824 35,4**	**163313 3,4**	**110573 2,3**	**224842 4,7**	**1039516 21,9**	**1256795 26,4**	**277293 5,8**	**4756156 55,0**	**1037770 12,0**	**2847580 33,0**
	o. cüm. suv.	**1425975 16,5**	**1122477 78,9**	**115563 8,2**	**6296 0,4**	**137308 9,6**	**26044 1,8**	**14264 1,1**	-	**1422952 29,9**	**3023 0,3**	-

Cədvəl 19.1

Respublikanın suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 67

1. Dövlət mülkiyyətindəki torpaqlar və torpaq istifadəçiliyinin vəziyyəti

Dövlət mülkiyyətinə dövlət hakimiyyəti orqanlarının və dövlət obyektlərinin yerləşdiyi torpaqlar, yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları, kolxoz və sovxozların meşələri daxil olmaqla meşə fondu torpaqları, su fondu torpaqlarına respublikanın daxili sularının və Xəzər dənizinin Azərbaycan Respubltkasına mənsub olan bölməsinin altında olan torpaqlar və eləcə də su mühafizə zonalarını və sahilboyu zolaqların altında olan torpaqlar, adalar, bataqlıq və digər şərti yararsız sahələr daxildir. Eləcə də təbiəti mühafizə, təbii qoruq, sağlamlıq, istirahət, tarix-mədəniyyət təyintalı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan ərazilərin torpaqları da dövlət mülkiyyəti torpaqlarına aiddir. Bundan başqa dövlət elmi-tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları,

eləcə də dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar və dövlət ehtiyat fondu torpaqları da dövlət mülkiyyətində saxlanılan torpaqlara aid edilir.

Dövlət mülkiyyətində saxlanılan torpaqların yalnız 39,7%-i və ya 1 milyon 953 min 698 hektarı kənd təsərrüfatına yararlı sahələrdir. Qalan sahələrin 1034906 hektarı və ya 21,0% meşə fondu və 1930534 hektarı və ya 39,3% sair torpaqlar qrupuna aiddir. Hazırda ölkədə mövcud olan ümumi əkin və dinc torpaqların 317,7 min hektarı (16,3%), çoxillik əkmələr tutduğu torpaq sahələrinin isə 62,51 min hektarı (3,2%-i) dövlət mülkiyyətinə məxsus torpaqlardan ibarətdir. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqların az bir hissəsi, yəni 10,3 min hektarı (0,5%) dövlət torpaqlarına aiddir. Biçənək torpaqlarının isə 29,0 min hektarı (1,5%) dövlət mülkiyyətinə məxsusdur. Dövlət fondu torpaqlarının əsasını təşkil edən qış və yay otlaqları ilə birlikdə 1534088 hektar olmaqla, ölkənin ümumi örüş və otlaq torpaqlarının 59,6%-ni əhatə edir. Ayrılıqda qış otlaq torpaqlarının sahəsi 1256795 hektara (48,8%) təşkil edir. Yay otlaqları dövlət mülkiyyətinin yararlı örüş və otlaq torpaqlarının 277293 hektarına (5,8%) bərabərdir.

Respublika üzrə ümumi suvarılan torpaqların 13,8%-i (197,3 min ha) dövlət mülkiyyətində saxlanılmışdır ki, bunun da 65,5% (127,3 min ha) əkin və dinc torpaqların payına düşür. Çoxillik əkmələrin torpaqları suvarılan sahələrin 23,4%-ni əhatə edir. Dövlət mülkiyyətində saxlanılan qış otlağı torpaqlarının az bir hissəsi, yəni 14,2 min hektarı (7,3%-i) suvarılır.

Respublikanın bölgələrində dövlət mülkiyyətində saxlanmış torpaq ehtiyatlarının miqdarı müxtəlifdir (cədvəl 20, şəkil 68-73). Konkret olaraq hər bir bölgənin ümumi torpaq ehtiyatlarından asılı olaraq dövlət mülkiyyətində saxlanılan torpaqların ölçüsü dəyişir. Dövlət torpaqlarının ən çox cəmləşdiyi bölgələrə Aran və Yuxarı Qarabağ bölgələrini aid etmək olar. Məsələn, Aran bölgəsində dövlət mülkiyyətinə məxsus

torpaqların 940,4 min hektarı (19,8%), Yuxarı Qarabağda isə 761,0 min hektarı (16,0%) yerləşmişdir. Bu bölgələrdə uyğun şəkildə kənd təsərrüfatına yararlı torpaq sahələrinin ölçüsü də dəyişir.

Yararlı torpaqların əsas hissəsi otlaq və əkin sahələri kimi istifadə edilir. Ayrı-ayrı bölgələrdə suvarılan torpaqların sahəsi o qədər də böyük deyildir. Aran və Yuxarı Qarabağ bölgələri istisna olmaqla qalan bölgələrdə suvarılan torpaqların faiz göstəriciləri 0,3-6,8% arasında dəyişir. Ən az suvarılan torpaq sahəsi Dağlıq Şirvan bölgəsində müşahidə olunur (690 ha). Dövlət mülkiyyətində ən az torpaq sahəsi Naxçıvan bölgəsində saxlanmışdır. Burada vahid torpaq fondunun 33,2%-i və ya 178,8 min hektarı dövlət mülkiyyətinə məxsusdur. Bu isə ölkə üzrə ümumi dövlət mülkiyyətində saxlanmış torpaqların 3,7%-nə bərabərdir.

Ölkədə bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq ehtiyatları ilə yanaşı, dövlət mülkiyyətinə məxsus torpaqlar da əhali tərəfindən kənd təsərrüfatında geniş istifadə edilir. Hazırda dövlət mülkiyyətinin 1 milyon 953 min 264 hektar torpaq sahəsi ölkə əhalisinin istifadə və icarəsinə verilmişdir. Bu isə ölkənin hər bir sakininin orta hesabla əlavə olaraq 0,34 ha kənd təsərrüafatına yararlı torpaq sahəsindən istifadə etməsi deməkdir (əhalinin sayı 5 mil. 736 min nəfər nəzərdə tutulur). Ayrı-ayrı bölgələrdə əhalinin sayından və becərilən torpaq ehtiyatlarından asılı olaraq bu göstəricilər geniş intervalda dəyişir. Məsələn, respublika əhalisinin 19,6%-nin məskunlaşdığı Gəncə-Qazax bölgəsində bölgənin hər bir sakini dövlət mülkiyyətinə məxsus əkinə yararlı torpaq sahəsinin 0,25 hektarından istifadə edirsə, Lənkəran bölgəsində bu göstərici təqribən 3,0 dəfədən də az, yəni 0,09 hektardır. Bəzi bölgələrdə isə bu göstərici daha yüksəkdir. Məsələn, Aran bölgəsinin hər bir sakininə orta hesabla 0,35 ha, Dağlıq Şirvan bölgəsinin hər bir sakininə isə 0,30 ha yararlı torpaq sahəsi düşür. Dövlət mülkiyyətində suvarılan torpaqlar çox az miqdarda saxlandığından bir o qədər də gözə çarpmır. Hazırda bölgələrdə

Cədvəl 20


Respublikanın dövlət mülkiyyətindəki ümumi torpaq ehtiyatlarının bölgələr üzrə istifadəçilyi (ha/%)

S/s	Bölgələr	Ümumi sahə	Kənd təsərrüfatı sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							qış	yay			
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Abşeron	270055 5,5	8969 2,8	2539 4,1	502 1,7	348 3,4	83619 6,7	3665 1,3	99642 5,1	11337 1,1	159076 8,2
	o. cüm. suv.	9877 5,0	4029 3,2	2539 5,6	-	61 1,1	1832 21,6	-	8461 8,5	1416 12,5	-
2	Gəncə-Qazax	652606 13,3	14790 4,6	777 1,3	2920 10,1	372 0,1	203411 16,7	54582 19,6	276852 14,2	118912 11,5	256842 13,3
	o. cüm. suv.	13343 6,3	11692 9,2	616 1,4	295 20,0	116 2,0	250 1,7	-	12969 6,8	374 13,0	-
3	Şəki-Zaqatala	530789 11,1	17992 5,7	5456 9,1	283 1,0	90 0,9	60806 4,8	25995 9,3	110622 5,7	272476 26,3	147691 7,6
	o. cüm. suv.	2471 1,3	507 0,4	1045 2,2	-	-	919 6,4	-	2471 1,3	-	-
4	Lənkəran	335035 7,0	22377 7,0	611 1,0	4459 15,4	60 0,6	24981 2,0	13547 4,9	66035 3,4	146256 14,1	122744 6,4
	o. cüm. suv.	899 0,5	860 0,7	39 0,1	-	-	-	-	-	899 0,5	-
5	Quba-Xaçmaz	285612 6,0	8905 2,8	1141 2,0	1932 6,7	56 0,5	21171 1,7	33736 12,1	66941 3,4	122766 11,9	95905 5,0
	o. cüm. suv.	10307 5,2	7802 6,1	731 1,7	533 36,0	50 0,9	1166 8,2	-	10282 5,4	25 0,9	-
6	Aran	940370 19,8	43172 13,6	1216 2,0	569 2,0	262 2,6	477784 38,2	241 0,1	523244 26,8	33064 3,2	384062 20,0
	o. cüm. suv.	32822 16,6	25372 20,0	1066 2,4	91 6,2	112 1,9	5871 41,1	-	32512 17,1	310 10,8	-

1	2	3	4	5	6	7	8	9	10	11	12
7	Yuxarı Qarabağ	761010 16,0	147619 46,3	43786 73,0	4663 16,0	6712 65,5	212199 17,0	25783 9,3	440762 22,6	153967 14,9	166281 8,6
	o. cüm. suv.	108176 54,8	63750 50,1	35405 80,9	462 31,2	4586 79,1	3812 26,7	-	108015 56,7	161 5,6	-
8	Dağlıq Şirvan	242442 5,1	6385 2,0	621 1,0	103 0,4	-	50985 4,1	21385 7,7	79479 4,1	81596 7,9	81367 4,2
	o. cüm. suv.	690 0,3	568 0,4	16 0,04	-	-	78 0,5	-	662 0,3	28 1,0	-
9	Kəlbəcər-Laçın	530787 11,1	44142 13,8	3772 6,3	13091 45,0	2339 22,8	85581 6,8	80001 28,7	228926 11,7	92083 8,9	209778 10,9
	o. cüm. suv.	13488 6,8	10110 7,9	2298 5,4	98 6,6	857 14,8	125 0,9	-	13488 7,1	-	-
10	Naxçıvan	178801 33,2	627 0,2	35 0,1	525 1,8	15 0,1	26180 2,1	19333 6,9	46715 2,4	2392 0,2	129694 6,7
	o. cüm. suv.	1430 0,7	587 0,5	35 0,1	-	15 0,3	238 1,7	-	875 0,5	555 19,3	-
11	Bakı	166812 3,4	3884 1,2	2567 4,1	-	46 0,4	7549 0,6	-	14046 0,7	57 0,005	152709 8,0
	o. cüm. suv.	3825 1,9	2070 1,6	1672 3,7	-	26 0,4	-	-	3768 1,9	57 1,9	-
	Cəmi	**4919138 55,8**	**318862 16,3**	**62521 3,2**	**29047 1,5**	**10300 0,5**	**1254266 64,2**	**278268 14,3**	**1953264 39,7**	**1034906 21,4**	**1930968 39,3**
	o. cüm. suv.	**197328 4,0**	**127347 65,5**	**45489 23,4**	**1479 0,8**	**5823 3,0**	**14264 7,3**	-	**194402 9,9**	**2926 0,3**	-

Cədvəl 20


Respublikanın dövlət mülkiyyətindəki ümumi torpaq ehtiyatlarının bölgələr üzrə istifadəçiliyi (ha/%)



Şəkil 68

Cədvəl 20.1


Respublikanın dövlət mülkiyyətindəki torpaq ehtiyatlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 69

Cədvəl 20.2


Respublikanın dövlət mülkiyyətindəki kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 70

Cədvəl 20.3


Respublikanın dövlət mülkiyyətindəki yararlı torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 71

Cədvəl 20.4


Respublikanın dövlət mülkiyyətindəki ümumi suvarılan torpaqların bölgələr üzrə istifadəçiliyi (ha/%)



Şəkil 72

Cədvəl 20.5

Respublikanın dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təssərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 73

dövlət mülkiyyətinə məxsus 194,4 min hektar suvarılan torpaq sahələrindən istifadə edilir. Beləliklə, hazırda respublika üzrə kənd təsərrüfatına yararlı ümumi torpaq ehtiyatlarının 41,1%-i (1,95 min ha) dövlət mülkiyyətində saxlanmasına baxmayaraq ölkə əhalisi bu ehtiyatlardan da istifadə edirlər.

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar və torpaq istifadəçiliyinin vəziyyəti

Respublikamızın vahid torpaq fondunun 2051378 hektarı və ya 23,7%-i bələdiyyə mülkiyyətinə verilmişdir. Bələdiyyə mülkiyyətinə aid edilən torpaqlara isə torpaq islahatı həyata keçirilən müvafiq inzibati-ərazi daxilində dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqları çıxmaqla

qalan bütün torpaqlar aiddir. Yəni ümumi istifadədə olan torpaqlar, fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlar və ehtiyat fondu torpaqları bələdiyyə mülkiyyətinə aid olan torpaqlardır.

Bələdiyyə mülkiyyətinin ümumi istifadədə olan torpaqlarına şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin – küçələrin, meydanların, yerli əhəmiyyətli və təsərrüfatdaxili yolların, parkların, meşə parkların, sututarların, stadionların, idman meydançalarının altındakı torpaqlar, habelə torpaqqoruyucu meşə zolaqlarının, yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, ümumi istifadədə olan digər yerli əhəmiyyətli obyekt və qurğuların yerləşdiyi torpaqlar və əhalinin mal-qarası üçün istifadə olunan örüş sahələrinin torpaqları aiddir.

Bundan başqa, fiziki və hüquqi şəxslərin istifadəsində olan bələdiyyə toraqlarına müvafiq inzibati ərazidə torpaq islahatı aparılanadək səlahiyyətli orqanlar tərəfindən onların daimi və ya uzunmüddətli istifadəsinə ayrılmış torpaqlara aiddir.

Bələdiyyə ehtiyat fondu torpaqlarına isə yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılan torpaqlar, hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları, ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları aiddir. Bələdiyyə mülkiyyətində olan torpaqların (cədvəl 21, şəkil 74-79) 94,3 min hektarı və ya 8,2%-i əkin və dincə qoyulmuş torpaqlardan ibarətdir. Çoxillik əkmələrin altında 5,0 min hektara və ya yararlı torpaq ehtiyatlarının 0,4%-i istifadə olunur. Biçənək torpaqları 3,3 min ha olmaqla 0,3%-ə çatır. Kənd təsərrüfatına yararlı həyətyanı sahələr 12,4 min ha və ya 1,1% təşkil edir. Xüsusi çəkisinə görə kəndyanı örüş sahələri bələdiyyə torpaq ehtiyatlarının yarısından çox hissəsinə, yəni 90,0%-nə və ya 1039516 ha-na bərabərdir. Bu isə respublikanın ümumi örüş və otlaq sahələrinin 40,4%-nə bərabərdir.

Cədvəl 21


Bələdiyyə mülkiyyətindəki ümumi torpaq ehtiyatlarının bölgələr üzrə istifadəçiliyi (ha/%)

S/s	Bölgələr	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çox-illik əkmə-lər	Biçə-nək	Həyət-yanı	Kənd-yanı örüş	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Abşeron	97028 4,7	5726 6,1	657 13,2	46 1,4	103 0,8	56700 5,5	63232 5,5	232 8,1	33564 3,8
	o. cüm. suv.	2739 2,9	1932 3,3	287 10,4	-	-	423 1,6	2642 2,8	97 41,8	-
2	Gəncə-Qazax	330649 16,1	11147 11,8	679 13,6	1244 37,5	1249 10,1	243447 23,4	257766 22,3	316 11,0	72567 8,1
	o. cüm. suv.	9325 9,8	7594 12,8	594 21,5	92 27,1	413 6,2	632 2,4	9325 9,8	-	-
3	Şəki-Zaqatala	149428 7,3	14925 15,8	655 13,2	10 0,3	1638 13,2	73976 7,1	91204 7,9	202 7,1	58022 6,5
	o. cüm. suv.	8210 8,6	6195 10,5	274 9,9	-	828 12,5	913 3,5	8210 8,7	-	-
4	Lənkə-ran	121381 5,9	8085 8,6	711 14,2	367 11,1	980 7,9	63911 6,1	74054 6,4	1026 35,8	46301 5,2
	o. cüm. suv.	1010 1,1	462 0,8	116 4,2	-	-	432 1,7	1010 1,1	-	-
5	Quba-Xaçmaz	231283 11,3	7147 7,6	763 15,3	1042 31,5	1229 9,9	131935 12,7	142116 12,3	177 6,2	88990 10,0
	o. cüm. suv.	9386 9,9	4840 8,2	412 14,9	137 40,4	899 13,5	3098 11,9	9386 9,9	-	-
6	Aran	559147 27,3	34608 36,7	1430 28,6	147 4,4	5195 41,9	247105 23,8	288485 25,0	599 20,9	270063 30,2
	o. cüm. suv.	50953 53,7	31408 53,2	1003 36,3	110 32,5	3567 53,6	14865 57,1	50953 53,6	-	-
7	Yuxarı Qarabağ	23160 1,1	2337 2,5	51 1,0	-	1088 8,8	7352 0,7	10828 0,9	22 0,8	12310 1,4
	o. cüm. suv.	2913 3,1	2337 4,0	51 1,8	-	525 7,9	-	2913 3,1	-	-
8	Dağlıq-Şirvan	220408 10,8	7566 8,0	32 0,6	438 13,2	508 4,1	140104 13,5	148648 12,9	-	71760 8,0
	o. cüm. suv.	3390 3,6	2023 3,4	26 0,9	-	-	1341 5,1	3390 3,6	-	-

1	2	3	4	5	6	7	8	9	10	11
9	Naxçı-van	302213 14,7	2733 2,9	3 0,1	19 0,6	421 3,4	74986 7,2	78162 6,8	290 10,1	223761 25,0
	o. cüm. suv.	7045 7,4	2281 3,9	3 0,1	-	421 6,3	4340 16,7	7045 7,4	-	-
10	Bakı ş.	16681 0,8	-	12 0,2	-	-	-	12 0,01	-	16669 1,9
	Cəmi	**2051378** **23,7**	**94274** **8,2**	**4993** **0,4**	**3313** **0,3**	**12411** **1,1**	**1039516** **90,0**	**1154507** **56,3**	**2864** **0,1**	**894007** **43,6**
	o. cüm. suv.	**94971** **4,6**	**59072** **62,3**	**2766** **2,9**	**339** **0,4**	**6653** **7,0**	**26044** **27,4**	**94874** **8,2**	**97** **3,4**	-

Cədvəl 21


Respublikanın bələdiyyə mülkiyyətindəki ümumi torpaq ehtiyatlarının bölgələr üzrə istifadəçiliyi (ha/%)



Şəkil 74

Cədvəl 21.1


Respublikanın bələdiyyə mülkiyyətindəki torpaq ehtiyatlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 75

Cədvəl 21.2


Respublikanın bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 76

Cədvəl 21.3


Respublikanın bələdiyyə mülkiyyətindəki torpaqlanının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 77

Cədvəl 21.4


Respublikanın bələdiyyə mülkiyyətindəki ümumi suvarılan torpaqların bölgələr üzrə istifadəçiliyi (ha/%)



Şəkil 78

Cədvəl 21.5

Respublikanın bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifaldəçiliyi (ha/%)



Şəkil 79

Bələdiyyə mülkiyyətindəki torpaqların 894007 hektarı sair torpaqlar qrupuna aid edilir ki, bunun da 2,9 min hektarı (0,1%) meşə fondu, 894,0 min hektarı (43,6%) az yararlı və şərti yararsız torpaq sahələrindən ibarətdir.

Respublikada dövlət və bələdiyyə mülkiyyətinə məxsus kənd təsərrüfatına yararlı torpaqlar bütünlüklə kənd təsərrüfatı dövriyyəsinə cəlb edildiyindən demək olar ki, bölgələrdə yararlı torpaq ehtiyatları tükənmişdir. Odur ki, gələcəkdə bölgələrdə kənd təsərrüfatı sahələrini genişləndirilməsi yalnız az yararlı və şərti yararsız torpaqların əsaslı şəkildə yaxşılaşdırılması yolu ilə əlavə sahələri dövriyyəyə cəlb etməklə mümkündür. Hal-hazırda bələdiyyənin bu növ torpaqlarının müəyyən güzəştlərlə Azərbaycan Respublikasının vətəndaşlarına satılması qanunlaşdırılmışdır. Dövlət mülkiyyətində olduğu kimi bələdiyyə mülkiyyətinə verilmiş torpaqların bölgələr üzrə paylanması da ərazilərin torpaq ehtiyatlarının miqdarı ilə müəyyən edirlər. Hazırda respublika üzrə kənd təsərrüfa-

tına yararlı torpaq ehtiyatlarının 24,3%-i (115,5 min ha) bələdiyyə mülkiyyətində istifadə olunur.

Belə ki, ərazicə ən geniş torpaq sahəsinə malik olan Aran bölgəsində fəaliyyət göstərən 801 bələdiyyə hazırda 559,1 min hektardan çox və ya ümumrespublika bələdiyyə mülkiyyətinin 27,3%-ni təşkil edən torpaq sahələrinə sahiblik edir. Bölgədə yararlı torpaq sahələrinin yarıdan çoxu, yəni 85,7%-i (247,1 min ha) kəndyanı örüş sahələrinin payına düşür. Bu göstərici respublika üzrə ümumbələdiyyə mülkiyyətinin örüş torpaqlarının 23,8%-i deməkdir. Eləcə də Aran bölgəsində digər təsərrüfat yerlərinin üstünlüyü müşahidə olunur. Məsələn, Aran bölgəsi bələdiyyələri qonşu Gəncə-Qazax bölgəsi ilə müqayisədə 3,1 dəfədən çox əkin, 2 dəfədən çox çoxillik əkmələr və 50 dəfədən çox kənd təsərrüfatına yararlı həyətyanı torpaq sahələrinə malikdirlər.

Respublikada torpaq ehtiyatlarının kasadlığı kənd əhalisinin ən sıx məskunlaşması ilə səciyyələnən cənub bölgəsində müşahidə olunur. Lənkəranda bu göstərici 121,4 min ha və ya ümumölkə bələdiyyə fondu torpaqlarının 5,5%-nə bərabərdir. Burada da bölgənin yararlı torpaq fondunun 85% qədərini (63,9 min ha) kəndyanı örüşlər tutur. Əkin sahələri altında (əkin və çoxillik əkmələr bələdiyyə mülkiyyətində olan yararlı torpaqların 8,8 min hektarı və ya 13,8%-i istifadə olunur. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqları çox cüzi miqdarda olub, 1,3%-dən bir qədər artıqdır. Yararlı torpaq sahələrindəki kasadlıq özünü kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqların miqdarında da göstərir. Bölgədə az yararlı və şərti yararsız torpaqlar (sair torpaqlar qrupu) bələdiyyə mülkiyyəti torpaq fondunun 38,2%-ni və ya 46,3 min hektarına bərabərdir. Digər bölgələr də isə bu qəbildən olan torpaqlar respublika üzrə ümumi bələdiyyə torpaq fondunun 43,6%-ni (894,0 min ha) təşkil edir.

Azyararlı və şərti yararsız torpaq sahələrinin çoxluğu ilə səciyyələnən Naxçıvan bölgəsində bələdiyyə mülkiyyətinin bu qrupa daxil olan torpaq ehtiyatları dövlət mülkiyyətində sax-

lanmış torpaq ehtiyatlarından 2 dəfədən artıqdır. Bu bir daha onu göstərir ki, əhalinin gələcəkdə bələdiyyənin az yararlı və şərti yararsız torpaq sahələrini uzun müddətli icarəyə götürməklə və habelə mülkiyyətinə almaqla yaxşılaşdırıb əkin dövriyyəsinə cəlb etmə imkanları daha genişdir. Bələdiyyə torpaqlarının istifadəçiliyində oxşar vəziyyət digər bölgələrdə də müşahidə olunur.

Ümumiyyətlə, hazırda bölgələrdə bələdiyyə mülkiyyətinin kənd təsərrüfatına yararlı torpaq sahələrindən kənd təsərrüfatında geniş istifadə olunur.

Hal-hazırda orta hesabla bölgələrdə məskunlaşan torpaq payı almış hər bir ailə bələdiyyə mülkiyyətinin yararlı torpaqlarından əlavə olaraq 1,31 ha torpaq sahəsindən istifadə etmək imkanına malikdirlər. Şübhəsiz ki, əlavə torpaq sahəsi ilə təmin olunma göstəricisi bölgələrdə bələdiyyələrin kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının kəmiyyətindən və ailələrin sayından asılı olaraq dəyişir. Beləliklə, respublikanın bölgələrində torpaq payı almış hər bir ailə hazırda dövlət və bələdiyyə mülkiyyətinə məxsus kənd təsərrüfatına yararlı torpaq ehtiyatları hesabına əlavə olaraq 3,53 hektardan çox torpaq sahəsindən istifadə edir. Yaxın gələcəkdə respublikada az yararlı və şərti yararsız torpaqların əhali tərəfindən əkin dövriyyəsinə cəlb edilməsi hesabına əlavə əkin torpaq sahələrinin genişlənəcəyi şübhəsizdir.

3. Xüsusi mülkiyyətdəki torpaqlar və torpaq istifadəçiliyinin vəziyyəti

Azərbaycan Respublikasının «Torpaq islahatı haqqında» qanuna uyğun olaraq xüsusi mülkiyyətə, vətəndaşların qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların altında olan və habelə sovxoz və kolxozların özəlləşdirilən torpaqları verilmişdir.

Azərbaycanda torpaq ümummilli lider mərhum Heydər

Əliyevin təşəbbüsü ilə vətəndaşlara pulsuz verilmiş və vaxtilə ictimai təsərrüfatların (sovxoz və kolxozların) istifadəsində olmuş ən yararlı və keyfiyyətli torpaqlar özəlləşdirilmişdir.

Beləliklə, respublikmızda «Torpaq islahatı haqqnıda» qanunun (1996) praktiki reallaşması nəticəsində 57 rayonun 1979 təsərrüfatında məskunlaşan (Naxçıvan MR ilə birlikdə) 3 milyon 471 min 741 subyekti birləşdirən 881201 ailənin mülkiyyətinə 1 milyon 442 min 476 hektar və ya vahid torpaq fondunun kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının 30,34%-i verilmişdir. Nəticədə, torpaq payı almış ailələrin 96,5%i mülkiyyət hüququna dair Dövlət aktları ilə təmin edilmişdir. Beləliklə, torpaq islahatının birinci mərhələsinin başa çatması nəticəsində ümumi ölkə əhalisinin 36,2%-ə qədəri torpağa sahiblik hüququ əldə etmişdir.

Xüsusi mülkiyyətə verilən kənd təsərrüfatına yararlı torpaq sahələrinin 22-ci cədvəldə verilmiş məlumtandan aydın olur ki, hazırda respublikanın vahid torpaq fondunun 1665658 hektarı torpaq mülkiyyətçilərinin əlində cəmləşmişdir. Özəlləşdirilmiş torpaq sahəsi ölkənin kənd təsərrüfatına yararlı torpaqlarının 35%-ni təşkil edir. Çoxillik əkmələrin torpaqları isə 95,7 min ha və ya 5,8%-dir. Biçənək və kənd təsərrüfatına yararlı həyətyanı torpaqlarının əhatə etdiyi sahələrin ölçüsü 78,2-198,8 min ha (4,8-12,1%) arasında tərəddüd edir. Suvarılan torpaqların 79,7%-i (1133676 ha) xüsusi mülkiyyətçilərin istifadəsindədir. Bunun 82,6%-i, yəni 936,1 min hektarı suvarılan əkin torpaqlarının payına düşür. Suvarılan həyətyanı torpaq sahələrinin 11,0%-i və yaxud 124,8 min hektarından bir qədər artıq hissəsi müxtəlif kənd təsərrüfatı bitkiləri altında istifadə olunur.

Respublikanın kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının 34,6%-i (1,640 min ha) xüsusi mülkiyyətə verilmiş torpaq ehtiyatlarının əsasını təşkil edir. Bölgələr üzrə kənd təsərrüfatına yararlı torpaqlarının torpaq ehtiyatlarının paylanması ərazinin kəmiyyəti ilə üzvi surətdə bağlıdır. Özəlləşdirilmiş torpaq ehtiyatlarına görə Aran bölgəsi xüsusilə fərqlənir. Bu-

rada ölkənin özəlləşdirilmiş torpaq ehtiyatlarının 36,8%-i (615,7 min ha) yerləşir. Əkin sahəsinin göstəricisi 0,5 milyon hektardan çoxdur ki, bu da ölkə üzrə özəlləşdirilmiş əkin sahəsinin 41,1%-nə bərabərdir. Ən az özəlləşdirilmiş torpaq sahəsi Naxçıvan bölgəsi üçün səciyyəvidir. Burada xüsusi mülkiyyətə verilmiş torpaqlar, özəlləşdirilmiş ümumi ölkə torpaqlarının 3,4%-ni (56,3 min ha) təşkil edir. Əhalinin sıx məskunlaşdığı cənub bölgəsi- Lənkəranda bu göstərici 9,0%-dir (150,5 min ha). Xüsusilə əkin sahələrinin çəkisi (əkin və çoxillik əkmələrin torpaqları) xeyli aşağıdır (8,3%) (cədvəl 22, şəkil 80-84).

Cədvəl 22

Xüsusi mülkiyyətdəki ümumi torpaq ehtiyatlarının bölgələr üzrə istifadəçiliyi (ha/%)

S/s	Bölgələr	Ümumi sahə	Kənd təsərrüfatı sahələri					İstifadə olunmayan sahələr
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Cəmi	
1	2	3	4	5	6	7	8	9
1	Abşeron	14693 0,9	8662 0,7	1960 2,1	188 0,2	1965 1,0	12775 0,8	1918 9,1
	o. cüm. suv.	6511 0,6	4275 0,5	1901 2,8	-	335 0,3	6511 0,6	-
2	Gəncə-Qazax	245476 14,7	167927 13,2	2975 3,1	30510 39,0	40886 20,6	242298 14,7	3178 15,0.
	o. cüm. suv.	160967 14,2	130282 13,9	2967 4,3	1103 24,6	26615 21,3	160967 14,2	-
3	Şəki-Zaqatala	203274 12,2	147984 11,6	35294 36,9	1129 1,5	17196 8,7	201603 12,3	1671 7,9
	o. cüm. suv.	96772 8,5	71967 7,7	18385 27,0	-	6420 5,1	96772 8,5	-
4	Lənkəran	150488 9,0	105992 8,3	8206 8,6	10361 13,3	23927 12,0	148486 9,0	2002 9,5
	o. cüm. suv.	31033 2,7	24702 2,6	6038 8,8	72 1,6	221 0,2	31033 2,7	-

1	2	3	4	5	6	7	8	
5	Quba-Xaçmaz	179607 10,8	110921 8,7	26301 27,5	26220 33,5	14052 7,0	177494 10,8	2113 10,0
	o. cüm. suv.	111489 9,8	79873 8,5	21910 32,2	1619 36,2	8087 6,5	111489 9,8	-
6	Aran	615662 37,0	522088 41,1	9790 10,2	2660 3,4	73917 37,2	608455 37,0	7207 34,1
	o. cüm. suv.	581568 51,3	507600 54,2	9519 13,9	950 21,2	63499 50,9	581568 51,3	-
7	Yuxarı Qarabağ	49996 3,0	42149 3,3	1891 2,0	-	5594 2,8	49634 3,0	362 1,7
	o. cüm. suv.	48140 4,2	41739	1891 2,8	-	4510 3,6	48140 4,2	-
8	Dağlıq-Şirvan	150176 9,0	127362 10,0	8514 8,9	4361 5,6	8683 4,4	148920 9,1	1256 6,0
	o. cüm. suv.	48694 4,3	41178 4,4	4859 7,1	127 2,8	2530 2,0	48694 4,3	-
9	Naxçıvan	56286 3,4	38711 3,1	761 0,8	2796 3,6	12610 6,4	54878 3,3	1408 6,7
	o. cüm. suv.	48420 4,4	34442 3,7	761	607 13,6	12610 10,1	48420 4,4	-
	Cəmi	**1665658 35,0**	**1271796 77,3**	**95692 5,8**	**78225 4,8**	**198830 12,1**	**1644543 98,7**	**21115 1,3**
	o. cüm. suv.	**1133676 79,7**	**936058 82,6**	**68308 6,0**	**4478 0,4**	**124832 11,0**	**1133676 68,8**	-


Qısa təhlildən görünür ki, özəlləşdirilmiş torpaq sahələrinin ölçüsünün məhdud miqdarı onun davamlı və dayanıqlı inkişafının təmin olunmasını ön plana çəkir. Bunun üçün torpaqların münbitliyinin yüksəldilməsini və onun mühafizəsini təmin edə biləcək elmi əsaslarla işlənmiş daha dayanıqlı və mütərəqqi alternativ təsərrüfatçılıq formalarının müəyyənləşdirilib geniş tətbiq edilməsi məqsədəuyğundur.

Hazırda respublikamızda özəlləşdirilmiş torpaq sahələrində dayanıqlı və rentabelli təsərrüfat yaradıb işlədə biləcək əmək qabiliyyətli ailə üzvləri say tərkibinin bu prosesdə iştirakının təmin edilməsinin xüsusi əhəmiyyəti vardır. Bu sahədə aparılan çoxsaylı araşdırmalar və xüsusilə qabaqcıl xarici ölkələrin təsərrüfatçılıq təcrübəsi göstərir ki, kiçik ailələr (ailə tərkibi 3-5 nəfər) 15-20 və orta ailələr (ailə tərkibi 6-8 nəfər) isə 35-40 ha və daha çox torpaq sahələri əkib-becərdikdə tor-

paqdan istifadənin səmərəlilik faizi daha yüksək olur. Bu parametrlərin respublikamızda torpaq mülkiyyətçiləri olan ailələrin timsalında müəyyənləşdirilməsinin torpaq istifadəçiliyinin davamlı və dayanıqlı səmərəli inkişafının təmin olunmasında dəyərli meyar olduğunu nəzərə alaraq ilk dəfə qabaqcıl dünya təcrübəsinə əsaslanmış ailə qruplaşması aparmağa cəhd göstərilmişdir.

Cədvəl 22

Respublikanın xüsusi mülkiyyətindəki ümumi torpaq ehtiyatlarının bölgələr üzrə istifadəçiliyi (ha/%)




Abseron
Gəncə-Qazax
Şəki-Zaqatala
Lənkəran
Quba-Xaçmaz
Aran
Yuxarı Qarabağ
Dağlıq Şirvan
Naxçıvan

Şəkil 80

Cədvəl 22.1

Respublikanın bölgələrinin xüsusi mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Dəmvə Suvarılan

Şəkil 81

Cədvəl 22.2

Respublikanın bölgələrinin xüsusi mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)




Əkin+dinc Biçənək

Çoxillik əkmələr Həyətyanı

Şəkil 82

Cədvəl 22.3


Respublikanın xüsusi mülkiyyətindəki ümumi suvarılan torpaqlarının bölgələr üzrə istifadəçiliyi (ha/%)



Şəkil 83

Cədvəl 22.4

Respublikanın xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifaldəçilyi (ha/%)



Şəkil 84

Ölkədə mövcud torpaq mülkiyyətçiləri olan ailələr istifadəçiləri ailə üzvlərinin say tərkibinə görə beş- (tək - 1-2, kiçik 3-5, orta 6-8, böyük 9-12 və ən böyük 12 nəfərdən çox) qrupa bölünməklə təsnifləşdirilmişdir. Respublikanın təbii-iqtisadi regionları üzrə ümumiləşdirilmiş rəqəmlərin (cədvəl 23, şəkil 85-98) təhlilindən aydın olur ki, hazırda ölkədə torpaq payı almış bir kəndli ailəsi orta hesabla 1,64 ha torpaq sahəsini əkib-becərir.

Torpaq mülkiyyətçisi olan tək ailələr hazırda torpaq payı almış ailələrin 29,7%-ni (253139 ailə) təşkil etməklə özəlləşdirilmiş torpaqların 10,1%-ni əkib becərirlər. Ayrı-ayrı bölgələrdə tək ailələrin becərdikləri torpaq payının orta ölçüsü (bir ailə üçün) çox fərqlidir və 0,23-1,03 ha arasında dəyişir. Bu ailə qrupunda bir ailənin istifadəsinə ümumilikdə 0,61 ha özəlləşən torpaq sahəsi düşür. Bir ailə üzvünün mülkiyyətinə verilmiş orta torpaq payı norması isə 0,44 hektardır. Torpaq payı almış ailələrin sayına görə birinci yerdə duran kiçik ailələr ümumi ailələrin 48,3%-ni təşkil etməklə torpaq ehtiyatlarının 51,5%-dən (742782 ha) istifadə edirlər. Bu ailə qrupunda bir ailənin əkib-becərdiyi orta torpaq payının ölçüsü bölgələr üzrə geniş intervalda 0,32-2,85 ha arasında tərəddüd edir. Burada orta torpaq pay norması adam başına tək aiələrdə olduğu kimi 0,44 ha-dır. Bu qrupda bir ailənin istifadə etdiyi torpaq sahəsinin ölçüsü 0,32-2,85 ha arasında geniş intervalda dəyişir. Dağlıq Şirvan bölgəsində bir ailənin əkib-becərdiyi torpaq sahəsi 2,85 ha olduğu halda Gəncə-Qazax bölgəsində bu göstərici xeyli azalaraq 1,28 hektara enir. Eləcə də hər bir subyektə düşən orta torpaq payının həddi də dəyişir.

Cədvəl 23


Respublikanın bölgələrində məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*

S/s	Bölgələr	Ailə qrupları															Ailə qrupları üzrə			Orta torpaq norması ailə subyekt
		Tək ailələr (1-2 nəf.)			Kiçik ailələr (3-5 nəf.)			Orta ailələr (6-8 nəf.)			Böyük ailələr (9-12 nəf.)			Ən böyük ailələr (12 nəf. çox)						
		ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
1	Abşeron	2362 0,9	3233 0,5	798 0,6	3930 1,0	16114 0,9	4455 0,6	1359 0,8	8915 0,8	3042 0,7	203 1,0	2012 1,0	752 0,9	39 2,0	584 2,1	195 1,8	7893 0,9	30858 0,9	9243 0,6	1,18 0,30
2	Gəncə-Qazax	55716 22,1	77828 22,2	25377 17,5	90213 22,0	367341 20,1	115819 15,6	24569 14,8	158672 14,7	50743 10,9	1888 9,5	17283 8,7	5266 6,6	113 6,0	1601 0,6	488 4,4	172499 19,6	622725 17,9	197694 13,7	1,15 0,32
3	Şəki-Zaqatala	30813 12,2	43631 12,5	18048 12,5	30046 7,3	249884 13,7	107371 14,4	17201 10,4	113522 10,5	50973 11,0	968 4,9	9297 4,7	4692 5,9	39 2,0	469 1,7	370 3,3	109067 12,4	416603 12,0	181454 12,6	1,67 0,44
4	Lənkəran	28013 11,1	39664 11,3	9839 6,8	56813 13,8	240543 13,2	49524 6,7	33938 20,5	225881 21,0	54054 11,7	7391 37,0	73403 37,0	18068 22,5	864 45,0	13092 46,5	3455 31,0	127019 14,4	592583 17,1	134941 9,4	1,07 0,23
5	Quba-Xaçmaz	30658 12,1	42575 12,2	23415 16,2	39448 9,6	160975 8,8	87472 11,8	12042 7,3	76344 7,1	44237 9,5	862 4,3	8391 4,2	5175 6,5	60 3,1	862 3,1	485 4,4	83070 9,4	289147 8,3	160784 11,1	1,94 0,56
6	Aran	59296 23,4	80467 23,0	41184 28,4	121721 29,6	506834 27,8	270780 36,4	52905 32,0	342566 31,8	185808 40,0	6742 33,8	64577 32,6	33290 41,6	682 35,6	9855 35,0	4908 44,1	241346 27,4	1004299 28,9	535929 37,2	2,22 0,54
7	Yuxarı Qarabağ	6669 2,6	9171 2,6	5975 4,1	12450 3,0	53154 2,9	23569 3,2	4640 2,8	30824 2,9	14187 3,1	388 1,9	3740 1,9	1743 2,2	12 0,6	175 0,6	73 0,7	24159 2,7	97064 2,8	45548 3,2	1,88 0,47
8	Dağlıq Şirvan	14153 5,6	19710 5,6	14464 10,0	20365 5,0	80784 4,4	58059 7,8	9740 5,9	64135 6,0	50817 11,0	1183 5,9	11537 5,8	10531 13,2	96 5,0	1379 4,8	1135 10,2	45537 5,2	177545 5,2	135007 9,4	2,97 0,76
9	Naxçıvan	25459 10,1	34042 9,7	5874 4,1	35779 8,7	147763 3,5	25733 3,5	9016 5,5	56038 2,1	9738 2,1	343 1,7	2734 0,6	477 0,6	14 0,7	140 0,2	18 0,2	70611 8,0	240717 6,9	41841 2,9	0,60 0,18
	Cəmi	**253139 29,7**	**350321 10,1**	**144974 10,1**	**410765 48,3**	**1823392 52,5**	**742782 51,5**	**165410 19,4**	**1076897 31,0**	**463599 32,1**	**19968 2,3**	**197974 5,7**	**79994 5,5**	**1919 0,3**	**28157 0,5**	**11127 0,8**	**851201 41,6**	**3471741 56,0**	**1442476 30,3**	**1,64 0,42**


* ailənin sayı, sahə ha
ümumi ailənin və sahənin cəmindən %-lə

Cədvəl 23

Respublikada məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)




Şəkil 85




Şəkil 86

Cədvəl 23.1

Respublikanın bölgələrində məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)






Cədvəl 23.2

Respublikanın bölgələrində məskunlaşan tək ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)


(1-2 nəf.)

A



Şəkil 89

B





Şəkil 90

Cədvəl 23.3

Respublikanın bölgələrində məskunlaşan kiçik ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)

(3-5 nəf.)







Cədvəl 23.4

Respublikanın bölgələrində məskunlaşan orta ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)

(6-8 nəf.)



Şəkil 93




Şəkil 94

Cədvəl 23.5

Respublikanın bölgələrində məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)


(9-12 nəf.)

A



Şəkil 95

B




Şəkil 96


Cədvəl 23.6

Respublikanın bölgələrində məskunlaşan ən böyük ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)

(12 nəfərdən çox)



Şəkil 97



Şəkil 98

Özəlləşən torpaq sahəsinin təqribən 32,1%-nə (430,9 min. ha) sahiblik edən orta ailələrdə (6-8 nəfər, 19,4%) bir ailənin istifadə etdiyi torpaq sahəsinin ölçüsü bölgələr üzrə daha geniş olmaqla 1,08-5,22 ha arasında dəyişir. Maksimum həddə Dağlıq Şirvan bölgəsində – 5,22 ha, minimum isə Naxçıvan bölgəsində 1,08 ha olduğu qeydə alınmışdır. Bu ailə qrupunda hər bir ailə üzvünün orta torpaq pay norması bölgələr üzrə 0,18-0,80 ha arasında azalıb- artır. Ölkə üzrə hər bir orta ailənin əkib-becərdiyi torpaq sahəsinin ölçüsü 2,8 hektara çatır. Ailədə bir nəfərə düşən orta torpaq payı isə 0,43 hektara bərabərdir.

Ailə üzvlərinin sayı tərkibinə görə 4-cü yerdə duran böyük ailə qrupu (9-12 nəfər) ölkə üzrə torpaq payı almış ümumi ailələrin yalnız 2,3%-ni (19968 ailə) təşkil etməklə, özəlləşən torpaq fondunun 5,5%-dən (79994 ha) istifadə edirlər. Bu qrupda bir ailənin əkib-becərdiyi torpaq sahəsinin maksium orta ölçüsü Dağlıq Şirvan bölgəsində 8,9 hektar, minimum ölçüsü isə Naxçıvan bölgəsində 1,39 hektar qeydə alınmışdır. Sonuncu bölgədə ailə üzvlərinin hər birinin istifadə etdiyi orta torpaq pay norması 0,18-0,92 hektara bərabərdir. Ölkə üzrə böyük ailələrdə hər bir ailə üzvünə 0,40 ha torpaq payı düşməklə ailəliklə 4,01 ha torpaq sahəsinə sahiblik edirlər. Ən böyük ailə qrupunun (12 nəfərdən çox) çox məskunlaşdığı Lənkəran bölgəsində (864 ailə), hər bir ailə orta hesabla 4,0 ha torpaq sahəsinin sahibidir. Ailə üzvlərinin hər bir nəfəri isə 0,26 ha torpaq payına malikdir. Ən böyük ailələrin nisbətən az məskunlaşdığı (96 ailə) Dağlıq Şirvanda bu göstərici 11,82 ha (bir nəfər ailə üzvünün torpaq payı 0,82 ha) olmaqla xeyli yüksəkdir. Respublikada qeydə alınmış ən böyük ailələr, torpaq payı almış ümumi ailələrin 0,3%-ni (1919 ailə), istifadə etdikləri torpaq sahələri isə 0,8%-ni (11127 ha) təşkil edir. Ölkə üzrə ən böyük ailələrin istifadə etdikləri torpaq sahəsinin orta ölçüsü 5,8 hektardan bir qədər artıqdır.

Naxçıvan Respublikasında ən az cəmi 14 «ən böyük» ailə qrupu qeydə alınmışdır. Bölgədə başqa ailə qruplarında ol-

duğu kimi bu ailələrin də becərdikləri torpaq sahəsi çox azdır (1,29 ha).

Beləliklə, təhlildən göründüyü kimi hazırda özəlləşdirilmiş 1,44 milyon hektardan çox torpaq sahələrinin mülkiyyətçiləri olan 9 təbii-iqtisadi bölgələrdə məskunlaşmış əhali həm ailələrinin tərkibindəki əmək qabiliyyətli adamların sayına görə və həm də əkib-becərdikləri torpaq sahələrinin ölçülərinə görə xeyli fərqlidirlər. Hal-hazırda ölkənin torpaq istifadəçiliyində mövcud olan bu rəngarəngliyin gələcəkdə neçə və hansı istiqamətdə dəyişəcəyini proqnozlaşdırmaq çox çətindir. Bunu zaman keçdikcə formalaşmaqda olan yeni təsərrüfatçılığın davamlı inkişaf prosesi göstərəcəkdir.

IV Fəsil. İQTİSADİ - COĞRAFİ BÖLGƏLƏRİN TORPAQ EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN SOSİAL-İQTİSADİ VƏ EKOLOJİ ƏSASLARI

Bəllidir ki, hər bir ölkənin inkişafının əsasında ilk növbədə iqtisadi və intellektual resurslardan, o cümlədən torpaq ehtiyatlarından düzgün istifadənin təşkili və elmi-təcrübi əsaslara söykənən xüsusi proqramın olması böyük əhəmiyyət kəsb edir. Bu mənada xalqımızın böyük oğlu, müdrik dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə on il əvvəl başlanmış aqrar islahatların həyata keçirilməsi və eləcə də özəl aqrar bölməyə göstərilən hərtərəfli dövlət qayğısının təzahürü olaraq möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi haqqında» və 11 fevral 2004-cü il tarixli «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008) təsdiq edilməsi haqqında» Fərmanları xüsusi əhəmiyyətə malikdir. Yeni iqtisadi siyasət strategiyasının əsasını təşkil etməklə regionların inkişafına xüsusi təkan vermiş, ölkənin iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olan Dövlət Proqramında ölkənin torpaq ehtiyatlarının davamlı və dayanıqlı istifadəsi ön plana çəkilmiş (Regionların sosial-iqtisadi inkişafı, 2005), kənd təsərrüfatının dinamik inkişaf etməsi, kənd əhalisinin sosial həyat səviyyəsinin yüksəldilməsi, xüsusilə insanları yerlərdə məşğulluğunun təmin edilməsi sahəsində görüləcək işlər dönə-dönə qeyd olunmuş, müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq regionun, rayonun, hətta kəndin konkret məkanı nəzərlə tutulan layihənin, həyata keçiriləcək tədbirin adı, icra müddəti, icraya məsul təşkilatlar göstərilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının yerinə yetirilməsinin əsas istiqamətləri kənd əhalisinin maddi rifahı, sosial-məişət şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, dağ regionlarının inkişafı, özəlləşdirmə, işləməyən müəssisələrin fəaliyyətinin bərpası və yeni iş yerlərinin açılması, sahib-

karlıq mühitinin yaxşılaşdırılması, regionlarda yaşayan vətəndaşların mənəvi ehtiyaclarının daha dolğun ödənilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, təhsil islahatları, onun struktur aə məzmununun yeniləşdirilməsi, elm sahələrinin inkişaf etdirilməsi və s. xarakterini daşıyır.

Dövlət Proqramına daxil olan 714 tədbirin 46-sı ölkədə makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsinə, 668-i 9 iqtisadi rayonun və onlara daxil olan regionların inkişafına yönəlmişdir.

Respublikamızda həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq 2005-ci ildə Azərbaycanda sənaye istehsalı 33,5 faiz, ümumdaxili məhsul istehsalı 26,4 faiz, bu ilin birinci rübündə isə 40 faiz artmışdır. Dünyanın heç bir ölkəsində belə artım müşahidə edilməmişdir. Müqayisə üçün deyək ki, dünyanın inkişaf etmiş ölkələri üzrə 2005-ci ildə bu göstərici 2-3 faiz, MDB ölkələrində isə ən yüksək göstərici 7 faiz olmuşdur.

Son üç il ərzində ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi, qeyri neft sektorunun inkişafına yönəlmiş tədbirlərin həyata keçirilməsi nəticəsində respublikamızda 520 min iş yeri yaradılmışdır ki, bunun da 84 faizi regionların payına düşür. Yeni açılmış iş yerlərinin çoxu daimi iş yerləridir.

Yeni iş yerlərinin yaradılması və regionların inkişafından danışarkən qeyd etmək lazımdır ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin aqrar siyasəti olaraq həyata keçirilən və hazırda möhtərəm Prezident tərəfindən davam etdirilən torpaq islahatlarının bu sahədə böyük rolu olmuşdur. Belə ki, 01 yanvar 2006-cı ilədək 3 milyon 471 min 778 subyektə, 1 milyon 442 min 476 hektar torpaq pay olaraq xüsusi mülkiyyətə verilib. Bu təbii ki, bir o qədər sayda iş yeri sayılmaqla ölkəmizdə sahibkarlığın inkişafına böyük təkan verib.

Kənd təsərrüfatının maddi-texniki bazasını möhkəmləndirmək, istehsalçılara texniki xidməti daha da genişləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin «Aqrar

bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» 23 oktyabr 2004-cü il tarixli 468 nömrəli Sərəncamı ilə «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti yaradılması, bu məqsədlə 2005-ci ildə 100 milyard manat, 2006-cı ildə isə 150 milyard manat vəsait ayrılması da aqrar sektorun inkişafına göstərilən diqqətin təzahürüdür (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, bülleten №4, 2005-ci il).

Hal-hazırda ölkəmizin aqrar sahəsinin tərkib hissəsi olan kənd təsərrüfatı iqtisadi inkişafın yeni mərhləsinə qədəm qoymuşdur. Bu mərhələnin başlıca hədəflərindən biri ölkə iqtisadiyyatında regional baxımdan mühüm rol oynayan torpaq ehtiyatlarının davamlı və dayanıqlı istifadəsinin yüksək səmərəliliynə nail olmaqdan ibarətdir.

Respublikamızda təbii təsərrüfat xüsusiyyətlərinə görə torpaq ehtiyatlarının istifadəsi 10 iqtisadi-coğrafi bölgədə mərkəzləşmişdir.

Aşağıda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında verilmiş ardıcıllığa uyğun olaraq Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Dağlıq Şirvan, Kəlbəcər-Laçın və Naxçıvan bölgələri, habelə ölkə iqtisadiyyatında mühüm yer tutan Bakı şəhərinə məxsus torpaq ehtiyatlarının istifadəçiliyi barədə ətraflı təhlili verilir.

I. ABŞERON TƏBİİ İQTİSADİ-COĞRAFİ BÖLGƏSİ

Bölgə Böyük Qafqaz dağlarının cənub-şərq ucqarında yerləşir. İnzibati ərazicə Abşeron, Xızı rayonlarını və Sumqayıt şəhərini əhatə edir. Çox əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Respublikanın ən çox inkişaf etmiş iqtisadi rayonlarından sayılır. Ümumi sahəsi 381776 ha olmaqla ölkə ərazisinin 4,4 faizini təşkil edir.

Qeyd etmək lazıdır ki, ölkənin paytaxtı Bakı şəhərinin əhatə etdiyi inzibati ərazi bütün mövcud parametrləri ilə Abşeron rayonu ilə üzvi bağlılıq təşkil etdiyini nəzərə alaraq

bölmənin sonunda Bakı şəhərinin torpaq ehtiyatları və torpaq istifadəçiliyinin vəziyyəti regionun bir hissəsinin təhlili kimi təqdim olunmuşdur.

Ərazisinin əksər hissəsinin relyefi dağlıq və maili dalğavari təpəli düzənlikdən ibarətdir. Az bir hissəsinin səthi dənizsahili düzənlikdir. Bölgənin ən alçaq nöqtəsi dəniz səviyyəsindən 28 m-dən aşağıda, ən yüksək nöqtəsi şimal-qərbdə yerləşən Dübrar dağının (2205 m) zirvəsidir.

Torpaqəmələgətirən süxurlar yaşca üçüncü, dördüncü dövr və Xəzər dənizinin qədim çöküntülərindən təşkil olunmuşdur. Bilavasitə torpaqəmələgəlmə prosesində əsasən aşağı yuranın tünd qara rəngli gilli şistləri, orta yuranın boz-qonur gilli və ya qumlu-çınqıllı və eləcə də mergelli. boz və qırmızı-yaşıl (ant-barrem) gillərin iştirakı müşahidə olunur.

Bitki örtüyü torpaqəmələgəlmə prosesində fəal iştirak etməklə yanaşı, bölgənin mövcud aqroekoloji şəraitinin yaxşılaşmasında və biomüxtəlifliyin dayanıqlı inkişaf etməsində mühüm rol oynayır.

Səhra (şoran, qumluq), yarımsəhra, bozqır (çöl), meşə, meşə-kolluq və çəmən (alp və subalp çəmənlər) və çəmən-bataqlıq bitki qruplarından təşkil olunmuş bitki örtüyü Xəzər dənizinin sahilindən başlayaraq yüksək dağ zirvələrinə qədər şaquli zonallıq yaradır. Bitki örtüyündə zonallıqdan asılı olaraq növ tərkibinin əsaslı şəkildə dəyişməsi ərazidə torpaqların tip və növlərin dəyişməsinə də səbəb olmuşdur.

Bölgədə bitki və torpaq örtüyünün formalaşmasında ərazinin iqlim şəraitinin uyğun şəkildə zonallıq üzrə dəyişməsi də həlledici rol oynayır. İqlimi əsasən yayı quraq keçən mülayim isti yarımsəhra və qurü subtropik iqlim tipidir. Şimal-qərbdə yerləşən dağlıq hissənin iqlimi isə yayı quraq keçən mülayim isti iqlimi ilə səciyyələnir. Bölgənin ayrı-ayrı məntəqələrində aparılmış çoxillik iqlim müşahidələrinə görə (cədvəl 24, şəkil 99-102) havanın orta illik temperaturu dağlıq ərazidə (Xızı) $10,1^0$-ə, Şubanıda $12,4^0$ və Ələtdə isə $14,6^0$-yə çatır. Həmin məntəqələrdə qış fəslinin orta temperaturu $0,0^0$-$4,6^0$-ə, yayın

orta aylıq temperaturu 20,7-25,3^0 arasında ədyişir. İl ərzində düzənlik hissədə 144-218 mm və dağlıq hissədə isə 430 mm arasında düşən yağıntının miqdarı fəsillər üzrə qeyri-bərabər paylanmışdır. Yağıntıların maksimum miqdarı yaz və payız aylarında, ilin nisbətən mülayim isti və soyuq dövrlərində müşahidə olunur. İllik mümkün səthi buxarlanmanın miqdarı 839-1119 mm-ə çatır. Bu isə illik düşən yağıntının miqdarından 2,6-5,8 dəfə çoxdur. Qışda torpaq səthində orta aylıq temperatur düzənlik hissədə 5^0, yayda isə bu göstərici 29,7^0-ə yüksəlir. Payızda temperatur 17,0^0-ə bərabərdir. İlin isti dövründə (aprel-oktyabr) torpaq səthinin orta temperaturu 24,8^0-dək yüksəlir. İlin soyuq dövründə (noyabr-mart) torpaq səthinin temperaturu isə kifayət qədər (8,3^0) yüksək olması ilə səciyyələnir.

Cədvəl 24

Bölgənin əsas iqlim göstəriciləri

S/s	Metroloji stansiyalar	İqlim göstəriciləri*	Fəsillər üzrə				İllik	İlin dövrləri	
			Qış	Yaz	Yay	Payız		İsti	Soyuq
1	2	3	4	5	6	7	8	9	10
1	Ələt	havanın t-u	4,6	12,2	25,3	16,4	14,6	21,3	13,1
		yağıntı	63	65	21	69	218	73	145
		havanın nis.rüt.	78	72	58	73	70	63	77
		buxarlanma	95	203	511	230	1040	786	254
		torpaq. səth.t-u	5,0	14,6	29,7	17,0	17,0	24,8	8,3
2	Şubanı	havanın t-u	2,7	9,8	22,8	14,2	12,4	18,8	5,9
		yağıntı	20	47	14	63	144	50	94
		havanın nis.rüt.	85	74	60	79	74	65	84
		buxarlanma	89	226	582	222	1119	895	224
3	Xızı	havanın t-u	0,0	8,6	20,7	11,1	10,1	17,0	2,8
		yağıntı	112	135	66	116	430	181	249
		havanın nis.rüt.	82	72	60	78	73	64	81
		buxarlanma	86	193	392	168	839	626	213

* yağıntı və buxarlanma mm-lə, havanın aylıq və torpaq səthinin temperaturu dərəcə ilə, havanın nisbi rütubəti %-lə göstərilmişdir.


İqlim göstəricilərinin qısa şərhindən aydın olur ki, ərazinin təbii iqlim şəraiti bölgənin düzənlik və dağətəyi düzənlik hissələrində payızın ortalarına qədər bir çox tərəvəz bitkilərinin açıq şəraitdə yetişdirilməsi üçün kifayət qədər rütubət və istilik potensialının olduğunu göstərir. Lakin bəzən ilin soyuq dövrü tez başladığından şimal, şimal-şərqdən əsən soyuq küləklər becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına ciddi ziyan yetirir. Beləliklə, bölgədə torpaqəmələgətirən amillərin qısa səciyyəsindən görünür ki, bitki örtüyü və iqlim şəraitinin şaquli zonallığa uyğun dəyişməsi, ərazinin torpaq örtüyündə də aydın ifadə olunmuşdur.

Hazırlanmış torpaq xəritəsində iqtisadi-coğrafi bölgələrə daxil olan inzibati ərazilərdə təkrarlanan eyni tip və yarımtiplərin adları vahid adda birləşdirməklə bölgənin torpaq örtüyünün tərkibi müəyyənləşdirilmişdir.

Bölgənin və eləcə də Bakı şəhərinin torpaq örtüyünün tərkibində (xəritə-sxem 3, cədvəl 25, şəkil 103) boz və boz-qonur (kon. 30, 31, 34) torpaqların tip və yarımtipləri geniş yayılmışdır. Əsasən yovşanlı-efemerli və şoran bitkili yarımsəhra şəraitində əmələ gələn bu torpaqlar yaşca nisbətən cavan olub, genetik qatların zəif ifadə olunması ilə səciyyələnir. Çürüntü qatı çox yuxadır və humusun miqdarı 1-1,5%-dən artıq olmur. Ümumi torpaq ehtiyatlarının 330,1 min ha-ı və ya 55,3%-dən çox hissəsini təşkil edən boz və boz-qonur torpaqlar düzən ərazilərdə qədim dəniz çöküntüləri, alçaq dağlıq və dağətəyi düzənlik sahələrdə isə ant-barrem gilləri üzərində əmələ gəlmişdir. Qranulometrik tərkibcə əsasən gilli və ağır gilli torpaqlardır. Mühiti qələvidir. Torpağın dərin qatlarına endikcə asan həll olunan duzların və gipsin miqdarı artır. Boz və boz-qonur torpaqların özünəməxsus xüsusiyyətlərindən biri də onların müxtəlif dərəcədə şorakətli və şoranlı olmasıdır. Odur ki, bu torpaqlarda kənd təsərrüfatı bitkiləri becərilərkən əsaslı meliorativ tədbirlər həyata keçirilməlidir.


Cədvəl 24


Bölgənin əsas iqlim göstəriciləri





Yağıntı (mm)

Cədvəl 24.1











Şəkil 100

Cədvəl 24.2


Ələt
Havanın orta nisbi rütubətliyi %
78
72
58
73
70
63
77
Şubanı
85
74
60
79
74
65
84
Xızı
82
72
60
78
73
64
81
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 101

Cədvəl 24.3


Ələt
Səth örtüyündən buxarlanma (mm)
95
203
511
230
1040
786
254
Şubanı
89
226
582
222
1119
895
224
Xızı
95
193
392
168
839
626
213
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 102

Cədvəl 25

Bölgənin torpaq örtüyünün tərkibi*

Kontur №-si	Tip və yarımtiplər	Sahə	
		ha	%
2	Çimli dağ-çəmən	1296	0,2
13	Tipik qəhvəyi dağ-meşə	11348	1,9
14	Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə	3967	0,7
15	Yuyulmuş və tipik dağ-qara	24076	4,0
17	Tünd və adi dağ boz-qəhvəyi	3398	0,6
19	Tünd və adi dağ-şabalıdı	50978	8,5
20	Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ-şabalıdı	34199	5,7
25	Qismən qalıq şorlaşmış açıq şabalıdı	21485	3,7
30	Açıq və ibtidai boz	61889	10,4
31	Çəmən-boz	46429	7,8
34	Qismən şorakətli və şoranlı bozumtul və boz-qonur	221737	37,2
36	Subasar allüvial-çəmən	24848	4,2
38	Şoranlar (delüvial və sonkalı)	2080	0,4
40	Takır və takırabənzər	3748	0,6
41	Dyunlu təpəcikli qumlar	66905	11,2
44	Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	18040	3,0
	Cəmi	**596420**	**100**


Ümumiyyətlə, bölgə daxilində bu torpaqlar aqroistehsalat baxımından yüksək mənimsənilən ərazilərdən sayılır. Suvarma şəraitində dənli, bostan-tərəvəz, üzüm və s. kənd təsərrüfatı bitkiləri yetişdirilir. Eləcə də heyvandarlığın təbii yem bazası olmaqla, qış otlaq sahələri kimi geniş istifadə edilir.

Bölgədə arealına, keyfiyyət göstəricilərinə və habelə təsərrüfat əhəmiyyətinə görə ikinci geniş yayılmış torpaqlar dağşabalıdı və şabalıdı torpaqların tip və yarımtipləridir (kon. 19, 20, 25). Boz və boz-qonur torpaqların şimal-qərbində və qərbində dağətəyi düzənliyin və alçaq dağlıq zonanın quru bozqırlarında yovşanlı-daşdayanlı, yovşanlı, şoranlı bitkilər altında, zəif rütubətlənmə şəraitində inkişaf etmış torpaqlar ümumi torpaq fondunun 106,7 min hektarını və ya 17,9%-ni təşkil edir. Arid şəraitdə əmələ gələn bu torpaqlarda şorlaşma və şorakətləşmə hallarının baş verməsi geniş yayılmışdır. Xüsusilə, şabalıdı torpaqların əmələ gəlməsində və inkişafında

* Bakı şəhərinin torpaq örtüyü ilə birlikdə


ABŞERON BÖLGƏSİNİN TORPAQ XƏRİTƏ-SXEMİ*

1 : 700 000



Xəritə-sxem 3

* Bakı şəhərinin torpaqları ilə birlikdə




antropogen amillərin, qədimdən suvarmanın aparılması mühüm rol oynayır. Bu torpaqlarda genetik qatlar aydın seçilməklə yarımtiplərindən asılı olaraq humusun miqdarı 1,5-4,5% arasında dəyişir. Qranulometrik tərkibinə görə əksərən gilli və ağır gilliciəlidir. Udulmuş əsaslardan tam doymuş bu torpaqların mühiti zəif qələvidir (pH 7,5-8,5). Bölgənin relyef, iqlim şəraiti və eləcə də şabalıdı torpaqların fiziki və kimyəvi xassələri onlarda gələcəkdə də kənd təsərrüfatı bitkilərinin becərilməsinin xeyli əlverişli olduğunu göstərir.

Bölgənin kənd təsərrüfatında qismən istifadə olunan çimli-dağ çəmən, tipik qəhvəyi dağ-meşə, karbonatlı və bozqırlaşmış qəhvəyi dağ-meşə, dağ-qara və dağ boz-qəhvəyi (kon. 2, 13, 14, 15, 17) torpaqlar torpaq örtüyünün 7,4%-ni və ya 44,1 min hektarını əhatə edir. Əsasən biçənək, kəndyanı örüş və otlaq sahələri kimi, az miqdarda isə dənli bitkiləri altında istifadə edilir. Meşə və meşə-kolluqların qəhvəyi torpaqları ərazidə ekoloji durumun dayanaqlı olmasında, xüsusilə torpaq-

qoruyucu, su tənzimləyici və iqlim mülayimləşdirici əhəmiyyət daşıyır. Başlıca olaraq dənizsahili düzənlik və qismən dağətəyi düzənlikdə lokal şəraitdə yayılmış subasar allüvial-çəmən torpaqlar, şoranlar, takır və takırabənzər, dyunlu-təpəcikli qumlar və habelə çılpaq qayalıqlar və səthə çıxmış gilli süxurlar (kon. 36, 38, 40, 41, 44) torpaq örtüyünün tərkibində 115,6 min ha və ya 19,4% təşkil edir. Bu torpaqlardan yalnız subasar-allüvial çəmən torpaqların az bir hissəsi əkinəyararlı olduğundan bostan və tərəvəz, qismən isə meyvə bağları altında istifadə olunur.

Cədvəl 25

Bölgənin torpaq örtüyünün tərkibi (ha/%)*



*Bakı şəhərinin torpaqları ilə birlikdə

Şəkil 103

Beləliklə, aparılan qısa şərhdən aydın olur ki, Abşeron bölgəsinin ümumi torpaq fondunun 175,7 min hektarı və ya 46,0%-i hal-hazırda yararlı torpaq sahələri kimi kənd təsərrüfatı dövriyyəsinə daxildir (cədvəl 26, şəkil 104-109). İstifadə olunan ümumi əkin-dinc torpaqların sahəsi 23,4 min və ya

13,0%-dir. Çoxillik əkmələr isə 5,2 min ha və ya 3,0%-ə yaxındır. Kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının əsas kütləsi örüş və otlaq torpaqlarının payına düşür. Bu torpaqlar əsas torpaq fondunun təqribən 144,0 min hektarını və ya 82,0%-ni əhatə edir. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqları torpaq ehtiyatının 2,4 min hektarını və ya 1,4%-i, biçənək torpaqları isə 0,7 min hektarını və ya 0,4%-ni tutur. Meşə fondu torpaqları bölgənin ümumi torpaq fondunun 3,0%-ni və ya 11,6 min hektarını əhatə edir. Xızı rayonu ərazisində 9921 hektarda qorunub saxlanmış təbii meşə örtüyü (fıstıq, vələs, palıd və s.) altında tipik, karbonatlı dağ meşə torpaqları yayılmışdır. Meşə örtüyünün 1513 hektarı sonradan Abşeron rayonu ərazisində salınmış suvarılan meşələrdir.


Cədvəl 26

Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Örüş və otlaqlar	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	Abşeron	205512 53,8	16298 20,3	3499 4,4	63 0,1	58745 73,1	1729 2,2	80334 39,1	1513 0,7	123665 60,2
	o.c.suv.	15742 82,3	8259 58,0	3499 24,6	-	2255 15,8	216 1,5	14229 17,2	1513 100	-
2	Xızı	166789 43,7	7059 7,6	-	661 0,7	84339 91,3	358 0,4	92417 54,4	9921 5,9	64451 38,6
	o.c.suv	2047 10,7	1977 96,6	-	-	-	70 3,4	2047 2,2	-	-
3	Sumqayıt	9475 2,5	-	1657 56,9	12 0,4	912 31,3	329 11,3	2910 30,7	135 1,4	6430 67,9
	o.c.suv	1338 7,0	-	1228 91,8	-	-	110 8,2	1338 46,4	-	-
	Cəmi	**381776** **4,4**	**23357** **13,3**	**5156** **2,9**	**736** **0,4**	**143996** **82,0**	**2416** **1,4**	**175661** **46,0**	**11569** **3,0**	**194546** **51,0**
	o.c.suv.	**19127** **1,3**	**10236** **58,1**	**4727** **26,8**	-	**2255** **12,8**	**396** **2,3**	**17614** **10,0**	**1513** **13,1**	-

Cədvəl 26


Bölgənin ümumi torpaq fondunun rayonlar üzrə paylanma strukturu (ha/%)



Şəkil 104


Cədvəl 26.1

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar uzrə istifadəçiliyi (ha/%)




Şəkil 105

Cədvəl 26.2




Cədvəl 26.3



Cədvəl 26.4


Bölgənin yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 108

Cədvəl 26.5

Bölgənin suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 109

Hazırda kənd təsərrüfatı dövriyyəsində istifadə olunan torpaqların yalnız 17,6 min hektarı, yəni 9,8%-i suvarılır. Bunun 58,1%-i əkin (10,2 min ha) və 26,8%-i (4,7 min ha) çoxillik əkmələrin torpaqlarıdır. Örüş və otlaq sahələrinin yalnız 2,3 min hektarı və ya 12,8%-i suvarılan torpaqlarda yerləşir. Bölgədə suvarılan torpaqlar respublika üzrə suvalıran torpaqların 1,3%-ni təşkil edir.

Abşeron rayonunda becərilən torpaq sahələrinin 17,2%-i (14,2 min ha) suvarılan torpaqlarda yerləşdiyi halda, Xızı rayonunda təbii şərait dəyişdiyindən kəskin şəkildə azalaraq 2,2%-ə (2,0 min ha) qədər enir. Sair torpaqlar isə əsasən az yararlı və şərti yararsız sahələrdən ibarət olub, bölgənin ümumi torpaq ehtiyatının 194,5 min hektarını və ya 51,0%-ni əhatə edir. Bu torpaqlar gələcəkdə əkinəyararlı torpaqların genişləndirilməsində yeganə ehtiyat mənbələrindən sayılır.

Hazırda bölgədə becərilən kənd təsərrüfatı yerlərinin keyfiyyət qrupları üzrə paylanması dinamikası xeyli müxtəlifdir (cədvəl 27, şəkil 110-115). Belə ki, əkin və dinc torpaq sahələrinin yalnız çox cüzi bir hissəsi, yəni təqribən 0,3 min hektarı (1,2%) yüksək keyfiyyətli torpaqlardan ibarətdir. Ərazidə əkin sahəsinin əsasən orta keyfiyyətli torpaqlara çevrilməsi, yəni 62,5%-ə qədər artması (14,9 min hektara yaxın) ciddi narahatlıq yaradır. Hətta IV qrupda əkin və dinc torpaq sahələrinin yaxşı keyfiyyətli torpaq sahələrinə nisbətən bərabər olması, eləcə də belə təhlükəli hallar çoxillik əkmələr və eləcə də örüş və otlaq torpaq sahələrində də baş verməkdədir. Ümumiyyətlə, kənd təsərrüfatına yararlı torpaq fondunun 45,1%-dən çoxunun, yəni 79,1 min hektarının IV və V keyfiyyət qrupunda yer tutması torpaq örtüyündə tənəzzül prosesinin güclənməsi nəticəsində torpağın keyfiyyət qrupları arasında yuxarıdan aşağıya doğru transferlik dinamikasının ildən-ilə sürətlənməsini göstərir. Bölgənin ayrı-ayrı rayonlarında torpaqların keyfiyyət qrupları arasında dinamiklik mövcuddur (cədvəl 28). Belə ki, ildən-ilə torpaqların əsas keyfiyyət göstəricilərinin pisləşməsi nəticəsində aşağı doğru transferliyin


Cədvəl 27

Bölgənin ümumi kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması (ha/%)

Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
							kəndyanı	qış	yay	
	100-81	I	283 10,5	-	-	2416 89,5	-	-	-	2699 1,5
	80-61	II	4283 38,3	455 4,0	-	-	3825 33,3	2484 22,2	136 1,2	11183 6,4
	60-41	III	14594 17,7	2952 3,6	623 0,8	-	46166 55,9	16064 9,4	2184 2,6	82583 47,1
	40-21	IV	4197 6,6	1749 2,7	-	-	34509 54,1	22094 34,6	1283 2,0	63832 36,4
	20-1	V	-	-		-	5474 35,9	9703 63,7	62 0,4	15239 8,7
381776 4,4	**100-1**	**I-V**	**23357 13,0**	**5156 2,9**	**623 0,3**	**2416 1,3**	**89974 51,3**	**50345 28,7**	**3665 2,1**	**175536 46,0**

Cədvəl 27


Bölgənin kənd təsərrüfatına yararlı torpaqlarının keyfiyyət qrupları üzrə paylanma strukturu (ha/%)



Şəkil 110

Cədvəl 27.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təssərrüfatı sahələri (ha/%)



Şəkil 111

Cədvəl 27.2

II keyfiyyət qrupu üzrə paylanmış kənd təssərrüfatı sahələri (ha/%)




Əkin +dinc
Çoxillik əkmələr
Kəndyanı örüş
Qış otlağı
Yay otlağı

Şəkil 112

Cədvəl 27.3

III keyfiyyət qrupu üzrə paylanmış kənd təssərrüfatı sahələri (ha%)




Əkin +dinc
Coxillik əkmələr
Biçənək
Kəndyanı örüş
Qış otlağı
Yay otlağı

Şəkil 113

Cədvəl 27.4


IV keyfiyyət qrupu üzrə paylanmış kənd təssərrüfatı sahələri (ha/%)



Şəkil 114

Cədvəl 27.5

V keyfiyyət qrupu üzrə paylanmış kənd təssərrüfatı sahələri (ha/%)



Şəkil 115

Cədvəl 28

Bölgə rayonlarında kənd təsərrüfatı sahələri torpaqlarının rayonlar üzrə paylanmış keyfiyyət qrupları (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
					Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
									kəndyanı	qış	yay	
1	Abşeron		100-81	I	283 / 14,1	-	-	1729 / 85,9	-	-	-	2012 / 2,5
			80-61	II	4283 / 26,3	455 / 13,0	-	-	1535 / 7,1	2001 / 5,4	-	8274 / 10,3
			60-41	III	8135 / 49,9	1295 / 37,0	-	-	5140 / 23,6	8186 / 22,1	-	22756 / 28,3
			40-21	IV	3597 / 22,1	1749 / 50,0	-	-	10882 / 50,0	17371 / 46,9	-	33599 / 41,9
			20-1	V	-	-	-	-	4190 / 19,3	9440 / 25,5	-	13630 / 17,0
	Cəmi	**205512 / 53,8**	**100-1**	**I-V**	**11298 / 19,7**	**3499 / 9,2**	-	**1729 / 2,1**	**21747 / 27,0**	**36998 / 46,1**	-	**802 / 39,1**
2	Xızı		100-81	I	-	-	-	358 / 100	-	-	-	358 / 0,4
			80-61	II	-	-	-	-	2290 / 3,4	483 / 3,6	136 / 3,7	2909 / 4,2
			60-41	III	6459 / 91,5	-	623 / 100	-	40126 / 59,6	7878 / 49,0	2184 / 59,6	57270 / 62,0
			40-21	IV	600 / 8,5	-	-	-	23627 / 35,1	4723 / 35,4	1283 / 35,0	30233 / 32,7
			20-1	V	-	-	-	-	1284 / 1,9	263 / 2,0	62 / 1,7	1609 / 1,7
	Cəmi	**166789 / 43,7**	**100-1**	**I-V**	**7059 / 7,6**	-	**623 / 0,7**	**358 / 0,4**	**67327 / 72,9**	**13347 / 14,4**	**3605 / 4,0**	**92379 / 55,4**
3	Sumqayıt ş.		100-81	I	-	-	-	329 / 100	-	-	-	329 / 11,4
			80-61	II	-	-	-	-	-	-	-	-
			60-41	III	-	1657 / 76,5	-	-	900 / 35,2	-	-	2557 / 78,2
			40-21	IV	-	-	-	-	-	-	-	-
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**9475 / 2,5**	**100-1**	**I-V**	-	**1657 / 57,4**	-	**329 / 11,4**	**900 / 31,5**	-	-	**2886 / 19,9**

kəmiyyəti yüksəlir. Tam əminliklə demək olar ki, yaxın gələcəkdə torpaqların yaxşılaşdırılması sahəsində əsaslı aqromeliorativ tədbirlər görülməsə, hazırda yaxşı keyfiyyət qrupunda yer tutmuş torpaq sahələrinin miqdarı ciddi şəkildə azalacaq və onların hesabına hazırda IV və V keyfiyyət qruplarında olan torpaqların sahələri bir qədər də artacaqdır. Heç şübhəsiz ki, XX əsrin əvvəllərində Abşeron bölgəsində kənd təsərrüfatına yararlı torpaqların münbitlik göstəriciləri bu qədər acınacaqlı vəziyyətdə olmamışdır. Bölgənin torpaqlarında tənəzzül prosesinin güclənməsi ilə əlaqədar keyfiyyət qrupları arasında transferlik dinamikasının sürətlənməsi ərazinin suvarılan torpaqlarının keyfiyyətinin pisləşməsində də özünü göstərməkdədir.

Bölgədə kənd təsərrüfatı dövriyyəsinə cəlb olunmuş 175,5 min hektar torpaq sahəsinin yalnız 19,1 min hektarı və yaxud da 11,0%-ə yaxın hissəsi suvarılan sahələrdən ibarətdir. Aparılmış son meliorativ araşdırmalara görə ərazidə paylanmış suvarılan torpaq sahələrinə təsir göstərən əsasən qrunt sularının minerallaşma dərəcəsidir (cədvəl 29, şəkil 116-118).


Cədvəl 29

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə meliorativ vəziyyətinə dair bəzi göstəricilər (ha/%)

S/s	Rayonlar	Ümumi suvarılan sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	Abşeron	15742 82,3	774 5,0	7561 48,0	7407 47,0	1996 12,7	5305 33,7	8441 53,6	1140 7,2	8956 4,8	5646 35,9
2	Xızı	2047 10,7	-	-	2047 100	-	-	2047 100	42 2,0	1393 68,0	612 30,0
3	Sumqayıt ş.	1338 7,0	-	1338 100	-	1338 100	-	-	100 7,5	1228 91,8	10 0,7
	Cəmi	**19127 1,3**	**774 4,0**	**8899 46,5**	**9454 49,5**	**3334 17,4**	**5305 27,8**	**10488 54,8**	**1282 6,7**	**11577 60,5**	**6268 32,8**

Cədvəl 29

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)






Şəkil 116

Cədvəl 29.1

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazilərdə paylanması (ha/%)






Şəkil 117

Cədvəl 29.2

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəjəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 118

Belə ki, Abşeron rayonunda suvarılan torpaqların 0,8 min hektarı (5,0%) qrunt sularının dərinliyi 10 m-dən az, yəni çox təhlükəli həddə olan ərazilərdə yerləşmişdir. Burada suvarılan torpaqların 7,6 min hektarı (48,0%) qrunt sularının dərinliyi nisbətən az təhlükəli, yəni 1-6 metr arasında dəyişən ərazidə paylanmışdır. Suvarılan sahələrin yalnız 7,4 min hektarı (47,0%) 3,0 m-dən aşağı dərinlikdə, yəni şorlaşma təhlükəsi olmayan ərazidə rast gəlinir.

Xızı rayonunda suvarılan 3,0 min hektar torpaq sahəsi bütünlüklə 3,0 m-dən aşağı dərinlikdə yerləşən ərazilərdə pylanmışdır.

Bölgədə qrunt sularının minerallaşma dərəcəsi də xeyli fərqlidir. Burada suvarılan torpaqların 17,4% və yaxud 3,3 min hektarı minerallaşma dərəcəsi 1,0 q/l-dən az olan sahələrdir. Suvarılan ərazilərin 27,8%-ində (5,3 min ha) qrunt suyunun minerallaşması 1,0-3,0 q/l-ə çatır. Ümumiyyətlə, suvarılan torpaqların 10,5 min hektarı minerallaşma dərəcəsi 3,0 q/l-ə çatan sahələrdən ibarətdir.

Yuxarıdakı təhlildən göründüyü kimi, hazırda suvarılan

torpaqların 1,3 min hektarı (6,7%) qrunt sularının yatım dərinliyinə və minerallaşma dərəcəsinə görə meliorativ vəziyyəti yaxşı, 11,6 min hektarı (60,5%) kafi və yalnız 6,3 min hektarı (32,8%) qeyri-kafi qiymətləndirilir.

Rayonda suvarılan torpaqların 67,7%-i, yəni 13,0 min hektarı müxtəlif dərəcədə şorlaşmış sahələrdən ibarətdir. Bunun 64,4%-i (8,3 min ha) zəif, 17,1%-i (2,2 min ha) orta və 18,5%-i (2,4 min ha) yüksək dərəcədə şorlaşmaya məruz qalmışdır (cədvəl 30, şəkil 119-121).

Cədvəl 30


Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə şorlaşma və drenləşmə durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi					Drenləşmiş sahələr	
			şorlaşmayan	cəmi şorlaşmış	o cümlədən			cəmi	o cüm. örtülü
					zəif	orta	şiddətli		
1	2	3	4	5	6	7	8	9	10
1	Abşeron	15742 82,3	4129 26,2	11613 73,8	6998 60,3	2213 19,0	2402 20,7	889 5,6	889 5,6
2	Xızı	2047 10,7	2047 36,0	-	-	-	-	-	-
3	Sumqayıt ş.	1338 7,0	-	1338 100	1338 100	-	-	-	-
	Cəmi	**19127 1,3**	**6176 32,0**	**12951 67,7**	**8336 64,4**	**2213 17,1**	**2402 18,5**	**889 4,6**	**889 4,6**

Ən çox şorlaşmış suvarılan sahələrə Abşeron rayonu ərazisində rast gəlinir. Sumqayıt şəhər ətrafı suvarılan torpaqlar zəif şorlaşmışdır. Yaxın gələcəkdə suvarılan sahələrdə drenləşmə genişləndirilmədiyi təqdirdə şorlaşmanın arealının çoxalması şübhə doğurmur. Suvarılan torpaqların yalnız 0,9 min hektarı (5,6%) örtülü üfüqi drenləşmiş sahələrdən ibarətdir. Bütün bunlar bölgədə istifadə edilən kənd təsərrüfatına yararlı torpaqların xeyli hissəsinin meliorativ vəziyyətinin qeyri qənaətbəxş olduğunu göstərir.

Cədvəl 30


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)



Şəkil 119

Cədvəl 30.1


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 120

Cədvəl 30.2

Bölgənin ümumi suvarılan torpaqların drenləşmə durumu (ha%)



Şəkil 121

Hal-hazırda torpaq istifadəçiliyində baş verən gərginlik bölgə torpaqlarının eroziyaya uğrama (cədvəl 31, şəkil 121 və 122) vəziyyətində də müşahidə edilir. Belə ki, bölgənin ümumi

Cədvəl 31

Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə eroziya durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Eroziyalıq dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	Abşeron	205512 55,2	62517 30,4	142995 69,6	38315 26,8	38940 27,2	65740 46,0
2	Xızı	166789 44,8	29252 17,5	137537 82,5	27687 20,1	38135 27,7	71715 52,1
	Cəmi	**372301 4,3**	**91769 24,6**	**280532 75,4**	**66002 23,5**	**77075 27,5**	**137455 49,0**
Yarımsəhra zonası torpaqlarının eroziya durumu							
	Abşeron	205512 2,4	179595 87,4	25947 12,6	8185 4,0	6410 3,1	11352 5,5


torpaq ehtiyatlarının 280,5 min hektarı (75,4%) müxtəlif dərəcədə eroziyaya uğramış sahələrdən ibarətdir. Şiddətli su (137,5 min ha) eroziyasına uğramış sahələrə ən çox dağlıq ərazilərdə çimli dağ-çəmən, dağ boz-qəhvəyi, dağ qara və şabalıdı və qismən isə dağətəyi hissədə, boz-qonur torpaqlarda müşahidə olunur. Külək eroziyası (25,9 min ha) bölgənin yarımsəhra zonasının boz torpaqlarında və dyunlu-təpəcikli dənizsahili qumluqlarda tuğyan edir.

Bu təbii və antropogen bəlanın arealı ildən-ilə genişlənməkdədir. Hazırda torpaq fondunun eroziyadan qorunmasına qarşı bir sıra tədbirlər həyata keçirilsə də yetərli deyildir. Torpaq eroziyasına qarşı mübarizə tədbirlərinin aparılması ilə bağlı regionların sosial- iqtisadi inkişafı Dövlət Proqramında da xüsusi müddəalar irəli sürülür ki, bu da həmin sahədə konkret addımların atılmasına gətirib çıxaracaq. Bu xüsusda Abşeron iqtisadi rayonunda su və külək eroziyalarının qarşısının alınması, su rejiminin qorunub saxlanması və ətraf mühitin tənzimlənməsi məsələlərinin yerinə yetirilməsi öz əksini tapmışdır. Bununla bərabər, zənnimizcə, regionlarda torpaq eroziyasına qarşı mübarizə aparılması üçün hər bir bölgənin təbii-torpaq şəraiti nəzərə alınmaqla ayrıca (kompleks tədbirlər) Dövlət Proqramının işlənib hazırlanmasına və onun konkret şəkildə həyata keçirilməsinə də ehtiyac vardır.

Mövcud durumda bölgənin 381,8 min hektarı ümumi torpaq fondunun 70,7%-i (271 min ha) dövlət mülkiyyətində saxlanmış, 25,4%-i (97,0 min ha) bələdiyyə mülkiyyətinə verilmiş və yalnız 3,8%-i (14,7 min ha) xüsusi mülkiyyətə verilmişdir (cədvəl 32, şəkil 120, 121).

Cədvəl 31

Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)




Eroziyasız sahə
Eroziyalı sahə

Şəkil 121

Cədvəl 31.1

Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya dərəcəsi (ha/%)



Zəif
Orta
Şiddətli

Şəkil 122


Cədvəl 32

Bölgənin vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış	yay			
1	Dövlət	270055 70,7	8969 9,0	2539 2,5	502 0,5	348 0,3	-	83619 83,9	3665 3,7	99642 36,9	11337 4,2	159076 58,9
	o.c.suv.	9877 51,6	4029 47,6	2539 30,0	-	61 0,7	-	1832 21,6	-	8461 85,7	1416 12,5	-
2	Bələdiyyə	97028 25,4	5726 9,1	657 1,0	46 0,1	103 0,2	56700 89,7	-	-	63232 65,2	232 0,2	33564 34,6
	o.c.suv.	2739 14,3	1932 73,1	287 10,9	-	-	423 16,0	-	-	2642 4,2	97 41,8	-
3	Xüsusi	14693 3,8	8662 67,8	1960 15,3	188 1,5	1965 15,4	-	-	-	12775 87,0	-	1918 13,0
	o.c.suv	6511 34,6	4275 65,0	1901 28,9	-	335 6,1	-	-	-	6511 51,0	-	-
	Cəmi	**381776 4,4**	**23357 13,3**	**5156 2,9**	**736 0,4**	**2416 1,4**	**56700 32,3**	**83619 47,6**	**3665 2,1**	**175649**	**11569 3,0**	**194558 51,0**
	o.c.suv.	**19127 1,3**	**10236 58,1**	**4727 26,8**	-	**396 2,3**	**423 2,4**	**1832 10,4**	-	**17614 9,8**	-	-

Cədvəl 32

Bölgənin ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)




Dövlət
Bələdiyyə
Xüsusi

Şəkil 123

Cədvəl 32.1

Bölgənin ümumi suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Dövlət
Bələdiyyə
Xüsusi

Şəkil 124

1. Dövlət mülkiyyətindəki torpaqlar. Bu torpaqların 99,6 min hektarı və ya 36,9%-i kənd təsərrüfatına yararlı torpaq sahələri kimi hazırda dövriyyədədir (cədvəl 33, şəkil 125-130). Bunun təqribən 9,0 min hektarı və ya 9,0%-i əkin və dinc torpaqların payına düşür. Çoxillik əkmələr (bura kollektiv bağlar da daxildir) altında istifadə olunan torpaqlar 2,5 min ha (2,5%) olmaqla ən çox Abşeron rayonu (2505 ha) və qismən az miqdarda isə Sumqayıt şəhər ətrafı (34 ha) ərazilərdə yayılmışdır. Bölgənin kənd təsərrüfatı dövriyyəsində olan torpaq ehtiyatlarının 83,6 min hektarını (83,9%) qış otlaqları, 3,7 min hektarını (3,7%) yay otlaqları təşkil edir.

Cədvəl 33

Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik	Biçənək	Həyətyanı	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							qış	yay			
1	Abşeron	169529 62,3	7540 13,6	2505 4,5	-	348 0,6	45198 81,3	-	55591 32,8	1416 0,8	112522 66,4
	o.c.suv.	9843 62,5	4029 47,8	2505 29,7	-	61 0,7	1832 21,7	-	8427 85,6	1416 100	-
2	Xızı	99045 36,7	1429 3,1	-	502 1,1	-	38421 87,3	3665 8,3	44017 44,4	9921 10,0	45107 45,5
3	Sumqayıt ş.	1481 0,5	-	34 100	-	-	-	-	34 2,3	-	1447 97,7
	o.c.suv	34 2,6	-	34 100	-	-	-	-	34 100	-	-
	Cəmi	**270055** **70,7**	**8969** **9,0**	**2539** **2,5**	**502** **0,5**	**348** **0,3**	**83619** **83,9**	**3665** **3,7**	**99642** **36,9**	**11337** **4,2**	**159076** **58,9**
	o.c.suv.	**9877** **51,6**	**4029** **47,6**	**2539** **30,0**	-	**61** **0,7**	**1832** **21,6**	-	**8461** **8,5**	**1416** **12,5**	-

Bölgədə heyvandarlığın təbii yem bazası sayılan yarımsəhra və bozqır zonalarında örüş və otlaq sahələrində xüsusilə aridləşmə prosesinin güclənməsi torpaq örtüyündə tənəzzülü sürətləndirmiş, bu isə torpaqda şorlaşma və şorakətləşmənin kəmiyyət və keyfiyyətcə artmasına, təbii bitki örtüyünün seyrəlməsinə və ya tamamilə məhv olmasına gətirib çıxarmışdır. Eləcə də ərazidə təbii və antropogen təsirlərin daha da güclənməsi nəticəsində torpağın təbii davamlılığının zəifləməsi torpaqlarda potensial münbitliyin itirilməsinə və ot örtüyünün bioloji məhsuldarlığın kəskin şəkildə azalmasına səbəb olmuşdur. Meşə torpaqları bölgənin ümumi torpaq fondunun 4,2%-ni (11,3 min ha) əhatə edir. Deyilənlərlə yanaşı, bölgədə Altıağac qoruğuna məxsus 4438 ha meşə və meşə kolluqlar, yarımsəhra zonasında isə 815 ha torpaq sahəsi xüsusi qorunan ərazilər kimi istifadə olunur. Hazırda xüsusi mühafizə olunan ərazilərin və yaşayış məntəqələri altındakı torpaq sahələri (1689 ha) istisna olmaqla (cəmi 6127 ha) bölgənin dövlət torpaq fondunun təqribən 152,9 min hektarı və ya 56,6%-i sair torpaqlar qrupuna aiddir. Bu qrupun tərkib hissəsi az yararlı və şərti yararsız sayılan torpaq ehtiyatlarıdır.

Gələcəkdə, dövlət mülkiyyətinə məxsus bu torpaq ehtiyatlarını köklü şəkildə yaxşılaşdırmaqla yeni-yeni sahələri kənd təsərrüfatı dövriyyəsinə cəlb etmək mümkündür.

Cədvəl 33


Bölgənin dövlət mülkiyyətindəki ümumi torpaqlarının ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 125

Cədvəl 33.1


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 126

Cədvəl 33.2


Bölgənin dövlət mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 127

Cədvəl 33.3


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı üzrə istifadəçiliyi (ha/%)



Şəkil 128

Cədvəl 33.4

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)




Abşeron

Sumqayıt ş.

Şəkil 129

Cədvəl 33.5

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha%)



Əkin dinc

Çoxillik əkmələr

Həyətyanı

Qış otlağı

Şəkil 130

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Bölgənin kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının 97,0 min hektarını və ya 25,4%-ni əhatə edir (cədvəl 34, şəkil 131-135). Bu ehtiyatın 5,7 min hektarı və ya 9,1%-ni əkin+dinc və 0,7 min hektarı və ya 1,0%-ə qədərini çoxillik əkmələrin torpaqları tutur.

Cədvəl 34


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik	Biçənək	Kəndyanı örüş	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	Abşeron	29077 30,0	5261 27,5	287 1,5	-	13547 70,9	52 0,01	19147 65,8	97 0,3	9833 33,8
	o.c.suv.	2329 85,0	1522 68,2	287 12,9	-	423 19,0	-	2232 11,7	97 100	-
2	Xızı	61887 63,8	465 1,1	-	46 0,1	42253 98,8	-	42764 69,1	-	19123 30,9
	o.c.suv	410 15,0	410 100	-	-	-	-	410 1,0	-	-
3	Sumqayıt ş.	6064 6,2	-	3,70 28,0	-	900 68,1	51 3,9	1321 21,8	135 2,2	4608 76,0
	Cəmi	**97028 25,4**	**5726 9,1**	**657 1,0**	**46 0,1**	**56700 89,7**	**103 0,2**	**63232 65,2**	**232 0,2**	**33564 34,6**
	o.c.suv.	**2739 14,3**	**1932 73,1**	**287 10,9**	-	**423 16,0**	-	**2642 4,2**	**97 41,8**	-

Burada da kəndyanı örüş sahələrinin torpaqları üstünlük təşkil edir. Ərazidə onun ölçüsü torpaq fondunun 56,7 min hektarına (89,7%) bərabərdir. Əslində bölgədə fəaliyyət göstərən 30 bələdiyyə hazırda mülkiyyətlərində olan 63,2 min hektar (65,2%) yararlı torpaq sahəsindən istifadə edir. Bundan başqa bələdiyyələr 0,2 min hektar (0,2%) meşə torpaqlarından və habelə sahəsi 33,7 min hektara (34,6%) çatan kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaq sahələrindən istifadə edirlər. Eləcə də bələdiyyələr onların mülkiyyətinə verilmiş və bölgənin ümumi suvarılan torpaqlarının 14,3%-ni təşkil edən 2,7 min ha suvarılan torpaqlara da sahiblik edirlər.

Cədvəl 34


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 131

Cədvəl 34.1


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 132

Cədvəl 34.2

Bölgənin bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Dəmyə

Suvarılan

Şəkil 133

Cədvəl 34.3

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahəlri üzrə istifadəçiliyi (ha\%)



Əkin +dinc

Çoxillik əkmələr

Biçənək


Kəndyanı örüş

Həyətyanı

Şəkil 134

Cədvəl 34.4

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahəlri üzrə istifadəçiliyi (ha/%)



3. Xüsusi mülkiyyətdəki torpaqlar. Bölgədə xüsusi mülkiyyətə verilmiş torpaqlar (cədvəl 35, şəkil 136-139) əvəllər fəaliyyət göstərmiş 27 ictimai təsərrüfatın uzunmüddətli istifadəsində olmuş torpaqlardır.

Cədvəl 35

Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatına yararlı sahələr					K.t. istifadə olunmayan sahələr
			Əkin+dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Cəmi	Sair sahələr
1	2	3	4	5	6	7	8	9
1	Abşeron	6906 47,0	3497 62,5	707 12,6	63 1,1	1329 23,8	5596 81,0	1310 19,0
	o.c.suv.	3570 54,8	2708 75,9	707 19,8	-	155 4,3	3570 63,8	-
2	Xızı	5857 39,9	5165 91,6	-	113 2,0	358 6,4	5636 96,2	221 3,8

1	2	3	4	5	6	7	8	9
	o.c.suv	1637 25,2	1567 95,7	-	-	70 4,3	1637 29,0	-
3	Sum-qayıt ş.	1930 13,1	-	1253 81,2	12 0,8	278 18,0	1543 80,0	387 20,0
	o.c.suv	1304 20,0	-	1194 91,6	-	110 8,4	1304 84,5	-
	Cəmi	**14693 3,8**	**8662 67,8**	**1960 15,3**	**188 1,5**	**1965 15,4**	**12775 87,0**	**1918 13,0**
	o.c.suv.	**6511 34,0**	**4275 65,0**	**1901 28,9**	-	**335 6,1**	**6511 51,0**	-

Sonradan torpaq islahatı ilə özəlləşdirilmiş, həmin təsərrüfatların kənd təsərrüfatına yararlı 14693 hektarı və ya bölgənin ümumi yararlı torpaq fondunun 3,8%-i, suvarılan torpaqların isə 34,0%-i (6511 ha) 7893 ailənin (30858 subyektin) mülkiyyətinə verilmişdir. Bunun 8662 hektarı və ya 67,8%-i əkin və dincə qoyulmuş torpaqlardır. Çoxillik əkmələrin torpaqları sahəcə həyətyanı sahələrə bərabər olub ümumi özəlləşən torpaqların 15,4%-ni təşkil edir. Hazırda xüsusi mülkiyyətçilərin istifadəsində 6511 ha və ya bölgənin ümumi suvarılan torpaqlarının 34,0%-i cəmləşmişdir.

Cədvəl 35


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha\%)



Şəkil 136

Cədvəl 35.1

Bölgənin xüsusi mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Dəmyə

Suvarılan

Şəkil 137

Cədvəl 35.2

Bölgənin xüsusi mülkiyyətdəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha\%)



Əkin dinc

Çoxillik əkmələr


Biçənək

Həyətyanı

Şəkil 138

Cədvəl 35.3

Bölgənin xüsusi mülkiyyətdəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahəlri üzrə istifadəçiliyi (ha/%)



Əkin dinc
Çoxillik əkmələr
Həyətyanı

Şəkil 139

Orta hesabla bölgədə hər bir ailə 1,17 ha (cədvəl 36, şəkil 140-153) torpaq payını əkib becərir. Bunun 0,73 hektarı suvarılan əkin sahələridir. Bölgənin ayrı-ayrı rayonlarında bu göstəricilər müxtəlifdir və geniş intervalda dəyişir. Məsələn, Abşeron rayonunda torpaq payı almış hər bir ailə orta hesabla 0,71 ha, Xızı rayonunda torpaq payı almış bir ailə isə 2,44 ha torpaq sahəsindən istifadə edir. Suvarılan torpaqların istifadəçiliyinə görə rayonlar arasında fərq o qədər də çox deyildir. Xızı rayonunda bir ailənin payına 0,77 hektar suvarılan torpaq sahəsi düşdüyü halda Abşeron rayonunda bu rəqəm 0,62 hektara enir. Ümumiyyətlə, bölgə üzrə orta torpaq pay norması bir nəfərə 0,30 hektardır. Bu göstərici Xızıda 0,55 hektardırsa, Abşeron rayonunda 0,19 hektara enir. Ailə qrupları içərisində kiçik ailələr (3-5 nəfər) özəlləşən torpaqların 48,2%-dən (4455 ha) istifadə edirlər. Eləcə də burada ailələrin 49,8%-i (3930 ailə) cəmləşmişdir. Ən böyük ailələrin (12 nəfərdən çox) hər biri tərəfindən 5,0 hektar torpaq sahəsinin əkib becərilməsinə baxmayaraq onların torpaq istifadəçiliyində çəkisi

Cədvəl 36


Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*

S/s	Rayonlar	Ailə qrupları															Yekun			Orta torpaq norması: ailə / subyekt
		Tək ailələr (1-2 nəfər)			Kiçik ailələr (3-5 nəfər)			Orta ailələr (6-8 nəfər)			Böyük ailələr (9-12 nəfər)			Ən böyük ailələr (12 nəfərdən çox)						
		ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	
1	Abşeron	1888 79,9	2555 79,0	397 49,9	2918 74,2	11895 73,8	2183 49,0	819 60,3	5337 59,9	1099 36,1	103 50,7	1030 51,2	237 31,5	28 71,8	434 74,3	123 63,1	5756 72,9	21251 68,9	4039 43,7	0,71 0,19
2	Xızı	474 20,1	678 21,0	401 50,1	1012 25,8	4219 26,2	2272 51,0	540 19,7	3578 40,1	1943 63,9	100 49,3	982 48,8	515 68,5	11 28,2	150 25,7	72 36,9	2137 27,1	9607 31,1	5204 56,3	2,44 0,55
	Cəmi	**2362 29,9**	**3233 10,5**	**796 8,6**	**3930 49,8**	**16114 52,2**	**4455 48,2**	**1359 17,2**	**8915 28,9**	**3042 32,9**	**203 2,6**	**2012 6,5**	**752 8,1**	**39 0,5**	**584 1,9**	**195 2,1**	**7893 1,0**	**30858 1,0**	**9242 0,7**	**1,17 0,30**


* ailənin sayı, sahə ha / ümumi ailənin və sahənin cəmindən %-lə

Cədvəl 36

Abşeron bölgəsində məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)




Şəkil 140




Şəkil 141

Cədvəl 36.1

Abşeron bölgəsində məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)






Cədvəl 36.2


Bölgənin rayonlarında məskunlaşan tək ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(1-2 nəf.)

A



Şəkil 144

B





Şəkil 145

Cədvəl 36.3

Bölgənin rayonlarında məskunlaşan kiçik ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)

(3-5 nəf.)







Cədvəl 36.4

Bölgənin rayonlarında məskunlaşan orta ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)

(6-8 nəf.)



Şəkil 148




Şəkil 149

Cədvəl 36.5

Bölgənin rayonlarında məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)


(9-12 nəf.)

A



Şəkil 150

B




Şəkil 151


Cədvəl 36.6

Bölgənin rayonlarında məskunlaşan ən böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)

(12 nəfərdən çox)



Şəkil 152



Şəkil 153

çox aşağıdır. Məsələn, özəlləşən torpaqların ancaq 2,1%-i (195 ha) 39 ailənin əlindədir. Bu da ümumi ailələrin yalnız 0,5%-ni təşkil edir. Tək ailələr təqribən (1-2 nəfər) 0,8 min ha torpaq sahəsini əkib-becərir və ümumi ailələrin 29,9%-ə qədərini əhatə edir. Ümumiyyətlə, dövlət və bələdiyyə mülkiyyətinin kənd təsərrüfatına yararlı torpaq ehtiyatları özəlləşdirilmiş torpaq sahələri ilə birlikdə götürüldükdə, (175649 ha) bölgədə özəlləşmədə iştirak edən hər bir ailə orta hesabla 22,25 ha kənd təsərrüfatına yararlı torpaq sahəsindən istifadə etmək imkanının olduğu ortaya çıxır. Bölgədə məskunlaşan hər bir fiziki şəxsin (30858 nəfər) istifadə imkanı isə orta hesabla 5,7 hektara çatır. Burada suvarılan torpaqlar sahəsi birinci halda 2,23 hektar və ikinci halda isə 0,57 hektar təşkil edir. Ümumiyyətlə, hazırda bölgədə əhalinin əkib becərdiyi torpaq sahəsinin yalnız 10%-ə qədəri suvarılan sahələrdən ibarətdir. Şübhəsiz ki, xüsusilə son illər əhalinin sıx məskunlaşdığı Abşeron bölgəsi üçün bu qeyri normal haldır. Odur ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramında Abşeron iqtisadi rayonunda meşə, su, yabanı bitkilər və s. təbii resurslardan səmərəli istifadəsinin gücləndirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Bakı şəhəri və şəhərətrafı torpaq ehtiyatları

Bakı şəhəri, Azərbaycan Respublikasının paytaxtı olmaqla, ölkənin sənaye, elm və mədəniyyət mərkəzidir.

Şəhər inzibati cəhətdən Səbail, Yasamal, Nəsimi, Nərimanov, Nizami, Xətai, Əzizbəyov, Qaradağ, Sabunçu, Suraxanı və Binəqədi rayonlarının ərazisini özündə birləşdirir. Ümumi sahəsi 214,6 min ha olmaqla respublika ərazisinin 2,5%-ni təşkil edir.

Abşeron yarımadasının əsas hissəsini, eləcə də Bakı arxepelaqlarını və qismən Qobustanın cənub-şərq hissəsini əhatə

edir. Şəhərin cənub-şərq hüdudları Xəzər sahili boyunca Şirvan düzündə Bəndövan qəsəbəsinədək uzanır. Şəhər ərazisinin digər hissəsi şimal-qərbdə və cənub-qərbdə Abşeron və cənubda Salyan rayonları ilə həmsərhəddir. Şəhərin şimal, şimal-şərq və şərq hüdudları Xəzərin sularına qovuşur. Relyefi şimal-qərbdə, qərbdə və cənubda dalğavari akkumulyativ dənizsahili düzənlikdir. Dəniz sahili düzənlikdə dyunlu təpəcikli qumlu sahələrin olması səciyyəvidir.

İqlimi əsasən mülayim isti və quru subtropikdir, orta aylıq temperaturu yanvarda $3,4^0$, iyulda isə $25\text{-}26^0$-ə çatır. İllik yağıntının miqdarı 150-300 mm arasında tərəddüd edir. Təbii bitki örtüyü yarımsəhranın şoranotları, yovşan, efemerlərdən təşkil olmuşdur. Şəhərdə və şəhərətrafı ərazilərdə mədəni ağac cinslərindən ibarət parklar, xiyabanlar, bağlar və s. yaradılmışdır.

Əsasən delüvial-prolüvial və qismən akkumulyativ dəniz çöküntüləri üzərində əmələ gəlmiş boz, boz-qonur və şoranlı-şorakətli torpaqlardan ibarətdir.

Bu torpaqlar daxilində müxtəlif dərəcədə neftlə çirklənmiş və texnogen pozulmuş torpaqlara da rast gəlinir. Son məlumatlara görə onların sahəsi təqribən 30,0 min hektardan çoxdur və əsasən şəhərətrafı köhnə neft mədən ərazilərdə geniş yayılmışdır.

Şəhərin ümumi torpaq fondunun yalnız 5,4%-i (16,4 min ha) kənd təsərrüfatı dövriyyəsində istifadə edilir (cədvəl 37, şəkil 157-156). Bunun 17,0%-ni (2,8 min ha) əkin və dincə qoyulmuş, 16,4%-ni (2,7 min ha) çoxillik əkmələr becərilən torpaqlardan ibarətdir. Örüş və otlaq torpaqları ümumi istifadə olunan torpaqların 46,1%-ni (7,5 min ha) əhatə edir. Kənd təsərrüfatına yararlı həyətyanı sahələrin tutduğu torpaqlar 20,5%-ə (3,4 min ha) çatır. Meşə fondu torpaqlar olduqca azdır və ərazi torpaqlarının 0,03%-nə (57,0 ha) bərabərdir. Kənd təsərrüfatında istifadə olunmayan sair sahələr şəhərin ümumi torpaq fondunun 92,3%-ni (198,2 min ha) təşkil edir. Bunun da əsas hissəsi kənd təsərrüfatı istehsalı üçün

az yararlı və şərti yararsız torpaq sahələrindən ibarətdir. Kənd təsərrüfatında istifadə edilən torpaqların 23,5%-i (3,8 min ha) suvarılan sahələrdir. Suvarılan sahələrin isə əsas hissəsini əkin (53,8%) və çoxillik əkmələr (45,4%) becərilən torpaqlardır. Suvarılan torpaqlar əsasən zəif şorlaşmış və şorakətləşmişdir. Hazırda suvarılan sahələrin meliorativ vəziyyəti yeraltı suların yatım dərinliyinə və torpaqların şorlaşma, şorakətləşmə dərəcələrinə görə 1,4 min hektar yaxşı, 2,0 min hektar kafi və 0,5 min hektar qeyri-kafi qiymətləndirilir. Bununla əlaqədar meliorativ vəziyyəti qeyri-kafi qiymətləndirilən 0,5 min ha sahədə suvarma və kollektor- drenaj şəbəkəsində əsaslı şəkildə iş aparmaqla torpaqların yaxşılaşdırılması və habelə 0,2 min ha suvarılan torpaqlarda suvarma suyunun təminatının artırılması tələb olunur.


Cədvəl 37

Ümumi torpaq ehtiyatları (ha, %)

S/s	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
		Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar	Cəmi	Meşə	Sair sahələr
1	3	4	5	6	7	8	9	10	11
1	214644 2,5	2789 17,0	2686 16,4	-	3347 20,4	7549 46,2	16371 7,6	57 0,03	198216 92,3
o cüm. suv.	3907 0,3	2070 53,8	1749 45,4	-	31 0,8	-	3850 23,5	57 100	-

Cədvəl 37

Torpaq fondunun əsas tərkib hissəsi (ha/%)




Yararlı torpaqlar

Sair sahələr +meşə (0.03%) torpaqları

Şəkil 154

Cədvəl 37.1

Yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Əkin+dinc

Həyətyanı


Çoxillik əkmələr

Örüş və otlaqlar

Şəkil 155

Cədvəl 37.2

Suvarılan torpaqların kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Əkin+dinc

Çoxillik əkmələr

Həyətyanı

Şəkil 156

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, son on ildə şəhər və şəhərətrafı torpaq ehtiyatları güclü antropogen təsirlərə məruz qaldığından hazırda böhranlı tənəzzül dövrünü yaşayır.

Mövcud durumda şəhərin torpaq ehtiyatları üç dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri üzrə istifadəçiliyi təmin edilmişdir (cədvəl 38, şəkil 157-159).


Cədvəl 38

Vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış			
1	Dövlət	192631 89,8	2789 21,5	2567 19,8	-	46 0,3	2719 21,0	4830 37,4	12951 6,7	57 0,03	179623 93,3
	o.c.suv.	3825 97,9	2070 54,9	1672 44,5	-	26 0,7	-	-	3768 29,1	57 100	-
2	Bələdiyyə	16681 7,8	-	12 0,5	-	-	-	-	12 0,5	-	16669 99,9
3	Xüsusi	5322 2,5	-	107 3,1	-	3301 96,9	-	-	3408 64,0	-	1914 36,0
	o.c.suv	82 2,1	-	77 93,9	-	5 6,1	-	-	82 2,4	-	-
	Cəmi	**214644 2,5**	**2789 17,0**	**2686 16,4**	-	**3347 20,4**	**2719 16,6**	**4830 37,4**	**16371 7,6**	**57 0,03**	**198216 92,3**
	o.c.suv.	**3907 0,2**	**2070 55,2**	**1749 45,4**	-	**31 0,8**	-	-	**3850 23,5**	**57 100**	-

Cədvəl 38


Ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 157

Cədvəl 38.1

Suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)




Şəkil 158

1. Dövlət mülkiyyətindəki torpaqlar. Şəhərin ümumi torpaq fondunun 89,7%-i (192,6 min ha) dövlət mülkiyyətində saxlanmışdır. Bunun 21,5%-i (2,8 min ha) əkin, 19,8%-i (2,6 min ha) çoxillik əkmələrin və 58,3%-i isə (7,5 min ha) otlaq sahələrinin torpaqlarıdır. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqları dövlət mülkiyyətində çox az miqdarda 0,4% (46 ha) saxlanmışdır. Eləcə də dövlət mülkiyyətindəki meşə fondu torpaqlarının da sahəsi çox azdır (0,03% və ya 57 ha). Ərazidə suvarılan torpaqların əsas kütləsi, yəni 97,9%-i (3,8 min ha) dövlət mülkiyyətində saxlanmaqla başlıca olaraq əkin (54,8%) və çoxillik əkmələr (44,5%) altında becərilən torpaq sahələrindən ibarətdir (cədvəl 38, şəkil 159).

Cədvəl 38.2

Dövlət mülkiyyətindəki torpaqların kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 159

Həyətyanı torpaqların cüzi bir hissəsi (0,7%-i və ya 26 ha) suvarılır. Meşə sahələri bütünlüklə suvarılan (57 ha) torpaqlarda yerləşir. Dövlət mülkiyyətində saxlanmış və ümumi torpaq fondunun 95,7%-ni (184,5 min ha) təşkil edən sair torpaqların əsas hissəsi kənd təsərrüfatına az yararlı və şərti ya-


rarsız torpaq sahələrindən təşkil olunmuşdur. Gələcəkdə şəhər əhalisinin kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında bu torpaq ehtiyatlarından istifadəyə daha ciddi ehtiyac yaranacağı şübhəsizdir. Sadəcə olaraq, bu torpaqlara olan hazırkı antropogen təsirlərin qüvvəsini bir qədər azaltmaqla onların meliorativ durumunun yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməlidir.

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Şəhərin ümumi torpaq fondunun 7,8%-i (16,7 min ha) bələdiyyə mülkiyyətinə verilmişdir (cədvəl 38). Hazırda Bakı şəhərində və şəhərətrafı qəsəbə və kəndlərində fəaliyyət göstərən 51 bələdiyyənin istifadə etdikləri torpaqlar əsasən şəhər, qəsəbə və kəndlərin perspektiv inkişafı üçün nəzərdə tutulmuş və qismən isə az yararlı və şərti yararsız sahələr təşkil edir.

3. Xüsusi mülkiyyətdəki torpaqlar. Şəhərin ümumi torpaq fondunun 2,8%-i (5,3 min ha) özəlləşdirilərək şəhərdə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə verilmişdir (cədvəl 38, şəkil 160).

Cədvəl 38.3

Xüsusi mülkiyyətdəki torpaqların kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 160

Bunun 3,1%-i (107 ha) çoxillik əkmələrin və 96,9%-i (3301 ha) isə həyətyanı torpaq sahələri kimi istifadə olunan torpaqlardır. Müxtəlif səbəblərdən hələlik istifadədən kənarda qalmış torpaqlar isə xüsusi mülkiyyətə verilmiş 36,0%-ni (1914 ha) təşkil edir. Xüsusi mülkiyyətdəki torpaqların az bir hissəsini, yəni 1,5%-i (82 ha) suvarılan sahələrdir. Suvarılmış sahələr əsasən əkin (77 ha) və qismən isə həyətyanı torpaqlardan (5 ha) ibarətdir.

Beləliklə, rəqəmlərin təhlilindən görünür ki, Abşeron regionunun əhatə etdiyi (Bakı şəhərinin ərazisi daxil olmaqla) 596,4 min hektar ümumi torpaq sahəsinin yalnız 192,0 min hektarı və yaxud da 32,2%-i yararlı torpaq sahəsi kimi kənd təsərrüfatı dövriyyəsində istifadə olunur. Yararlı torpaqların əsas hissəsini isə, yəni 78,9%-ni (191,5 min ha) örüş və otlaq sahələrinin payına düşür.

Əkin və çoxillik əkmələr altında istifadə edilən torpaqlar dövriyyədə olan torpaqların çox az bir hissəsini, yəni 1,4-4,1%-ni əhatə edir.

Hal-hazırda regionun torpaq istifadəçiliyində diqqəti cəlb edən problemlərdən biri də ümumi torpaq ehtiyatlarının təqribən 66%-ni (393,0 min ha) təşkil edən kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqların gələcəkdə əsaslı şəkildə yaxşılaşdırılması ilə kənd təsərrüfatı dövriyyəsinə daxil edilməsidir.

Son illərdə regionda daha qabarıq şəkildə müşahidə edilən əhalinin təbii artımı və eləcə də əhali miqrasiyası prosesinin güclənməsi özü ilə ərzaq məhsullarına olan tələbatın artmasını da ön plana çıxarmışdır ki, bu da bu qəbildən olan, sahəsi təqribən 100 min hektara çatan dərəcədə şorlaşmış, şorakətləşmiş, bataqlı, dyunlu təpəcikli qumluq və həmçinin neftlə və texnogen çirkləndirilmiş torpaqların kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmə prosesini sürətləndirilməsinin tələb olunmasıdır.

II. GƏNCƏ-QAZAX TƏBİİ İQTİSADİ BÖLGƏSİ

Gəncə-Qazax bölgəsi respublikanın qərb hissəsində yerləşir, cənubdan Ermənistan və qərbdən Gürcüstan dövlətləri ilə sərhədlənir. Ağstafa, Daşkəsən, Qazax, Gədəbəy, Goranboy, Samux, Tovuz, Xanlar, Şəmkir rayonlarının və eləcə də Gəncə və Naftalan şəhərlərinin inzibati ərazilərini özündə birləşdirir. Ümumi sahəsi 1228731 ha olmaqla respublika ərazisinin 12,9%-i əhatə edir. Ölkənin inkişaf etmiş iqtisadi bölgələrindən biridir.

Relyefi əsasən dağlıq və qismən düzənlikdir. Şərti olaraq bölgənin relyefi düzənlik, dağətəyi düzənlik, orta və yüksək dağlıq qurşaqlara ayrılır.

Qərbdən şərqə doğru Kür çayı boyu uzanan maili düzənlikdə, torpaq ehtiyatlarından əsasən qış otlaqları kimi istifadə olunan Ceyrançöl massivi yerləşir. Dağətəyi düzənlikdə başlıca olaraq əkinçilikdə istifadə edilən torpaq ehtiyatları yayılmışdır. Parçalanmış səth quruluşlu orta dağlıq qurşaqda, qismən əkinçiliyin və əsasən heyvandarlığın ehtiyaclarını ödəyən torpaqlar və eləcə də meşə fondu, yüksək dağlıq qurşaqda isə yay otlaqları kimi istifadə olunan torpaq ehtiyatları yerləşmişdir.

Ərazinin düzənlik hissəsi qışı quraq keçən mülayim isti iqlim tipinə mənsubdur. Dağlıq ərazinin əksər hissəsində isə qışı quraq keçən mülayim-isti və qismən qışı quraq keçən soyuq iqlim şəraiti mövcuddur. Bölgədə şimaldan cənuba doğru yüksəkliyin artması ilə əlaqədar bütün iqlim ünsürlərinin dəyişməsi baş verir. Bu dəyişikliklər bölgənin bəzi metroloji məntəqələrinin əsas iqlim göstəricilərində öz əksini tapmışdır. Qazax, Daşkəsən və Gəncə şəhər metroloji məntəqələrinin çoxillik göstəricilərində havanın orta illik temperaturunun $13,2^0$ - $6,1^0$ arasında dəyişdiyi qeydə alınmışdır. İlin isti dövründə orta temperatur Qazaxda $19,2^0$ olduğu halda, Daşkəsəndə bu göstərici kəskin azalaraq $12,0^0$-yə enir. İlin soyuq dövründə bu

məntəqələrdə orta temperatur göstəriciləri 0,6-5,0^0 arasında dəyişir (cədvəl 39, şəkil 161-165).

Cədvəl 39

Bölgənin əsas iqlim göstəriciləri

S/s	Metroloji stansiya	İqlim göstəriciləri*	Fəsillər üzrə				İllik	İlin dövrləri	
			Qış	Yaz	Yay	Payız		İsti	Soyuq
1	2	3	4	5	6	7	8	9	10
1	Qazax ş.	hava. t-u	2,7	16,2	22,2	7,4	12,1	19,2	5,0
		yağıntı	50	140	122	81	393	265	128
		hava. nis.rüt.	67	72	30	46	46	40	63
		buxarlanma	75	194	413	178	860	658	202
		torpaq. səth.t-u	1,3	14,0	28,3	15,0	15,0	23,7	5,7
2	Daşkəsən	hava. t-u	-2,8	4,9	15,0	7,5	6,1	12,0	0,6
		yağıntı	75	211	207	129	622	412	210
		hava. nis.rüt.	69	79	78	77	76	79	84
		buxarlanma	101	132	215	152	600	368	232
		torpaq. səth.t-u	-3,7	6,3	19,3	8,7	8,0	15,2	0
3	Gəncə ş.	hava. t-u	2,5	12,0	24,2	14,2	13,2	16,3	6,0
		yağıntı	42	91	80	69	282	175	107
		hava. nis.rüt.	76	69	55	72	68	60	75
		buxarlanma	108	233	533	224	1097	830	267
		torpaq. səth.t-u	3,0	16,3	31,0	16,0	16,0	26,2	6,8

Temperaturun fəsillər üzrə paylanmasında da bu fərqlər müşahidə edilməkdədir. Belə ki, qışda havanın orta temperaturu 2,7^0 (Qazax ş.) olduğu halda, dağlıq ərazidə (Daşkəsən

* yağıntı və buxarlanma mm-lə, havanın aylıq və torpaq səthinin temperaturu dərəcə ilə, havanın nisbi rütubəti %-lə göstərilmişdir.

ş.) bu göstərici -2,8^0-ə enir. Eləcə də payızda orta temperaturun gedişi 7,5^0 - 14,2^0 arasında dəyişir (Daşkəsən-Gəncə). Bu dəyişmələr əraziyə düşən yağıntıların miqdarında da özünü göstərir. İllik yağıntının miqdarı 282 – 622 mm arasında dəyişir. Yağıntıların maksimum miqdarı ilin isti dövrünə (175-412 mm) təsadüf edir. Soyuq dövründə yağıntıların yalnız 33-42%-i düşür. Havanın orta illik nisbi rütubəti Qazaxda 46, Daşkəsəndə 76 və Gəncədə 68% olub, il ərzində 30-79% arasında dəyişir. Səth örtüyündən il ərzində 600-1097 mm mümkün buxarlanma gedir. Torpaq səthinin orta illik temperaturu müşahidə aparılan məntəqələrdə qışda müsbət 1,3 ilə mənfi 3,7^0 arasında dəyişməsi ilə səciyyələnir. İlin isti (aprel-oktyabr) dövründə torpaq səthinin temperaturu Gəncədə 26,2^0 olduğu halda, Daşkəsəndə bu göstərici 15,2^0-dən yüksəyə qalxmır. Soyuq dövrdə (noyabr-mart) torpaq səthinin orta illik temperaturu düzən zonada 5,7-6,8^0 arasında olur, dağlıq hissədə isə 0^0-yə yaxınlaşır.


Beləliklə, qısa iqlim xüsusiyyətinin təhilindən görünür ki, bölgəyə daxil olan, inzibati rayonların iqlim şəraiti bir-birindən fərqlənir. Bu isə həmin ərazilərdə torpaq ehtiyatlarından səmərəli istifadəni təbii şəraitdən asılı olaraq davamlı məcrayə yönəltməyə imkan verir.

Bölgənin torpaq ehtiyatları yüksək dərəcədə mənimsənildiyindən təbii bitki örtüyü məhdud şəkildə qorunub saxlanmışdır. Buna baxmayaraq ərazinin bitki örtüyü çox rəngarəngdir. Yarımsəhra və quru bozqır (çöl) bitkiləri üstünlük təşkil edir. Ərazinin düzənlik hissəsi əsasən taxıl fəsiləsinə mənsub bitkilərdən təşkil olunmuşdur. Bölgədə geniş ərazini əhatə edən Ceyrançöl qış otlaqlarında yarımsəhra bitki qrupundan, əsasən efemerlər və efemeroidlər üstünlük təşkil edir.

Ümumiyyətlə, bitki örtüyünün flora tərkibi olduqca kasıbdır. Səhra tipli bitki örtüyü yarımsəhra bitki örtüyünə nisbətən məhdud şəkildə yayılmışdır. Dağətəyi düzənliyin yuxarı sərhəddində və orta dağlıq qurşaqda bozqır bitki örtüyü əsasən çoxillik yabanı taxıl bitkilərindən təşkil olunmuşdur.


Cədvəl 39

Havanın temperaturu




Şəkil 161

Cədvəl 39.1




Şəkil 162

Cədvəl 39.2




Şəkil 163

Cədvəl 39.3



Şəkil 164

Cədvəl 39.4



Şəkil 165

Bozqır sahələrdə ot örtüyü daha sıx və yüksək bioloji məhsuldarlığı ilə səciyyələnir. Düzən ərazilərdə bəzi yerlərində ayrı-ayrı talalar şəklində şoran və bataqlıq bitkilərin yayıldığı sahələrə də rast gəlinir.

Böyük Qafqazdan fərqli olaraq ümumilikdə Kiçik Qafqaz dağlarında insanın təsərrüfat fəaliyyətinin təsirinin daha güclü olması nəticəsində kiçik sahələrdə əsaslı şəkildə pozulmuş fıstıq və palıd ağac cinslərindən ibarət meşə örtüyü qalmışdır. Nəticədə, bir çox meşəsizləşdirilmiş yerlərdə təbii meşə örtüyünün yerində sələf olan bozqır və kserofil meşə-kolluqlar formalaşmışdır. Bölgədə əkinçilik və maldarlığın inkişaf etməsi nəticəsində meşə örtüyü demək olar ki, heç bir yerdə öz təbii sərhəddində qalmamış, bir çox yerlərdə subalp meşə örtüyü tamamilə sıradan çıxmış, onu dağ çəmənləri, meşə-kolluqlar və ya şiddətli eroziyaya uğramış çılpaq sahələr əvəz etmişdir. Bununla əlaqədar bölgədə meşə ilə örtülü sahələrin faizi xüsusilə son 10-15 ildə əsaslı şəkildə aşağı düşmüşdür. Bundan başqa, bölgədə Kür çayı boyu yayılmış tuqay meşələrinə «ləkələr» şəklində rast gəlinir. Kür çayı vadisində meşə örtüyü məhv edilmiş sahələr isə yulğun kolları, söyüdlük, qamışlıq, bataqlıq bitkiləri ilə əvəz olunmuşdur. Bölgənin yüksək dağlıq qurşağındakı otlaqların bitki örtüyünü təşkil edən subalp və alp çəmən bitkiləridir.

Torpaqəmələgətirən süxurlar kobud qırıntılı prolüvial və allüvial-prolüvial gilli və gillicəli çöküntülərdən təşkil olunmuşdur, bölgənin düzənlik hissəsində laylı qədim allüvial-qumlu-gilli gətirmələrdən ibarətdir. İrəlidə qısa təsvir etdiyimiz torpaqəmələgətirən amillərin qarşılıqlı təsiri nəticəsində bölgənin müasir torpaq örtüyünün tərkibi formalaşmışdır. Torpaq örtüyünün tərkibində (cədvəl 40, xəritə-sxem 4, şəkil 166) bölgənin dağətəyi və düzən ərazilərində əkinçilik və heyvandarlığın əsas dayağı sayılan tünd, adi, açıq şabalıdı və çəmən şabalıdı, boz, boz-çəmən və eləcə də subasar-allüvial çəmən torpaqları geniş əraziləri tutur (kon. 24, 25, 26, 28, 29, 30, 32, 34, 35 və 36). Sadalanan torpaq tip və yarımtipləri böl-


Cədvəl 40

Bölgənin torpaq örtüyünün tərkibi

Kontur №-si	Tip və yarımtiplər	Sahə	
		ha	%
1	2	3	4
1	İbtidai və torflu dağ-çəmən	34872	2,8
2	Çimli dağ-çəmən	35125	2,9
3	Qaramtıl dağ-çəmən	22532	1,8
5	Çəmənləşmiş dağ-meşə	6965	0,6
6	Tipik qonur dağ-meşə	100265	8,2
7	Karbonat qalıqlı, qismən bozqırlaşmış dağ-meşə	37088	3,0
12	Yuyulmuş qəhvəyi dağ-meşə	41273	3,4
13	Tipik qəhvəyi dağ-meşə	42225	3,4
14	Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə	45257	3,7
15	Yuyulmuş tipik dağ-qara	20420	1,7
16	Karbonatlı dağ-qara	8288	0,7
17	Tünd və adi dağ boz-qəhvəyi	114707	9,3
19	Tünd və adi dağ şabalıdı	43278	3,5
20	Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ şabalıdı	58884	4,8
24	Tünd və adi şabalıdı	123980	10,1
25	Qismən qalıq şorlaşmış açıq şabalıdı	148257	12,1
26	Çürüntülü sulfatlı (əhəngli) şabalıdı	2983	0,2
27	Çəmən şabalıdı və şabalıdı çəmən	37695	3,1
29	Tipik boz	15669	1,3
30	Açıq və ibtidai boz	11357	0,9
32	Yüksək humuslu boz çəmən	2622	0,2
34	Qismən şorakətli və şoranlı bozumtul və boz-qonur	26285	2,1
35	Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə	23667	1,9
36	Subasar-allüvial-çəmən	211869	17,2
44	Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	13168	1,1
	Cəmi	**1228731**	**100**

gədə ümumi torpaq ehtiyatlarının 593,0 min hektarını və ya 48,3%-ni əhatə edir. Qismən qalıq şorlaşmış açıq şabalıdı yarımtip torpaqlar digər yarımtiplərdən geniş əraziləri tutması və meliorativ cəhətdən qeyri-kafi vəziyyətdə olması ilə səciyyələnir. Bu torpaqların sahəsi 148,3 min ha olub, düzən şabalıdı torpaqların (312,9 min ha) 47,4%-ni təşkil edir. Ərazinin düzən hissəsində miqdarca geniş yayılmış allüvial-çəmən torpaqlar 211,9 min ha olub, düzən ərazidə yayılmış torpaq ehtiyatlarının (593 min ha-ın) 35,7%-nə bərabərdir. Boz torpaqların yayılma arealının kəmiyyəti 56,0 min hektarı və ya ümumi düzən torpaqlarının 9,5%-ni əhatə edir. Yüksək potensial təbii münbitliyi və nisbətən əlverişli meliorativ durumu ilə seçilən və kənd təsərrüfatında geniş mənimsənilən dağ-şabalıdı torpaqlar dağlıq ərazidə yayılmış torpaq ehtiyatlarının 9,6%-nə (58,9 min ha) bərabərdir.

Dağlıq ərazidə istifadə arealına görə üstünlük təşkil edən boz-qəhvəyi torpaqlar ümumi dağ torpaq ehtiyatlarının 18,8%-ni (114,7 min ha) əhatə edir. Yüksək potensial münbitliyinin nisbətən qorunub saxlanması və qismən isə əlverişli meliorativ durumu ilə seçilən dağ-qara və dağ-şabalıdı torpaqları isə dağlıq ərazidə yayılmış torpaqların 33,8%-nə (6,6 min ha) bərabərdir. Torpaq örtüyünün tərkibində meşə torpaqlarının tip və yarımtiplərinin çəkisi xeyli müxtəlifliyi ilə fərqlənir. Burada qonur-dağ-meşə torpaqları üstünlük təşkil edir və sahəsi təqribən 100,2 min ha olmaqla bölgənin ümumi torpaq ehtiyatının 8,2%-nə çatır. Digər meşə torpaqları ümumi torpaq ehtiyatının 14,1%-ni (172,8 min ha) əhatə edir. Heyvandarlığın təbii yem mənbəyi sayılan alp və subalp çəmən ot bitkiləri altında formalaşmış dağ-çəmən torpaqlarının sahəsi 92,5 min ha və ya 7,5%-dir.


GƏNCƏ-QAZAX BÖLGƏSİNİN
TORPAQ XƏRİTƏ-SXEMİ
1 : 600 000
Şahdağ
Murovdağ
Xerite-sxem 4

Torpaqlar

1 İbtidai və torflu dağ-çəmən

2 Çimli dağ-çəmən

3 Qaramtıl dağ-çəmən

5 Çəmənləşmiş dağ-meşə

6 Tipik qonur dağ-meşə

7 Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə

12 Yuyulmuş qəhvəyi dağ-meşə

13 Tipik qəhvəyi dağ-meşə

14 Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə

15 Yuyulmuş və tipik dağ-qara

16 Karbonatlı dağ-qara

17 Tünd və adi dağ boz-qəhvəyi

19 Tünd və adi dağ-şabalıdı

20 Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ-şabalıdı

24 Tünd və adi şabalıdı

25 Qismən qalıq şoranlaşmış açıq şabalıdı

26 Çürüntülü-sulfatlı (əhəngli) şabalıdı

27 Çəmən şabalıdı və şabalıdı-çəmən

29 Tipik boz

30 Açıq və ibtidai boz

32 Yüksək humuslu boz-çəmən

34 Qismən şorakətli və şoranlı bozumtul və boz-qonur

35 Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə

36 Subasar allüvial-çəmən

44 Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar

Qranulometrik tərkib

Gilli

Ağır gilliceli

Orta gilliceli

Yüngül gilliceli

Qumsal

Qumlu

Şorlaşma

Şorlaşmayan

Zəif şorlaşmış

Orta şorlaşmış

Şiddətli şorlaşmış

Eroziyaya uğrama

Eroziyaya uğramayan

Zəif eroziyalı

Orta eroziyalı

Şiddətli eroziyalı

Suvarılan torpaqlar


Dövlət sərhəddi

Rayonların inzibati sərhəddi

Baş suvarma kanalı

Cədvəl 40

Bölgənin torpaq örtüyünün tərkibi (ha/%)



Şəkil 166

Beləliklə, ərazinin torpaq örtüyünün qısa təhlilindən aydın olur ki, torpaq örtüyünün tərkibinin yalnız 776,5 min hektarı və ya bölgənin ümumi torpaq ehtiyatının 63,2%-i kənd təsərrüfatına yararlı sahələrdən ibarətdir. Hazırda əkin dövriyyəsinə cəlb edilmiş (cədvəl 41, şəkil 167-172) ümumi torpaq ehtiyatlarının 193,9 hektarı və ya 25,0%-ni əkin və dincə qoyulmuş sahələrin payına düşür. Çoxillik əkmələr altında becərilən torpaqların yalnız 4,4 min hektarını və ya 0,6%-ni əhatə edir. Ən geniş istifadə olunan sahələrə örüş və otlaq torpaqları daxildir. Bu torpaqlar yararlı torpaqların 501,4 min hektarını (64,5%) təşkil edir. Biçənək torpaqlarının sahələri 34,3 min ha-a (4,4%) çatır. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqları

Cədvəl 41


Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Örüş və otlaqlar	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Ağstafa	150370 12,2	20545 21,8	337 0,4	1088 1,2	68072 72,3	4096 4,3	94138 62,6	7162 4,8	49070 32,6
	o.c.suv.	22490 12,2	18274 81,4	337 1,5	189 0,8	673 3,0	2979 13,3	22452 23,8	38 0,2	-
2	Qazax	69229 5,6	23189 45,9	669 1,3	927 1,8	22396 44,3	3381 6,7	50562 73,0	3927 5,7	14740 21,3
	o.c.suv	16341 8,9	12331 76,1	669 4,1	394 2,4	82 0,5	2728 16,8	16204 16,8	137 0,8	-
3	Daşkəsən	104697 8,5	2495 4,1	63 0,1	9915 16,5	46096 76,6	1627 2,7	60196 57,5	25377 58,1	19124 18,3
4	Gədəbəy	123298 10,0	10056 13,2	-	9547 12,5	50959 66,8	5738 7,5	76300 61,9	21914 17,8	25084 20,3
	o.c.suv	908 0,5	902 99,3	-	-	-	6 0,7	908 0,9	-	-
5	Goranboy	173338 14,1	44340 34,3	415 0,3	3471 2,7	74004 57,6	6326 4,9	128556 74,2	8990 5,2	35792 20,6
	o.c.suv	48019 26,1	40992 85,7	402 0,8	388 0,8	98 0,2	5952 12,4	47832 37,0	187 0,4	-
6	Samux	145511 11,8	19444 27,4	146 0,2	48 0,1	49071 69,3	2112 3,0	70821 48,7	2464 1,7	72226 49,6
	o.c.suv	21708 11,8	19402 89,4	146 0,7	48 0,2	-	2112 9,7	21708 34,9	-	-
7	Tovuz	194209 15,8	20263 18,5	743 0,7	3433	77491 70,8	7375 6,7	109305 56,3	27267 14,0	57637 29,7
	o.c.suv	23198 12,6	17601 75,9	613 2,6	266 1,2	-	4718 20,3	23198 24,3	-	-
8	Xanlar	93776 7,6	13728 22,5	922 1,5	3565 6,1	40278 66,0	2348 3,9	60841 64,9	17071 18,2	15864 16,9
	o.c.suv	10777 5,9	8691 80,6	922 8,6	2 0,01	-	1162 10,8	10777 16,7	-	-
9	Şəmkir	165678 13,5	39409 31,8	392 0,3	2307 1,9	72824 58,8	8818 7,1	123750 74,7	5056 3,1	36872 22,2
	o.c.suv	38394 20,9	30980 80,7	392 1,0	203 0,6	6 0,02	6801 17,7	38382 27,7	12 0,03	-

1	2	3	4	5	6	7	8	9	10	11
10	Gəncə ş.	8320 0,7	356 19,1	744 40,0	-	104 5,6	658 35,3	1862 22,4	-	6458 65,6
	o.c.suv	1733 0,9	356 20,5	696 40,2	-	23 1,3	658 38,0	1733 93,1	-	-
11	Naftalan ş.	305 0,02	39 18,4	-	-	145 68,4	28 13,2	212 69,5	-	93 30,5
	o.c.suv	67 0,04	39 58,2	-	-	-	28 41,8	67 31,6	-	-
	Cəmi	**1228731 14,2**	**193864 25,0**	**4431 0,6**	**34301 4,4**	**501440 64,5**	**42507 5,6**	**776543 63,2**	**119228 9,7**	**332960 27,1**
	o.c.suv.	**183635 12,9**	**149568 81,6**	**4177 2,3**	**1490 0,8**	**882 0,5**	**27144 14,8**	**183261 23,6**	**374 0,3**	-

Cədvəl 41


Bölgənin ümumi torpaq fondunun rayonlar üzrə paylanma strukturu (ha/%)



Şəkil 167

Cədvəl 41.1


Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 168

Cədvəl 41.2


Bölgənin ümumi torpaq fondunun əsas tərkib hissəsi (ha/%)



Şəkil 169

Cədvəl 41.3


Bölgənin kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 170

Cədvəl 41.4


Bölgənin kənd təsərrüfatına yararlı torpaq fondunun sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 171

Cədvəl 41.5

Bölgənin suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



(tikintisiz sahələr) isə ümumi yararlı torpaq ehtiyatının 42,5 min hektarına (5,6%) bərabərdir. Ərazinin 119,2 hektarı (9,7%) meşə torpaqlarına aiddir, 332,9 min hektarı isə kənd təsərrüfatında istifadə olunmayan sahələrdir. Bunun müəyyən hissəsi az yararlı və şərti yararsız torpaqlar qrupuna aid edilir. Ərazinin 183,6 min hektarı və ya kənd təsərrüfatına yararlı torpaqların 23,6%-i suvarılan torpaqlardan ibarətdir. Ən çox suvarılan torpaqlar əkin və dincə qoyulmuş sahələrdir. Burada əkin torpaqlarının demək olar ki, 77,2%-ə qədəri suvarılan sahələrdir. Miqyasına görə ikinci yerdə olan suvarılan torpaqlara kənd təsərrüfatına yararlı həyətyanı sahələri daxildir. Bu torpaqların təqribən 27,1 min hektarı (63,9%) suvarılan sahələrdir. Suvarılan örüş və otlaq torpaqlarının sahəsi isə 1,5 min ha (4,3%) təşkil edir.

Uzunmüddətli təbii və antropogen təsirlərə məruz qalmış bölgənin kənd təsərrüfatına yararlı torpaq sahələrinin keyfiyyət göstəricilərinin əsaslı şəkildə dəyişməsi onların müxtəlif

keyfiyyət qruplarında yer tutmasına səbəb olmuşdur (cədvəl 42, 43 şəkil 173-178). Belə ki, bölgənin kənd təsərrüfatında istifadə olunan əkin və dincə qoyulmuş 193,9 min hektar torpaqlarının 4,1%-ni (7,9 min ha) yüksək keyfiyyətli torpaqlar qrupunda olmaqla ilkin təbii münbitlik xassəsini qoruyub saxlamışdır. Ümumilikdə, yüksək keyfiyyət aqroistehsal qrupuna daxil olan torpaqlar kənd təsərrüfatına yararlı torpaqların 75,4 min ha-ı və ya 9,7%-ni təşkil edir. Bunun da ən çox hissəsi, yəni 56,3%-ni (42,5 min ha) həyətyanı torpaqların payına düşür. Yaxşı və orta keyfiyyətli qrupuna da əkin və dincə qoyulmuş sahələr 173,0 min hektardan ibarət olub, örüş və otlaq torpaqları miqdarca ən çox yaxşı və orta (II və III) keyfiyyət qrupunda cəmlənmişdir. Kəndyanı örüş torpaqlarının 52,0 min haektarı və ya 18,1%-i II və 128,1 min hektarı və ya 44,6%-i III keyfiyyət qrupuna transfer olmuşdur. Belə hal qış və yay otlaqlarının torpaqlarında müşahidə olunur. Narahatlıq doğuran səbəblərdən biri örüş və otlaq torpaqlarının I keyfiyyət qrupunda tutduğu sahənin ölçüsünün IV keyfiyyət qrupundan az olması faktıdır.

Çoxillik və biçənək torpaqları əsasən II və III keyfiyyət qruplarında cəmlənmişlər.

Bölgənin ayrı-ayrı rayonlarının istifadə etdikləri kənd təsərrüfatına yararlı torpaq sahələrinin keyfiyyət qrupları arasında transferlik dinamikası özünü daha qabarıq şəkildə büruzə verir. Samux, Tovuz və qismən Goranboy rayonlarında əsas kənd təsərrüfatı sahələri altında (əkin, çoxillik əkmələr, biçənək, örüş və otlaqlar) istifadə edilən torpaqların bütünlüklə və əsasən orta və aşağı keyfiyyətli torpaqlarla transfer olunması buna misaldır. Hətta ayrı-ayrı ərazilərdə örüş və otlaq torpaqlarının aşağı keyfiyyətli və şərti yararsız torpaqlara çevrilməsini də müşahidə etmək mümkündür.

Beləliklə, torpaqların keyfiyyətini səciyyələndirən məlumatlardan aydın olur ki, bölgədə torpaqların kənd təsərrüfatında uzunmüddətli istismar edilməsi və burada heç bir zaman kompleks torpaqyaxşılaşdırma tədbirlərinin həyata keçirilmə-


Cədvəl 42

Bölgənin ümumi kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanma strukturu (ha/%)

Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
							kəndyanı	qış	yay	
	100-81	I	7931 10,5	949 1,3	1215 1,6	42507 56,3	6770 9,0	14548 19,3	1530 2,3	75450 9,7
	80-61	II	97583 42,9	1337 0,6	18362 8,1	-	51970 22,9	45532 20,0	12557 5,5	227341 29,3
	60-41	III	75411 25,2	1760 0,6	12205 4,1	-	128093 42,9	55410 18,6	25968 8,7	298847 38,5
	40-21	IV	12939 11,7	385 0,2	2519 1,5	-	98441 57,7	42050 24,6	14378 8,4	170712 22,0
	20-1	V		-	-	-	2329 55,6	1715 40,9	149 3,6	4193 0,5
1228731	**100-1**	**I-V**	**193864 25,0**	**4431 0,6**	**34301 4,4**	**42507 5,5**	**287603 37,0**	**159255 20,5**	**54582 7,0**	**776543 63,2**

Cədvəl 42


Bölgənin kənd təsərrüfatına yararlı torpaqların keyfiyyət qrupları üzrə paylanması (ha/%)



Şəkil 173

Cədvəl 42.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 174

Cədvəl 42.2


II keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 175

Cədvəl 42.3


III keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha %)



Şəkil 176

Cədvəl 42.4


IV keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha %)



Şəkil 177

Cədvəl 42.5

V keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 178

Cədvəl 43

Bölgənin kənd təsərrüfatı sahələri torpaqlarının rayonlar üzrə paylanmış keyfiyyət qrupları (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							Cəmi
					Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			
									kəndyanı	qış	yay	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Ağstafa		100-81	I	925 4,5	32 9,5	96 8,8	4096 39,3	1542 4,7	3740 10,7	-	10431 11,1
			80-61	II	9328 45,4	199 59,0	992 91,2	-	7877 23,9	13996 39,9	-	32392 34,4
			60-41	III	10292 50,1	106 31,5	-	-	19822 60,1	10775 30,7	-	40995 43,5
			40-21	IV	-	-	-	-	3758 11,3	6572 18,7	-	10320 11,0
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**150370 12,2**	**100-1**	**I-V**	**20545 21,8**	**337 0,4**	**1088 1,2**	**4096 4,3**	**32999 35,0**	**35073 37,3**	-	**941138 62,6**
2	Qazax		100-81	I	1804 7,8	133 19,9	44 4,7	3381 56,0	676 3,0	-	-	6038 12,0
			80-61	II	15381 66,3	485 66,3	646 69,7	-	4474 20,0	-	-	20986 41,5
			60-41	III	5719 24,7	51 7,6	237 25,6	-	13449 60,0	-	-	19486 38,5
			40-21	IV	285 1,2	-	-	-	3797 17,0	-	-	4052 8,1
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**69229 5,6**	**100-1**	**I-V**	**23189 45,9**	**669 1,3**	**927 1,8**	**3381 6,7**	**22396 44,3**	-	-	**50562 73,1**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
3	Daşkəsən		100-81	I	94 3,8	-	398 4,0	1627 42,0	1185 4,4	-	565 3,0	3869 6,4
			80-61	II	1501 60,2	-	4859 49,0	-	8136 30,2	-	3793 19,8	18289 30,4
			60-41	III	900 36,0	63 100	4622 46,6	-	13826 51,3	-	11393 59,5	30804 51,2
			40-21	IV	-	-	36 0,4	-	3811 10,4	-	3387 17,7	7234 12,0
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**104697 8,5**	**100-1**	**I-V**	**2495 4,1**	**63 0,1**	**9915 16,5**	**1627 2,7**	**26958 44,8**	**-**	**19138 31,8**	**60196 57,5**
4	Gədəbəy		100-81	I	593 5,9	-	39 0,4	5738 63,8	1664 5,2	-	957 5,1	8991 11,8
			80-61	II	7677 76,3	-	6557 68,8	-	9217 28,6	-	5384 28,7	28835 37,8
			60-41	III	1690 16,8	-	2893 30,3	-	12875 40,0	-	7508 40,0	24966 32,7
			40-21	IV	96 1,0	-	58 0,5	-	8435 26,2	-	4919 26,2	13508 17,7
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**123298 10,1**	**100-1**	**I-V**	10056 13,2	-	9547 12,5	5738 7,5	32191 42,2	-	18768 24,6	76300 61,9
5	Goranboy		100-81	I	397 0,9	-	-	6326 94,1	-	-	-	6723 5,2
			80-61	II	27633 62,3	21 5,1	1919 55,3	-	4746 11,8	2943 10,5	614 10,4	37876 29,5
			60-41	III	13073 29,5	298 71,8	1419 40,9	-	17772 44,2	12516 44,8	2662 45,0	47740 37,1
			40-21	IV	3237 7,3	96 23,1	133 3,8	-	16895 42,0	11904 42,6	2531 42,7	34796 27,1

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			20-1	V	-	-	-	-	764 1,9	542 1,9	115 1,9	1421 1,1
	Cəmi	**173338 14,1**	**100-1**	**I-V**	**44340 34,5**	**415 0,3**	**3471 2,7**	**6326 5,0**	**40177 31,2**	**27905 21,7**	**5922 4,6**	**128556 74,2**
6	Samux		100-81	I	-	-	-	2112 16,8	773 15,6	9699 22,0	-	12584 17,8
			80-61	II	3176 16,3	73 50,0	-	-	2051 41,4	19988 15,3	-	25288 35,7
			60-41	III	16001 82,3	73 50,0	48 0,2	-	1573 31,8	11863 26,9	-	29558 41,7
			40-21	IV	267 1,4	-	-	-	555 11,2	2569 5,8	-	3391 4,8
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**145511 11,9**	**100-1**	**I-V**	**19444 30,9**	**146 0,2**	**48 0,1**	**2112 3,4**	**4952 7,0**	**44119 62,3**	-	**70821 48,7**
7	Tovuz		100-81	I	-	-	-	7375 100	-	-	-	7375 7,7
			80-61	II	3830 18,9	140 31,6	648 18,0	-	7697 19,0	6367 21,0	2352 35,4	21034 19,2
			60-41	III	8956 44,2	329 44,3	1518 44,2	-	17828 44,0	12624 41,6	2840 42,6	44095 40,3
			40-21	IV	7477 36,9	274 36,9	1267 36,9	-	15005 37,0	11318 37,3	1460 22,0	36801 33,7
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**194209 15,8**	**100-1**	**I-V**	20263 18,5	743 0,7	3433 3,1	7375 6,7	40530 37,1	30309 27,7	6652 6,1	109305 56,3
8	Xanlar		100-81	I	334 2,4	15 1,6	620 17,4	2348 51,1	620 2,1	651 10,4	8 0,2	4596 7,6
			80-61	II	6672 43,6	212 23,0	960 27,0	-	3184 10,6	891 14,2	414 10,1	12333 20,3

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			60-41	III	5775 42,1	680 73,8	1000 28,0	-	10903 36,4	2254 35,9	1565 38,2	22177 36,4
			40-21	IV	347 6,9	15 1,6	985 27,6	-	15198 50,9	2222 35,4	2081 50,7	21448 35,2
			20-1	V	-	-	-	-	-	572 4,0	34 0,8	287 0,5
	Cəmi	**93776 7,6**	**100-1**	**I-V**	**13728 21,8**	**922 1,5**	**3565 5,9**	**2348 3,9**	**29905 49,5**	**6271 10,4**	**4102 6,7**	**60841 64,9**
9	Şəmkir		100-81	I	3389 8,6	25 6,4	18 0,8	8818 67,7	310 0,5	458 3,0	-	13018 10,6
			80-61	II	22385 56,8	207 52,8	1781 77,2	-	4588 8,0	1243 8,0	-	30204 24,4
			60-41	III	13005 33,0	160 40,8	468 20,3	-	19870 34,6	5378 34,7	-	38881 31,4
			40-21	IV	630 1,6	-	40 1,7	-	31017 54,0	7475 48,3	-	39162 31,6
			20-1	V	-	-	-	-	1555 2,9	920 6,0	-	2485 2,0
	Cəmi	**165678 13,5**	**100-1**	**I-V**	**39409 31,8**	**392 0,3**	**2307 1,9**	**8818 7,1**	**57350 46,3**	**15474 12,5**	**-**	**123750 74,7**
10	Gəncə ş.		100-81	I	356 20,5	744 42,3	-	658 37,4	-	-	-	1758 94,4
			80-61	II	-	-	-	-	-	104 100	-	104 5,6
			60-41	-	-	-	-	-	-	-	-	-
			40-21	-	-	-	-	-	-	-	-	-
			20-1	-	-	-	-	-	-	-	-	-
	Cəmi	**8320 0,7**	**100-1**	**I-V**	**356 19,8**	**744 40,0**	**-**	**658 35,3**	**-**	**104 5,6**	**-**	**1862 22,4**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
11	Naftalan ş.		100-81	I	39 58,2	-	-	28 41,8	-	-	-	67 31,6
			80-61	II	-	-	-	-	-	-	-	-
			60-41	III	-	-	-	-	145 100	-	-	145 68,4
			40-21	IV	-	-	-	-	-	-	-	-
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**305 0,03**	**100-1**	**I-V**	**39 18,4**	**-**	**-**	**28 13,2**	**145 68,4**	**-**	**-**	**212 69,5**

məsinin nəticəsi torpaqların keyfiyyət qrupları arasında yuxarıdan aşağıya doğru transferlik dinamikasının güclənməsinə şərait yaratmışdır. Torpaqların keyfiyyət qrupunda müşahidə edilən müxtəlif dinamiklik bölgənin suvarılan torpaqların meliorativ vəziyyətində də özünü göstərməkdədir. Burada kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının 183,3 min hektarı (23,6%) suvarılan torpaqlardan ibarətdir. Bu torpaqların mövcud meliorativ vəziyyəti rəqəmlərdə öz əksini tapmışdır (cədvəl 44, şəkil 179-181).

Cədvəl 44

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə meliorativ vəziyyətinə dair bəzi göstəricilər (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Ağstafa	22490 12,2	2205 9,8	8270 36,8	12015 53,4	12061 53,6	6715 29,9	3714 16,5	14419 64,1	3115 13,8	4956 22,0
2	Qazax	16341 8,9	540 3,3	5888 36,0	9913 60,7	14100 86,3	2241 13,7	-	7848 48,0	5404 33,1	3089 18,9
3	Goranboy	48019 26,1	1874 3,9	13735 28,6	32410 67,5	13120 27,3	31419 65,4	3480 7,2	16745 34,9	25908 54,0	5366 3,9
4	Tovuz	23198 12,6	180 0,8	1722 7,4	21296 91,8	1059 4,6	21264 91,7	874 3,8	21410 93,2	155 0,7	1633 7,0
5	Xanlar	10777 5,9	210 1,9	3540 32,8	7027 65,2	2502 23,2	7140 66,2	1135 10,5	4057 37,6	4083 37,9	2637 24,5
6	Şəmkir	38394 20,9	1086 2,8	17278 45,0	20030 52,2	7771 20,2	27975 72,9	2648 6,9	20817 54,2	12537 32,6	5040 13,1
7	Samux	21708 11,8	3400 15,7	7596 35,0	10712 49,3	4061 18,7	14401 66,3	3246 14,9	15659 72,1	3365 15,5	2684 12,4
8	Gədəbəy	908 0,5	-	-	908 100	908 100	-	-	908 100	-	-
9	Gəncə ş.	1733 0,9	-	1733 100	-	1733 100	-	-	303 17,5	1230 71,0	200 11,5
10	Naftalan ş.	67 0,04	-	67 100	-	67 100	-	-	37 55,2	30 44,8	-
	Cəmi	**183635** **12,9**	**9495** **5,2**	**59829** **32,6**	**114311** **62,2**	**57387** **31,2**	**111155** **60,5**	**15098** **8,2**	**102203** **55,6**	**55827** **30,4**	**25605** **5,2**

Ərazidə suvarılan torpaqların qrunt sularının yatım dərinliyinə görə yayılması da xeyli müxtəlifdir. Belə ki, qrunt sularının səviyyəsi təhlükəli həddə olan, yəni 1 metrdən az dərinlikdə yerləşən sahələrdə suvarılan torpaqların 9,5 min hektarı (5,2%) yerləşmişdir. Bölgədə suvarılan sahələrin yalnız 62,2%-i (114,3 min ha) qrunt suları təhlükəsiz dərinlikdə (3,0 m-dən aşağıda) yerləşən ərazilərdə paylanmışdır. Müşahidələr göstərir ki, bölgənin ayrı-ayrı rayonlarında suvarılan torpaqları qrunt sularının dərinliyinə görə ərazidə paylanması xeyli müxtəlifdir. Beəl ki, ciddi şorlaşma təhlükəsi olan, yəni qrunt suyunun dərinliyi 1,0 m-də yerləşən suvarılan torpaqlara ən çox Şamaxı (3400 ha), Ağstafa (2205 ha), Goranboy (1874 ha) və Şəmkir (1086 ha) rayonları ərazisində rast gəlinir. Bu ərazilərdə qrunt sularının mövcud qorxulu səviyyəsinin aşağı salınması bölgənin gündəmdə duran ən ciddi meliorativ problemidir. Bu xüsusda regionların slsial-iqtisadi inkişafına dair Dövlət proqramında Gəncə-Qazax bölgəsində suvarma suyuna olan ehtiyacın tam ödənilməsi ilə yanaşı, Samux və Şəmkir rayonlarının suvarılan torpaqlarının bir hissəsində qrunt suyunun səviyyəsinin (1,0 m-dən az) aşağı salınması sahəsində müəyyən işlərin görülməsi nəzərdə tutulmuşdur.

Qrunt sularının minerallaşma dərəcəsinə görə suvarılan torpaqlar müxtəlif olmaqla üç qrupa ayrılmışdır. Birinci qrupa minerallaşma dərəcəsi 1 q/l-dən az, ikinci qrupa 1-3 q/l və 3-cü qrupda isə 3 q/l-dən çox olan qrunt suları daxil edilmişdir. Birinci qrupda, yəni qrunt suyunun minerallaşma dərəcəsi bir q/l az olan sahələrdə torpağın şorlaşması üçün təhlükə yoxdur. Belə sahələr bölgədə ümumi suvarılan torpaqların 31,2%-ni (57,4 min ha) əhatə edir. Bu göstərici Gədəbəy rayonunun, Gəncə və Naftalan şəhərlərinin suvarılan torpaqlarında bütünlüklə (100%), digər rayonlarda isə 4,6-86,3% arasında dəyişir. Qrunt suyunun minerallaşma dərəcəsi 1-3 q/l-ə çatan suvarılan torpaqların sahəsi 111,2 min hektarı və ya bölgənin ümumi suvarılan torpaqlarının 60,5%-ni təşkil edir. Üçüncü qrupda (3 q/l-dən çox) suvarılan torpaqların 15,1 min

Cədvəl 44


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 179

Cədvəl 44.1


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 180

Cədvəl 44.2

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsminə görə qiymətləndirilməsi (ha/%)



yaxşı kafi qevri-kafi

Şəkil 181

hektarı (8,2%) yerləşir. Bölgənin Ağstafa, Samux və Xanlar rayonlarında suvarılan torpaqların yalnız 10,5-16,5%-nin qrunt sularının minerallaşma dərəcəsinə görə üçüncü qrupda yerləşməsi və həm də qrunt suları səviyyəsinin dərində olması bu ərazilərin yaxın gələcəkdə şorlaşması üçün meliorativ şəraitin təhlükəli olmadığını göstərir. Hal-hazırda suvarılan torpaqlarda qrunt sularının minerallaşma dərəcəsi 1-3 q/l arasında dəyişən ərazilərdə qrunt suyu səviyyəsinin yer səthinə yaxın olması torpaqlarda şorlaşma təhlükəsini artırır. Bölgənin əksər rayonlarının suvarılan torpaqlarının 30-92%-ə qədəri qrunt suyunun minerallaşma dərəcəsinin 1-3 q/l arasında tərəddüd edən ərazilərdə yerləşir. Son illərdə torpaqda mənfi proseslərin güclənməsi deyilənlərin əyani təsdiqidir. Hazırda suvarılan torpaqların 777,6 min hektarı və ya 42,3%-i müxtəlif dərəcədə şorlaşmışdır (cədvəl 45, şəkil 182-183). Bunun 13,6 min hektarı (7,4%) orta və 9,7 min hektarı (5,3%) şiddətli dərəcədə şorlaşmış suvarılan torpaqlardan ibarətdir. Suvarılan sahələrin yalnız 54,5 min hektarı (30%) zəif şorlaşmışdır. Məlum olduğu kimi bu vaxta qədər respublikanın Gəncə-

Qazax bölgəsinin suvarılan torpaq sahələrində drenləşmə aparılmamışdır. Yaxın gələcəkdə bölgədə suvarılan torpaqların yaxşılaşdırılması üçün sahələrdə drenləşmə aparılmasına dair müvafiq layihə-axtarış işləri həyata keçirilməkdədir.

Beləliklə, rəqəmlərdən aydın olur ki, qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə suvarılan torpaqların 102,2 min hektarının (55,6%) meliorativ durumu yaxşı 55,8 min hektarının (304%) kafi və qalan 25,6 min hektarınınkı (5,2%) isə qeyri-kafidir.


Cədvəl 45

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə şorlaşma durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi				
			şorlaş-mayan	cəmi şorlaşmış	o cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Ağstafa	22490 12,2	13961 62,1	8529 37,9	3995 46,8	3906 45,8	628 7,4
2	Qazax	16341 8,9	11710 71,7	4631 28,3	2326 50,2	2104 45,4	201 4,3
3	Goranboy	48019 26,1	22586 47,0	25438 53,0	21179 83,3	834 3,3	3420 13,4
4	Tovuz	23198 12,6	15533 67,0	7665 33,0	5891 77,0	40 0,5	1734 22,6
5	Xanlar	10777 5,9	6878 63,8	3899 36,2	2619 67,2	215 5,5	1065 15,4
6	Şəmkir	38394 20,9	21895 57,0	16499 43,0	12655 76,7	1809 11,0	2035 12,3
7	Samux	21708 11,8	12409 57,2	9299 42,8	3991 43,0	4736 51,0	572 6,0
8	Gədəbəy	908 0,5	908 100	-	-	-	-
9	Gəncə	1733 0,9	-	1733 100	1733 100	-	-
10	Naftalan	67 0,04	-	67 100	67 100	-	-
	Cəmi:	**183635 12,9**	**105880 57,7**	**77755 42,3**	**54456 70,0**	**13644 17,5**	**9655 12,5**

Cədvəl 45


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)



Şəkil 182

Cədvəl 45.1

Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 183

Bölgənin torpaq örtüyündə münbitliyinin itirilməsinə və habelə becərilən kənd təsərrüfatı bitkilərində məhsuldarlığının azalmasına və ümumiyyətlə, torpaqların ekoloji meliorativ vəziyyətinin pisləşməsinə səbəb olan təbii amillərdən biri də torpaqlarda eroziya prosesinin baş verməsidir.

Ərazidə eroziya prosesinin geniş vüsət almasının başlıca səbəbi təbii amillərlə yanaşı, son on illiklərdə insanın aktiv təsərrüfat fəaliyyəti ilə əlaqədardır. Xüsusilə dağlıq ərazilərdə örüş və otlaq sahələrinin intensiv şəkildə otarılması həmin sahələrdə otlaq yükünün həddən artıq yüksək olması, habelə bir çox sahələrdə meşə, meşə-kolluqların tədricən qırılıb məhv edilməsi və eləcə də həmin sahələrin müəyyən hissəsinin şumlanıb əkilməsi bölgənin torpaqlarında eroziya prosesinin güclənməsinə səbəb olmuşdur (cədvəl 46, şəkil 184-191).

Cədvəl 46


Bölgənin torpaq ehtiyatlarının rayonlar üzrə eroziya durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Eroziya dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
	2	3	4	5	6	7	8
1	Ağstafa	150370 12,3	116497 77,5	33903 22,5	19258 56,8	7595 22,4	7050 20,8
2	Qazax	69229 5,7	27794 40,2	41435 59,8	18085 43,6	9370 22,6	13980 33,7
3	Daşkəsən	90323 7,4	28198 31,2	62125 68,8	22185 24,6	14605 16,2	25335 40,8
4	Gədəbəy	123298 10,2	39113 31,7	84185 68,8	27515 32,7	21780 25,9	34890 29,6
5	Goranboy	173338 14,2	102263 59,0	71075 41,0	34580 48,6	18955 26,7	17540 24,7
6	Samux	145511 11,9	107936 74,3	37575 25,7	18545 49,6	12370 33,1	6660 17,8
7	Tovuz	194209 16,0	123664 63,7	70545 36,3	31255 44,3	10750 15,2	28540 40,5
8	Xanlar	93776 7,7	55621 59,3	38155 40,7	16455 43,1	9830 25,8	11870 31,1
9	Şəmkir	165678 13,6	101561 61,3	64117 38,7	34556 54,0	11284 17,6	18277 28,5

	2	3	4	5	6	7	8
	Cəmi	**1220106** **14,1**	**716991** **58,8**	**503115** **41,2**	**222434** **44,2**	**116539** **23,2**	**164142** **32,6**
Dağ-çəmən zonası torpaqlarının eroziya durumu							
		105697 8,7	16383 15,5	89314 84,5	36073 40,4	25936 29,0	27305 30,6
Dağ-meşə zonası torpaqlarının eroziya durumu							
		273073 14,1	253026 92,7	20047 7,3	11075 55,3	5636 28,1	3336 16,6
Dağ-bozqır zonası torpaqlarının eroziya durumu							
		245577 20,1	75491 30,7	170086 69,3	82614 48,6	50353 29,6	37119 21,8


Belə ki, hazırda bölgənin ümumi sahəsinin 503,1 min hektarı (41,2%) müxtəlif dərəcədə eroziyaya məruz qalmışdır. Eroziyaya uğramış torpaq sahələrinin 44,2%-i zəif, 23,2%-i orta və 32,6%-i şiddətli dərəcədə eroziyaya məruz qalmışdır. Ərazisinin 68,8%-i eroziyaya uğramış Gədəbəy rayonunda şiddətli eroziyaya uğramış torpaq sahəsi 29,6%-ə çatdığı halda, ərazisinin təqribən 60%-ə qədəri eroziyaya məruz qalmış

Cədvəl 46



Cədvəl 46.1


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 185

Cədvəl 46.2


Bölgənin dağ-çəmən zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 186

Cədvəl 46.3


Bölgənin dağ-çəmən zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 187

Cədvəl 46.4


Bölgənin dağ-meşə zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 188

Cədvəl 46.5


Bölgənin dağ-meşə zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 189

Cədvəl 46.6


Bölgənin dağ-bozqır zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 190

Cədvəl 46.7

Bölgənin dağ-bozqır zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 191


Daşkəsən rayonunda bu göstərici 40,8%-ə qədər yüksəlir. Bölgənin dağ-çəmən zonasında yerləşən bu rayonların ərazisi yay otlaqları kimi intensiv otarıldığından eroziyaya uğramış torpaq sahələrinin miqdarı ildən-ilə genişlənməkdə davam edir. Ümumiyyətlə, hazırda bölgənin yay otlaqları kimi istifadə olunan dağ-çəmən zonası torpaqlarının 84,5%-i müxtəlif dərəcədə eroziyaya məruz qalmış sahələrdən ibarətdir. Xüsusilə orta və şiddətli dərəcədə eroziyaya uğramış sahələrin 60%-dək yüksəlməsi ciddi narahatlıq doğurur. Oxşar vəziyyətin bölgənin dağ-bozqır zonasında yayılmış dağ-qara, dağ bozqəhvəyi və dağ-şabalıdı torpaqlarında təkrarlandığı müşahidə olunur. Bölgənin dağ-meşə zonasının torpaqlarında eroziyaya uğrama nisbətən zəif baş verir. Ehtimal ki, eroziya prosesi əsasən meşəsizləşmiş torpaq sahələrində baş verdiyindən bu zonada az da olsa, həmin göstərici 7,3%-ə çatır. Bunun da 28,1%-ni orta və 16,6%-ni şiddətli eroziyaya uğramış sahələr təşkil edir.

Meşə zonasında zəif eroziyaya uğramış torpaqlar 55,3%-ə qədər yüksəlsə də, ümumilikdə burada eroziyaya uğramayan torpaq sahələri üstünlük təşkil edir. Bu bir daha göstərir ki, ərazinin təbii bitki örtüyünün, xüsusilə meşə və ot örtüyünün mühafizəsi onun səmərəli istifadəsi torpaq örtüyünün dayanaqlı və davamlı mühafizəsi üçün böyük əhəmiyyət daşıyır.

Bölgənin mövcud inzibati sərhədləri daxilində ümumi torpaq fondu torpaq islahatı zamanı üç: dövlət, bələdiyyə və xüsusi mülkiyyət növlərinə bölünərək istifadə olunur (cədvəl 47, şəkil 192, 193). Ümumi torpaq fondunun 53,1%-i (652,6 min ha) dövlət və 26,9%-i (330,6 min ha) bələdiyyə mülkiyyətinə verilmişdir. Xüsusi mülkiyyətə verilməsi zəruri sayılan kənd təsərrüfatına yararlı torpaq sahələrinin ölçüsü isə 20,0% (245,5 min ha) təşkil edir.

Cədvəl 47

Bölgənin ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 192


Cədvəl 47

Bölgənin vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış	yay			
1	Dövlət	652606 53,1	14790 5,4	777 0,3	2920 1,1	372 0,1	-	203038 73,4	54582 19,8	276479 42,4	118912 18,2	257215 39,4
	o.c.suv.	13343 7,3	11692 90,2	616 4,7	295 2,3	116 0,9	-	250 1,9	-	12969 4,7	374 0,3	-
2	Bələdiyyə	330649 26,9	11147 4,3	679 0,3	1244 0,5	1249 0,5	243447 94,5	-	-	257766 78,0	316 0,1	72567 21,9
	o.c.suv.	9325 5,1	7594 81,4	594 6,4	92 1,0	413 4,4	632 6,8	-	-	9325 3,6	-	-
3	Xüsusi	245476 20,0	167927 69,3	2975 1,2	30510 12,6	40886 16,9	-	-	-	242298 98,7	-	3178 1,3
	o.c.suv	160967 87,7	130282 80,9	2967 1,8	1103 0,7	26615 16,6	-	-	-	160967 66,5	-	-
	Cəmi	**1228731 14,2**	**193864 25,0**	**4431 0,6**	**34674 4,6**	**42507 5,5**	**243447 31,3**	**203038 26,0**	**54582 7,0**	**776543 63,2**	**119228 9,7**	**332960 27,1**
	o.c.suv.	**183635 12,9**	**149568 81,6**	**4177 2,3**	**1490 0,8**	**27144 14,8**	**632 0,3**	**250 0,1**	-	**183261 23,6**	**374 0,3**	-

Cədvəl 47.1

Bölgənin ümumi suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 193

1. Dövlət mülkiyyətindəki torpaqlar. Bölgədə dövlət mülkiyyətinə məxsus torpaq fondunun 276,5 min hektarı və ya 42,4%-i kənd təsərrüfatına yararlı olmaqla hazırda bütünlüklə fiziki və hüquqi şəxslərin istifadə və icarəsindədir (cədvəl 48, şəkil 194-199). Dövlət fondu torpaqlarının 118,9 min hektarını (18,2%) meşə torpaqları təşkil edir. Dövlət ehtiyat fondu torpaqlarının 14,8 min hektarı (5,0%) əkin və dincə qoyulmuş torpaqlar kimi istifadə edilməkdədir. Bölgədə geniş əraziləri əhatə edən 203,0 min ha (73,4%) qış və sahəsi 54,6 min hektara (19,7%) çatan yay otlaqları bölgənin və eləcə də digər qonşu rayonların fiziki və hüquqi şəxsləri tərəfindən qoyun sürülərinin otarılmasında istifadə olunur. Çoxillik əkmələr və biçənək sahələri əsasən özəlləşdirildiyindən dövlət mülkiyyətində çox az miqdarda saxlanmışdır. Hətta bəzi rayonlarda (Gədəbəy rayonu) dövlət fondunda çoxillik əkmələrin torpaqlarına rast gəlinmir. Bölgədə ən çox Goranboy, Şəmkir rayonlarının hər birinin ərazisində 174 hektara qədər çoxillik əkmələr saxlanmışdır ki, bu da onların ümumi kənd təsərrüfatına

Cədvəl 48

Bölgənin dövlət mülkiyyətindəki ümumi torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Heyətyanı	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							qış	yay			
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Ağstafa	106945 16,4	3942 6,8	45 0,1	854 1,5	124 0,2	52551 91,4	-	57516 53,8	7162 6,7	42267 39,9
	o.c.suv.	3167 23,7	2634 84,2	45 1,4	182 5,8	63 2,0	205 6,6	-	3129 7,2	38 0,5	-
2	Qazax	15437 2,4	2237 48,7	32 0,7	25 0,5	168 3,7	2133 46,4	-	4595 29,8	3927 25,4	6915 44,8
	o.c.suv	2083 15,6	1869 96,0	32 1,6	25 1,3	-	20 1,0	-	1946 7,6	137 3,5	-
3	Daşkəsən	63370 9,7	29 0,1	11 0,1	895 4,0	-	2386 10,6	19138 85,2	22459 35,4	25377 40,0	15534 24,5
4	Gədəbəy	62924 9,6	289 1,2	-	187 0,8	-	4307 18,4	18768 80,0	23551 37,3	21914 34,8	17459 27,9
	o.c.suv	75 0,6	75 100	-	-	-	-	-	75 100	-	-
5	Goranboy	74584 11,4	2288 5,4	174 0,4	133 0,2	47 0,1	33566 79,7	5922 14,2	42130 56,5	8800 11,8	23654 31,7
	o.c.suv	2667 20,0	2180 87,9	174 7,0	86 3,5	38 1,5	2 0,1	-	2480 93,0	187 2,1	-
6	Samux	117934 18,1	1923 4,1	46 0,1	-	-	44843 95,8	-	46812 39,7	2435 2,1	68687 58,2
	o.c.suv	1927 14,4	1881 97,6	46 2,4	-	-	-	-	1927 5,1	-	-
7	Tovuz	118382 18,1	648 1,5	106 0,2	502 1,1	-	36420 82,2	6652 5,0	44328 37,4	27234 29,0	46820 39,5
	o.c.suv	224 1,7	220 98,2	4 1,8	-	-	-	-	224 0,7	-	-
8	Xanlar	43949 6,7	2791 15,9	26 0,1	324 1,8	24 0,1	10305 58,6	4102 23,3	17572 40,0	17071 39,8	9306 21,2
	o.c.suv	2328 17,4	2294 98,5	26 1,1	2 0,1	6 0,1	-	-	2328 10,9	-	-
9	Şəmkir	43572 6,7	287 0,8	174 0,5	-	-	36423 98,7	-	36884 84,6	4992 14,5	1696 3,9


1	2	3	4	5	6	7	8	9	10	11	12
	o.c.suv	369 2,8	183 51,3	174 48,7	-	-	-	-	357 1,1	12 0,2	-
10	Gəncə ş.	5489 0,9	356 56,3	163 25,8	-	9 1,4	104 16,5	-	632 11,5	-	4857 88,5
	o.c.suv	503 3,8	356 70,8	115 22,9	-	9 1,8	23 4,6	-	503 79,6	-	-
11	Naftalan ş.	20 0,003	-	-	-	-	-	-	20 100	-	20 100
	Cəmi	**652606** **53,1**	**14790** **5,0**	**777** **0,3**	**2920** **1,0**	**372** **0,1**	**223038** **75,2**	**54582** **18,4**	**296479** **45,4**	**118912** **18,2**	**23715** **32,4**
	o.c.suv.	**13343** **7,3**	**11692** **90,2**	**616** **4,7**	**295** **2,3**	**116** **0,9**	**250** **1,9**	-	**12969** **4,4**	**374** **0,3**	-

yararlı torpaq ehtiyatının 0,4-0,5%-nə bərabərdir. Oxşar vəziyyət biçənək torpaqlarının saxlanmasında da müşahidə olunur. Burada yalnız Ağstafa və Daşkəsən rayonlarında saxlanmış biçənək torpaqların sahəsi nisbətən artıqdır və müvafiq olaraq 854-895 hektar arasında dəyişir. Bu isə həmin rayonlar üzrə kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının 1,5-4,0%-i deməkdir. Belə hal dövlət mülkiyyətində saxlanmış kənd təsərrüfatına yararlı həyətyanı torpaq sahələrində də özünü göstərir.

Bölgənin ümumi suvarılan torpaqlarının 13,3 min ha-ı (7,3%) dövlət mülkiyyətində istifadə olunur. Bölgənin bütün rayonlarında ən çox suvarılan torpaq sahələrini əkin və dincə qoyulmuş torpaqlar təşkil edir. Qış otlaqlarının yalnız 1,9%-i (0,3 min ha) suvarılan sahələrdən ibarətdir. Ümumiyyətlə, kənd təsərrüfatında istifadə edilən torpaqların 4,4%-i (129,7 min ha) suvarılır. Suvarılan meşə torpaqları 0,3%-dir (0,4 min ha). Kənd təsərrüfatında istifadə olunmayan sair torpaq sahələri ümumi dövlət fondunun 237,2 min ha-nı (36,3%) əhatə edir. Bu qrup torpaqların tərkib hissəsi olan kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaq ehtiyatları gələcəkdə bölgədə kənd təsərrüfatı dövriyyəsinə onların yaxşılaşdırılması yolu ilə cəlb edilə biləcək yeganə ehtiyat mənbəyi sayılır. Bölgənin ayrı-ayrı rayonları ərazisində bu qrup torpaq ehtiyatları təqribən ümumi torpaq fondunun 3,9-58,2%-ni təşkil etməklə xeyli geniş intervalda dəyişir.

Cədvəl 48


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 194

Cədvəl 48.1


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 195

Cədvəl 48.2


Bölgənin dövlət mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 196

Cədvəl 48.3


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 197

Cədvəl 48.4


Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 198

Cədvəl 48.5

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 199

Hazırda bölgədə dövlət mülkiyyətində saxlanmış torpaq fondunda regionun təbiət kompleksləri - flora və faunanın qorunması məqsədilə yaradılmış, sahəsi 12355 ha-a çatan Göygöl və Qarayazı qoruqları fəaliyyət göstərir. Eləcə də regionda mövcud biomüxtəlifliyinin davamlı inkişafını və dayanıqlı istifadəsini təmin etmək üçün dövlət ehtiyat fondu torpaqlarında ümumi sahəsi 42,1 min ha-ı əhatə edən üç yasaqlıq Qızılca (Gədəbəy rayonu), Korçay (Xanlar və Goranboy rayonları) və Qarayazı-Ağstafa yasaqlıqları yaradılmışdır.

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Hal-hazırda bölgənin vahid torpaq fondunun 330,6 min hektarı (26,9%) burada fəaliyyət göstərən 363 bələdiyyə orqanlarının mülkiyyətindədir. (cədvəl 49, şəkil 200-206). Bunun 257,8 min hektarı (78,0%) kənd təsərrüfatına yararlı torpaq sahələrindən ibarət olub, hazırda bütünlüklə fiziki və hüquqi şəxslərin müxtəlif müddətli istifadə və icarəsinə verilməsidir. Eləcə də bələdiyyələr fəaliyyət göstərdiyi ötən dövrdə yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılmış və alqı-satqı predmeti olan xeyli torpaq sahələrinin fiziki və hüquqi şəxslərə satılmışdır.

Bələdiyyə mülkiyyətinin tərkib hissəsi sayılan kəndyanı örüş torpaqlarının sahəsi 243,5 min ha olmaqla ümumi bələdiyyə mülkiyyətinin kənd təsərrüfatına yararlı torpaqların 94,4%-ni təşkil edir. Bu torpaqlar bələdiyyə mülkiyyətinin ümumi istifadəsində olan torpaqlarına aid edildiyindən əhaliyə mal-qaranın otarılması üçün haqqı ödənilmədən müddətsiz verilmişdir. Əhalinin mal-qarasının örüşə olan ehtiyacı ödəndikdən sonra ehtiyat torpaq fondunda qalan örüş və eləcə də biçənək sahələri torpaq qanunvericiliyinə uyğun olaraq fiziki və hüquqi şəxslərin icarəsinə bir qayda olaraq beş ildən on beş ilə qədər verilə bilər. Təəssüf ki, bölgədə mövcud olan kəndyanı örüş sahələri həm sahəcə az və həm də ot örtüyünün bioloji məhsuldarlığı son dərəcə aşağı olduğundan, eləcə də son illər əhalidə olan mal-qaranın baş sayının 2-3 dəfədən çox artması kəndyanı örüş torpaqlarında otlaq yükünün

bir neçə dəfə artmasına səbəb olmuşdur. Beləliklə də hazırda kəndyanı örüş torpaqlarında tənəzzül prosesinin sürətlənməsi üçün əlverişli mühit yaranmışdır.

Cədvəl 49


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çox-illik əkmələr	Biçənək	Kənd-yanı örüş	Həyət-yanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Ağstafa	23145 7,0	969 5,8	-	-	15517 92,8	230 1,4	16716 72,2	-	6429 27,8
	o.c.suv.	1427 15,3	959 67,2	-	-	468 32,8	-	1427 8,5	-	-
2	Qazax	29502 18,9	1562 7,1	-	94 0,4	20263 92,5	-	21919 74,2	-	7583 25,2
	o.c.suv	603 6,5	541 89,7	-	-	62 10,3	-	603 2,8	-	-
3	Daşkəsən	28705 8,7	144 0,6	44 0,2	459 1,8	24572 97,3	22 0,1	25241 87,9	-	3464 12,1
4	Gədəbəy	36592 11,1	745 2,6	-	377 1,3	27884 95,3	238 0,8	29244 79,9	-	7348 20,1
	o.c.suv	5 0,06	5 100	-	-	-	-	5 0,02	-	-
5	Goranboy	49354 14,9	2344 6,3	36 0,1	141 0,4	34516 92,7	177 0,4	37214 75,4	190 0,4	11950 24,2
	o.c.suv	2329 25,0	1944 83,5	23 1,0	92 3,9	96 4,1	174 7,5	2329 6,3	-	-
6	Samux	8481 2,6	829 16,4	27 0,5	-	4204 83,1	-	5060 59,7	29 0,3	3392 40,0
	o.c.suv	856 2,9	829 100	27 3,2	-	-	-	856 16,9	-	-
7	Tovuz	46184 14,0	1155 3,2	287 0,8	51 0,1	34245 95,8	54 0,1	35792 77,5	33 0,1	10359 22,4
	o.c.suv	1181 12,7	922 78,1	259 21,9	-	-	-	1181 3,3	-	-
8	Xanlar	32956 10,0	924 3,4	3 0,01	118 0,4	25717 95,6	150 0,6	26912 81,7	-	6044 18,3

1	2	3	4	5	6	7	8	9	10	11
	o.c.suv	504 5,4	501 99,4	3 0,6	-	-	-	504 1,9	-	-
9	Şəmkir	74017 22,4	2436 4,1	5 0,01	4 0,01	56384 95,3	350 0,6	59179 80,0	64 0,1	14774 20,0
	o.c.suv	2076 22,2	1854 89,4	5 0,2	-	6 0,2	211 10,2	2076 3,5	-	-
10	Gəncə ş.	1428 0,4	-	277 100	-	-	-	277 19,4	-	1151 80,6
	o.c.suv	277 3,0	-	277 100	-	-	-	277 100	-	-
11	Naftalan ş.	285 0,09	39 18,4	-	-	145 68,4	28 13,2	212 74,4	-	73 25,6
	o.c.suv	67 0,7	39 58,2	-	-	-	28 41,8	67 31,6	-	-
	Cəmi	**330649 26,9**	**11147 4,3**	**679 0,3**	**1244 0,5**	**243447 94,4**	**1249 0,5**	**257766 78,0**	**316 0,1**	**72567 21,9**
	o.c.suv.	**9325 5,1**	**7594 81,4**	**594 6,4**	**92 1,0**	**632 6,8**	**413 4,4**	**9325 3,6**	-	-

Cədvəl 49


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 201

Cədvəl 49.1

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqların əsas tərkib hissəsi (ha/%)




Yararlı torpaqlar

Sair sahələr və meşə torpaqları (0.1%)

Şəkil 202

Cədvəl 49.2

Bölgənin bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Suvarılan

Dəmyə

Şəkil 203

Cədvəl 49.3


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 204

Cədvəl 49.4


Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 205

Cədvəl 49.5

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Çoxillik əkmələrin torpaqları, biçənək sahələri və eləcə də kənd təsərrüfatına yararlı həyətyanı torpaqlar bələdiyyə mülkiyyəti torpaqlarının yalnız az bir hissəsini, yəni 3,2 min hektarını (1,2%) təşkil edir. Bələdiyyə mülkiyyətinə verilmiş meşə fondu, onun ümumi torpaq fondunun 0,1%-ni (0,3 min ha) əhatə edir.

Sahəsinə görə ikinci yeri tutan əkin və dincə qoyulmuş torpaqlar bələdiyyənin ümumi kənd təsərrüfatına yararlı torpaqlarının 4,3%-ni (11,2 min ha) bərabərdir. Bu torpaqların 7,6 min hektarı, yəni 81,4%-i suvarılan sahələrdən ibarətdir. Suvarılan torpaqların 5,1%-nə (9,3 min ha) bələdiyyələr sahiblik edirlər. Hazırda bu və digər yararlı torpaq sahələri bütünlüklə fiziki və hüquqi şəxslər tərəfindən bələdiyyələrlə bağlanmış müxtəlif müddətli icarə müqavilələrinə uyğun istifadə edilir.

Bölgənin ayrı-ayrı inzibati rayonlarında bələdiyyə mülkiyyətinə verilmiş torpaq sahələrinin kəmiyyətinə gəldikdə isə bu

göstəricilər xeyli müxtəlifdir. Rayonun ümumi torpaq fondunun miqdarından asılı olaraq bölgədə bələdiyyə mülkiyyətinə verilmiş torpaqlar 5,8-44,7%-i arasında tərəddüd edir. Məsələn, ən az, yəni ümumi torpaq fondunun 5,8%-i Samux rayonunun 35 bələdiyyəsinin mülkiyyətinə verilmiş (8,5 min ha) torpaq sahələridir. Bölgədə mülkiyyətinə ən çox torpaq sahəsi düşən Şəmkir rayonunun 57 bələdiyyəsidir. Bu rayonda ümumi torpaq fondunun 44,7%-i və ya 74,0 min hektardan bir qədər artıq hissəsi bələdiyyə mülkiyyətinə verilmişdir. Orta hesabla hər bir bələdiyyə hazırda mülkiyyətində olan 1,0 min hektara yaxın torpaq sahəsindən faydalanır. Deyilənlərlə yanaşı, hazırda bölgədə 72,6 min ha və ya ümumi bələdiyyə mülkiyyətinə verilmiş torpaqların 21,9% təşkil edən kənd təsərrüfatında istifadə olunmayan torpaq sahələridir. Bu əsasən kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaq sahələrindən ibarətdir. Hal-hazırda torpaqların müəyyən hissəsi fiziki və hüquqi şəxslər tərəfindən güzəştli şərtlərlə istifadə olunur. Ümumiyyətlə, gələcəkdə bölgədə kənd təsərrüfatı dövriyyəsinə cəlb ediləcək torpaq sahələri, ancaq bu qrup torpaq sahələrinin əsaslı şəkildə yaxşılaşdırılması hesabına mümkündür. Çünki bölgədə kənd təsərrüfatına yararlı torpaq ehtiyatları artıq çoxdan tükənmişdir. Dövlət mülkiyyətinin suvarılan torpaqlarında olduğu kimi bələdiyyə mülkiyyətinin də suvarılan torpaqlarında sahələrin drenləşməsi aparılmadığından hazırda torpaqların meliorativ durumu xeyli pisləşmiş və bir çox yerlərdə torpaqlarda şorlaşma baş verməkdədir.

3. Xüsusi mülkiyyətdəki torpaqlar. Xüsusi mülkiyyətə verilmiş torpaqlar Gəncə-Qazax bölgəsinin ümumi torpaq fondunun (cədvəl 50, şəkil 207-211) 245,5 hektarını (20,0%) təşkil edir. Özəlləşdirilmiş torpaqların əsas tərkib hissəsi əkin və dincə qoyulmuş torpaqlardan ibarətdir. Bölgə üzrə əkin və dinc torpaqlar xüsusi mülkiyyətdə olan torpaqların 167,9 min hektarına (69,3%) bərabərdir. Sahəcə xüsusi mülkiyyətdə olan kənd təsərrüfatına yararlı sahələr 16,9%-ni (40,9 min ha) həyətyanı torpaqlar təşkil etməklə ikinci yeri tutur. Özəlləşən

torpaqların 12,6%-i biçənək sahələrindən ibarətdir. Çoxillik əkmələrin altında becərilən torpaqlar çox az miqdarda olub özəlləşdirilmiş torpaq sahələrinin 1,2%-ni (3,0 min ha) əhatə edir. Bölgənin ayrı-ayrı raoynlarında bu göstəricilər xeyli müxtəlif ölçüdədir. Özəlləşən torpaqların 161 min hektarı suvarılan torpaq sahələridir. Bu isə əslində xüsusi mülkiyyətə verilmiş torpaqları 87,7%-nin suvarılan sahələrdən ibarət olduğunu göstərir. Həyətyanı sahələrin yalnız 26,6 min hektarı və ya 16,6%-i suvarılan torpaqlardır.

Hazırda özəlləşdirilmiş 3,2 min ha (1,3%) torpaq sahəsi müxtəlif obyektiv və subyektiv səbəblərdən istifadədən kənarda qalmışdır.

Cədvəl 50


Bölgənin xüsusi mülkiyyətdəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri					K.t. istifadə olunmayan sahələr
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Cəmi	
1	2	3	4	5	6	7	8	9
1	Ağstafa	20280 8,3	15634 78,5	292 1,5	238 1,2	3742 18,8	19906 98,2	374 1,8
	o.c.suv.	17896 11,1	14681 82,0	292 1,6	7 0,04	2916 16,3	17896 89,9	-
2	Qazax	24290 9,9	19390 80,6	637 2,6	808 3,4	3213 13,4	24048 99,0	242 1,0
	o.c.suv	13655 8,5	9921 72,6	637 4,7	369 2,7	2728 20,0	13655 56,8	-
3	Daşkəsən	12622 5,1	2322 18,6	8 0,1	8561 68,5	1605 12,8	12496 99,0	126 1,0
4	Gədəbəy	23782 9,7	9022 38,4	-	8983 38,2	5500 23,4	23505 98,8	277 1,2
	o.c.suv	828 0,5	822 99,3	-	-	6 0,7	828 3,5	-
5	Goranboy	49400 20,1	39708 80,7	205 0,4	3197 6,5	6102 12,4	49212 99,6	188 0,4
	o.c.suv	43023 26,7	36863 85,9	205 0,5	210 0,5	5740 13,1	43023 87,4	-
6	Samux	19096 7,8	16692 88,1	73 0,4	72 0,4	2112 11,1	18949 99,2	147 0,8

1	2	3	4	5	6	7	8	9
	o.c.suv	18925 11,8	16692 88,2	72 0,2	48 0,3	2112 11,2	18969 99,9	-
7	Tovuz	29643 12,0	18460 63,2	350 1,2	3054 10,5	7321 25,1	29185 98,5	458 1,5
	o.c.suv	21793 13,5	16459 75,5	350 1,6	266 1,2	4718 21,7	21793 74,7	-
8	Xanlar	16871 6,9	10013 61,2	893 5,5	3277 20,0	2174 13,3	16357 97,0	514 3,0
	o.c.suv	7945 4,9	5896 74,2	893 11,2	-	1156 14,6	7945 48,6	-
9	Şəmkir	48089 19,6	36686 76,9	213 0,4	2320 4,9	8468 17,8	47687 99,2	402 0,8
	o.c.suv	35949 22,3	28943 80,5	213 0,6	203 0,6	6590 18,3	35949 75,3	-
10	Gəncə ş.	1403 0,6	-	30,4 31,9	-	649 68,1	953 67,9	450 32,1
	o.c.suv	953 0,6	-	304 31,9	-	649 68,1	953 100	-
	Bölgə üzrə cəmi	**245476 20,0**	**167927 69,3**	**2975 1,2**	**30510 12,6**	**40886 16,9**	**242298 98,7**	**3178 1,3**
	o.c.suv.	**160967 87,7**	**130282 80,9**	**2967 1,8**	**1103 0,7**	**26615 16,6**	**160967 66,4**	-

Cədvəl 50


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 207

Cədvəl 50.1


Bölgənin xüsusi mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 208

Cədvəl 50.2


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 209

Cədvəl 50.3


Bölgənin xüsusi mülkiyyətindəki ümumi suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 210

Cədvəl 50.4

Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 211

Həyata keçirilən torpaq islahatı zamanı ümum torpaq fondunun 197,8 min hektarı və ya 16,1%-i özəlləşdirilərək 622725 nəfər subyekti təmsil edən 172499 ailənin xüsusi mülkiyyətinə verilmişdir (cədvəl 51, şəkil 212-225). İslahata qədər 311 ictimai təsərrüfatın uzunmüddətli istifadəsində olmuş bu torpaqların müxtəlif dərəcədə olan münbitlik xassələri qiymətləndirilərək özəlləş-dirilmişdir. Hazırda bölgədə torpaq payı almış hər bir ailə orta hesabla 1,15 ha, hər bir subyekt isə 0,32 ha torpaq sahəsinin mülkiyyətçisidir. Mülkiyyətçinin əkib-becərdiyi torpaq sahəsinin 0,93 hektarı suvarılan torpaq sahələrindən ibarətdir. Bu isə bölgədə ailələlrin mülkiyyətinə verilmiş torpaq sahələrinin 81,4%-nin suvarılan torpaqlar olduğunu göstərir. Bölgənin ayrı-ayır rayonlarında bir ailənin mülkiyyətinə verilmiş orta torpaq pay norması 0,61-2,20 ha arasında dəyişir. Mülkiyyətinə ən çox, yəni 2,20 ha torpaq payı almış ailələr Daşkəsən rayonunda məskunlaşmışlar. Bölgədə ən az, yəni 0,61ha mülkiyyətinə orta torpaq payı düşən ailələr isə Tovuz rayonunda məskunlaşmışdır. Burada hər bir subyektə düşən 0,16 ha orta torpaq payı Daşkəsən rayonunda yaşayan bir subyektə düşən torpaq payından 3,8 dəfə azdır. Goranboy ərazisində məskunlaşan 20793 ailənin hər biri orta hesabla 1,92 ha mülkiyyətində olan torpaq sahəsini əkib-becərir. Hər bir subyektin mülkiyyətinə isə 0,54 ha torpaq payı düşür.

Torpaq istifadəçiliyində ayrı-ayrı ailə qruplarının iştirakına gəldikdə isə aydın olur ki, kiçik ailələrin mövqeyi daha üstündür. Onlar ümumi mülkiyyətçi ailələrin 52,3%-ni eyni zamanda bölgə üzrə özəlləşdirilmiş torpaq sahələrinin orta hesabla 58,6% (115,8 min ha) sahibidirlər. Bölgənin ayrı-ayrı rayonlarında kiçik ailələr ümumi ailələrin 45,0-54,5%-ni təşkil etməklə yanaşı, özəlləşən torpaqların 52,7-61,3%-nin mülkiyyətçiləridir. Bölgə üzrə özəlləşən torpaqların 25,2%-nin (50,7 min ha-nı) mülkiyyətçiləri ümumi ailələrin 14,2%-ni təşkil edən orta ailələrdir. Tək ailələr sayca (32,3%) orta ailələrdən çox olmasına baxmayaraq onlar özəlləşən torpaqların yalnız

Cədvəl 51

Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*


S/s	Rayonlar	Ailə qrupları												Ən böyük ailələr (12 nəf. çox)			Yekun			Orta torpaq norması, ailə/subyekt
		Tək ailələr (1-2 nəfər)			Kiçik ailələr (3-5 nəfər)			Orta ailələr (6-8 nəfər)			Böyük ailələr (9-12 nəfər)									
		ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
1	Ağstafa	4477 8,0	6291 8,1	1829 7,2	8375 9,3	34616 9,4	10131 8,7	2726 11,1	17643 11,1	5244 10,3	134 7,1	1296 7,5	397 7,5	4 3,5	52 3,2	18 3,2	15716 9,1	59898 9,6	17619 8,9	1,12 0,29
2	Qazax	5051 9,1	7223 9,3	2834 11,2	8365 9,3	34204 9,3	12968 11,2	1968 8,0	12588 7,9	5216 10,3	72 3,8	688 4,0	332 6,3	3 2,7	39 2,4	16 2,8	15459 9,0	54742 8,8	21366 10,8	1,38 0,39
3	Daşkəsən	1530 2,7	2041 2,6	1347 5,3	2205 2,4	8719 2,4	5547 4,8	819 3,3	5259 3,3	2932 5,8	238 12,6	1156 6,7	609 11,6	7 6,2	114 7,1	180 31,6	4799 2,8	17289 2,8	10615 5,4	2,21 0,61
4	Gədəbəy	8230 14,8	11792 15,2	3139 12,4	11195 12,4	43153 11,7	10620 9,2	2885 11,7	18958 11,9	4522 8,9	224 11,9	2257 13,1	508 9,6	15 13,4	210 13,1	48 8,4	22549 13,1	76370 12,3	18837 9,5	0,84 0,25
5	Goranboy	6983 12,5	9598 12,3	5119 20,2	10863 12,0	44421 12,1	23893 20,6	2783 11,3	17854 11,3	9904 19,5	154 8,2	1492 8,6	867 16,5	10 8,8	140 8,7	78 13,7	20793 12,0	73505 11,8	39861 20,2	1,92 0,54

1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
6	Samux	4130 7,4	5709 7,3	2072 8,2	6646 7,4	27119 7,4	10097 8,7	1501 6,1	9699 6,1	3618 7,1	202 10,7	2002 11,6	624 11,8	18 15,9	264 16,5	64 11,2	12497 7,2	44793 7,2	16475 8,3	1,32 0,37
7	Tovuz	9596 17,2	13700 17,6	2195 8,6	17894 19,8	73158 19,9	12133 10,5	4975 20,2	32196 20,3	5199 10,2	360 19,1	3482 20,1	514 9,8	14 12,4	191 11,9	25 4,4	32839 19,0	122727 19,7	20066 10,2	0,61 0,16
8	Xanlar	4915 8,8	6266 8,1	2288 9,0	4943 5,5	20127 5,5	7288 6,2	1058 4,3	6762 4,3	2872 5,7	49 2,6	467 2,7	223 4,2	7 6,2	100 6,2	51 9,0	10972 6,4	33722 5,4	12722 6,4	1,16 0,38
9	Şəmkir	10804 19,4	15208 19,5	4554 17,9	19727 21,9	81824 22,9	23142 20,0	5854 23,8	37713 22,1	11236 24,1	455 25,7	4443 22,6	1191 22,6	35 31,0	491 30,7	89 15,7	36875 21,4	139679 22,4	40211 20,3	1,09 0,29
	Cəmi	55716 32,3	77828 12,5	25377 12,8	90213 52,3	367341 59,0	115819 58,6	24569 14,2	158672 25,5	50743 25,2	1888 1,1	17283 2,8	5265 2,7	113 0,1	1601 0,3	569 0,2	172499 19,6	622725 17,9	197773 13,7	**1,15** **0,32**


* _____ ailənin sayı, sahə ha_____
ümumi ailənin və sahənin cəmindən %-lə

Cədvəl 51

Bölgədə məskunlaşan ümumi ailə qrupları (A)
və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)




Şəkil 212




Şəkil 213

Cədvəl 51.1

Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)




Şəkil 214




Şəkil 215

Cədvəl 51.2

Bölgənin rayonlarında məskunlaşan tək ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)
(1-2 nəf.)




Şəkil 216




Şəkil 217

Cədvəl 51.3


Bölgənin rayonlarında məskunlaşan kiçik ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)
(3-5 nəf.)






Cədvəl 51.4

Bölgənin rayonlarında məskunlaşan orta ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)
(6-8 nəf.)




Şəkil 220




Şəkil 221

Cədvəl 51.5

Bölgənin rayonlarında məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)
(9-12 nəf.)




Şəkil 222




Şəkil 223

Cədvəl 51.6

Bölgənin rayonlarında məskunlaşan ən böyük ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)
(12 nəfərdən çox)



Şəkil 224



Şəkil 225

12,8%-indən (25,4 min ha) istifadə edirlər. Torpaq istifadəçiliyində böyük və ən böyük ailələrin xüsusi çəkisi çox cüzidir. Böyük ailələr ümumi mülkiyyətçi ailələrin 1,1%-ni, ən böyük ailələr isə 0,1%-ni təşkil edir. Hazırda özəlləşdirilmiş torpaqların 0,2-2,7%-nin mülkiyyətçiləri olan bu ailələrin sayı və istifadə etdikləri torpaq sahələri ayrı-ayrı rayonlarında çox məhduddur. Bölgədə ən çox torpaq mülkiyyətçisi olan ailələr Şəmkir və Tovuz rayonlarında məskunlaşmışlar. Şəmkir rayonunda bölgə üzrə ümumi mülkiyyətçi ailələrin 21,4%-i (36875 ailə) Tovuz rayonunda isə 19,0%-i (32839 ailə) cəmlənmişdir. Mülkiyyətçi ailələrin ən az məskunlaşdıı Daşkəsən rayonunda 4799 ailə bölgə üzrə özəlləşən torpaq sahəsinin 5,3%-ni (10,5 min ha) əkib-becərir.

Beləliklə, qısa təhlildən aydın olur ki, hazırda özəlləşdirilmiş 197,8 min ha torpaq sahəsinin 172499 ailəni birləşdirən 5 ailə qrupu istifadəçiliyindəki mövcud müxtəlifliyin gələcəkdə hansı ailə qruplarının xeyrinə dəyişəcəyini zaman göstərəcəkdir.Bölgədə torpaq istifadəçiliyinin mövcud vəziyyətini xarakterizə edən parametrlərdən biri də özəlləşən torpaq sahələri ilə yanaşı, dövlət və bələdiyyə mülkiyyətinin kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarından əhalinin geniş istifadə etməsidir. Hazırda bölgədə dövlət, bələdiyyə mülkiyyətinin kənd təsərrüfatına yararlı torpaq ehtiyatları və eləcə də özəlləşdirilmiş torpaq sahələri ilə birlikdə (796,5 min ha) götürüldükdə, regionda torpaq payı almış ailələrin hər biri orta hesabla 4,62 ha torpaq sahəsindən istifadə etmək imkanına malikdirlər. O cümlədən ailələrin istifadə etdikləri suvarılan torpaqlar sahəsi ümumilikdə 1,06 hektar təşkil edir.

III. ŞƏKİ-ZAQATALA TƏBİİ İQTİSADİ-COĞRAFİ BÖLGƏSİ

Bölgə respublikanın şimal-qərbində yerləşir, şimal-qərbdən və cənubdan az bir hissədə Alazan çayı boyu Gürcüstan respublikası, şimaldan Böyük Qafqazın cənub yamacı boyu Göyçay çayının başlanğıcına qədər Dağıstan MR-sı ilə, eləcə də cənubdan Alazan-Həftəran vadisi və Acınohur ön dağlıq hissəsində Samux rayonu və cənub-şərqdə Ağdaş və Göyçay rayonları ilə sərhədlənir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ inzibati rayonlarını əhatə etməklə, ümumi sahəsi 883,5 min ha və ya respublika ərazisinin 10,2%-ni tutur. Relyef əsasən dağlıqdır. Dağlıq ərazi özlüyündə yüksək dağlıq, orta dağlıq və dağətəyi qurşaqlara bölünür. Cənubda dağətəyi qurşağa paralel qərbdən-şərqə doğru Alazan-Həftəran vadisi uzanır. Vadi kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarına görə bölgənin iqtisadiyyatında mühüm rol oynayır.

Bölgədə Acınohur gölü sahilindən təqribən 100 metrdən başlayan yüksək Bazardüzü dağına 4480 m qədər geniş intervalda dəyişməklə ərazinin parçalanmış relyefində çox mürəkkəb formalı olması ilə səciyyələnir. Burada eroziya hadisələrinin geniş yayılması, relyefin əmələ gəlməsində də böyük rol oynayır. Bölgədə tez-tez sel hadisələrinin baş verməsi burada geniş çay şəbəkələrinin yerləşməsi və yamacların böyük meylliyə malik olması və eləcə də yağıntıların yüksək olması səbəb olur.

Beləliklə, ərazidə relyef şəraitinin çox mürəkkəb və kəskin şəkildə şaquli qurşaqlıq üzrə dəyişməsi, burada müxtəlif iqlim tiplərinin əmələ gəlməsinə səbəb olmuşdur. Belə ki, ərazidə yarımsəhra, quru bozqır soyuq və dağlıq tundra iqlim tipləri cənub-qərbdən şimal-şərqə doğru hündürlüyün artması ilə əlaqədar olaraq bütün iqlim ünsürləri qeyri bərabər paylanır. Ərazinin şimal-qərbində Zaqatala meteoroloji məntəqəsinin iqlim göstəricilərinə görə (cədvəl 52, şəkil 226-230) havanın

Cədvəl 52

Bölgənin əsas iqlim göstəriciləri

S/s	Metroloji stansiyalar	İqlim göstəriciləri*	Fəsillər üzrə				İllik	İlin dövrləri	
			Qış	Yaz	Yay	Payız		İsti	Soyuq
1	2	3	4	5	6	7	8	9	10
1	Əlibəy	hava. t-u	3,0	12,6	14,6	6,8	5,7	11,9	0,1
		yağıntı	181	423	405	385	1394	875	519
		hava. nis.rüt.	65	72	70	71	70	72	67
		buxarlanma	94	125	215	145	579	357	222
		torpaq. səth.t-u	-6,0	6,7	19,0	7,7	7,0	14,8	-1,5
2	Zaqatala	hava. t-u	2,1	11,6	22,9	13,4	12,5	19,4	5,6
		yağıntı	126	318	298	294	1036	670	366
		hava. nis.rüt.	77	71	61	75	71	65	77
		buxarlanma	87	191	389	186	850	627	223
		torpaq. səth.t-u	2,0	15,0	28,7	15,0	15,0	24,2	6,2
3	Qəbələ	hava. t-u	0,1	9,6	21,0	12,9	10,6	17,5	4,3
		yağıntı	162	312	236	317	1027	574	453
		hava. nis.rüt.	82	76	66	81	76	70	82
		buxarlanma	63	152	329	136	680	525	155
		torpaq. səth.t-u	-1,0	12,0	26,3	13,0	13,0	21,8	3,7
4	Muğanlı	hava. t-u	1,1	12,0	225	12,8	12,1	19,2	4,9
		yağıntı	72	193	179	178	622	408	214
		hava. nis.rüt.	83	74	72	83	78	74	82
		buxarlanma	86	214	368	172	840	615	225

orta illik temperaturu $12,5^0$ olur. İlin soyuq fəsli qışda $2,1^0$, isti fəslində isə yayda $22,9^0$ olması ilə səciyyələnir. İlin soyuq


* yağıntı və buxarlanma mm-lə, havanın aylıq və torpaq səthinin temperaturu dərəcə ilə, havanın nisbi rütubəti %-lə göstərilmişdir.

dövründə havanın orta temperaturu $5,6^0$-dən yüksək olmadığı halda, isti dövründə bu göstərici $19,4^0$-ə çatır. Ərazinin mərkəzi hissəsində Şəki meteoroloji məntəqəsinin apardığı müşahidələrə görə bu göstəricilər bir qədər fərqlidir. Belə ki, illik havanın orta temperaturu qış fəslində $0,5^0$ və yayda isə $0,2^0$-$0,4^0$ aşağı olması ilə fərqlənir. Ərazinin şərq qurtaracağı Qəbələ şəhərində də müvafiq göstəricilər $0,2^0$-$21,0^0$ arası, hətta havanın illik orta temperaturunda fərq isə Zaqatala ilə müqayisədə $1,9^0$ aşağıdır. Ərazidə düşən yağıntıların miqdarı və paylanma rejimi də xeyli müxtəlifdir.

İllik yağıntı Muğanlı yaşayış məntəqəsində onun 622 mm olduğu halda silsələnin cənub yamacında 1750 m yüksəklikdə yerləşən Əlibəy meteoroloji məntəqəsində 1394 mm düşməsi qeydə alınmışdır. Rəqəmlərdən göründüyü kimi bölgədə düşən yağıntıların miqdarı müəyyən yüksəkliyə doğru getdikcə, bir qayda olaraq artması ilə fərqlənir. Yağıntılar ərazidə ilin dövrləri üzrə qeyri-bərabər paylanmışdır. Maksimum isti dövrdə yağış şəklində düşən yağıntının miqdarı müşahidə məntəqələrinin göstəricilərinə görə 408-875 mm, soyuq dövrdə isə 214-574 mm arasında dəyişir. Bölgədə yağıntıların əsasən isti dövrdə bir çox hallarda leysan xarakteri daşıması ərazidə eroziya prosesinin güclənməsinə və sel daşqınlarının əmələ gəlməsinə səbəb olur. Havanın orta illik nisbi rütubətliyi ayrı-ayrı məntəqələr arasında 70-79% arasında dəyişir. Səth örtüyündən rütubətin buxarlanması da xeyli müxtəlifdir. Ərazidə ən çox səthi mümkün buxarlanma quru bozqır zonada yerləşən Muğanlı meteroloji məntəqəsində qeydə alınmışdır.


Digər iqlim ünsürlərinin göstəriciləri kimi bölgədə torpaq örtüyünün səth temperaturu da ərazinin relyef quruluşundan, bitki örtüyündən, torpağın qranulometrik tərkibindən və s. amillərdən asılı olaraq dəyişikliklərə uğrayır. Belə ki, torpaq sahətinin orta illik temperaturu Əlibəy metroloji məntəqəsində $7,0^0$ təşkil etdiyi halda Qəbələ və Zaqatalada bu rəqəm 13-15^0-yə qədər yüksəlir. Hətta ilin soyuq dövründə bu göstərici dağlıq ərazidə - $1,5^0$-yə düşür və eyni vaxtda dağətəyi ərazidə

Cədvəl 52




Şəkil 226

Cədvəl 52.1



Əlibəy
Yağıntı (mm)
181
423
405
385
1394
875
519
Zaqatala
126
318
298
294
1036
670
366
Qəbələ
162
312
236
317
1027
574
453
Muğanlı
72
193
179
178
622
408
214
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 227

Cədvəl 52.2


Əlibəy **Havanın orta nisbi rütubətliyi %**




Zaqatala



Qəbələ




Muğanlı




Qış | Yay | İllik | Soyuq dövr

Yaz | Payız | İsti dövr | **Şəkil 228**

Cədvəl 52.3


Əlibəy
Səth örtüyündən buxarlanma (mm)
94
125
215
145
579
357
222
Zaqatala
87
191
389
186
850
627
223
Qəbələ
63
152
329
136
680
525
155
Muğanlı
86
214
368
172
840
615
225
Qış
Yaz
Yay
Payız
İllik
İsti dövr
Soyuq dövr
Şəkil 229

Cədvəl 52.4


Əlibəy
Torpaq səthinin orta temperaturu C⁰
-6.0
6.7
19.0
7.7
7.0
14.8
-1.5
Zaqatala
2.0
15.0
28.7
15.0
15.0
24.2
6.2
Qəbələ
-1.0
12.0
26.3
13.0
13.0
21.8
3.7
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 230

müsbət 3,7^0-dən aşağı enmir. Eləcə də oxşar cəhətlər torpaq səthinin temperaturunun dəyişməsi dinamikasında da müşahidə edilir.

Beləliklə, yuxarıda təsvir etdiyimiz qurşaqlarda relyef və iqlim şəraitindən asılı olaraq müxtəlif bitki örtüyü formalaşmışdır. Alazan-Həftəran vadisinin cənubunda yerləşən Acınohur bozqır ön dağlığı quru çöl və yarımsəhra bitkiləri, kserofit kolluqlar yayılmışdır. Qax və Şəki rayonları ərazisini əhatə edən Acınohur çölü qış otlaqları kimi istifadə olunur. Cənubdan Acınohur ön dağlığı ilə əhatələnən və mahiyyətcə dağarası çökəklikdən ibarət olan Alazan-Həftəran vadisinin bitki örtüyü kol və çəmən bitkilərindən təşkil olunmuşdur. Meşələrdə cır yabanı meyvələr (alma, alça, əzgil, zoğal və s.) yetişir. Vadinin ərazisi kənd təsərrüfatında geniş istifadə olunduğundan təbii bitki örtüyü zəif inkişaf etmişdir. Vaxtilə vadidə geniş yayılmış və keçilməz aran meşələri zaman keçdikcə antropogen təsirlərə məruz qalaraq çox sahədə qırılmış və torpaqları əkinçilikdə istifadə edilməyə başlanmışdır. Bəzi yerlərdə talalar şəklində qorunub saxlanmış meşə örtüyü hazırda dövlət meşə fonduna aiddir. Bölgədə Böyük Qafqazın bu hissəsinin dağ yamaclarında enliyarpaqlı meşələr də geniş yayılmışdır.

Ərazidə aşağı meşə qurşağı dəniz səviyyəsindən 500-600 m-dən 900-1000 m-ə kimi yüksəkliklərdə yerləşir. Antropogen təsirli zonada yerləşən seyrəkağaclı bu meşələrdə vələs, palıd ağacları ilə yanaşı, kol bitkilərindən, yemişan, əzgil, qaramurdarça, zoğal, alça, fındıq və s. yayılmışdır.

Orta dağlıq qurşaqda kollar əsaslı şəkildə azalır və fıstıq ağacının üstünlüyü müşahidə olunur. Arealı əsasən 1000-1700 metri əhatə edən mezofil fıstıq meşəliyinə Qafqaz vələsi və cökə ağaclarının bəzi növləri də qarışır.

Yuxarı dağ meşələri 1700-2200, 2400 m hündürlüklərdə yayılır. Bu meşəliklər seyrək, alçaq boylu və ot örtüyünün yaxşı inkişaf etməsil ilə səciyyələnir. Cənub yamaclarda əsasən palıd, şimal yamaclarda isə palıd fıstıq qarışığı olan meşə-

lər yayılmışdır. Bəzən fıstıq ağac növü tozağacı, quşarmudu və ağcaqayınla əvəz olunur.

Bölgənin dağ meşələrində böyük təsərrüfat əhəmiyyəti olan ağac cinsləri ilə yanaşı, alma, armud, qoz, fındıq, şabalıd, zoğal, əzgil, alça, yemişan və s. yabanı meyvə ağacları da geniş yayılmışdır. Eləcə də bölgənin dağ meşələrində əczaçılıq sənayesi üçün çox qiymətli dərman bitkiləri də diqqəti cəlb edir. Bölgənin yüksək dağlıq qurşağı subalp və alp çəmənliklərindən ibarətdir. Subalp çəmənlikləri növ etibarilə zəngin, hündürboylu və əsasən çoxillik bitkilərdən təşkil olunmuşdur. Subalp qurşağının nəmli şimal yamaclarında müəyyən sahələrdə həmişəyaşıl Qafqaz rododendronuna təsadüf edilir. Bitki növləri başlıca olaraq hündürboylu yabanı taxıl və otlardan ibarət olan subalp çəmənlikləri 2500, 2600 m yüksəkliklərdə əsl alp bitkiləri ilə əvəz olunur. Onlar çim əmələ gətirərək «xalı» şəklində torpağa yapışır. Odur ki, bunları alp xalıları da adlandırırlar. Alp çəmən bitkiləri boyca çox qısa, növləri azdır. Ərazinin daimi qarla örtülü olan yüksəkliklərində mamır və şibyələrin müxtəlif növləri yayılmışdır. Burada yalnız az miqdarda dağ süxurlarına və ya aşınmış süxur qırıntıları arasında inkişaf edən seyrək alçaq boylu otlara rast gəlinir.

Alp çəmənləri qoyun sürüləri üçün ən qiymətli və yararlı otlaq sayılır. Bölgənin yaylaqlarının əksəriyyətinin mövcud vəziyyəti çox pis durumdadır. Belə ki, yay otlaqlarının bioloji məhsuldarlığı ilbəil azalır. Ot örtüyünün geobotaniki tərkibində pisləşmə baş verməkdədir. Eroziyaya uğramış sahələrin arealının ildən-ilə genişlənməsi davam edir.

Beləliklə, yuxarıda təsvir etdiyimiz qurşaqlarda ərazinin relyef və iqlim şəraitindən asılı olaraq yaranmış bitki örtüyü burada torpaqların üfüqi zonallıq qanunu üzrə yayılmasını da müəyyən etmişdir. O qədər də böyük torpaq ehtiyatlarına malik olmayan bölgənin torpaq örtüyünün tərkibi (cədvəl 53, xəritə-sxem 4, şəkil 231) müxtəlif tip və yarımtip torpaqlardan ibarətdir.

Cədvəl 53

Bölgənin torpaq örtüyünün tərkibi


Kontur №-si	Tip və yarımtiplər	Sahə	
		ha	%
1	2	3	4
1	İbtidai və torflu dağ-çəmən	37092	4,2
2	Çimli dağ-çəmən	40778	4,6
4	Bozqır dağ-çəmən	12576	1,4
5	Çəmənləşmiş dağ-meşə	5938	0,7
6	Tipik qonur dağ-meşə	153681	17,4
7	Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə	89506	10,1
12	Yuyulmuş qəhvəyi dağ-meşə	31472	3,6
13	Tipik qəhvəyi dağ-meşə	6606	0,7
14	Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə	3394	0,4
15	Yuyulmuş və tipik dağ-qara	6872	0,8
16	Karbonatlı dağ-qara	22790	2,6
18	Açıq dağ boz-qəhvəyi	18110	2,0
19	Tünd və adi dağ şabalıdı	6032	0,7
20	Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ şabalıdı	7745	0,9
21	Tipik və karbonatlı çəmən-qəhvəyi	41735	4,7
24	Tünd və adi şabalıdı	23747	2,7
25	Qismən qalıq şorlaşmış açıq şabalıdı	46979	5,3
29	Tipik boz	4988	0,6
30	Açıq və ibtidai boz	7375	0,8
34	Qismən şorakətli və şoranlı bozumtul və boz-qonur	7002	0,8
35	Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə	171138	19,4
36	Subasar-allüvial-çəmən	69682	7,9
37	Çəmən-bataqlı və bataqlıq	3944	0,4
38	Şoranlar (delüvial, allüvial və sopkalı)	6795	0,8
43	Çınqıllı-daşlı çay yataqları	23981	2,7
44	Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	33533	3,8
	Cəmi	**883491**	**100**

Torpaq ehtiyatlarının 54%-ə(476,1 min ha) qədəri dağlıq ərazidə 46,0%-i(407,4 mn ha) düzən və xüsusilə Alazan-

Həftəran vadisində yayılmışdır. Bölgənin ümui torpaq fondunun təqribən 30,0%-i (291,0 min ha) dağ-meşə torpaqlarından ibarətdir. Burada yayılma arealına görə qonur dağ-meşə torpaqlarının tip və yarımtipləri daha geniş sahələri tutur. Çəmənləşmiş dağ-meşə torpaqları ilə birlikdə qonur meşə torpaqlarının sahəsi 249,1 min ha və ya ümumi dağlıq ərazidə yayılmış torpaqların 52,3%-ni təşkil edir. Nisbətən məhdud ərazilərdə yayılmış qəhvəyi dağ-meşə torpaqlarının tip və yarımtipləri bölgənin meşə torpaq fondunun 8,7%-nə (41,5 min ha) bərabərdir.

Kənd təsərrüfatında xüsusilə qoyunçuluq inkişafında böyük əhəmiyyəti olan bölgənin yüksək dağlıq qurşağında yayılmış subalp və alp çəmənliklərinin müxtəlif tip və yarımtip çəmən torpaqları, dağ torpaqlarının 10,3%-ni (120,5 min ha) əhatə edir. Bu qurşaqda özünə məxsus təbii landşaft yaradan çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif növ suxurlar dağlıq ərazinin torpaq fondunun təqribən 4,0%-ni (33,5 min ha) tutur.

Bölgədə taxılçılığın, meyvəçiliyin, baramaçılığın, heyvandarlığın və digər kənd təsərrüfatı sahələrinin inkişafında geniş istifadə olunun və potensial münbitliyi ilə səciyyələnən dağqara, dağ boz-qəhvəyi və dağ-şabalıdı torpaqların yayılmış tip və yarımtipləri isə dağ torpaq fondunun təqribən 7,0%-ə qədərini (61,6 min ha) təşkil edir. Böyük təsərrüfat əhəmiyyəti olan düzən zonada və xüsusilə Alazan-Həftəran vadisində isə bölgənin ümumi torpaq ehtiyatlarının 46%-i (407,4 min ha) yerləşir. Ərazidə yayılmış çəmən-qəhvəyi, şabalıdı, boz, bozqonur allüvial-çəmən, çəmən-bataqlı torpaqların müəyyən hissəsi hazırda bölgənin kənd təsərrüfatında geniş istifadə olunur. Bu torpaqların digər hissəsi isə ötən dövr ərzində təbii və antropogen proseslərin mənfi təsirlərinə - şorlaşma, şorakətləşmə, bataqlaşma, eroziya, sürüşmə və s. hallara məruz qalmışdır. Nəticədə, ümumi meliorativ vəziyyəti pisləşmiş torpaqlarda münbitlik xassələri itirildiyindən kənd təsərrüfatı dövriyyəsindən kənarlaşdırılmışdır.


ŞƏKİ-ZAQATALA BÖLGƏSİNİN
TORPAQ XƏRİTƏ-SXEMİ
1 : 600 000
BAŞ QAFQAZ SIRA DAĞLARI
3648 Qutan d.
Axvay d. 3841
Bozazdüzü d.
Xəritə-sxem 5

Torpaqlar

1 İbtidai və torflu dağ-çəmən
2 Çimli dağ-çəmən
4 Bozqır dağ-çəmən
5 Çəmənləşmiş dağ-meşə
6 Tipik qonur dağ-meşə
7 Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə
12 Yuyulmuş qəhvəyi dağ-meşə
13 Tipik qəhvəyi dağ-meşə
14 / / Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə
15 Yuyulmuş və tipik dağ-qara
16 / / Karbonatlı dağ-qara
18 Açıq dağ boz-qəhvəyi
19 Tünd və adi dağ-şabalıdı
20 Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ-şabalıdı
21 Tipik və karbonatlı çəmən-qəhvəyi
24 Tünd və adi şabalıdı
25 Qismən qalıq şoranlaşmış açıq şabalıdı
29 Tipik boz
30 Açıq və ibtidai boz
34 Qismən şoraketli və şoranlı bozumtul və boz-qonur
35 Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə
36 Subasar allüvial-çəmən
37 Çəmən bataqlıq və bataqlıq
38 Şoranlar (dellivial, allüvial, soqlaqlı)
43 Dağlıq-çınqıllı çay yatağları
44 Çılpaq qayalıqlar və sellə çınmış müxtəlif süxurlar

Granulometrik tərkib

Gilli
Ağır gilliəli
Orta gilliəli
Yüngül gilliəli
Qumsal
Qumlu

Şoranlaşma

Şoranlaşmayan
· Zəif şoranlaşmış
· · Orta şoranlaşmış
⋰ Şiddətli şoranlaşmış

Eroziyaya uğrama


Eroziyaya uğramayan
V Zəif eroziyalı
N Orta eroziyalı
W Şiddətli eroziyalı

\\\ Suvarılan torpaqlar

Dövlət sərhədi
Rayonların inzibati sərhədi

Cədvəl 53

Bölgənin torpaq örtüyünnün tərkibi (ha/%)



Şəkil 231

Xüsusən qış otlaqları kimi geniş istifadə edilən Acınohur çölünün şabalıdı, boz, boz-qonur torpaqlarının şoran, şorakətli və eləcə də qobu və yarğan eroziyasına məruz qalmış sahələrin arealının genişlənməsi buna əyani misaldır.

Hazırda bölgənin ümumi torpaq ehtiyatlarının 45,7%-i (403,4 min ha) bütünlüklə kənd təsərrüfatına yararlı olduğundan dövriyyəyə cəlb edilmişdir (cədvəl 54, şəkil 232-237). Bunun 44,8%-i (180,9 min ha) əkin və dincə qoyulmuş torpaqlar əhatə edir. Çoxillik əkmələr altında becərilən torpaqlar isə 10,3%-ə (41,4 min ha) çatır. Bölgənin kənd təsərrüfatı dövriyyəsində olan torpaqların ən çox hissəsini təqribən 39,8%-ə (160,8 min ha) qədərini örüş və otlaq sahələrinin torpaqları tutur. Hazırda əkin sahələri kimi becərilən həyətyanı torpaqların ümumi kənd təsərrüfatına yararlı torpaqların 4,7%-ni

Cədvəl 54


Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatına yararlı sahələr						K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Örüş və otlaqlar	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Balakən	93447 10,6	18011 50,6	6193 17,4	203 0,6	8630 24,2	2557 7,2	35594 38,1	46374 49,6	11479 12,3
	o.c.suv.	6823 6,3	4358 63,9	1777 26,0	-	-	688 10,1	6823 16,3	-	-
2	Qax	149380 16,9	19874 29,8	6702 10,1	-	38183 57,3	1871 2,8	66630 44,6	43751 29,3	38999 26,1
	o.c.suv	19706 18,3	14523 73,4	4570 23,2	-	-	613 3,1	19706 31,1	-	-
3	Qəbələ	154850 17,5	26705 46,6	11124 19,5	537 0,9	17045 29,8	1841 3,2	57252 37,0	50255 32,5	47343 30,6
	o.c.suv	15924 14,8	10589 66,5	4549 28,6	-	-	786 4,9	15924 17,4	-	-
4	Zaqatala	134800 15,2	26078 45,0	7899 13,6	413 0,7	17695 30,5	5894 10,2	57979 43,0	51247 38,0	25574 19,0
	o.c.suv	15562 14,6	11068 71,1	3109 20,0	-	-	1385 8,9	15562 19,2	-	-
5	Oğuz	107739 12,2	20637 53,5	2418 6,3	40 0,1	13090 33,9	2405 6,2	38590 35,8	40891 38,0	28258 26,2
	o.c.suv	10458 9,7	7697 44,9	1370 13,1	-	-	1391 13,3	10458 22,3	-	-
6	Şəki	243275 27,6	69596 47,2	7069 4,8	229 0,1	66134 44,9	4356 3,0	147384 60,6	40160 16,5	55731 22,9
	o.c.suv	38980 36,3	30434 78,1	4329 11,1	-	1832 12,4	2385 6,1	38980 27,0	-	-
	Cəmi	**883491 10,2**	**180901 44,8**	**41405 10,3**	**1422 0,3**	**160777 39,8**	**18924 4,7**	**403429 45,7**	**272678 30,9**	**207384 23,4**
	o.c.suv.	**107453 7,5**	**78669 73,2**	**19704 18,3**	-	**1832 1,7**	**7248 6,8**	**107453 26,6**	-	-

(19,0 min ha) təşkil edir. Meşə örtüyü altında olan torpaqlar ərazinin 30,9%-ni (272,7 ha) tutur. Kənd təsərrüfatında istifadəsi qeyri-mümkün sayılan sair torpaqlar ümumi torpaq fondunun 23,4%-ni (207,4 min ha) əhatə edir.

Cədvəl 54

Bölgənin ümumi torpaq fondunun rayonlar üzrə paylanma strukturu (ha/%)




Balakən Qəbələ Oğuz
Qax Zaqatala Şəki

Şəkil 232

Cədvəl 54.1

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)




Balakən Qəbələ Oğuz
Qax Zaqatala Şəki

Şəkil 233


Cədvəl 54.2

Bölgənin ümumi torpaq fondunun əsas tərkib hissəsi (ha/%)




Cədvəl 54.3

Bölgənin kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Cədvəl 54.4

Bölgənin yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Cədvəl 54.5

Bölgənin ümumi suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Xüsusilə, dağ çaylarının subasarlarında geniş əraziləri əhatə edən təqribən 150-200 min hektara yaxın daşlı-çınqıllı şərti yararsız «torpaq» ehtiyatları var. Çay subasarlarının istifadə imkanları 1990-95-ci və sonrakı illərdə Azərbycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi əməkdaşları tərəfindən (B.Cəfərov, 1995) Zaqatala rayonunda öyrənilmişdir. Belə ki, rayonun Yuxarı Çardaxlar kəndi yaxınlığından axan Muxax çayın subasarında 50 ha daşlı-çınqıllı sahəni kənd təsərrüfatına yararlı hala salmaq sahəsində onların apardıqları sınaq təcrübəsinin müsbət nəticələri göz qabağındadır. Hazırda həmin sahələr özəlləşdirilərək kənd əhalisinin mülkiyyətinə verilmişdir. Gələcəkdə daşlı-çınqıllı çay subasarlarının yararlı əkin sahələrinə çevrilməsi, yararlı torpaq ehtiyatı tükənmiş bu və digər bölgələr üçün böyük əhəmiyyət kəsb edir. Regionda bitkiçilik məhsullarının istehsalı əsasən sahəsi 105,6 min hektara çatan suvarılan torpaqlardan əldə edilir. Hazırda kənd təsərrüfatına yararlı torpaqların 26,6%-ni suvarılır. Bunun 73,2%-ni əkin və 9,8%-ni çoxillik əkmələr becərilən suvarılan torpaqlar təşkil edir. Örüş və otlaq sahələrinin az bir hissəsi, yəni 1,7%-i (1,8 min ha) suvarılır.

Bölgədə ümumi torpaq örtüyünün formalaşmasına güclü təsir göstərən təbii və antropogen proseslər kənd təsərrüfatında uzunmüddət istifadə olunan torpaqların keyfiyyət parametrlərinə də təsirsiz qalmamışdır.

Bu bölgənin torpaq ehtiyatlarının keyfiyyət qrupları üzrə paylanma dinamikasında özünü göstərir (cədvəl 55, şəkil 238-242). Belə ki, kənd təsərrüfatına yararlı torpaq sahələrinin yalnız 14,3%-i (57,5 min ha) yüksək keyfiyyətli torpaqlardan ibarətdir. Bunun da 32,9%-ni (18,9 min ha) həyətyanı sahələrin torpaqları təşkil edir. Bölgədə həyati əhəmiyyət daşıyan əkin və dincə qoyulmuş torpaqların cüzi bir hissəsinin, yəni təqribən 10,0%-ə (18,0 min ha) yaxın və onun əsas kütləsinin III və III keyfiyyət qrupunda yer alması bu torpaqların meliorativ durumnun qeyri-kafi istifaqamətə dəyişdiyini göstərir.


Cədvəl 55

Bölgənin ümumi kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması (ha/%)

Ümumi sahə	Bonitet şka-lası	Keyfiy-yət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
							kəndyanı	qış	yay	
	100-81	I	17986 31,3	8516 14,8	286 0,5	18924 32,9	8877 15,4	1217 2,1	1721 3,0	57527 14,3
	80-61	II	80920 57,1	16782 11,8	742 0,5	-	25225 17,8	10300 7,3	7825 5,5	141794 35,1
	60-41	III	80105 46,6	15131 8,8	387 0,2	-	46160 26,9	18600 10,8	11395 6,6	171778 42,6
	40-21	IV	1890 5,9	976 3,0	7 0,02	-	17987 55,6	6416 19,9	5054 15,6	32330 8,0
	20-1	V	-	-	-	-	-	-	-	-
883491	**100-1**	**I-V**	**180901 44,8**	**41405 10,3**	**1422 0,3**	**18924 4,7**	**98249 24,3**	**36533 9,2**	**25995 6,4**	**403429 45,7**

Cədvəl 55


Bölgənin kənd təsərrüfatına yararlı torpaqlarının keyfiyyət qrupları üzrə paylanması (ha/%)



Şəkil 238

Cədvəl 55.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 239


Cədvəl 55.2

II keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)




Cədvəl 55.3

III keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Cədvəl 55.4

IV keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Çoxillik əkmələr becərilən torpaqların 40,5%-nin yaxşı keyfiyyət qrupunda cəmlənməsi bu torpaqların münbitlik xassələrinin əkin və dincə qoyulmuş torpaqlara nisbətən yaxşı vəziyyətdə olduğuna dəlalət edir. Biçənək torpaqlarında da tənəzzül proseslərinin müəyyən əlamətləri müşahidə edilməkdədir. Əslində sahəsi o qədər də geniş olmayan, biçənək torpaqları yüksək keyfiyyət qrupunda yer tutmalı idi. Lakin biçənək torpaqlarına digər torpaq sahələrin də olduğu kimi lazımı qayğı göstərilmədiyindən orta keyfiyyət qrupunda 27,2 %-ə (0,4 min ha) çatır. Transferlik dinamikası örüş və otlaq sahələrində daha ciddi xarakter almışdır. Belə ki, kəndyanı örüş torpaqlarının intensiv istismarı nəticəsində 98,2 min hektara yaxın ümumi örüş sahəsinin 65,3%-i (64,1 min ha) III və IV keyfiyyət qrupuna transfer olmuşdur. Eləcə də bu hal yay və qış otlaqlarının keyfiyyət qrupunun paylanması dinamikasında da özünü büruzə verməkdədir. Yay və qış otlaqlarının ümumi sahəsinin yalnız 4,5%-ə qədəri birinci (2,9 min ha),

28,8%-i (18,0 min ha) isə ikinci keyfiyyət qrupunda yer tutmuşdur. Qalan 66,7%-ə qədəri (41,6 min ha) isə III və IV keyfiyyət qrupuna transfer olması otlaq torpaqlarında güclü tənəzzül prosesinin baş verdiyini göstərir. Bölgənin ayrı-ayrı rayonlarında kənd təsərrüfatı sahələrin keyfiyyət qrupunda transferlik dinamikası qeyri sabitliyi ilə səciyyələnir. Xüsusilə örüş və otlaqlarda transferlik daha güclü və intensiv baş verməkdədir (cədvəl 56).

Beləliklə, bölgədə kənd təsərrüfatına yararlı torpaqlarda mövcud olan keyfiyyət qrupları arasında transferlik dinamikası sabit saxlamaqla yanaşı onların geriyə doğru, yəni (4→3→2→1) IV-III-ə, III-II-ə və II-I-ə əsaslı aqromeliorativ tədbirlər həyata keçrirməklə müsbət istiqamətə hərəkəti təmin edilməlidir. Bunun üçün ilk növbədə torpaq münbitliyinin artırılması sahəsində geniş miqyaslı lazımi aqromeliorativ tədbirlərin həyata keçirilməsinə başlanılmalıdır. Bununla torpaqların ayrı-ayrı keyfiyyət qruplarında təbii münbitliyinin azalmasının və onların yararsız torpaqlara çevrilməsinin qarşısını almaq mümkündür.

Cədvəl 56

Bölgənin rayonlarında kənd təsərrüfatı sahələri torpaqlarının rayonlar üzrə paylanmış keyfiyyət qrupları (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
					Əkin dinc	Çoxillik	Biçənək	Həyətyanı	Öürş və otlaqlar			Cəmi
									kəndyanı	qış	yay	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Balakən		100-81	I	1386 7,7	463 7,5	20 9,8	2557 48,4	679 9,2	-	177 12,4	5287 14,8
			80-61	II	7493 42,6	2863 46,0	85 42,0	-	3168 42,9	-	635 44,5	14244 40,0
			60-41	III	8483 47,0	2525 41,0	91 45,0	-	2422 32,7	-	436 30,6	13957 39,2
			40-21	IV	649 2,7	342 5,5	7 3,2	-	935 12,6	-	178 12,5	2111 6,0
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**93447 10,6**	**100-1**	**I-V**	**18011 50,6**	**6193 17,4**	**203 0,6**	**2557 7,2**	**7204 20,2**	-	**1426 4,0**	**35594 38,1**
2	Qax		100-81	I	1918 9,7	426 6,0	-	1871 31,0	415 5,0	865 4,3	593 6,0	6038 9,2
			80-61	II	4551 23,0	1888 28,0	-	-	3140 37,9	7650 38,3	3777 38,2	21006 31,5
			60-41	III	13336 67,0	4351 6,5	-	-	3576 43,1	8570 42,9	4164 42,0	33997 51,0
			40-21	IV	69 0,3	37 0,6	-	-	1166 14,0	2893 14,5	1374 13,8	5539 8,3
			20-1	V	-		-	-	-	-	-	-
	Cəmi	**149380 16,9**	**100-1**	**I-V**	**19874 29,8**	**6702 10,1**	-	**1871 2,8**	**8297 12,4**	**19978 30,0**	**9908 14,9**	**66630 44,6**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
3	Qəbələ		100-81	I	5722 21,0	6168 55,0	188 35,0	1841 11,2	1358 10,3	-	317 8,3	15594 27,3
			80-61	II	13073 49,0	4336 39,0	346 64,0	-	3566 27,0	-	610 16,0	21931 38,3
			60-41	III	7418 28,0	523 5,0	3 1,0	-	5618 42,5	-	1565 41,0	15127 26,4
			40-21	IV	492 2,0	97 1,0	-	-	2686 20,2	-	1325 34,7	4600 8,0
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**154850 17,5**	**100-1**	**I-V**	**26705 46,6**	**11124 19,1**	**537 0,9**	**1841 3,2**	**13228 23,1**	-	**3817 6,7**	**57252 37,0**
4	Zaqatala		100-81	I	1356 5,0	763 10,0	52 12,5	5894 69,2	335 2,8	-	120 2,0	8520 14,7
			80-61	II	12726 49,0	3165 40,0	199 48,0	-	2939 24,9	-	1120 19,0	20149 34,7
			60-41	III	11631 45,0	3671 46,0	162 39,5	-	5599 47,4	-	3170 54,0	24233 41,8
			40-21	IV	365 1,0	300 4,0	-	-	2942 24,9	-	1470 25,0	5077 8,8
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**134800 15,2**	**100-1**	**I-V**	26078 45,0	7899 13,6	413 0,7	5894 10,2	11815 20,4	-	5880 7,2	57979 43,0
5	Oğuz		100-81	I	4333 21,0	491 20,0	15 37,0	2405 18,8	5123 45,0	-	446 26,0	12813 33,2
			80-61	II	14239 69,0	1200 50,0	20 50,0	-	5274 46,3	-	1179 69,0	21912 56,8
			60-41	III	1960 9,5	527 22,0	5 13,0	-	984 8,6	-	84 5,0	3560 0,8
			40-21	IV	105 0,5	200 8,0	-	-	-	-	-	305 0,8
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**107739 12,2**	**100-1**	**I-V**	**20637 53,4**	**2418 6,3**	**40 0,1**	**2405 6,2**	**11381 29,5**	-	**1709 4,5**	**38590 35,8**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
6	Şəki		100-81	I	3271 5,0	205 3,0	11 5,0	4356 47,2	967 2,1	352 2,1	68 2,0	9230 6,3
			80-61	II	28838 41,0	3330 47,0	92 40,0	-	7138 15,4	2650 16,0	504 15,0	42552 28,9
			60-41	III	37277 53,0	3534 50,0	126 55,0	-	27961 60,4	10030 60,6	1976 61,0	80904 54,8
			40-21	IV	210 1,0	-	-	-	10258 22,1	3523 21,3	707 22,0	14698 10,0
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**243275 27,5**	**100-1**	**I-V**	**69596 48,2**	**7069 41,9**	**229 0,1**	**4356 3,0**	**46324 31,5**	**16555 11,2**	**3255 2,2**	**147384 60,6**

Bölgədə torpaqların mövcud meliorativ vəziyyətinə dair əldə etdiyimiz bəzi məlumatlar ərazidə kənd təsərrüfatına yararlı sahələrin keyfiyyətində müşahidə edilən pisləşməyə doğru meylin yüksək olduğunu bir daha təsdiq edir (cədvəl 57, şəkil 243-245).


Cədvəl 57

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə meliorativ vəziyyətinə dair bəzi göstəricilər (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Balakən	6823 6,3	-	4473 65,5	2350 34,4	4020 58,8	2060 30,2	743 10,9	3330 48,8	3230 47,3	263 2,3
2	Qax	19706 18,3	380 1,9	5996 30,4	13330 67,6	19706 100	-	-	6920 35,1	8956 45,4	3830 19,4
3	Oğuz	10458 9,7	185 1,8	1223 11,7	9050 86,5	10458 100	-	-	7229 69,1	2100 20,1	1129 10,8
4	Şəki	38980 36,3	804 2,1	19876 51,0	18300 46,9	31515 80,8	6600 16,9	865 2,3	14114 36,2	20600 52,8	4266 1,5
5	Zaqatala	15562 14,5	380 2,4	4332 27,8	10850 69,7	11810 75,9	2435 15,6	1317 8,5	5929 38,1	6330 40,7	3303 21,2
6	Qəbələ	15924 14,8	235 1,5	980 6,1	14709 92,4	15924 100	-	-	14365 90,2	1559 9,8	-
	Cəmi	**107453** **7,6**	**1984** **1,8**	**36880** **34,4**	**68589** **63,8**	**93433** **86,9**	**11095** **10,3**	**2925** **2,8**	**51887** **48,3**	**42775** **39,8**	**12791** **11,9**

Cədvəl 57


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 243

Cədvəl 57.1


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 244

Cədvəl 57.2

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Bölgədə suvarılan torpaqların mövcud meliorativ vəziyyətini əks etdirən əsas göstəricilərdən biri də qrunt sularının dərinliyinə və onların minerallaşma dərəcəsinə görə suvarılan torpaq sahələrinin qiymətləndirilməsidir.

Suvarılan torpaqların meliorativ vəziyyətinin qiymətləndirilməsində əsas götürülmüş qrunt sularının dərinliyə görə paylanması xeyli müxtəlifdir. Suvarılan torpaqların az bir hissəsi, yəni təqribən 2,0 min hektarının və ya 1,8%-nin qrunt sularının 1 m-dən az, yəni təhlükəli dərinlikdə yayıldığı sahələrdə yerləşmişdir. Suvarılan torpaqların 36,9 min hektarı və ya 34,3%-i qrunt sularının səviyyəsinin 1,0-3,0 m dərinlikdə yerləşdiyi ərazilərdə yayılmışdır. Qrunt sularının səivyyəsinin 3,0 m-dən çox dərinlikdə olan sahələrdə isə suvarılan torpaqların 68,6 min hektarı və ya 63,8%-i paylanmışdır. Təhlükəli, yəni qrunt sularının 1 m-dən az dərinlikdə yerləşən suvarılan torpaqları ən çox Şəki rayonunda (0,8 min ha) rast gəlinir. Digər rayonlarda bu göstəricilər o qədər də böyük deyildir və 185-

380 ha arasında dəyişir. Qrunt sularının minerallaşma dərəcəsinin paylanma göstəriciləri də müxtəliflik mövcuddur.

Burada bölgənin suvarılan torpaqlarının 86,9%-i (93,4 min ha) minerallaşma dərəcəsi 1 q/l-dən az olan, qrunt sularının paylandığı əraziləri əhatə edir. Minerallaşma dərəcəsi zəif və orta təhlükəli (1,0-3,0 ql) və təhlükəli (3,0 q/l çox) sayılan qrunt sularının paylandığı sahələrdə 1-ci halda suvarılan sahələrin 10,3%-i (11,1 min ha) təşkil etməklə Balakən, Şəki və Zaqatala raoynlarında yayılmışdır. İkinci halda, təhlükəli vəziyyət eynən Balakən, Şəki və Zaqatala rayonlarının suvarılan torpaq sahəsinin 2,8%-ində müşahidə olunur.

Qeyd edilən göstəricilərə görə ərazidə suvarılan torpaqlar üç: yaxşı, kafi və qeyri-kafi qruplara bölünür. Burada suvarılan torpaqların 51,9 min hektarı və ya ümumi suvarılan sahələrin 48,3%-i qeyd olunan parametrlərə görə yaxşı, 42,8 min hektarı və ya 39,8%-i kafi və 12,8 min hektarının və ya 11,9%-nin qeyri-kafi meliorativ vəziyyətdə olması ilə səciyyələnir. Bölgənin ayrı-ayrı rayonlarında bu göstəricilərin kəmiyyəti müxtəlifdir. Belə ki, suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşı (14,4 min ha) və kafi (1,6 min ha) olması Qəbələ rayonunda müəyyən olunmuşdur. Meliorativ vəziyyəti qeyri kafi qiymətləndirilən suvarılan torpaqların ən çox Şəki, Zaqatala və Qax rayonlarında yayılmışdır.

Zaqatala rayonunda suvarılan torpaqların 21,2%-i (3,3 min ha), Qax rayonunda isə həmin rəqəm 19,4%-ə (3,8 min ha) çatır. Yaxşı keyfiyyət qrupu suvarılan torpaqları ən çox yayıldığı Qəbələ rayonunda 90,2% və Oğuz rayonunda isə 69,1% təşkil edir. Meliorativ vəziyyəti kafi qiymətləndirilən suvarılan torpaq sahələri Şəki rayonunda 20,6 min ha olmaqla rayon üzrə ümumi suvarılan torpaqların 52,8%-nə bərabərdir. Qax və Balakən raoynlarında bu göstəricilər 45,4-47,3% arasında dəyişir.

Bölgənin suvarılan torpaqlarında son illərdə meliorativ vəziyyətin pisləşməsi nəticəsində suvarılan ərazilərin 35,1%-də (5,0 min ha) təkrar şorlaşma baş vermişdir (cədvəl 58, şəkil

246-248). Bunun başlıca səbəbi isə ərazidə şor qrunt sularının axımını təmin edə biləcək təbii drenləşmə şəraitinin olmamasıdır.

Cədvəl 58

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə şorlaşma və drenləşmə durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi					Drenləşmiş sahələr	
			şorlaş-mayan	cəmi şorlaş-mış	o cümlədən			cəmi	o cüm. örtülü
					zəif	orta	şid-dətli		
1	2	3	4	5	6	7	8	9	10
1	Balakən	6823 6,3	5200 76,2	1623 23,8	1130 69,6	323 19,9	170 10,5	-	-
2	Qax	19706 18,3	8256 41,9	11450 58,1	7900 69,0	1350 11,8	2200 19,2	-	-
3	Oğuz	10458 9,7	6758 64,6	3700 35,4	2500 67,6	1060 28,6	140 3,8	500 4,5	-
4	Şəki	38980 36,3	17965 46,1	21015 53,9	16000 76,1	1815 8,6	3200 15,2	1250 3,2	100 0,3
5	Zaqatala	15562 14,5	5248 33,7	10314 66,3	8100 78,5	514 5,0	1700 17,8	1100 7,1	-
6	Qəbələ	15924 14,8	12830 80,6	3094 19,4	2125 68,7	969 31,3	-	-	-
	Cəmi:	**107453 7,6**	**56257 52,4**	**51196 47,6**	**37755 73,7**	**6031 11,8**	**7410 14,5**	**2850 2,7**	**100 0,1**


Hazırda suvarılan ərazilərin yalnız 2,7%-i (2,8 min ha) drenləşmiş sahələrdən ibarətdir. Bunun 0,5 min hektarı, yəni ümumi suvarılan torpaqların 4,8%-i Qəbələ rayonuna, 39,0 min ha suvarılan torpaqlardan 1,25 min hektarının (3,2%-nin) Şəki və 15,6 min hektardan 1,1 min hektarı (7,1%-i) Zaqatala rayonlarına aiddir. Ümumi drenləşmiş ərazinin yalnız Şəki rayonuna məxsus 0,1 min hektar torpaq sahəsində qapalı üfüqi drenləşmiş sahə yaradılmışdır.

Bölgədə suvarılan torpaqların əsas hissəsində təbii drenləşmə şəraitinin qeyri kafi olması və eləcə də həmin sahələrdə ötən dövrdə dren-kollektor şəbəkəsinin yaradılmaması nəticə-

sində orta və yüksək dərəcədə şorlaşmış torpaqların sahəsi 13,4 min hektara çatır. Bu isə ümumi suvarılan torpaqların 12,5%-ni təşkil edir. Şəki rayonunda suvarılan torpaqların 21,0 min hektarı və ya ümumi suvarılan sahələrin 53,9%-i şorlaşmışdır. Qax rayonunda ümumi suvarılan torpaq sahələrinin 11,4 min ha müxtəlif dərəcədə şorlaşmış sahələrdən ibarətdir. Bunun 69,0%-i (7,9 min ha) zəif, 11,8%- i (1,4 min ha) orta və 19,2%-i (2,2 min ha) isə yüksək dərəcədə şorlaşmışdır. Bu göstəricilər ümumi suvarılan torpaqların 58,1%-dən çox hissəsini əhatə edir.


Cədvəl 58

Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)



Cədvəl 58.1


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 247

Cədvəl 58.2

Bölgənin ümumi suvarılan torpaqlarının drenləşmə durumu (ha/%)



Şəkil 248

Bölgənin digər rayonlarında da (Balakən, Oğuz, Qəbələ və Zaqatala) orta və yüksək dərəcədə şorlaşmış suvarılan torpaqlar mövcuddur və yayıldığı sahələrin həcminə görə 1,3-10,9% (0,2-2,2 min ha) arasında tərəddüd edir. Bölgənin şorlaşmış torpaqları əsas etibarilə xloridli və natriumlu şor qrupa mənsubdur. Bölgədə şorlaşmış torpaqların arasında müxtəlif dərəcədə şorakətləşmiş torpaqlarda az deyildir. Beləliklə, torpaq istifadəçiliyindəki mövcud aqroekoloji durum bölgədə ilk növbədə kənd təsərrüfatında istifadə olunan torpaqlarda əsaslı meliorativ işlərin aparılmasına ciddi ehtiyac olduğunu göstərir.

Bölgədə ərazinin xeyli hissəsi dağlıq və dağətəyi sahələrdə yerləşdiyindən ümumi torpaq örtüyü su eroziyasından da xeyli ciddi ziyan çəkir. Bölgədə eroziyaya uğramış sahələr geniş yayılmışdır (cədvəl 59, şəkil 249-254). Burada eroziyaya uğramış sahələr ərazinin 61,5%-ni (543,3 min ha) əhatə edir. Həmin sahələrdə səthi, xətti, qobu,yarğan və suvarma eroziyası növləri geniş yayılmışdır.

Cədvəl 59


Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə eroziya durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Eroziya dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Balakən	93447 10,6	56294 60,2	37153 39,8	11883 32,0	8845 23,8	16425 44,2
2	Qax	149380 16,9	70980 47,5	78400 52,5	26220 33,4	18525 23,6	33655 42,9
3	Qəbələ	154850 17,5	35552 23,0	119298 77,0	41560 34,8	27618 21,2	50120 63,9
4	Zaqatala	134800 15,3	47115 35,0	87685 65,0	43815 50,0	16200 18,5	27670 28,1
5	Oğuz	107739 12,2	34314 31,8	73425 68,2	29675 40,4	12480 17,0	31270 42,6

1	2	3	4	5	6	7	8
6	Şəki	243275 27,5	95895 39,4	147380 60,6	61580 41,8	33330 22,6	52470 35,6
	Cəmi	**883491** **10,2**	**340150** **38,5**	**543341** **61,5**	**214733** **39,5**	**116998** **21,5**	**211610** **39,0**
1	**Dağ-çəmən zonası torpaqlarının eroziya durumu**						
		123979 14,0	88214 69,0	35765 31,0	23065 64,5	1617 4,5	11083 31,0
2	**Dağ-meşə zonası torpaqlarının eroziya durumu**						
		290597 32,9	257037 88,5	33560 11,5	11745 35,0	10231 30,5	11584 34,5

Cədvəl 59


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)



Şəkil 249

Cədvəl 59.1


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 250

Cədvəl 59.2


Bölgənin ümumi dağ-çəmən torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 251

Cədvəl 59.3


Bölgənin dağ-çəmən zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 252

Cədvəl 59.4


Bölgənin dağ-meşə zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 253

Cədvəl 59.5

Bölgənin dağ-meşə zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Əsasən yüksək dağlıq qurşağın alp, subalp və bozqır çəmənliklərində yayılmış dağ-çəmən və qaratorpaqlarında səthi eroziya geniş inkişaf etmişdir. Bəzi yerlərdə isə qobu eroziyasına da təsadüf edilir. Səthi eroziya prosesi yay otlaqlarından düzgün istifadə edilməməsi nəticəsində baş verir. Bölgənin yay otlaqlarında eroziya prosesi güclü inkişaf etmiş olsa da, ayrı-ayrı raoynların ərazisində qeyri-bərabər dərəcədə baş verməkdədir. Eroziyaya uğramış sahələr Balakən, Qax, Qəbələ, Zaqatala, Oğuz və Şəki rayonlarında 40-77%-dən artıq sahələri əhatə edir. Şiddətli eroziyaya uğramış torpaqlar bölgənin bütün rayonlarında geniş ərazilərdə yayılmışdır (28,1-63,9%).

Dağ qurşağında qonur dağ-meşə, qəhvəyi dağ-meşə və bozqırlaşmış dağ-meşə torpaqlarında eroziyaya uğrama dərəcəsi dağ-çəmən qurşağına nisbətən zəif olub, ümumi zonanın 11,5%-ni (33,6 min ha) təşkil edir. Dağ-çəmən qurşağında ümumi eroziyaya uğramamış torpaqların göstəricisi 31,0%-ə qədər yüksəlir. Bunun 64,5%-i zəif, 4,5%-i orta və 31,0%-i isə

şiddətli eroziyaya məruz qalmış sahələrdən ibarətdir. Dağmeşə qurşağında eroziyaya uğrama göstəriciləri, xüsusilə son illər artması meşə örtüyünə olan hücumlardan irəli gəlmişdir. Meşələrin insanlar tərəfindən amansızlıqla qırılması həmin ərazilərdə eroziya prosesinin güclənməsinə səbəb olmuşdur. Aparılan çoxillik tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, belə ərazilərdə torpağın üst qatının hər bir ha-ından ildə 200-250 m^3-ə qədər torpaq kütləsi yuyulub aparılır. Bölgədə yaşayış yerlərinin ətraf meşələri daha çox qırılıb talan edildiyindən həmin ərazilərdə səthi və yarğan eroziyaları daha geniş yayılmışdır.

Dağ-bozqır qurşağında, orta və aşağı dağlıq, eləcə də dağətəyi sahələrdə yayılmış əsasən qaratorpaq və şabalıdı torpaqlarda ərazinin 67,1%-i müxtəlif dərəcədə eroziyaya uğramışdır. Bozqır zonanın torpaqlarının 14,4%-i şiddətli yuyulmuşdur. Orta dərəcədə yuyulmuş torpaqlar nisbətən az olub, bozqır torpaqların 12,6%-ni (10,2 min ha) təşkil edir.

Bölgədə şabalıdı və boz torpaqların yayıldığı Acınohur çölündə eroziya prosesi daha intensiv gedir. Ərazi qobularının intensiv inkişaf etdiyi sahələrdən biridir. Bitki örtüyü zəif olduğundan külək eroziyası ilə yanaşı, su eroziyası, xüsusilə şabalıdı və boz torpaqların üst yuxa qatını dağıdaraq daşlıçınqıllı bəzi sahələrdə isə gilli süxurların üzə çıxmasına səbəb olmuşdur. Burada külək eroziyası su eroziyasına nisbətən az sahəni əhatə etsə də kənd təsərrüfatına vurduğu zərərə görə heç də ondan geri qalmır. Bölgədə eroziya prosesinə qarşı mütəşəkkil mübarizə aparmaq üçün öncə ərazinin relyef şəraiti, torpaqların aqroistehsal xüsusiyyətləri və eləcə də konkret ərazidə baş verən eroziyanın növü nəzərə alınmaqla kompleks tədbirlər hazırlayıb həyata keçirilməlidir.

Respublikada həyata keçirilən torpaq islahatı nəticəsində bölgənin torpaq ehtiyatları mövcud durumda üç mülkiyyət: dövlət, bələdiyyə və xüsusi mülkiyyət növlərinə bölünərək istifadə olunur. 58-ci cədvəldən göründüyü kimi, dövlət mülkiyyətində bölgənin ümumi torpaq ehtiyatlarının 530,8

min hektarı və ya 60,1%-i saxlanmışdır. Bələdiyyə mülkiyyətinin ayrılmış torpaqlar bölgənin ümumi torpaq fondunun 149,4 min hektarını və ya 16,9%-ni təşkil edir. Xüsusi mülkiyyətə verilmiş torpaqların sahəsi isə 203,3 min hektara və ya 23,0%-ə çatır (cədvəl 60, şəkil 255, 256).

Bölgədə ən məhsuldar torpaqlar ərazidən axan dağ çayları ətrafında yayıldığından hər il bu sahələrin mütəmadi olaraq sel suları ilə yuyulub aparılması prosesi baş verir. Odur ki, Dövlət proqramında regionda yaranmış gərgin vəziyyəti nəzərə alaraq Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonları ərazisindən axan Mazım, Balakən, Katex, Alazan, Tala, Muxax, Qanıx, Kürmük, Kiş, Şin, Qaşqa, Qala, Daşağıl, Qum, Bum, Dəmiraparan, Tikanil və Turyançay çaylarında sel sularının və torpaq örtüyünün yuyulmasının qarşısının alınması məqsədilə sahilbərkitmə işlərinin aparılması nəzərdə tutulmuşdur.

Şəki-Zaqatala iqtisadi rayonunda Filizçay qrupu yataqlarının istismara cəlb edilməsi və eləcə də yerli tikinti materialları (gil, qum, çınqıl, əhəng daşı və s.) istehsalının inkişafı ilə əlaqədar ətraf torpaq-ekoloji durumda baş verə biləcək mənfi proseslərin qarşısının alınması üçün kompleks tədbirlərin planının hazırlanması tələb olunur.

Bölgəyə daxil olan ayrı-ayrı rayonlarda torpaq mülkiyyətinin ölçüsü həmin rayonların ümumi torpaq fondunun miqdarından asılı olaraq müəyyənləşdirildiyindən müxtəlifdir. Bu göstəricilərin miqdarı 47,6-64,1% arasında dəyişməsi, eyni zamanda həmin rayonlarda təsərrüfata yararlı sahələrin ölçüsünün müəyyənləşdirilməsinə imkan vermişdir.

1. Dövlət mülkiyyətindəki torpaqlar. Dövlət mülkiyyətində saxlanmış torpaqların 32,0%-i (170,1 min ha) kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir. Bilavasitə bunun kənd təsərrüfatında 10,6%(18,0 min ha) əkin və dinc sahələr kimi istifadə olunur. Çoxillik əkmələrin altında istifadə edilən torpaqlar isə 3,2%-ə (5,5 min ha) çatır. Dövlət mülkiyyətində biçənək (0,3 min ha) və kənd təsərrüfatına yararlı həyətyanı tor-


Cədvəl 60

Bölgənin vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış	yay			
1	Dövlət	530789 60,1	17992 10,6	5456 3,2	283 0,2	90 0,1	-	123210 72,4	23106 13,6	170137 32,0	272476 51,3	88176 16,6
	o.c.suv.	2471 2,3	507 20,5	1045 42,3	-	-	-	919 37,2	-	2471 1,4	-	-
2	Bələdiyyə	149428 16,9	14925 16,4	655 0,7	10 0,01	1638 1,8	73976 81,1	-	-	91204 61,0	202 0,1	58022 38,9
	o.c.suv.	8210 7,6	6195 75,5	274 3,3	-	828 10,1	913 11,1	-	-	8210 9,0	-	-
3	Xüsusi	203274 23,0	147984 73,4	65294 17,5	1129 0,6	17196 8,5	-	-	-	201603 99,2	-	1671 0,8
	o.c.suv	96772 90,1	71967 74,4	18385 19,0	-	6420 6,6	-	-	-	96772 48,0	-	-
	Cəmi	**883491 10,2**	**180901 39,1**	**41405 8,9**	**1422 0,3**	**18924 4,1**	**73976 16,0**	**123210 26,6**	**23106 5,0**	**462944 52,4**	**272678 30,9**	**147869 16,7**
	o.c.suv.	**107453 7,5**	**78669 73,2**	**19704 18,3**	-	**7248 6,8**	**913 0,8**	-	-	**1074533 23,2**	-	-

Cədvəl 60


Bölgənin ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 255

Cədvəl 60.1

Bölgənin ümumi suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 256

paqlar (0,09 min ha) çox az miqdarda saxlanmışdır. Başlıca olaraq otlaq sahələri dövlət mülkiyyətində saxlanmış və torpqlar istifadəçiliyində üstünlük təşkil edir. Qış otlaq torpaqlarının sahəsi 123,2 min hektardır (72,4%). Yay otlaq torpaqları kənd təsərrüfatına yararlı torpaqların 13,6%-ni (23,1 min ha) təşkil edir. Bölgədə mövcud olan ümumi meşə fondu torpaqlarının 51,3%-i (272,5 min ha) dövlət mülkiyyətində saxlanmışdır. Bölgədə kənd təsərrüfatında istifadə olunmayan sair torpaqlar 16,6%-i (88,2 min ha) olmaqla əsasən kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlardan ibarətdir.

Bölgənin ümumi suvarılan torpaqların 2,3%-i (2,5 min ha) dövlət mülkiyyətində saxlanmışdır ki, bunun da 0,5 min hektarı, yəni 20,5%-i suvarılan əkin sahələrindən ibarətdir. Əkin sahələrinə nisbətən çoxillik əkmələr becərilən torpaq sahələri daha çoxdur. Hazırda çoxillik əkmələr becərilən torpaqların 42,3%-i (1,0 min ha) suvarılır. Örüş və otlaqların az bir hissəsi isə, yəni 37,2%-i (0,9 min ha) suvarılan torpaqlarda yerləşir (cədvəl 61, şəkil 257-262).

Cədvəl 61

Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin + dinc	Çoxillik əkmələr	Biçənək	Heyətyanı	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							qış	yay			
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Balakən	59884 11,3	676 9,3	384 5,3	-	90 1,2	4719 64,7	1426 19,5	7295 12,2	46357 77,4	6232 10,4
2	Qax	106843 20,1	420 1,3	809 2,7	-	-	20394 64,7	9908 31,4	31531 29,5	43751 40,9	31561 29,6
3	Qəbələ	96844 18,2	1477 7,9	166 0,9	14 0,1	-	13109 70,5	3817 20,6	18583 19,2	50255 51,9	28006 28,9
	o.c.suv	59 2,4	52 88,1	7 11,9	-	-	-	-	59 0,1	-	-

1	2	3	4	5	6	7	8	9	10	11	12
4	Zaqatala	84324 15,9	1688 12,2	196 1,4	-	-	6063 43,8	588 42,6	13827 16,4	51236 60,8	19261 22,8
	o.c.suv	68 2,7	68 100	-	-	-	-	-	68 0,2	-	-
5	Oğuz	67204 12,7	2833 34,1	568 6,8	40 0,5	-	3149 37,9	1709 20,7	8299 12,2	40758 60,6	18147 26,6
	o.c.suv	228 9,2	227 99,6	1 0,4	-	-	-	-	228 1,4	-	-
6	Şəki	115690 21,8	10898 28,1	3333 8,6	229 0,6	-	21006 54,2	3255 8,4	38721 33,5	40119 34,7	36850 31,8
	o.c.suv	2116 85,7	160 7,6	1037 49,0	-	-	919 43,4	-	2116 3,6	-	-
	Cəmi	**530789** **60,1**	**17992** **15,2**	**5456** **4,6**	**283** **0,2**	**90** **0,1**	**68440** **57,9**	**25995** **22,0**	**118256** **22,3**	**272476** **51,3**	**140057** **26,4**
	o.c.suv.	**2471** **2,3**	**507** **20,5**	**1045** **42,3**	-	-	**919** **37,2**	-	**2471** **2,1**	-	-

Ümumiyyətlə, bölgənin suvarılan torpaqlarının tərkib hissəsi olan dövlət mülkiyyətində saxlanmış suvarılan torpaq sahələrinin mövcud meliorativ durumu eynilik təşkil etdiyindən, burada da şorlaşma, şorakətləşmə və bataqlaşma proseslərinin baş verməsi də qaçılmaz olmuşdur.


Hazırda torpaqların meliorativ durumunda baş verən mənfi proseslərin mövcud olmasına baxmayaraq dövlət mülkiyyətinin saxlanmış kənd təsərrüfatına yararlı torpaq sahələri demək olar ki, bütünlüklə bölgə əhalisi tərəfindən təyinatı üzrə icarə qaydasında istifadə olunur. Bundan başqa bölgədə mövcud olan kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqların müəyyən hissəsi yerli fiziki və hüquqi şəxslər tərəfindən müxtəlif məqsədlər üçün istifadə edilməkdədir.

Bölgədə qoyunçuluğun inkişafında aparıcı rol oynayan qış və yay otlaq torpaqlarından daha intensiv istifadə olunduğundan, xüsusilə son illər ot örtüyünün bioloji məhsuldarlığı xeyli aşağı düşmüşdür.

Ümumiyyətlə, belə demək mümkündürsə, bölgədə orta torpaq payı almış hər bir ailə dövlət mülkiyyətinə məxsus torpaqlardan əlavə olaraq 1,67 ha torpaq sahəsindən istifadə etmək imkanına malikdir. Bu göstərici isə hazırda ailənin istifadə etdiyi özəlləşdirilmiş torpaq payına (1,66 ha) bərabərdir.

Cədvəl 61


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 257

Cədvəl 61.1


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 258


Cədvəl 61.2

Bölgənin dövlət mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Cədvəl 61.3

Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Cədvəl 61.4


Bölgənin dövlət mülkiyyətindəki ümumi suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 261

Cədvəl 61.5

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%-lə)



Şəkil 262

Belə halda suvarılan torpaqların bir ailəyə düşən orta ölçüsü çox cüzidir (0,03 ha). Bölgədə dövlət mülkiyyətində saxlanmış sair torpaqların təqribən 33,2 min ha-da (6,2%) Zaqatala, İlisu qoruqları fəaliyyət göstərir. Bundan başqa heyvanat aləminin qorunması məqsədilə Şəki yasaqlığı yaradılmışdır.

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Bölgədə hazırda fəaliyyət göstərən 260 bələdiyyənin mülkiyyətinə ümumi torpaq fondunun 149,4 min hektardan bir qədər artıq hissəsi (16,9%) verilmişdir (cədvəl 62, şəkil 263-268). Bələdiyyə mülkiyyətinə verilmiş torpaq sahələrinin yalnız 61,0%-i (91,2 min ha) kənd təsərrüfatına yararlı olduğundan bütünlüklə dövriyyəyə cəlb edilmişdir. Əkin və dincə qoyulmuş torpaqlar ümumi torpaqların 16,4%-ni (14,9 min ha) təşkil edir. Çoxillik əkmələrin torpaqları sahəcə çox məhduddur və ölçüsü 0,7 min hektara yaxındır. Hazırda kənd təsərrüfatına yararlı həyətyanı torpaq sahələrinin miqdarı 1,8%-dən (1,6 min ha) bir qədər çoxdur. Kəndətrafı örüş sahələrinin torpaqları bələdiyyə mülkiyyətinə verilmiş torpaq sahələrinin əsasını təşkil edir. Kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının 81,1%-ni (74 min ha) təşkil edən bu sahələr hazırda əvəzi ödənilmədən kənd əhalisinə öz mal-qarasını saxlamaq üçün ayrılmışdır. Meşə fondunun torpaqları 0,1%-dir (0,2 min ha). Bələdiyyə mülkiyyətinə ayrılmış torpaq ehtiyatlarının 38,9%-i (58,0 min ha) sair torpaqların payına düşür. Sair torpaqların tərkib hissəsini təşkil edən kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlar gələcəkdə bələdiyyələrin əkin dövriyyəsinə cəlb edəcəkləri yeganə ehtiyat mənbəyidir. Hal-hazırda bu qrup torpaqların müəyyən hissəsi müxtəlif məqsədlər üçün fiziki və hüquqi şəxslər tərəfindən istifadə olunmaqdadır. Bölgənin ayrı-ayrı inzibat rayonlarında bələdiyyə mülkiyyətinə ayrılmış torpaq sahələrinin ölçüsü xeyli müxtəlifdir. Ərazidə ən az torpaq sahəsi Balakən rayonunda fəaliyyət göstərən 24 bələdiyyənin istifadəçiliyindədir. Hazırda rayon bələdiyyələrində mövcud olan ümumi torpaq fondunun cəmi 4,0 min hektardan (44,6%) istifadə olunur. Torpaq fondunun yarıdan çoxu,

yəni 4,9 min ha və ya (55,2%) sair torpaqlar təşkil edir. Bölgənin Şəki rayonu istisna olmaqla Qax, Qəbələ, Zaqatala və Oğuz rayonlarında rayon uzrə ümumi torpaq fondunun bu göstəriciləri 11,0-18,3% arasında tərəddüd edir.


Cədvəl 62

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Kənd-yanı örüş	Həyət-yanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Balakən	8922 9,6	1189 29,8	43 1,1	10 0,2	2485 62,4	257 6,4	3984 44,6	17 0,2	4921 55,2
	o.c.suv.	75 0,9	75 100	-	-	-	-	75 1,9	-	-
2	Qax	16383 11,0	1311 13,9	199 2,1	-	7881 83,4	53 0,6	9444 57,6	-	6939 42,4
	o.c.suv	1056 12,9	857 81,2	199 18,8	-	-	-	1056 11,2	-	-
3	Qəbələ	20662 13,3	1120 12,1	280 3,0	-	7753 83,6	115 1,2	9268 44,8	-	11394 55,2
	o.c.suv	920 11,2	868 94,3	52 5,7	-	-	-	920 9,9	-	-
4	Zaqatala	17628 13,1	5625 48,3	109 0,9	-	5752 49,4	156 1,3	11642 66,0	11 0,1	5975 33,9
	o.c.suv	2733 33,3	2733 100	-	-	-	-	2733 23,5	-	-
5	Oğuz	19756 18,3	1279 13,4	24 0,2	-	8232 86,0	42 0,4	9577 48,5	133 0,7	10046 50,8
	o.c.suv	876 11,7	811 92,6	23 2,6	-	-	42 4,8	876 9,1	-	-
6	Şəki	66077 27,2	4401 9,3	-	-	41873 88,5	1015 2,2	47289 71,6	41 0,1	18747 28,4
	o.c.suv	2550 31,1	851 33,4	-	-	913 35,8	786 30,8	2550 5,4	-	-
7	**Cəmi**	**149428 16,9**	**14925 16,4**	**655 0,7**	**10 0,01**	**73976 81,1**	**1638 1,8**	**91204 61,0**	**202 0,1**	**58022 38,8**
	O.c.suv.	**8210 7,6**	**6195 75,5**	**274 3,3**	-	**913 11,1**	**828 10,1**	**8210 9,0**	-	-

Cədvəl 62


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 263

Cədvəl 62.1


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqların əsas tərkib hissəsi (ha/%)



Şəkil 264

Cədvəl 62.2

Bölgənin bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Dəmyə

Suvarılan

Şəkil 265

Cədvəl 62.3

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Əkin+dinc

Çoxillik əkmələr


Həyətyanı

Kəndyanı örüş+biçənək

Şəkil 266

Cədvəl 62.4


Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 267

Cədvəl 62.5

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 268

Şəki rayonunda fəaliyyət göstərən 66 bələdiyyənin mülkiyyətinə isə cəmi 66,1 min ha, yəni rayonun ümumi torpaq fondunun 27,2%-i verilmişdir. Bunun isə 28,4%-i sair torpaqlardır. Şəki rayon bələdiyyələrinin istifadəsində olan kənd təsərrüfatına yararlı torpaqların 88,5%-i (41,9 min ha) kəndyanı örüş torpaqları tutur.

Bütün respublikada olduğu kimi bölgədə əksər kəndyanı örüş sahələrinin meliorativ durumu qeyri kafi qiymətləndirilir. Son illərdə otlaq yükünün artırılması kəndyanı örüş torpaqlarında eroziyanın güclənməsinə, şorlaşmaya və bəzi sahələrdə bataqlaşmaya səbəb olmuşdur. Örüş sahələrinin təbii yem ehtiyatının bioloji məhsuldarlığı kəskin şəkildə azalması ilə müşayiət olunur. Bu isə torpaq örtüyündə tənəzzül prosesinin güclənməsini göstərir.

Bölgədə bələdiyyə mülkiyyətinə verilmiş torpaqların 8,2 min hektarı suvarılan torpaqlardır. Bu göstərici bölgənin ümumi suvarılan torpaqlarının 7,6%-i deməkdir. Suvarılan torpaqların 75,5%-i (6,2 min ha) əkin və dincə qoyulmuş torpaqların payına düşür. Suvarılan əkin torpaqlarının sahəsi ən çox, yəni 2,7 min ha Zaqatala rayonunda fəaliyyət göstərən 31 bələdiyyənin istifadəçiliyindədir, qismən isə Şəki rayonunda (2,5 min ha) qeydə alınmışdır. Ən az, yəni cəmi 75 ha suvarılan torpaqların Balakən rayonunda olduğu müəyyənləşdirilmişdir.

Ümumiyyətlə, yuxarıda qısa təsvirini verdiyimiz bələdiyyə mülkiyyətinə məxsus torpaq sahələri bölgənin dövlət mülkiyyətində saxlanmış torpaq sahələri kimi hazırda bütünlüklə fiziki və hüquqi şəxslər tərəfindən təyinatı üzrə torpaq qanunvericiliyinə uyğun istifadə olunur. Bölgədə özəlləşmə payı almış ailələr orta hesabla bələdiyyə mülkiyyətinin 1,37 ha, bunun 0,84 hektarı kənd təsərrüfatına yararlı torpaq sahələridir. Suvarılan torpaq sahələrinin orta göstəricisi 0,08 hektardır.

Əlbəttə, bu göstəricilər bölgənin ayrı-ayrı rayonlarında, bələdiyyə mülkiyyətinə ayrılmış torpaq ehtiyatlarının ümumi

miqdarından asılı olaraq fərqlidir. Məsələn, Şəki rayonunda torpaq payı almış bir ailə hazırda bələdiyyə mülkiyyətinə məxsus ümumi torpaq sahəsinin 2,84 hektar (bunun 2,03 hektarı kənd təsərrüfatına yararlı, o cümlədən əkin torpağı 0,19 ha və suvarılan sahə isə 0,11 ha) istifadə etdiyi halda, Balakən rayonunda müvafiq halda bu göstərici 0,43 hektara düşür (bunun 0,19 hektarı yararlı və o cümlədən əkin torpağı 0,06 ha, suvarılan sahə isə 0,004 ha). Bölgənin digər rayonlarında təhlil etdiyimiz bu rəqəmlər birinci halda 0,74-2,09 ha, ikinci halda isə 0,47-1,01 ha (yararlı sahə) arasında dəyişməsi ilə səciyyələnir.

3. Xüsusi mülkiyyətdəki torpaqlar. Bölgədə yaşayan ailələrin xüsusi mülkiyyətinə verilmiş torpaq sahələri yaxın keçmişdə fəaliyyət göstərmiş 199 ictimai təsərrüfatın uzunmüddətli istifadə etdikləri kənd təsərrüfatına yararlı torpaqlardan formalaşdırılmışdır. Belə ki, ərazidə məskunlaşmış və torpaq payı almaq hüququ olan və 416603 nəfər subyekti birləşdirən 109067 ailənin mülkiyyətinə 181454 ha özəlləşdirilmiş torpaq sahəsi verilmişdir (cədvəl 63, şəkil 269-273). Bu isə bölgədə mövcud olan suvarılan torpaqların 90,1%-nə bərabərdir. Ümumiyyətlə, biçənək sahələri istisna olmaqla özəlləşən torpaqların 48,0%-i, yəni 96,8 min ha-ı suvarılan torpaqlardır.

Cədvəl 63

Bölgənin xüsusi mülkiyyətdəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri					K.t. istifadə olunmayan sahələr
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Cəmi	
1	2	3	4	5	6	7	8	9
1	Balakən	24641 12,1	16146 65,5	5766 23,4	193 0,8	2210 9,0	24315 98,7	326 1,3
	o.c.suv.	6748 7,0	4283 63,5	1777 26,3	-	688 10,2	6748 27,8	-
2	Qax	26154 12,9	18143 69,4	5694 21,8	-	1818 6,9	25655 98,1	499 1,9

1	2	3	4	5	6	7	8	9
	o.c.suv	18650 19,3	13666 73,3	4371 23,4	-	613 3,3	18650 72,7	-
3	Qəbələ	37344 18,4	24108 64,6	10678 28,6	523 1,4	1726 4,6	37035 99,2	309 0,8
	o.c.suv	14945 15,5	9669 64,7	4490 30,0	-	786 5,3	14945 40,4	-
4	Zaqatala	32848 16,1	18765 57,1	7594 23,1	413 1,3	5738 17,5	32510 99,0	338 1,0
	o.c.suv	12761 13,2	8267 64,8	3109 24,4	-	1385 10,8	12761 39,3	-
5	Oğuz	20779 10,2	16525 79,5	1826 8,8	-	2363 11,4	20714 99,7	65 0,3
	o.c.suv	9354 9,7	6659 71,2	1346 14,4	-	1349 14,4	9354 45,2	-
6	Şəki	61508 30,3	54297 88,3	3736 6,1	-	3341 5,4	61374 99,8	134 0,2
	o.c.suv	34314 35,5	29423 85,7	3292 9,6	-	1599 4,7	34314 55,9	-
	Cəmi	**203274 23,0**	**147984 73,4**	**35294 17,5**	**1129 0,6**	**17196 8,5**	**201603 99,2**	**1671 0,8**
	o.c.suv.	**96772 90,1**	**71967 74,4**	**18385 19,0**	-	**6420 6,6**	**96772 48,0**	-

Bir sözlə, hazırda regionda mövcud olan suvarılan torpaqların 90,1%-i xüsusi mülkiyyətçilərin istifadəsindədir. Suvarılan torpaq sahələri içərisində əkin və dincə qoyulmuş torpaqlar üstün yer tutur. Əkin+dinc sahəsinin təqribən 72 min hektarı, yəni 74,4%-i suvarılan torpaqlarda yerləşir. Çoxillik əkmələrin altında olan 35,3 min ha torpaqlardan yalnız 19,0%-i (18,4 min hektar) suvarılır. Kənd təsərrüfatında istifadə olunan həyətyanı torpaqlar özəlləşən torpaqların 17,2 min hektarını və ya 8,5%-ni təşkil edir. Bu torpaqların yalnız 6,4 min hektarı və ya 6,6%-i suvarılır. Müəyyən obyektiv və subyektiv səbəblərdən bölgədə 1,7 min ha və ya 0,8% torpaq sahəsindən istifadə olunmur. Bölgənin ayrı-ayrı rayonlarında haqqında danışılan təsərrüfat sahələrinin göstəriciləri xeyli müxtəlifdir. Belə ki, xüsusi mülkiyyətə verilmiş ümumi torpaq sahəsi 26,4% (24,6 min ha) Balakən rayonunun ümumi torpaq fondundan ayrıldığı halda Qax rayonunda bu rəqəm 17,5% olsa da, sahə etibarilə çoxdur, yəni 26,1 min hektardır. Ən çox

Cədvəl 63


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 269

Cədvəl 63.1


Bölgənin xüsusi mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 270

Cədvəl 63.2


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 271

Cədvəl 63.3


Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 272

Cədvəl 63.4

Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqların təsərrüfat sahələri üzrə istifadəçiliyi (ha/%)



özəlləşdirilmiş torpaq sahəsi Şəki rayonunda 25,3%-dir (61,5 min ha). Burada suvarılan torpaqların göstəricisi də (34,3 min ha) çox yüksəkdir. Ümumiyyətlə, bölgənin kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının 23,0%-i xüsusi mülkiyyətə verilmişdir.

Hazırda xüsusi mülkiyyətə verilmiş torpaq sahələrindən bölgədə məskunlaşan beş ailə qrupu tərəfindən istifadə olunur (cədvəl 64, şəkil 274-287).

Cədvəldə verilən rəqəmlərdən göründüyü kimi, bölgədə torpaq sahələrindən istifadə həcminə və ailə qrupunda cəmlənmiş ailələrin sayına görə kiçik ailələr üstünlüyü müşahidə edilir.

Ümumi ailələrin 55,0%-ni təşkil edən kiçik ailələr orta hesabla 1,79 ha torpaq payından istifadə etmələrinə baxmayaraq burada sayca çox ailələr cəmləşdiyindən (ailə tərkibi 3-5 nəfər) özəlləşən torpaqların 59,2%-dən istifadə etməli olurlar. Tək ailələr ümumi ailələrin 28,3%-dən ibarət olsa da, özəlləşən torpaqların yalnız 10%-ni əkib-becərirlər. Orta hesabla tək ailələr 0,59 ha pay torpağının mülkiyyətçisidir.

Ümumi ailələrin 15,8% təşkil edən orta ailələrin hər biri 2,97 hektara yaxın torpaq sahəsinin sahibidir. Böyük ailələrin hər biri 4,85 ha torpaq sahəsindən istifadə etsə də ümumi ailələrin 0,9%-nə bərabərdir. Ümumiyyətlə, bölgədə torpaq payı almış hər bir ailə orta hesabla 1,67 ha və bir nəfər ailə üzvü isə 0,44 ha torpaq sahəsinin mülkiyyətçisidir. Bu göstəricilər bölgənin ayrı-ayrı rayonlarda fərqlidir. Məsələn, Balakən rayonunda məskunlaşan 20890 ailənin hər biri orta hesabla 0,80 ha, hər bir ailə üzvü isə 0,23 hektarın sahibidir. Şəki rayonunda məskunlaşan 23323 ailə ümumilikdə 53299 ha torpaq sahələrinin mülkiyyətçiləridir. Hər bir ailə orta hesabla 2,29 ha və hər bir fərd isə 0,56 ha torpaq payından istifadə edir. Bölgənin Qax, Zaqatala, Qəbələ və Oğuz rayonlarında həmin göstəricilər birinci halda 1,37-1,98 ha, ikinci halda isə 0,33-0,53 ha arasında dəyişməsi ilə xarakterizə olunur. Bölgənin bütün rayonlarında torpaq payına sahiblik edən tək ailələr (1-2 nəfər) sayı 21,3-40,0% arasında tərəddüd edir. Ən böyük ailələrin sayı bölgə üzrə sayı 39-a çatsa da, bəzi rayonlarda (Oğuz rayonu) ən böyük ailələr qeydə alınmamışdır. Hətta bəzi rayonlarda ən böyük ailələrin sayı 1-7 ailədən çox deyildir. Yalnız Şəki rayonunda ən böyük ailəlrin sayı 26-dır. Bu isə ümumi ailələrin 0,04% deməkdir. Ümumiyyətlə, bölgədə torpaq payı almış ən çox ailələr Zaqatala rayonunda (23865 ailə) bölgə üzrə ümumi ailələrin 21,9%-ni təşkil etməklə fərqlənir. Şəki rayonunda (23323 ailə) az 0,4% fərqlə müşayiət olunsa da, özəlləşdirilmiş sahəyə görə fərq (3,3%) Zaqatala rayonunda xüsusi mülkiyyətə verilən torpaqlara nisbətən bir qədər çoxdur.

Bölgədə torpaq payı almış ən az ailələr (ümumi ailələrin 8,7%-i və ya 9489 ailə) Oğuz rayonunda məskunlaşmışlar. Eləcə də bu rayonda ümumi bölgə üzrə özəlləşdirilmiş torpaq ehtiyatlarının az bir hissəsi, yəni 10,3%-i (18758 ha) cəmlənmişdir. Balakən rayonunda torpaq payı almış ailələrin sayı bölgə üzrə ümumi ailələrin 19,2%-ni (20890 ailə) əhatə etsə də özəlləşdirilmiş ümumi torpaq sahəsi, bölgə üzrə ümumi özəlləşdirilmiş torpaq sahəsinin 9,2%-nə bərabərdir.

Cədvəl 64

Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*

S/s	Rayonlar	Ailə qrupları															Yekun			Orta torpaq norması ailə/subyekt
		Tək ailələr (1-2 nəfər)			Kiçik ailələr (3-5 nəfər)			Orta ailələr (6-8 nəfər)			Böyük ailələr (9-12 nəfər)			Ən böyük ailələr (12 nəf. çox)						
		ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
1	Balakən	6782 22,0	9276 21,3	2072 11,5	11403 19,0	46251 18,5	10426 9,7	2617 15,2	16850 14,8	3927 7,7	107 11,1	1006 10,8	218 4,6	1 2,7	13 3,4	2 0,5	20890 19,2	73396 17,6	16646 9,2	0,79 0,23
2	Qax	4629 15,0	6249 14,3	2385 13,2	5758 9,6	23432 9,4	11520 10,7	1157 6,7	7352 6,6	4152 8,1	38 3,9	355 3,8	226 4,8	2 5,1	27 7,1	12 3,2	11584 10,6	37415 9,0	18295 9,0	1,58 0,49
3	Qəbələ	5209 16,9	7616 17,5	2615 14,5	10735 17,9	47686 19,1	15560 14,5	3771 21,9	26457 23,3	8262 16,2	194 20,0	1924 20,7	708 15,1	7 17,9	7 1,8	32 8,6	19916 18,3	83780 20,1	27177 15,0	1,37 0,33
4	Zaqatala	6489 21,0	9269 21,2	4929 27,3	13562 22,6	55464 22,2	29254 27,2	3629 21,1	23383 20,6	12364 24,3	182 18,8	16371 7,6	720 15,3	3 7,7	42 11,1	12 3,2	23865 21,9	89795 21,6	47279 26,1	1,99 0,53


1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
5	Oğuz	2745 8,9	3913 9,0	1982 11,0	5289 8,8	21829 8,7	10951 10,2	1398 8,1	9568 8,4	5534 10,9	57 5,9	544 5,8	290 6,2	-	-	-	9489 8,7	35854 8,6	18758 10,3	1,98 0,53
6	Şəki	4979 16,2	7308 16,7	4065 22,5	13299 22,1	55022 22,0	29660 27,6	4629 26,9	29912 26,3	16734 32,8	390 40,3	3831 41,3	2529 54,0	26 66,6	290 76,6	312 84,5	23323 21,4	96383 23,1	53299 29,4	2,29 0,55
	Cəmi	**30833** **28,3**	**43631** **10,5**	**18048** **10,0**	**60046** **55,0**	**249684** **59,9**	**107371** **59,2**	**17201** **15,8**	**113522** **27,3**	**50973** **28,1**	**968** **0,9**	**9297** **2,2**	**4691** **2,6**	**39** **0,04**	**379** **0,09**	**370** **0,2**	**10908** **7** **12,4**	**416513** **12,0**	**181453** **12,6**	**1,66** **0,44**

* _____ ailənin sayı, sahə ha _____
ümumi ailənin və sahənin cəmindən %-lə

Cədvəl 64


Bölgədə məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)

A



Şəkil 274


B




Şəkil 275

Cədvəl 64.1

Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)



Şəkil 276




Şəkil 277

Cədvəl 64.2

Bölgənin rayonlarında məskunlaşan tək ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)


(1-2 nəf.)

A



Şəkil 278

B




Şəkil 279

Cədvəl 64.3

Bölgənin rayonlarında məskunlaşan kiçik ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)


(3-5 nəf.)

A



Şəkil 280

B




Şəkil 281

Cədvəl 64.4

Bölgənin rayonlarında məskunlaşan orta ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)


(6-8 nəf.)

A



Şəkil 282

B




Şəkil 283

Cədvəl 64.5

Bölgənin rayonlarında məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)


(9-12 nəf.)

A



Şəkil 284

B




Şəkil 285


Cədvəl 64.6

Bölgənin rayonlarında məskunlaşan ən böyük ailə qrupları (A) və onların mülkiyyətindəki torpaq sahələri (B)

(12 nəfərdən çox)



Şəkil 286



Şəkil 287

Beləliklə, bölgənin ayrı-ayrı rayonlarında kənd təsərrüfatına yararlı ümumi torpaq ehtiyatlarına görə ilkin mərhələdə xüsusi mülkiyyətə verilmiş torpaq sahələrinin ölçüsünün müəyyənləşdirilməsindəki fərq və eləcə də həmin ərazilərdə torpaq payı almış ailələrin sayındakı müxtəliflik ailə qruplarının və torpaqdan istifadənin kəmiyyət göstəricilərində mütənasibliyin pozulmasına səbəb olmuşdur. Ona görə də ayrı-ayrı ailə qruplarında ibarət olan torpaq mülkiyyətçiləri yeni təsərrüfatçılıq formaları yaratmaq üçün (tək, kiçik, orta, böyük və ən böyük ailələr) hansı ailə qrupunda birləşəcəyini zaman göstərəcəkdir.

IV. LƏNKƏRAN TƏBİİ İQTİSADİ-COĞRAFİ BÖLGƏSİ

Bölgə respublikanın cənub-şərqində yerləşərək, qərbdən və cənubdan İran dövləti ilə həmsərhəddir. Şərqdən Xəzər dənizi ilə əhatələnən bölgə şimalda Aran bölgəsinin Biləsuvar və Neftçala rayonları ilə sərhəd təşkil edir. Tərkibinə Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayonları daxildir. Sahəsi 606,9 min ha olmaqla respublika ərazisinin 7,0%-ni əhatə edir. Səthi əsasən dağlıqdır. Ərazidə şimala doğru Talış dağları bir-biirinə paralel uzanan üç böyük dağ silsilələrini birləşdirməklə çoxlu vadi və dağarası çökəkliklərə parçalanmış eroziyalı mürəkkəb relyef formasının yaranması ilə xarakterizə olunur. Beləliklə, orta və alçaq dağlıq, dağətəyi və dənizsahili düzənlikləri ilə səciyyələnən bölgə rütubətli və yarımrütubətli subtropik iqlim tipi ilə səciyyələnir.

Ərazinin dağətəyi və dənizsahili düzənlikdə əsasən yayı quraq keçən mülayim isti iqlimi şimala getdikcə yarımsəhra və quru bozqır (çöl) iqlim tipləri ilə əvəzlənir.

Bölgənin temperatur göstəricilərinə görə orta dağlıq ərazilərdə əsasən qışın mülayim soyuq, bəzi yüksək dağlıq yerlərdə qışın soyuq və yayın sərin keçməsi, alçaq dağlıq ərazilərdə isə qışın mülayim isti və yayı quraq rütubətli isti keçməsi ilə səciyyələnir. Bölgədə rütubətli subtropik iqlim şəraiti hakim olan rayonlarda havanın illik temperaturu (cədvəl 65, şəkil 288-292) 14,2^0-yə çatır. İlin qış fəslində temperatur 5,2^0-yə endiyi halda yayda həmin göstərici 23,2^0-yə qədər yüksəlir. İlin soyuq və isti dövrlərində temperatur göstəricisi 10,8-20,0^0 arasında dəyişir. İllik yağıntıların miqdarı 1400 mm-ə çatır. Bəzi illərdə isə yağıntının miqdarı daha yüksək olur. İllik havanın nisbi rütubətliyi 80% təşkil etməklə ayrı-ayrı fəsillər üzrə bu rəqəm fərqi 75-83% arasında dəyişir. İlin soyuq dövründə 84%-ə yüksələn nisbi rütubətlik isti dövrdə 6,0% fərqlə 78%-ə enir. İllik buxarlanma 900 mm-ə bərabərdir. Səth örtüyündən fəsillər üzrə mümkün buxarlanma 116-396 mm təşkil edir.

Torpaq səthinin temperaturu uyğun şəkildə illik 18^0-ə fəsillər üzrə 6-31^0 arasında dəyişməklə səciyyələnir.


Dağlıq ərazidə iqlim göstəriciləri hiss olunacaq dərəcədə dəyişir (Lerik). Burada havanın illik temperaturu 9,7-11,9^0 arasında dəyişməklə fəsillər üzrə qışda 1,3-3,0^0-yə, yayda isə 18,5-21,3^0-ə bərabər olur.

Cədvəl 65


Bölgənin əsas iqlim göstəriciləri

S/s	Metroloji stansiyalar	İqlim göstəriciləri*	Fəsillər üzrə				İllik	İlin dövrləri	
			Qış	Yaz	Yay	Payız		İsti	Soyuq
1	2	3	4	5	6	7	8	9	10
1	Astara	hava. t-u	5,2	16,9	23,2	10,7	14,2	20,0	10,8
		yağıntı	291	235	353	589	1398	497	901
		hava. nis.rüt.	83	80	75	81	80	78	84
		buxarlanma	116	246	396	142	900	642	258
		torpaq. səth.t-u	6,0	17,0	31,0	18,0	18,0	26,0	10,0
2	Yardımlı	hava. t-u	3,0	10,5	21,3	12,7	11,9	18,0	5,8
		yağıntı	142	155	81	267	645	278	367
		hava. nis.rüt.	70	73	61	77	70	67	73,0
		buxarlanma	112	157	339	154	760	522	238
		torpaq. səth.t-u	3,0	13,0	27,0	15,0	14,0	22,0	7,0
3	Cəlilabad	hava. t-u	3,6	11,8	24,7	15,6	13,9	20,7	7,1
		yağıntı	158	116	46	200	520	151	369
		hava. nis.rüt.	84	80	60	81	76	68	84
		buxarlanma	69	161	497	188	915	726	189
		torpaq. səth.t-u	3,0	14,0	30,0	17,0	16,0	25,0	8,0


* yağıntı və buxarlanma mm-lə, havanın aylıq və torpaq səthinin temperaturu dərəcə ilə, havanın nisbi rütubəti %-lə göstərilmişdir.


Havanın orta temperaturu C⁰
Astara
5.2
16.9
23.2
10.7
14.2
20.0
10.8
Yardımlı
3.0
10.5
21.3
12.7
11.9
18.0
5.8
Cəlilabad
3.6
11.8
24.7
15.6
13.9
20.7
7.1
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 288

Cədvəl 65.1


Astara
Yağıntı (mm)
1398
901
589
497
353
291
235
Yardımlı
645
367
278
167
142
155
81
Cəlilabad
520
369
200
158
151
116
46
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 289


Cədvəl 65.2




Şəkil 290

Cədvəl 65.3


Astara **Səth örtüyündən buxarlanma (mm)**




Yardımlı




Cəlilabad






Cədvəl 65.4


Astara **Torpaq səthinin orta temperaturu C^0**




Yardımlı



Cəlilabad





Yağıntıların illik miqdarı 645 mm-ə çatır və əsas yağıntılar bütün bölgədə olduğu kimi ilin soyuq dövründə düşür. Havanın illik nisbi rütubətliyi 70-73%-dir. Fəsillər üzrə bu rəqəm 61-80% arasında tərəddüd edir. Səth örtüyündən mümkün buxarlanma 671-760 mm-ə çatır. Torpaq səthinin illik temperaturu 11-14^0-ə bərabərdir. Bölgənin dağətəyi və dənizsahili düzənliyinin cənubu rütubətli subtropik Astara və Lənkəran rayonlarından fərqli olaraq yarımrütubətli subtropik iqlimi ilə səciyyələnən Masallı və Cəlilabad rayonlarında yayı quraq keçən mülayim isti, quru və isti iqlim tipi üstünlük təşkil edir. Burada illik temperatur 20,7^0-yə qədər yüksəlir. İlin fəsilləri üzrə dəiyşən temperatur fərqi qışda 3,8-3,6^0-yə, yayda isə 24,5-24,7^0-yə çatır. İllik yağıntıların miqdarı 520-633 mm-dir. Şimala getdikcə bu göstərici isə 400-450 mm-ə enir. Digər tərəfdən bölgənin bu hissəsində qış və payız aylarında maksimum yağıntıların düşməsi (80%), yay aylarında (xüsusilə may-avqust) onun miqdarının kəskin şəkildə minmuma enməsi bir növ quraq dövrün başlanmasından xəbər verir. Bölgənin bu hissəsi üçün səth örtüyündən mümkün buxarlanmanın illik atmosfer çöküntülərindən xeyli artıq olması (915-950 mm) ərazidə suvarma əkinçiliyin inkişafına səbəb olmuşdur.

Bölgənin dağlıq ərazisində əsasən torpaqəmələgətirən tufogen çökmə və püskürülmüş süxurların müxtəlif çeşidli aşınma qabığının törəmələri olan delüvial-elüvial çınqıllı gil, zəif laylı, bərkimiş və adətən zəif sukeçirmə qabiliyyətli materiallar təşkil edir. Aşınma qabığının təkrar çökmüş, delüvial, prolüvial, prolüvial-delüvial və dəniz çöküntülərinin müxtəlif çeşidli qarışığının sialitli, karbonatlı və xlorlu-sulfatlı gətirmə materialları ərazidə dağətəyi və ovalığın əsas torpaqəmələgətirən süxurlarından ibarətdir. Bu tip çöküntülər bərkimiş gilli, gillicəli, çeşidlənmiş laylılığın olmaması, dəniz çöküntülərinin gilli, gillicəli, çeşidlənməmiş, qumsal, qumlu, balıqqulağı qranulometrik tərkibli olmaları ilə səciyyələnir.

Bölgənin bitki örtüyündəki özünəməxsus zəngin biomüxtəlifliyi diqqəti cəlb edir. Ərazinin dağlıq hissəsində meşə örtüyü

üstünlük təşkil edir. Yaxın keçmişdə meşə örtüyü daha geniş əraziləri əhatə etmişdir. Xüsusilə son 50 ildə güclü antropogen təsirlərə məruz qalan meşə örtüyü dağlıq və dağətəyi hissədə qırılaraq kənd təsərrüfatı bitkiləri altında istifadə edilməyə başlanmışdır. Meşə ilə örtülü digər ərazilərdə hazırda əhali tərəfindən (məişətdə yanacaq, tikinti, mebel və s.) müxtəlif məqsədlər üçün geniş istifadə edildiyindən təbii sıxlığı xeyli seyrəlmişdir. Hazırda yarımsəhra bitkiləri ilə örtülmüş bölgənin şimal hissəsində (Masallı və Cəlilabad rayonları) orta dağlıq və dağətəyi qurşaqda əmələ gəlmiş torpaqların meşə mənşəli olduğu müəyyənləşdirilmişdir. Ərazinin cənub hissəsində (Astara və Lənkəran rayonları) üçüncü dövrün Hirkan tipli meşələrinin vaxtilə geniş ərazilərdə yayıldığı faktı da danılmazdır. Hazırda az bir sahədə üçüncü dövrün relikt endemik növündən olan Hirkan meşələri bu yaxınlarda milli park elan edilmişdir.

Bölgənin alçaq dağlıq və orta dağlıq qurşağında da meşə örtüyü çox az sahədə qorunub saxlanmışdır. Meşəsiz sahələrin çox hissəsi alçaq boylu meşə-kolluqlarla əvəz olunmuşdur. Ümumiyyətlə, subtropik zonanın meşələri şabalıdyarpaq palıd, dəmirağacı, vələs, fıstıq, qismən azat, qafqaz xurması məxməri ağcaqayın, güləbrişim, cökə və s. ağac cinslərindən və zoğal, alça, dəmirqara, yemişan, itburnu kol cinslərindən təşkil olunmuşdur.

Bölgədə dağətəyi və dənizsahili düzənliklər bozqır, yarımsəhra və bataqlıq bitki qruplaşmalarının yayılma zənginliyi ilə səciyyələnir. Bölgədə iqlim şəraitinin və bitki örtüyünün şaquli zonallıq üzrə dəyişməsi ərazidə torpaq örtüyünün əmələgəlmə və formalaşmasında da həlledici rol oynayır.

Bölgənin torpaq xəritəsinə əsasən (xəritə-sxem 5) ərazinin torpaq örtüyünü əks etdirən müxtəlif tip və yarımtiplərin əhatə etdiyi sahələrin ölçüsü göstərilmişdir.

Bölgənin əsas torpaq fondu, yəni 408,8 min hektarı alçaq və orta dağlıq ərazilərdə yayılmışdır. Dağlıq ərazilərdə yayılmış torpaq ehtiyatlarının 49,6%-ni, yəni 202,8 min hektarını

LƏNKƏRAN BÖLGƏSİNİN TORPAQ XƏRİTƏ-SXEMİ
1 : 600 000



Xəritə-sxem 6

Torpaqlar

2 Çimli dağ-çəmən
4 Bozqır dağ-çəmən
5 Çəmənləşmiş dağ-meşə
7 Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə
8 Sarı qonur dağ-meşə
9 Tipik sarı dağ-meşə
10 Podzollu sarı dağ-meşə
11 Çimli-karbonatlı dağ-meşə
12 Yuyulmuş qəhvəyi dağ-meşə
13 Tipik qəhvəyi dağ-meşə
14 Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə
17 Tünd və adi dağ boz-qəhvəyi
18 Açıq dağ boz-qəhvəyi
22 Podzollu sarı
23 Podzollu-qleyli sarı
24 Tünd və adi şabalıdı
30 Açıq və ibtidai boz
31 Çəmən-boz
36 Subasar allüvial-çəmən
37 Çəmən bataqlıq və bataqlıq
38 Şoranlar (delüvial, allüvial, sopkalı)
40 Takırlar və takırabənzərlər
41 Dyunlu təpəcikli qumlar
44 Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar

Qranulometrik tərkib

Gilli
Ağır gilliceli
Orta gilliceli
Yüngül gilliceli
Qumsal
Qumlu

Şorlaşma

Şorlaşmayan
· Zəif şorlaşmış
· · Orta şorlaşmış
∴ Şiddətli şorlaşmış

Eroziyaya uğrama

Eroziyaya uğramayan
V Zəif eroziyalı
N Orta eroziyalı
W Şiddətli eroziyalı

\\\ Suvarılan torpaqlar

Dövlət sərhəddi
Rayonların inzibati sərhəddi
Baş suvarma kanalı

əsasən meşə mənşəli çəmənləşmiş dağ-meşə, bozqırlaşmış qonur dağ-meşə, sarı dağ-meşə tip və yarımtipləri, qəhvəyi dağ-meşə və dağ boz-qəhvəyi tip və yarımtip (kontur 1, 2, 4, 5, 7, 8, 9, 10, 11, 12, 13, 14, 17, 18) torpaqları təşkil edir (cədvəl 66, şəkil 293).


Cədvəl 66

Bölgənin torpaq örtüyünün tərkibi

Kontur №-si	Tip və yarımtiplər	Sahə	
		ha	%
1	2	3	4
2	Çimli dağ-çəmən	46690	7,7
4	Bozqır dağ-çəmən	29864	4,9
5	Çəmənləşmiş dağ-meşə	4425	0,7
7	Karbonatlı qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə	14795	2,4
8	Sarı qonur dağ-meşə	23745	3,9
9	Tipik sarı dağ-meşə	28506	4,7
10	Podzollu sarı dağ-meşə	26371	4,3
11	Çimli karbonatlı dağ-meşə	1794	0,3
12	Yuyulmuş qəhvəyi dağ-meşə	19462	4,9
13	Tipik qəhvəyi dağ-meşə	45794	7,5
14	Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə	3580	0,6
17	Tünd və adi dağ boz-qəhvəyi	56021	9,2
18	Açıq dağ boz-qəhvəyi	29516	4,9
22	Podzollu-sarı	21666	3,6
23	Podzollu-qleyli-sarı	2827	12,0
24	Tünd və adi şabalıdı	9429	1,6
30	Açıq və ibtidai boz	41040	6,8
31	Çəmən-boz	1930	0,3
36	Subasar-allüvial-çəmən	28083	4,6
37	Çəmən bataqlı və bataqlıq	49925	8,2
38	Şoranlar (delüvial, allüvial və sopkalı)	12743	2,1
41	Dyunlu təpəcikli qumlar	9500	1,6
44	Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	19198	3,2
	Cəmi	**606904 7,0**	**100**

Cədvəl 66

Bölgənin torpaq örtüyünün tərkibi (ha/%)



Çimli dağ-çəmən və bozqır dağ-çəmən torpaqları bölgənin Astara, Lerik və Yardımlı rayonlarının ərazilərində yayılmışdır. Çimli dağ-çəmən torpaqları əsasən yay otlaq sahələri olub, təbii yem mənbəyi kimi qoyunçuluğun inkişafında istifadə olunur. Bozqır dağ-çəmən torpaqları əsasən kartof və dənli bitkilərin əkinləri altında və qismən isə biçənək sahələri kimi mənimsənilir. Meşə torpaqları bölgənin hidroloji rejiminin tənzimlənməsinə həlledici rol oynamaqla, üzərindəki canlı meşə və ot örtüyü ilə torpaqqoruyucu, iqlim mülayimləşdirici əhəmiyyəti vardır. Sahəsi ümumi dağ torpaqlarının 33,4%-nə və ya 202,8 min hektarına bərabərdir. Meşə örtüyü altında yayılmış torpaqlarda qeyri-kapilyarlığın yüksək olması əraziyə düşən yağıntıların torpağa hopmasına böyük təsir göstərdiyindən səthi su axımının əmələ gəlməsinin qarşısı alınır ki, bu da səth suyunun torpağa dağıdıcı təsirini zəiflədir. Ərazidə

bozqırlaşmış meşə talalar əsasən otlaq və biçənək sahələri kimi yerli əhali tərəfindən geniş istifadə edilməkdədir. Dağlıq ərazilərdə vaxtilə bir çox yaşayış məntəqələrinin ətrafı sıx meşələrlə örtüldüyü halda, hazırda demək olar ki, həmin yaşayış məntəqələri ətrafındakı meşələr amansızcasına qırılaraq əkin və örüş sahələrinə çevrilmişdir. Xüsusilə son illər meşəsizləşmiş ərazilərin hüdudlarının genişlənməsi burada eroziya, sel və sürüşmə hadisələrinin geniş yayılmasına səbəb olmuşdur.

Dağətəyi düzənlikdə geniş ərazidə yayılmış boz-qəhvəyi torpaqların tip və yarımtipləri (kon. 17, 18) bölgənin şimal bölgəsində əsasən Cəlilabad və qismən isə Masallı rayonlarında rast gəlinir. Əsasən taxılçılığın və üzümçülüyün inkişaf etdirilməsi üçün ən münbit torpaqlardan hesab olunur və sahəsi 97,2 min ha olmaqla ümumi düzən torpaqlarının təqribən 49,1%-ni əhatə edir. Bölgənin Astara, Lənkəran, qismən Masallı rayonlarında əsasən çayçılıqda və digər sübtropik bitkilərin əkinlər altında istifadə olunan podzollu sarı torpaqların sahəsi 24,6 min hektardan çox olmaqla ümumi düzən torpaqların 12,4%-ni təşkil edir. Sarı torpaqların digər yarımtipi podzollu qleyli-sarı torpaqlar əsasən Astara. Lənkəran və qismən Masallı rayonlarına məxsus olan dənizsahili düzənlikdə yayılmışdır. Sahəsi 72,8 min hektara çatan podzollu qleyli-sarı torpaqlar ümumi düzən torpaqlarının 12,0%-ni təşkil etməklə kənd təsərrüfatında əsasən tərəvəzçilikdə, qismən taxılçılıqda və heyvandarlıqda örüş və otlaq sahələri kimi istifadə olunur.

Lənkəran ovalığında geniş sahələrdə yayılmış şabalıdı, boz, çəmən-boz, allüvial-çəmən və bataqlı torpaqlar hazırda müxtəlif kənd təsərrüfatı bitkiləri altında əkib-becərilir. Bu torpaqlar düzən torpaqlarının 148,1 min hektarına və ya 74,8%-nə bərabər olmaqla əksər hallarda kəndyanı örüş və otlaq sahələri kimi çox dəyərli torpaqlardır.

Söylənilənlərlə yanaşı, bölgənin, xüsusilə dənizsahili düzənliyin torpaqları ilə lokal şəraitdə komplekslik yaradan şoran torpaqlar və dyunlu təpəcikli qumların düzən torpaqla-

rının az bir hissəsini, yəni 2,1%-ni əhatə etməklə (kon. 38 və 42-25,3 min ha) əsasən yararlı və şərti yararsız, az məhsuldar, qismən örüş sahələri kimi istifadə olunur. Dağ torpaqlarının 5,3%-ni (kon. 44- 21,8 min ha) təşkil edən çılpaq qayalıqlar və səthə çıxmış gilli süxurlar da bölgənin torpaq örtüyünün tərkib hissəsinə daxil olan sahələrdir. Bütün bu sadalanan torpaq tip və yarımtipləri vahid torpaq fondu halında bölgəyə daxil olan 6 inzibati rayonda məskunlaşan əhali tərəfindən müəyyən edilmiş sərhədlər daxilində istifadə edilir.

Bölgənin ümumi torpaq fondunun yararlı torpaq ehtiyatları demək olar ki, bütünlüklə kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmişdir. Hazırda bölgəyə daxil olan inzibati rayonlar regionun ümumi torpaq fondunun (606,9 min ha) təqribən 288,6 min hektardan və ya 47,5%-dən kənd təsərrüfatının müxtəlif sahələrində istifadə edilir (cədvəl 67, şəkil 294-299). Bundan başqa bölgənin Lerik və Yardımlı rayonları Aran bölgəsinin Cəlilabad, Neftçala və Biləsuvar rayonları ərazisində yerləşən 31,2 min ha dövlət fondu qış otlaq torpaqlarından istifadə edirlər.

Bölgə daxilində kənd təsərrüfatında istifadə olunan torpaqların 47,3%-i və ya 136,5 hektarı əkin və dincə qoyulmuş sahələrdən ibarətdir. Çoxillik əkmələr altında becərilən torpaqların sahəsi 9,5 min hektardan bir qədər artıqdır (3,3%). Regionda biçənək torpaqları kimi istifadəsi mümkün sayılan ərazilər yararlı torpaq ehtiyatlarının az bir hissəsini, yəni 15,2 min hektarını və ya 5,3%-ni təşkil edir.

Kənd təsərrüfatına yararlı həyətyanı torpaqların sahəsi çoxillik əkmələr becərilən və biçənək torpaqlarına nisbətən çoxdur və təqribən 8,6%-ə (25,0 min ha) çatır. Əkin və dincə qoyulmuş torpaqlara nisbətən bölgədə geniş sahəni tutan örüş və otlaq torpaqları yararlı torpaqların 35,5%-ni (102,4 min ha) əhatə edir. Meşə fondu torpaqları bölgənin ümumi torpaq fondunun 147,3 min hektarını və ya 24,3%-ni təşkil edir.


Cədvəl 67

Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Örüş və otlaqlar	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Astara	61643 10,2	6265 35,7	2176 12,4	638 3,6	5034 28,7	3451 19,6	17564 28,5	37188 60,3	6891 11,2
	o.c.suv.	4566 7,4	3130 68,5	1436 31,5	-	-		4566 26,0	-	-
2	Yardımlı	66720 11,0	15430 36,8	109 0,3	5111 12,2	18937 45,2	2309 5,5	41896 62,8	17260 25,9	7564 11,3
3	Lerik	108360 17,9	13656 23,6	382 0,7	3463 6,0	38586 66,8	1700 2,9	57787 53,3	35895 33,1	14678 13,5
	o.c.suv	406 0,3	406 100	-	-	-	-	406 0,7	-	-
4	Lənkəran	153941 25,4	8735 32,0	5254 19,3	1686 6,2	8391 30,8	3194 11,7	27260 17,7	29050 18,9	97631 63,4
	o.c.suv	9533 6,2	6029 63,2	3504 36,8	-	-	-	9533 35,0	-	-
5	Masallı	72097 11,9	25099 69,9	1433 4,0	2168 6,0	3895 10,9	3299 9,2	35894 49,8	16881 23,4	19322 26,8
	o.c.suv	9272 12,9	8019 86,5	1253 13,5	-	-	-	9272 25,8	-	-
6	Cəlilabad	144143 23,7	67269 63,1	174 0,2	2121 2,0	27597 25,5	11014 10,2	108175 75,0	11008 7,6	24960 17,3
	o.c.suv	9165 6,4	8440 92,1	-	72 0,8	432 4,7	221 2,4	9165 8,5	-	-
	Cəmi	**606904 7,0**	**136454 47,3**	**9528 3,3**	**15187 5,3**	**102440 35,5**	**24967 8,6**	**288576 47,5**	**147282 24,3**	**171046 28,2**
	o.c.suv.	**32942 2,3**	**26024 79,0**	**6193 18,8**	**72 0,2**	**432 4,7**	**221 0,7**	**32942 11,4**	-	-

Cədvəl 67


Bölgənin ümumi torpaq fondunun rayonlar üzrə istifadəçilik paylanma strukturu (ha/%)



Şəkil 294

Cədvəl 67.1


Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 295

Cədvəl 67:2


Bölgənin ümumi torpaq fondunun əsas tərkib hissəsi (ha/%)



Şəkil 296

Cədvəl 67.3


Bölgənin kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 297

Cədvəl 67.4

Bölgənin yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)




Əkin+dinc
Çoxillik əkmələr
Biçənək
Örüş və otlaqlar
Həyətyanı

Şəkil 298

Cədvəl 67.5

Bölgənin ümumi suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Əkin+dinc
Çoxillik əkmələr
Biçənək və həyətyanı
Örüş və otlaqlar

Şəkil 299

Kənd təsərrüfatında istifadə olunmayan sair torpaqlar ümumi torpaq fondunun 28,2%-ni (171 min hektar) əhatə edir. Lənkəran rayonu ərazisində torpaqların bir hissəsini əhatə edən və ümumi sahəsi 88,4 min hektara çatan Qızılağac qoruğu fəaliyyət göstərir. Bundan başqa Lerik və Yardımlı rayonları ərazisində 15 min hektarlıq sahədə yaradılmış Zuvand yasaqlığı sair torpaqların tərkib hissəsini əhatə edir. Sair torpaqların tərkib hissəsin daxil olan kənd təsərrüfatına az yararlı və şərti yararsız sahələr gələcəkdə əsaslı şəkildə yaxşılaşdırmaqla kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsini təmin edə biləcək yeganə ehtiyat torpaq mənbəyi hesab olunur. Regionda istifadə olunan torpaqların təqribən 33,0 min hektarı suvarılan sahələrdir. Bu isə respublika üzrə kənd təsərrüfatına yararlı torpaqların 2,3%-nin suvarılması deməkdir. Bütün bölgə üzrə ən çox suvarılan torpaqlar əkin sahələridir. Bu göstərici 63,2-92,1% intervalında dəyişir.

Bölgənin ayrı-ayrı rayonlarında kənd təsərrüfatına yararlı torpaq sahələrinin ölçüsü müxtəlif intervalda dəyişir. Bölgədə ən az torpaq ehtiyatlarının Astara rayonunda 61,6 min ha və ya bölgənin ümumi torpaq fondunun 10,2% həddindədir. Bölgədə ən çox torpaq ehtiyatına malik olan Lənkəran rayonunda həmin göstərici 153,9 min hektara və ya ümumi torpaq fondunun 25,4%-ə qədər yüksəlməsinə baxmayaraq kənd təsərrüfatında istifadə olunan torpaq sahəsinin kəmiyyətinə görə axırıncı yerdə durur. Cəlilabad rayonunun ərazisi Lənkəran rayonunun ərazisindən təqribən yüz min ha az olmasına baxmayaraq burada kənd təsərrüfatına yararlı torpaq sahələrinin ölçüsü ikinciyə nisbətən təqribən 4 dəfə çoxdur. Bölgə əhalisinin yaşayışının əsas təminatçısı sayılan əkin torpaqlarının ölçüsü xeyli məhdud olmaqla yanaşı həm də müxtəlifdir. Belə ki, əkin torpaqları ən çox Cəlilabad rayonunda 67,3 min ha və Masallı rayonunda isə 25,1 min hektar olduğu halda, bölgənin digər rayonlarında bu göstərici 6,3-15,4 min hektar arasında dəyişir.

Hazırda bölgənin kənd təsərrüfatında uzun müddət istifa-

də olunan yararlı torpaqların münbitlik xassələrini səciyyələndirən və mövcud durumunu əks etdirən keyfiyyət qruplarının paylanması dinamikası cədvəllərini nəzərdən keçirək (cədvəl 68, şəkil 300-305).

Münbitlik xassələrinə görə yararlı torpaq ehtiyatları dörd keyfiyyət qrupunda paylanmışdır. Hal-hazırda bölgənin kənd təsərrüfatı dövriyyəsində istifadə olunan torpaq ehtiyatlarının 10,1%-i (29,3 min ha) yüksək keyfiyyətli torpaqlardan ibarətdir. Bunun da əsas kütləsini, yəni təqribən 85,3%-ni (25,0 min ha) kənd təsərrüfatına yararlı həyətyanı torpaqlar təşkil edir. Digər kənd təsərrüfatı sahələrinin yerləşdiyi torpaqlar çox az miqdarda, yəni 14,7%-ə (4,3 min ha) yaxındır. O cümlədən əkin və çoxillik əkmələrin torpaqları 7,9%-ə (2,3 min ha) çatır. Yaxşı keyfiyyətli torpaqların 60,4%-ni (82,4 min ha) əkin və dincə qoyulmuş torpaqlar tutur. Sahəsi təqribən 100,8 min ha təşkil edən orta keyfiyyətli torpaqlar (III qrup) kənd təsərrüfatı sahələrinin təqribən 35,0%-ni təşkil edir. Bu vəziyyətdə əkin və dincə qoyulmuş torpaqlar 50,3 min ha və ya III qrupun cəminin 49,9%-nə qədərdir. IV keyfiyyət qrupuna yararlı torpaqların yalnız 10,7% (30,9 min ha) transfer olmuşdur. Burada üstünlük kəndyanı örüş torpaqlarının payına (24,0 min və ya 30,4%) düşür. Əslində kənd təsərrüfatında aparıcı rol oynayan əkin və dincə qoyulmuş torpaqların 37,0%-nin (50,3 min ha) və çoxillik əkmələr becərilən torpaqların 33,2%-nin (3,2 min ha) III keyfiyyət qrupunda yer almasını torpağın münbitlik durumunda tənəzzül prosesinin baş verməsi ilə əlaqələndirmək olar. Şübhəsiz ki, yaxın keçmişdə bu torpaqlarının III keyfiyyət qrupunda tutduğu sahə bu qədər geniş olmamışdır. Lakin uzun müddət torpağa lazımi qədər qayğı göstərmədən istismar edilməsi onun II keyfiyyət qrupundan III keyfiyyət qrupuna transferliyinin sürətlənməsinə səbəb olmuşdur. Belə hallara çoxillik əkmələr altında becərilən torpaqlarda və eləcə də biçənək torpaqlarında da rast gəlinir. Bölgənin örüş və otlaqlarının mövcud durumu daha acınacaqlı xarakter almışdır. Belə ki, sahələrin intensiv otarılması


Cədvəl 68

Bölgənin ümumi kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları üzrə paylanması (ha/%)

Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Kəndyanı örüş	Otlaqlar		Cəmi
								qış	yay	
	100-81	I	2221 7,6	101 0,3	-	24967 85,3	1414 4,3	254 0,9	303 1,0	29260 10,1
	80-61	II	82373 67,4	6141 5,0	5938 4,9	-	17957 14,7	5833 13,0	3960 3,2	122202 42,3
	60-41	III	50321 49,9	3165 3,1	8511 8,4	-	30348 30,1	3566 3,5	4927 4,9	100838 34,9
	40-21	IV	1539 5,0	121 0,4	738 2,4	-	23994 77,7	272 0,9	4206 13,6	30870 10,7
	20-1	V	-	-	-	-	5254 97,2	-	151 2,8	5405 2,0
606904 7,0	**100-1**	**I-V**	**136454 47,3**	**9528 3,3**	**15187 5,3**	**24967 8,6**	**78967 27,4**	**9925 3,4**	**13547 4,7**	**28857 47,5**

Cədvəl 68


Bölgənin kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları üzrə paylanması (ha/%)



Şəkil 300

Cədvəl 68.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 301

Cədvəl 68.2

II keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)




Əkin+dinc
Çoxillik əkmələr
Biçənək
Kəndyanı örüş
Qış otlağı
Yay otlağı

Şəkil 302

Cədvəl 68.3

III keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)




Əkin+dinc
Çoxillik əkmələr
Biçənək
Kəndyanı örüş
Qış otlağı
Yay otlağı

Şəkil 303

Cədvəl 68.4


IV keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 304

Cədvəl 68.5

V keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 305

və otlaq yükünün ildən-ilə həddən ziyadə artırılması nəticəsində vaxtilə I və II keyfiyyət qrupunda bərqərar olan otlaq sahələri hazırda bu qrupdan III, IV və hətta V keyfiyyət qruplarına transfer olunmuşdur.

Uzunmüddətli istismar nəticəsində yararsız sahələrə çevrilən və kənd təsərrüfatı dövriyyəsindən çıxarılmış örüş və otlaq torpaqlarının sahəsi 2,0%-ə (5,4 min ha) çatır. Bunun 6,7%-nin (5,2 min ha) kəndyanı örüş torpaqlarından ibarətdir. Belə hallara bölgənin ayrı-ayrı rayonlarında istifadə olunan örüş və otlaq torpaqlarında da müşahidə edilir. Ayrı-ayrı rayonların hazırda müxtəlif kənd təsərrüfatı sahələri altında istifadə edilən torpaqların keyfiyyət qrupları arasında dinamiklik mövcuddur və hər biri özünəməxsusluğu ilə səciyyələnir. Bölgənin kənd təsərrüfatı sahələrində hazırda baş verən mənfi proseslərin daha geniş vüsət alması şübhəsiz ki, yaxın gələcəkdə torpaqların V keyfiyyət qrupuna transferlik dinamikasını sürətləndirəcəkdir. Hazırda kəndyanı örüş sahələrinin 38,4%-nin yay və qış otlaqlarının isə 35,9-36,4%-i III və uyğun şəkildə IV keyfiyyət qrupunda (30,4, 2,7-31,0%) cəmlənmişdir (cədvəl 69). Odur ki, gələcəkdə kənd təsərrüfatı sahələri altında istifadə edilən torpaqlarda transferlik dinamikasını zəiflətməklə onların münbitlik xassələrini əsaslı şəkildə yaxşılaşdırılması təmin edilməlidir.

Beləliklə, irəlidə deyilənlərin real əksi, bölgənin suvarılan torpaqlarının mövcud meliorativ durumunda və bütövlükdə torpaq örtüyündə baş verən çoxsaylı mənfi proseslərin (şorlaşma, eroziya, bataqlaşma və s.) təsiri ilə müşayiət olunmaqda bir daha özünü göstərir.

Cədvəl 69

Bölgənin rayonlarında kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
					Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Otlaq və otlaqlar			Cəmi
									kəndyanı	qış	yay	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Astara		100-81	I	444 7,1	26 1,2	-	3451 100	79 2,1	-	28 2,0	4028 22,9
			80-61	II	2299 36,7	1249 57,4	280 43,9	-	494 13,4	-	173 12,7	4495 25,6
			60-41	III	3333 53,2	899 41,3	163 25,5	-	699 19,0	-	247 18,1	5341 30,4
			40-21	IV	189 3,0	2 0,1	195 30,6	-	2400 65,5	-	846 62,2	3632 20,7
			20-1	V	-	-	-	-	-	-	68 5,0	68 0,4
	Cəmi	**61643 10,2**	**100-1**	**I-V**	**6265 35,7**	**2176 12,4**	**638 3,6**	**3451 19,6**	**3672 20,9**	**-**	**1362 7,7**	**17564 28,0**
2	Yardımlı		100-81	I	-	-	-	2309 100	307 2,7	-	195 2,6	2811 6,7
			80-61	II	5523 35,8	44 40,4	1206 23,6	-	2039 17,8	-	1296 17,3	10108 24,1
			60-41	III	9845 63,8	64 58,7	3812 74,6	-	4422 38,7	-	2923 39,0	21066 50,3
			40-21	IV	62 0,4	1 0,9	93 1,8	-	4539 39,7	-	3003 40,0	7698 18,4
			20-1	V	-		-	-	130 1,1	-	83 1,1	213 0,5
	Cəmi	**66720 11,0**	**100-1**	**I-V**	**15430 36,8**	**109 0,3**	**5111 12,2**	**2309 5,5**	**11437 27,3**	**-**	**7500 17,9**	**41896 62,8**
3	Lerik		100-81	I	14 0,1	-	-	1700 100	485 1,3	-	-	2199 3,8

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			80-61	II	2130 15,6	53 13,9	630 18,2	-	4216 11,3	-	370 31,2	7399 12,6
			60-41	III	10324 75,6	238 62,3	2608 75,3	-	13814 36,9	-	550 46,4	27534 47,6
			40-21	IV	1188 8,7	91 23,8	225 6,5	-	13762 36,8	-	265 22,4	15531 26,9
			20-1	V	-	-	-	-	5124 13,7	-	-	5124 8,9
	Cəmi	**108360 17,9**	**100-1**	**I-V**	**13656 23,6**	**382 0,7**	**3463 6,0**	**1700 2,9**	**34401 64,7**	**-**	**1185 2,1**	**57787 53,3**
4	Lənkəran		100-81	I	149 1,7	58 1,1	-	3194 100	203 2,4	-	-	3604 13,2
			80-61	II	5965 68,3	3714 70,7	378 22,4	-	2668 31,8	-	-	12725 46,7
			60-41	III	2614 29,9	1482 28,2	1308 77,6	-	4693 55,9	-	-	10097 37,0
			40-21	IV	7 0,1	-	-	-	827 9,9	-	-	834 3,1
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**153941 25,4**	**100-1**	**I-V**	**8735 32,0**	**5254 19,3**	**1686 6,2**	**3194 11,7**	**8391 30,8**	**-**	**-**	**27260 17,7**
5	Masallı		100-81	I	-	-	-	3299 100	-	-	-	3299 9,2
			80-61	II	11094 44,2	1006 70,2	1790 82,6	-	-	-	-	13890 38,7
			60-41	III	13980 55,7	400 27,9	153 7,1	-	1814 46,6	-	-	16347 45,5
			40-21	IV	25 0,1	27 1,9	225 10,4	-	2080 53,4	-	-	2356 6,6
			20-1	V	-		-	-	-	-	-	-
	Cəmi	**72097 11,9**	**100-1**	**I-V**	**25099 69,9**	**1433 4,0**	**2168 6,0**	**3299 9,2**	**3894 10,8**	**-**	**-**	**35892 49,8**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
6			100-81	I	1614 2,4	17 9,8	-	11014 100	340 2,4	251 2,6	80 2,3	13319 12,3
			80-61	II	55362 82,3	75 43,1	1654 78,0	-	8540 60,3	5883 58,8	2121 60,6	73585 68,0
	Cəlilabad		60-41	III	10225 15,2	82 47,1	467 22,0	-	4906 34,6	3566 35,9	1207 34,5	20453 18,9
			40-21	IV	68 0,1	-	-	-	386 2,7	272 2,7	92 2,6	818 0,8
			20-1	V	-	-	-	-	-	-	-	
	Cəmi	**144143 23,7**	**100-1**	**I-V**	**67269 62,2**	**174 0,2**	**2121 2,0**	**11014 10,2**	**14172 13,1**	**9925 9,2**	**3500 3,2**	**108175 75,0**

Bölgədə torpaqların mövcud meliorativ durumunun araşdırılmasından görünür ki, (cədvəl 69, şəkil 306-308) ərazidə suvarılan torpaqların 31,6 min hektarı qrunt sularına əsasən 1,0-3,0 və 3,0 m-dən çox dərinliklərdə yerləşən sahələrdə paylanması ilə fərqlənir. Belə ki, bölgə üzrə suvarılan torpaqların 59,1%-i (19,5 min ha) 1,0-3,0 m, 36,8%-i (12,2 min ha) isə 3,0 m-dən çox dərinlikdə paylanmışdır. Qrunt sularının mineralaşma dərəcəsinə görə baş verə biləcək şorlaşma təhlükəsi suvarılan torpaqların sahəsi bölgə üzrə birinci halda, yəni 1,0-3,0 q/l-də 19,0 min ha (57,5%) və ikinci halda isə 4,1 min (12,5%) ha təşkil edir.

Belə halda Cəlilabad və Masallı rayonlarında mineralaşma dərəcəsi 3 q/l-dən çox olan suvarılan torpaqların sahəsi 3,1-1,0 min ha arasında dəyişir.


Cədvəl 70

Bölgədə ümumi suvarılan torpaqlarının melioativ vəziyyətinə dair bəzi göstəricilər (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının mineralaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və mineralaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Astara	4566 13,9	-	2472 12,7	2094 17,3	1800 18,3	2766 14,6	-	1200 17,7	2966 14,6	400 6,8
2	Cəlilabad	9165 27,8	1113 83,0	5418 27,8	2634 21,7	2680 27,2	3390 17,9	3095 74,8	1355 20,0	4970 24,5	2840 48,6
3	Lənkəran	9533 28,9	230 17,0	7220 37,1	2083 17,2	4650 47,3	4883 25,7	-	1683 24,8	6240 30,7	1610 27,4
4	Masallı	9272 28,1	-	4370 21,9	4902 40,4	300 3,0	7930 41,8	1042 25,2	2130 31,4	6122 30,2	1020 17,4
5	Lerik	406 1,3	-		406 3,3	406 4,1	-	-	406 6,0	-	-
	Cəmi	**32942 2,6**	**1343 4,1**	**19480 59,1**	**12119 36,8**	**9836 30,0**	**18969 57,5**	**4137 12,5**	**6774 20,6**	**20298 61,6**	**5870 17,8**

Cədvəl 70


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 306

Cədvəl 70.1


Bölgənin ümumi suvarılan torpaqların qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 307

Cədvəl 70.2

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 308

Bölgədə suvarılan torpaqların qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə 20,6%-i (6,8 min ha) hazırkı meliorativ vəziyyətinə görə yaxşı qiymətləndirilmişdir. Qrunt sularının dərinliyinə görə suvarılan torpaqların 61,6%-i (20,3 min ha) kafi qiymətləndirilsə də 17,8%-i (5,9 min ha) qeyri-kafi vəziyyətdə olması ilə səciyyələnir. Bölgənin ayrı-ayrı rayonlarının suvarılan sahələrində qiymətləndirmənin ölçü səviyyəsi müxtəlifdir. Məsələn, bölgə üzrə suvarılan torpaqların 27,8%-i (9,2 min ha) yerləşən Cəlilabad rayonunda suvarılan sahələrin 17,7%-i (1,4 min ha) yaxşı durumdadır. Kafi durumda 24,5%-i və ya 5,0 min ha-ı və qeyri-kafi vəziyyətdə isə onun 48,4%-i (2,8 min ha) olduğu müəyyənləşdirilmişdir. Lənkəran rayonunda bu rəqəm 17,1%-ə (0,2 min ha) enir.

Qrunt sularının minerallaşma dərəcəsi 1,0-3,0 q/l arasında dəyişən Masallı, Lənkəran və Cəlilabad rayonlarında suvarılan torpaqların sahəsi 7,9-3,4 min hektar arasında dəyişir. Belə bir vəziyyətdə suvarılan torpaqlarda baş verən şorlaşma prosesinin getdikcə genişlənəcəyindən xəbər verir. Bölgənin dənizsahili düzənliklərində təbii drenləşmənin zəif olması və

suvarılan sahələrdə kollektor-dren şəbəkəsinin tikilməməsi torpaqların təkrar şorlaşmasına şərait yaratmaqla yanaşı, ərazidə bataqlaşmış sahələrin genişlənməsinə səbəb olmuşdur. Ötən dövrdə bölgənin yalnız Cəlilabad rayonu ərazisində suvarılan 9,2 min ha torpaq sahəsində drenaj şəbəkəsi tikilmişdir ki, bunun da 9,1 min hektarında qapalı-üfüqi drenaj tətbiq edilmişdir. Dren şəbəkəsində uzun müddət cari təmir işləri aparılmadığından çox yerdə onun fəaliyyəti məhdudlaşmışdır. Odur ki, hazırda Cəlilabadda suvarılan torpaqların 62,0%-ə (5,7 min ha) yaxın sahəsi müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır.

Bu bölgə üzrə şorlaşmış suvarılan torpaqların 34,5%-nə bərabərdir. Bölgə üzrə şorlaşmış sahələrin 16,4 min hektar (50%) təşkil edir ki, bunun da 4,8 min hektarı (35,9%) zəif, 3,4 min hektarı (10,3%) orta və 1,3 min hektarı (3,9%) isə şiddətli dərəcədə şorlaşmış sahələrdən ibarətdir. Lənkəran və Masallı rayonlarında bölgə üzrə suvarılan torpaqların müvafiq olaraq 60,3 və 33,8%-i şorlaşmış sahələrdən ibarətdir. Bunun 81,7-64,5%-i zəif, 12,0-28,5%-i orta və 6,3-7,0%-i şiddətli dərəcədə şorlaşmışdır. Ümumiyyətlə, hazırda bölgədə torpaqların mövcud meliorativ şəraitində 16,5 min ha-a yaxın suvarılan torpaq sahəsi şorlaşma prosesinə məruz qalmışdır. Bütövlükdə orta və yüksək şorlaşmış sauvarılan topaqların sahəsi 4,7 min hektara və ya ümumi suvarılan torpaqların 14,2%-nə bərabərdir. Ərazidə şorlaşmaya məruz qalmayan suvarılan torpaqların sahəsi 16,4 min ha olmaqal ümumi suvarılan ərazilərin 49,9%-ni, yəni yarıdan az hissəsini əhatə edir (cədvəl 71, şəkil 309-311).


Cədvəl 71

Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma və drenləşmə durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi					Drenləşmiş sahələr	
			şorlaş-mayan	cəmi şorlaş-mış	o cümlədən			cəmi	o cüm. qapalı üfüqi
					zəif	orta	şiddət-li		
1	2	3	4	5	6	7	8	9	10
1	Astara	4566 13,9	2632 16,0	1934 16,7	1934 16,4	-	-	-	-
2	Cəlilabad	9165 27,8	3480 21,2	5685 34,5	3162 55,6	1821 32,0	702 12,4	9165 100	9060 98,8
3	Lənkəran	9533 28,9	3785 23,0	5748 34,8	4696 81,7	692 12,0	360 6,3	-	-
4	Masallı	9272 28,1	6140 37,4	3132 19,0	2020 64,5	892 28,5	220 7,0	-	-
5	Lerik	406 1,3	406 2,49	-	-	-	-	-	-
	Cəmi:	**32942 2,3**	**16443 49,9**	**16499 50,1**	**11812 71,6**	**3405 20,6**	**1282 7,8**	**9165 27,8**	**9060 27,5**

Cədvəl 71


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)



Şəkil 309

Cədvəl 71.1


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 310

Cədvəl 71.2

Bölgənin ümumi suvarılan torpaqlarının drenləşmə durumu (ha/%)



Şəkil 311

Bölgədə torpaq örtüyünün və xüsusilə kənd təsərrüfatında istifadə olunan torpaqlarında təbii münbitlik xassələrinə və ya başqa sözlə desək, keyfiyyət göstəricilərinə təsir göstərən təbii amillərdən biri də torpaqların eroziya proseslərinə məruz

qalmasıdır. Bölgənin ümumi torpaq fondunun 56,6%-i (342,9 min ha) müxtəlif dərəcədə eroziyaya məruz qalmış torpaqlardan ibarətdir (cədvəl 72, şəkil 312-319).

Cədvəl 72


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Eroziya dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Astara	61643 10,2	28485 46,3	33158 46,3	3712 11,2	6313 19,0	23133 69,8
2	Yardımlı	66720 11,0	5606 8,4	61114 91,6	9610 15,7	24160 39,5	27344 44,7
3	Lerik	108360 17,9	25139 23,2	83221 76,8	17844 21,4	34040 40,9	31337 37,6
4	Lənkəran	153941 25,4	80754 52,5	73187 47,5	11800 16,1	11001 15,0	50386 68,8
5	Masallı	72097 11,9	38143 53,0	33949 47,0	7335 21,6	4197 12,4	22417 66,0
6	Cəlilabad	144143 23,7	81931 59,6	58212 40,4	9750 16,7	7206 12,4	41256 70,9
	Cəmi	**606904 7,0**	**264058 43,5**	**342901 56,5**	**60051 17,5**	**86917 25,4**	**195873 57,2**
Dağ-çəmən zonası torpaqlarının eroziya durumu							
		108809 67,4	71274 65,5	37535 34,5	2090 5,6	15070 40,1	20375 54,3
Dağ-meşə zonası torpaqlarının eroziya durumu							
		202809 33,4	87165 43,0	115644 57,0	26565 23,0	14323 12,4	74756 64,6
Dağ-bozqır zonası torpaqlarının eroziya durumu							
		205363 33,8	96052 46,8	109311 53,2	34602 31,7	38847 35,5	35862 32,8

Eroziyaya uğramış torpaqların 39,3%-ə (195,9 min ha) yaxın sahəsi şiddətli, 14,3%-i (87,0 min ha) orta və 10,0%-dən (60,0 min ha) bir qədər çox hissəsi isə zəif eroziyaya uğramışdır. Eroziyaya uğramayan sahələr isə ümumi torpaq fondunun yalnız 43,5%-ni (264,1 min ha) təşkil edir. Bütünlüklə

Cədvəl 72


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)



Şəkil 312

Cədvəl 72.1


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 313

Cədvəl 72.2


Bölgənin dağ-çəmən zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 314

Cədvəl 72.3


Bölgənin dağ-çəmən zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 315

Cədvəl 72.4


Bölgənin dağ-meşə zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 316

Cədvəl 72.5


Bölgənin dağ-meşə zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 317

Cədvəl 72.6


Bölgənin dağ-bozqır zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 318

Cədvəl 72.7

Bölgənin dağ-bozqır zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 319

ərazilərin dağlıq relyef şəraitində yerləşən Lerik və Yardımlı rayonlarında ümumi torpaq fondunun 76,8-91,6% arasında dəyişir. Ərazicə kiçik olmasına baxmayaraq Yardımlı rayonunda torpaqların eroziyaya uğrama tempi qonşu Lerik rayonuna nisbətən daha yüksəkdir. Yardımlı rayonunda eroziyaya uğramış torpaqların 44,7%-i (27,3 min ha) şiddətli eroziyaya uğramış sahələrdir. Ərazinin torpaq örtüyünün meşə və meşə-kolluqlarla zəif mühafizə edilməsi, şimala getdikcə iqlimin quraqlaşması ilə bozqır bitkilərin arealının genişlənməsi və habelə insanların torpaq istifadəçiliyinə qeyri normal münasibəti Yardımlı rayonunda torpaq eroziyasını sürətləndirən səbəblərdəndir.

Torpaq ehtiyatlarının təqribən 60-65%-ə qədəri dağlıq əraziləri əhatə edən Astara və Lənkəran raoynlarında torpaq eroziyasının durumu bir qədər fərqlidir. Bu rayonların dağlıq ərazidə yerləşən torpaq sahələri əsasən meşə və meşə-kolluqlarla örtüldüyündən eroziya prosesinin intensiv getməsinin qarşısı müəyyən dərəcədə alınmış olur. Odur ki, Astara və Lənkəran rayonlarının əsasən dağlıq və qismən isə dağətəyi düzənlik ərazilərində torpaqların eroziyaya uğrama göstəricisi 47,5%-dən artıq deyildir. Demək olar ki, hər iki rayonda orta və şiddətli eroziyaya uğramış sahələrin miqdarı (ümumi əraziyə görə) eynidir və 15,0-69,8% arasında dəyişir. Hər iki halda zəif eroziyaya uğramış torpaqlar ümumi eroziyaya uğramış torpaqların 11,2-16%-ni əhatə edir. Masallı rayonunun ərazisində vəziyyət bir qədər fərqlidir. Burada eroziyaya uğramış torpaqlar raoyn üzrə ümumi torpaq fondunun təqribən 47,0%-ni (33,9 min ha) əhatə edir. Xüsusilə orta və şiddətli eroziya prosesləri baş verən sahələrin miqyası bir qədər məhduddur, təqribən 12,4-66,0% təşkil edir.

Lerik rayonu ərazisində yayılmış dağ-çəmən torpaqlarının yay otlaq sahələri kimi intensiv otarılması və bəzi sahələrin isə kartof əkinləri altında istifadə olunmasının nəticəsi olaraq burada eroziyaya uğramış sahələr daha geniş yayılmışdır. Bunlardan başqa eroziyanın arealının genişlənməsinin bir səbəbi

də rayonun bir çox kəndləri ətrafında meşə və meşə-kolluqların örüş və əkin sahələrinə çevirmək məqsədilə burada məskunlaşan əhali tərəfindən şüurlu surətdə qırılıb məhv edilməsidir.

Bölgənin şimalında yerləşən Cəlilabad rayonunun ərazisində yayılmış torpaqlar, regionun digər rayonlarının torpaq sahələrinə nisbətən az eroziyaya uğramışdır. Burada torpaq ehtiyatlarının 40,4%-i (58,2 min ha) eroziyaya uğramışdır ki, bunun da 70,9%-i şiddətli, 12,4%-i isə orta və 16,7%-i isə zəif eroziyaya uğramış sahələrdən ibarətdir. Eroziyaya məruz qalmış sahələrə əsasən rayonun alçaq dağlıq və təpəli-dalğavari girintili-çıxıntılı relyef şəraitində yayılmış boz-qəhvəyi, dağ-çəmən, qəhvəyi dağ-meşə və şabalıdı torpaqlarda rast gəlinir. Bölgənin oxşar ərazilərində olduğu kimi burada da torpaq örtüyündə baş verən dağıdıcı eroziyanın fəaliyyəti bilavasitə təbii və antropogen proseslərin təsir gücü ilə əlaqədardır.

Bu baxımdan Dövlət proqramında Lənkəran iqtisadi rayonunda Astara çay ətrafı sahələrdə yayılmış münbit torpaqların sel sularının yuyulma təhlükəsini məhdudlaşdırmaq məqsədilə sahilbərkidici işlərin icrası nəzərdə tutulmuşdur.

Regionda çəltik istehsalının inkişaf etdirilməsi ilə əlaqədar kənd təsərrüfatına yararlı ətraf torpaq sahələrində baş verə biləcək bataqlaşmanın qarşısının alınması üçün lazımi kompleks meliorativ tədbirlərin həyata keçirilməsinə ciddi ehtiyac yaranmışdır. Eləcə də iqtisadi rayonun dağlıq ərazilərində Mərmər və digər yerli tikinti materiallarının istehsalının inkişaf etdirilməsi ilə əlaqədar ərazinin torpaq-ekoloji durumuna təsir göstərə biləcək halların qarşısının alınmasına dair tədbirlərin işlənib hazırlanması və onların həyata keçirilməsi vacibdir.

Bölgənin ümumi torpaq fondu üzərində irəlidə təsvir etdiyimiz hazırkı meliorativ durumda üç: dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarında istifadə təmin edilmişdir (cədvəl 73, şəkil 320-321).


Cədvəl 73

Bölgənin vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahə-lər
							kəndyanı	qış	yay			
1	Dövlət	335035 55,2	22377 33,9	611 0,9	4459 6,8	60 0,1	-	24934 37,8	13547 20,5	65988 19,7	146256 43,6	122791 36,6
	o.c.suv.	899 2,7	860 95,7	39 4,3	-	-	-	-	-	899 1,2	-	-
2	Bələdiyyə	121381 20,0	8085 10,9	711 1,0	367 0,5	980 1,3	63911 86,3	-	-	74054 61,0	1026 0,8	46301 38,1
	o.c.suv.	1010 3,1	462 45,7	-	-	-	-	432 42,8	-	1010 1,4	-	-
3	Xüsusi	150488 24,8	105992 71,4	8206 71,4	8206 5,5	10361 7,0	23927 16,1	-	-	148486 98,7	-	2002 1,3
	o.c.suv	31033 94,2	24702 79,6	6038 60,38	72 0,2	221 0,7	-	-	-	31033 20,9	-	-
	Cəmi	**606904 7,0**	**136454 47,4**	**9528 3,3**	**15187 5,2**	**24967 8,7**	**63911 22,2**	**24544 8,5**	**13553 4,7**	**288144 47,5**	**147282 24,3**	**171478 28,2**
	o.c.suv.	**32942 2,3**	**26024 79,0**	**6077 18,4**	**72 0,2**	**221 0,7**	-	**432 1,3**	-	**32942 11,4**	-	-

Cədvəl 73


Bölgənin ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 320

Cədvəl 73.1

Bölgənin ümumi suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 321

Hal-hazırda bölgənin ümumi torpaq fondunun 335,0 min hektardan bir qədər çox hissəsi, yəni 55,2%-i dövlət mülkiyyətində saxlanmış, 121,4 min hektarı və ya 20,0%-i bələdiyyə mülkiyyətinə verimlişdir. Xüsusi mülkiyyətə isə ümümi torpaq fondunun 150,5 min hektarı və ya 24,8%-i verilmişdir.

1. Dövlət mülkiyyətindəki torpaqlar. Dövlət mülkiyyətində saxlanmış torpaq ehtiyatlarının təqribən 19,7%-i (66,0 min ha) kənd təsərrüfatına yararlı torpaqlardır (cədvəl 74, şəkil 322-327). Bunun 33,9%-i (22,4 min ha) əkin və dinc, 0,9%-i


Cədvəl 74

Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin + dinc	Çoxillik əkmələr	Biçənək	Heyətyanı	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							qış	yay			
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Astara	42538 12,7	415 13,1	195 6,2	40 1,3	-	1155 36,5	1362 43,0	3167 7,4	37142 87,3	2229 5,3
2	Yardımlı	36776 11,0	7526 42,4	-	1936 10,9	-	800 4,5	7500 42,2	17762 48,3	17260 46,9	1754 4,8
3	Lerik	48371 14,4	1676 21,2	-	1183 17,4	15 0,2	2747 40,4	1185 17,4	6806 14,1	35895 74,2	5670 11,7
4	Lənkəran	126686 37,8	265 3,1	371 4,3	1032 11,9	45 0,5	6941 80,2	-	8654 6,8	28510 22,5	89522 70,7
	o.c.suv	245 27,3	206 84,1	39 15,9	-	-	-	-	245 28,0	-	-
5	Masallı	22783 6,8	107 11,6	45 4,9	196 21,3	-	572 62,2	-	920 4,0	16441 72,2	5422 23,8
6	Cəlilabad	57881 17,3	12388 43,2	-	72 0,3	-	12718 44,3	3500 12,2	28678 49,5	11008 19,0	18195 31,4
	o.c.suv	654 72,7	654 100	-	-	-	-	-	654 2,3	-	-
	Cəmi	**335035** **55,2**	**22377** **33,9**	**611** **0,9**	**4459** **6,8**	**60** **0,1**	**24933** **37,8**	**13547** **20,5**	**65987** **19,7**	**146256** **43,7**	**122792** **36,6**
	o.c.suv	**899** **2,7**	**860** **95,7**	**39** **4,3**	-	-	-	-	**899** **1,4**	-	-

Cədvəl 74


Bölgənin dövlət mülkiyyətindəki torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 322

Cədvəl 74.1


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 323

Cədvəl 74.2


Bölgənin dövlət mülkiyyətindəkı yararlı dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 324

Cədvəl 74.3


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələr üzrə istifadəçiliyi (ha/%)



Şəkil 325

Cədvəl 74.4


Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 326

Cədvəl 74.5

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 327

(0,6 min ha) çoxillik əkmələrin, 6,8%-i (4,46 min ha) isə biçənək torpaqlarıdır. Otlaq torpaqlarından qış otlaq torpaqlarının əhatə etdiyi sahə 24,9 min (37,8%) və yay otlaq torpaqlarının sahəsi isə 13,6 min (20,5%) ha təşkil edir.

Meşə torpaqları ümumi torpaq fondunun 43,6%-nə (146,3 min ha) bərabərdir. Ümumi torpaq ehtiyatlarının 0,9 min hektarı suvarılır. Bu isə bölgədə suvarılan torpaqların 2,7%-nin dövlət mülkiyyətində saxlanması deməkdir. Bölgənin kənd təsərrüfatında istifadə olunmayan torpaqlarının tərkib hissəsi sayılan, sair torpaqlar ümumi torpaq fondunun 36,6%-ni (122,8 ha) təşkil edir. Bölgənin ayrı-ayrı raoynlarında dövlət mülkiyyətində saxlanmış torpaq sahəsinin ölçüsü həmin rayonun ümumi torpaq ehtiyatlarının kəmiyyətindən asılı olaraq müəyyənləşdirildiyindən xeyli müxtəlifdir. Ayrı-ayrı rayonlarda dövlət mülkiyyətində saxlanılan torpaq sahələrinin ölçüsü 31,6-82,3% arasında dəyişir. Dövlət mülkiyyətinə ən çox, yəni ümumi torpaq fondunun 82,3%-i (126,7 min ha) Lənkəran rayonu ərazisində ayrılmışdır.

Dövlət mülkiyyətinə məxsus yararlı torpaq sahələri hazırda bölgə əhalisi tərəfindən bütünlüklə istifadə olunur. Bölgədə torpaq payı almış hər bir ailə orta hesabla 0,52 ha əlavə torpaq sahəsindən istifadə etmək imkanına malikdir. Ayrı-ayrı rayonlarda isə bu göstərici xeyli fərqlidir. Məsələn, Yardımlı rayonunda torpaq payı almış bir ailə orta hesabla 1,89 hektar dövlət mülkiyyətindəki yararlı torpaq sahəsindən istifadə imkanına malik olduğu halda, Masallı rayonunda bu rəqəm 0,03-0,30 ha arasında dəyişir. Lerik və Cəlilabad rayonlarında bu göstəricilər 0,66-0,92 hektara çatır. Ümumiyyətlə, bölgə üzrə orta göstərici bir ailə üçün 0,52 ha təşkil edir. Kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaq ehtiyatları da bölgə əhalisinin güzəştli şərtlərlə istifadə etdikləri torpaqlara aiddir.

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Bu torpaqlar bölgədə fəaliyyət göstərən 499 bələdiyyə tərəfindən istifadə edilir. Mülkiyyətə verilmiş torpaq ehtiyatlarının 61,0%-i (74,0 min ha) kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir (cədvəl 75, şəkil 328-333). Bunun 10,9%-i (8,1 min ha) əkin və dinc torpaqlarıdır. Çoxillik əkmələri altında becərilən torpaqlar 1,0% (0,7 min ha), biçənək torpaqların tutduğu sahə 0,5% (0,4 min ha), yararlı həyətyanı torpaqlar isə 1,3%-ə (0,1 min

ha) bərabərdir. Bələdiyyə mülkiyyətinin kəndyanı örüş torpaqları yararlı torpaqların 86,3%-ni (63,9 min ha) əhatə edir. Bölgədə kəndyanı örüş torpaqlarının sahəsi son dərəcə məhduddur və bütünlüklə əhaliyə mal-qara otarmaq üçün istifadəyə verilmişdir. Hazırda kəndyanı örüş sahələrində otarılan mal-qaranın təbii yemə olan tələbatı ödənilmir. Bunun başlıca səbəbi həm torpaq sahəsinin məhdud ölçüdə olması və həm də yem bitkilərinin bioloji məhsuldarlığının aşağı olmasıdır.


Cədvəl 75

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümu-mi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin dinc	Çox-illik əkmələr	Biçənək	Kənd-yanı örüş	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Astara	7479 6,2	370 11,9	24 0,8	31 1,0	2517 81,0	164 5,3	3106 41,5	46 0,6	4327 57,9
2	Yardımlı	17387 14,3	646 5,5	109 0,9	141 1,2	10637 91,2	142 1,2	11675 67,1	-	5712 32,8
3	Lerik	44102 36,3	634 1,8	-	-	34654 98,1	50 0,1	35338 80,1	-	8764 19,9
4	Lənkəran	11726 9,7	1186 33,8	365 10,4	52 1,5	1450 41,4	451 12,9	3504 29,9	540 4,6	7682 65,5
	o.c.suv	571 56,5	462 80,9	109 19,1	-	-	-	571 18,0	-	-
5	Masallı	18949 15,6	1364 27,1	113 2,5	143 2,8	3322 66,2	68 1,4	5010 26,4	440 2,3	13499 71,2
	o.c.suv	7 0,7	-	7 100	-	-	-	7 1,4	-	-
6	Cəlilabad	21738 17,9	3885 25,2	100 0,6	-	11331 73,5	105 0,7	15421 70,9	-	6317 29,1
	o.c.suv	432 42,8	-	-	-	432 100	-	432 2,8	-	-
	Cəmi	**121381** **20,0**	**8085** **10,9**	**711** **1,0**	**367** **0,5**	**63911** **86,3**	**980** **1,3**	**74054** **61,1**	**1026** **0,8**	**46301** **38,1**
	o.c.suv.	**1010** **3,1**	**462** **45,7**	**116** **11,5**	-	**432** **42,8**	-	**1010** **1,4**	-	-

Cədvəl 75


Bölgənin bələdiyyə mülkiyyətindəki ümumi torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 328

Cədvəl 75.1


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 329

Cədvəl 75.2


Bölgənin bələdiyyə mülkiyyətindəkı dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 330

Cədvəl 75.3


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 331

Cədvəl 75.4


Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 332

Cədvəl 75.5

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 333

Kəndyanı örüş torpaqları bütün il boyu intensiv istifadə olunur və burada heç bir otlaq yaxşılaşdırma tədbirləri aparılmır. Yayda ovalıq ərazilərdə kəndyanı örüş sahələrində ot örtüyü bütünlüklə yanıb məhv olur, boş və susuz yarımsəhra landşaftını xatırladır. Yalnız yaz və payız aylarında mal-qara yaşıl yemlə qidalana bilir. Dağlıq ərazilərdə mövcud kəndyanı örüşlər şiddətli dərəcədə eroziyaya uğradığından onlar daşlıçınqıllı, təbii məhsuldarlığının 60-70%-ni itirmiş az yararlı sahələrə çevrilmişdir. Düzən ərazilərdə olduğu kimi burada da heç bir otlaq yaxşılaşdırma tədbirləri həyata keçirilmir.

Hazırda bölgədə fəaliyyət göstərən 499 bələdiyyənin mülkiyyətinə ümumi torpaq fondunun 20,0%-i verilmişdir (121,4 min ha). Ayrı-ayrı rayonlarda torpaq sahələrinin ölçüsü geniş intervalda, yəni 7,6-40,6% arasında dəyişir.

Məsələn, Lerik rayonu ərazisində fəaliyyət göstərən 99 bələdiyyə (44,1 min ha) torpaq sahəsinin mülkiyyətçisi olduğu halda, Lənkəran rayonunda fəaliyyət göstərən 64 bələdiyyə isə (11,7 min ha) torpaq sahəsinin mülkiyyətçisidir. Cəlilabad rayonunda ümumi torpaq ehtiyatının 21,7 min ha-na 119 bələdiyyə sahiblik edirsə, Astara rayonunda 7,5 min ha torpaq sahəsinə 49 bələdiyyə sahiblik edir.

Masallı rayonunda fəaliyyət göstərən 106 bələdiyyə rayonun ümumi torpaq fondundan ayrılmış 18,9 min hektardan bir qədər çox torpaq sahəsinin sərəncamçısıdırlar. Yardımlı rayonunda fəaliyyət göstərən 62 bələdiyyə bölgənin ümumi torpaq fondunun 14,3%-nin (17,4 min ha) mülkiyyətçiləridir. Bölgə əhalisi az da olsa bələdiyyə mülkiyyətinə verilmiş meşə fondu (1,0 min ha) və eləcə də ümumi torpaq fondunun 38,1%-ni (46,3 min ha) təşkil edən kənd təsərrüfatında istifadə edilməyən sair torpaq sahələrindən də istifadə etmək imkanlarına malikdirlər. Beləliklə, bölgə üzrə torpaq payı almış bir ailə hazırda bələdiyyə mülkiyyətinin yararlı torpaq sahələrindən başqa əlavə olaraq orta hesabla 0,59 hektardan istifadə edirlər. Ayrı-ayrı rayonlarda bu göstəricilər çox geniş intervalda, yəni 0,13 ha ilə 3,42 ha arasında dəyişməsi ilə səciyyələnir. Be-

lə ki, ən yüksək göstərici Lerik rayonunda 3,42 hektar təşkil etdiyi halda Lənkəran rayonunda bu 0,13 hektardır. Astara və Masallı rayonlarunda toraq payı almış bir ailənin bələdiyyə mülkiyyətindən istifadə edə biləcəyi yararlı torpaq sahəsi 0,19-0,17 hektar olduğu halda, Yardımlı və Cəlilabad rayonlarında bu rəqəmlər 1,25-0,50 hektar arasında dəyişir. Ümumiyyətlə, bölgədə torpaq payı almış ailələrin hər biri dövlət və bələdiyyə mülkiyyətinə məxsus yararlı torpaq sahələrindən əlavə olaraq orta hesabla 1,11 hektardan istifadə etmək imkana malikdirlər.

3. Xüsusi mülkiyyətdəki torpaqlar. Xüsusi mülkiyyətə verilmiş torpaq bölgənin ümumi torpaq fondunun 24,8%-ni (150,5 min ha) əhatə edir (cədvəl 76, şəkil 334-338a). Dövlət və bələdiyyə mülkiyyətinə ayrılmış əkin, dinc, çoxillik əkmələrin və biçənək torpaq sahələrinin xüsusi çəkisi bu qəbildən olan özəlləşən torpaq sahələrinin xüsusi çəkisindən xeyli fərqlidir. Belə ki, hazırda xüsusi mülkiyyətə verilən torpaq sahələri bütünlüklə kənd təsərrüfatına yararlı sahələrdən ibarətdir. Bunu 71,4%-ni (106,0 min ha) əkin və dinc, 5,5%-ni (8,2 min ha) çoxillik əkmələrin və 10,4 min hektarını (7,0%) biçənək torpaqları təşkil edir. Əkinə yararlı həyətyanı torpaqlar isə ümumi özəlləşdirilmiş torpaq ehtiyatlarının təqribən 16,1%-ni (24,0 min ha) əhatə edir. Bu göstəricilər bölgənin ayrı-ayrı rayonlarında çox müxtəlifdir. Məsələn, Cəlilabad rayonunda əkin və dincə qoyulmuş torpaqlar özəlləşən torpaq fondunun 51,0 min hektardan (79,6%) çox hissəsini tutur. Amma Astara və Lənkəran rayonlarında bu göstərici 50%-dən azdır. Özəlləşdirilmiş əkin və dinc torpaqlar Yardımlı rayonunda 58,2%, Lerik rayonunda 72,5% və Masallı rayonunda isə 78,9%-ə çatır. Bəzi rayonlarda çoxillik əkmələr becərilmədiyindən və ya onun sahəsi çox məhdud olduğundan torpaq islahatı zamanı çoxiilki əkmələrin torpaqları özəlləşdirilmiş torpaq payında nəzərdə tutulmamışdır. Məsələn, Yardımlı rayonu istisna olmaqla bölgənin digər rayonlarında çoxillik əkmələrin torpaqları torpaq payı kimi bölünmüşdür. Hazırda həmin rayonlar-

da xüsusilə mövcud olmuş çay plantasiyaları hesabına Lənkəranda bu göstərici 29,9% (4,5 min ha), Astara rayonunda 17,2% (2,0 min ha) və Masallıda isə 4,2% (1,3 min ha) təşkil edir. Lerik rayonunda çoxillik əkmələr altında olan torpaq sahələrinin yalnız 2,4%-i (0,4 min ha) torpaq payına daxil edilmişdir.

Cədvəl 76


Bölgənin xüsusi mülkiyyətdəki torpaqlarının raoynlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri					K.t. istifadə olunmayan sahələr
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Cəmi	
1	2	3	4	5	6.	7	8	9
1	Astara	11626 7,7	5480 48,8	1957 17,2	567 5,0	3287 29,0	11291 97,7	335 2,9
	o.c.suv	4566 14,7	3130 68,5	1436 31,5	-	-	4566 40,4	-
2	Yardımlı	12557 8,3	7258 58,2	-	3034 24,3	2167 17,5	12459 99,2	98 0,8
3	Lerik	15887 10,6	11346 72,5	382 2,4	2280 14,6	1635 10,5	15643 98,5	244 1,5
	o.c.suv	406 1,3	406 100	-	-	-	406 2,7	
4	Lənkəran	15529 10,3	7284 48,2	4518 29,9	602 4,0	2698 17,9	15102 97,2	427 2,7
	o.c.suv	8717 28,1	5361 61,5	3356 38,5	-	-	8717 57,7	-
5	Masallı	30365 20,2	23628 78,9	1275 4,2	1829 6,1	3231 10,8	29963 98,7	402 1,3
	o.c.suv	9265 29,9	8019 86,5	1246 13,4	-	-	9265 30,9	-
6	Cəlilabad	64524 42,9	50996 79,6	74 0,1	2049 3,2	10909 17,1	64028 99,2	496 0,8
	o.c.suv	8079 26,0	7786 96,4	-	72 0,9	221 2,7	8079 12,6	-
	Cəmi	**150488** **24,8**	**105992** 71,4	**8206** **5,5**	**10361** **7,0**	**23927** **16,1**	**148486** **98,7**	**2002** **1,3**
	o.c.suv.	**31033** **94,2**	**24702** **79,6**	**6038** **19,5**	72 0,2	**221** **0,7**	**31033** **20,9**	-

Vaxtilə Cəlilabad rayonunda çoxillik əkmələrin torpaq sahələri (üzüm plantasiyalarının) geniş əraziləri tutsada o dövrdə ölkənin kənd təsərrüfatında düzgün aparılmayan siyasət nəticəsində üzüm plantasiyaları qırılıb məhv edildiyindən yerli və rayon Aqrar İslahatı Komissiyalar həmin sahələri əhaliyə əkin və dinc torpaqlar kimi bölmüşlər. Buna görə də Cəlilabad rayonunda çoxillik əkmələrin özəlləşdirilmiş torpaq sahələri 0,07 min ha olmaqla çox məhduddur. Bölgədə özəlləşdirilmiş suvarılan torpaqların sahəsi 31,0 min hektardan bir qədər çoxdur. Bu isə təqribən özəlləşən torpaqların 21,0%-in suvarılması deməkdir. Ümumiyyətlə, bölgənin ümumi suvarılan torpaqlarının 94,2%-i özəlləşdirilərək 127019 ailənin mülkiyyətinə verilmişdir. Hal-hazırda torpaq mülkiyyətçiləri olan bu ailələr beş ailə qrupuna bölünməklə təqribən 150,5 min

Cədvəl 76


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 334

Cədvəl 76.1


Bölgənin xüsusi mülkiyyətindəkı dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 335

Cədvəl 76.2


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 336

Cədvəl 76.3


Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 337

Cədvəl 76.4

Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 338a

hektardan çox kənd təsərrüfatına yararlı əkin, dinc, çoxillik əkmələrin və biçənək sahələrinin torpaqlarındn istifadə edirlər (cədvəl 77, şəkil 338-351).

Bölgədə özəlləşən torpaqlardan istifadə edən ailələr respublikada xüsusi torpaq mülkiyyətçisi olan ailələrin 16,2%-ni (127019 ailə) və torpaq payı alan subyektlərin sayının 19,6%-ni təşkil edir. Bu ailələrin mülkiyyətinə verilmiş torpaq sahələri respublikada ümumi özəlləşdirilmiş torpaq ehtiyatlarının 9,9%-ni və ya 134941 hektarını əhatə edir. Ailə qrupları içərisində kiçik ailələr (3-5 nəfər) üstünlük təşkil etsələr də, özəlləşən torpaqların yalnız 36,7%-nə və ya 49,5 min hektarına sahiblik edirlər. Burada torpaq payı almış subyektlərin sayı təqribən 41%-ə yaxın olmaqla digər ailə qruplarında torpaq payı almış subyektlərin sayından 3%-dən 39%-ə dək çoxdur. Hazırda torpaq sahələri ən çox orta ailə (26,7%) qruplarının əlində cəmlənmişdir. Orta ailələr bölgədə özəlləşən torpaqların 40,1%-nə (54054 ha) sahiblik edirlər. Tək ailə qrupları ümumi ailələrin 22,1%-ni (28013 ailə) əhatə etsə də torpaq ehtiyatlarının yalnız 7,3%-ni və ya 9839 hektarını əkib-becərir. İstifadə etdikləri torpaq sahəsinin ölçüsünə görə dördüncü yerdə duran böyük ailələr ümumi ailələrin yalnız 5,8%-ni əhatə etməklə özəlləşdirilmiş torpaqların 13,4%-nin (18068 ha) mülkiyyətçiləridirlər. Ən böyük ailələrin (13 nəfərdən çox) xüsusi çəkisi 0,7%-ə endiyindən sahiblik etdikləri torpaq sahələrinin də həcmi çox aşağıdır və cəmi 2,6%-ə çatır.

Bölgədə hər bir ailə orta hesabla 1,07 ha hər bir ailə üzvü isə 0,23 ha torpaq sahəsindən istifadə etmək hüququna malikdir. Bölgənin ayrı-ayrı rayonlarında ailə qruplraının torpaq istifadəçiliyində ciddi fərqlər müşahidə edilir.

Məsələn, Astara və Lənkəran rayonlarında kiçik ailə (3-5 nəfər) qrupları üstünlük təşkil etməklə (48,3-54,7%-dir), orta ailə qruplarına nisbətən torpağa sahiblikdə də üstün mövqedə dururlar (46,8%-dir). Yardımlı, Lerik, Masallı və Cəlilabad rayonlarında bu üstünlük hər iki halda orta ailə (6-8 nəfər) qruplar tərəfinə keçir.

Cədvəl 77

Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*


S/s	Rayonlar	Ailə qrupları															Yekun			Orta torpaq norması **ailə/subyekt**
		Tək ailələr (1-2 nəfər)			Kiçik ailələr (3-5 nəfər)			Orta ailələr (6-8 nəfər)			Böyük ailələr (9-12 nəfər)			Ən böyük ailələr (12 nəf. çox)						
		ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
1	Astara	4226 15,0	5981 15,1	761 7,7	8139 14,3	33692 14,0	4019 8,1	3888 11,5	25743 11,4	3113 5,8	589 8,0	5719 7,8	655 3,6	29 3,4	398 3,0	41 1,2	16871 13,3	71533 12,1	8549 6,4	0,51 0,12
2	Yardımlı	2049 7,3	3011 7,6	667 6,8	3379 5,9	13731 5,7	3065 6,2	3013 8,9	19429 8,6	4372 8,1	900 12,2	8863 12,1	2130 11,8	57 6,6	773 5,9	254 7,3	9398 7,4	45807 7,7	10486 7,8	1,12 0,23
3	Lerik	2062 7,4	3083 7,8	774 7,9	3772 6,6	15629 6,5	3863 7,8	3290 9,7	22788 10,1	5611 10,4	1114 15,0	11033 15,0	2766 15,3	117 13,5	1665 12,7	397 11,5	10355 8,2	54198 9,2	13411 9,9	1,30 0,25
4	Lənkəran	5764 20,6	9188 23,2	801 8,1	15772 27,8	63433 26,4	6049 12,2	6271 18,5	41229 18,3	4703 8,7	975 13,2	10202 13,9	1284 7,1	74 8,6	1046 8,0	201 5,8	28856 22,7	124098 21,0	13037 9,7	0,46 0,11

1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
5	Masallı	5507 19,7	7987 20,1	1619 16,5	13793 24,3	59071 24,6	14500 29,3	8691 25,6	57754 25,6	14942 27,6	1889 25,6	18718 25,5	4486 24,8	432 50,0	6975 53,3	1697 49,1	30312 23,9	150505 25,4	37243 27,6	1,23 0,25
6	Cəlilabad*	8405 30,0	11414 28,8	5217 53,0	11958 21,1	54987 22,9	18030 36,4	8775 25,8	58938 26,1	21314 39,4	1924 26,0	18868 37,4	6748 37,4	155 17,9	2235 25,1	867 25,1	31227 24,6	146442 24,7	52175 38,7	1,67 0,36
	Cəmi	**28013** **22,1**	**39664** **6,7**	**9839** **7,3**	**56813** **44,7**	**240543** **40,6**	**49524** **36,7**	**33938** **26,7**	**225881** **38,1**	**54054** **40,1**	**7391** **5,8**	**73403** **12,4**	**18069** **13,4**	**864** **0,7**	**13092** **2,2**	**3457** **2,6**	**127019** **16,2**	**592583** **19,6**	**134943** **9,9**	**1,07** **0,23**


* _____ ailənin sayı, sahə ha _____
ümumi ailənin və sahənin cəmindən %-lə

Cədvəl 77

Bölgədə məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)




Şəkil 338




Şəkil 339

Cədvəl 77.1

Bölgənin raoynlarında məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)



Şəkil 340




Şəkil 341

Cədvəl 77.2


Bölgənin raoynlarında məskunlaşan tək ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(1-2 nəf.)

A



Şəkil 342

B




Şəkil 343

Cədvəl 77.3

Bölgənin raoynlarında məskunlaşan kiçik ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(3-5 nəf.)


A



Astara
Yardımlı
Lerik
Lənkəran
Masallı
Cəlilabad

Şəkil 344

B




Astara
Yardımlı
Lerik
Lənkəran
Masallı
Cəlilabad

Şəkil 345

Cədvəl 77.4

Bölgənin raoynlarında məskunlaşan orta ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(6-8 nəf.)


A



Astara
Yardımlı
Lerik
Lənkəran
Masallı
Cəlilabad

Şəkil 346

B




Astara
Yardımlı
Lerik
Lənkəran
Masallı
Cəlilabad

Şəkil 347

Cədvəl 77.5


Bölgənin raoynlarında məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(9-12 nəf.)

A



Şəkil 348

B




Şəkil 349

Cədvəl 77.6


Bölgənin raoynlarında məskunlaşan ən böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(12 nəfərdən çox)

A



Şəkil 350

B



Şəkil 351

Tək ailə qruplarının say tərkibində artıb-azalma fərq böyük olmadığı kimi (20-27%) sahiblik etdikləri torpaq sahələrinin ölçüsündəki fərqlərdə o qədər də böyük deyildir (4,4-10,0%). Bölgədə ən çox Cəlilabad (24,6%) və Masallı (23,9%) rayonlarında ailə qruplarının cəmləşdiyi müşahidə olunur. Yardımlı və Lerik rayonlarında bölgənin ümumi ailələrin 7,4-8,3%-nin toplandığı aydın görünür. Bu göstəricilər Astara rayonunda13,3%-ə və Lənkəran rayonunda isə ümumi əhalinin sayından asılı olaraq 22,7%-ə qədər yüksəlir. Ailələrin sayı müxtəlif olduğu kimi onların istifadə etdikləri torpaq sahələrinin ölçüsü də fərqlidir. Məsələn, Cəlilabad rayonunda torpaq mülkiyyətçsi olan 31227 ailə 52175 ha torpaq sahəsindən istifadə edir və hər bir ailə orta hesabla 1,67ha torpaq payını əkib-becərir və ailə üzvlərinin torpaq payı 0,36 hektardır. Ən az ailələrin cəmləşdiyi Yardımlı rayonunda 9398 ailənin əkib-becərdiyi torpaq sahəsi 10486 hektara çatır. Burada orta hesabla hər bir ailə 1,12 ha torpaq sahəsinə sahiblik edir. Ailə üzvünün (45807 nəfər) orta torpaq payı 0,23 ha bərabərdir. Bölgədə ən az torpaq payı olan ailələrin cəmləşdiyi (28856 ailə) Lənkəran rayonunda hər bir ailənin becərdiyi torpaq sahəsi orta hesabla 0,46 ha təşkil edir. Ailələrin tərkibinə daxil olan (124098 nəfər) hər bir üzvü orta hesabla 0,11 ha torpaq sahəsinin sahibidir.

Cədvəldən göründüyü kimi, ayrı-ayrı rayonlarda özəlləşmədə iştirak edən ailələrin və ailələrin say tərkibindən və habelə özəlləşməyə ayrılmış torpaq sahələrinin ölçüsündən asılı olaraq orta pay normasının kəmiyyəti dəyişir. Hazırda bölgədə özəlləşdirilmiş torpaq payı almış hər bir ailə bütövlükdə dövlət, bələdiyyə və xüsusi mülkiyyətlə birlikdə orta hesabla 2,18 ha torpaq sahəsindən istifadə etmək imkanına malikdirlər.

V. QUBA-XAÇMAZ İQTİSADİ-COĞRAFİ BÖLGƏSİ

Quba-Xaçmaz bölgəsi Böyük Qafqazın şimal-şərqində yerləşir. Şimal qərbdən Dağıstan MR, cənub-qərbdən Baş Qafqaz silsiləsi, şərqdən Xəzər dənizi ilə əhatələnir. Tərkibinə Quba, Qusar, Dəvəçi, Siyəzən və Xaçmaz rayonları daxildir. Sahəsi 696,5 min ha olmaqla respublika ərazisinin 8,1%-ni əhatə edir.

Relyef quruluşu cənub və qərbdən dağlıq olmaqla Baş Qafqaz silsiləsinin şimal-şərq yamacı və yan silsiləsinin cənub-şərq hissələrini tutur.

Yan silsiləsinin şimal-qərb civarında ən yüksək nöqtəsi, başı daima qarla örtülü Şahdağ (4252 m) zirvəsidir. Şimal-şərqdə isə Beşbarmaq dağı (800 m) ən yüksək zirvə hesab olunur. Ərazidə dərin kanionlar, suayrıcı, yaylalar, dağarası çökəkliklər, uçqunlar və sürüşmələr geniş yayılmışdır.

Ərazidə mövcud olan Quba-Qusar maili düzənliyi dəniz səviyyəsindən 250-600 m yüksəkdə olub şərqə tərəf Xəzər dənizinə tədricən alçalır. Maili düzənliyin yuxarı hissəsinin relyefi dalğavari və bəzi yerlərdə dərəli-təpəlidir. Aşağı hissəsinin relyefi tədricən alçalaraq allüvial və Xəzər dənizinin qədim çöküntüləri ilə örtülmüş dənizsahili düzənliklə birləşir. Düzənliyin dağ döşünə birləşən bəzi sahələrində qədim dəniz terrasları müşahidə olunur. Dəniz sahili boyunca şimal-qərbə tərəf uzanan qum təpələri özünəməxsus relyef forması yaratdığı aydın müşahidə edilir. Torpaqəmələgətirən süxurlar başlıca olaraq yaşca üçüncü, dördüncü dövr və Xəzər dənizinin qədim çöküntülərindən ibarətdir. Ərazinin düzənlik hissəsi üçün Yan silsilədən axıb gəlmiş qalın prolüvial, allüvial və konqlemeratlardan təşkil olunmuş çöküntü materialları səciyyəvidir. Ümumiyyətlə, bölgədə şərqə doğru hərəkət etdikcə torpaqəmələgətirən süxurların mənşəyi və keyfiyyətinin əsaslı şəkildə dəyişdiyi müşahidə olunur.

Bölgənin bitki aləmi çox müxtəlifdir və şaquli zonallıq qa-

nunu daha aydın nəzərə çarpır. Belə ki, yüksək dağlıq ərazilər qayalıq, subalp və alp çəmən və bəzi ərazilərdə isə bozqır çəmən bitkiləri ilə müşayiət olunur.

Orta dağlıq və qismən alçaq dağlıq ərazilərdə enli yarpaqlı meşələr (palıd, fıstıq, vələs və s. cinslər) bir qədər aşağı qurşaqda isə əsas etibarilə bozqır-ot bitkiləri, seyrək meşə və kserofil meşə-kolluqlar geniş yayılmışdır. Maili Quba-Qusar düzənliyində bozqır bitkiləri üstünlük təşkil edir. Ərazidə yarımsəhra bitkiləri ilə yanaşı, ən çox geniş yayılan yabanı taxıl fəsiləsinə mənsub bitki növləridir. Dənizsahili düzənlikdə əsasən şoran və qum bitkiləri, qismən isə yarımsəhra və bataqlıq bitkiləri seyrək örtük əmələ gətirir.

Bitki aləminin inkişafında mühüm rol oynayan ərazinin iqlim şəraiti eləcə də torpaqəmələgəlmə prosesində, xüsusilə bitki qalıqlarının parçalanmasında və onların üzvi maddələr şəklində torpağa daxil olmasında fəal iştirak edir. Buna görə də bölgənin iqlim şəraitinin bəzi cəhətləri üzərində qısa da olsa dayanmaq zəruridir (cədvəl 78, şəkil 352-356). Bölgənin düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıq ərazilərdə soyuq və rütubətli, bir qədər fərqli Samur-Dəvəçi düzənliyində isə yayı quraq keçən mülayim isti, yarımsəhra və quru bozqır iqlim şəraiti hakimdir.

76-cı cədvəldə göstərilən iqlim müşahidələrinə görə ayrı-ayrı metroloji məntəqələrində havanın orta illik temperaturu xeyli müxtəlifdir. Məsələn, Quba və Qusarda orta illik temperatur 9,6^0-dən yüksək olmadığı halda, Dəvəçi və Xaçmazda temperatur həddi 12,2-12,5^0-ə arasında dəyişir. Yüksək dağlıq ərazidə isə bu göstərici 4,5^0-yə enir. Temperaturda müşahidə edilən enib-qalxmalar ilin fəsillərində də qeydə alınmışdır. Quba və Qusarda qışda havanın temperaturu -0,7^0-ə düşdüyü halda, düzənlik hissədə Dəvəçi və Xaçmazda 2,3^0-dək enir. Qırız yaşayış məntəqəsində isə -4,0^0-yə çatır. Yay aylarında havanın orta temperaturu Qusar və Qubada 19,6-20,2^0 arasında tərəddüd edir. Dəvəçi və Xaçmazda bu göstərici 2,3^0-ə çatır.

Cədvəl 78

Bölgənin əsas iqlim göstəriciləri


S/s	Metroloji stansiyalar	İqlim göstəriciləri*	Fəsillər üzrə				İllik	İlin dövrləri	
			Qış	Yaz	Yay	Payız		İsti	Soyuq
1	2	3	4	5	6	7	8	9	10
1	Quba 615 m	hava. t-u	-0,7	8,5	20,2	10,5	9,6	16,6	2,6
		yağıntı	95	132	142	202	571	316	255
		hava. nis.rüt.	83	76	70	83	78	73	83
		buxarlanma	70	168	329	133	700	529	171
		torpaq. səth.t-u	-1	12	26	116	12	21	4,5
2	Xaçmaz 30 m	hava. t-u	2,3	10,2	23,1	13,6	12,2	19,1	5,4
		yağıntı	88	71	51	124	331	129	202
		hava. nis.rüt.	85	77	68	82	78	72	84
		buxarlanma	69	179	389	162	789	621	168
		torpaq. səth.t-u	3,3	13,3	29,3	14,7	15,1	24,2	6,2
3	Kırız 2000 m	hava. t-u	-4,0	3,4	12,9	5,8	4,5	10,1	-2,7
		yağıntı	61	174	209	136	580	406	174
		hava. nis.rüt.	57	67	74	66	66	72	60
		buxarlanma	103	137	167	150	555	317	238
		torpaq. səth.t-u	0,7	9,0	23,0	10,0	10,0	19,0	2,0

Eləcə də ilin isti və soyuq dövrlərində də aparılmış müşahidələrə görə havanın orta illik temperaturunda fərqlər mövcuddur.

Ərazidə yağıntılar əsasən bərabər paylanmışdır. Belə ki, ilin soyuq dövründə Quba və Qusar rayonlarında 255-278 mm, isti dövrdə isə 316-337 mm yağıntının düşməsi qeydə alınmışdır. Dəvəçi və Xaçmaz rayonlarında bu göstərici bir


* yağıntı və buxarlanma mm-lə, havanın aylıq və torpaq səthinin temperaturu dərəcə ilə, havanın nisbi rütubəti %-lə göstərilmişdir.

Cədvəl 78



Şəkil 352


Cədvəl 78.1




Şəkil 353

Cədvəl 78.2


Quba **Havanın orta nisbi rütubətliyi %**



Xaçmaz



Qırız




Qış Yay İllik Soyuq dövr

Yaz Payız İsti dövr


Şəkil 354

Cədvəl 78.3


Quba **Səth örtüyündən buxarlanma (mm)**



Xaçmaz



Qırız



Qış | Yay | İllik | Soyuq dövr

Yaz | Payız | İsti dövr

Şəkil 355


Cədvəl 79

Bölgənin torpaq örtüyünün tərkibi

Kontur №-si	Tip və yarımtiplər	Sahə	
		ha	%
1	2	3	4
1	İbtidai və torflu dağ-çəmən	33680	4,8
2	Çimli dağ-çəmən	109159	15,7
5	Çəmənləşmiş dağ-meşə	27990	4,0
6	Tipik qonur dağ-meşə	61106	8,8
7	Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə	20715	3,0
11	Çimli karbonatlı dağ-meşə	4178	0,6
12	Yuyulmuş qəhvəyi dağ-meşə	114551	16,4
13	Tipik qəhvəyi dağ-meşə	34584	5,0
14	Karbonatlı və bozqırlaşmış qəhvəyi dağ-meşə	31201	4,5
17	Tünd və adi dağ boz-qəhvəyi	18119	2,6
18	Açıq dağ boz-qəhvəyi	7290	1,0
21	Tipik və karbonatlı çəmən-qəhvəyi	42362	6,1
24	Tünd və adi şabalıdı	56322	8,1
25	Qismən qalıq şorlaşmış açıq şabalıdı	4135	0,6
34	Qismən şorakətli və şoranlı bozumtul və boz-qonur	6109	0,9
35	Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə	43593	6,3
36	Subasar-allüvial-çəmən	32930	4,7
41	Dyunlu təpəcikl qumlar	16366	2,3
44	Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	32112	4,6
Cəmi		**696502 8,1**	**100**

Cədvəl 79

Bölgənin torpaq örtüyünün tərkibi (ha/%)



Dağ-çəmən
Qonur dağ-meşə
Qəhvəyi dağ-meşə
Dağ şabalıdı
Sabalıdı
Boz qonur
Çəmən-meşə (tuqay)
Subasar allüvial- çəmən
Qumluqlar və səthə çıxmış müxtəlif süxurlar

Şəkil 357

əhatə edir. Burada qəhvəyi dağ-meşə və bozqırlaşmış qəhvəyi dağ-meşə torpaqları (kon.12, 13 və 14) meşə fondu torpaqlarının 61,3%-ni və ya 180,3 min hektarı qonur dağ-meşə torpaqları (kon.5, 6 və 7) 37,3%-ni (109,8 min ha) və çimli karbonatlı dağ-meşə torpaqları (kon.11) isə yalnız 1,4%-ni (4,2 min ha) təşkil edir. Yüksək dağlıq ərazidə yerləşən dağ-çəmən torpaqlarının tip və yarımtipləri (kon.1 və 2) ümumi dağ torpaq fondunun 38,8%-ni (142,8 min ha) bərabərdir. Əsasən yay otlaq sahələri kimi istifadə olunan subalp və alp zonasının bu torpaqları bölgənin ümumi torpaq fondunun 20,5%-ni örtür.

Dağlıq zonada yayılmış meşə örtüyü özünün formalaşdığı təbii mühitin və xüsusilə torpaq örtüyünün qoruyucusu olduğu kimi, o eyni zamanda həmin regionda torpaqqoruyucu, sutənzimləyici, rütubətsaxlayıcı və iqlim mülayimləşdirici

xüsusiyyətləri ilə də səciyyələnir. Bölgənin ümumi təbiətinə kompleks təsir göstərən meşə örtüyü son 25-30 ildə hədsiz qırılıb məhv edilmişdir. Belə bir şəraitdə çox sahələrdə meşəsizləşmə baş verdiyindən bozqır ot bitkiləri və seyrək meşə, kserofil meşə-kolluqların arealı genişlənməyə başlamışdır. Nəticədə bozqırlaşma şəraitində yaxın keçmişdə meşə altında çıxmış boz-qəhvəyi torpaqların tip və yarımtipləri inkişaf etmişdir. Hazırda ərazidə yayılmış dağ-boz qəhvəyi torpaqlar (kon.17 və 18) ümumi dağ-torpaq fondunun 3,6%-ni (25,4 min ha) təşkil edir. Bu torpaqlar hazırda kənd təsərrüfatında meyvəçilik, heyvandarlıq, taxılçılıq və s. sahələrdə istifadə edilir. Ərazinin maili dağətəyi düzənliyində geniş sahələri tutan çəmən-qəhvəyi və şabalıdı torpaq tip və yarımtip (kon. 21, 24, 25 və 34) torpaqlar ümumi torpaq ehtiyatının 15,6%-ni (108,9 min ha) əhatə edir. Meyvəçilik və dənli bitkilərin əkinləri altında geniş istifadə edilir. Qismən qış otlaqları və kəndyanı örüş sahələri kimi heyvandarlığı təbii yem bazası ilə təmin edir.

Düzənliyin digər tip və yarımtip torpaqlarının sahəsi 76,5 min ha olmaqla ümumi torpaq fondunun 11,0%-ni əhatə edir. Bu torpaqların 6,3%-ni (43,6 min ha) tuqay meşə torpaqları tutur. Dyunlu təpəcikli qumlar, çılpaq qayalıqlar və səthə çıxmış süxurların sahəsi ümumi torpaq fondunun 6,9%-nə (48,5 min ha) bərabərdir.

Bölgənin torpaq örtüyünün tərkib hissəsini təşkil edən kənd təsərrüfatına yararlı torpaqlar ümumi torpaq fondunun 55,5%-ni (386,6 min ha) təşkil edir (cədvəl 80, şəkil 358-363). Bunun 32,9%-i (127,0 min ha) əkin və dincə qoyulmuş torpaqlardır. Çoxillik əkmələraltı torpaqlar və ya 7,3%-dir (28,2 min ha). Biçənək sahələri kimi istifadə olunan torpaqlar 7,5%-ə (29,2 min ha) çatır.

Kənd təsərrüfatına yararlı torpaqlardan ən geniş sahəni tutan örüş və otlaq torpaqlarıdır. Örüş və otlaq torpaqları yararlı torpaq ehtiyatlarının 48,3%-ni (186,8 min ha) əhatə edir. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqların sahəsi 4,0%

Cədvəl 80

Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Örüş və otlaqlar	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Quba	261032 37,5	19578 13,4	14742 10,1	15289 10,5	90627 62,2	5432 3,7	145668 55,8	52707 20,2	62657 24,0
	o.c.suv.	29002 22,1	11469 39,5	13213 45,6	842 2,9	943 33,0	2535 8,7	29002 11,4	-	-
2	Qusar	149953 21,5	34462 23,0	7502 8,9	10110 11,9	29405 22,9	3176 3,7	84655 56,4	21985 14,7	43313 28,9
	o.c.suv	29398 22,4	18590 63,2	6663 22,7	577 2,0	2122 7,2	1442 4,9	29398 35,3	-	-
3	Dəvəçi	108821 15,6	19002 35,0	2487 4,6	3423 6,3	27542 50,8	1794 3,3	54248 49,8	21455 19,7	33118 30,4
	o.c.suv	18493 14,1	15592 84,3	525 2,8	806 4,4	588 3,2	957 5,2	18493 35,0	-	-
4	Siyəzən	70341 10,1	9510 23,8	1658 4,1	308 0,8	27835 69,6	689 1,7	40000 56,9	6141 8,7	24200 34,4
	o.c.suv	4003 3,1	2881 72,0	862 21,5	-	78 2,0	182 4,5	4003 10,0	-	-
5	Xaçmaz	106355 15,3	44421 71,7	1816 2,9	64 0,1	11433 18,4	4246 6,8	61980 58,3	20655 19,4	23720 22,3
	o.c.suv	50286 38,3	43983 87,5	1790 3,6	21 0,04	576 1,1	3916 7,8	50286 81,1	-	-
	Cəmi	**696502 8,1**	**126973 32,9**	**28205 7,3**	**29194 7,5**	**186842 48,3**	**15337 4,0**	**386551 55,5**	**122943 17,7**	**187008 26,8**
	o.c.suv.	**131182 9,2**	**92515 70,5**	**23053 17,6**	**2246 1,7**	**4307 3,3**	**9032 6,9**	**131157 33,9**	-	-


(15,3 min ha) təşkil edir. Meşə fondu torpaqları bölgənin ümumi torpaq ehtiyatlarının 29,7%-dən (122,9 min ha) bir qədər çox hissəsini əhatə edir. Kənd təsərrüfatında istifadə olunmayan sair torpaqlar isə ümumi torpaq fondunun 26,8%-ni (187,0 min ha) tutur. Kənd təsərrüfatına yararlı torpaqların 33,9%-i, yəni 131,2 min hektarını suvarılan torpaqlar təşkil edir. Bunun da 70,5%-i (92,5 min ha) əkin və dincə qoyulmuş

torpaqların payına düşür. Çoxillik əkmələr altında becərilən torpaqların 17,6%-dən (23,0 min ha) bir qədər çoxdur. Biçənək və örüş otlaq sahələrinin uyğun olaraq yalnız 1,7-3,3%-i suvarılır. Həyətyanı torpaqların isə ancaq 6,9%-i (9,0 min ha) suvarılır.

Bölgənin ayrı-ayrı raoynlarında kənd təsərrüfatına yararlı torpaqların miqdarı çox müxtəlifdir. Ən çox kənd təsərrüfatına yararlı torpaq sahələri Quba rayonunda 145,7 min ha olmaqla rayonun ümumi torpaq fondunun 55,8%-nə bərabərdir. Bu üstünlük ərazidə sahəsi 90,6 min ha və ya yararlı torpaqların 62,2%-ni təşkil edən örüş və otlaq sahələrinin hesabına baş verir. Əslində raoynda əkin və dincə qoyulmuş torpaqların sahəsi Qusar və Xaçmaz rayonlarına nisbətən azdır. Qusar və Xaçmaz rayonlarında bu göstəricilər 23,0 və 71,7% (34,5 və 44,4 min ha) təşkil edir. Siyəzən və Dəvəçi rayonlarında əkin və dinc torpaqların göstəriciləri 23,8-35,0% (9,5-19,0 min ha) arasında dəyişməsi ilə səciyyələnir.

Cədvəl 80


Bölgənin ümumi torpaq fondunun rayonlar üzrə paylanma strukturu (ha/%)



Şəkil 358

Cədvəl 80.1


Bölgənin ümumi torpaq fondunun əsas tərkib hissəsi (ha/%)



Şəkil 359

Cədvəl 80.2


Bölgənin kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 360


Cədvəl 80.3

Bölgənin yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)




Cədvəl 80.4

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Cədvəl 80.5

Bölgənin ümumi suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Ümumiyyətlə, bölgənin kənd təsərrüfatına yararlı torpaq sahəsinin miqdarı müxtəlif olduğu kimi, onların təyinatı üzrə kənd təsərrüfatı sahələri altında istifadə çəkisi d ə müxtəlifdir. Məsələn, ümumi sahəsi 106,3 min ha olan Xaçmaz rayonunda kənd təsərrüfatı dövriyyəsinə yalnız onun 58,3% yararlı hissəsi, yəni 62,0 min hektarı cəlb edilmişdir.

Bölgədə torpaq istifadəçiliyinin miqyası geniş olduğudan onun bu günkü aqroekoloji durumu da xeyli fərqlidir. Torpağın əsas aqroekoloji parametrlərindən biri, təbii münbitlik xassələrinə görə keyfiyyət qruplarının bonitet şkalasında onun dinamikliyidir (cədvəl 81, şəkil 364-369).

Müxtəlif təsərrüfat təyinatlı sahələrin uzunmüddətli istismarının nəticəsi olaraq torpağın təbii münbitliyinin kəskin şəkildə pisləşməsi onu hazırkı keyfiyyət durumuna gətirib çıxarmışdır. Belə ki, bölgədə kənd təsərrüfatı dövriyyəsində olan 386,5 min ha torpaq sahəsinin yalnız 113 min hektara yaxın və ya 29,2%-i I aqroistehsal qrupunda və ya yüksək


Cədvəl 81

Bölgənin ümumi kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları üzrə paylanması (ha/%)

Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
							kəndyanı	qış	yay	
	100-81	I	39170 34,7	8445 7,5	295 0,3	15337 13,6	37748 33,4	1841 1,6	10076 8,9	112912 29,2
	80-61	II	64936 34,2	14296 7,5	16370 8,6	-	73511 38,8	2948 1,6	17640 9,3	189701 49,1
	60-41	III	21312 29,4	3558 4,9	11510 15,9	-	29362 40,5	1382 1,8	5438 7,5	72562 18,8
	40-21	IV	1555 16,2	1906 19,8	1019 10,6	-	4211 43,8	463 4,8	457 4,8	9611 2,5
	20-1	V	-	-	-	-	1393 0,9	247 3,6	125 0,3	1765 0,4
696502 8,1	**100-1**	**I-V**	**126973 32,9**	**28205 7,3**	**29194 7,5**	**15337 4,0**	**146225 37,8**	**6881 1,8**	**33736 8,7**	**386551 55,5**

Cədvəl 81


Bölgənin kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları üzrə paylanması (ha/%)



Şəkil 364

Cədvəl 81.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 365

Cədvəl 81.4

IV keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)




Əkin+dinc
Çoxillik əkmələr
Biçənək
Kəndyanı örüş
Qış otlağı
Yay otlağı

Şəkil 368

Cədvəl 81.5

V keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)




Kəndyanı örüş
Qış otlağı
Yay otlağı

Şəkil 369

Cədvəl 81.2


II keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 366

Cədvəl 81.3

III keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 367

keyfiyyət qrupunda yer tumuşdur. Çox təəssüf ki, bunun da 15,3 min (13,6%) hektardan bir qədər artıq hissəsi kənd təsərrüfatına yararlı həyətyanı torpaqların payına düşür. Həyati əhəmiyyət kəsb edən əkin və dincə qoyulmuş torpaq sahələrinin 127 min ha-ından ancaq 39,2 min hektarı (30,8%) I keyfiyyət qrupuna daxildir. Ümumi əkin sahəsinin 64,9 min ha-a (51,2%) II, 21,3 min hektarı (16,8%) III və hətta 1,6 min hektara (1,2%) qədəri IV keyfiyyət qrupuna transfer olunmuşdur.

Ümumi sahəsi 28,2 min hektara çatan çoxillik əkmələr altındakı torpaqların 8,4 min ha (29,9%) yüksək keyfiyyətli torpaqlardan ibarətdir. Bu torpaqların əsas hissəsi, yəni 14,3 min hektarı (50,7%) yaxşı keyfiyyətli torpaqlardır. Yalnız 3,6 min ha (12,6%) orta keyfiyyət qrupunda cəmlənmişdir.Çoxillik əkmələr altında istifadə edilən sahələrin cüzi bir hissəsi, yəni 1,9 min ha-ı (6,8%) aşağı keyfiyyətli torpaqlara çevrilmişdir. Eləcə də belə dinamiklik biçənək və örüş otlaq torpaqlarında da müşahidə edilməkdədir. Hazırda ümumi sahəsi təqribən 146,2 min hektara çatan kəndyanı örüş torpaqlarının uzunmüddətli qayğısız istifadə edilməsi nəticəsində torpaq örtüyü nəinki yaxşı keyfiyyət qrupunda sabitləşmiş, hətta burada güclü tənəzzül prosesi baş verdiyindən orta, aşağı və eləcə də yararsız torpaqlara doğru transferlik güclənmişdir. Hazırda aşağı və yararsız keyfiyyətli qrupunda (IV-V qr.) ümumi kəndyanı örüş torpaqlarının 5,6 min hektarı və ya 3,8%-i cəmlənmişdir. Bölgədə geniş istifadə olunan qış və yay otlaq torpaqlarının keyfiyyət qruplarının paylanmasında da kəndyanı örüş sahələrində olduğu kimi dinamiklik müşahidə edilməkdədir. Burada da ümumi qış otlaq torpaqlarının az bir hissəsi, yəni 1,8 min hektara (26,7%) qədəri yüksək keyfiyyət qrupunda özünü qoruyub saxlayan bilmişdir. Qalan hissəsi isə digər keyfiyyət qruplarında zaman keçdikcə özünə yer tapmışdır. Belə oxşar vəziyyət bölgədə heyvandarlığın qidalı təbii yem bazası sayılan yay otlaq torpaqlarının keyfiyyətinin dəyişməsində də müşahidə olunur. Hazırda bölgədə istifadə edi-

lən 33,7 min hektara yaxın yay otlaq sahəsinin yalnız 10,1 min hektarı (30,0%) yüksək keyfiyyətli torpaqlarda yerləşir. Yay otlaqlarının əsas hissəsi II aqroistehsalat qrupunda yer almaqla ümumi yay otlaq sahələrinin 52,3%-ni (17,6 min ha) əhatə edir. Qış otlaq torpaqlarının 20,2%-i (1,4 min ha) orta keyfiyyətli torpaqlara transfer olduğu halda yay otlaqlarında bu göstərici 16,1% (5,4 min ha) təşkil edir. Şübhəsiz ki, gələcəkdə torpaqların münbitlik xassələrinin pisləşməsinin qarşısı vaxtında lazımi aqromeliorativ tədbirlərlə alınmasa, bu proseslərin genişlənəcəyi qaçılmazdır. Ümumiyyətlə, hazırda bölgənin kənd təsərrüfatı dövriyyəsində istifadə olunan təsərrüfat sahələrinin 78,3%-i (302,6 min ha) yüksək və yaxşı keyfiyyətli torpaqlarda yerləşmişdir. Kənd təsərrüfatı istehsalına yararsız torpaqlar ümumi yararlı sahələrin 2,9%-nə (11,4 min ha) çatır.

Bölgənin ayrı-ayrı rayonlarında kənd təsərrüfatında istifadə olunan torpaqların müxtəlif aqroistehsalat qruplarında yer alması 82-ci cədvəldə öz əksini tapmışdır. Məsələn, Quba, Qusar və Dəvəçi rayonlarında kənd təsərrüfatında istifadə olunan torpaqların 79-81%-i (44-116 min ha) yüksək və yaxşı keyfiyyətli aqroistehsalat qrupuna daxildirsə, Xaçmaz və Siyəzən rayonlarında müvafiq göstəricilər 61-68% (27,3-47,8 min ha) arasında dəyişir. Belə fərqi IV və V keyfiyyət qruplarına transfer olunmuş torpaqların miqdarında da görmək mümkündür.

Beləliklə, deyilənlərdən bir daha aydın olur ki, əgər yaxın gələcəkdə kənd təsərrüfatında istifadə olunan torpaqların münbitlik xassələrinin və eləcə də meliorativ durumunun əsaslı şəkildə yaxşılaşdırılması sahəsində konkret tədbirlər görülməsə hazırda keyfiyyət qruplarının yuxarı pilləsində yer tutmuş torpaq sahələrinin aşağı pillələrə doğru transferliyi daha da güclənəcəyi şübhə doğurmur.

Bölgədə 386,6 min ha kənd təsərrüfatına yararlı torpaqların 131,2 min hektarı suvarılan torpaqlardan ibarətdir. Bu torpaqların mövcud meliorativ durumunun təhlili torpaqların

Cədvəl 82

Bölgənin rayonlarında kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
					Əkin+dinc	Çoxillik əkmələr	Biçənək	Heyətyanı	Otlaq və otlaqlar			Cəmi
									kəndyanı	qış	yay	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Quba		100-81	I	5774 29,5	4334 29,4	91 0,6	5432 12,5	1800 31,4	1285 28,6	8532 29,6	43445 29,8
			80-61	II	9672 49,4	7534 51,0	8593 56,2	-	29325 51,1	2121 47,2	15083 52,5	72328 49,6
			60-41	III	3944 20,1	1872 12,8	6101 39,9	-	9227 16,1	736 16,4	4764 16,5	26644 18,3
			40-21	IV	188 1,0	1002 6,8	504 3,3	-	617 1,1	218 4,8	322 1,0	2851 2,0
			20-1	V	-	-	-	-	185 0,3	135 3,0	70 0,2	390 0,3
	Cəmi	**261032 37,5**	**100-10**	**I-V**	**19578 13,4**	**14742 10,2**	**15289 10,5**	**5432 3,7**	**57361 39,4**	**4495 3,1**	**28771 19,7**	**145668 55,8**
2	Qusar		100-81	I	10718 31,1	2199 29,3	63 0,6	3176 12,5	7600 31,1	-	1544 31,1	25300 29,9
			80-61	II	17767 51,6	3824 51,0	5679 56,2	-	12587 51,5	-	2557 51,5	42414 50,1
			60-41	III	5617 15,3	951 12,7	4034 40,9	-	3904 16,3	-	674 13,6	15180 17,9
			40-21	IV	360 1,0	528 7,0	334 3,3	-	269 1,1	-	135 2,7	1626 1,9
			20-1	V	-		-	-	80 0,3	-	55 1,1	135 0,2
	Cəmi	**149953 21,5**	**100-10**	**I-V**	**34462 40,4**	**7502 8,9**	**10110 11,9**	**3176 3,7**	**24440 28,9**	**-**	**4965 5,9**	**84655 56,4**
3	Dəvəçi		100-81	I	5988 31,5	892 35,9	20 0,6	1794 10,6	8168 29,7	-	-	16862 31,1

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			80-61	II	9917 52,2	1150 46,2	1968 57,7	-	14118 51,3	-	-	27153 50,0
			60-41	III	2885 15,2	306 12,3	1312 38,4	-	4464 16,2	-	-	8967 16,5
			40-21	IV	212 1,1	139 5,6	123 3,3	-	522 1,9	-	-	996 1,8
			20-1	V	-	-	-	-	270 1,0	-	-	270 0,5
	Cəmi	**108360 17,9**	**100-10**	**I-V**	**19002 35,0**	**2487 4,6**	**3423 6,3**	**1794 3,3**	**27542 50,8**	-	-	**54248 49,8**
4	Siyəzən		100-81	I	2955 31,1	487 29,0	100 33,3	689 8,0	3840 15,1	556 23,3	-	8627 21,6
			80-61	II	4900 51,5	847 51,1	100 33,3	-	11990 47,1	827 34,7	-	18664 46,7
			60-41	III	1549 16,3	211 12,7	50 16,7	-	7247 28,5	646 27,1	-	9703 24,3
			40-21	IV	106 1,1	113 6,8	58 16,7	-	1947 7,6	245 10,3	-	2469 6,1
			20-1	V	-	-	-	-	425 1,7	112 4,7	-	537 1,3
	Cəmi	**70341 10,1**	**100-10**	**I-V**	**9510 23,8**	**1658 4,1**	**308 0,8**	**689 1,7**	**25449 63,6**	**2386 6,0**	-	**40000 56,9**
5	Xaçmaz		100-81	I	13735 30,9	533 29,1	21 32,8	4246 22,7	133 1,2	-	-	18668 30,1
			80-61	II	22680 51,0	941 51,4	30 46,9	-	5491 48,0	-	-	29142 30,9
			60-41	III	7317 16,5	218 12,6	13 20,3	-	4520 39,5	-	-	12068 19,5
			40-21	IV	689 1,6	124 6,8	-	-	856 7,5	-	-	1669 2,7
			20-1	V	-		-	-	-	-	-	-
	Cəmi	**106355 15,3**	**100-10**	**I-V**	**44421 71,7**	**1816 2,9**	**64 0,1**	**4246 6,9**	**11433 18,4**	-	-	**61980 58,3**

keyfiyyət qrupları barəsində bir qədər irəlidə söylədiyimiz fikri bir daha təsdiqləyir.

Bölgədə qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə suvarılan torpaqların ərazidə paylanması da xeyli müxtəlifdir (cədvəl 83, şəkil 370-372).

Cədvəl 83


Bölgənin ümumi suvarılan torpaqlarının meliorativ vəziyyətinə dair bəzi göstəricilər (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətlən-dirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3	4	5	6	7	8	9	10	11	13
1	Dəvəçi	18493 14,1	2735 40,6	12416 32,4	3342 3,9	10849 12,4	4391 16,2	3253 19,2	1194 2,0	9403 20,3	7896 31,6
2	Quba	29002 22,1	-	1911 5,0	27091 31,4	18501 21,2	-	10501 61,8	18900 31,6	6641 14,3	3461 13,1
3	Siyəzən	4003 3,1	205 3,1	2208 5,8	1590 1,8	2043 2,3	952 3,5	1008 5,9	904 1,5	1504 3,2	1595 6,4
4	Xaçmaz	50286 38,3	3797 56,4	21748 56,8	24741 28,7	37684 43,2	10738 39,6	1864 11,0	21049 35,2	23529 50,8	5708 22,8
5	Qusar	29398 22,4	-	-	29398 34,1	18042 20,7	11003 40,6	353 2,1	17773 29,7	5273 11,4	6352 25,4
	Cəmi	**131181** **9,2**	**6737** **5,1**	**38283** **29,2**	**86162** **65,7**	**87119** **66,4**	**27084** **20,6**	**16979** **13,0**	**59820** **45,6**	**46350** **35,3**	**25012** **19,1**

Yeraltı suların səviyyəsi təhlükəli həddə (yəni 1m-dən az dərinlikdə) yerləşən suvarılan torpaqların sahəsi 6,7 min hektardan, yəni 5,1%-dən bir qədər çoxdur. Qrunt sularının səviyyəsi 1,0-3,0 m arasında yerləşən ərazilərdə isə suvarılan torpaqların 38,3 min hektarı və ya 29,2%-i yayılmışdır. Suvarılan torpaqların qalan hissəsi, yəni 86,2 min hektarı (65,7%) qrunt sularının səviyyəsi 3 m-dən aşağı qatlarda olan sahələri əhatə edir.

Cədvəl 83


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 370

Cədvəl 83.1


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 371

Cədvəl 83.2

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 372

Bölgənin ayrı-ayrı rayonlarında hər üç halda meliorativ vəziyyətin nəticələri xeyli fərqlidir. Məsələn, Siyəzən və Dəvəçi rayonlarında qrunt sularının dərinliyinə (>3,0 m) görə sahələrin yerləşmə vəziyyəti yaxşı qiymətləndirilən suvarılan sahələrin 1,8-3,9% (1,6-3,3 min ha) təşkil etdiyi halda, Qusar, Quba və Xaçmaz raoynlarında bu göstərici 28-34% (24,7-29,4 min ha) arasında dəyişir.

Qrunt sularının dərinliyinin 1 m-dən az olan suvarılan sahələrin ölçüsü yalnız Xaçmaz rayonunda bir qədər yüksəkdir. Burada suvarılan torpaqların 56,4%-i və ya 3,8 min hektarı 1 m-dən az dərinlikdə yerləşən sahələr təşkil edir. Siyəzən və Dəvəçi rayonlarında həmin göstəricilər bir qədər zəifləsə də, faktiki burada 0,2-2,7 min ha torpaq sahəsi qrunt sularının səviyyəsi 1 m-dən az olan ərazilərdə yerləşir. Qusar və Quba rayonlarında qrunt suyunun dərinliyi 1 m-dən az olan suvarılan torpaq sahələrinə rast gəlinmir.

Suvarılan torpaqların 12,4-21,7 min ha qrunt sularının dərinliyi 1,0-3,0 m arasında yerləşən Xaçmaz, Siyəzən və Dəvəçi

rayonları daxildir. Quba rayonunda bu göstərici təqribən 2,0 min ha və ya həmin sahələrin cəminin 5,0% təşkil edir. Qusar rayonunda isə suvarılan torpaq sahələrində bütünlüklə qrunt suları 3 m-dən aşağıdakı dərinliklərdə paylanmışdır. Siyəzən və Xaçmaz rayonlarında isə suvarılan torpaqlarının yalnız 1,6-24,8 min hektarı qrunt suları 3 m-dən aşağıda yerləşən ərazilərdə paylanmışdır. Dəvəçi ərazisində bu rəqəm 3,3 min hektara qədər azalır.

Qrunt sularının minerallaşma dərəcəsi 1 qr/l-dən (quru qalığa görə) az olan suvarılan torpaqlar ən çox Xaçmaz rayonunda (37,7 min ha) qeydə alınmışdır. Bölgənin digər rayonlarında bu göstərici ümumi cəmin 2,3-21,2% (2,0-18,5 min ha) arasında dəiyşir. Minerallaşma dərəcəsi 1,0-3,0 qr/l arasında dəyişən qrunt sularının yayıldığı sahələrdə Qusar rayonunun suvarılan torpaqlarının 40,6%-i (11,0 min ha) yerləşir. Dəvəçi, Siyəzən, Xaçmaz rayonlarında isə həmin göstəricilər 3,5-39,6% (1,0-10,7 min ha) arasında tərəddüd edir. Minerallaşma dərəcəsi təhlükəli və çox təhlükəli hesab edilən (1,0-3,0, <3,0 qr/l) ərazilərdə bölgənin ümumi suvarılan torpaqlarının 33,6%-nin (44,1 min ha) yerləşməsi torpaq istifadəçilərindən suvarmada daha ehtiyatlı olmağı tələb edir.

Hal-hazırda ərazidə suvarılan torpaqların 59,8 min hektarının (45,6%) meliorativ durumu qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə ərazidə yayılması yaxşı vəziyyətdədir. Suvarılan sahələrin 46,4 min ha (35,3%) kafi və 25,0 min ha isə (19,1%) qeyri-kafi qiymətləndirilir. Meliorativ durumu yaxşı qiymətləndirilən suvarılan torpaqlar ən çox bölgənin Xaçmaz və Quba rayonları ərazisində yayılmışdır. Belə ki, bu göstərici Xaçmaz rayonunda 21,1 min ha olduğu halda, Quba rayonu ərazisində 18,9 min ha təşkil edir. Qusar rayonu ərazisində bu rəqəm (17,8 min ha) nisbətən yüksəkdir.

Bölgənin Siyəzən və Dəvəçi rayonlarında meliorativ durumu yaxşı qiymətləndirilən suvarılan torpaq sahəsi çox azdır və onun ümumi cəminin 1,5-2,0%-ni (0,9-1,2 min ha) təşkil

etməsi ilə səciyyələnir. Bu rayonların ərazisində meliorativ durumu qeyri-kafi qiymətləndirilən suvarılan torpaqlar (1,6-7,9 min ha) üstün yer tutur.

Meliorativ durumu kafi qiymətləndirilən suvarılan torpaqlar ən çox Xaçmaz rayonunda 23,5 min ha çatır və burada bölgə üzrə kafi qiymətləndirilən suvarılan sahələrin 50,8%-ni əhatə edir. Digər rayonlarda bu göstəricilər 3,2-20,3% arasında artıb azalır.

Meliorativ durumu qeyri kafi qiymətləndirilən suvarılan torpaqlar Dəvəçi rayonunda onun bölgə üzrə cəminin 31,6%-ə qədər yüksəlir. Siyəzən rayonunda bu göstərici xeyli azalsa da, (1,6 min ha) əslində ümumi suvarılan sahələrin 39,8%-ni təşkil etməsi rayonun suvarılan torpaqları üçün təhlükəli vəziyyət hesab olunur.

Bütün bunlara baxmayaraq bölgədə uzunmüddətli suvarmanın tətbiqi becərilən sahələ üçün təhlükəsiz ötüşməmişdir. Quba-Xaçmaz bölgəsində az da olsa, suvarılan torpaqlarda şorlaşma təhlükəsi mövcuddur. Belə ki, bölgədə suvarılan 131,2 min ha torpaqların 23,2 min hektarı (17,7%) müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır (cədvəl 84, şəkil 374-375). Bunun 5,2 min hektarı (3,9%) yüksək, təqribən 9,0 min hektarı (6,1%) orta dərəcədə şorlaşmış sahələrdən ibarətdir. Suvarılan torpaqların yalnız 9,0 min hektarı (6,9%) zəif şorlaşmışdır. Suvarılan torpaq sahələrində meliorativ durumunun pisləşməsinə təsir göstərən amillərdən biri də ərazinin drenləşmə şəraiti ilə əlaqədardır (cədvəl 84, şəkil 375). Burada ümumi suvarılan torpaqların yalnız 17,5%-i, yəni 23,0 min ha drenləşdirilmişdir ki, bunun da 13,4%-i və ya 17,6 min hektarında örtülü üfüqi drenaj şəbəkəsi tikilmişdir. Bölgədə yalnız Dəvəçi və Xaçmaz rayonlarının suvarılan torpaqlarında drenləşmə işləri aparılmışdır. Xaçmaz rayonunda drenləşmiş torpaq sahəsi rayon üzrə ümumi suvarılan torpaqların 21,5%-ni (10,8 min ha) əhatə edir. Dəvəçi rayonunda bu göstərici nisbətən yüksəkdir və suvarılan torpaqların 66,0%-ni əhatə edir.

Hər iki rayonda əsasən örtülü üfüqi drenləşmə şəbəkəsi inşa edilmişdir ki, bu da drenləşdirilmiş sahələrin 76,5%-ni təşkil edir.

Cədvəl 84

Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma və drenləşmə durumu (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi					Drenləşmiş sahələr	
			şorlaş-mayan	cəmi şorlaş-mış	o cümlədən			cəmi	o cüm. qapalı üfüqi
					zəif	orta	şid-dətli		
1	Dəvəçi	18493 14,1	7254 39,2	11239 60,8	2824 25,1	4339 38,6	4076 36,3	12200 66,0	6800 55,7
2	Quba	29002 22,1	27401 94,5	1601 5,5	1000 62,5	601 37,5	-	-	-
3	Siyəzən	4003 3,1	1703 42,5	2300 57,5	1034 45,0	798 34,7	468 45,3	-	-
4	Xaçmaz	50286 38,3	42267 84,0	8019 15,9	4166 52,0	3221 40,2	632 7,8	10800 21,5	10800 21,5
5	Qusar	29398 22,4	29398 100	-	-	-	-	-	-
	Cəmi:	**131181** **9,2**	**108023** **82,3**	**23159** **17,7**	**9024** **39,0**	**8959** **38,7**	**5176** **22,3**	**23000** **17,5**	**17600** **13,4**

Quba, Qusar və Siyəzən rayonlarının suvarılan torpaqlarından bütünlüklə təbii drenləşmə şəraitində əsasən dənli və tərəvəzçilikdə istifadə olunur.

Suvarılan ərazilərdə bütünlüklə dren-kollektor şəbəkələri inşa edilmədiyindən və eləcə də mövcud drenləşdirilmiş sahələrdə drenlərin işlək vəziyyətdə saxlanmasına lazımi səviyyədə qayğı göstərilməyir.

Cədvəl 84


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)



Şəkil 373

Cədvəl 84.1


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 374

Cədvəl 84.2

Bölgənin ümumi suvarılan torpaqlarının drenləşmə durumu (ha/%)



Şəkil 375

Əgər tezliklə lazımi meliorativ tədbirlər görülməsə zəif şorlaşmış sahələrinin yaxın gələcəkdə orta və yüksək dərəcədə şorlaşmış torpaqlarla əvəz olunacağı qaçılmazdır. Şorlaşmış suvarılan torpaqlar ən çox Dəvəçi rayonu ərazisində yayılmışdır (60,8%) və onun göstəricisi 11,2 min hektardır. Hazırda suvarılan torpaqların 36,3% yüksək dərəcədə (4,1 min hektar) şorlaşmışdır. Zəif və orta dərəcədə şorlaşmış suvarılan torpaqlar müvafiq olaraq 2,8 və 4,3 min hektar olmaqla rayon üzrə şorlaşmış torpaqların 25,1 və 38,6%-ni təşkil edir. Xaçmaz rayonunda 50,3 min hektar suvarılan torpaqların 8,0 min hektarı (15,9%) müxtəlif dərəcədə şorlaşmışdır. Bu da bölgə üzrə şorlaşmış torpaqların 34,6%-i deməkdir. Qusar rayonunun suvarılan torpaqları əlverişli təbii drenləşmiş şəraitdə yerləşdiyindən şorlaşma prosesi müşahidə olunmur.

Torpaqların keyfiyyət parametrlərinin pisləşməsinə ərazinin meliorativ durumu ilə yanaşı, torpaq örtüyündə baş verən eroziya prosesləri də güclü mənfi təsir göstərir. Bölgədə yayılmış torpaq ehtiyatlarının təqribən 370 min hektarı yaxın hissəsi və ya 46,3%-i müxtəlif dərəcədə eroziyaya məruz qamışdır (cədvəl 85, şəkil 376 və 377). Bunun 106,1 min hektarı (15,2%)

Cədvəl 85

Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Eroziya dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	Quba	261032 37,5	133097 51,0	127935 49,0	68005 53,1	24240 18,9	35690 28,0
2	Qusar	149953 21,5	57128 38,1	92825 61,9	48295 52,0	24330 26,2	20200 22,8
3	Dəvəçi	108821 15,6	54301 49,9	54520 50,1	14475 26,4	18345 33,6	21700 39,8
4	Siyəzən	70341 10,1	14728 21,0	55613 79,0	17218 31,0	13180 23,7	25215 45,3
5	Xaçmaz	106355 15,3	67865 63,8	38490 36,2	26735 69,5	8480 22,0	3275 8,5
	Cəmi	**696502 8,1**	**327119 47,0**	**369383 53,0**	**174728 47,3**	**88575 24,0**	**106080 28,7**


şiddətli, 88,6 min hektarı (12,7%) orta və 174,7 min hektara (25,1%) qədəri zəif dərəcədə eroziyaya məruz qalmış torpaqlardır.

Bölgənin ayrı-ayrı rayonlarında torpaqların eroziyaya uğrama göstəriciləri də xeyli fərqlidir. Məsələn, Dəvəçi və Siyəzən rayonlarında torpaq ehtiyatlarının yarısından çoxu (50,1 və 79,0%) eroziyaya uğramış torpaqlardır. Eroziyaya uğramış sahələrin (cəmindən) 39,8 və 45,3%-i şiddətli, 33,6 və 23,7%-i orta, 26,4 və 31,0%-ni zəif eroziyaya məruz qalmış torpaqlar təşkil edir. Quba rayonunda torpaq ehtiyatlarının təqribən yarısı (49,0%) və Qusar rayonunda isə yarısından xeyli çox hissəsi (61,9%) eroziyalı torpaqlardan ibarətdir. Əhatə etdiyi əraziyə görə Quba rayonunda eroziyalı torpaqların arealı daha genişdir. Burada şiddətli eroziyaya uğramış torpaqlar 35,7 min ha təşkil edir ki, bu da rayon üzrə ümumi eroziyaya uğramış torpaqların 28,0%-i deməkdir.

Bölgənin digər rayonlarına nisbətən Xaçmaz rayonunun torpaqlarında eroziya prosesləri zəif inkişaf etdiyindən burada eroziyaya uğramamış torpaqların sahəsi 38,5 min hektara

Cədvəl 85


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)



Şəkil 376

Cədvəl 85.1

Bölgənin torpaq ehtiyatlarının eroziyalıq dərəcəsi (ha/%)



Şəkil 377

(36,2%) çatır. Bunun 8,5% şiddətli və 22,0%-i orta dərəcədə eroziyaya uğramış torpaqlardır.

Ümumiyyətlə, respublikanın digər bölgələrdə olduğu kimi Quba-Xaçmaz bölgəsində də torpaq örtüyündə baş verən eroziya proseslərinə qarşı kompleks mübarizə tədbirlər proqramının işlənib hazırlanmasına və bunun həyata keçirilməsinə ciddi zəruriyyət yaranmışdır.

Bu baxımdan Dövlət proqramında bölgədə suvarılan torpaq sahələrinin arealının genişləndirilməsi və onların davamlı su təminatını yaxşılaşdırmaq məqsədilə Samur-Abşeron kanalının suötürücü qabiliyyətinin yüksək olması üçün bir sıra bərpa və yenidənqurma işlərinin aparılmasının nəzərdə tutulması böyük əhəmiyyət daşıyır. Bundan başqa bölgənin ayrı-ayrı rayonlarında suvarılan torpaqlarının su təminatının yaxşılaşdırılması üçün suvarma drenaj şəbəkələrində təmizlənmə bərpa işləri yerinə yetirilməlidir. Sahil bərkitmə işlərinin aparılması da bu qəbildən həyata keçirilən tədbirlərdən biri hesab olunur.

Ümumi torpaq fondunun meliorativ durumunda müşahidə edilən neqativ təbii və antropogen proseslərin baş verməsinə baxmayaraq hal-hazırda bölgənin ümumi torpaq fondu üç: dövlət, bələdiyyə və xüsusi mülkiyyət növlərinə bölünərək istifadə olunur.

Bölgədə aparılan torpaq islahatları nəticəsində ümumi torpaq fondunun 285,6 min hektarı (41,0%) dövlət mülkiyyətində saxlanmış və 231,3 min hektarı (33,2%) bələdiyyə mülkiyyətinə verilmişdir. Bölgənin ümumi torpaq fondunun 179,6 min hektarı (25,8%) özəlləşdiriləcək torpaq payı almaq hüququ alan vətəndaşların xüsusi mülkiyyətinə verilmişdir (cədvəl 86, şəkil 378-379).


Cədvəl 86

Bölgənin vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış	yay			
1	Dövlət	285612 41,0	8905 13,3	1141 1,7	1932 2,9	56 0,1	-	21171 31,6	33736 50,4	66941 23,4	122766 43,0	95905 33,6
	o.c.suv.	10307 7,9	7802 75,9	731 7,1	533 5,2	50 0,5	-	1166 11,3	-	10282 15,4	25 0,02	-
2	Bələdiyyə	231283 33,2	7147 5,0	763 0,5	1042 0,7	1229 0,9	131935 92,8	-	-	142116 61,4	177 0,1	88990 38,5
	o.c.suv.	9386 7,2	4840 51,6	412 4,4	137 1,5	899 9,6	3098 33,0	-	-	9386 6,6	-	-
3	Xüsusi	179607 25,8	110921 62,5	26301 14,8	26220 14,8	14052 7,9	-	-	-	177494 98,8	-	2113 1,2
	o.c.suv	111489 85,0	79873 71,6	21910 19,6	1619 1,5	8087 7,3	-	-	-	111489 62,8	-	-
	Cəmi	**696502 8,1**	**126973 32,9**	**28205 7,3**	**29194 7,5**	**15337 4,0**	**131935 34,1**	**31171 5,5**	**33736 8,7**	**386551 55,5**	**122943 17,6**	**187018 26,8**
	o.c.suv.	**131182 9,2**	**92515 70,5**	**23053 17,6**	**2246 1,7**	**4307 3,3**	**9036 6,9**	**1166 0,9**	-	**131157 33,9**	**25 0,02**	-

Cədvəl 86


Bölgənin ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 378

Cədvəl 86.1

Bölgənin ümumi suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 379

1. Dövlət mülkiyyətindəki torpaqlar. Dövlət mülkiyyətində saxlanmış torpaq ehtiyatının 66,9 min hektardan (23,4%) bir qədər artıq hissəsi kənd təsərrüfatına yararlı torpaq sahələrindən ibarətdir (cədvəl 87, şəkil 380-385). Bunun 8,9 min


Cədvəl 87

Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin + dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							qış	yay			
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Quba	118001 41,3	998 2,6	601 1,6	797 2,1	-	7371 19,1	28771 74,7	38538 32,6	52545 44,5	26918 22,8
	o.c.suv.	1514 14,7	921 60,8	526 34,7	25 1,7	-	42 2,8	-	1514 3,9	-	-
2	Qusar	52473 18,4	970 14,3	385 5,7	2 0,03	7 0,1	464 6,8	4965 73,1	6793 12,9	21970 41,9	23710 41,2
	o.c.suv	595 5,8	451 75,8	100 16,8	2 0,3	4 0,7	38 6,4	-	595 8,8	-	-
3	Dəvəçi	51743 18,1	2379 23,4	70 0,7	1112 10,9	16 0,2	6592 64,9	-	10169 19,7	21455 41,5	20119 38,8
	o.c.suv	3422 33,2	2290 67,4	20 0,6	485 14,3	14 0,4	588 17,3	-	3397 33,4	25 0,1	-
4	Siyəzən	21555 7,5	40 1,2	-	-	-	3387 98,8	-	3427 15,9	6141 28,5	11987 55,0
5	Xaçmaz	41840 14,6	4518 56,5	85 1,1	21 0,3	33 0,4	3296 41,8	-	7953 19,1	20655 49,4	13232 31,5
	o.c.suv	4776 46,3	4140 86,7	85 1,8	21 0,4	32 0,7	498 10,4	-	4776 59,7	-	-
	Cəmi	**285612** **41,0**	**8905** **13,3**	**1141** **1,7**	**1932** **2,9**	**56** **0,1**	**21171** **31,6**	**33736** **50,4**	**66880** **23,4**	**122766** **43,0**	**95966** **33,6**
	o.c.suv.	**10307** **7,9**	**7802** **75,9**	**731** **7,1**	**533** **5,2**	**50** **0,5**	**1166** **11,3**	-	**10282** **15,4**	**25** **0,02**	-

Cədvəl 87


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 380

Cədvəl 87.1


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 381

Cədvəl 87.2


Bölgənin dövlət mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 382

Cədvəl 87.3


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 383

Cədvəl 87.4


Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 384

Cədvəl 87.5

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 385

hektarı kənd təsərrüfatı sahələrinin (8,4%) əkin və dincə qoyulmuş torpaq sahələrindən 1,1 min ha-ı (1,7%) çoxillik əkmələrin, 1,9 min hektarı (2,9%) biçənək sahələrindən və çox cüzi bir hissəsi isə 0,06 min ha (0,1%) kənd təsərrüfatına yararlı həyətyanı torpaq sahələrindən ibarətdir. Kənd təsərrüfatına yararlı torpaqların əsas hissəsini 82,0%-ni qış və yay otlaqları təşkil edir (54,9 min ha). Dövlət mülkiyyətində saxlanmış meşə fondu torpaqları ümumi torpaq ehtiyatlarının 43,0%-ni (122,8 min ha) tutur. Sair sahələr isə ümumi torpaq fondunun 33,6%-ni (95,9 min ha) təşkil edir. Bu sahələrin əsas hissəsini təşkil edən kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlar gələcəkdə kənd təsərrüfatı dövriyyəsinə cəlb ediləcək yeganə ehtiyat mənbəyidir.

Aparılmış hesablamalara görə hazırda bölgədə torpaq payı almış hər bir ailə öz ərazilərində dövlət mülkiyyətinə məxsus kənd təsərrüfatına yararlı torpaq (66,9 min ha) sahələrdən və eləcə də respublikanın digər bölgələrində yerləşən (Salyan, Abşeron və Şamaxı rayonlarında) və bölgənin rayonlarına təhkim olunmuş (131,1 min ha) dövlət fondu qış otlaq sahələri ilə birlikdə (198,0 min ha) orta hesabla 2,38 ha torpaq sahəsindən istifadə etmək imkanına malikdirlər. Bunlardan başqa bölgə əhalisi qanunvericiliyə uyğun dövlət meşə fondu torpaqlarından da geniş istifadə edirlər.

Bölgənin ümumi suvarılan torpaq fondunun 10,3 min hektarı (7,9%) dövlət mülkiyyətində saxlanmışdır. Bunun təqribən 76%-ə qədəri əkin və dincə qoyulmuş torpaqlarının payına düşür. Ümumiyyətlə, dövlət mülkiyyətində saxlanmış kənd təsərrüfatına yararlı torpaqların 15,4%-i suvarılan sahələrdən ibarətdir. Bölgənin ayrı-ayrı rayonlarında dövlət mülkiyyətində saxlanmış torpaq ehtiyatlarının ölçüsü də xeyli müxtəlifdir. Məsələn, Quba rayonunda ümumi torpaq fondunun 45,2%-i və ya 118,0 min hektarı dövlət mülkiyyətinə məxsusdur. Bu torpaqların əsas hissəsini, yəni 44,5%-ni meşə fondu torpaqları təşkil edir. Kənd təsərrüfatına yararlı torpaqlar isə 32,6%-ə bərabərdir. Qalan hissəsini, yəni 22,8%-ni sair torpaqlar tu-

tur. Ümumiyyətlə, Quba rayonu istisna olmaqla (32,6%) bölgənin digər rayonlarında dövlət mülkiyyətində saxlanmış kənd təsərrüfatına yararlı torpaq sahələrinin ölçüsü o qədər də böyük deyildir və 12,9-19,7% arasında dəyişir. Kənd təsərrüfatına yararlı torpaq sahəsi ən az Qusar rayonundadır. Yalnız bölgədə Siyəzən rayonunda dövlət mülkiyyətində saxlanmış torpaqların 98,80%-ni (3,4 min ha) örüş torpaqları təşkil edir. Əkin torpaqları isə çox cüzi ölçüdə olub, 1,2%-ə çatır (40 ha). Burada da az yararlı və şərti yararsız torpaqların sahəsi 55,0%-ə (12,0 min ha) çatır. Eləcə də bölgənin ayrı-ayrı rayonlarında dövlət mülkiyyətində saxlanmış suvarılan torpaqların sahəsi də müxtəlifdir. Belə ki, Dəvəçi rayonunda ümumi suvarılan torpaqların 5,2%-i dövlət mülkiyyətində saxlandığı halda, Siyəzən rayonunda suvarılan torpaqların sahəsi çox az olduğundan dövlət mülkiyyətinə ayrılmamışdır. Digər rayonların ərazisində bu göstəricilər 2,0-9,5% arasında tərəddüd edir. Bunun əsas hissəsini suvarılan əkin və dincə qoyulmuş torpaqlar təşkil edir. Ərazidə qış otlaq torpaqlarının yalnız 5,5%-i (1,2 min ha) suvarılır. Meşə fondu torpaqlarının isə 25 ha suvarılır. Bölgədə meşə fondu torpaqlarının əsas hissəsi, yəni 42,8%-i (52,5 min ha) Quba rayonu ərazisində yerləşmişdir. Regionda meşə fondu torpaqlarının 17,9%-i yerləşdiyi Qusar rayonu ərazisində (22,0 min ha) 1964-cü ildə heyvanat aləminin qorunub saxlanması məqsədilə yaradılmış Qusar yasaqlığı fəaliyyət göstərir.

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Bölgədə hazırda fəaliyyət göstərən 277 bələdiyyənin mülkiyyətinə verilmiş torpaq sahələrinin ölçüsü 231,3 min ha və ya bölgənin ümumi torpaq fondunun 33,2%-ni təşkil edir.

Bunun təqribən 5,0%-ni (7,1 min ha) əkin və dincə qoyulmuş, 0,5%-ni (0,8 min ha) çoxillik əkmələrin və 0,7%-ni (1,0 min ha) biçənək torpaqları əhatə edir. Dövlət mülkiyyətində saxlanmış həyətyanı torpaq sahələrinə nisbətən bələdiyyə mülkiyyətinə ayrılmış kənd təsərrüfatına yararlı torpaq sahələrinin ölçüsü bir neçə dəfə çoxdur və sahəsi 0,9%-ə (1,2 min

ha) çatır. Meşə fondu torpaqları çox azdır (0,2 min ha). Sair torpaqlar isə ümumi bələdiyyə mülkiyyətinə ayrılmış torpaq sahələrinin 38,5%-ni və ya 89,0 min hektarını təşkil edir. Yararlı torpaqların 6,6%-i və ya 9,4 min ha suvarılan torpaq sahələrinin payına düşür. Bunun da ən çox hissəsi, yəni 51,6%-ni (4,8 min ha) suvarılan əkin və dincə qoyulmuş torpaqlardan ibarətdir.

Bələdiyyə mülkiyyətinə ayrılmış torpaqların əsasını, yəni 92,8%-ni və ya 131,9 min hektardan çoxunu kəndyanı örüş sahələri altında olan torpaqlar təşkil edir. Ümumi istifadə olan bu torpaqlar əhalinin öz mal-qarasının otarılması üçün nəzərdə tutulmuşdur (cədvəl 88, şəkil 386-391).

Cədvəl 88

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin + dinc	Çoxillik əkmələr	Biçənək	Kəndyanı örüş	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Quba	92371 39,9	1093 1,9	637 1,1	423 0,7	54485 95,7	288 0,5	56926 61,6	162 0,2	35283 38,2
	o.c.suv.	2474 26,4	879 35,5	364 14,7	101 4,1	901 36,4	229 9,3	2474 4,3	-	-
2	Qusar	45953 19,9	2289 8,5	61 0,2	450 1,7	23976 89,2	99 0,4	26875 58,5	15 0,03	19063 41,5
	o.c.suv	3034 32,3	872 28,7	42 1,4	36,0 1,2	2084 68,7	-	3034 11,2	-	-
3	Dəvəçi	35281 15,3	866 2,4	65 0,2	169 0,5	20940 59,3	540 1,5	22580 64,0	-	12701 36,0
	o.c.suv	956 10,2	582 60,9	6 0,6	-	-	368 38,5	956 4,2	-	-
4	Siyəzən	37003 16,0	530 2,1	-	-	24440 97,9	-	24970 67,5	-	12033 32,5
	o.c.suv	276 2,9	198 71,7	-	-	78 28,3	-	276 1,1	-	-

1	2	3	4	5	6	7	8	9	10	11
5	Xaçmaz	20675 8,9	2369 22,0	-	-	8094 75,2	302 2,8	10765 52,1	-	9910 47,9
	o.c.suv	2646 28,2	2309 87,3	-	-	35 1,3	302 11,4	2646 24,6	-	-
	Cəmi	**231283** **33,2**	**7147** **5,0**	**763** **0,5**	**1042** **0,7**	**131935** **92,8**	**1229** **0,9**	**142116** **61,4**	**177** **0,1**	**88990** **38,5**
	o.c.suv.	**9386** **7,2**	**4840** **51,6**	**412** 4,4	**137** **1,5**	**3098** **33,0**	**899** **9,6**	**9386** **6,6**	-	-


Bələdiyyənin kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlarının müəyyən hissəsi və eləcə də ümumi yararlı torpaq sahələri bütünlüklə qanunvericiliyə uyğun olaraq hazırda əhalinin istifadə və icarəsinə verilmişdir. Beləliklə, bölgədə torpaq payı almış hər bir ailə orta hesabla 1,71 ha bələdiyyə mülkiyyətinə verilmiş yararlı torpaqlardan istifadə etmək imkanına malikdir. Bu rəqəm hər bir subyekt üçün təqribən 0,50 hektara bərabərdir.

Regionun ayrı-ayrı rayonlarında bələdiyyə mülkiyyətinə ayrılmış torpaq sahələri ölçüsü və müxtəlifliyi ilə səciyyələnir. Məsələn, Quba rayonunda ümumi torpaq fondunun 35,4%-i və ya 92,4 min hektarı bələdiyyə mülkiyyətinə verilmişdir. Bu isə bölgənin bələdiyyə mülkiyyətinə ayrılmış ümumi torpaq fondunun 39,9%-nə bərabərdir. Bölgədə maksimum ölçüdə bələdiyyə mülkiyyətinə torpaq sahəsi Siyəzən rayonuna (52,6%) ayrılmışdır. Minimum miqdarda isə torpaq ayrılması Xaçmaz rayonunda (19,4%) qeydə alınmışdır.

Bütün hallarda bələdiyyə mülkiyyətinə verilmiş torpaq ehtiyatlarının maksimum ölçüsünü kəndyanı örüş torpaqları təşkil edir. Bu torpaq sahələrinin ölçüsü 59,3%-dən 97,9%-dək artır. Əkin və dincə qoyulmuş torpaqların ölçüsü isə bələdiyyə mülkiyyətinə ayrılmış ümumi yararlı torpaqların təqribən 1,9%-dən 22,0%-dək dəyişir. Bələdiyyə mülkiyyətinə verilmiş çoxillik əkmələrin, biçənək və həyətyanı torpaqların ölçüsü ayrı-ayrı rayonlar üzrə çox azdır. Hətta bəzi rayonlarda göstərilən kənd təsərrüfatı sahələri üzrə torpaq sahələri ayrılmamışdır (Siyəzən, Xaçmaz rayonları). Sair torpaq sahələrinin

Cədvəl 88


Bölgənin bələdiyyə mülkiyyətindəki ümumi torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 386

Cədvəl 88.1


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqların əsas tərkib hissəsi (ha/%)



Şəkil 387

Cədvəl 88.2


Bölgənin bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 388

Cədvəl 88.3


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfat sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 389

Cədvəl 88.4


Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 390

Cədvəl 88.5

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 391

ölçüsü də müxtəlifdir və ayrı-ayrı rayonlar üzrə 32,5-47,9% (9,9-35,3 min ha) arasında dəyişir. Sair torpaqların tərkib hissəsi sayılan kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlar hal-hazırda yerli əhali tərəfindən torpaq qanunvericiliyinə uyğun geniş istifadə olunur.

3. Xüsusi mülkiyyətdəki torpaqlar. Xüsusi mülkiyyətə verilmiş torpaqlar bölgənin ümumi torpaq fondunun 25,8%-ni və ya 179,6 min hektarını təşkil edir. Ayrı-ayrı rayonlarda bu göstərici 15,5-29,8%-ə (11,8-51,5 min ha) çatır. Bunun əsas hissəsini təşkil edən əkin və dincə qoyulmuş torpaqların ölçüsü müxtəlifdir və ayrı-ayrı rayonlarda 34,8-86,8% (8,9-37,5 min ha) arasında çox geniş intervalda dəyişir (cədvəl 89, şəkil 392-396).

Cədvəl 89

Bölgənin xüsusi mülkiyyətdəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri					K.t. istifadə olunmayan sahələr
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Heyətyanı	Cəmi	
1	2	3	4	5	6	7	8	9
1	Quba	50660 28,2	17487 34,8	13504 26,9	14069 28,0	5144 10,3	50204 99,1	456 0,9
	o.c.suv.	25014 22,4	9669 38,7	12323 49,3	716 2,9	2306 9,1	25014 49;8	-
2	Qusar	51527 28,7	31203 61,2	7056 13,8	9658 18,9	3070 6,1	50987 99,0	540 1,0
	o.c.suv	25769 23,1	17267 67,0	6521 25,3	539 2,1	1442 5,6	25769 50,5	-
3	Dəvəçi	21797 12,1	15757 73,4	2352 10,9	2142 9,9	1238 5,8	21489 98,5	308 1,5
	o.c.suv	14115 12,7	12720 90,1	499 3,5	321 2,3	575 4,1	14115 65,7	-
4	Siyəzən	11783 6,6	8940 77,2	1658 14,3	308 2,6	689 5,9	11595 98,4	188 1,6


1	2	3	4	5	6	7	8	9
	o.c.suv	3727 3,3	2683 72,0	862 23,1	-	182 4,9	3727 32,1	-
5	Xaçmaz	43840 24,4	37534 86,8	1731 4,0	43 0,1	3911 9,1	43219 98,6	600 1,4
	o.c.suv	42864 38,5	37534 87,6	1705 4,0	43 0,1	3582 8,3	42864 99,2	-
	Cəmi	**179607** **25,8**	**110921** **62,5**	**26301** **14,8**	**26220** **14,8**	**14052** **7,9**	**177494** **98,8**	**2113** **1,2**
	o.c.suv.	**111489** **85,0**	**79873** **71,6**	**21910** **19,6**	**1619** **1,5**	**8087** **7,3**	**111489** **62,8**	-

Kənd təsərrüfatına yararlı torpaq ehtiyatından asılı olaraq bölgədə ən çox Xaçmaz rayonunda ümumi torpaq fondunun 29,8%-i (43,8 min ha) özəlləşdirilərək xüsusi mülkiyyətə verilmişdir. Siyəzən rayonunda xüsusi mülkiyyətə verilmliş torpaq sahəsi ümumi torpaq fondunun yalnız 15,5%-ni (11,8 min ha) əhatə edir. Qusarda isə bu göstərici ümumi toraq fondunun 27,5%-ni və ya 51,5 hektarını təşkil edir. Quba və Dəvəçi rayonlarında özəlləşdirilmiş torpaq sahəsinin ölçüsü 17,6-21,8%-ə (50,7-21,8 min ha) çatır. Bölgə üzrə əkin və dincə qoyulmuş torpaqlar isə özəlləşən torpaqların 62,5%-ni (110,9 min ha) tutur. Çoxillik əkmələrin özəlləşdirilmiş torpaq sahələrinin ölçüsü 26,3 min hektardır (14,8%). Xüsusi mülkiyyətə verilmiş biçənək torpaqlarının ölçüsü 26,2 min ha olmaqla bölgə üzrə ümumi özəlləşdirilmiş torpaqların 14,8%-ni təşkil edir. Hazırda əhalinin xüsusi mülkiyyətinə verilmiş torpaqların 85,0%-i (111,5 min ha) suvarılan torpaqlardan ibarətdir. Suvarılan sahələrin isə 71,6%-i (79,9 min ha) əkin torpaqlarıdır. Çoxillik əkmələrin torpaqlarının 19,6%-i (21,9 min ha) suvarılan sahələrdir.

Bölgədə az miqdarda, yəni 1,6 min hektara yaxın (1,5%) suvarılan biçənək torpaqlarından istifadə olunur. Həyətyanı torpaqların 8,1 min hektarı, yəni 7,3%-i suvarılır. Müxtəlif obyektiv və subyektiv səbəblərdən hazırda özəlləşdirilmiş 2,1 min ha torpaq sahəsi əkib-becərilmir.

Cədvəl 89

Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)




Quba
Qusar
Dəvəçi
Siyəzən
Xaçmaz

Şəkil 392

Cədvəl 89.1

Bölgənin xüsusi mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Dəmyə
Suvarılan

Şəkil 393

Cədvəl 89.2


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 394

Cədvəl 89.3


Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 395

Cədvəl 89.4

Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 396

Quba-Xaçmaz bölgəsində vaxtilə 159 ictimai təsərrüfatın uzunmüddətli istifadəsində olmuş 160784 ha kənd təsərrüfatına yararlı torpaq sahəsi özəlləşdirilərək 289147 subyekti təmsil edən 83070 ailənin mülkiyyətinə verilmişdir. Özəlləşdirilən torpaq sahəsi bölgənin ümumi torpaq fondunun 23,1%-ni təşkil edir. Özəlləşdirilmiş bu torpaqlar bölgədə 5 ailə qrupu tərəfindən istifadə edilir. Bu ailə qruplarının əlində respublikada özəlləşdirilən ümumi torpaq sahələrinin 11,8%-i cəmlənmişdir (cədvəl 90, şəkil 397-410).

Respublikada torpaq payı almış ailələrin 10,6%-i və ya 83070 ailə bu bölgədə məskunlaşmışlar. Bölgədə məskunlaşan torpaq payı alan subyektlərin sayı respublikada torpaq payı almış şəxslərin 9,6%-i təşkil edir. Hazırda bölgədə hər bir ailə orta hesabla 1,94 ha, hər bir subyekt isə 0,56 ha torpaq sahəsinin mülkiyyətçisidir. Bölgənin ayrı-ayrı rayonlarında torpaq payı almış ailələrin sayı və onların mülkiyyətinə verilmiş torpaq sahələrinin ölçüsü müxtəlifdir. Ümumi torpaq sahəsinin ölçüsünə və əhalinin sayına görə bölgənin digər rayonlardan fərqlənən Quba rayonunda məskunlaşan 30463 ailənin xüsusi

Cədvəl 90

Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*

S/s	Ra-yonlar	Ailə qrupları															Yekun			Orta torpaq norması ailə/subyekt
		Tək ailələr (1-2 nəfər)			Kiçik ailələr (3-5 nəfər)			Orta ailələr (6-8 nəfər)			Böyük ailələr (9-12 nəfər)			Ən böyük ailələr (12 nəf. çox)						
		ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	
1	Quba	11115 36,3	15363 86,1	6136 26,2	14365 36,4	58675 44,8	24463 28,0	4554 37,8	29514 38,7	13384 30,3	400 46,4	3894 46,4	1842 35,6	29 48,3	417 48,4	165 33,9	30463 36,7	107863 37,3	45990 28,6	1,51 0,43
2	Qusar	6902 22,5	9876 23,2	8006 34,2	7017 17,8	31941 19,9	25551 29,2	2025 16,8	12624 16,5	10260 23,2	77 8,9	739 8,8	601 11,6	2 3,3	29 3,4	28 5,8	16023 20,4	55209 19,1	44446 27,6	2,63 0,81
3	Dəvəçi	1901 6,2	2595 6,1	1803 7,7	3194 8,1	13266 8,3	8992 10,3	1474 12,2	9678 12,7	6702 15,2	174 20,2	1705 20,3	1165 22,5	16 26,7	228 26,5	118 24,3	6759 8,1	27472 9,5	18780 11,7	2,78 0,69
4	Siyəzən	655 2,1	899 2,1	1167 5,0	1029 2,6	4309 2,7	3875 4,4	645 5,4	4277 5,6	3897 8,8	83 9,6	828 9,9	855 16,5	8 13,3	116 13,5	127 26,1	2420 2,9	10429 3,6	9921 6,2	4,10 0,96
5	Xaçmaz	10085 32,9	13842 32,5	6304 26,9	12943 32,8	52784 32,8	24592 28,1	3344 27,8	20251 26,5	9995 22,6	128 14,9	1225 14,6	712 13,6	5 8,3	72 8,4	48 9,9	26505 31,9	88174 30,5	41651 25,9	1,58 0,48
	Cəmi	**30658** **37,3**	**42575** **14,7**	**23416** **14,6**	**38548** **46,9**	**160975** **55,7**	**87473** **54,4**	**12042** **14,6**	**76244** **26,4**	**44238** **27,5**	**862** **1,1**	**8391** **2,9**	**5175** **3,2**	**60** **0,1**	**862** **0,3**	**486** **0,3**	**82170** **9,7**	**289047** **8,3**	**160788** **11,2**	**1,96** **0,56**

* _____ ailənin sayı, sahə ha_____
ümumi ailənin və sahənin cəmindən %-lə

mülkiyyətinə 45989 ha torpaq sahəsi verilmişdir. Bu da hər bir ailənin orta hesabla 1,51 ha torpaq sahəsinə sahiblik etdiyini göstərir. Bölgədə ərazicə kiçik olan Siyəzən rayonunda məskunlaşan 2420 ailənin mülkiyyətinə isə 9920 ha torpaq sahəsi verilmişdir. Burada hər bir ailə orta hesabla 4,1 ha torpaq sahəsindən istifadə edir.


Bölgədə özəlləşdirilmiş torpaq sahələrinin ailə qrupları tərəfindən istifadə olunması da çox fərqlidir. Belə ki, hazırda bölgədə xüsusi mülkiyyətə verilmiş torpaqların 55,7%-i və ya 87473 hektarı kiçik ailələrin əlində cəmlənmişdir. Əslində kiçik ailə qrupu (3-5 nəfər) bölgədə torpaq payı almış ailələrin 46,9%-ni (38548 ailə) əhatə edir. Bu qrupda bölgədə torpaq payı almış subyektlərində 55,7%-i (160975 nəfər) cəmlənmişdir.

Özəlləşdirilmiş torpaq sahəsinin 27,5%-nə (44238 ha) orta ailələr (6-8 nəfər) sahibdik edirlər. Bu ailələr bölgə üzrə ümumi ailələrin 14,6%-ni (12042 ailə) təşkil etməklə özündə torpaq payçıları olan 26,4% subyekti (76244 nəfəri) birləşdirir. Tək ailələr sayca az və orta ailələrdən üstün olsalar da (36,9%) özəlləşdirilmiş torpaq sahələrinin yalnız 14,7%-nə (23416 ha) sahiblik edirlər. Bölgədə torpaq mülkiyyətçilərinin 1,1%-ə qədərini təşkil edən böyük ailələr (9-12 nəfər) bölgə üzrə özəlləşdirilmiş torpaqların yalnız 3,2%-ni (5175 ha) əkib-becərirlər. Tərkibində 862 nəfər bölgə sakinini birləşdirən 60 ən böyük ailə qrupu (12 nəfərdən çox) özəlləşdirilmiş torpaq sahəsinin 0,3%-dən (486 ha) istifadə edir. Bölgənin ayrı-ayrı rayonlarında torpaq mülkiyyətçiləri olan ən böyük ailələnin sayı çox azdır və bu göstərici 2-29 arasında dəyişir. Cədvəldəki məlumatlardan da bölgədə ən böyük ailələrin torpaq mülkiyyətçiləri arasında azlıq (1,0%) təşkil etdiyi aydın müşahidə olunur.

Cədvəl 90


Bölgədə məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri

A



Şəkil 397

B




Şəkil 398

Cədvəl 90.1

Bölgədə məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri


A



Quba
Qusar
Dəvəçi
Siyəzən
Xacmaz

Şəkil 399

B




Quba
Qusar
Dəvəçi
Siyəzən
Xaçmaz

Şəkil 400

Cədvəl 90.2


Bölgədə məskunlaşan tək ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri
(1-2 nəf.)

A



Şəkil 401

B




Şəkil 402

Cədvəl 90.3


Bölgədə məskunlaşan kiçik ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri
(3-5 nəf.)

A



Şəkil 403

B




Şəkil 404

Cədvəl 90.4


Bölgədə məskunlaşan orta ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri
(6-8 nəf.)

A



Şəkil 405

B




Şəkil 406

Cədvəl 90.5


Bölgədə məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri
(9-12 nəf.)

A



Şəkil 407

B




Şəkil 408

Cədvəl 90.6


Bölgədə məskunlaşan ən böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri
(12 nəfərdən çox)

A



Şəkil 409

B



Şəkil 410

Hazırda bölgədə torpaq payı almış hər bir ailə dövlət (2,85 ha), bələdiyyə (1,71 ha) və xüsusi mülkiyyətə verilmiş (1,94 ha) torpaq sahələri ilə birlikdə orta hesabla 6,5 ha torpaq sahəsindən istifadə etmək imkanına malikdir. Bu isə ailədə torpaq payı almış hər bir fərdin orta hesabla təqribən 1,86 ha torpaq sahəsindən istifadə etdiyini göstərir.

Beləliklə, hazırda torpaq istifadəçiliyində hakim mövqe tutan kiçik ailə qrupunun gələcəkdə hansı ailə qruplarına transfer edəcəyini və ya əksinə onun hansı ailə qrupuna tansfer olunacağını zaman göstərəcəkdir.

VI. ARAN İQTİSADİ-COĞRAFİ BÖLGƏSİ

Bölgənin ərazisi, əsasən Kür-Araz çaylarının aşağı axarları boyunda yerləşən Kür-Araz ovalığını əhatə edir. Ovalıq şimalda Acınohur ön dağlığı (Bozdağ silsiləsi), şimal-şərqdə Lənqibiz silsiləsi, qərbdə Kiçik Qafqaz dağlarının ətəkləri, cənub-şərqdə Talış dağları və Lənkəran ovalığı ilə həmsərhəddir. Şərqdə Xəzər dənizi ilə əhatələnən ovalığın ümumi sahəsi təqribən 2 milyon 200 min hektara çatmaqla respublikanın vahid torpaq fondunun 25,5%-ni təşkil edir. Aran bölgəsinə Ağdaş, Ağcabədi, Beyləqan, Biləsuvar, Saatlı, Sabirabad, Salyan, Ucar, Hacıqabul rayonları, Əli Bayramlı və Mingəçevir şəhərlərinin əraziləri daxildir. Əhatə etdiyi ərazisinə görə respublikanın ən böyük iqtisadi regionlarından biri sayılır.

Bölgənin səth quruluşu əsasən düzənlik olmaqla Kür və Araz çayları vasitəsilə 5 böyük hissəyə – Şirvan, Qarabağ, Mil, Muğan və Salyan düzlərinə bölünür. Ovalığın şərq və mərkəzi hissələri okean səviyyəsindən 28 m-dək alçaqda yerləşir.

Ovalığın relyefində Kür və Araz çaylarının qədim yataqları, Qarasu çökəkliyi, çalalar, Kür çayı boyunda sahil bəndləri, alçaq təpələr və s. mikrorelyef formalarına da rast gəlinir. Bunlardan başqa ərazidə Şirvan düzünün şimal hissəsində Qaraməryəm tirəsi, cənub-şərqi Şirvan düzənliyində alçaq antiklinal tirələr, palçıq vulkanları yayılmış sahələr də mövcuddur. Qarabağ və Mil düzlərində qobu və yarğan eroziyasına uğramış mikrorelyef formaları da geniş yayılmışdır. Ovalığa dağlıq sahələrdən (şimal və cənubdan) çıxan çayların (Turyan, Göyçay, Kirdman, Qarqar və s.) gətirmə konusları da geniş sahələri tutur.

Mənşəyinə görə intensiv tektonik çökmə sahəsində yaranmış akkumulyativ ovalığın şərqində torpaq əmələgətirən süxurlar əsasən müasir dəniz çöküntüləri çınqıl, qum, gilli və gillicələrdən ibarətdir. Kür və Araz çayları boyu allüvial dağə-

təyi maili düzənliklərdə allüvial-prolüvial, bəzi sahələrdə isə delüvial mənşəli çöküntülər yayılmışdır.

İqlim şəraitinə görə Aran bölgəsi onunla həmsərhəd olan digər bölgələrdən xeyli fərqlənməsi ilə səciyyələnir. Ərazinin əksər hissəsində yayı quraq keçən mülayim isti yarımsəhra və quru bozqır (çöl) iqlimi mövcuddur. Bu iqlim tipləri çox az və zəif nəmliyi, qışının mülayim və yayının quru-isti keçməsi ilə xarakterizə olunur. Ərazinin iqlim xüsusiyyətləri haqqında daha geniş məlumatı həmin zonada yerləşən bir sıra meteoroloji məntəqələrin çoxillik müşahidələrindən görmək olar (cədvəl 91, 411-415).

Aran zonasında havanın illik orta temperaturu 14,0-14,5^0 arasında tərəddüd edir. Orta temperaturun ilin fəsilləri üzrə paylanmasında da elə bir fərqin olmadığı müşahidə olunur. Şirvan düzünün şimal-qərb hissəsində yerləşən Ağdaş meteoroloji məntəqəsində qışda temperatur 3,2^0 olduğu halda, Neftçalada bu göstərici 4,5^0-dən aşağı enmir, daha doğrusu temperatur fərqi 1,3^0-dən çox deyildir. Yayda isə bu məntəqələr arasında orta tempetar fərqi 0,7^0-ə bərabərdir. Yalnız ilin isti və soyuq dövrlərində orta temperatur göstəricisi 2,0-1,3^0 fərqi ilə müşayiət olunur.

Ərazidə illik yağıntının miqdarında şərqə getdikcə azalma müşahidə olunur. Məsələn, Ağdaş rayonunda illik yağıntının miqdarı 503 mm olduğu halda, bu göstərici Neftçala rayonunda 294 mm olmaqla 209 mm-ə qədər azalır.

Ümumiyyətlə, bölgənin Beyləqan, Biləsuvar, Bərdə və Kürdəmir rayonlarına nsibətən Neftçala rayonu ərazisində yağıntının miqdarı 300 mm-dən azdır. Bərdə rayonu istisna olmaqla bölgənin digər rayonlarında yağıntıların maksimum miqdarı ilin soyuq dövründə artır. Adətən bu dövrdə illik yağıntıların miqdarı ərazidən asılı olaraq 52,8-69,4% arasında dəyişir. İlin fəsilləri üzrə yağıntının paylanması iki maksimum dövrə, yəni yaz və payız aylarına təsadüf edir. Bu dövrlərdə illik yağıntıların 29,0% təşkil edir.


Cədvəl 91

Bölgənin əsas iqlim göstəriciləri

S/s	Metroloji stansiyalar	İqlim göstəriciləri*	Fəsillər üzrə				İllik	İlin dövrləri	
			Qış	Yaz	Yay	Payız		İsti	Soyuq
1	2	3	4	5	6	7	8	9	10
1	Ağdaş	hava. t-u	3,2	12,9	25,3	15,2	14,2	19,1	9,2
		yağıntı	109	157	91	144	503	233	270
		hava. nis.rüt.	81	71	57	75	71	63	79
		buxarlanma	81	202	453	194	930	712	218
		torpaq. səth.t-u	3,3	16,0	31,7	17,3	17,0	26,7	7,5
2	Beyləqan	hava. t-u	3,2	12,8	24,9	15,2	14,0	18,8	9,2
		yağıntı	84	90	50	88	312	129	183
		hava. nis.rüt.	81	73	60	76	72	65	80
		buxarlanma	81	219	485	205	990	765	225
		torpaq. səth.t-u	3,7	16,7	32,0	17,7	18,0	27,0	8,0
3	Bərdə	hava. t-u	3,4	12,9	25,0	15,2	14,1	17,1	10,6
		yağıntı	52	101	91	85	329	192	137
		hava. nis.rüt.	79	67	53	72	68	59	77
		buxarlanma	111	240	480	219	1050	777	273
		torpaq. səth.t-u	3,3	16,3	32,0	18,0	17,0	27,2	7,7
4	Neftçala	hava. t-u	4,5	9,6	24,6	16,6	14,4	17,1	10,5
		yağıntı	97	73	18	106	294	80	204
		hava. nis.rüt.	84	79	67	78	77	71	82
		buxarlanma	91	181	450	218	940	702	238


* yağıntı və buxarlanma mm-lə, havanın aylıq və torpaq səthinin temperaturu dərəcə ilə, havanın nisbi rütubəti %-lə göstərilmişdir.

Cədvəl 91




Şəkil 411

Cədvəl 91.1




Şəkil 412

Cədvəl 91.2




Şəkil 413

Cədvəl 91.3



Şəkil 414

Cədvəl 91.4



Şəkil 415

Yağıntıların paylanmasından və ərazidə geniş yayılmış daxili su hövzələri səthindən (göl və bataqlıq sahələri) buxarlanmanın miqdarından asılı olaraq ilin dövrləri və fəsillər üzrə nisbi rütubətliyin gedişində müəyyən dəyişikliklər baş verir.

Belə ki, il ərzində 61-74% arasında azalıb-artan havanın orta nisbi rütubətliliyi ilin soyuq dövründə 83%-ə qədər (Kürdəmir) yüksəlir.

İlin isti dövründə nisbi rütubətlilik 59-71% arasında tərəddüd edir. Fəsmllər üzrə havanın orta nisbi rütubətliliyi qış aylarında maksimum həddə, yəni 86%-ə çatır. Yay aylarında isə nisbi rütubətliliyin minimum həddi 53-67% arasında dəyişir. Yağıntılı payız fəslində nisbi rütubətlilik tədricən yüksələrək 78%-ə çatır. Yaz fəslində nisbi rütubətliliyin göstəricisi əsasən sabit xarakterlidir (67-79%).

Bölgənin əhatə etdiyi geniş ərazidə torpaq səthindən il ərzində davam edən mümkün buxarlanmanın miqdarı da xeyli müxtəlifliyi ilə səciyyələnir. Bu müxtəliflik fəsillər və ilin dövrləri üzrə və eləcə də ayrı-ayrı müşahidə aparılan ərazilərdə nəzərə çarpır. Bir qayda olaraq səth örtüyündən ən çox yay aylarında baş verən buxarlanmanın miqdarı ayrı-ayrı məntəqələrdə 450-555 mm arasında dəyişir. Qışda bu göstərici hətta 61 mm-dək azalır. İlin isti dövründə səth örtüyündən buxarlanmanın ayrı-ayrı məntəqələr üzrə orta göstəricisi 702-904 mm təşkil edir. İlin soyuq dövründə mümkün buxarlanmanın miqdarı 130 mm-dək azalır. Ərazinin səth örtüyündə il ərzində 930-1050 mm arasında mümkün buxarlanma baş verir.

Digər iqlim göstəricilərində olduğu kimi ərazidə torpaq səthinin temperaturunda da dinamiklik müşahidə olunur. Belə ki, torpaq səthinin orta illik temperaturu ayrı-ayrı müşahidə məntəqələrində demək olar ki, eyni olub, əksər hallarda 17^0-18^0 təşkil edir. Bu qanunauyğunluq fəsillər və ilin dövrləri üzrə də təkrar olunur. Maraqlı burasındadır ki, qış fəslində belə ərazidə torpaq səthinin temperaturun $3,3^{-0}$-dən aşağı düşməməsidir. Görünür ki, bunun səbəbi ovalığa şərqdən - Xəzər dənizindən daxil olan hava kütləsinin təsiridir.

Beləlilklə, bölgədə havanın orta illik temperaturunun 14,0-14,5^0 arasında tərəddüdü, yağmur ilə səthi buxarlanma arasında fərqin 1,8-3,2 dəfədən artıq olması və habelə digər iqlim göstəricilərinin qarşılıqlı təsiri nəticəsində ərazidə torpaq əmələgəlmə prosesində əsas amil olan müxtəlif bitki qruplarının yayılmasında özünü büruzə vermişdir.

Torpaqəmələgəlmə prosesində mühüm yer tutan bitki örtüyündə yovşanlıq-şoranlı, şoranlı-kəvənli yarımsəhra bitki qrupları, kənar dağətəyi hissələrdə quru çöl bitkiləri üstünlük təşkil edir. Kür və Araz çayları qovuşandan şərqə doğru efemerli-şorangəli səhra bitki qrupları da geniş yayılmışdır. Eləcə də burada qaraşoran və sarıbaşın üstünlük təşkil etdiyi nəm şoran səhra bitkilərinə də rast gəlinir. Bunlardan başqa ərazinin şərq hissəsində, xüsusilə akkumulyativ dənizsahili sahələrdə ləkələr şəklində düzən çəmən bitki örtüyü, qamışlıq, çilli-qamışlıq, kalışlı-qamışlıq, cıl bataqlığı və müxtəlif otlu bataqlıqlar mövcuddur.

Kür və qismən Araz çaylarının subasarında aran palıdı, qovaq, söyüd, iydə, yulğun, çaytikanı, yabanı nar, itburnu və s. meşə və meşə-kol ağac cinslərindən təşkil olunmuş kiçik talalar şəklində tuqay meşələri yayılmışdır. Ovalığın bir hissəsi olan Qarabağ düzündə kiçik sahədə saqqızağacı, aran palıdı, qarağac və s. ağac və kol cinslərindən ibarət biomüxtəlifliyə də rast gəlinir.

Müşahidələ göstərir ki, ərazidə torpaq örtüyünün əmələ gəlməsində bitki örtüyünün təsiri xeyli müxtəlifdir. Haqqında danışdığımız bölgədə bitki örtüyünün geobotaniki tərkibi və onun relyef şəraitindən asılı olaraq yayılması ərazidə torpaqların da müxtəlifliyinə səbəb olmuşdur.

Aparılmış çoxillik torpaq tədqiqatları nəticəsində tərtib olunmuş (1:600000 m) torpaq xəritəsinə uyğun olaraq bölgənin torpaq örtüyünün aşağıdakı tərkibdə olması müəyyənləşdirilmişdir (xəritə sxem 7, cədvəl 92, şəkil 416).


Bölgənin torpaq örtüyünün tərkibi müxtəlif tip və yarımtip torpaqlardan ibarət olmaqla əhatə etdiyi sahələrin ölçüsü də

xeyli fərqlidir. Burada torpaq ehtiyatlarının 95,2%-i (2115179 ha) ovalıq və 4,8%-i (102,8 min ha) alçaq dağlıq ərazilərdə yayılmışdır. Ovalıqda yayılmış torpaq ehtiyatlarının əsas hissəsini, yəni 66,1%-ni (1 mln. 400 min ha) təşkil edən boz və boz-çəmən torpaqlar tutur (kon. 28,9 29, 30, 31, 32, 33). Mil düzünün qərbində dağətəyi düzənlikdə yayılmış şabalıdı torpaqlar (kon. 25, 26 və 27) ümumi torpaq fondunun 2,9%-nə (61,2 min ha) bərabərdir.

Cədvəl 92

Bölgənin torpaq örtüyünün tərkibi

Kontur №-si	Tip və yarımtiplər	Sahə	
		ha	%
1	2	3	4
18	Açıq dağ boz-qəhvəyi	18308	0,9
24	Tünd və adi dağ şabalıdı	83533	3,9
25	Qismən qalıq şoranlaşmış açıq şabalıdı	33294	1,6
26	Çürüntülü sulfatlı (əhəngli) şabalıdı	11255	0,5
27	Çəmən-şabalıdı və şabalıdı-çəmən	16647	0,8
28	Tünd boz	46223	2,2
29	Tipik boz	43039	2,0
30	Açıq və ibtidai boz	171840	8,2
31	Çəmən boz	286930	13,6
32	Yüksək humuslu boz-çəmən	477847	22,5
33	Orta və az humuslu boz-çəmən	373989	17,7
34	Qismən şorakətli və şoranlı bozumtul və boz-qonur	63035	3,0
35	Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə	17912	0,8
36	Subasar allüvial-çəmən	289660	13,7
37	Çəmən-bataqlı və bataqlıq	66751	3,2
38	Şoranlar (delyüvial, allüvial və sopkalı)	23769	1,1
39	Tipik və şoranlı şorakətlər	6324	0,3
40	Takırlar və takırabənzər torpaqlar	12375	0,6
41	Dyunlu təpəcikli qumlar	61718	2,9
43	Daşlı-çınqıllı çay yataqları	5989	0,3
44	Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	4741	0,2
Cəmi		**2115179 24,5**	**100**


ARAN BÖLGƏSİNİN
TORPAQ XƏRİTƏ-SXEMİ
1 : 800 000
Xəritə-sxem 8

Torpaqlar

18 Açıq dağ boz-qəhvəyi

24 Tünd və adi şabalıdı

25 Qismən qalıq şoranlaşmış açıq şabalıdı

26 Çürüntülü-sulfatlı (əhəngli) şabalıdı

27 Çəmən şabalıdı və şabalıdı-çəmən

28 Tünd boz

29 Tipik boz

30 Açıq və ibtidai boz

31 Çəmən-boz

32 Yüksək humuslu boz-çəmən

33 Orta və az humuslu boz-çəmən

34 Qismən şorakətli və şoranlı bozumtul və boz-qonur

35 Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə

36 Subasar allüvial-çəmən

37 Çəmən bataqlıq və bataqlıq

38 Şoranlar (delüvial, allüvial, sopkalı)

39 Tipik və şoranlı şorakətlər

40 Takırlar və takırabənzərlər torpaqlar

41 Dyunlu təpəcikli qumlar

42 Neft və dağ-mədən tullantıları ilə pozulmuş torpaqlar

43 Daşlı-çınqıllı çay yataqları

44 Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar

Qranulometrik tərkib

Gilli

Ağır gilliceli

Orta gilliceli

Yüngül gilliceli

Qumsal

Qumlu

Şorlaşma

Şorlaşmayan

Zəif şorlaşmış

Orta şorlaşmış

Şiddətli şorlaşmış

Eroziyaya uğrama

Eroziyaya uğramayan

V Zəif eroziyalı

N Orta eroziyalı

W Şiddətli eroziyalı

Suvarılan torpaqlar


Dövlət sərhəddi

Rayonların inzibati sərhəddi

Baş suvarma kanalı

Cədvəl 92

Bölgənin torpaq örtüyünün tərkibi (ha/%)



Şəkil 416

Şoranlı boz-qonur torpaqlar daxil olmaqla çəmən-bataqlı, bataqlıq, şoranlı-şorakətli, təpəcikli qumlar, daşlı-çınqıllı çay yataqları, çılpaq qayalıqlar və səthə çıxmış süxurlar (kon. 34, 37, 38, 39, 40, 43, 44) əhatə etdiyi kənd təsərrüfatına az yararlı və şərti yararsız sahələrin ölçüsü isə ümumi torpaq fondunun 11,6%-ni (244,7 min ha) təşkil edir. Subasar allüvial-çəmən torpaqlarının tutduğu sahə 13,7% (289,7 min ha) müəyyənləşdirilmişdir. Ovalığın şimal və şimal qərbində yerləşən alçaq dağlıq ərazilərdə sahəsi 101,8 min hektara çatan (4,8%) dağ boz-qəhvəyi və dağ-şabalıdı torpaqlar yayılmışdır.

Beləliklə, bölgənin torpaq örtüyünün tərkibini təşkil edən və yararlı sahəsi 1 milyon 419 min 454 hektara (67,1%) çatan müxtəlif tip və yarımtip torpaqlar hazırda kənd təsərrüfatında geniş istifadə olunur (cədvəl 91, şəkil 409-412). Bunun 599,9

min hektarı (42,2%) əkin və dincə qoyulmuş torpaqlardır. Çoxillik əkmələr altında becərilən torpaqların sahəsi 12,4 min hektardır (0,9%). Biçənək sahələrinin tutuduğu torpaqlar cüzi miqdarda olmaqla 2,6 min ha-dır (0,2%). Kənd təsərrüfatında istifadə edilən həyətyanı (tikintisiz) torpaqlar sahəsi 79,4 min ha (5,6%) təşkil edir. Örüş və otlaq torpaqları ərazidə geniş yayılmışdır və sahəsi 725,1 min ha yararlı torpaq ehtiyatlarının 51,1%-ni təşkil edir. Əsasən qış otlaqları və kəndətrafı örüş sahələri kimi istifadə olunur. Bölgəyə daxil olan rayonların kənd təsərrüfatına yararlı torpaq sahələrinin ölçüsü müxtəif olduğu kimi təbii təsərrüfat sahələri altında istifadə edilən torpaq sahələrinin də ölçüsü xeyli fərqlidir (cədvəl 93, şəkil 417-422).

Cədvəl 93

Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar və düzənliklər üzrə istifadəçiliyi (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Örüş və otlaqlar	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
Qarabağ düzü										
1	Bərdə	95295 39,4	47061 65,9	1340 1,9	-	16446 23,0	6585 9,2	71432 75,0	7016 7,4	16847 17,7
	o.c.suv	53949 8,2	47061 87,7	1340 2,5	-	-	5256 9,8	53657 75,1	292 4,2	-
2	Yevlax	146535 60,6	30432 35,7	849 1,0	1370 1,6	49964 58,6	2710 3,2	85325 58,2	2851 2,0	58359 39,8
	o.c.suv	38039 41,4	30432 80,0	849 2,2	950 2,5	3098 8,1	2710 7,1	38039 44,6	-	-
	Cəmi	**241830** **11,4**	**77493** **49,4**	**2189** **1,4**	**1370** **0,9**	**66410** **42,4**	**9295** **5,9**	**156757** **64,8**	**9867** **4,1**	**75206** **31,1**
	o.c.suv	**91988** **13,8**	**77493** **84,5**	**2189** **2,4**	**950** **1,0**	**3098** **3,4**	**7966** **8,7**	**91696** **58,5**	**292** **3,0**	-

1	2	3	4	5	6	7	8	9	10	11
Mil düzü										
3	Ağcabədi	175600 36,8	51615 43,1	949 0,8	-	63279 52,9	3834 3,2	119677 68,1	4669 2,7	51254 29,2
	o.c.suv	56414 38,0	51357 91,0	619 1,2	-	774 1,4	3664 6,4	56414 47,1	-	-
4	Beyləqan	113113 23,7	45219 57,9	2520 3,2	-	28711 32,9	1621 2,1	78071 69,0	3171 2,8	31871 28,2
	o.c.suv	48292 32,6	44474 92,1	2370 4,9	-	-	1448 3,0	48292 61,9	-	-
5	İmişli	189026 39,5	34835 28,6	8 0,01	-	79878 65,5	7277 6,0	121998 64,5	689 0,4	66339 35,1
	o.c.suv	43551 29,4	34835 80,0	8 0,02	-	3551 8,2	5157 11,8	43551 35,7	-	-
	Cəmi	**477739 22,6**	**131669 41,2**	**3477 1,1**	-	**171868 53,7**	**12732 4,0**	**319746 66,9**	**8529 1,8**	**149464 31,3**
	o.c.suv	**148257 22,2**	**130666 88,1**	**2997 2,0**	-	**4325 2,9**	**10269 6,9**	**148257 46,4**	-	-
Şirvan düzü										
6	Ağdaş	102305 19,6	30768 48,4	742 1,2	1107 1,7	25115 39,5	5835 9,2	63567 62,1	9225 9,0	29513 28,8
	o.c.suv.	34521 20,0	27904 80,8	742 12,7	40 0,1	-	5835 16,9	34521 54,3	-	-
7	Kürdəmir	163151 31,3	46271 39,3	1276 1,1	-	62793 53,4	7332 6,2	117672 72,1	739 0,4	44740 27,4
	o.c.suv	52843 30,6	45891 86,8	1276 2,4	-	3811 7,2	1865 3,6	52843 44,9	-	-
8	Göyçay	73567 14,1	21902 40,2	3336 6,1	-	23936 43,9	5349 9,8	54523 74,1	210 0,3	18834 25,6
	o.c.suv	26272 15,2	17925 68,2	3083 11,8	-	-	5264 20,0	26272 48,2	-	-
9	Ucar	83398 16,0	18608 43,2	199 0,5	-	17816 41,4	6420 14,9	43043 51,6	210 0,3	40145 48,1
	o.c.suv	24935 14,4	18337 73,5	194 0,8	-	60 0,2	6344 35,5	24935 57,9	-	-
10	Zərdab	85560 16,4	29975 53,1	466 0,8	-	24355 43,1	1696 3,0	56492 66,0	220 0,3	28848 33,7
	o.c.suv	32756 19,0	29975 91,6	405 1,2	-	1119 3,4	1257 3,8	32756 58,0	-	-

1	2	3	4	5	6	7	8	9	10	11
11	Mingəçe-vir	13953 2,7	325 10,6	359 11,7	160 5,2	1964 64,1	258 8,4	3066 1307	-	10887 78,0
	o.c.suv	1307 0,8	117 9,0	341 26,1	156 11,9	439 33,6	254 19,4	1307 21,2	-	-
	Cəmi	**521934 24,7**	**147849 43,7**	**6378 1,9**	**1267 0,4**	**155979 46,1**	**26890 7,9**	**338363 64,8**	**10604 2,0**	**172967 33,1**
	o.c.suv	**172634 25,9**	**140149 81,2**	**6041 3,5**	**196 0,1**	**5429 3,1**	**20819 12,1**	**172634 51,0**	-	-
Muğan-Salyan düzü										
12	Biləsuvar	135789 15,5	47167 41,1	24 0,2	11 0,01	65727 57,3	1824 1,6	114753 84,5	18 0,01	21054 15,5
	o.c.suv	38909 15,4	34188 87,9	20 0,1	5 0,0	2855 7,3	1823 4,7	38891 33,9	18 0,05	-
13	Hacıqabul	164145 18,8	22697 27,7	20 0,03	-	57490 70,1	1785 2,2	81992 45,1	1100 0,7	81053 49,4
	o.c.suv	22013 8,7	21562 98,0	20 0,1	-	-	431 1,9	22013 26,6	-	-
14	Neftçala	145171 16,6	46986 47,5	-	-	50322 50,9	1603 1,6	98911 68,1	-	46260 31,9
	o.c.suv	36659 14,5	35648 97,2	-	-	-	1011 2,8	36659 37,1	-	-
15	Saatlı	118047 13,5	38762 36,8	66 0,1	-	58318 55,4	8173 7,8	105319 89,2	832 0,7	11898 10,1
	o.c.suv	47529 18,8	38762 81,6	66 0,1	-	914 1,9	7787 16,4	47529 45,1	-	-
16	Sabira-bad	146935 16,8	48308 48,5	182 0,2	-	41492 41,6	9645 9,7	99627 67,8	2377 1,6	43931 29,9
	o.c.suv	62041 24,6	48308 77,9	182 0,3	-	3906 6,3	9645 15,5	62041 62,3	-	-
17	Salyan	161024 18,4	38901 37,7	-	-	57031 55,2	7155 6,9	103087 64,0	336 0,2	57601 35,7
	o.c.suv	44905 17,8	37568 83,8	-	-	182 0,4	7155 15,8	44905 43,5	-	-
18	Əli Bay-ramlı	2565 0,3	36 40	100 11,1	-	491 54,6	272 30,3	899 35,1	-	1666 64,9
	o.c.suv	408 0,2	36 88	100 24,5	-	-	272 66,7	408 45,4	-	-
	Cəmi	**873676 41,3**	**242857 40,2**	**392 0,1**	**11 0,0**	**330871 54,7**	**30457 5,0**	**604588 69,2**	**4663 0,5**	**264425 30,2**
	o.c.suv.	**252464 38,0**	**216072 85,6**	**388 0,1**	**5 0,0**	**7857 3,1**	**28124 11,1**	**252466 41,7**	**18 0,4**	-
	Cəmi düzən. üzrə	**2115179 24,5**	**599868 42,2**	**12436 0,9**	**2648 0,2**	**725128 51,1**	**79374 5,6**	**1419454 67,1**	**33663 1,6**	**662062 31,3**
	o.c.suv.	**665343 46,8**	**564380 84,9**	**11615 1,7**	**1151 0,2**	**20709 3,1**	**67178 10,1**	**665033 46,9**	**310 0,9**	-

Cədvəl 93


Bölgənin ümumi torpaq fondunun düzənliklər üzrə paylanma strukturu (ha/%)



Şəkil 417

Cədvəl 93.1


Bölgənin ümumi torpaq fondunun əsas tərkib hissəsi (ha/%)



Şəkil 418

Cədvəl 93.2

Bölgənin kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)




Dəmyə

Suvarılan

Şəkil 419

Cədvəl 93.3

Bölgənin yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Əkin+dinc

Çoxillik əkmələr


Örüş,otlaq+biçənək

Həyətyanı

Şəkil 420

Cədvəl 93.4


Bölgənin ümumi suvarılan torpaqlarının düzənliklər üzrə paylanma istifadəçiliyi (ha/%)



Şəkil 421

Cədvəl 93.5

Bölgənin ümumi suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 422

Kənd təsərrüfatında istifadə edilən torpaqların 665,3 min ha (46,8%) suvarılan sahələrdən ibarətdir. Bunun 564,4 min hektarını (84,9%) əkin sahələri tutur. Çoxillik əkmələr altında becərilən torpaqların 11,6 min hektarı (1,7%), örüş və otlaq torpaqlarının 20,7 min hektarı (3,1%) və müxtəlif kənd təsərrüfatı bitkiləri becərilən həyətyanı torpaqların 67,2 min hektarı (10,1%) suvarılır. Ərazidə ümumi meşə fondu torpaqlarının 33,7 min hektarının yalnız 310 hektarı (0,9%) suvarılır. Kənd təsərrüfatında istifadə olunmayan torpaqlar bölgənin ümumi torpaq fondunun 31,3%-nə və ya 662,1 min hektarına bərabərdir. Bunun əsas hissəsi kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlardan ibarətdir. Bölgədə kənd təsərrüfatına yararlı torpaq ehtiyatları tükəndiyindən gələcəkdə bu torpaqların əsaslı şəkildə yaxşılaşdırılması yolu ilə əkin dövriyyəsinə cəlb edilməsi gündəmdə duran məsələlərdən biridir.

Bölgədə ən çox torpaq ehtiyatına malik olan İmişli (189,0 min ha), Ağcabədi (175,6 min ha), Hacıqabul (164,1 min ha), Kürdəmir (163,2 min ha), Salyan (161,0 min ha), Yevlax (146,5 min ha), Neftçala (145,1 min ha), Saatlı (118,0 min ha) və Biləsuvar (135,8 min ha) rayonlarının kənd təsərrüfatına yararlı torpaqlarının yarısından çoxu örüş və otlaq sahələrinin payına düşür. Bəzi rayonlarda örüş və otlaqların tutduğu sahə hətta 65-70%-dən çoxdur. Əsasən qış otlaq torpaqları kimi istifadə olunan bu sahələr həm bölgənin öz rayonları və həm də respublikanın digər rayonları tərəfindən köçəri qoyunçuluqda geniş istifadə olunur. Kənd təsərrüfatı sahələri içərisində istifadəyə görə əkin və dincə qoyulmuş torpaqlar üstünlük təşkil edir və ayrı-ayrı rayonlarda yararlı torpaqların təqribən 27,7-57,9%-i arasında dəyişir. Bütün hallarda suvarılan torpaqların əsasını əkin sahələri təşkil edir. Ayrı-ayrı rayonlarda örüş və otlaq torpaqları çox az miqdarda suvarılır və hətta bəzi rayonlarda, xüsusilə Hacıqabul, Neftçala, Göyçay, Bərdə, Beyləqan və Ağdaş rayonlarında suvarılmayan otlaq torpaqları da mövcuddur. Həcm etibarilə ikinci suvarılan sahələrə həyətyanı torpaqlar aiddir. Burada suvarılan torpaqların

faiz göstəricisinin çox geniş intervalda, yəni 3,0-66,7% arasında artıb-azalması müşahidə olunur.

Aran bölgəsində torpaq ehtiyatlarının çoxəsrlik istismarı nəticəsində onun təbii münbitlik xassələrinin əsaslı şəkildə dəyişməsi eyni zamanda onun bonitet balının keyfiyyətinin dəyişməsinə də əsaslı təsir göstərmişdir (cədvəl 94, şəkil 423-428). Belə ki, hazırda kənd təsərrüfatı sahələri altında istifadədə olan 1 mil. 419 min 454 hektarının çox təəssüf ki, yalnız 90,1 hektarı (6,3%) yüksək (I qrup) keyfiyyətli torpaqlardan ibarətdir. bunun da 79,4 min hektarı və ya 88,1%-i insanların daima yaxşılaşdırma qayğısı ilə əhatələndirdiyi həyətyanı torpaqlardır. Bölgə əhalisi üçün həyati əhəmiyyət daşıyan əkin torpaqlarının yalnız 0,8%-i və ya 4,6 min hektarı I keyfiyyət qrupunda, yəni ilkin vəziyyətdə qalmışdır. Oxşar mənzərə kəndyanı örüş və qış otlaq torpaqlarında da müşahidə edilməkdədir. I keyfiyyət qrupunda kəndyanı örüş torpaqlarının yalnız 4,8%-i (4,3 min ha) öz əvvəlki mövqeyini qoruyub saxlamışdır. Qış otlağı torpaqlarında bu göstərici 1,3%-ə (1,2 min ha) bərabərdir.

Çoxillik əkmələrin altında istifadə olunan torpaqların aqibəti də deyilənlərə oxşardır. Hal-hazırda kənd təsərrüfatında istifadə olunan torpaqların 13,7%-i (193,9 min ha) II aqroistehsalat, yəni yaxşı keyfiyyət qrupunda özünü qoruyub saxlamışdır. Ayrı-ayrı təsərrüfat sahələri altında istifadə olunan torpaqlarda transferlik dinamikası isə xeyli müxtəlifdir. Əkin+dinc torpaqların 20,4% (122,3 min ha) II keyfiyyət qrupunda cəmlənmişdir. Çoxillik əkmələrin torpaqlarının isə 41,4%-i yaxşı keyfiyyətli torpaqlardan ibarətdir və əkin torpaqlarına nisbətən iki dəfədən çox yüksəkdir.

Hazırda kəndətrafı örüşaltı torpaqlarının 8,6%-i, qış otlaq torpaqlarının isə 9,5%-nin II keyfiyyət qrupunda yer tutduqları aydın olur. Ümumiyyətlə, istifadə xüsusiyyətlərinə görə uzun tarixi yol keçmiş əkin+dinc, çoxillik əkmələrin, kəndətrafı örüş və qış otlaq torpaqlarının III, IV və hətta müəyyən hissəsinin V keyfiyyət qrupunda transfer olması torpaq


Cədvəl 94

Bölgənin ümumi kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması (ha/%)

Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin+ dinc	Çoxillik	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
							kəndyanı	qış	yay	
	100-81	I	4611 5,1	467 0,5	160 0,2	79374 88,1	4298 4,8	1203 1,3	-	90113 6,3
	80-61	II	122352 63,1	5146 2,6	825 0,4	-	32796 16,9	32786 17,0	41 0,02	193946 13,7
	60-41	III	413449 58,1	6522 0,9	1321 0,2	-	154954 21,8	134187 18,9	200 0,03	710633 50,1
	40-21	IV	59405 15,8	301 0,1	342 0,1	-	165825 44,1	149890 39,9	-	375763 26,5
	20-1	V	51 0,1	-	-	-	21844 44,6	27104 55,3	-	48999 3,4
2115179 24,5	**100-1**	**I-V**	**599868 42,2**	**12436 0,9**	**2648 0,2**	**79374 5,6**	**379717 26,7**	**345170 24,4**	**241 0,02**	**1419454 67,1**

Cədvəl 94


Bölgənin kənd təsərrüfatına yararlı torpaqlarının keyfiyyət qrupları üzrə paylanma strukturu (ha/%)



Şəkil 423

Cədvəl 94.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 424

Cədvəl 94.2


II keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 425

Cədvəl 94.3


III keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 426

Cədvəl 94.4


IV keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 427

Cədvəl 94.5

V keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatısahələri (ha/%)



Şəkil 428

örtüyündə güclü tənəzzül prosesinin başlandığını göstərir. Hazırda əkin və dincə qoyulmuş torpaqların 68,9%-i (413,4 min ha), çoxillik əkmələrin altında becərilən torpaqların 52,5%-i (6,5 min ha) və biçənəkaltı torpaqların isə 49,9%-i (1,3 min hektar) orta keyfiyyət qrupuna transfer olmuşlar. Kəndyanı örüş və qış otlağı torpaqlarının 43,7%-nin IV və hətta 5,8%-nin V keyfiyyət qruplarında yer almaları, ümumiyyətlə, ərazidə meliorativ vəziyyətinin qeyri qənaətbəxş olduğunu göstərən amillərdən sayılmalıdır. Bölgənin ayrı-ayrı rayonlarında torpaq istifadəçilik şəraitindən asılı olaraq aqroistehsalat qruplaşmasının dinamikası xeyli müxtəlifliyi ilə səciyyələnir. Məsələn, elə rayonlar var ki, orada bir hektar da olsun kənd təsərrüfatı sahələri altında istifadə olunan yüksək keyfiyyətli torpaqlara (həyətyanı torpaq sahələri istisna olmaqla) rast gəlinmir (cədvəl 95). Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar və Hacıqabul rayonlarında az miqdarda rast gəlinən I aqroistehsal qrupuna daxil olan kənd təsərrüfatı sahələri əsasən əkin və dincə qoyulmuş torpaqlardan ibarətdir. Onların əhatə etdiyi sahələrin ölçüsü rayon üzrə ümumi əkin və dincə qoyulmuş torpaqların 0,4-11,4%-i arasında artıb-azalmas ilə xarakterizə olunur. Bunlardan başqa həmin rayonların ərazilərində oxşar vəziyyət örüş və otlaq torpaqlarında da mövcuddur. Örüş və otlaq torpaqlarının I aqroistehsal qrupuna daxil olan sahələrinin ölçüləri isə 0,1-3,7% arasında dəyişir.

Bölgənin ayrı-ayrı düzlərində kənd təsərrüfatında istifadə edilən torpaqların keyfiyyət qruplarının paylanma dinamikası da müxtəlifdir. Məsələn, Qarabağ düzündə kənd təsərrüfatı dövriyyəsində olan 85,3 min ha torpaq sahəsinin 42,6 min ha və ya 27,1%-i aşağı keyfiyyətli və şərti yararsız torpaqlar qrupuna transfer olunmuşdur. Ərazicə 4 dəfə çox olan Muğan-Salyan düzündə (604,4 min ha) bu göstərici 189,3 min ha və ya 31,4% təşkil edir. Göründüyü kimi, Qarabağ düzünün torpaqlarında tənəzzül prosesi daha intensiv baş verməkdədir.

Ümumiyyətlə, bölgənin kənd təsərrüfatında istifadə olunan torpaqlarda düzgün becərmə və uzunmüddətli aqromeliorativ

Cədvəl 95

Bölgənin kənd təsərrüfatı sahələri torpaqlarının rayonlar və düzənliklər üzrə paylanmış keyfiyyət qrupları (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							Cəmi
					Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			
									kəndyanı	qış	yay	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
Qarabağ düzünün kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması												
1	Bərdə		100-81	I	824 1,7	-	-	6585 100	19 0,1	-	-	7428 10,4
			80-61	II	23130 49,1	519 38,7	-	-	1223 7,4	-	-	24872 34,8
			60-41	III	22149 47,1	821 6,1	-	-	8952 54,4	-	-	31922 44,7
			40-21	IV	907 1,9	-	-	-	5861 35,6	-	-	6768 9,5
			20-1	V	51 0,1		-	-	391 2,4	-	-	442 0,6
	Cəmi	**95295 39,4**	**100-1**	**I-V**	**47061 65,9**	**1340 1,9**	-	**6585 9,2**	**16446 23,0**	-	-	**71432 75,0**
2	Yevlax		100-81	I	-	-	-	2710 100	-	-	-	2710 3,2
			80-61	II	2701 8,9	18 2,1	15 1,1	-	762 2,1	249 1,8	-	3745 4,4
			60-41	III	25303 83,1	820 96,0	1284 93,7	-	12062 33,5	3995 28,5	-	43464 50,9
			40-21	IV	2428 8,0	11 1,3	71 5,2	-	22056 61,3	7272 52,0	-	31838 37,3
			20-1	V	-	-	-	-	1092 3,0	2476 17,7	-	3568 4,2
	Cəmi	**146535 60,6**	**100-1**	**I-V**	**30432 35,7**	**849 1,0**	**1370 1,6**	**2710 3,2**	**35972 42,2**	**13992 16,9**	-	**85325 58,2**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			100-81	I	824 1,1	-	-	9295	19 0,04	-	-	10138 6,5
			80-61	II	25831 33,3	537 24,5	15 1,1	-	1985 3,8	249 1,8	-	28617 18,3
			60-41	III	47452 61,2	1641 75,0	1284 93,7	-	21014 40,1	3995 28,5	-	75386 48,1
			40-21	IV	3335 4,3	11 0,5	71 5,2	-	27917 53,3	7272 52,0	-	38606 24,6
			20-1	V	51 0,1	-	-	-	1483 2,8	2476 17,7	-	4010 2,5
	Rayonlar üzrə cəmi	**241830 11,4**	**100-1**	**I-V**	**30432 35,7**	**849 1,0**	**1370 1,6**	**2710 3,2**	**35972 42,2**	**13992 16,9**	**-**	**85325 58,2**
Mil düzünün kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması												
			100-81	I	103 2,6	8 0,8	-	3834 97,2	-	-	-	3945 3,3
			80-61	II	23898 46,3	640 67,4	-	-	2330 19,7	9627 18,7	-	36495 30,5
3	Ağcabədi		60-41	III	25653 49,7	299 31,6	-	-	5286 44,7	22919 44,5	-	54157 45,2
			40-21	IV	1961 3,8	2 0,2	-	-	4036 34,1	17578 34,2	-	23577 19,7
			20-1	V	-		-	-	168 1,4	1335 2,6	-	1503 1,3
	Cəmi	**175600 36,8**	**100-1**	**I-V**	**51615 43,1**	**949 1,6**	**-**	**3834 6,6**	**11820 9,9**	**51459 43,0**	**-**	**119677 68,2**
			100-81	I	181 0,4	-	-	1621 82,1	105 0,6	67 0,6	-	1974 2.5
			80-61	II	769 1,7	1220 48,4	-	-	1210 6,9	942 8.5	-	4141 5,3
4	Beyləqan		60-41	III	42913 94,9	1300 51,6	-	-	7745 44.0	4915 44,2	-	56873 72,8
			40-21	IV	1356 3,0	-	-	-	5126 29,1	3232 29,0	-	9714 12.4
			20-1	V	-	-	-	-	3396 19,3	1973 17,7	-	5369 6.9

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
	Cəmi	**113113 23,7**	**100-1**	**I-V**	**45219 58,0**	**2520 3,2**	-	**1621 2,1**	**17582 22,5**	**11129 14,2**	-	**78071 69,0**
5	İmişli		100-81	I	-	-	-	7277	-	-	-	7277 6,0
			80-61	II	4041	-	-	-	1275 2,7	890 2,7	-	6206 5,0
			60-41	III	26510 76,1	8 100	-	-	14132 30,1	10782 32,7	-	51432 42,2
			40-21	IV	4284 12,3	-	-	-	24388 51,9	17158 52,1	-	45830 37,6
			20-1	V	-		-	-	7160 15,2	4093 12,4	-	11253 9,2
	Cəmi	**189026 39,5**	**100-1**	**I-V**	**34835 28,5**	**8 0,01**	-	**7277 6,0**	**46955 38,5**	**32923 27,0**	-	**121998 64,5**
			100-81	I	284 0,2	8 0,2	-	12732 96,5	105 0,1	67 0,1	-	13196 4,4
			80-61	II	28708 21,8	1860 53,5	-	-	4815 6,3	1832 2,3	-	37215 12,3
			60-41	III	95076 72,2	1607 46,2	-	-	27163 35,6	25324 32,5	-	149170 49,4
			40-21	IV	7601 5,8	2 0,1	-	-	33450 43,9	43309 55,6	-	84362 27,9
			20-1	V	-		-	-	10724 14,1	7401 55,6	-	18125 6,0
	Rayonlar üzrə cəmi	**477739 22,8**	**100-1**	**I-V**	**131669 43,6**	**3477 1,2**	-	**12732 4,2**	**76257 25,2**	**77933 25,8**	-	**302068 63,2**
Şirvan düzünün kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması												
6	Ağdaş		100-81	I	-	-	-	5835 100	819 3,3	-	-	6654 10,5
			80-61	II	3600 11,7	531 71,6	82 7,4	-	7854 31,3	-	-	12067 19,0
			60-41	III	20768 35,0	204 27,4	754 68,1	-	11537 45,9	-	-	33263 52,3
			40-21	IV	6400 20,8	7 0,9	271 24,5	-	4905 19,5	-	-	11583 18,2

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**102305 19,6**	**100-1**	**I-V**	**30768 48,4**	**742 1,2**	**1107 1,7**	**5835 9,2**	**25115 39,5**	-	-	**63567 62,1**
7	Kürdəmir		100-81	I	-	-	-	7332 100	-	-	-	7332 6,2
			80-61	II	3239 7,0	304 23,8	-	-	827 3,3	798 2,1	-	5168 4,4
			60-41	III	35444 76,6	878 68,8	-	-	11791 47,1	11592 30,7	-	59705 50,7
			40-21	IV	7588 16,4	94 7,4	-	-	11855 47,5	20370 54,0	-	39907 34,0
			20-1	V	-		-	-	572 2,3	4988 13,2	-	5560 4,7
	Cəmi	**163151 31,3**	**100-1**	**I-V**	**46271 39,3**	**1276 1,0**	-	**7332 6,2**	**25045 21,3**	**37748 32,1**	-	**117672 72,1**
8	Göyçay		100-81	I	-	-	-	5349 100	-	-	-	5349 9,8
			80-61	II	4906 22,4	1855 55,6	-	-	787 16,9	3234 16,8	-	10782 19,8
			60-41	III	13733 62,7	1404 72,8	-	-	1938 41,6	9579 49,7	-	26654 48,9
			40-21	IV	3263 10,2	77 2,3	-	-	1795 38,5	5994 31,1	-	11129 20,4
			20-1	V	-	-	-	-	143 3,1	466 2,4	-	609 1,1
	Cəmi	**73567 14,1**	**100-1**	**I-V**	**21902 40,2**	**3336 6,1**	-	**5349 9,8**	**4663 8,5**	**19273 35,3**	-	**54523 74,1**
9	Ucar		100-81	I	-	-	-	6420 100	-	-	-	6420 14,9
			80-61	II	484 2,6	-	-	-	64 0,4	21 1,0	-	569 1,3
			60-41	III	10067 54,1	135 67,8	-	-	5980 37,8	668 33,2	-	16850 39,2

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			40-21	IV	8057 43,3	64 32,2	-	-	9433 59,8	1196 59,3	-	18750 43,6
			20-1	V	-		-	-	322 2,0	132 6,5	-	454 1,0
	Cəmi	**83398 16,0**	**100-1**	**I-V**	**18608 43,2**	**199 0,5**	**-**	**6420 14,9**	**15799 36,7**	**2017 4,7**	**-**	**43043 51,6**
10	Zərdab		100-81	I	-	-	-	1696 92,8	74 0,6	58 0,5	-	1828 3,2
			80-61	II	330 1,1	-	-	-	2736 22,7	2523 20,7	-	5616 9,9
			60-41	III	24550 81,9	422 90,6	-	-	8344 68,5	8182 67,2	-	41498 73,5
			40-21	IV	5095 17,0	44 9,4	-	-	995 8,2	1416 11,6	-	7550 13,4
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**85560 16,4**	**100-1**	**I-V**	**29975 53,1**	**466 0,8**	**-**	**1696 3,0**	**12176 21,5**	**12179 21,6**	**-**	**56492 66,0**
			100-81	I	-	-	-	26632 96,5	893 1,1	58 0,1	-	27583 8,2
			80-61	II	12559 8,5	2690 44,7	82 7,4	-	12295 14,8	6576 9,2	-	34202 10,2
			60-41	III	104562 70,9	3043 50,6	754 68,1	-	39590 47,8	30021 42,1	-	177970 53,1
			40-21	IV	30403 20,6	286 4,7	271 24,5	-	28983 35,0	28976 26,6	-	88919 26,5
			20-1	V	-		-	-	1037 1,2	5586 7,8	-	6623 2,0
	Rayonlar üzrə cəmi	**507981 24,2**	**100-1**	**I-V**	**147524 44,0**	**6019 1,8**	**1107 0,3**	**26632 7,9**	**82798 24,7**	**71217 21,2**	**-**	**335297 66,0**
Muğan-Salyan düzünün kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması												
11	Biləsuvar		100-81	I	546 1,2	-	-	1824 77,0	-	-	-	2370 2,1
			80-61	II	15292 32,4	6 25,0	-	-	1604 5,8	2232 5,8	-	19134 16,7

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			60-41	III	27520 58,3	18 75,0	11 0,03	-	5380 19,5	7437 19,5	-	40366 35,2
			40-21	IV	3809 8,1	-	-	-	16471 59,7	22769 59,6	-	43049 37,5
			20-1	V	-	-	-	-	4135 15,0	5699 14,9	-	9834 8,5
	Cəmi	**135789 15,5**	**100-1**	**I-V**	**47167 82,9**	**24 0,04**	**11 0,02**	**1824 1,6**	**27590 24,0**	**38137 33,2**	-	**114753 84,5**
12	Hacıqabul		100-81	I	2580 11,4	-	-	1785 33,8	358 1,6	558 1,5	-	5281 6,4
			80-61	II	5996 26,4	-	592 5,0	-	2322 10,7	2898 8,2	41 17,0	11849 14,3
			60-41	III	13631 60,0	20 0,04	-	-	11926 54,8	19657 55,4	200 83,0	45434 55,0
			40-21	IV	490 2,2	-	-	-	6322 29,0	11233 31,7	-	18045 21,8
			20-1	V	-		-	-	852 4,0	1123 3,2	-	1975 2,5
	Cəmi	**164145 18,8**	**100-1**	**I-V**	**22697 27,5**	**20 0,02**	**592 0,7**	**1785 2,2**	**21780 26,4**	**35469 30,8**	**241 0,3**	**82584 50,3**
13	Neftçala		100-81	I	-	-	-	1603 100	-	-	-	1603 1,6
			80-61	II	4323 9,2	-	-	-	1625 5,0	892 5,0	-	6840 6,9
			60-41	III	34629 73,7	-	-	-	6970 21,4	3896 21,8	-	45495 46,0
			40-21	IV	8034 17,1	-	-	-	22982 70,8	12818 71,9	-	43834 44,3
			20-1	V	-		-	-	909 2,8	230 1,9	-	1139 1,2
	Cəmi	**145171 16,7**	**100-1**	**I-V**	**46986 47,6**	-	-	**1603 1,6**	**32486 49,1**	**17836 18,0**	-	**98911 68,1**
14	Saatlı		100-81	I	16 0,04	-	-	8173 90,7	515 3,7	307 0,7	-	9011 8,6

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			80-61	II	14078 36,3	-	-	-	3628 26,0	6230 14,0	-	23936 22,7
			60-41	III	22063 56,9	66 100	-	-	8026 57,4	16067 36,2	-	46222 43,9
			40-21	IV	2605 6,7	-	-	-	1655 11,8	19764 44,6	-	24024 22,8
			20-1	V	-	-	-	-	154 1,1	1972 4,5	-	2126 2,0
	Cəmi	**118047 13,5**	**100-1**	**I-V**	**38762 36,8**	**66 0,1**	**-**	**8173 7,8**	**13978 13,3**	**44340 42,1**	**-**	**105319 89,2**
15	Sabirabad		100-81	I	-	-	-	9645 98,3	116 0,4	50 0,4	-	9811 9,8
			80-61	II	14009 29,0	53 29,1	-	-	3390 11,8	1504 11,7	-	18956 19,0
			60-41	III	33816 70,0	127 69,7	-	-	13054 45,5	5814 45,3	-	52811 53,0
			40-21	IV	483 1,0	2 1,2	-	-	11085 38,7	4041 31,5	-	15611 15,7
			20-1	V	-		-	-	1019 3,6	1419 11,1	-	2438 2,5
	Cəmi	**146935 16,9**	**100-1**	**I-V**	**48308 48,5**	**182 0,2**	**-**	**9645 9,8**	**28664 28,8**	**12828 12,9**	**-**	**99627 67,8**
14	Salyan		100-81	I	-	-	-	7155 100	-	-	-	7155 6,9
			80-61	II	1556 4,0	-	136 100	-	1132 2,7	746 4,8	-	3570 3,5
			60-41	III	34700 89,2	-	-	-	21831 53,0	8684 55,4	-	65215 60,4
			40-21	IV	2645 6,8	-	-	-	16860 40,8	5049 32,2	-	24554 23,8
			20-1	V	-	-	-	-	1531 3,7	1198 7,6	-	2729 2,6
	Cəmi	**161024 18,5**	**100-1**	**I-V**	**38901 37,7**	**-**	**136 0,1**	**7155 6,9**	**41354 40,1**	**15677 15,2**	**-**	**103223 64,1**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
			100-81	I	3142 1,3	-	-	30185	989 0,6	915 0,6	-	35231 5,8
			80-61	II	55254 22,7	59 20,2	592 80,1	-	13701 8,3	14502 8,8	41 17,0	84285 13,9
			60-41	III	166359 868,5	231 79,1	147 19,9	-	67187 40,5	61555 37,5	200 83,0	295543 48,9
			40-21	IV	18066 7,4	2 0,7	-	-	75375 45,4	75674 46,1	-	169117 28,0
			20-1	V	-	-	-	-	8600 5,2	11641 7,1	-	20241 3,4
	Rayonlar üzrə cəmi	**871111 41,5**	**100-1**	**I-V**	**242821 40,2**	**292 0,05**	**739 0,1**	**30185 5,0**	**165852 27,4**	**164287 27,2**	**241 0,04**	**604417 69,4**

tədbirləri tətbiq etməklə, onların bonitet ballarını artırmaq və keyfiyyət qruplarının müsbət doğru transferlik dinamikasının dəyişməsini (V→IV→III→II→I) təmin etmək mümkündür.

Bölgədə suvarılan torpaqların meliorativ durumunun qiymətləndirilməsi və suvarma sistemlərinin texniki vəziyyətinə dair kadastr (1 yanvar 2004-cü il) məlumatlarına əsasən ərazidə suvarılan torpaqların qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə paylanması da müxtəlifdir. Belə ki, suvarılan sahələrin 34,3 min hektarının (5,1%) qrunt sularının səviyyəsi 1,0 m-dək, 560,4 min hektarının (84,2%-nin) 1,0-3,0 m-dək və 70,7 hektarının (10,7%) 3,0 m-dən çox dərinlikdə yerləşdiyi sahələrdə yayıldığı müəyyənləşdirilmişdir.

Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanmasına nəzər saldıqda aydın olur ki, suvarılan sahələrin 82,8 min hektarında (12,4%) qrunt suları zəif minerallaşmış, yəni şirin sulu (1,0 qr/l-dək az), 278,1 min hektarında (41,8%) qrunt sularının minerallaşma dərəcəsi 1,0-3,0 q/l arasında dəyişən ərazilərdə 278,2 min hektar (41,9%) yayılmışdır. Qrunt suları daha təhlükəli həddə çatan, yəni quru qalığa görə duzların miqdarı 3,0 q/l və daha çox olan ərazilərdə suvarılan torpaqların 304,4 min hektardan (45,8%) istifadə olunur (cədvəl 96, şəkil 429-447).

Melioratorlar qrunt sularının dərinliyinə və minerallaşma dərəcsinə görə ümumi suvarılan torpaqların (665,3 min ha) 194,8 min hektarının (29,3%) qeyri-kafi, 402,5 min hektarının (60,5%) kafi və yalnız 68,0 min hektarının (10,2%) isə yaxşı vəziyyətdə olduğunu göstərirlər.

Ümumiyyətlə, geniş ərazini əhatə edən bölgədə suvarılan sahələr təbii-torpaq şəraitinə görə bir-birindən kəskin fərqlənən 4 böyük massivdə yerləşdiyindən onların üzərində qısa da olsa, dayanmaq zəruridir.

Bölgənin suvarılan torpaqları əsas etibarilə Kür-Araz ovalığının tərkib hissəsini təşkil edən Şirvan, Qarabağ, Mil və Muğan-Salyan düzlərində yerləşir.

Cədvəl 96


Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar və düzənliklər üzrə meliorativ vəziyyətinə dair bəzi göstəricilər (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3	4	5	6	7	8	9	10	11	12
Qarabağ düzünün suvarılan torpaqları											
1	Bərdə	53949 8,1	1110 2,1	41200 76,4	11639 21,6	16175 30,0	25825 47,9	11949 22,1	6005 11,1	35100 65,1	12844 23,8
2	Yevlax	38039 5,7	2000 5,2	21945 57,7	14094 37,0	4315 11,1	14529 38,2	19195 50,5	2050 5,4	22404 58,9	13585 35,7
	Cəmi	91988 13,8	3110 3,4	63145 68,6	25733 28,0	20490 22,3	40354 43,9	31144 33,8	8055 8,8	57504 62,5	26428 28,7
Mil düzünün suvarılan torpaqları											
3	Ağcabədi	56414 8,5	1325 2,3	42714 75,7	12378 21,9	3015 5,3	21800 38,6	31602 56,0	11020 19,5	31200 55,3	14197 25,2
4	Beyləqan	48292 7,3	1300 2,7	42490 88,0	4502 9,3	1515 3,1	39115 81,0	7662 15,9	18115 37,5	17050 35,3	13127 27,2
5	İmişli	43551 6,5	1695 3,9	39589 90,9	2267 5,2	185 0,4	9204 21,1	34162 78,4	6520 15,0	15780 36,2	21251 48,8
	Cəmi	148257 22,3	4320 2,9	124793 84,2	19147 12,9	4715 3,2	70119 47,3	73426 49,5	35655 24,0	64030 43,2	48575 32,8
Şirvan düzünün suvarılan torpaqları											
6	Ağdaş	34521 5,2	6215 18,0	24963 72,3	3343 9,7	9450 27,4	12830 37,2	12241 35,5	6365 18,4	17260 50,0	10896 31,6
7	Kürdəmir	52843 7,9	3394 6,4	40339 76,3	9110 17,2	582 1,1	10211 19,3	42050 79,6	765 1,4	35733 67,6	16345 30,9
8	Göyçay	23272 3,9	5990 22,8	17532 66,7	2750 10,5	7720 29,4	10500 40,0	8052 30,6	5145 19,6	15140 57,6	5987 22,8
9	Ucar	24935 3,7	477 1,9	23358 93,7	1100 4,4	400 1,6	3200 12,8	21335 85,6	795 3,2	15210 61,0	8930 35,8
10	Zərdab	32756 4,9	982 3,0	28413 86,7	3361 10,3	288 0,9	7253 22,1	25215 77,0	523 1,6	18313 55,9	13920 42,5
11	Mingəçevir ş.	1307 0,2	-	1307 100	-	1307 100	-	-	547 41,8	310 23,7	450 34,4
	Cəmi	172634 26,0	17058 9,9	135912 80,5	19664 11,4	19747 11,4	43994 25,5	108893 63,1	14140 8,2	101966 59,1	56528 32,7

1	2	3	4	5	6	7	8	9	10	11	12
Muğan-Salyan düzünün suvarılan torpaqları											
12	Biləsuvar	38909 5,9	1620 4,2	34764 89,3	2525 6,5	730 1,9	21745 55,9	16434 42,2	2580 6,6	26804 68,9	9525 24,5
13	Neftçala	36659 5,5	3200 8,7	33409 91,1	50 0,1	-	14500 39,5	22159 60,4	2350 6,4	17000 46,4	17309 47,2
14	Saatlı	47529 7,1	539 1,1	45960 96,7	1030 2,2	17816 37,5	21688 45,6	8025 16,9	1030 2,2	38945 81,9	7554 15,9
15	Sabirabad	62041 9,3	304 0,5	60235 97,1	1502 2,4	14749 23,8	41139 66,3	6153 9,9	1502 2,4	52659 84,9	7880 12,7
16	Salyan	44905 6,7	4100 9,1	40005 89,1	800 1,8	-	12800 28,5	32105 71,5	2400 5,3	24700 55,0	17805 39,6
17	Hacıqabul	22013 3,3	52 0,2	21731 98,7	230 1,0	4100 18,6	11811 53,6	6102 27,7	230 1,0	18711 85,0	3072 13,9
18	Əli Bay-ramlı ş.	408 0,1	-	408 100	-	408 100	-	-	88 21,6	164 40,2	156 38,2
	Cəmi	**252464** **37,9**	**9815** **3,9**	**236512** **93,7**	**6137** **2,4**	**37803** **15,0**	**123683** **49,0**	**90978** **36,0**	**10180** **4,0**	**178983** **70,9**	**63301** **25,1**
	Bölgə üzrə cəmi	**665343** **46,7**	**34303** **5,2**	**560362** **84,2**	**70678** **10,6**	**82755** **12,4**	**278150** **41,8**	**304438** **45,8**	**68030** **10,2**	**402483** **60,5**	**194830** **29,3**

Cədvəl 96


Qarabağ düzü rayonlarının ümumi suvarılan torpaq sahələri (ha/%)



Şəkil 429

Cədvəl 96.1


Qarabağ düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 430

Cədvəl 96.2


Qarabağ düzü ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 431

Cədvəl 96.3


Qarabağ düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 432

Cədvəl 96.4


Mil düzü rayonlarının ümumisuvarılan torpaq sahələri (ha/%)



Şəkil 433

Cədvəl 96.5


Mil düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 434

Cədvəl 96.6


Mil düzü ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 435

Cədvəl 96.7


Mil düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 436

Cədvəl 96.8


Şirvan düzü rayonların ümumi suvarılan torpaqları (ha/%)



Şəkil 437

Cədvəl 96.9


Şirvan düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 438

Cədvəl 96.10


Şirvan düzü ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (min, ha/%)



Şəkil 439

Cədvəl 96.11


Şirvan düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 440

Cədvəl 96.12


Muğan-Salyan düzü rayonlarının ümumi suvarılan torpaq sahələri (ha/%)



Şəkil 441

Cədvəl 96.13


Muğan-Salyan düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 442

Cədvəl 96.14


Muğan-Salyan düzü ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 443

Cədvəl 96.15


Muğan-Salyan düzü ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 444

Cədvəl 96.16


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 445

Cədvəl 96.17


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 446

Cədvəl 96.18

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 447

Qarabağ düzü – Gəncə-Qazax düzünün cənub-şərqə davamı olub, cənub, cənub-şərqdə yerləşən Mil düzü ilə birləşir. Dağətəyi hissədə 500 m-ə qədər yüksələn Qarabağ maili düzənliyi cənub-şərq kənarında okean səviyyəsindən aşağıda yerləşir. Dağətəyi düzənlikdə dərə, yarğanlı və zəif dalğavari-terraslı səth quruluşu olduğundan nisbətən əlverişli təbii drenləşmə şəraiti mövcuddur. Allüvial-prolüvial lössabənzər gillicələr üzərində əmələ gəlmiş şabalıdı və boz torpaqlar suvarma əkinçiliyinin əsasını təşkil edir. Burada bölgənin ümumi suvarılan torpaqlarının Yevlax və Bərdə rayonlarına məxsus 92,0 min hektarı və ya 13,8%-i yerləşir. Belə şəraitdə Bərdə və Yevlax rayonlarında suvarılan torpaqların 24,7%-i (22,8 min ha) müxtəlif dərəcədə şorlaşmışdır; şorlaşmış sahələrin 37,1%-i (8,5 min ha) zəif, 51,2%-i (11,7 min ha) orta və 11,7%-i (2,7 min ha) şiddətli dərəcədə şorlaşmış torpaqlardan ibarətdir (cədvəl 97, şəkil 448-462). Şorlaşımş sahələrlə komplekslik təşkil edən şorakətlik göstəriciləri də xeyli müxtəlifdir (cədvəl 98, şəkil 463-472). Şiddətli şorlaşmış və şorakətləşmiş torpaqlar demək olar ki, bütünlüklə kənd təsərrüfatı dövriyyəsindən çıxarılmış və şərti yararsız sahələrə çevrilərək istifadəsiz qalmışdır. Orta və şiddətli şorakətləşmiş torpaqların sahəsi 1,1 min hektar olub şorakətli torpaqların 26,5%-ni təşkil edir.

Odur ki, bu torpaqların yalnız 8,8%-nin (8,1 min ha) meliorativ vəziyyəti yaxşı, 62,5%-i (57,5 min ha) kafi və 28,7%-nin isə (26,5 min ha) qeyri-kafi qiymətləndirilir. Suvarılan sahələrin 72,2%-i (66,4 min ha) drenləşdirilmişdir. O cümlədən drenləşmiş sahələrin 87,9%-ində (58,4 min ha) qapalı-üfüqi drenlər inşa edilmişdir.

Mil düzü – qərbdən Qarabağ silsiləsi ilə əhatələnən düzənlik şimal-qərbdə Qarabağ düzü ilə birləşir. Şimal hissədə Şirvan düzündən Kür çayı, cənub-şərqdə Araz çayı vasitəsilə Muğan düzündən ayrılır. Dağətəyi hissədə səth quruluşunda hündürlük 500 m-ə qədər yüksəlir. Şərqdə ərazinin çox hissəsi, xüsusilə İmişli rayonunun ərazisinin okean səviyyəsindən aşağıda yerləşməsi ilə səciyyələnir. Səthi əsasən hamar olmaqla

Cədvəl 97

Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə şorlaşma və drenləşmə durumu (ha/%)

S/s.	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi					Drenləşmiş sahələr	
			şorlaşmayan	şorlaşmış	o cümlədən			cəmi	o cüm. qapalı üfüqi
					zəif	orta	şiddətli		
1	2	3	4	5	6	7	8	9	10
Qarabağ düzünün suvarılan torpaqları									
1	Bərdə	53949 58,6	48325 89,6	5624 10,4	1050 18,7	3575 63,6	999 17,7	42430 878,6	38400 71,2
2	Yevlax	38039 41,4	20900 54,9	17139 45,1	7399 43,2	8080 47,1	1660 9,7	24000 63,1	20000 52,6
	Cəmi	**91988 13,8**	**69225 75,3**	**22763 24,7**	**8449 37,1**	**11655 51,2**	**2659 11,7**	**66430 72,2**	**58400 87,9**
Mil düzünün suvarılan torpaqları									
3	Ağcabədi	56414 38,0	40716 72,2	15698 27,8	5175 33,0	6311 40,2	4212 26,8	35809 63,5	9308 16,5
4	Beyləqan	48292 32,6	27415 56,8	20877 43,2	10790 51,7	6735 32,3	3352 16,1	39726 82,3	37726 78,1
5	İmişli	43551 29,4	17915 41,1	25636 58,9	9650 37,6	5381 21,0	10605 41,4	26189 60,1	20502 47,1
	Cəmi	**148257 22,3**	**86046 58,0**	**62211 42,0**	**25615 41,2**	**18427 29,6**	**18169 29,2**	**101724 68,6**	**67536 66,4**
Şirvan düzünün suvarılan torpaqları									
6	Ağdaş	34521 20,0	13116 38,0	21405 62,0	10880 50,8	8108 37,9	2417 11,3	19940 57,8	19940 57,8
7	Göyçay	26272 15,2	13610 51,8	12662 48,2	6675 52,7	4550 35,9	1437 11,4	13400 51,0	13400 51,0
8	Kürdəmir	52843 30,6	11639 22,0	41204 78,0	23933 58,1	11747 28,5	5524 13,4	37060 70,1	37060 70,1
9	Ucar	24935 14,4	7395 29,7	17540 70,3	7630 43,5	3550 20,2	6360 36,3	18758 75,2	18758 75,2
Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 559

Cədvəl 116.2


Bölgənin bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 560

Cədvəl 116.3


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfat sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 561

Cədvəl 116.4


Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 562

Cədvəl 116.5

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfat sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 563

Kənd təsərrüfatında istifadə olunmayan sahələrə meşə fondu torpaqları ilə yanaşı, sair torpaqlar da daxildir. Bələdiyyənin meşə fondu torpaqları olduqca məhduddur və cəmi 22 hektardır. Sair sahələr isə ümumi torpaq fondunun 53,2%-ni (12,3 min ha) əhatə edir. Hazırda bu torpaqların tərkib hissəsinə daxil olan az yararlı və şərti yararsız torpaqların müəyyən hissəsi hüquqi və fiziki şəxslər tərəfindən istifadə olunur.

3. Xüsusi mülkiyyətdəki torpaqlar. Xüsusi mülkiyyətə bölgənin ümumi torpaq fondunun təqribən 6,2%-i (50 min ha) verilmişdir ki, bunun da 48,1 min hektarı (32,8%) suvarılan torpaq sahələridir. Xüsusi mülkiyyətdə olan torpaqlar bütünlüklə kənd təsərrüfatına yararlı torpaqlardır. Yalnız 0,4 min hektar müxtəlif obyektiv və subyektiv səbəblərdən hazırda əkin dövriyyəsindən kənarda qalmışdır. Özəlləşdirilmiş torpaq ehtiyatlarının 85%-ə (42,2 min ha) qədəri əkin və dincə qoyulmuş torpaqlardır. Əkin torpaqlarının isə 86,7%-i (41,7 min ha) suvarılan sahələrdəir. Çoxillik əkmələrin altında becərilən torpaqlar 3,8% (1,9 min ha) olmaqla bütünlüklə suvarılan torpaqlarda yerləşir.

Kənd təsərrüfatına yararlı həyətyanı torpaq sahələri ümumi özəlləşdirilmiş torpaq ehtiyatlarının 11,3%-nə (5,6 min ha) bərabərdir. Həyətyanı sahələrin ancaq 9,4% (4,5 min ha) suvarılan torpaqlardır. (cədvəl 117, şəkil 564-568).


Cədvəl 117

Bölgənin xüsusi mülkiyyətdəki torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri					K.t. istifadə olunmayan sahələr
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Cəmi	
1	2	3	4	5	6	7	8	9
1	Ağdam	15717 31,4	12487 80,0	1039 6,7	-	2081 13,3	15607 99,3	110 0,7
	o.c.suv.	14113 29,3	12077 85,6	1039 7,4	-	997 7,0	14113 90,4	-
2	Tərtər	23069 46,2	20065 87,8	305 1,3	-	2494 10,9	22864 99,1	205 0,9
	o.c.suv	22864 47,5	20065 87,8	305 1,3	-	2494 10,9	22864 100	-
3	Füzuli	11210 22,4	9597 86,0	547 4,9	-	1019 9,1	11163 99,6	47 0,4
	o.c.suv	11163 23,2	9597 86,0	547 4,9	-	1019 9,1	11163 100	
	Cəmi	**49996 6,2**	**42149 84,9**	**1891 3,8**	-	**5594 11,3**	**49634 99,3**	**362 0,7**
	o.c.suv.	**48140 32,8**	**41739 86,7**	**1891 3,9**	-	**4510 9,4**	**48140 97,0**	-

Cədvəl 117


Bölgənin xüsusi mülkiyyətindəki torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 564

Cədvəl 117.1


Bölgənin xüsusi mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 565

Cədvəl 117.2


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 566

Cədvəl 117.3


Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 567

Cədvəl 117.4

Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının təsərrüfat sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 568

Bölgənin Ağdam və Füzuli rayonlarında məlum səbəblərdən qismən torpaq islahatı aparıldığından Tərtər rayonuna nisbətən həmin rayonlarda özəlləşdirilmiş ümumi torpaq sahəsinin həcmi xeyli azdır.

Bölgədə məlum səbəblərdən torpaq islatahı tam başa çatdırılmasa da hazırda 97064 subyekti birləşdirən 24159 ailə torpaq mülkiyyətçiləridir. Onların mülkiyyətinə 45548 ha kənd təsərrüfatına yararlı torpaq sahəsi verilmişdir (cədvəl 118, şəkil 569-582). Orta hesabla hər bir ailənin istifadə etdiyi torpaq sahəsinin ölçüsü 1,88 ha-a bərabərdir. Torpaq payı almış hər bir subyektə isə orta hesabla 0,47 ha torpaq sahəsi düşür. Tərtər rayonunda mülkiyyətinə torpaq payı almış bölgə ailələrinin 42,4%-ni təşkil edir. Həmin ailələr rayonda özəlləşən torpaq sahəsinin isə 43,5%-nin sahibidir. Ümumiyyətlə, rayonda hər bir ailə orta hesabla 1,94 ha torpaq sahəsini əkib-becərir. Hər bir subyektin payına isə orta hesabla 0,44 ha torpaq payı düşür. Füzuli rayonunda 7126 ailə 11256 ha torpaq sahəsinə sahiblik edir. Bu ümumi bölgə üzrə torpaq payı almış ailələrin 29,5%-ni, özəlləşdirilməsi nəzərdə tutulmuş torpaq sahəsinin isə 24,7%-ni əhatə edir. Hazırda hər bir ailəyə orta hesabla 1,58 ha torpaq sahəsi düşür.

Ağdam rayonu ərazisində məskunlaşan yalnız 6788 ailənin mülkiyyətinə 14457 ha özəlləşdirilmiş torpaq sahəsi verilmişdir. Bu isə bölgə üzrə torpaq payı almış ailələrin 18,1%-ni, özəlləşdiriləcək torpaq sahəsinin isə 31,7%-ni təşkil edir. Tərtər və Füzuli rayonlarına nisbətən Ağdam rayonunda orta hesabla bir ailənin istifadə etdiyi torpaq bir qədər çoxdur (2,13 ha). Hər bir subyektə düşən orta torpaq payı da fərqlidir. Bölgədə torpaq mülkiyyətçisi tək ailələr bölgə üzrə olan ümumi ailələrin 27,6%-ni (6669 ailə) təşkil edir. Onların əlində bu gün ümumi torpaq sahəsinin 13,1% (5975 ha) cəmlənmişdir. Əksər hallarda torpaq mülkiyyətçiləri içərisində kiçik ailə (3-5 nəfər) qrupları üstünlük təşkil edir. Burada kiçik ailələr ümumi ailələrin 51,5%-ni (12450 ailə) əhatə etməklə özəlləşən torpaq ehtiyatlarının 51,7%-dən (23569 ha) istifadə edirlər. Orta ailələr

Cədvəl 118


Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*

S/s	Rayonlar	Ailə qrupları															Yekun			Orta torpaq norması **ailə/subyekt**
		Tək ailələr (1-2 nəfər)			Kiçik ailələr (3-5 nəfər)			Orta ailələr (6-8 nəfər)			Böyük ailələr (9-12 nəfər)			Ən böyük ailələr (12 nəfərdən çox)						
		ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	ailə sayı	sub. sayı	tor-paq sah.	
1	Tərtər	1666 25,0	2649 29,1	1173 19,0	6205 49,8	25922 48,8	11271 47,8	2176 46,9	14805 48,0	6545 46,1	191 49,2	1845 49,3	808 46,4	7 58,3	95 54,3	39 52,7	10245 42,4	45316 46,7	19835 43,5	1,94 0,44
2	Füzuli	3289 49,3	4040 44,1	3513 58,8	2579 20,7	12017 22,6	4474 19,0	1168 25,2	7616 24,7	2933 20,7	88 22,7	841 22,5	323 18,5	2 16,7	29 16,6	13 17,6	7126 29,5	24543 25,3	11256 24,7	1,58 0,46
3	Ağdam	1714 25,7	2482 7,1	1290 21,6	3666 29,5	15213 28,6	7824 33,2	1296 27,9	8403 27,3	4708 33,2	109 28,1	1054 38,2	613 35,2	3 25,0	51 29,1	22 29,7	6788 18,1	27205 28,0	14457 31,7	2,13 0,53
	Cəmi	**6669 27,6**	**9171 9,4**	**5976 13,1**	**12450 51,5**	**53154 54,8**	**23569 51,7**	**4640 19,2**	**30824 31,8**	**14186 31,1**	**388 1,6**	**3740 15,5**	**1744 3,8**	**12 0,1**	**175 0,7**	**74 0,2**	**24159 2,8**	**97064 2,8**	**45549 3,2**	**1,88 0,47**


* ailənin sayı, sahə ha
ümumi ailənin və sahənin cəmindən %-lə

Cədvəl 118

Yuxarı Qarabağ bölgəsində məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)



Şəkil 569




Şəkil 570

Cədvəl 118.1


Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)

A



Şəkil 571

B




Şəkil 572

Cədvəl 118.2


Bölgənin rayonlarında məskunlaşan tək ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(1-2 nəf.)

A



Şəkil 573

B




Şəkil 574

Cədvəl 118.3


Bölgənin rayonlarında məskunlaşan kiçik ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(3-5 nəf.)

A



Şəkil 575

B




Şəkil 576

Cədvəl 118.4


Bölgənin rayonlarında məskunlaşan orta ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(6-8 nəf.)

A



Şəkil 577

B




Şəkil 578

Cədvəl 118.5

Bölgənin rayonlarında məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(9-12 nəf.)


A



Tərtər Füzuli Ağdam

Şəkil 579

B




Tərtər Füzuli Ağdam

Şəkil 580


Cədvəl 118.6

Bölgənin rayonlarında məskunlaşan ən böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(12 nəfərdən çox)

A



B



(6-8 nəfər) bölgənin özəlləşdirilmiş torpaqlarının 31,1%-ni əkib-becərirlər. Böyük ailələr (9-12 nəfər) ümumi ailələrin cüzi bir hissəsini təmsil etməklə ümumi özəlləşən torpaq sahəsinin yalnız 3,8%-ə sahiblik edirlər. Bölgənin ayrı-ayrı rayonlarında torpaq mülkiyyətçiləri olan ailələrin say tərkibi müxtəlif olsa da, ümumi qanunauyğunluq qorunub saxlanılır. Ümumiyyətlə, bölgənin kənd təsərrüfatına yararlı ümumi torpaq ehtiyatlarının (501,2 min ha) hazırda ancaq (dövlət, bələdiyyə və xüsusi mülkiyyətdəki torpaqlar) 71,0 min hektardan (14-15%) mövcud durumda istifadə olunur.

VIII. DAĞLIQ ŞİRVAN TƏBİİ İQTİSADİ-COĞRAFİ BÖLGƏSİ

Böyük Qafqazın cənub-şərq hissəsini əhatə edən bölgəyə Ağsu, Qobustan, İsmayıllı və Şamaxı rayonlarının inzibati əraziləri daxildir. Ümumi sahəsi 613 min ha olmaqla respublika ərazisinin 7,1%-ni təşkil edir. Səth quruluşu əsasən dağlıqdır. Dağlıq əraziyə paralel uzanan cənubda Şirvan düzündə hündürlük təqribən 200 m-ə qədər düşür. Dağətəyi düzənlikdən suayrıcı silsiləyə qədər (2629 m-ə Babadağ) uzanan ərazi dərin çay dərələri ilə parçalanmışdır. Cənub-şərqə doğru tədricən alçalan dağlıq ərazi xırda yayla və silsilələrlə əvəzlənməsi ilə səciyyələnir. Ərazinin şimal və şimal şərqində yerləşən Hinaldağ, Hinqar, Ləngibiz silsilələri və cənubda yerləşən (Şirvan düzü) ovalıq hissə bölgənin relyefində xeyli mürəkkəblik yaratmışdır.

İqlimi düzənlik hissədə mülayim-isti və quru subtropik, dağlıq yerlərdə yayı bir qədər sərin, qışı isə nisbətən soyuq və quraq keçməsi ilə xarakterizə olunur. Bunu bölgənin ayrı-ayrı meteroloji məntəqələrində aparılmış çoxillik müşahidələrdən daha aydın görmək mümkündür (cədvəl 119, şəkil 583-587). Belə ki, havanın illik orta temperaturu dağətəyi düzənlik hissədə $14,1^0$ olduğu halda (Ağsu ş.), dağlıq ərazidə $10,5^0$ təşkil edir (Mərəzə qəs.). Qış aylarında havanın orta aylıq temperaturu (Ağsu) $3,3^0$, Şamaxıda isə bu göstərici $0,6^0$-yə enir. Ərazinin cənub-şərqində havanın temperaturu yenidən $4,0^0$-dək yüksəlir. İlin dövrlərində də havanın temperaturunda fərqlər müşahidə edilir. Ərazidə illik yağıntının miqdarı fəsillər üzrə, eləcə də ilin dövrləri üzrə qeyri-bərabər paylanmışdır. Yağıntıların miqdarı şimal-şərqə doğru azalaraq 379 mm-ə (Mərəzə qəs.) çatır. Ərazinin qərb hissəsində illik yağıntının miqdarı 800 mm (İsmayıllı ş.) olmaqla, maksimum yaz aylarında müşahidə olunur. Yağıntıların ikinci maksimum miqdarı isə ilin payız fəslinə təsadüf edir. İlin soyuq dövründə yağıntıların


Cədvəl 119

Bölgənin əsas iqlim göstəriciləri

S/s	Metroloji stansiyalar	İqlim göstəriciləri*	Fəsillər üzrə				İllik	İlin dövrləri	
			Qış	Yaz	Yay	Payız		İsti	Soyuq
1	2	3	4	5	6	7	8	9	10
1	Ağsu	hava. t-u	3,3	12,3	25,4	15,5	14,1	21,4	6,9
		yağıntı	120	162	84	144	510	229	281
		hava. nis.rüt.	81	73	52	72	70	60	80
		buxarlanma	63	172	528	208	970	785	185
		torpaq. səth.t-u	3,3	16,0	31,7	17,3	17,0	26,7	7,5
2	İsmayıllı	hava. t-u	2,3	9,5	21,5	11,9	10,8	17,8	5,4
		yağıntı	147	249	170	234	800	424	376
		hava. nis.rüt.	81	75	59	78	74	65	82
		buxarlanma	65	156	390	151	762	596	166
		torpaq. səth.t-u	0,3	12,0	26,7	13,3	14,0	22	4,2
3	Şamaxı	hava. t-u	0,6	9,3	22,1	12,2	11,1	18,2	4,0
		yağıntı	130	186	105	170	591	275	316
		hava. nis.rüt.	81	75	52	76	71	60	81
		buxarlanma	68	160	452	166	845	674	171
		torpaq. səth.t-u	1,0	12,3	27,3	14,0	14,0	22,5	4,8
4	Mərəzə	hava. t-u	4,5	8,7	21,5	11,5	10,5	17,5	3,4
		yağıntı	96	117	60	106	379	162	217
		hava. nis.rüt.	85	75	52	78	72	61	84
		buxarlanma	75	170	457	170	872	690	182
		torpaq. səth.t-u	0,3	10,7	25,7	16,0	12,0	20,8	4,2


* yağıntı və buxarlanma mm-lə, havanın aylıq və torpaq səthinin temperaturu dərəcə ilə, havanın nisbi rütubəti %-lə göstərilmişdir.

Cədvəl 119




Şəkil 583

Cədvəl 119.1




Şəkil 584

Cədvəl 119.2




Şəkil 585

Cədvəl 119.3


Ağsu
Səth örtüyündən buxarlanma (mm)
970
785
528
208
63
172
185
İsmayıllı
762
596
390
156
151
65
166
Mərəzə
872
690
457
170
170
75
182
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 586

Cədvəl 119.4


Ağsu
Torpaq səthinin orta temperaturu C⁰
31.7
26.
17.3
17.0
16.0
7.5
3.3
İsmayıllı
26.7
22.
13.3
14.0
12.0
4.2
0.3
Mərəzə
25.7
20.
16.0
12.0
10.7
4.2
0.3
Qış
Yay
İllik
Soyuq dövr
Yaz
Payız
İsti dövr
Şəkil 587

miqdarı 217-376 mm arasında dəyişir. Yalnız İsmayıllı rayonunun dağlıq hissəsində ilin isti dövründə yağıntının miqdarı bir qədər çoxdur (424 mm). Havanın nisbi rütubətliyi də müvafiq qaydada bölgənin ayrı-ayrı yerlərində müxtəlifdir. Ərazidə illik nisbi rütubətlik 70-74% arasında dəyişir. İlin soyuq dövründə nisbi rütubətlilik 80-84%, isti dövrdə isə 60-65% arasında tərəddüd edir. Eləcə də havanın nisbi rütubətliliyinin dəyişməsi ayrı-ayrı fəsillər üzrə də müxtəlifdir. Mümkün səthi buxarlanmanın illik miqdarı dağlıq hissəsinin qərbində 762 mm (İsmayıllı qəs.) olduğu halda, şimal-şərqdə (Mərəzə) 872 mm-ə qədər artır. Dağətəyi düzənlikdə isə (Ağsu ş.) 970 mm-ə qədər yüksəlir. Fəsillər üzrə mümkün buxarlanmanın miqdarı çox müxtəlifdir. İlin soyuq dövründə ərazidə mümkün buxarlanmanın miqdarı 166-185 mm, isti dövrdə isə 596-785 mm arasında dəyişməsi ilə xarakterizə olunur.

Torpaq səthinin temperaturu havanın temperatur göstəriciləri ilə üzvi surətdə əlaqəli olduğundan uyğun şəkildə dəyişikliklərlə müşayiət olunur. Dağlıq hissədə torpaq səthində orta illik temperatur 12-14^0, dağətəyi düzənlikdə 17^0-yə qədər yüksəlir. Qış fəslində torpaq səthinin temperaturu dağlıq hissədə 0,3-1,0 arasında dəyişdiyi halda, (İsmayıllı-Şamaxı ş.) dağətəyi düzənlikdə bu göstərici 3,3^0 təşkil edir.

Bölgənin özünəməxsus iqlim şəraiti onun bitki və torpaq örtüyünün formalaşmasında da öz həlledici təsirini göstərmişdir. Belə ki, bölgənin dağətəyi düzənlikdə, əsasən yovşanlı və yovşanlı şoranlı yarımsəhra bitkiləri yayılmışdır. Dağlıq hissədə meşə, meşə-kserofit kolluqlar, bozqır ot bitkiliyi, yüksək dağlıq zonada isə subalp, alp çəmənləri və xalıları, dağlıq hissədə çılpaq qayalıq və ovuntu bitkiliyi də üstünlük təşkil edir. Ərazinin cənub-şərq hissəsində isə dağ-kserofit bitkiliyi, alçaq boylu tikanlı kserofit kolluq; ağot, topallı-müxtəlif otlu və xırda kollu bozqırlarla yanaşı, yovşanlı-şoranlı şorakətli yarımsəhra bitkiləri ilə əvəz olunur. Ərazidə palıd və vələs meşələri ilə yanaşı, mezofil fıstıq meşələri də geniş yayılmışdır. Beləliklə, ərazinin bitki örtüyünün müxtəlifliyi onun torpaq

örtüyünün müxtəlifliyinə də səbəb olmuşdur.


Bölgənin dağlıq hissəsində palogen, neogen, düzənlik hissəsində isə antropogen çöküntülərin aşınmış müxtəlif çeşidli materialları üzərində formalaşan torpaq örtüyünün tərkibini təşkil edən müxtəlif tip və yarımtiplər yayılmışdır (xəritə-sxem 9).

Bölgənin torpaq ehtiyatlarının 428 min ha (69,8%) dağlıq və 185,0 min ha (30,2%) isə dağətəyi düzənlikdə yayılmışdır. Dağ-şabalıdı torpaqların torpaq ehtiyatlarının 174,2 min hektarını (28,4%) əhatə edir (kont. 19, 20).


Meşə torpaqları bölgənin ümumi torpaq fondunun 20,6%-ni (126,5 min ha) əhatə edir ki, bunun 11,6%-ni qəhvəyi dağmeşə torpaqlarının tip və yarımtipləri tutur. Qonur, dağ-meşə torpaqlarının tutduğu sahə isə 55,2 min ha (9,0%) çatır. Yay otlaq sahələri kimi istifadə olunan dağ-çəmən torpaqların sahəsi 34,7 min ha-dır (5,7%). Ərazidə potensial münbitliyi ilə səciyyələnən dağ qara torpaq tip və yarımtipləri dağ torpaqlarının 4,7%-nə və ümumi torpaq ehtiyatlarının 20,0 min hektarına bərabərdir. Dağətəyi düzənlikdə əsasən şabalıdı torpaqların müxtəlif xassəli tip və yarımtipləri də yayılmışdır. Becərilən torpaqların əsasını təşkil edən boz torpaqların (kont. 28, 30, 31) sahəsi 49,7 min hektara (8,1%) çatır. Çay vadilərində yayılmış allüvial-çəmən torpaqların sahəsi 49,3 min hektara (8,0%) olmaqla məhsuldar torpaqlar kimi səciyyələnir (kont. 36).

Ərazidə ləkələr şəklində yayılmış çəmən-meşə torpaqlarının ümumi sahəsi 16,6 min ha (2,7%) təşkil edir. Beləliklə, bölgənin torpaq örtüyünün tərkibini təşkil edən müxtəlif tip və yarımtiplər onun kənd təsərrüfatına yararlı ümumi torpaq

DAĞLIQ-ŞİRVAN BÖLGƏSİNİN TORPAQ XƏRİTƏ-SXEMİ
1 : 600 000



Xerite-sxem 10


Torpaqlar
1 İbtidai və torflu dağ-çəmən
2 Çimli dağ-çəmən
6 Tipik qonur dağ-meşə
7 Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə
12 Yuyulmuş qəhvəyi dağ-meşə
13 Tipik qəhvəyi dağ-meşə
14 Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə
15 Yuyulmuş və tipik dağ-qara
16 Karbonatlı dağ-qara
17 Tünd və adi dağ boz-qəhvəyi
19 Tünd və adi dağ-şabalıdı
20 Qismən çürüntülü-sulfatlı (əhənkli) və tam inkişaf etməmiş dağ-şabalıdı
21 Tipik və karbonatlı çəmən-qəhvəyi
24 Tünd və adi şabalıdı
25 Qismən qalıq şoranlaşmış açıq şabalıdı
26 Çürüntülü-sulfatlı (əhəngli) şabalıdı
28 Tünd boz
30 Açıq və ibtidai boz
31 Çəmən-boz
35 Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə
36 Subasar allüvial-çəmən
44 Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar
Qranulometrik tərkib
Gilli
Ağır gilliçəli
Orta gilliçəli
Yüngül gilliçəli
Qumsal
Qumlu
Şorlaşma
Şorlaşmayan
Zəif şorlaşmış
Orta şorlaşmış
Şiddətli şorlaşmış
Eroziyaya uğrama
Eroziyaya uğramayan
V Zəif eroziyalı
N Orta eroziyalı
W Şiddətli eroziyalı
Suvarılan torpaqlar
Rayonların inzibati sərhəddi
Baş suvarma kanalı

ehtiyatının əsasını təşkil edir (cədvəl 120, şəkil 588).


Cədvəl 120

Bölgənin torpaq örtüyünün tərkibi

Kontur №-si	Tip və yarımtiplər	Sahə	
		ha	%
1	2	3	4
1	İbtidai və torflu dağ-çəmən	13281	2,2
2	Çimli dağ-çəmən	21424	3,5
6	Tipik qonur dağ-meşə	54114	8,7
7	Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə	1126	0,2
12	Yuyulmuş qəhvəyi dağ-meşə	30558	5,0
13	Tipik qəhvəyi dağ-meşə	27962	4,5
14	Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə	12747	2,1
15	Yuyulmuş və tipik dağ-qara	7913	1,3
16	Karbonatlı dağ-qara	12039	2,0
17	Tünd və adi dağ boz-qəhvəyi	32547	5,3
18	Açıq dağ boz-qəhvəyi	21506	3,5
19	Tünd və adi dağ şabalıdı	121266	19,8
20	Qismən çürüntülü-sulfatlı (əhəngli) və tam inkişaf etməmiş dağ şabalıdı	52955	8,6
21	Tipik və karbonatlı çəmən qəhvəyi	23194	3,8
24	Tünd və adi şabalıdı	26361	4,3
25	Qismən qalıq şoranlaşmış açıq şabalıdı	7196	1,2
26	Çürüntülü sulfatlı (əhəngli) şabalıdı	12675	2,1
28	Tünd boz	27405	4,5
30	Açıq və ibtidai boz	8849	1,5
31	Çəmən-boz	13414	2,2
35	Yuyulmuş və karbonatlı (tuqay) çəmən-meşə	16627	2,7
36	Subasar-allüvial çəmən	49308	8,0
44	Çılpaq qayalıqlar və səthə çıxmış müxtəlif süxurlar	18559	3,0
	Cəmi	**613026 7,1**	**100**

Cədvəl 120

Bölgənin torpaq örtüyünün tərkibi (ha/%)



Bölgənin ümumi torpaq ehtiyatlarının hazırda kənd təsərrüfatında istifadə edilən kənd təsərrüfatına yararlı torpaqları 376,8 min hektara (61,5%) çatır. Bunun 141,3 min hektarı (37,5%) əkin və dincə qoyulmuş, 9,2 min hektarını (2,5%) çoxillik əkmələr becərilən torpaqlardır. Ərazinin xeyli hissəsi, yəni təqribən 212,5 min hektarı və yaxud ümumi yararlı torpaqların 57,1%-i örüş və otlaq torpaqları təşkil edir. Sahəcə çox məhdud ərazilərdə biçənək torpaqlarına (4,6 min ha) rast gəlmək mümkündür. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqlar ümumi yararlı torpaq ehtiyatının 2,5%-nə bərabərdir (9,2 min ha). Kənd təsərrüfatı dövriyyəsində istifadə olunan torpaqların 52,8 min hektarı (14,2%) suvarılan sahələrdir (cədvəl 121, şəkil 589-594).

Cədvəl 121

Bölgənin ümumi torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çox-illik əkmə-lər	Biçə-nək	Örüş və otlaqlar	Hə-yət-yanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Ağsu	102006 16,6	36238 46,2	3592 4,6	497 0,6	35425 45,2	2691 3,4	78443 76,9	3108 3,0	20455 20,1
	o.c.suv.	37071 70,2	31662 85,4	3264 8,8	70 0,2	78 0,2	1997 5,4	37071 46,7	-	-
2	Qobustan	136938 22,3	33917 40,0	1105 1,3	-	49483 58,3	337 0,4	84842 61,9	242 0,2	51854 37,9
3	İsmayıllı	207372 33,8	37184 38,9	1325 1,4	2493 2,6	50751 53,1	3854 4,0	95607 46,1	66799 32,2	44966 21,7
	o.c.suv	8833 16,7	6563 74,0	311 3,5	57 0,6	1341 15,2	533 6,2	8805 8,9	28 0,04	-
4	Şamaxı	166710 27,3	33974 28,7	3145 2,7	1634 1,4	76815 65,2	2309 2,6	117877 70,7	11447 6,9	37386 22,4
	o.c.suv	6870 13,1	5544 80,7	1326 19,3	-	-	-	6870 5,0	-	-
	Cəmi	**613026 7,1**	**141313 37,5**	**9167 2,5**	**4624 1,2**	**212474 57,1**	**9191 2,5**	**376769 61,5**	**81596 13,3**	**154661 25,2**
	o.c.suv.	**52774 3,7**	**43769 83,0**	**4901 9,3**	**127 0,2**	**1419 2,7**	**2530 4,8**	**52746 14,0**	**28 0,03**	-

Bölgədə suvarılan sahələrin 83%-ə qədəri, yəni 43,8 min hektarı əkinaltı torpaqların payına düşür. Sahə etibarilə ikinci suvarılan sahələrə çoxillik əkmələr becərilən torpaqlar (4,9 min ha) daxildir.

Ərazidə suvarılan sahələrin 37,1 min hektarı (70,2%) Ağsu rayonunda cəmlənmişdir. Şamaxı və İsmayıllı rayonlarında suvarılan sahələr müvafiq olaraq 6,9 və 8,8 min hektar və yaxud 13,1 və 16,7%-ni təşkil edir. Bölgənin ümumi torpaq fondunun 81,6 min hektarı (13,3%) meşəaltı torpaqlardan ibarətdir. Bunun əsas hissəsi, yəni 66,8 min hektarı (32,2%) İsmayıllı və 6,9%-i (11,5 min ha) Şamaxı rayonu ərazisində yayılmışdır.

Cədvəl 121


Bölgənin ümumi torpaq fondunun rayonlar üzrə paylanma strukturu (ha/%)



Şəkil 589

Cədvəl 121.1


Bölgənin ümumi torpaq fondunun əsas tərkib hissəsi strukturu (ha/%)



Şəkil 590

Cədvəl 121.2


Bölgənin kənd təsərrüfatında istifadə olunan dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 591

Cədvəl 121.3


Bölgənin yararlı torpaq fondunun kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 592

Cədvəl 121.4


Bölgənin ümumi suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 593

Cədvəl 121.5

Bölgəsinin ümumi suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 594

Ən az meşə torpaqları sahələrinə Ağsu (3,1 min ha) və Qobustan (0,2 min ha) rayonları ərazisində rast gəlinir.

Kənd təsərrüfatında istifadə olunmayan sair torpaq sahələrinin tərkib hissəsini təşkil edən az yararlı və şərti yararsız torpaqlar rayonlar üzrə ümumi torpaq fondunun təqribən 20,1-37,9%-nə bərabərdir. Ayrı-ayrı rayonlarda bu göstəricilər müxtəlif olsa da, bölgənin ümumi torpaq fondunun 154,7 min hektarını (25,2%) əhatə edir.

Torpaq ehtiyatlarının uzunmüddətli istifadəsi nəticəsində baş verən təbii və antropogen proseslər onun təbii münbitliyinin, başqa sözlə desək, torpağın keyfiyyətinin köklü şəkildə əsasən pisləşməyə doğru dəyişməsi ilə müşayiət olunduğunu torpaqların keyfiyyət qrupları üzrə paylanma dinamikası cədvəllərində (cədvəl 122, şəkil 595-600) verilmiş rəqəmlərdən aydın görmək mümkündür.

Hazırda kənd təsərrüfatı dövriyyəsində istifadə olunan torpaqların olduqca az bir hissəsi, yəni cəminin 7,1%-i (26,7 min ha) öz əvvəlki yüksək keyfiyyətli münbitlik xassəsini (I keyfiyyət qrupunda) qoruyub saxlaya bilmişdir. Bunun 6,4 min hektarı əkin və 7,3 min hektarı isə kəndyanı örüş torpaqlarının payına düşür ki, bu da olduqca azdır. Həyətyanı torpaqlar bir qayda olaraq I keyfiyyət qrupuna daxil edildiyindən bu qrupda göstərilən digər torpaq sahələrinin xüsusi çəkisini bir qədər azaldır. Əslində isə həyətyanı torpaqlarsız I keyfiyyət qrupu 17,5 min hektara bərabərdir. Bu da ümumi yüksək keyfiyyətli torpaqların 65,5%-i deməkdir. Yaxşı keyfiyyət qrupunda yararlı torpaqların 29,6%-i və ya 111,6 min hektarı (cəmə görə) yer tutur. Yararlı torpaqların əsas kütləsinin, yəni 40,6%-nin (152,9 min ha) orta keyfiyyətli qrupa transfer olunmasından aydın olur ki, hazırda müxtəlif təsərrüfat sahələri altında istifadə edilən torpaqlarda güclü tənəzzül prosesi baş verməkdədir. Hal-hazırda kənd təsərrüfatı dövriyyəsində istifadə edilən 75,9 min hektaradək torpaq sahəsinin aşağı keyfiyyət qrupunda yer tutması və eləcə də 9,8 min hektarın (2,6%) yararsız torpaqlara çevrilməsi təsərrüfat sahələrində ciddi şəkil aldığını bir daha göstərir.


Cədvəl 122

Bölgənin ümumi kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları üzrə paylanması (ha/%)

Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
							kəndyanı	qış	yay	
	100-81	I	6363 23,9	507 1,9	475 1,8	9191 34,5	7258 27,2	878 3,3	1993 7,5	26665 7,1
	80-61	II	61004 54,7	4584 4,1	2237 2,0	-	34209 30,7	3515 3,2	6009 5,4	111558 29,6
	60-41	III	57955 37,9	3978 2,6	1704 1,1	-	67054 43,9	12484 8,2	9693 6,3	152868 40,6
	40-21	IV	15989 21,1	98 0,1	208 0,3	-	39094 51,5	17140 22,6	3362 4,4	75891 20,1
	20-1	V	2 0,00	-	-		3711 37,9	5746 58,7	328 3,4	9787 2,6
613026 7,3	**100-1**	**I-V**	**141313 37,5**	**9167 2,4**	**4624 1,2**	**9191 2,4**	**151326 40,2**	**39763 10,5**	**21385 5,8**	**376769 61,5**

Cədvəl 122


Bölgənin kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları üzrə paylanması (ha/%)



Şəkil 595

Cədvəl 122.1


I keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 596

Cədvəl 122.2


II keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 597

Cədvəl 122.3


III keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 598

Cədvəl 122.4


IV keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 599

Cədvəl 122.5

V keyfiyyət qrupu üzrə paylanmış kənd təsərrüfatı sahələri (ha/%)



Şəkil 600

Müxtəlif təsərrüfat sahələri altında istifadə edilən torpaqlarda transferlik dinamikası bir-birindən xeyli fərqlidir. Məsələn, əkin və dincə qoyulmuş 141,3 min ha torpaq sahəsinin 41,0%-nin (58,0 min ha) III və 11,3%-nin (16,0 min ha) IV keyfiyyət qrupunda yer tutduğu halda, ümumi sahəsi təqribən eyni olan (151,3 min hektar) kəndyanı örüş torpaqlarında III və IV keyfiyyət qrupunda həmin göstəriciləri xeyli yüksəkdir (III – 44,3% IV – 25,8%). Hətta kəndyanı örüş torpaqlarının 2,5%-i (3,7 min hektar) yararsız torpaq sahəsində yer almışdır. Bu bir daha göstərir ki, uzunmüddətli istismar nəticəsində örüş torpaqlarının təbii münbitliyinin itirilməsi prosesi daha intensiv getdiyindən III, IV və hətta V keyfiyyət qrupuna transferlik güclənmişdir. Bölgənin ayrı-ayrı rayonlarının yararlı torpaq ehtiyatlarının keyfiyyət qrupları üzrə paylanmasında da oxşar qanunauyğunluq müşahidə edilir (cədvəl 123).

Məs. Qobustan rayonunun kənd təsərrüfatı dövriyyəsində istifadə olunan torpaqlarının əsas hissəsi orta keyfiyyətli (IV) qrupda yer tutmuşdur (34,2 min hektarı və yaxud 40,3%-i). Belə hallar örüş və otlaq torpaqlarında özünü daha qabarıq şəkildə büruzə verir. Hətta bu torpaqlarda aşağı keyfiyyətli qrupa transferlik göstəricisi V keyfiyyət qrupu da daxil olmaqla 0,2-55,3% arasında çox geniş intervalda dəyişir.

Şamaxı rayonunun örüş və otlaq torpaqlarında aşağı keyfiyyət qrupunda transferlik 2,7-2,9% təşkil etdiyi halda, Qobustanın eyni növ təsərrüfat sahələrinin torpaqlarında həmin göstəricilər 7,3-8,4% arasında dəyişir. Ümumiyyətlə, bölgənin kənd təsərrüfatında istifadə edilən torpaqlarında transferlik dinamikası çox intensiv getdiyindən Qobustan rayonu ərazisində əkin və çoxillik əkmələr altında becərilən torpaqların bütünlüklə I keyfiyyət qrupundan II, III, IV və V keyfiyyət qruplarında yer alması yüksək dinamiklik olduğunu bir daha təsdiq edir.

Torpaq münbitliyinin itirilməsinə təsir göstərən mənfi proseslərin vaxtında qarşısını almaq üçün təsirli tədbirlər görülməzsə, yaxın gələcəkdə I keyfiyyət qruplarında yer tutmuş tə-

Cədvəl 123

Bölgənin rayonlarında kənd təsərrüfatı sahələrinin keyfiyyət qrupları üzrə paylanması (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Key-fiyyət qrupu	Kənd təsərrüfatı sahələri							Cəmi
					Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətya-nı	Örüş və otlaqlar			
									kəndyanı	qış	yay	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Ağsu		100-81	I	395 1,1	189 5,3	280 36,1	2691 59,5	968 2,7	-	-	4523 5,7
			80-61	II	9079 25,1	1504 41,9	327 42,2	-	9962 28,1	-	-	20872 26,5
			60-41	III	21409 59,1	1862 51,8	92 11,9	-	15496 43,7	-	-	38859 49,4
			40-21	IV	-	-	76 9,8	-	8999 25,4	-	-	14467 18,4
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**102006 16,6**	**100-1**	**I-V**	**36238 46,2**	**3592 4,6**	**497 0,6**	**2691 3,4**	**35425 45,0**	-	-	**78721 77,2**
2	Qobustan		100-81	I	-	-	-	337 87,5	32 0,1	16 0,01	-	385 0,4
			80-61	II	10480 30,9	243 22,0	-	-	1963 5,7	680 4,5	-	13366 15,7
			60-41	III	14687 43,3	810 73,3	-	-	12644 36,6	5000 33,5	-	33139 39,1
			40-21	IV	8748 25,8	52 4,7	-	-	17375 50,3	7988 53,5	-	34166 40,3
			20-1	V	2 0,0	-	-	-	2540 7,3	1246 8,4	-	3786 4,5
	Cəmi	**136938 22,3**	**100-1**	**I-V**	**33917 40,0**	**1105 1,3**	-	**337 0,4**	**34553 40,7**	**14930 17,6**	-	**84842 64,9**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
3	İsmayıllı		100-81	I	3793 10,2	215 16,2	248 10,0	3854 29,6	3794 9,7	271 9,7	1124 9,7	13028 13,6
			80-61	II	24356 65,5	786 59,3	1656 66,4	-	10037 25,7	-	2957 25,4	39792 41,6
			60-41	III	7250 19,5	315 23,8	473 19,0	-	21744 55,6	-	6473 55,6	36255 37,9
			40-21	IV	1785 4,8	9 0,7	116 4,6	-	3560 9,1	-	1059 9,1	6529 6,8
			20-1	V	-	-	-	-	84 0,2	6 0,2	23 0,2	23 0,02
	Cəmi	**207372 33,8**	**100-1**	**I-V**	**37184 38,9**	**1325 1,4**	**2493 2,6**	**3854 4,0**	**39115 40,9**	**-**	**11636 12,2**	**95607 46,1**
4	Şamaxı		100-81	I	2175 6,4	103 3,3	225 13,8	2309 25,6	2664 5,8	862 3,5	869 8,9	9007 7,6
			80-61	II	17089 50,3	2051 65,2	254 15,5	-	12247 29,0	2835 11,4	3052 31,3	37528 31,8
			60-41	III	14609 43,0	991 31,5	1155 70,7	-	17190 40,7	7484 30,1	3220 33,0	44649 37,9
			40-21	IV	101 0,3	-	-	-	9161 21,7	9152 36,8	2303 23,6	20717 17,6
			20-1	V	-	-	-	-	1170 2,7	723 2,9	283 2,9	2176 1,8
	Cəmi	**166710 27,3**	**100-1**	**I-V**	**33974 28,6**	**3145 2,6**	**1634 1,4**	**2309 2,0**	**42233**	**24833 21,1**	**9749 8,2**	**117877 70,7**

sərrüfat sahələrinin tədricən itiriləcəyi və onların büsbütün III→IV və hətta V keyfiyyət qrupun transfer olacağı cəmləşəcəyi şübhə doğurmur.

Torpağın münbitliyinin pisləşməsinə təsir göstərən səbəblərdən biri də ərazinin meliorativ vəziyyətidir. Bölgədə torpaqların meliorativ vəziyyəti qrunt sularının yatım dərinliyinə görə qiymətləndirilərkən məlum olmuşdur ki, suvarılan sahələrin 3,7 min hektarında (7,1%) qrunt sularının təhlükəli dərinlikdə, yəni 1 m-dən az, 36,1 min hektarda isə 1,0-3,0 m dərinlikdə yerləşmişdir. Qalan 12,9 min hektar (24,5%) suvarılan torpaqlarda isə qrunt sularının yatım dərinliyi 3,0 m-dən aşağıda yerləşir (cədvəl 124, şəkil 601-603). Suvarılan torpaqların 11,4 min hektarında (21,6%) qrunt sularının mineral-laşma dərəcəsi 1,0 q/l-dən az, 10,8 min hektarında isə 1,0-3,0 q/l arasında dəyişir. Suvarılan sahələrin 30,6 min hektarında (58,0%) qrunt sularının minerallaşma dərəcəsi 3,0 q/l-dən artıqdır.


Cədvəl 124

Bölgənin ümumi suvarılan torpaqlarının meliorativ vəziyyətinə dair bəzi göstəriciləri (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (m-lə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3									
1	Ağsu	37071 70,2	3531 9,5	30737 48,0	2803 7,6	693 1,9	6462 17,4	29916 80,7	1183 3,2	23946 64,6	11942 32,2
2	İsmayıllı	8833 16,7	200 2,3	953 10,8	7680 87,5	4090 46,3	4130 46,8	613 6,9	3007 34,0	4800 54,3	1026 11,6
3	Şamaxı	6870 13,1	-	4400 64,0	2470 35,6	6600 96,1	170 2,5	100 4,6	3900 56,8	2970 43,2	-
	Cəmi	**52774** **3,7**	**3731** **7,1**	**36090** **68,4**	**12953** **24,5**	**11383** **21,6**	**10762** **20,4**	**30629** **58,0**	**8090** **15,3**	**31716** **60,1**	**12968** **24,6**

Cədvəl 124


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 601

Cədvəl 124.1


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 602

Cədvəl 124.2

Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə ərazidə qiymətləndirilməsi (ha/%)



yaxşı | kafi | qeyri-kafi

Şəkil 603

Beləliklə, müəyyən edilmişdir ki, bölgədə suvarılan torpaqların 8,1 min hektarı (15,3%) qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə yaxşı, 31,7 min hektarı (60,1%) kafi və təqribən 13,0 min hektarının (24,6%) meliorativ vəziyyəti qeyri-kafidir. Ayrı-ayrı rayonlarda meliorativ vəziyyəti əks etdirən göstəricilər müxtəlif intervalda dəyişir.

Bu rayonlarda suvarılan torpaqların 17,4%-ində (6,4 min ha) qrunt sularının minerallaşma dərəcəsi qismən təhlükəli (1-3,0 q/l), yalnız 1,9%-ində (0,7 min ha) minerallaşma dərəcəsi təhlükəsizdir (1,0 q/l-dən azdır).

Torpaqların şorlaşma vəziyyətinə dair məlumatlardan (cədvəl 125, şəkil 604-606) görünür ki, ərazidə suvarılan sahələrin 27,7 min hektarı (52,4%) müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır. Şorlaşmış sahələr Ağsu rayonu ərazisində daha geniş yayılmışdır.

Cədvəl 125

Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma və drenləşmə durumu (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi					Drenləşmiş sahələr	
			şorlaş-mayan	cəmi şorlaş-mış	o cümlədən			cəmi	o cüm. qapalı üfüqi
					zəif	orta	şid-dətli		
1	2	3	4	5	6	7	8	9	10
1	Ağsu	37071 70,2	12217 33,0	24854 67,0	12233 49,2	8635 34,7	3986 16,1	20012 54,0	20012 54,0
2	İsmayıllı	8833 16,7	6220 70,4	2613 29,6	1000 38,3	1413 54,1	200 7,6	3610 40,9	3600 40,8
3	Şamaxı	6870 13,1	6670 97,1	200 2,9	200 2,9	-	-	-	-
	Cəmi:	**52774 3,7**	**25107 47,6**	**27667 52,4**	**13433 48,6**	**10048 36,3**	**4186 15,1**	**23622 44,8**	**23612 44,7**

Burada suvarılan sahələrin 67,0%-ni (24,8 min ha) şorlaşmış sahələr təşkil edir. Şorlaşmış sahələrin 16,1%-i (4,0 min ha) yüksək və 34,7%-i isə (8,6 min ha) orta və 49,2%-i isə (12,2 min ha) zəif şorlaşmış torpaqlardan ibarətdir. Bölgə üzrə suvarılan torpaqların 19,0%-i (110,0 min ha) orta və 7,9%-i (4,2 min ha) şiddətli dərəcədə şorlaşmış sahələrdir. Suvarılan sahələrin 44,8%-ində (23,6 min ha) qapalı üfüqi drenlər inşa edilmişdir.

Müşahidələr göstərir ki, bölgədə aparılmış mövcud meliorativ tədbirlər qənaətbəxş vəziyyətdə deyildir. Odur ki, Ağsu rayonunda suvarılan torpaq sahələrinin 54%-nin (20,0 min ha) drenləşdirilməsinə baxmayaraq, ərazidə orta və yüksək şorlaşmaya məruz qalmış sahələrin çəkisi çox böyükdür, onların bir qisminin əsaslı yuyulması, digər hissəsində təsirli suvarmanın aparılması dren-kollektor şəbəkələrinin texniki vəziyyətinin yaxşılaşdırılması tələb olunur.

Cədvəl 125


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)



Şəkil 604

Cədvəl 125.1


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 605

Cədvəl 125.2

Bölgənin ümumi suvarılan torpaqlarının drenləşmə durumu (ha/%)



Şübhəsiz ki, bu tədbirlərin vaxtında həyata keçirilməməsinin nəticəsi olaraq torpaqlarda şorlaşma və şorakətləşmənin arealı genişlənmişdir. Bu da öz növbəsində kənd təsərrüfatı sahələri altında istifadə olunan torpaqların keyfiyyətinin kəskin şəkildə pisləşməsi ilə müşayiət olunmuşdur.

Kənd təsərrüfatı dövriyyəsində uzunmüddətli istifadə edilən torpaqlarda təbii münbitliyin pisləşməsinə təsir göstərən və böyük dağıdıcı gücə malik olan eroziya prosesidir. Bölgədə torpaq ehtiyatlarının 63,0%-ə qədəri, yəni 385,9 min ha bu və ya digər dərəcədə eroziyaya uğramış sahələrdən ibarətdir (cədvəl 126, şəkil 607 və 608). Bunun 46,9%-i (180,9 min ha) şiddətli, 23,8%-i (91,8 min ha) orta və 29,3%-i (113,2 min ha) isə zəif dərəcədə eroziyaya uğramış torpaqlardır. Bölgədə Qobustan rayonunda torpaq örtüyü ən çox eroziyaya uğramışdır. Ümumiyyətlə, Qobustan rayonunda torpaq ehtiyatlarının 92,3%-ə qədəri (126,4 min ha) müxtəlif dərəcədə eroziyaya uğramış torpaqlardır. Eroziyalı sahələrin 67,9%-i (85,8 min ha) şiddətli eroziyaya məruz qalmış torpaqlardır. Şamaxı ra-

Cədvəl 126

Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)


S/s	Rayonlar	Ümumi sahə	Eroziya dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Ağsu	102006 16,6	62844 61,6	39162 38,4	13765 35,1	8562 21,9	16835 42,9
2	Qobustan	136938 22,3	10570 7,7	126368 92,3	7194 5,7	33414 26,4	85760 67,9
3	İsmayıllı	207372 33,8	80562 38,9	126810 61,1	55465 43,7	28130 22,2	43215 34,1
4	Şamaxı	166710 27,3	73158 43,9	93552 56,1	36755 39,3	21672 23,2	35125 37,5
	Cəmi	**613026 7,1**	**227134 37,0**	**385892 63,0**	**113179 29,3**	**91778 23,8**	**180935 46,9**
Dağ-çəmən zonası torpaqlarının eroziya durumu							
	İsmayıllı - Şamaxı	34705 9,3	7199 20,9	27166 79,1	9815 36,1	9403 34,6	7948 29,3
Dağ-meşə zonası torpaqlarının eroziya durumu							
	İsmayıllı-Şamaxı	78246 9,3	48389 61,8	29857 38,2	12665 42,4	9630 32,2	7562 15,3
Bozqır zonası torpaqlarının eroziya durumu							
	İsmayıllı-Şamaxı	157032 42,0	64667 41,2	92365 58,8	43209 46,8	27782 30,1	21374 31,6

yonu ərazisində yayılmış torpaqların təqribən 56,1%-də (93,5 min ha) və İsmayıllı rayonunda isə 61,1%-də (126,8 min ha) eroziya prosesi tuğyan edir. Hazırda bölgənin torpaq örtüyünün ancaq 37,0%-i (227,1 min ha) eroziya prosesinin dağıdıcı təsir dairəsindən hələlik kənarda qalmışdır.

Bölgənin dağ-çəmən zonasında yayılmış torpaqlarında eroziyaya uğramış sahələr daha yüksək olub, 79,1% təşkil edir. Bunun da 50%-dən çox hissəsi orta və şiddətli eroziyalı sahələrdən ibarətdir. İsmayıllı və Şamaxı rayonlarının dağ-meşə zonasında çəmən zonasına nisbətən eroziya prosesinin intensivliyində zəifləmə müşahidə edilir. Burada eroziyalı tor-

Cədvəl 126


Bölgənin torpaq ehtiyatlarının eroziyalıq durumu (ha/%)



Şəkil 607

Cədvəl 126.1

Bölgənin ümumi torpaq ehtiyatlarının eroziyalıq dərəcəsi (ha/%)



Şəkil 608

paqlar 38,2%-ə çatır (29,9 min ha). Eroziyaya uğramış torpaqların 15,3%-i (7,6 min ha) şiddətli və 32,2%-i isə (9,6 min ha) orta dərəcədə eroziyaya məruz qalmış sahələrdir. Bozqır zonası torpaqlarında yenidən eroziya prosesinin fəallaşması baş verdiyindən eroziyaya uğrama göstəricisi 58,8%-ə qədər yüksəlir. Eləcə də müvafiq şəkildə orta və şiddətli (31,3%) eroziyaya uğramış sahələrin arealı genişlənməyə başlayır. Ümumiyyətlə, Dağlıq Şirvanda torpaqlar qonşu Şəki-Zaqatala bölgəsinə nisbətən daha intensiv eroziya prosesinə və sel hadisələrinə məruz qalmış bölgə sayılır. Bu da irəlidə vurğuladığımız kimi kənd təsərrüfatı sahələri altında istifadə edilən torpaqların keyfiyyətinin pisləşməsinə gətirib çıxarmışdır.

Dövlət proqramında bu məqsədlə Ağsu, Axaxçay və Girdman çaylarında sel suları ilə mübarizənin gücləndirilməsi üçün sahilbərkidici tədbirlərin həyata keçirilməsinə başlanmışdır. Bundan başqa, İsmayıllı rayonu ərazisində 700 hektar torpaq sahəsinin meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün müvafiq işlər icra ediləcəkdir. Şübhəsiz ki, növbəti dövlət proqramında bölgənin kənd təsərrüfatında istifadə olunan torpaqlarının mövcud meliorativ durumunun yaxşılaşdırılması üçün daha geniş miqyaslı meliorant işləri aparılacaqdır.

Ölkədə həyata keçirilən torpaq islahatı zamanı bölgənin ümumi torpaq fondu 3 dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarına bölünərək istifadəçiliyi təmin edilmişdir (cədvəl 127, şəkil 609 və 610).

Hazırda bölgənin ümumi torpaq fondunu təşkil edən 613,0 min ha torpaq sahəsinin 242,4 min hektarı (39,6%) dövlət mülkiyyətində saxlanmışdır. Torpaq fondunun 220,4 mina ha-ı (36,6%) bələdiyyə mülkiyyətinin istifadəsinə verilmişdir. Ümumi torpaq fondunun qalan və ancaq kənd təsərrüfatına yararlı 150,2 min hektarı (24,5%) özəlləşdirlərək, burada məskunlaşan və torpaq payı almaq hüququ olan ailələrin mülkiyyətinə verilmişdir.


Cədvəl 127

Bölgənin vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış	yay			
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Dövlət	242442 39,5	6385 8,1	621 0,8	103 0,1	-	-	50707 64,0	21385 27,0	79201 32,7	81596 33,7	81645 33,7
	o.c.suv.	690 1,3	568 85,8	16 24	-	-	-	78 11,8	-	662 0,8	28 0,03	-
2	Bələdiyyə	220408 36,0	7566 5,1	32 0,02	438 0,3	508 0,3	140104 94,3	-	-	148648 66,2	-	71760 32,0
	o.c.suv.	3390 6,4	2023 59,7	26 0,8	-	-	1341 39,5	-	-	3390 2,3	-	-
3	Xüsusi	150176 24,5	127362 85,5	8514 5,7	4361 3,0	8683 5,8	-	-	-	148920 99,2	-	1256 0,8
	o.c.suv	48694 92,3	41178 84,6	4859 10,0	127 0,3	2530 5,2	-	-	-	48694 32,7	-	-
	Cəmi	**613026 7,1**	**141313 37,5**	**9167 2,4**	**4902 1,3**	**9191 2,4**	**140104 37,2**	**50707 13,5**	**21385 5,7**	**376769 61,5**	**81596 13,3**	**154661 25,2**
	o.c.suv.	**52774 3,7**	**43769 84,6**	**4901 9,3**	**127 0,2**	**2530 4,8**	**1341 2,5**	**78 0,1**	-	**52746 14,0**	**28 0,03**	-

Cədvəl 127


Bölgənin ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 609

Cədvəl 127.1

Bölgənin ümumi suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 610

1. Dövlət mülkiyyətindəki torpaqlar. Dövlət mülkiyyətində yuxarıda qeyd olunduğu kimi, bölgənin ümumi torpaq fondunun 39,6%-i (242 min ha) saxlanmışdır (cədvəl 128, şəkil 611-616). Dövlət mülkiyyətində saxlanmış torpaqların əsas hissəsini yay və qış otlaqları və meşə fondu torpaqları təşkil edir. Yay və qış otlaq torpaqları dövlət mülkiyyətində saxlanmış yararlı ümumi torpaq ehtiyatlarının 91,0%-nə (72,1 min ha) bərabərdir. Kənd təsərrüfatına yararlı sahələrin 9,0%-ə qədərini (7,0 min ha) əkilib-becərilən torpaqlar tutur. Hazırda kənd təsərrüfatında istifadə olunan torpaqların 0,9%-i (0,7 min ha) suvarılan sahələrdir. Suvarılan torpaqlardan əsasən əkin sahələri kimi istifadə olunur. Meşə torpaqları bölgənin ümumi dövlət fondu torpaqlarının 33,7%-ni (81,6 min ha) əhatə edir. Meşə fondu torpaqları başlıca olaraq İsmayıllı (66,8 min ha) və Şamaxı (11,5 min ha) rayonları ərazisində geniş yayılmışdır.

Bölgənin sair torpaqlarının tərkib hissəsinə daxil edilmiş kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlar ümumi dövlət mülkiyyətində saxlanmış torpaq ehtiyatlarının 33,7%-ni (81,6 min ha) təşkil edir. Gələcəkdə bu torpaq ehtiyatlarının bir hissəsini əsaslı şəkildə yaxşılaşdırmaqla kənd təsərrüfatı dövriyyəsinə cəlb etmək imkanları mövcuddur. Hazırda bölgə əhalisi dövlət mülkiyyətində saxlanmış torpaq ehtiyatlarından geniş istifadə edirlər. Bölgədə torpaq payı almış hər bir ailə orta hesabla 1,75 ha dövlət mülkiyyəti torpaqlarından istifadə etmək imkanına malikdir. Xüsusilə bölgədə qoyunçuluqla məşğul olan ailələr öz ərazilərindəki 72,1 min ha qış və yay otlaq torpaqları ilə yanaşı, hazırda qonşu Aran bölgəsinin Kürdəmir və Sabirabad rayonları, ərazilərində yerləşmiş 28,9 min ha qış otlaq torpaqlarından da istifadə edirlər. Bu isə bölgə üzrə torpaq payı almış hər bir ailənin əlavə 0,64 ha torpaq sahəsindən istifadəsi deməkdir.

Cədvəl 128


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
						qış	yay			
1	2	3	4	5	6	8	9	10	11	12
1	Ağsu	10504 4,3	1206 24,0	141 2,8	1 0,02	3679 73,2	-	5027 47,9	3108 29,6	2369 22,5
	o.c.suv.	662 96,0	568 85,8	16 2,4	-	78 11,8	-	662 13,2	-	-
2	Qobustan	39858 16,4	1322 7,4	-	-	16526 92,6	-	17848 44,8	242 0,6	21768 54,6
3	İsmayıllı	111491 46,0	2108 12,3	461 2,7	66 0,4	2796 16,3	11636 68,3	17067 15,3	66799 59,9	27625 24,8
	o.c.suv	28 4,0	-	-	-	-	-	-	28 0,04	-
4	Şamaxı	80589 33,3	1749 4,5	19 0,05	36 0,1	27706 70,6	9749 24,8	39259 48,0	11447 14,2	29883 37,0
	Cəmi	**242442** **39,6**	**6385** **8,1**	**621** **0,8**	**103** **0,1**	**50707** **64,0**	**21385** **27,0**	**79201** **32,7**	**81596** **33,7**	**81645** **32,6**
	o.c.suv.	**690** **1,3**	**568** **85,8**	**16** **2,4**	-	**78** **11,8**	-	**662** **0,8**	28 0,03	-

Deyilənlərlə yanaşı, bölgənin dövlət mülkiyyətindəki torpaq sahəsi 7,3 min hektara çatan Pirqulu və İsmayıllı qoruqları və eləcə də 34,4 min hektarlıq İsmayıllı yasaqlığından ibarətdir.

Cədvəl 128


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 611

Cədvəl 128.1


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 612

Cədvəl 128.2


Bölgənin dövlət mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 613

Cədvəl 128.3


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 614

Cədvəl 128.4


Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 615

Cədvəl 128.5

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 616

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Bölgənin 4 inzibati rayonu ərazisində fəaliyyət göstərən 201 bələdiyyənin mülkiyyətinə bölgənin ümumi torpaq fondunun 36,0%-i düşür (220,4 min ha) (cədvəl 129, şəkil 608-614). Mülkiyyətə verilmiş torpaq ehtiyatlarının 67,5%-i (148,6 min ha) kənd təsərrüfatına yararlı və 717,6 min hektarı və ya 32,5%-i isə sair torpaqlardan ibarətdir. O cümlədən yararlı torpaqların 2,3%-i (3,4 min ha) suvarılan torpaqlardır. Əkin və dincə qoyulmuş torpaqlar yararlı torpaqların 5,1%-ni (7,6 min ha) əhatə edir. Çoxillik əkmələr altında becərilən torpaq sahəsi 32 hektardır. Bələdiyyə mülkiyyətində əsas torpaq ehtiyatlarını kəndyanı örüş torpaqları təşkil edir. Örüş torpaqları 148,6 min hektar ibarət yaralı torpaq ehtiyatlarının 94,3%-ni (140,1 min ha) tutur.


Cədvəl 129

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Kəndyanı örüş	Həyətyanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Ağsu	52257 23,7	2298 6,7	26 0,1	426 1,2	31468 91,6	136 0,4	34354 65,7	-	17903 34,3
	o.c.suv.	2049 60,4	2023 98,7	26 1,3	-	-	-	2049 6,0	-	-
2	Qobustan	64155 29,1	1595 4,6	-	-	32957 95,4	-	34552 53,9	-	29603 46,1
3	İsmayıllı	55540 25,2	2038 5,3	6 0,02	-	36319 94,4	100 0,3	38463 69,3	-	17077 30,7
	o.c.suv	1341 39,6	-	-	-	1341 100	-	1341 3,5	-	-
4	Şamaxı	48456 22,0	1635 4,0	-	12 0,03	39360 95,3	272 0,7	41279 18,7	-	7177 ,3
	Cəmi	**220408 36,0**	**7566 5,1**	**32 0,02**	**438 0,3**	**140104 94,3**	**508 0,3**	**148648 67,4**	-	**71760 32,6**
	o.c.suv.	**3390 6,4**	**2023 59,7**	**26 0,8**	-	**1341 39,5**	-	**3390 2,3**	-	-

Cədvəl 129


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 617

Cədvəl 129.1


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 618

Cədvəl 129.2


Bölgənin bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 619

Cədvəl 129.3


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 620

Cədvəl 129.4


Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 621

Cədvəl 129.5

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqların kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 622

Kənd təsərrüfatına yararlı həyətyanı torpaqlar yararlı torpaq ehtiyatının 0,3%-ni (0,5 min ha) təşkil edir. Bölgənin ayrı-ayrı rayonlarında bələdiyyə mülkiyyətinə verilmiş torpaq sahələrinin ölçüsü müxtəlifdir və bölgü zamanı rayonun ümumi torpaq ehtiyatları və digər obyektiv səbəblər nəzərə alınmaqla müəyyənləşdirilmişdir.

Ərazidə istifadə olunan torpaqların 25,0%-i (44,9 min ha) orta keyfiyyətli torpaqlar kimi qiymətləndirilərək III qrupda yer tutmuşdur. Əkin, çoxillik və eləcə də biçənək sahələri altında istifadə edilən torpaqlarında transferlik göstəriciləri 23,1-31,8% arasında dəyişir. Oxşar vəziyyət örüş və otlaq torpaqlarının transferliyində müşahidə edilir (20,2-34,1%). Bölgədə uzun müddətli becərilən kənd təsərrüfatına yararlı torpaqlardan yalnız 9,0%-i (16,3 min ha) aşağı keyfiyyətli qrupa transfer etdiyini görürük. Şübhəsiz ki, torpaqların uzunmüddətli istismarının nəticəsi olaraq əkin torpaqlarının 8,8%-i (3,4 min ha) aşağı keyfiyyətli sahələrə çevrilmişdir. Bu mənfi nəticələr çoxillik biçənək, örüş və otlaq torpaqlarında da özünü göstərir.

Gələcəkdə torpaqların keyfiyyətinin yaxşılaşdırılması sahəsində təcili əsaslı aqromeliorativ tədbirlər görülməsə, sonuncunun (IV) V keyfiyyət qrupuna, yəni kənd təsərrüfatına yararsız torpaqlara çevrilməsi labüddür.

Bölgənin ayrı-ayrı rayonlarında kənd təsərrüfatı dövriyyə-

sində olan torpaqların keyfiyyət qrupları üzrə paylanması ərazilərin təbii torpaq şəraitindən və eləcə də torpaq istifadəçiliyinin xarakterindən asılı olaraq xeyli müxtəlifdir (cədvəl 144). Məsələn, Şərur və Babək rayonlarında kənd təsərrüfatında istifadə olunan yararlı sahələrin 48-55%-i yüksək keyfiyyətli torpaqlar təşkil etdiyi halda, Ordubad, Culfa, Sədərək və Şahbuz rayonlarında bu rəqəmlər 18,6-33,4% arasında dəyişir. Göründüyü kimi, digər rayonların torpaqlarında tənəzzül prosesi daha sürətli getdiyindən I aqroistehsalat qrupunda ilkin vəziyyətin qorunub saxlanması çətin olmuşdur. Örüş və otlaq torpaqlarında orta keyfiyyət göstəricisi həddinə enmə transferliyi ən çox Culfa rayonunda qeydə alınmışdır (40,6%). Ən aşağı həd isə Sədərək və Babək rayonlarında 2,4-13,5% təşkil edir. Ordubad, Şahbuz və Şərur rayonlarında isə bu göstərici 22,9-43,9% arasındp tərəddüd edir. Ayrı-ayrı təsərrüfat sahələrində ən çox transferlik örüş və otlaq sahələri kimi istifadə olunan torpaqlarda baş verməkdədir.

Yararlı torpaq ehtiyatlarının bir keyfiyyət qrupundan digərinə keçməsi (yəni I→II→III→IV və s.) uzunmüddətli bir prosesdir. Bu cəhətdən ərazinin meliorativ durumunun pisləşməsinin təsiri xüsusi qeyd edilməlidir.

Bölgənin suvarılan torpaqlarının 8,3%-i (4,7 min ha) çox təhlükəli, yəni qrunt sularının dərinliyi 1,0 m-dən az ərazilərdə paylanmışdır. Qismən təhlükəli, yəni 1,0-3,0 m arasında tərəddüd edən sahələrə isə 61,3%-ə qədəri (34,5 min ha) yerləşmişdir. Qrunt sularının yatım dərinliyi 3,0 m-dən aşağıda, yəni təhlükəsiz ərazilərdə suvarılan sahələrin 30,4%-nə (17,1 min ha) rast gəlinir.

Ərazidə qrunt sularının minerallaşma dərəcəsinə görə suvarılan torpaqların paylanması da xeyli müxtəlifdir. Belə ki, suvarılan torpaqların əksər hissəsində, yəni 83,5%-ində (47,1 min ha) minerallaşma dərəcəsi 1 qr/l-ə qədər, 13,0%-ində (7,3

Cədvəl 144

Bölgənin kənd təsərrüfatı sahələri torpaqlarının keyfiyyət qrupları üzrə paylanması (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Bonitet şkalası	Keyfiyyət qrupu	Kənd təsərrüfatı sahələri							
					Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Örüş və otlaqlar			Cəmi
									kəndyanı	qış	yay	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13
1	Babək		100-81	I	6880 51,4	22,2 63,1	-	2899 13,2	7301 51,4	4580 51,4	-	21882 55,0
			80-61	II	3586 26,8	62 4,6	-	-	3807 26,2	2388 26,8	-	9843 24,8
			60-41	III	1808 13,5	47 13,3	-	-	1918 13,5	1202 13,5	-	4975 12,5
			40-21	IV	1112 8,3	21 6,0	-	-	1179 8,3	740 8,3	-	3052 7,7
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**123015 22,9**	**100-1**	**I-V**	**13386 33,7**	**352 0,9**	-	**2899 7,3**	**14205 35,7**	**8910 22,4**	-	**39752 32,3**
2	Culfa		100-81	I	1706 25,1	-	28 12,8	1427 16,7	4590 25,1	252 25,2	526 25,1	8529 28,6
			80-61	II	1882 27,7	3 100	85 39,0	-	5066 27,7	276 27,6	580 27,7	7892 26,5
			60-41	III	2757 40,6	-	92 42,2	-	7428 40,6	406 40,6	851 40,6	11534 38,6
			40-21	IV	451 6,6	-	13 6,0	-	1207 6,6	66 6,6	138 6,6	1875 6,3
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**99440 18,5**	**100-1**	**I-V**	**6796 22,8**	**3 0,01**	**218 0,7**	**1427 4,8**	**18291 61,3**	**1000 3,3**	**2095 7,0**	**29830 30,0**

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
3	Ordubad		100-81	I	303 12,0	27 12,7	37 12,0	1749 41,1	1461 12,0	27 7,5	676 12,0	4254 18,6
			80-61	II	756 30,0	45 21,2	92 29,9	-	3637 29,9	95 41,7	1684 29,9	6309 27,6
			60-41	III	826 32,6	121 57,1	101 32,8	-	3977 32,7	100 43,9	1841 32,7	6965 30,5
			40-21	IV	642 25,4	19 9,0	78 25,3	-	3090 25,4	33 14,4	1430 25,4	5292 23,2
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**97205 18,1**	**100-1**	**I-V**	**2527 11,1**	**212 0,9**	**308 1,3**	**1749 7,7**	**12165 53,3**	**228 1,0**	**5631 24,7**	**22820 23,5**
4	Sədərək		100-81	I	543 22,1	4 21,0	-	892 39,3	486 21,9	361 22,6	-	2268 31,0
			80-61	II	1823 47,2	14 73,7	-	-	1655 74,4	1295 74,7	-	4787 65,3
			60-41	III	91 3,7	1 5,1	-	-	71 5,3	47 2,7	-	210 2,9
			40-21	IV	928 6,2	32 13,1	-	-	29 1,3	31 1,8	-	60 0,8
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**15134 2,8**	**100-1**	**I-V**	**2457 33,5**	**19 0,3**	**-**	**892 12,2**	**2223 30,3**	**1734 23,7**	**-**	**7325 48,4**
5	Şahbuz		100-81	I	477 31,3	72 64,9	781 31,3	1007 9,9	5437 31,0	206 31,1	2215 31,0	10195 33,4
			80-61	II	431 28,3	24 21,6	705 28,3	-	4912 28,0	186 28,1	2001 28,0	8259 27,1
			60-41	III	485 31,8	15 13,5	794 31,8	-	5615 32,0	211 31,8	2287 32,0	9407 30,9
			40-21	IV	131 8,6	-	215 8,6	-	1577 9,0	60 9,0	643 9,0	2626 8,6
			20-1	V	-	-	-	-	-	-	-	485 1,4

1	2	3	4	5	6	7	8	9	10	11	12	13
	Cəmi	**81497** **15,2**	**100-1**	**I-V**	**1524** **5,0**	**111** **0,4**	**2495** **8,2**	**1007** **3,3**	**17541** **57,5**	**663** **2,2**	**7146** **23,4**	**30487** **37,4**
6	Şərur		100-81	I	7006 47,1	3 50,0	141 47,8	4646 20,2	9726 47,1	380 13,0	1202 26,9	23014 48,3
			80-61	II	3020 20,3	2 33,3	61 20,3	-	4192 20,3	955 32,9	1905 42,7	10135 21,2
			60-41	III	3734 25,1	1 16,7	75 25,0	-	5182 25,1	1158 40,0	1020 22,9	11170 23,3
			40-21	IV	1116 7,5	-	23 7,7	-	1554 7,5	412 14,1	334 7,5	3439 7,2
			20-1	V	-	-	-	-	-	-	-	-
	Cəmi	**116461** **21,7**	**100-1**	**I-V**	**14876** **31,1**	**6** **0,02**	**300** **0,6**	**4646** **9,7**	**20654** **43,2**	**2905** **6,1**	**4461** **9,3**	**47848** **41,1**

min ha) 1,0-3,0 qr/l arasında, az bir hissəsində isə, yəni 3,5%-ində (2,0 min ha) minerallaşma dərəcəsi 3,0 q/l-dən yüksəkdir (cədvəl 145, şəkil 690-692).

Cədvəl 145


Bölgədə suvarılan torpaqlarının meliorativ vəziyyətinə dair bəzi göstəricilər (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Qrunt sularının dərinliyinə görə sahələrin paylanması (mlə)			Qrunt sularının minerallaşma dərəcəsinə görə sahələrin paylanması (q/l)			Qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə sahələrin qiymətləndirilməsi		
			<1,0	1,0-3,0	>3,0	<1,0	1,0-3,0	>3,0	yaxşı	kafi	qeyri-kafi
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Babək	16378 30,0	1138 7,0	11139 680	4101 25,0	8431 51,5	6531 40,0	1416 8,5	1770 10,8	10508 64,2	4100 25,0
2	Culfa	5248 9,4	158 3,0	2584 49,2	2506 47,7	5248 100	-	-	369 7,0	4387 83,6	492 9,4
3	Ordubad	4654 8,3	71 1,5	1431 30,7	3152 67,7	4654 100	-	-	1188 25,5	3256 70,0	210 4,5
4	Sədərək	3579 6,6	320 8,9	2294 64,1	965 27,0	3354 93,7	225 6,3	-	2077 58,0	1496 41,8	6 0,2
5	Şahbuz	2678 4,8	-	100 3,7	2586 96,3	2678 100	-	-	2678 100	-	-
6	Şərur	22926 40,9	2990 13,0	16116 70,3	3820 16,7	21824 9,5	552 2,4	550 2,4	3950 17,2	13878 60,5	5098 22,2
7	Naxçıvan ş.	877 1,5	-	877 100	-	877 100	-	-	120 13,7	695 79,2	62 7,1
	Cəmi	**56340 31,3**	**4677 8,3**	**34541 61,3**	**17130 30,4**	**47066 83,5**	**7308 13,0**	**1966 3,5**	**12152 21,6**	**34220 60,7**	**9968 17,7**

Ərazidə suvarılan 56,3 min hektar sahənin yalnız 12,2 min hektarı (21,6%) qrunt sularının yatım dərinliyinə və minerallaşma dərəcəsinə görə yaxşı vəziyyətdədir. Beləliklə, yuxarıda deyilənlərdən aydın olur ki, ərazidə qrunt sularının dərinliyi 1,0-1,0-3 m arasında yerləşən və eləcə də qrunt sularının minerallaşma dərəcəsi 1,0-3,0 q/l və daha yüksək olan sahələrdə suvarılan torpaqların əsas hissəsinin yerləşməsi həmin sahələrin təkrar şorlaşma təhlükəsi ilə üz-üzə qaldığını göstərir. Baş

Cədvəl 145


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının dərinliyinə görə ərazidə paylanması (ha/%)



Şəkil 690

Cədvəl 145.1


Bölgənin ümumi suvarılan torpaqlarının qrunt sularının minerallaşma dərəcəsinə görə ərazidə paylanması (ha/%)



Şəkil 691

Cədvəl 145.2

Bölgənin suvarılan torpaqlarının qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə qiymətləndirilməsi (ha/%)



Şəkil 692

verə biləcək təhlükəni aradan qaldırmaq üçün suvarılan sahələrdə ardıcıl olaraq kompleks aqromeliorativ tədbirlərin həyata keçirilməsi tələb olunur.

Suvarılan sahələrin 34,2 min hektarının (60,7%) kafi və təqribən 10,0 min hektarının (17,7%) isə qeyri-kafi vəziyyətdə olması ilə səciyyələnir.

Mövcud durumda suvarılan torpaqların 11,9% (6,7 min ha) müxtəlif dərəcədə şorlaşmışdır (cədvəl 146, şəkil 693-695). Bunun 5,1%-i (2,9 min ha) yüksək, 2,9%-i (1,6 min ha) orta və 3,9%-i isə (2,2 min ha) zəif şorlaşmış sahələrdən ibarətdir.

Ərazidə suvarılan torpaqların 26,5%-i (15,1 min ha) drenləşdirilmişdir ki, bunun da 13,9%-ində (7,9 min ha) qapalı üfüqi dren sahələr ətşkil edir (şəkil 685). Dren qurğuları Babək və Şərur rayonlarının suvarılan 39,3 min ha torpaqlarının yalnız 38,7%-ində (15,1 min ha) inşa edilmişdir. Hələ də bölgədə suvarılan sahələrin müəyyən hissəsində də drenaj şəbəkələrinin tikintisinə ehtiyac vardır. Suvarılan torpaqlar zəif şorakətli xassələri ilə səciyyələnirlər. Bütün bunlara baxmayaraq hazırda suvarılan torpaqların 3,3 min hektarında təkrar


Cədvəl 146

Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma və drenləşmə durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	0-1 m qatda şorluq dərəcəsi					Drenləşmiş sahələr	
			şorlaş-mayan	cəmi şor-laşmış	o cümlədən			cəmi	o cüm. qapalı üfüqi
					zəif	orta	şiddətli		
1	2	3	4	5	6	7	8	9	10
1	Babək	16378 29,0	14642 29,5	1736 10,6	100 5,7	700 40,3	936 54,0	5900 36,0	5900 36,0
2	Culfa	5248 9,3	5058 10,2	190 3,6	190 100	-	-	-	-
3	Ordubad	4654 8,3	4514 9,1	140 3,0	140 100	-	-	-	-
4	Sədərək	3579 6,4	3469 7,0	110 3,1	-	110 100	-	-	-
5	Şahbuz	2678 4,8	2240 4,5	438 16,4	438 100	-	-	-	-
6	Şərur	22926 40,7	19664 39,7	3262 14,2	452 13,9	830 25,4	1980 60,7	9200 40,1	2000 8,7
7	Naxçıvan ş.	877 1,6	-	877 100	877 100	-	-	-	-
	Cəmi:	**56340 31,3**	**49587 68,7**	**6753 11,9**	**2197 32,5**	**1640 24,3**	**2916 43,2**	**15100 26,8**	**7900 14,0**

Cədvəl 146

Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma durumu (ha/%)




Şorlaşmayan

Şorlaşmış

Şəkil 693

Cədvəl 146.1


Bölgənin ümumi suvarılan torpaqlarının şorlaşma dərəcəsi (ha/%)



Şəkil 694

Cədvəl 146.2

Bölgənin ümumi suvarılan torpaqlarının drenləşmə durumu (ha/%)



Şəkil 695

şorlaşmış torpaqların zərərli duzlardan yuyulması tələb olunur.

Əldə edilmiş kadastr məlumatlarına əsasən (01.01.2004-cü il) 9,1 min hektardan bir qədər çox suvarılan sahələrdə suvarma və dren-kollektor şəbəkələrində əsaslı iş aparmaqla torpaqların mövcud meliorativ vəziyyətinin yaxşılaşdırılmasına ciddi ehtiyac var.

Bir sıra rayonlarda suvarma suyunun qıtlığını aradan qaldırmaq üçün 6,1 min ha sahədə su təminatının artırılması tələb olunur. Eləcə də becərilən torpaqların suvarma suları ilə normal nəmlənməsini təmin etmək və su itkisinin qarşısını almaq üçün 4,7 min hektardan bir qədər artıq suvarılan torpaqlarda əsaslı hamarlama işləri də icra edilməlidir.

Dövriyyədə olan torpaqların təbii münbitliyinin başqa sözlə desək, onun aqroistehsalat xassələrinin dəyişməsinə güclü təsir göstərən təbii və antropogen proseslərindən biri də eroziya prosesləridir (cədvəl 147, şəkil 696-703).

Torpaq ehtiyatlarının xeyli hissəsi dağlıq və dağətəyi sahələrdə yerləşdiyindən ərazidə eroziya prosesi daha geniş yayılmışdır. Eroziyaya uğramış sahələr ərazinin 73,7%-ni (392,4 min ha) əhatə edir. Həmin sahələrdə daha geniş səthi, xətti, qobu və yarğan və qismən isə külək eroziyası növləri baş verir. Hər il torpağın üst münbit qatının yuyulması nəticəsində külli miqdarda qiymətli qida maddələri daxili su mənbələri vasitəsilə Araz çayına və oradan Xəzər dənizinə axıdılır.

Respublikanın digər bölgələrinə nisbətən Naxçıvan bölgəsində kontinental iqlim şəraitində baş verən su və külək eroziyasının yaratdığı xoşagəlməyən mənzərə geniş və qabarıq şəkildə özünü göstərir. Hazırda bölgənin kənd təsərrüfatı eroziyadan xeyli zərər çəkir. Bölgə torpaqlarının 41,5%-i (218,2 min ha) şiddətli eroziyalı sahələrdən ibarətdir. Orta dərəcədə yuyulmuş torpaqlar isə ümumi ərazinin 10,7%-ni (89,2 min ha) əhatə edir. Zəif yuyulmuş torpaqlar isə ümumi sahənin 16,0%-ni (85,0 min ha) tutur.


Cədvəl 147

Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Eroziya dərəcəsi				
			Eroziyasız sahə	Cəmi eroziyalı sahə	O cümlədən		
					zəif	orta	şiddətli
1	2	3	4	5	6	7	8
1	Babək	123015	43301	79714	23250	19067	37397
		23,1	35,2	64,8	29,2	23,9	46,9
2	Gulfa	99440	10143	89297	16308	25158	47831
		18,7	10,2	89,8	18,3	28,2	53,6
3	Ordubad	97205	6416	90789	10401	14386	66002
		18,2	6,6	93,4	11,5	15,8	72,7
4	Sədərək	15134	9822	5312	2104	1498	1710
		2,8	64,9	35,1	39,6	28,2	32,2
5	Şahbuz	81497	15729	65768	12632	20863	32273
		15,3	19,3	80,7	19,2	31,7	49,1
6	Şərur	116461	54970	61491	20264	8269	32958
		21,9	47,2	52,8	32,9	13,4	53,6
	Cəmi	**532752**	**140381**	**392371**	**84959**	**89241**	**218171**
		99,3	**26,3**	**73,7**	**21,6**	**22,7**	**55,7**
Dağ-çəmən torpaqlarının eroziya durumu							
		81484	51580	29904	8800	10756	10348
		15,3	63,3	36,7	29,4	36,0	34,6
Dağ-bozqır torpaqlarının eroziya durumu							
		116069	78695	37374	11839	14276	11259
		21,8	67,8	32,2	31,7	38,2	30,1
Bozqır və yarımsəhra torpaqlarının eroziya durumu							
		335199	109611	225588	58995	84805	81788
		62,9	32,7	67,3	26,1	37,6	36,2

Cədvəl 147


Bölgənin ümumi torpaq ehtiyatlarının eroziya durumu (ha/%)



Şəkil 696

Cədvəl 147.1


Bölgənin ümumi torpaq ehtiyatlarında eroziya dərəcəsi (ha/%)



Şəkil 697

Cədvəl 147.2


Bölgənin dağ-çəmən zonası torpaqlarının eroziya durumu (ha/%)



Şəkil 698

Cədvəl 147.3


Bölgənin dağ-çəmən zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Şəkil 699

Cədvəl 147.4

Bölgənin dağ-bozqır zonası torpaqlarının eroziya durumu (ha/%)




Eroziyasız sahə Eroziyalı sahə

Şəkil 700

Cədvəl 147.5

Bölgənin dağ-bozqır zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)




Zəif
Orta
Şiddətli

Şəkil 701

Cədvəl 147.6

Bölgənin bozqır və yarımsəhra zonası torpaqlarının eroziya durumu (ha/%)




Eroziyasız sahə

Eroziyalı sahə

Şəkil 702

Cədvəl 147.7

Bölgənin bozqır və yarımsəhra zonası torpaqlarının eroziya dərəcəsi (ha/%)



Zəif

Orta

Şiddətli

Şəkil 703

Bölgənin inzibati rayonları ərazisində torpaqların eroziyaya uğraması da xeyli müxtəlifdir. Belə ki, Ordubad rayonunda ərazinin 93,4%-i müxtəlif dərəcədə yuyulmaya məruz qaldığı qeydə alınmışdır. Şahbuz və Culfa rayonları ərazisində yayılmış torpaqlarında müvafiq olaraq 80,7 və 89,8%-i, Şərur və Babək rayonlarında isə 52,8-64,8%-i eroziyaya uğramış sahələrdir. Bölgədə xüsusilə şiddətli yuyulmuş torpaq sahələrinə Ordubad (72,7%) və Culfa (53,6%) rayonlarında rast gəlinir. Yeganə olaraq Sədərək rayonunda torpaq ehtiyatlarının 35,2%-i eroziyalı sahələrdir ki, bunun da 32,2%-i şiddətli yuyulmuş torpaqlardır.

Ərazisinin əsas hissəsi düzənlikdə yerləşən Sədərək rayonunda külək eroziyası daha fəaldir. Eləcə də bölgənin ayrı-ayrı təbii bitki və torpaq zonalarında eroziyaya uğrama göstəriciləri də xeyli yüksəkdir. Belə ki, dağ-çəmən qurşağında yayılmış torpaqlarda eroziya prosesi yay otlaqlarından düzgün istifadə edilməməsi nəticəsində baş verir. Odur ki, hazırda bölgənin dağ-çəmən torpaqlarının 36,7%-i müxtəlif dərəcədə eroziyalı sahələrə çevrilmişdir. Dağ-meşə torpaqlarının yayıldığı ərazilərdə səth örtüyünün nisbətən ot bitkiləri meşə və meşə-kolluqlarla mühafizə olunduğundan ümumi eroziyaya uğrama göstəriciləri 32,2%-ə enir.

Bozqır və yarımsəhra torpaqlarının kənd təsərrüfatında daha geniş istifadəyə cəlb edilməsi eroziyanın arealının genişlənməsinə də səbəb olmuşdur. Burada torpaq ehtiyatlarının 67,3%-i müxtəlif dərəcədə eroziyaya məruz qalmış sahələrdən ibarətdir. Xüsusilə şiddətli və orta dərəcədə eroziyaya uğramış sahələr (36,2% və 37,6%) üstünlük təşkil etməsi ciddi narahatlıq doğurur.

Göründüyü kimi, bölgənin torpaq örtüyündə eroziya prosesləri nəticəsində uzun zaman kəsiyində münbit torpaq qatının məhv edilməsi ilə onun keyfiyyətinin pisləşməsi baş vermişdir. Bu xüsusda 2004-2008-ci illərdə Dövlət proqramında müəyyən işlərin gücləmməsi planlaşdırılmışdır. Özünün iqlim torpaq şəraitindəki spesifik xüsusiyyətləri ilə respublikanın

digər iqtisadi rayonlarından əsaslı şəkildə fərqlənən Naxçıvan Muxtar Respublikasının bir sıra inzibati ərazilərində kanal və arxların lildən təmizlənməsi, kollektor-drenaj şəbəkələri təmir edilmiş və 7,8 mm metr məsafədə yeni kollektor-drenaj şəbəkəsi qazılması üzrə işlərin icrasına başlanmışdır. Respublikada suvarma əkinçiliyini inkişaf etdirmək məqsədilə Arpaçay və Naxçıvançayın su ehtiyatlarının istifadə imkanlarının yeniləşdirilməsinə dair xüsusi tədbirlər görüləcəkdir. Bunlardan başqa respublikanın suvarılan torpaqlarının meliorativ vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra kompleks meliorativ tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur.

Beləliklə, bölgənin torpaq ehtiyatları istifadəçiliyində mövcud olan aqromeliorativ problemlərin fonunda həyata keçirilmiş torpaq islahatı zamanı ümumi torpaq fondu üç - dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarında torpaq istifadəçiliyi müəyyənləşdirilmişdir (cədvəl 148, şəkil 704-705).

Respublikanın digər regionlarından fərqli olaraq Naxçıvan bölgəsində ümumi torpaq fondunun yalnız 33,1%-i dövlət mülkiyyətində saxlanmışdır. Halbuki Kəlbəcər-Laçın və Yuxarı Qarabağ bölgələri istisna olmaqla qalan bölgələrdə ümumi torpaq ehtiyatlarının dövlət mülkiyyətində saxlanılan hissəsi 40,0%-dən az deyildir.

Bələdiyyə mülkiyyətinə verilmiş torpaqların sahəsi 56,2% təşkil etməklə, əksinə ölkənin digər bölgələrində bələdiyyə orqanları üçün ayrılmış torpaq sahələrindən 1,5-2,0 dəfədən çoxdur.

Xüsusi mülkiyyətə verilmiş torpaq sahələrinin ölçüsünə gəldikdə isə Abşeron bölgəsindən sonra ən az, yəni ümumi torpaq fondunun 10,5%-i özəlləşdirilmiş yeganə regiondur. Şübhəsiz ki, burada regionun ümumi torpaq ehtiyatları əsas götürülərək mülkiyyət növlərinin bölgüsü həyata keçirilmişdir.


Cədvəl 148

Bölgənin vahid torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)

S/s	Mülkiyyət növləri	Ümumi sahə	Kənd təsərrüfatı sahələri								K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyət-yanı	Örüş və otlaqlar			Cəmi	Meşə	Sair sahələr
							kəndyanı	qış	yay			
1	Dövlət	178801 33,3	627 1,3	35 0,1	525 1,1	15 0,04	-	26180 56,0	19333 41,4	46715 26,1	2392 1,3	129694 72,5
	o.c.suv.	1430 2,5	567 67,1	35 4,0	-	15 1,4	-	238 27,2	-	875 1,9	555 23,2	-
2	Bələdiyyə	301213 56,2	2733 3,5	3 0,01	19 0,02	421 0,5	74986 95,9	-	-	78162 25,9	290 0,1	222761 74,0
	o.c.suv.	7045 12,4	2281 32,4	3 0,04	-	421 6,0	4340 61,6	-	-	7045 18,8	-	-
3	Xüsusi	56286 10,5	38711 70,5	761 1,4	2796 5,1	12610 23,0	-	-	-	54878 97,5	-	1408 2,5
	o.c.suv	48420 85,1	34442 71,1	761 1,6	607 1,2	12610 26,0	-	-	-	48420 88,2	-	-
	Cəmi	**536300 6,2**	**42071 23,4**	**799 0,4**	**3340 1,9**	**13046 7,3**	**74986 41,7**	**26180 14,6**	**19333 10,8**	**179755 33,5**	**2682 0,5**	**353863 66,0**
	o.c.suv.	**56895 4,0**	**37310 66,2**	**799 1,4**	**607 1,1**	**13046 23,2**	**4340 7,7**	**238 0,4**	-	**56340 31,3**	**555 20,7**	-

Cədvəl 148


Bölgənin ümumi torpaq fondunun mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 704

Cədvəl 148.1

Bölgənin ümumi suvarılan torpaqlarının mülkiyyət növləri üzrə istifadəçilik strukturu (ha/%)



Şəkil 705

1. Dövlət mülkiyyətindəki torpaqlar. Bölgənin ümumi torpaq fondunun 177,8 min hektarı (33,1%) dövlət mülkiyyətində saxlanmışdır ki, bunun da 46,7 min hektarı (26,1%) kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir. Kənd təsərrüfatında istifadə olunmayan sahələrin 1,3%-ə (2,4 min ha) qədərini meşə fondu torpaqları əhatə edir (cədvəl 149, şəkil 706-711). Kənd təsərrüfatında istifadə olunan torpaqların 1,4%-i (0,6 min ha) əkin+dinc və 1,5%-i (0,5 min ha) isə biçənək torpaqları tutur.

Otlaq torpaqları yararlı torpaq sahələrinin 97,4%-ni (45,5 min ha) təşkil etməklə onun 56,0%-i (26,2 min ha) qış və 41,4%-i (19,3%) yay otlaq torpaqlarının payına düşür. Çox az miqdarda çoxillik əkmə və həyətyanı torpaqlar saxlanmışdır. Kənd təsərrüfatında istifadə olunmayan sair torpaqlar torpaq ehtiyatlarının 72,5%-nə (129,7 min ha) bərabərdir. Bu torpaqların əsas hissəsi kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlardır. Gələcəkdə bölgədə yararlı torpaq çatışmamazlığının aradan qaldırılmasının az yararlı və şərti yararsız torpaqların mənimsənilməsi hesabına aparılması qaçılmazdır. Lakin bu torpaqların mənimsənilməsi üçün uzun vaxt və böyük vəsait tələb olunur. Belə sahələr bölgənin dağlıq ərazilərində şiddətli eroziyaya uğramış torpaqlar, yarımsəhra ərazilərində yayılmış şoran və şorakətli, alçaq dağlıq və dağətəyində istifadəsiz qalmış az əhəmiyyətli seyrək kolluqlarla örtülmüş və eləcə də çay subasarlarının daşlı-çınqıllı sahələri daxildir. Hazırda 2,5%-i (1,4 min ha) dövlət mülkiyyətinə verilmiş suvarılan torpaqlar və eləcə də kənd təsərrüfatına yararlı torpaq sahələri bütünlüklə bölgə əhalisi tərəfindən istifadə edilir. Əgər bölgədə torpaq payı almış ailələr baxımından yanaşılsa, hər bir ailə orta hesabla 0,67 ha dövlət mülkiyyətindəki torpaq sahəsindən istifadə etmək imkanına malikdir. Xüsusilə əhali heyvandarlığın təbii yem bazası sayılan qış və yay otlaq torpaqlarından daha geniş istifadə edir. Unutmaq olmaz ki, eroziya proseslərinə qarşı ardıcıl kompleks mübarizə aparılmayan otlaq sahələrinin bioloji məhsuldarlığının artırılması qeyri mümkündür və buna daim diqqətlə yanaşılmalıdır.


Cədvəl 149

Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfat sahələri							K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çoxillik əkmələr	Biçənək	Həyətyanı	Otlaqlar		Cəmi	Meşə	Sair sahələr
							qış	yay			
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Babək	49979 28,1	360 3,2	18 0,2	-	-	10907 96,6	-	11285 22,5	440 0,9	38254 76,5
	o.c.suv.	996 69,6	360 95,2	18 4,8	-	-	178 32,0	-	556 4,9	440 100	-
2	Culfa	18119 10,2	7 0,2	3 0,1	-	-	2500 54,3	2095 45,5	4605 29,3	262 1,4	14252 74,5
	o.c.suv	10 0,7	7 70,0	3 30,0	-	-	-	-	10 0,2	-	-
3	Ordubad	28720 16,1	46 0,7	3 0,1	-	-	938 14,2	5631 85,1	6618 23,0	246 1,0	21856 76,1
	o.c.suv	49 3,4	46 93,9	3 6,1	-	-	-	-	49 0,7	-	-
4	Sədərək	10439 5,9	18 0,5	-	-	15 0,4	3398 99,0	-	3431 32,9	101 1,0	6907 66,2
	o.c.suv	187 13,2	11 12,8	-	-	15 17,4	60 69,8	-	86 2,5	101 100	-
5	Şahbuz	22439 12,6	-	5 0,1	225 2,2	-	2602 26,1	7146 71,6	9978 44,5	1073 4,9	11388 50,7
	o.c.suv	13 0,9	-	5 100	-	-	-	-	5 0,1	8 0,7	
6	Şərur	47306 26,5	196 1,8	6 0,1	300 2,8	-	5835 54,0	4461 41,3	10798 22,8	270 0,6	36238 76,6
	o.c.suv.	175 12,2	163 96,5	6 3,5	-	-	-	-	169 1,6	6 2,2	-
7	Naxçıvan	799 0,5	-	-	-	-	-	-	-	-	509 63,7
	Cəmi	**178801** **33,3**	**627** **1,3**	**35** **0,1**	**525** **1,2**	**15** **0,04**	**26180** **56,1**	**19333** **41,4**	**46715** **26,3**	**2392** **1,3**	**128694** **72,4**
	o.c.suv.	**1430** **2,5**	**587** **67,1**	**35** **4,0**	-	**15** **1,7**	**238** **27,2**	-	**875** **1,9**	**555** **23,2**	-

Cədvəl 149


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 706

Cədvəl 149.1


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 707

Cədvəl 149.2


Bölgənin dövlət mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 708

Cədvəl 149.3


Bölgənin dövlət mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 709

Cədvəl 149.4


Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 710

Cədvəl 149.5

Bölgənin dövlət mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 711

2. Bələdiyyə mülkiyyətindəki torpaqlar. Bölgənin ümumi torpaq fondunun 56,2%-i (301,2 min ha) regionda fəaliyyət göstərən 194 bələdiyyənin mülkiyyətinə verilmişdir (cədvəl 150, şəkil 712-717). Bu torpaq ehtiyatlarının 25,9%-i (78,2 min ha) kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir ki, bunun da 95,9%-ə (75,0 min ha) qədəri kəndyanı örüş torpaqları kimi əhaliyə mal-qarasını bəsləmək üçün ayrılmışdır. Bələdiyyələr eyni zamanda sahəsi 2,7 min hektara çatan əkin və dincə qoyulmuş torpaqların sərəncamçısıdırlar. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqlar bələdiyyə mülkiyyətinə ayrılmış yararlı torpaqların 0,5%-nə (0,4 min ha) bərabərdir. Meşə fondu torpaqları bələdiyyə mülkiyyətinin 0,1%-ni (0,3 min ha) təşkil edir. Kənd təsərrüfatında istifadə olunmayan sair torpaqlar bələdiyyə mülkiyyətinə verilmiş ümumi torpaq ehtiyatlarının 74,0%-ni (222,8 min ha) tutur. Bu torpaqların əsas hissəsi kənd təsərrüfatına az yararlı və şərti yararsız sahələrdir. Onların müəyyən hissəsi hazırda əhali tərəfindən yaxşılaşdırılaraq istifadə edilir. Bələdiyyə mülkiyyətinə verilmiş 7,1 min ha (12,4%) suvarılan torpaqlar da əhali tərəfindən istifadə olunmaqdadır. Hazırda bölgədə torpaq payı almış hər bir ailə orta hesabla 1,11 ha bələdiyyə mülkiyyətinə məxsus yararlı torpaq sahəsindən faydalanır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bələdiyyə mülkiyyətinə verilmiş ümumi torpaq sahələri dövlət mülkiyyətində saxlanmış torpaq sahələrindən 1,7 dəfə çoxdur. Bunun da əsas hissəsini kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaq sahələri təşkil edir. Əslində hər iki halda kənd təsərrüfatına yararlı torpaq sahələrinin miqdarı xeyli azdır və 25,9-26,3% arasında dəyişir.

Dövlət mülkiyyətində saxlanmış az yararlı və şərti yararsız torpaq sahələrində olduğu kimi, bələdiyyə mülkiyyətinə verilmiş bu qəbildən olan torpaq sahələri də gələcəkdə onların əsaslı şəkildə yaxşılaşdırılması yolu ilə kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsində yeganə ehtiyat mənbəyi hesab edilir.


Cədvəl 150

Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqları (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri						K.t. istifadə olunmayan sahələr	
			Əkin+ dinc	Çox-illik əkmə-lər	Biçənək	Kənd-yanı örüş	Həyət-yanı	Cəmi	Meşə	Sair sahələr
1	2	3	4	5	6	7	8	9	10	11
1	Babək	57135 18,9	681 5,3	-	-	12208 94,7	-	12889 22,6	-	44246 77,4
	o.c.suv.	681 9,7	681 100	-	-	-	-	681 5,3	-	-
2	Culfa	73202 24,2	359 2,1	-	-	16791 97,3	100 0,6	17250 23,6	-	55952 76,4
	o.c.suv	391 5,5	291 74,4	-	-	-	100 25,6	391 2,3	-	-
3	Şərur	50089 16,6	745 4,0	-	-	17724 95,9	14 0,1	18483 36,9	-	31606 95,9
	o.c.suv.	4290 60,9	539 12,6	-	-	3737 87,1	14 0,3	4290 23,2	-	-
4	Ordubad	64059 21,2	181 1,5	-	-	11455 96,3	258 2,2	11894 18,6	-	52165 81,4
	o.c.suv	518 7,4	181 34,9	-	-	79 15,2	258 49,8	518 4,3	-	-
5	Şahbuz	54236 17,9	125 0,8	-	-	15602 98,9	49 0,3	15776 29,1	-	38460 70,9
	o.c.suv	512 7,3	97 18,9	-	-	366 71,5	49 9,6	512 3,2	-	-
6	Sədərək	1439 0,5	137 19,7	-	-	559 80,3	-	696 48,4	-	743 51,9
	o.c.suv	295 4,2	137 46,4	-	-	158 53,6	-	295 42,4	-	-
7	Naxçıvan	2053 0,7	505 43,0	3 0,3	19 1,6	647 55,1	-	1174 57,2	290 14,2	589 28,7
	o.c.suv	358 5,0	355 99,2	3 0,8	-	-	-	358 30,5	-	-
	Cəmi	**302213 56,3**	**2733 3,5**	**3 0,01**	**19 0,02**	**74986 95,9**	**421 0,5**	**78162 25,9**	**290 0,1**	**223761 74,0**
	o.c.suv.	**7045 12,4**	**2281 32,4**	**3 0,04**	-	**4340 61,6**	**421 6,0**	**7045 9,0**	-	-

Cədvəl 150


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 712

Cədvəl 150.1


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaq ehtiyatlarının əsas tərkib hissəsi (ha/%)



Şəkil 713

Cədvəl 150.2


Bölgənin bələdiyyə mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Şəkil 714

Cədvəl 150.3


Bölgənin bələdiyyə mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 715

Cədvəl 150.4

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)




Babək
Culfa
Şərur
Ordubad
Şahbuz
Sədərək
Naxçıvan ş.

Şəkil 716

Cədvəl 150.5

Bölgənin bələdiyyə mülkiyyətindəki suvarılan torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Əkin+dinc
Həyətyanı+çoxillik əkmələr
Kəndyanı örüş

Şəkil 717

3. Xüsusi mülkiyyətdəki torpaqlar. Hal-hazırda bölgənin ümumi torpaq fondunun 56,3 min hektar torpaq sahəsi fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə verilmişdir. Bunun 41,8 min ha-dan bir qədər çoxu ölkədə həyata keçirilən torpaq islahatı zamanı bölgədə məskunlaşmış və 240717 subyekti özündə birləşdirən 70611 ailənin xüsusi mülkiyyətinə verilmişdir (cədvəl 151, şəkil 718-722).

Özəlləşdirilmiş torpaqlar vaxtilə uzun müddət fəaliyyət göstərmiş 132 kolxoz və sovxozun istifadə etdikləri ən keyfiyyətli 56,3 min hektar (10,5%) torpaq sahəsi torpaq islahatı qanununa müvafiq olaraq xüsusi mülkiyyətə verilmişdir. Bu bölgə üzrə ümumi yararlı torpaq ehtiyatlarının, yəni179755 hektarda (cədvəl 146)(31,3%)-nin xüsusi mülkiyyətə verilməsi deməkdir.

Hazırda xüsusi mülkiyyətə verilmiş torpaqların 38,7 min ha-ı (70,5%) əkin, 0,8 min hektarı (1,4%) çoxillik əkmələr, 2,8 min hektarı (5,1%) biçənək və 12,6 min hektarı (23,0%) isə kənd təsərrüfatına yararlı həyətyanı torpaq sahələri kimi istifadə edilir (cədvəl 149). O cümlədən, bunun 48,4 min hektarını (85,1%) suvarılan torpaqlar təşkil edir. Suvarılan sahələrin əsas kütləsini, yəni 34,4 min hektarını və ya ümumi suvarılan torpaqların 71,1%-ni əkin və dincə qoyulmuş sahələri əhatə edir. Həyətyanı torpaq sahələri (26,0%) bütünlükdə suvarıldığı halda əkin sahələrinin yalnız 89,0%-ə qədəri (34,4 min ha) suvarılır. Hələ də bölgənin 11,0% əkin sahələrində (4,3 min ha) suvarma aparılmır. Ümumiyyətlə, hal-hazırda özəlləşdirilmiş torpaqların 48,4 min hektarı və ya 88,4%-i suvarılan sahələrdən ibarətdir.

Bölgənin ayrı-ayrı rayonlarında özəlləşdirilmiş torpaq sahələrinin həcmi xeyli müxtəlifdir. Belə ki, ən çox yararlı torpaq ehtiyatlarına malik olan Şərur və Babək rayonlarında özəlləşdirilmiş torpaqların sahəsi 18,5-15,6 min ha arasında dəyişir. Ən az yararlı torpaq ehtiyatı olan Sədərək rayonunda özəlləşdirilmiş torpaq sahəsi 3,2 min hektara çatır. Digər rayonlarda bu göstəricilər isə 4,3-18,6 min ha-dır. Ərazidə müxtəlif


Cədvəl 151

Bölgənin xüsusi mülkiyyətdəki torpaq ehtiyatlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)

S/s	Rayonlar	Ümumi sahə	Kənd təsərrüfatı sahələri					K.t. istifadə olunmayan sahələr
			Əkin dinc	Çoxillik	Biçənək	Həyət-yanı	Cəmi	
1	2	3	4	5	6	7	8	9
1	Babək	15901 28,2	12345 79,2	334 2,2	-	2899 18,6	15578 98,0	323 2,0
	o.c.suv.	15141 31,3	11908 78,6	334 2,2	-	2899 19,1	15141 97,2	-
2	Culfa	8119 14,4	6430 80,6	-	218 2,8	1327 16,6	7975 98,2	144 1,8
	o.c.suv	4847 10,0	3520 72,6	-	-	1327 27,4	4847 60,1	-
3	Ordubad	4426 7,9	2300 53,4	209 4,9	308 7,1	1491 34,6	4308 97,3	118 2,7
	o.c.suv	4087 8,4	2300 56,3	209 5,1	87 2,1	1491 36,5	4087 94,9	-
4	Sədərək	3256 5,8	2302 72,0	19 0,6	-	877 27,4	3198 98,2	58 1,8
	o.c.suv	3198 6,6	2302 72,0	19 0,6	-	877 27,4	3198 100	-
5	Şərur	19066 33,9	13935 75,1	-	-	4632 24,9	18567 97,4	499 2,6
	o.c.suv.	18467 38,1	13835 74,9	-	-	4632 25,1	18467 99,5	-
6	Şahbuz	4822 8,6	1399 29,6	106 2,2	2270 48,0	958 20,2	4733 98,2	89 1,8
	o.c.suv	2161 4,5	577 26,7	106 4,9	520 24,1	958 44,3	2161 45,7	-
7	Naxçıvan ş.	696 1,2	-	-	-	426 82,1	426 74,6	270 25,4
	o.c.suv	519 1,1	-	93 17,9	-	426 82,1	519 74,6	177 25,4
	Cəmi	**56286 10,5**	**38711 70,5**	**761 1,4**	**2796 5,1**	**12610 23,0**	**54878 97,5**	**1408 2,5**
	o.c.suv.	**48420 85,1**	**34442 71,1**	**761 1,6**	**607 1,3**	**12610 26,0**	**48420 88,2**	-


Cədvəl 151

Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)




Cədvəl 151.1

Bölgənin xüsusi mülkiyyətindəki dəmyə və suvarılan torpaq sahələri (ha/%)



Cədvəl 151.2


Bölgənin xüsusi mülkiyyətindəki torpaqlarının kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 720

Cədvəl 151.3


Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqlarının rayonlar üzrə istifadəçiliyi (ha/%)



Şəkil 721

Cədvəl 151.4

Bölgənin xüsusi mülkiyyətindəki suvarılan torpaqların kənd təsərrüfatı sahələri üzrə istifadəçiliyi (ha/%)



Şəkil 722

obyektiv və subyektiv səbəblərdən müvəqqəti olaraq özəlləşdirilmiş torpaqların 1,4 min hektardan (2,5%) istifadə olunmur. Ümumiyyətlə, bölgədə torpaq payı almış hər bir ailə dövlət, bələdiyyə və mülkiyyətindəki torpaqlarla birlikdə orta hesabla 2,55 ha torpaq sahəsindən istifadə etmək imkanına malikdirlər.

Bölgənin özəlləşdirilmiş torpaq sahələri hazırda beş ailə qrupu tərəfindən istifadə olunur (cədvəl 152, şəkil 723-736). Bölgədə torpaq payı almış ailələr ümumi respublikada müvafiq ailələrin 9,0%-nə, mülkiyyətlərindəki torpaqların isə respublikanın 3,1%-nə bərabərdir. Subyektlərin sayı 240717 nəfər olub respublikanın 8,0%-ni təşkil edir. Bölgədə torpaq payı almış hər bir ailə 0,60 ha, subyekt isə 0,18 ha torpaq sahəsinin mülkiyyətçisidir. Torpaq mülkiyyətçiləri içərisində tərkibi 3-5 nəfərdən ibarət olan kiçik ailə qrupu üstünlük təşkil edir. Ailələrin yarıdan çoxunu (35779) əhatə edən (50,7%-ni) kiçik ailələr özəlləşən torpaqların 61,5%-nə (25,7 min ha) sahiblik edirlər. Tək ailələr (1-2 nəfər) ailə qrupunda orta hesabla 36,1% təşkil etsə də, torpaqların yalnız 14,0%-nin (5,9

Cədvəl 152


Bölgənin rayonlarında məskunlaşan ümumi ailə qrupları və onların mülkiyyətdəki ümumi torpaq sahələri*

S/s	Rayonlar	Ailə qrupları															Yekun			Orta torpaq norması ailə/subyekt
		Tək ailələr (1-2 nəfər)			Kiçik ailələr (3-5 nəfər)			Orta ailələr (6-8 nəfər)			Böyük ailələr (9-12 nəfər)			Ən böyük ailələr (12 nəfərdən çox)						
		ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	ailə sayı	sub. sayı	torpaq sah.	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
1	Babək	5382 21,2	7147 21,0	1429 24,4	9735 27,2	40465 27,4	8093 31,5	2241 24,9	14122 25,2	2824 29,0	71 20,8	666 27,9	133 26,9	1 25,0	13 32,5	3 33,3	17430 24,7	62413 25,9	12482 29,8	0,72 0,20
2	Culfa	3064 12,0	4070 12,0	1099 18,7	3734 10,4	14914 10,1	4027 15,6	805 8,9	5236 9,4	1414 14,5	19 5,5	181 6,6	49 10,0	-	-	-	7622 10,8	24401 10,1	6589 15,7	0,87 0,27
3	Ordubad	3159 12,4	4262 12,5	469 8,0	4099 11,5	16515 1,2	1817 7,1	601 6,7	4134 7,4	455 4,7	10 2,9	87 3,2	18 3,6	-	-	-	7869 11,1	24998 10,4	2759 6,6	0,35 0,11
4	Şahbuz	1282 5,0	1847 5,4	406 6,9	2485 7,0	10553 7,2	2322 9,0	752 8,3	4343 7,8	956 9,8	56 16,3	312 11,4	69 13,9	-	-	-	4575 6,5	17055 7,1	3753 9,0	0,82 0,22
5	Sədərək	2049 8,1	2611 1,8	496 8,5	1652 4,6	6616 4,5	1257 4,9	443 4,9	2834 5,1	529 5,4	12 3,5	123 4,5	23 4,6	-	-	-	4156 5,9	12184 5,1	2315 5,5	0,56 0,19
6	Şərur	10523 41,3	14105 41,4	1975 33,6	14074 39,3	58700 31,7	8218 31,9	4174 46,3	25369 45,3	3552 36,6	175 51,0	1452 53,1	203 41,0	3 75,0	40 75,5	6 66,7	28949 41,0	99666 41,4	13954 33,3	0,48 0,14
	Cəmi	**25459 36,1**	**34042 14,1**	**5874 14,0**	**35779 50,7**	**147763 61,4**	**25734 61,5**	**9016 12,8**	**56038 23,3**	**9730 23,3**	**343 0,5**	**2734 1,1**	**495 1,1**	**4 0,01**	**53 0,06**	**9 0,02**	**70601 9,0**	**240717 8,0**	**41842 3,1**	**0,59 0,17**


* ailənin sayı, sahə ha
ümumi ailənin və sahənin cəmindən %-lə

Cədvəl 152

Bölgədə məskunlaşan ümumi ailə qrupları (A)
və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)




Şəkil 723




Şəkil 724

Cədvəl 152.1

Bölgədə məskunlaşan ümumi ailə qrupları (A)
və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)






Cədvəl 152.2


Bölgədə məskunlaşan tək ailə qrupları (A)
və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(1-2 nəf.)

A



Şəkil 727


B




Şəkil 728

Cədvəl 152.3

Bölgədə məskunlaşan kiçik ailə qrupları (A)
və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(3-5 nəf.)






Cədvəl 152.4


Bölgədə məskunlaşan orta ailə qrupları (A)
və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(6-8 nəf.)

A



Şəkil 731

B




Şəkil 732

Cədvəl 152.5


Bölgədə məskunlaşan böyük ailə qrupları (A) və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(9-12 nəf.)

A



Şəkil 733

B



Şəkil 734

Cədvəl 152.6

Bölgədə məskunlaşan ən böyük ailə qrupları (A)
və onların mülkiyyətindəki ümumi torpaq sahələri (B)
(12 nəfərdən çox)


A



Babək
Şərur

Şəkil 735

B



Babək
Şərur

Şəkil 736

min ha) mülkiyyətçisidirlər. Bu ailələrin hər biri kiçik ailələrdən orta hesabla 3,1 dəfə az torpaq sahəsindən istifadə edirlər. Orta ailə qrupu (6-8 nəfər) özəlləşdirilmiş torpaq sahəsinin 23,3%-nə (9738 ha) sahiblik etməklə kiçik ailə qruplarından 0,36 ha artıq torpaq sahəsini əkib-becərir. Böyük və ən böyük ailələr hər biri orta hesabla 1,39-2,25 ha torpaq sahəsinə sahiblik etsələr də, ümumi ailələrin 0,5-0,01%-ni təşkil etdiklərindən o gələcək təsərrüfatçılıq formalarının istiqamətinin dəyişməsinə o qədər də təsir göstərmək gücünə malik deyildirlər. Eləcə də onların əlində ümumi özəlləşdirilmiş torpaq ehtiyatların cüzi bir hissəsinin, yəni 1,1-0,05%-nin (4779 ha) toplanması bu reallığı bir daha təsdiq edir.

Ayrı-ayrı rayonlarda torpaq mülkiyyətçiləri olan ailə qruplarının sayı və onların mülkiyyətindəki torpaqların miqdarı da xeyli fərqlidir. Belə ki, bölgənin özəlləşdirilmiş torpaq ehtiyatlarının 15,7%-nə (6589 ha) sahiblik edən Culfa rayonunda torpaq payı almış hər bir ailə orta hesabla 0,87 ha torpaq sahəsini əkib-becərir. Özəlləşdirilmiş torpaqların 6,6%-ni (2759 ha) əlində cəmləşdirmiş Ordubad rayonunda 11,1% ailənin hər biri orta hesabla 0,35 ha torpaq sahəsinə qulluq edir. Hər bir ailənin istifadə etdiyi bu göstəricilər Şərur, Sədərək və Babək rayonlarında 0,49-0,72 ha arasında tərəddüd edir. Bölgədə özəlləşdirilən torpaqların ən yüksək göstəricisi Şərur rayonunda torpaq payı almış ailələrə (41,0%) məxsusdur. Burada hər bir mülkiyyətçi ailə orta hesabla 0,49 ha torpaq sahəsindən istifadə edir.

Beləliklə, ailə qrupları tərəfindən özəlləşdirilmiş torpaqların müasir istifadəçilik vəziyyətinin təhlilindən aydın olur ki, yaxın gələcəkdə bölgədə yaranacaq yeni təsərrüfatçılıq formalarının vahid məcrada birləşməsində kiçik və orta ailə qruplarının aparıcı rolları şübhə doğurmur.

NƏTİCƏ

1. Torpaq örtüyünün əmələgəlmə və formalaşmasının ekoloji şəraitindən bəhs edən 1-ci fəsildə torpaq ekologiyası probleminin elmi-nəzəri əsasları haqqında XVIII əsrin sonu XIX əsrin əvvəli və ortalarında bir sıra görkəmli rus alimlərinin söylədikləri dəyərli fikirlər şərh edilmişdir. Eləcə də XIX əsrin 50-ci illərindən sonrakı dövrdə «torpaq ekologiyası» terminin elmə gətirilməsi və bu sahədə Azərbaycan alimlərinin apardıqları elmi-tədqiqat işlərindən bəhs edilir. Habelə bu fəsildə torpaqəmələgəlmə, formalaşma prosesinə və torpaq ekologiyasına təsir göstərən respublika ərazisinin makroekoloji xüsusiyyətlərinin (relyef, geoloji quruluşu, torpaq əmələgətirən süxurlar, hidroloji, iqlim şəraiti, fitosenotik örtük, antropogen amillər və s.) təhlili geniş yer almışdır.

2. Torpaq örtüyünün strukturunun və tərkibinin bioloji xüsusiyyətlərinə həsr olunmuş II fəsildə kənd təsərrüfatında torpaq strukturunun əhəmiyyəti və onun relyef şəraitindən asılı olaraq müxtəlif forma və kateqoriyalara ayrıldığı göstərilir. Eləcə də torpaq örtüyünün strukturunun coğrafiyası və onların qiymətləndirilməsinə dair xarici və Azərbaycan alimlərinin apardıqları elmi araşdırmalardan bəhs olunmaqla yanaşı, hələ də bu problemin respublikamızda kifayət qədər öyrənilmədiyi vurğulanır.

Respublika ərazisində şaquli istiqamətdə torpaq-bitki örtüyünün düzən, yarımsəhra, bozqır, dağ-meşə (alçaq və orta dağlıq) yüksək dağlıq, subalp və alp və həmçinin nival qurşaqlarda torpaq örtüyünün formalaşıb inkişaf etdiyi də göstərilir.

3. Azərbaycanın vahid torpaq fondu, onun mülkiyyət növləri üzrə bölgü strukturu və mövcud istifadəçilik vəziyyəti fəslində (III fəsil) ümumi torpaq fondunun 55,0%-nin (47576 min ha) kənd təsərrüfatı dövriyyəsinə cəlb olunduğu və qalan 45,0%-in meşə və az yararlı və şərti yararsız torpaq sahələrindən ibarət olduğu göstərilir.

Bu torpaqların mövcud meliorativ durumunun təhlili göstərir ki, hazırda istismar edilən sahələrdə baş verən təbii və antropogen (şorlaşma, şorakətləşmə, eroziya, bataqlaşma, sürüşmə, subasma, texnogen çirklənmə və s.) proseslərin təsirindən 1,8 mln. hektar (38,8%) torpaq sahəsinin təbii münbitliyinin 50-60%-i itirildiyindən orta keyfiyyətli və 0,8 mln. hektarının isə 80-90% təbii münbitliyi itirildiyindən aşağı, az yararlı və şərti yararsız torpaq sahələrinə çevrilmişdir. Hazırda yalnız yararlı torpaq sahələrinin 2,0 mln. hektarı (43,2%) yüksək və yaxşı münbitlik xassələrinə görə birinci aqroistehsal qrupunda yer almışdır.

- Ölkədə 1 mln. 420 min hektar suvarılan sahənin 401,0 min hektarı (28,1%) qrunt sularının dərinliyinə və mineral-laşma dərəcəsinə görə meliorativ durumu **yaxşı**, 707,0 min hektarı (49,0%) **kafi** və 312,0 min hektar isə (21,9%) **qeyri-kafi** qiymətləndirilir:

- Suvarılan torpaqların 662,0 min hektarı (46,6%) müxtəlif dərəcədə şorlaşmış və şorakətləşmiş, xüsusilə orta və şiddətli dərəcədə şorlaşmış sahələrin göstəricisi 274,4 min hektara (41,5%) çatır. Suvarılan ərazilərdə şoralşma prosesinin davamlı olması suvarılan sahələrin 813,7 min hektarında (57,2%) hələ də dren şəbəkəsinin yaradılmamasıdır.

- Kənd təsərrüfatı sahələrinin 734,4 min hektarı (16,9%) müxtəlif dərəcədə eroziyalı sahələrdə yerləşmişdir. Ümumilikdə torpaq örtüyünün 41,2%-i (3,471 min ha) eroziyaya məruz qalmışdır ki, bunun da 64,0%-i orta və şiddətli dərəcədə eroziyalı sahələrdir.

- Ölkədə həyata keçirilən torpaq islahatı ilə vahid torpaq fondunun təqribən 56,9%-i (4,9 mln. ha) dövlət mülkiyyətində saxlanmış, 25,1%-i (2,0 mln. ha) bələdiyyə mülkiyyətinə və 19,6%-i (1,6 mln. ha) xüsusi mülkiyyətə verilmişdir. İslahat nəticəsində 870 minə qədər ailə, yəni təqribən 3 mln. 500 min Azərbaycan vətəndaşı torpaq mülkiyyətçisi oldu.

- Qabaqcıl dünya təcrübəsinə əsaslanaraq ilk dəfə rsepublikada xüsusi torpaq mülkiyyətçi ailələri say tərkibinə görə

qruplaşdırılarkən məlum olmuşdur ki, say tərkibinə görə 5 qrupa bölünən ailələr içərisində kiçik (50,0%) və orta (18,8%) ailələr digər ailə qrupları ilə müqayisədə həm ümumi ailələrin sayına və həm də onların becərdikləri ümumi torpaq sahəsinin (51,5-32,1%) ölçüsünə və həmçinin ailələri təmsil edən subyektlərin ümumi sayına görə üstünlük təşkil edirlər. Böyük və ən böyük ailələrin xüsusi çəkisi müqayisə olunmaz dərəcədə azdır. Tək ailələr ümumi ailələrin sayına (28,7%) görə hətta orta ailələrdən üstünlük təşkil etsələr də belə, onlar torpaq istifadəçiliyində yeni təsərrüfatçılıq formalarının yaradılmasında fəal qüvvə deyildir. Hazırda kiçik və orta ailələr digər ailə qruplarına nisbətən torpaq sahələrindən daha mütəşəkkil qaydada istifadə etmək imkanlarına malikdirlər. Hazırda bu ailələrin dövlət və bələdiyyə mülkiyyətinə məxsus 3,1 mln. hektardan (65,4%) artıq yararlı torpaq sahələrindən istifadə də üstünlük təşkil etmələri də deyilənləri bir daha təsdiq edir.

4. Respublikanın hər bir bölgəsinin və hətta bölgədaxili rayonların torpaq ehtiyatlarından istifadənin sosial-iqtisadi və ekoloji durumunun özünəməxsus səciyyəvi cəhətləri bölgələrin torpaq ehtiyatları və torpaq istifadəçiliyinin vəziyyətindən bəhs edən IV fəsildə aşağıdakı qaydada təhlil olunmuşdur.

I. Abşeron iqtisadi-coğrafi bölgəsi. Regionun 596,4 min hektar ümumi torpaq ehtiyatının (Bakı ş. birlikdə) 192 min (32,2%) hektarı yararlıdır. Az yararlı və şərti yararsız torpaqlar ümumi torpaq ehtiyatlarının 65,9%-n (392,8 min ha) təşkil edir. Meşə fondu torpaqları 11,6 min hektardır (1,9%). İstifadə olunan torpaqların 23,0 min hektarı (12,0%) suvarılır.

Təbii və antropogen proseslər nəticəsində 32,6 min hektar (47,0%) təbii münbitliyinin 50-60%-ni itirildiyindən orta keyfiyyətli qrupa transfer olunmuşdur. Bu dağıdıcı proseslər daha güclü baş verdiyindən 79,1 min hektar sahə (45,0%) aşağı keyfiyyətli və şərti yararsız torpaqlara çevrilmişdir.

Suvarılan torpaqların 2,7 min hektarı (36,5%) qrunt sularının dərinliyinə və minerallaşma dərəcəsinə görə meliorativ

durumu **yaxşı**, 13,5 min hektarı (58,8%) **kafi** və 6,7 min hektarı (29,5%) isə **qeyri-kafi** qiymətləndirilir. Suvarılan sahələrin 16,8 min hektarı (73,0%) müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır. Bunun 27,5%-i orta və şiddətli şorlaşmış sahələrdir. Torpaq ehtiyatlarının 280,5 min hektarı (47,0%) müxtəlif dərəcədə eroziyalı sahələrə çevrilmişdir. Abşeron rayonu və Bakı şəhəri ətraf ərazilərdə neft, məişət tullantıları, çirkab suları, müxtəlif mənşəli radioaktiv və kimyəvi elementlərlə çirkləndirilmiş və texnogen pozulmuş torpaq sahələri (təqribən 50,0 min ha) geniş yayılmışdır.

Regionun torpaq istifadəçiliyinin mövcud durumu torpaqların təbii münbitliyinin bərpası, artırılması və mühafizəsi üçün kompleks tədbirlərin hazırlanması və onun həyata keçirilməsini tələb edir.

Ümumi torpaq fondunun 270,1 min (70,7%) dövlət, 97,0 min hektarı (25,4%) bələdiyyə mülkiyyətinə ayrılmış və 14,7 min hektar torpaq sahəsi 7983 ailə (30858 subyekt) tərəfindən əkib-becərilir. Ümumi torpaq mülkiyyətçi ailələrin 67,0%-ni (4453 ailə) təşkil edən kiçik və orta ailələr özəlləşən torpaqların 81,1%-nə (7,5 min ha) sahiblik etməklə torpaq istifadəçiliyində aparıcı rol oynayırlar. Bu ailələr eyni zamanda bölgədə dövlət və bələdiyyə mülkiyyətinə ayrılmış 162,9 min hektar yararlı torpaq ehtiyatlarının çox fəal istifadəçiləridirlər. Göründüyü kimi, kiçik və orta ailələr tək, böyük və ən böyük ailələrdən fərqli olaraq gələcəkdə inteqrasiya prosesində fəal qüvvə kimi çıxış etməklə sosial-iqtisadi və ekoloji durumun davamlı inkişafını təmin edə biləcəkləri daha ümidvericidir.

II. Gəncə-Qazax iqtisadi-coğrafi bölgəsi. Ümumi torpaq ehtiyatının (1,2287 ha) 776,5 min hektarı (63,2%) yararlıdır. Meşə fondu torpaqları 119,2 min hektarı (19,7%) təşkil edir. İstifadə olunmayan sahələr 332,9 min hektara (27,1%) çatır.

